
GÖYÇƏ
DASTANLARI
VƏ AŞIQ
RƏVAYƏTLƏRİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU
FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

GÖYÇƏ DASTANLARI VƏ AŞIQ RƏVAYƏTLƏRİ

BAKI – 2001

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Az
A-39

Azərbaycan Respublikası MEA
Nizami adına Ədəbiyyat İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların izahların müəllifi f.e.n. HÜSEYN İSMAYILOV

REDAKTORU: Azərbaycan MEA-nın müxbir üzvü YAŞAR QARAYEV

RƏ'YÇİLƏR: f.e.d., prof. QARA NAMAZOV
f.e.d., prof. MÜRSƏL HƏKİMOV
f.e.n. ORUC ƏLİYEV

NƏŞRİNƏ MƏS'UL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

Göyçə dastanları, Bakı, "Səda" nəşriyyatı, 2001.

Kitabda sazımızın-sözümüzün müqəddəs beşiyi, möhtəşəm türk dünyasının ən qədim yaşayış məskənlərindən olan qocaman Göyçə mahalının zəngin folklor irsinin ən maraqlı örnəklərindən biri – bu torpaqda yaranmış, əsrlərin sınaqlarından çıxaraq bu günümüzə qədər gəlib çatmış dastanlar və aşıq rəvayətləri toplanılmışdır.

ISBN-586874-138-2

©"Səda" nəşriyyatı,2001

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

GÖYÇƏ DASTANLARI: TÜRK EPİK SİSTEMİNDƏ DASTAN İNFORMASİYASININ FASİLƏSİZLİYİ

Azərbaycan aşıq ədəbiyyatının janr çevrəsinə daxil olan müstəqil bədii fenomen kimi dastan, terminoloji işarəsindən asılı olmayaraq, əski türk xalq ədəbiyyatına bağlanır və ondan qaynaqlanır. "Dastan" adı altında dayanan ədəbi hadisə faktı əski epik ən'ənənin etnik işarəvi və modelləşdirici sistemini saxlamaqla bu terminlə anlaşılan ədəbi forma və məzmuna – differensial mətn tipinə transformasiya olunmuşdur. Tipoloji ədəbi hadisə kimi "dastan" IX-XI əsrlərdə formalaşmışdır.[1] Bu prosesdə islam mədəniyyətinin tə'siri və bu tə'sirdən deformasiyaya uğrayan əski türk, iran və əcəmləşmiş türk ədəbiyyatlarının iştirakı faktoru şübhəsizdir. İslamiyyətin "IV əsrindən başlayaraq İran dil və ədəbiyyatı islami bir şəkil altında inkişafa və yüksəlməyə başladı. Bu İslami İran ədəbiyyatı fatehlərin ədəbiyyatından tamamilə geniş bir ölçüdə mütəəssir olmuşdu: Dilə yeni dinin gətirdiyi bir çox kəlmələr girdiyi kimi, nəzm şəkli, vəzn, bəlağət qaydaları da geniş bir nisbətdə ərəblərdən alınmışdı. Əski İranın heca vəznindən, əski mənzum şəkillərindən, ədəbiyyat tələkkilərindən həmən heç bir şey qalmamış kimi idi; fəqət çox əski bir mədəniyyətə varis olan əcəmlər, bu müdhiş ərəb nüfuzuna rəğmən, ədəbiyyatlarında öz şəxsiyyətlərini əks etdirdilər; əruz vəznindən yalnız öz zövqlərinə uyğun olanları aldılar, "rübai" şəklini icad və yaxud bəlkə də ehya etdilər (Ağa Ahmed Ali Ahmed, Mecma'u's-Sanayiden naklen, Risaleyi Terane, Kalküttə, 1867 s.2). Ərəb ədəbiyyatının əski və bilinən bir məhsulu saya biləcəyimiz "qəsidə" şəklinə və "qəzəl"ə bir başqalıq verdilər (F.Köprülü. İslam ədəbiyyatında mərsiyə. Yeni məcmuə, c. I., nu 18, 8 kasım, 1917 v.d.)-ci il və bunların hamısının üstündə olaraq əski mifologiyanı canlandıraraq ərəb ədəbiyyatının tamamilə yad olduğu bir "dastan dövrü" açdılar.[2] F.Köprülü türk ədəbiyyatında mətn differensiallaşması və janr

---

1. Məhz "dastan" adlı epik mətn tipi nəzərdə tutulur – H.İ.
2. F.Köprülü. Türk edebiyyatında ilk mütasavviflar. Diyanet işleri başkanlığı yayınları. Ankara, 1991, s. 20-21.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üzvlənməsi proseslərini islamiyyətdən əvvəlki və sonrakı dövrlərə ayırmaqla, kültür sisteminin əvəzlənməsi ilə ədəbiyyatda baş verən kəmiyyət və keyfiyyət dəyişmələrini ümumən doğru aydınlaşdırsa da, İran əcəm kültürünün rolunu xeyli qabartması ciddi arqumentlərə əsaslanmır; həm də İran-türk mədəni mühiti, ümumiyyətlə, diqqətdən kənarda qalır.

Türk eposunun mə'lum mətnləri üzərində ciddi elmi müşahidələr aparan N.Cəfərov belə nəticəyə gəlir ki, "qədim türk dastanları, əsasən, e.ə. I minilliyin ortalarında meydana çıxmışdır. Lakin epos ən'ənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etnik-estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır. Aparıcı ovqat, dünyagörüşü, etnik-ictimai emosiya isə məhz dastanların formalaşdığı dövrə aiddir".[1]

Müəllif onu da əlavə edir ki, "qədim türk dastanları" anlayışı şərtidir, çünki onların həcmi, mənzum, yaxud mənsur formada olması, dil-üslub xüsusiyyətləri barədə konkret mə'lumat yoxdur – mənbələrdə həmin əsərlərin, əsasən, "qısa məzmunu" və ya "süjeti" mühafizə olunmuşdur. Belə məzmun və süjetlərin özü də bir sıra hallarda ya tam deyil, ya da "müasirləşdirilmiş", müəyyən məqamları təhrifə mə'ruz qalmışdır. Çin və İran mənbələrində mühafizə olunmuş qədim türk dastanlarında (əslində, dastan süjetlərində) nəinki bir sıra motivlər, hətta adlar belə dəyişikliyə mə'ruz qalmış, türk adları Çin və İran adları ilə əvəz edilmişdir.[2] Türk eposunun differensiyası kontekstində etnik-mədəni çevrələri IX-XI əsrlər dövrü üçün Sibir, Türküstan (yaxud Mərkəzi Asiya), Ural-Volqaboyu, Şərqi Avropa, Qafqaz – Kiçik Asiya olmaqla lokallaşdıran N.Cəfərov "Qədim türk eposu ilə təxminən eyni dövrdə təşəkkül tapan və türkçülük təfəkkürünün ideya-estetik əsasını təşkil edən tanrıçılığı mükəmməl ideoloji mə'nəvi sistem kimi dəyərləndirir və türk mədəniyyətinin (o cümlədən ədəbiyyatının) həmin sistemdən kənarda izah etməyin mümkün olmadığını (kursiv mənimdir – H.İ.)" da qeyd edir".[3]

---

1. N.Cəfərov. Eposdan kitaba. B., 1999. s.16.
2. N.Cəfərov. Göstərilən əsəri. s.16.
3. Yenə orada. s.13.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

XI-XII yüzillərdə Türküstanın Türklərlə məskun bölgələrində İslam kültürünün və İran ədəbiyyatının güclü tə'siri altında qalan bir türk ədəbiyyatı, Qaraxanlı Türklərinin ədəbiyyatı meydana gəldikdən sonra İranın bə'zi bölgələrində də bir türk ədəbiyyatı, oğuzların ədəbiyyatı inkişafa başladı. Tamamən fərqli coğrafi və etnik şəraitinə görə bu iki bölgədə sözügedən ədəbiyyatların inkişafı təbiətilə fərqli şəkillərdə olmuşdur.[1]

Türk yazılı ədəbiyyatının inkişafında iki iri kültür çevrəsi – Şərq və Qərb təkcə tarixi-filoloji araşdırmaların aşkarlamasına görə yox, həm də ədəbi ən'ənənin güclülüyü, ədəbi mətn faktının geniş şəbəkəsi və şifahi ən'ənədə fasiləsizliyi ilə seçilir; tədqiqatçıların gəldiyi ümumi mülahizəyə görə birinci Türk-Çin, ikinci isə Türk-İran etnik-mədəni əlaqələri ilə şərtlənir. "Türklərin İslamiyyətdən öncə vücuda gətirdikləri ədəbiyyat – Çin, Hind, İran tə'siriylə vücuda gətirilən bə'zi əhəmiyyətsiz tərcümələr müstəsna olmaq üzrə – sazla söylənən xalq şe'rlərindən ibarətdir".[2]

F.Köprülünün islamiyyətdən öncə xalq şe'rinin söylənməsini müşayiət edən "saz"ın mövcudluğu haqqında bilginin hansı mənbəyə əsaslandığı aydın deyil. Mövcud araşdırmalar və tarixi mə'lumatlar çağdaş mükəmməllikdə olan sazı XVI əsrdən o yana keçirmir*. Türklərin İslamdan öncəki "dövrə aid bütün sosial müəssisələrində, dildə, dində, əxlaq və adətlərdə, hüquqda tamamilə qövmün ruhunu və şəxsiyyətini göstərən ibtidai bir "əsliyyət" vardı. Çin, Hind, İran mədəniyyətləri bə'zi sahələrdəki Türklər arasında nüfuz etməyə başlamış olmaqla bərabər, bu hallar çox "az" və səthi qalmış, mərkəzdən mühitə – yə'ni fərdlərdən xalq kütləsinə keçmədiyi üçün cəmiyyət üzərində həqiqi bir tə'sir göstərməmişdir. Belə ki, o dövrlərdə Türk ədəbiyyatını təşkil edən əsərlər də cəmiyyətin başqa ünsürlərinə uyğun olaraq, yad tə'sirlərdən uzaq olmuş, qövmün bütün xüsu-

---

1. A.Caferoğlu. Azərbaycan edebiyatı. S. 140-217, Türk dünyası edebiyatı I, Türk dünyası araştırmaları vakfı, 1991, s. 140.

2. F.Köprülü. Göstərilən əsəri. s.11.

* Bu mülahizə "saz" adlı musiqi alətinin əskidən mövcudluğu faktının təkzibi kimi anlaşılmamalıdır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

siyyətlərini səmimiyyətlə əks etdirmişdir. Xaqandan ən əhəmiyyətsiz nəfərə qədər bütün fərdlər o şe'rlərdə özlərini duyurdular. Bu dövrdəki şairlər hamısı bir-birinə bənzəyən əlləri qopuzlu (seçmə mənimdir – H.İ.) bəsit adamlardı. Oba-oba dolaşaraq ümumi, yaxud xüsusi toplanışlarda əski qəhrəmanların mənqəbələrini tərənnüm edər, milli dastanlar söylər və ya yeni hadisələr haqqında yeni türkilər bağlardılar. Bunların eyni zamanda qopuzlarıyla sehirbazlıq, falçılıq etdikləri də olurdu, "sığır" deyilən milli ov ayinlərində, "şölən"-yə'ni ümumi ziyafətlərdə, "yuğ"-yə'ni matəm mərasimində şairlər mütləq iştirak edirdilər.[1] Qeyd olunduğu kimi, məhz həmin əski ədəbiyyatı "əlləri qopuzlu adamlar" yaratdığından, onlara "saz şairləri" yox "qopuz şairləri" deyilməlidir. Bu termin fərqi deyildir, öncə qeyd etdiyimiz kimi, etnik-mədəni və ədəbi-bədii fəaliyyət sistemlərində baş verən differensial tipoloji hadisənin informasiya işarəsidir.

Beləliklə, əski xalq şe'ri üstündə yaranan ədəbiyyat tarixi-xronoloji ardıcıllıq və mədəni-genetik əlaqəni itirmədən iki xüsusi tip təşkil edir:

1. Qopuz şairləri

2. Saz şairləri

Birincilərin daşıyıcı subyekti "ozanlar", ikincilərinki isə "aşıqlar" idi. Birincilər, əgər qopuzun yaranma tarixi ilə hesablasaq, "e.ə. V- III minillikdən"[2] b. e.-nin XV əsrinədək zamanla bağlı müxtəlif mükəmməllik səviyyələrində fəaliyyət göstəriblər. İkincilər birincilərin tamamilə təkrarı deyildilər, amma onların bə'zi keyfiyyətlərini və funksiyalarını yeni sosial-mədəni və ictimai-siyasi şəraitdə davam etdirirdilər. Birincilər Tanrıçılığın tərənnümçüsü, ikincilər isə İslamın (sufi çevrəsində olsa da) təbliğatçısı idi. Ozanın "boyladığı" (yaratdığı) "boy"la (dastanla) aşığın söylədiyi "dastan"ın fərqi "İslam redaksiyası"nda gəlib çatsa da, KDQ mətni ilə "məhəbbət dastanları"nın müqayisəsində aydın şəkildə müşahidə olunur.

---

1. F. Köprülü. Göstərilən əsəri. S 11

2. Р. Загретдинов. Кубыз. Школа игры на Кубызе. Уфа. Белая река, 1997. С. 17.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Boy" və "dastan"ın fərqli və oxşar elementləri çox məhdud kəmiyyətdə deyildir. Əski türk dastanı olan "boy" başdan-başa şe'rlə söylənmişdir, "yelətmə" qopuz musiqisi ilə müşayiət olunmuşdur. "Bütün bu şe'rlər türkcənin təbii vəzni olan "heca vəzni" ilə söylənirdi. Türkcənin bəlli və eyni cins hecalarının bəlli vurğulu saylarla ayrılmasından vücuda gələn bu vəznin çeşidli növləri vardı. Bunlar arasında ən az saylı, yə'ni bəsit olanlar ən əskiləri idi. Bu dövrdə müxtəlif mövzulara aid şe'rlərdən hamısının bəlli bir şəkli vardı. Türk şe'rinin bu ilk şəkil-lərində başlıca iki cəhət gözə çarpır: Birincisi şəkillərin azlığı və qısalığıdır ki, ilk dövrlərdə ədəbi şəxsiyyətlərin sərbəstcə gəlişməsi mümkün olmamasından və hər şairin mövcud şəkillərə adətən dindaranə riayətə məcbur olmasından irəli gəlirdi. İkincisi, əksərən dörd misradan meydana gələn bəndlərdə ilk üç misranın yalnız bir-biri ilə və dördüncü misranın bütün bəndlərdə qafiyəli olmasındadır ki, bu da, o cins şe'rlərin tərənnüm olunmaq üçün bir türkü "nəqarət – bağlama"sı təşkil etdiyi cəhətlə təbii daima eyni qafiyəni mühafizə etdiyini göstərir. Musiqi ilə şe'rin hələ ayrılmadığı bu ilk dövr əsərlərində, qafiyə qaydaları da çox bəsit və ibtidai idi. O qədər ki, onlara bu günkü mə'nada qafiyə adını verməkdənsə yarımqafiyə (assonans) demək daha doğrudur. Onlarda misraların son hecaları arasında uzaq bir bənzərlik qafiyənin varlığı üçün kifayət edirdi və şe'rin büsbütün asan tə'mini üçün bu əksəriyyət e'tibarilə fe'llərin təsriflənən formalarından yaradılırdı. Xülasə, məhdud, bəsit, ibtidai olmaqla bərabər bu ilk dövrdəki ədəbi məhsullar bütün bir qövmün ruhundan qopur, onun kədərlərini, nəş'ələrini tərənnüm edirdi".[1]

Əski poetik sistem "dillə birgə yaranmışdır",[2] *əski çağın poeziyası "dilin poeziyasına" bərabər olmuşdur. K.V.Nərimanoğluna görə, poetik sintaktik konstruksiyaların yaranmasında "təkrarların rolu aparıcıdır. Səslərin, sözlərin qrammatik forma və konstruksiyaların təkrarı ritm yaradır və həmin ritm ifadə vasitələri arsenalında özünəməxsus qanunauyğunluqlarla çıxış*

---

1. F.Köprülü. Göstərilən əsəri. s. 12.
2. Ə.Abid. Heca vəzninin tarixi. "Maarif işçisi" jurnalı. 1927, №4, s.7.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edir".[1]

Müəllif yazır ki, "DQ"-də ritm yaradan vasitələr dilin yarusları üzrədir; fonetik, leksik, morfoloji sintaktik. Və hər bir yarusun elementləri o biri yarusların vahidləri ilə dialektik əlaqədədir".[2] Türk ədəbi mətnləri və dil materialı üzərində dil stixiyasından və linqvistik poetika nəzəriyyəsindən çıxış etməklə apardığı son dərəcə ciddi və dəqiq elmi müşahidə və təhlillərin nəticəsi olaraq, K.V. Nərimanoğlu əski ədəbiyyatın linqvopoetik əsaslarını aşkarlayır: "Dil ilə bədii təfəkkürün qırılmaz bağlılığı mədəniyyət tarixinin ilkin dövrlərinə nəzər saldıqda daha aydın görünür. Bu dövrdə ibtidai insan öz mə'nəvi dünyasını, hiss və həyəcanlarını ifadə etmək üçün aktiv şəkildə öz dilini zənginləşdirməli, yeni ifadə vasitələri, konstruksiyalar yaratmalı idi. Söz sənətinin bizə bəlli olan ən qədim örnəkləri-alqışlar, dualar, dastanlar və b. tarixin ilkin çağlarında dil yaradıcılığının nə qədər intensiv və mürəkkəb bir proses olduğunu aydın göstərməkdədir. Öz spesifik qanunları olan söz sənəti dili özünəməxsus şəkildə dəyişir, onun müxtəlif vahidlərinin yeni çalarlar qazanmasına, yeni əlaqələrə girməsinə səbəb olur. Bir sözlə, adi danışıq dilindən tam bir sıra cizgiləri ilə seçilən bədii dil yaranır. Bu dil artıq özünün ilkin formalarında kifayət qədər inkişaf etmiş mürəkkəb bir sistemdir".[3]

Əski türk dastan tipi kimi "boy"un KDQ mətni islam kültürü və Şərq poetik sistemi layları altında olsa da, poetik strukturu K.V.Nərimanoğlunun aşkarladığı kimi ritm və intonasiyanın aparıcı rolunu təsdiqləyir. Ritm və intonasiya poetik informasiyanın daşıyıcısı kimi əski türk xalq şe'rində xüsusi mövqeyi ilə seçilir. Bu kontekstdə iki türk dastan tipi – "boy" və "dastan" arasındakı fərq, tarixi-poetik təkamül kimi aydın şəkildə müşahidə olunur.

Eposun tarixi-mədəni differensasiyası kontekstində türk epos təfəkkürünün inkişaf meyllərini araşdıran N.Cəfərov yazır: "Epos" sadəcə dastan deyil, müxtəlif süjetlər, motivlər verən,

---

1. K.Vəliyev. Azərbaycan dilinin poetik sintaksisi. B., ADU, 1981, s.16.
2. K.Vəliyev. Göstərilən əsəri. s.16.
3. K.Vəliyev. Linqvistik poetikaya giriş. B., ADU, 1989, s.7.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möhtəşəm dastan potensiyasıdır. Onu tam halında bərpa etmək mümkün deyil, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnoloji, linqvistik və s. komponentlərin üzvi vəhdətindən ibarətdir".[1]

Dastanın eposla identik vahid olmadığı aydındır. Eyni zamanda dastan epik sistemdə avtonom hüquqlara da malikdir. Əslində dastanın mətn avtonomiyası vardır. Xalq yaradıcılığı örnəklərinin digər elementləri onun strukturunda yalnız kanonik qəliblərə dola və ya hansısa vahidi əvəzləyə bilirlər. Amma dastanın strukturu dəyişmir; çünki o sabit informasiya daşıyıcısı kimi bir işarə bütövüdür və mətn strukturunun sabitliyi həm də bununla bağlıdır. Təbii ki, şüur - gerçəklik münasibətləri səviyyəsində janr kanonikliyi qətiyyən istisna olunmur.

Türk epik sistemində istər "boy", istərsə də "dastan" türk şüurunun varlığa münasibətinin, poetik dunyaduyum və dünyadərkinin, özünün və dünyanın dildə, fikirdə və sənətdə modelləşdirilmiş, türk kodu ilə şifrələnmiş və yalnız bu kodla anlaşılan, obrazlı motivlənmiş işarələr sistemidir.

Türk folklor ən'ənəsinin "təbii ədəbiyyat"dan "sün'i ədəbiyyat"a[2], kollektiv sənətdən fərdi və qrup sənətinə üzvlənməsi ilə artıq "sün'i sənət" səviyyəsində şifahi və yazılı ədəbiyyatın öz spesifik inkişaf qanunauyğunluqları zəminində iki bir-birindən təmamilə izolə edilməmiş müstəsna qolunun formalaşması prosesi başlanır. Xalq ədəbi yaradıcılığının üzvlənməsi prosesində üçüncü bir qol da mövcuddur; bu aşıq ədəbiyyatıdır. Həmin üzvlənmə prosesinin diaxron sxemi aşağıdakı şəkildədir:

1. Şifahi xalq ədəbiyyatı (folklor)

2. Aşıq ədəbiyyatı

3. Yazılı ədəbiyyat

Məsələ burasındadır ki, bunların heç biri öz funksionallığını itirməyib, hər üç istiqamət öz çevrəsi daxilində yaşam hüququ-

---

1. N.Cəfərov. Eposdan kitaba. B., Maarif. 1999. S. 12.

2. А.Бомбачи. Тюркские литературы, введение в историю и стиль. С. 191-293. Зарубежная тюркология, М., Наука, 1986. С.191.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nu saxlayıb. Folklor əsasına yaxınlığına görə aşıq ədəbiyyatı 1-ci ilə 3-cünün arasında yerləşir. Ümumtürk ədəbiyyatı kontekstində qeyd ounan 3 qol "Oğuz-türkman ədəbiyyatı" tipini müəyyənləşdirən Oğuz-Türk ədəbi sisteminin iri struktur vahidlərini təşkil edir.

1. Folklorun bədii yaradıcılıq istiqaməti ən'ənəvilik, şifahilik, kollektivlik kimi dominant atributiv keyfiyyətlərlə səciyyələnir; folklor mətninin dil kollektivində ya ümumilikdə, ya da ən azı regional kontekstdə toplum üçün anlaşıla bilən semantik kodu və şifrəsinin mövcudluğu folklor faktının mövcudluğunu təsdiqləyən zəruri hadisədir. Konservativ folklor mühitlərində regional spesifikadan başqa, həm də əski ən'ənə yaxşı qorunur, arxaik elementlərin iştirakı intensiv xarakter daşıyır.

2. Aşıq yaradıcılığı bir tərəfdən və əsasən folklordan qaynaqlanır; onun kanonik mətn tiplərindən istifadə edir. Digər tərəfdən isə o yazılı ədəbiyyatla qismən təmasda olur. Aşıq yaradıcı şəxsiyyətdir, şairdir və öz intellektual mülkiyyətinin sahibidir. Bu mə'nada aşıq ədəbiyyatı tam folklor hadisəsi deyildir. Sadəcə olaraq, aşıq yaradıcılığı folklor çevrəsində fəaliyyət göstərir; aşıq poeziyası əsasən,xalq şe'ri üslubunda yaradılır.

3. Yazılı ədəbiyyatın mətn arsenalı mə'lum olduğundan o daha çox öyrənilmişdir. Bizim araşdırma kontekstində yazılı ədəbiyyata müraciət olunması milli ədəbi sistemin struktur elementlərini bir bütöv halında təsəvvürdə canlandırmaq üçündür. Yazılı ədəbiyyat həm milli, həm də qeyri milli ədəbi sistemlərlə əlaqədə olur və inteqrasiya prosesində iştirak edir. Aşıq yazılı ədəbiyyatın öz kanonlarına uyğun gələ bilən bə'zi elementlərindən faydalanır.

Azərbaycan aşıq ədəbiyyatının dastan janrı zəngin və mühafizəkar folklor mühiti olan Göyçə mahalında və bu mahalda və mühitdə yetişən aşıqların yaradıcılıq irsində xüsusi mövqeyi ilə seçilir. Göyçə dastanları göyçəli saz-söz ustalarının yaratdığı dastan yaradıcılığını bildirir və ona bərabər anlamda işlədilmişdir; bu da öz növbəsində Azərbaycan dastanlarının ümumi fonduna daxil olan milli epik informasiyanın regional mətn variantlarıdır.

Dastanların görkəmli tədqiqatçısı prof. M.H.Təhmasib aşıq

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaradıcılığının Göyçədəki mövqeyinə yüksək qiymət vermişdir: "Özünəməxsus təbii gözəlliklərə malik olan Göyçə əsrlərdən bəri sazın və onun köməyi ilə yaradılan, müşayiəti ilə ifa edilib yaşadılan sözün ən isti, ən mehriban ana qucaqlarından biri olmuş, indi də belədir, şübhəsiz ki, gələcəkdə də uzun müddət belə olacaqdır. Mübaliğəsiz demək olar ki, bu mahalda saz çalmağı, söz deməyi heç bacarmayan adama ancaq nadir hallarda təsadüf olunur. Əksəriyyəti aşıqlıq ən'ənələrinin ən incə sirlərinə vaqif olanlar təşkil edirlər. Bu sənətin bu yerlərdə belə dərin kök atıb, belə geniş yayılması, hətta sözün dəqiq və tam mə'nasında məişətə daxil olması mahalın təbii şəraiti, coğrafi mövqeyi və yadagəlməz uzaq keçmişlərdən bəri burada yaşayan qəbilələrin, tayfaların yaradıcılıq ən'ənələri ilə bağlıdır. Təsadüfi deyildir ki, xüsusilə "Dədə Qorqud Kitabı"nda, başqa şəkildə deyilsə, bu günkü aşığın qədim əcdadı hesab edilən Ozan yaradıcılığı nümunələrində işlənən bir sıra arxaikləşmiş sözlər, ifadələr burada indi də yaşamaqdadır. Belələrinə misal olaraq heç olmazsa, qarğı, mizraq, şülən, hoşal, say, yalavımaq, bəhri, orğan, bayğu (seçmə mənimdir – H.İ.) və onlarca başqalarını göstərmək olar. XIX əsrin sonları XX əsrin əvvəllərində qoşulmuş şe'rlərdə bu qədər arxaikləşmiş sözlərin və qədim qəbilə-tayfa inamları ilə bağlı əlamətlərin mövcudiyyəti bu yerlərdə aşıq sənətinin nə qədər uzaq keçmişə malik olduğunu əsaslandıran dəlillərdən biridir".[1]

Görkəmli tədqiqatçının sözlərinə söykənərək onu da deyə bilərik ki, Göyçədə dastan yaradıcılığı bu regionun coğrafi, təbii şəraiti ilə, ən başlıcası isə uzaq keçmişdən bəri bu ulu diyarda yaşamış, tarixdə öz sözünü demiş tayfaların, qəbilələrin yaradıcılıq ən'ənələri ilə möhkəm şəkildə bağlı olmuşdur. Onu da göstərmək lazımdır ki, aşıq sənətinin müxtəlif mühitləri, regionları bir-birindən təcrid olunmuş şəkildə yaranıb, inkişaf etməmişdir, bir-biri ilə ayrılmaz bağlılıqda olmuşdur. Ona görə də bu bölgüləri şərti, formal saymalıyıq. Eyni fikri dastan yaradıcılığı ilə bağlı da söyləmək olar. Ancaq bunlarla yanaşı, onu da

---

1. Təhmasib M.H. Gözəllik nəğməkarı. "Azərbaycan" jur. 1971. №10, səh.176.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qeyd etmək lazımdır ki, aşıq yaradıcılığının ayrı-ayrı mühitlərində ümumi cəhətlərlə yanaşı, regionla bağlı ən'ənələr də özünü göstərir. Daha doğrusu, hər bir aşığın özünün repertuarı olduğu kimi, hər bir regiona məxsus müəyyən yaradıcılıq ən'ənələri, aşıq repertuarı da olmuşdur, bu da ona digər mühitlərdən seçilməyə əsas verir. Bu mə'nada Göyçə dastan yaradıcılığı öz ən'ənələri ilə seçilən, xüsusi yeri olan mühitlərdən biridir. Burada Azərbaycanın digər bölgələrində də sevilən, yeri olan dastanlar da mühüm yer tutmuş, variantlaşmış, ayrı-ayrı ustad aşıqların repertuarında yaşamışdır. Bununla yanaşı, Göyçə mahalında sırf bu mühitlə, bu mühitin yetişdirib boya-başa çatdırdığı sənətkarların həyatı, sənəti, dövrü ilə bağlı dastanlar da yaranmış, formalaşmış və bunlar Göyçə aşıqlarının repertuarında xususi yer tutmuşdur. Biz tədqiqat prosesində daha çox ikinci yaradıcılıq ən'ənəsi üzərində dayanıb bu regionun aşıq dastan yaradıcılığının səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməyə çalışacağıq.

Bu ulu diyarın yaradıcılıq ən'ənələri və aşıq sənəti üzrə geniş tədqiqatlar aparan prof. Qara Namazov qərb aşıq mühitlərinin özünəməxsus xarakterini belə səciyyələndirmişdir: "Göyçə, Borçalı, Tovuz, Şəmkir, Qazax, Gədəbəy və Kəlbəcər mahalları saray tə'sirindən uzaq olmuş, bu oğuz elatı yayı yaylaqda, qışı aranda keçirmiş, aşıq da bu elatın arasında onun mə'nəvi zövqünü oxşamış, adət-ən'ənəsini, yurdsevərliyini, qəhrəmanlığını, sevgisini və ümumən tarixini bədii şəkildə yaşada bilmişdir".

Müəllif "Göyçə diyarında böyük bir aşıq nəsli, aşıq məktəbi şöhrətləndiyini" qeyd edir.[1]

Mə'lum olduğu kimi, "dastan" sözü hadisə, əhvalat,təsvir, tə'rif, tərcümeyi-hal, bə'zən də tarix kimi mə'nalarda işlənmiş, sonralar isə hekayətnamələr adlandırılmışdır. "Dədə Qorqud kitabı"nda bu, mə'lum olduğu kimi "boy" adlanır. Aşıqlar, onların dinləyiciləri isə buna "nağıl" adı vermişlər. Aşıq üçün dastan yaradıcılığı xüsusi əhəmiyyəti olan bir ədəbi hadisədir. Xalq içərisində aşığın necə sənətkar olmasını qiymətləndirməkdə onun "dastan ehtiyatının" xüsusi rolu olmuşdur.

---

1. Q.Namazov. Azərbaycan aşıq sənəti. B., Yazıçı, 1984, s.5.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Ümumiyyətlə, aşıq sənətinin, əgər belə demək mümkündürsə, özünə görə "anketi" vardır. Bu "anket" aşağıdakı suallardan ibarətdir:

a) Ustadın kimdir?

b) Hansı dastanları bilirsən?

v) Hansı aşıq havacatını bilirsən?

q) Neçə qatar şe'r bilirsən?

d) Neçə şagird yetirmisən?

Bu suallara alınan cavablar aşığın bir sənətkar kimi dəyərini, qiymətini üzə çıxarır.

Hər bir ustad aşıq öz yetişdirdiyi şagirdin bütün nöqsanlarına, qüsurlarına da cavabdehdir. Ustad öz şagirdinin əxlaqına, hətta özünü el içərisində necə aparmağına da məs'uldur. Ələsgər aşıqlıq sənətinin vacib şərtlərini belə izah etmişdir:

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pür kəmalı gərəkdir.
Oturub-durmaqda ədəbin bilə
Mə'rifət elmində dolu gərəkdir...

Lakin aşıqlar içərisində bu qanun-qaydaya əməl etməyənlər, onu pozanlar da az olmamışdır. Bir sıra görkəmli aşıqlar isə hələ kamilləşməmiş ustadına kəm baxan, onu saymayıb sərbəst aşıqlığa başlayanların başlarına gələn fəlakəti təsvir edən xüsusi dastanlar yaratmışlar".[1]

Buradan da göründüyü kimi, dastan bilmək, dastanı ifa etmək aşığın necə bir sənətkar olduğunu qiymətləndirməkdə, üzə çıxarmaqda əvəzsiz bir me'yar olmuşdur. Aşıqların bir çoxu yeni-yeni dastanlar düzüb-qoşmuş, bununla yanaşı yaradıcılıq prosesində ən'ənəvi dastanların da müxtəlif variantlarını yaratmışlar. "Abbas-Gülgəz", "Aşıq Qərib", "Qurbani", "Əsli-Kərəm", "Şah İsmayıl", "Mə'sum-Diləfruz", "Mügim şah", "Aslan şah", "Seyidi-Pəri" kimi dastanların Göyçə variantları yaranmışdır. Bundan başqa, Göyçədə böyüyüb yüksəlmiş Miskin

---

1. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, səh.53-54.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdal, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa kimi ustad aşıqların həyatı, yaradıcılığı barədə dastanlar da yaranmışdır. Biz bu tipli nümunələr üzərində dayanırıq.

Belə dastanlardan biri "Miskin Abdal və Sənubər" dastanıdır.[1] Dastanın qısa məzmunu belədir:

"Zərgərli Məhəmməd kişinin var-dövləti başından aşır. O, ədalətli, elin xeyir-şərinə yarayan bir adam kimi şöhrət qazanmışdır. Məhəmməd kişi övladı olmadığı üçün dərd çəkir. Məhəmməd kişi də, arvadı Növrəstə xanım da ümidlərini Allaha bağlayırlar. Bir gün səhər tezdən bir dərviş onlara qonaq gəlir. Məhəmməd kişiyə bir alma verib deyir ki, bu almanı böl, yarısını özün ye, yarısını arvadın yesin. Doqquz aydan sonra bir oğlunuz olacaq, adını Hüseyn qoyarsınız. Bunu deyib dərviş qeyb olur. Məhəmməd kişi dərvişin dediyi kimi edir. Doqquz ayın tamamında Növrəstənin bir oğlu olur. Məhəmməd kişi qurbanlar kəsir, nəzir paylayır. Uşağın adını dərvişin sözünə əməl edərək Hüseyn qoydular. İllər keçir, Hüseyn böyüyür. Atası onu özü ilə səfərə aparır. Günlərin bir günü onlar yenə səfərə hazırlaşarkən, səhər Hüseyn yuxudan oyanmaq bilmir. Dünyagörmüş bir qoca deyir ki, ona yuxusunda buta verilir. Yuxuda ona Təbrizli Sövdəgər Mahmudun qızı Sənubər buta verilir. Hüseyn yuxudan ayılır, əvvəl dinib danışmır, sonra sazını əlinə alıb ona buta verildiyini, butasının dalınca gedəcəyini bildirir. Anası Növrəstə xanım onu yolundan saxlamaq istəyir, ancaq Miskin Abdal sözündən dönmür. Başa düşürlər ki, onu saxlamaq mümkün deyil. Uzun Qasımı da ona qoşub yola salırlar. Miskin Abdalla Qasım gəlib iki yol ayrıcına çatırlar: biri piyada, o biri gəmi yolu. Onlar gəmi yolunu seçirlər. Gəmidən düşüb bir kəndə yetişirlər. Meydanəli adlı bir kişinin evində qonaq qalıb təzədən yola başlayırlar. Dərələyəz ellərindən keçəndə çəmənlikdə bir qıza rast olurlar. Cəvahir adlı gözəl bir qız onlara tə'rif´deməsini xahiş edir. Miskin Abdal onların arzusunu yerinə

---

1. Azərbaycan folkloru antologiyası. III kitab. Göyçə folkloru (top., tərt. edəni və ön sözün müəllifi Hüseyn İsmayılov), Bakı, "Səda" nəşriyyatı, 2000, səh.389-441; "Göyçə dastanları"ndan gətirilən bədii örnəklər göstərilən mənbədəndir. Bundan sonra yalnız səhifə göstəriləcək – H.İ.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yetirir. Qızlarla sağollaşıb Naxçıvana tərəf üz tuturlar. Ağrıdağına çatanda Miskin Abdal dağa bir tə'rif deyir.

Naxçıvana çatanda mə'lum olur ki, adı, səxavəti dillərdə dastan olan İsgəndər bəy oğluna toy eləyir. İsgəndər bəy qırx günlük toya bir neçə aşıq çağırıbmış. Miskin Abdalı da toya çağırır, onu hörmətlə qarşılayıb, sonra da yola salır. Gedəndə onlara at bağışlamaq istəyir, ancaq Miskin Abdal piyada getməyi niyyət etdiyini bildirir.

Miskin Abdala buta veriləndə Sənubər xanıma da buta verilibmiş. O, bunu Gülçöhrə adlı xidmətçisindən başqa heç kimə söyləmir. Atası isə Sənubər xanımı Bəzirgan Qeysərin oğlu Cümşüdə vermək istəyir. İlan Mahmud deyir ki, İsfahana sövdəgərliyə gedirəm, qayıdan kimi hər şeyi qurtararıq.

Sənubər xanım isə butası Hüseyni səbirsizliklə gözləyir. Təbrizdə Gülçöhrə Miskin Abdalla Qasımı evlərinə qonaq aparır. Onlara bir qarının evində qalmağa yer tapır.

Sənubər xanım Miskin Abdalla Qasımı evlərinə çağırır. Sənubərin anası Səlbinaz xanım əhvalatdan xəbər tutur. Miskin Abdalı sınağa çəkir, onun ağıllı, cəsarətli bir oğlan olduğunu görür. Deyir ki, ümidinizi haqqa bağlayın, Mahmud çətin adamdır, çətin ki, razı ola. Ancaq Tanrı nə yazıbsa, o da olacaq. Miskin Abdal, Qasım, Gülçöhrə hər gecə Sənubər xanımın otağına gəlir, yeyib-içir, çalıb-oxuyur, səhərə yaxın evlərinə qayıdırlar. Miskin Abdalla Sənubərin məhəbbəti dillərə düşür. Bəzirgan Qeysərin oğlu Cümşüd də bundan xəbər tutur. O, bir gecə Sənubər xanımın yanına getmək istəyəndə Miskin Abdalın qızın yanında olduğunu görür. Nərdivandan yıxılır, xonçası dağılır. Sonra qaçıb gedir. Sənubər xanım onu tanıyır. Miskin Abdala bir müddət gözə görünməməyi tapşırır. Cümşüd isə əhvalatı atasına bildirir. O da Sövdəgər Mahmud qayıdan kimi əhvalatı ona danışır. Mahmud Miskin Abdalı çağırıb fikrindən dönməsini tələb edir, ancaq onu fikrindən döndərə bilmir. Onu Qasımla birlikdə zindana saldırır. Sənubər xanım bundan xəbər tutub dərdə düşür, anası ona səbrli olmağı tövsiyə edir. Bəzirgan Qeysər də toya hazırlaşır. Toya bir neçə gün qalmış İlan Mahmud yuxu görür: bir dərviş ona deyir ki, Miskin Abdalı da, Qasımı da dustaqlıqdan azad elə, yoxsa gözlərini oyaram. İlan Mahmud

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəm dəryasına batır, ancaq dustaqları azad eləmir. İkinci, üçüncü gecə yuxusu təkrar olunur. Yuxudan hövlnak oyanır. Gözlərinin altında və boğazında barmaq izləri görür. Qorxuya düşən İlan Mahmud pəhləvanlarına Miskin Abdalla Uzun Qasımı meşəyə aparıb öldürmələrini və qanlı köynəklərini gətirmələrini tapşırır. Pəhləvanların ürəyinə rəhm gəlir. Deyirlər ki, bu qanı Allah bizə bağışlamaz. Cəlladlar onların alt köynəyini dovşan qanına bulayıb İlan Mahmuda aparırlar, onlara da deyirlər ki, buradan çıxıb gedin. Miskin Abdalla Qasım Qaçaq Mehdinin yanına yola düşürlər. Qaçaq Mehdi əhvalatdan xəbər tutub onlara təskinlik verir, toyun qırxıncı günü kəcavə bəzənir, Sənubər xanımı kəcavəyə mindirirlər. Bu vaxt əli qılınclı oğlanlar toyu dövrəyə alırlar. Bir nəfər deyir ki, bəy hardadır, onunla güləşmək istəyən var. Qaçaq Mehdi şərt kəsir ki, kim kimə qalib gəlsə, Sənubər xanım onun olmalıdır. Cümşüd əlacsız qalıb ortaya çıxır, Miskin Abdal onu yıxır, Cümşüd qaçıb gedir. Mahmud ortaya çıxıb mane olmaq istəyəndə Qaçaq Mehdi Mahmudu öldürür. Qaçaq Mehdi onları öz obasına aparıb,yeddi gün, yeddi gecə toy edir. toydan sonra Qaçaq Mehdinin adamları onları Naxçıvana qədər ötürüb qayıdırlar. İsgəndər bəy də burada toya başlayır. Dərələyəzə çatanda soraqlaşıb Cəvahiri tapırlar. Onunla nişanlısı Lətifin toyu ötən payızda olubmuş. Burada da şadlıq məclisi keçirirlər. Dərəçiçəkdə Meydanəli kişinin evində qonaq olurlar. Atasına xəbər göndərirlər. Məhəmməd kişi gəlib çıxır. Axır ki, gedib Zərgərliyə çatırlar. Şadlıq, toy təzədən başlayır, qırx gün, qırx gecə toy olur. Miskin Abdalla Sənubər xanımın Qasım ilə Gülçöhrənin kəbini kəsilir. Gülçöhrənin qardaşı Mədətlə Naxçıvanlı İsgəndər bəyin qızı Yasəmənin isə kəbini Təbrizə niyyət olunur. Toyun axırıncı günü aşıq sədəfli sazını sinəsinə basıb duvaqqapma ilə toya öz xeyirduasını verir".

Bu dastan Miskin Abdalın şe'rləri əsasında sonrakı aşıqlar tərəfindən yaradılmışdır. Mə'lum olduğu kimi dastan yaradıcılığında bir neçə yol olmuşdur. Bu məsələ ilə bağlı bir çox tədqiqatçılar maraqlı mülahizələr söyləmişlər. Belə mülahizələrdən biri prof. F.Qasımzadənindir. Onun fikrincə, dastanların bir qismi ustad aşıqların qoşquları əsasında sonrakı aşıqlar

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tərəfindən yaradılır: "Beləliklə, dastanda iki üslub yaşayırdı. Dastanın "yurd" adlanan nağıl hissəsi dastanın müəllifinə, şe'r hissəsi ustad xalq aşığına aid olurdu".[1]

Prof. M.Seyidov da "Abbas-Gülgəz", "Xəstə Qasım" dastanlarının Tufarqanlı Abbasın və Xəstə Qasımın şe'rlərindən istifadə ilə sonrakı aşıqlar tərəfindən yaradılmış olduğu fikrini irəli sürür.[2]

Dastan yaradıcılığının müxtəlif yolları barədə akademik H.Araslı, M.İbrahimov və başqaları da müxtəlif fikirlər söyləmişlər. Bu barədəki mülahizələri ümumiləşdirən prof. M.H. Təhmasib o qənaətə gəlir ki, dastanların ustad aşıqların şe'rləri əsasında ad-sanı mə'lum olmayan başqaları, əksər hallarda isə şagirdlər tərəfindən yaradılmış olduqlarını ümumiləşdirmək, bunu əsas usul kimi qəbul etmək ustadları dastançılıq qüdrətindən məhrum eləmək, dastançılıq qabiliyyətini ustadlardan alıb, ustad olmayan şagirdlərə bağışlamaq kimi bir şeydir. Bu barədəki fikrini davam etdirən tədqiqatçı yazır:

"Lakin bir qədər ətraflı araşdırmalar aydın göstərdi ki, bu, bizim mə'lum-məşhur ustad aşıqlarımıza qarşı haqsızlıq, dastançılıq kimi mühüm bir yaradıcılıq prosesini isə görkəmli, qüdrətli sənətkarların əlindən alıb, təsadüflərə bağlamaq kimi yanlış bir yoldur. Məgər süjetli, konfliktli, surətli, səciyyəli, aşiqlimə'şuqəli, "bağlama" və "açma"lı, "duvaqqapma" və "ustadnamə"li dastan yaratmaq kiçik şe'rlər, qoşmalar yaratmaqdan çox asandırmı ki, bu ikincini ustadlara, birincini isə "namə'lumlar"a bağlayırıq?"

Akad. H.Araslı aşıq yaradıcılığında bu problemə toxunaraq dastanlarımızın üç yolla yarandığını söyləmişdir. H.Araslıya görə, bu yollardan birincisi budur ki, "bə'zi dastanlarda həqiqətən tarixdə yaşamış şəxsiyyətin adı ilə bağlı müasirlərinin yaratdığı şe'rlər həmin dastanın əsasını təşkil edir". Tədqiqatçı bu yolla yaranmış dastanlara misal olaraq "Koroğlu"nu göstərir. Bizcə

---

1. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. ADU-nun nəşriyyatı, Bakı, 1956, səh.137.

2. Azərbaycan ədəbiyyatı tarixi. I cild, Bakı, EA nəşriyyatı, 1960, səh. 485-500.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bu hökm bir qədər dürüstləşdirilməlidir. Burası doğrudur ki, "Koroğlu" eposunun yaranmasında bir çox aşıq və aşıq məktəbinin rolu olmuşdur. Lakin bu dastanların əsası bizcə, Koroğlu adlı, yaxud Koroğlu ləqəbli, təxəllüslü, ayamalı bir şəxsiyyətin özü tərəfindən qoyulmuşdur."[1]

Dastan, dastan yaradıcılığı barədə ayrı-ayrı əsərlərində, müxtəlif təhlil proseslərində dönə-dönə söhbət açan M.H.Təhmasib bu barədəki fikirlərini dəqiqləşdirməyə çalışmış, mülahizələrini konkret nümunələr əsasında inkişaf etdirmiş, dastan yaradıcılığının orijinal olduğu qədər də çox mürəkkəb bir yaradıcılıq prosesi olduğunu göstərmişdir. Müəllif fikirlərini davam etdirərək göstərir ki, məharətli, ustad aşıqların içərisində dastan yaratmayanlar da olmuşdur. Dastanlarımızın bir qismi şəxsən dastan yaratmamış belə sənətkar aşıq şairlərin başqaları tərəfindən dastanlaşdırılması yolu ilə yaradılmışdır.

"...Aşıq yaradıcılığı ilə, aşıq mühiti ilə, görkəmli aşıqların həyatı ilə az-çox tanış olanların hamısı bilir ki, bədahətən söz demək qabiliyyətinə malik bütün aşıqların tərcümeyi-halı müxtəlif əhvalatlar, macəralarla dolu olur. Belə aşıqlar çox gəzir, çoxları ilə görüşüb-deyişir, çox zaman da yuxarıda deyildiyi kimi özünə qürrələnənlər tərəfindən deyişməyə də'vət olunur." Hər belə deyişmə isə bir əhvalat, bir macəra kimi dillərə düşür, rəvayət şəkli alır, hətta ustad aşıqlar "mərd ərənlərin, ustadların başına gəlmiş" bu əhvalatları öz şagirdlərinə də bir dərs kimi keçir, əbədiləşdirirlər. Aşığın nüfuzu, şöhrəti artdıqca belə əhvalatlar da çoxalır.

...Bizcə, dastanlarımızın bir qismi, yuxarıda deyildiyi kimi, belə rəvayət, macəraların sonra gələn dastançı və yaxud improvizator tərəfindən təkmilləşdirilməsi yolu ilə yaradılır. Şübhəsiz ki, bu təkmilləşdirmədə rəvayət sahibinin qoşmalarından da istifadə edilir".[2]

"Miskin Abdal və Sənubər" dastanının da bu yolla yaradıldığını, sonrakı dastançı və yaxud improvizator ifaçılar tərəfin-

---

1. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, Elm, 1972, səh.19-20.
2. Təhmasib M.H. Göstərilən əsəri. səh. 86-87.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dən təkmilləşdirilmə yolu ilə yayıldığını söyləmək olar. "Miskin Abdal və Sənubər" dastanının şe'rləri də əsasən ustad sənətkar Miskin Abdalın özünə məxsusdur. Bu dastan Göyçəli 68 yaşlı Hacı Bayramovdan 1997-ci ildə yazıya alınmışdır. Dastanı məhəbbət dastanları sırasına daxil etmək olar. Ancaq dastan bə'zi ünsürlərinə görə ən'ənəvi məhəbbət dastanlarımızdan bir qədər fərqlənir, daha doğrusu, "Miskin Abdal və Sənubər" dastanı bə'zi xüsusiyyətlərinə görə məhəbbətlə qəhrəmanlıq hüdudunda dayanan dastanlara yaxınlaşır.

"...Məhəbbət dastanlarımızın demək olar ki, hamısının, Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın bir sıra boy və qollarının əsas məzmunu, yə'ni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, macəranı, əhvalatı əsasən dörd hissəyə bölmək olar:

1. Qəhrəmanın anadan olması və ilk tə'lim-tərbiyəsi;

2. Qəhrəmanların, yə'ni aşiq və mə'şuqənin buta almaları;

3. Qarşıya çıxan maneələr və onlara qarşı mübarizə;

4. Müsabiqə və qələbə.

Bir sıra nağıllarımızda gələcək qəhrəmanın ana bətninə düşməsi əksərən qeyri-adi, qeyri-təbii, e'cazkar şəkildə baş verir. Nisbətən qədim dövrlərlə əlaqədar, yə'ni çox uzaq keçmişlərlə səsləşən süjetlərdə bundan hətta atanın heç xəbəri də olmur. Bir içim sudan, su üzündə bir parça köpükdən, dərvişin, cadugərin ağzının suyundan, bir yarpaqdan, bir gülü, çiçəyi iyləməkdən, bir almanı, bir narı və ya başqa bir meyvəni yeməkdən, bir nəfəsdən, yaxud da bir quru kəllənin tozundan ana hamilə olur, vəqti-müəyyəndən sonra doğulan uşaq da əksərən fövqəl'adə xüsusiyyətlərə malik olur."[1]

"Miskin Abdal və Sənubər" dastanının da qəhrəmanı qeyri-adi şəkildə dünyaya gəlir. Zərgərli kəndinin adlı-sanlı sakini Məhəmməd kişinin "sürüsü su bulandırır", "ilxısına yer tapılmır", ancaq onun övladı olmur, bu dərd onu da, arvadı Növrəstə xanımı da çox kədərləndirir. Səxavətli, xeyirxah ər-arvadın

---

1. Təhmasib M.H. Azəərbaycan xalq dastanları (orta əsrlər), Bakı, "Elm", 1972, səh. 65.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istəyi mö'cüzəli şəkildə həyata keçir:

"Bir gün savax-savax qapı döyüldü. Məhəmməd qapıyı açdı. Qapıda üzünnən, gözünnən nur tökülən bir dərviş dayanmışdı. Salam-əleykümdən sonra Məhəmməd dərvişə xoş gəldin deyif, onu evə də'vət elədi. Dərviş dedi:

– Oğul, bil və agah ol. Savax-savax sana qismət gətirmişəm. Al, bu almanı yarıya böl, arvadınnan ye, Doqquz aydan sonra bir oğlunuz olajax. Adını Hüseyn qoyarsınız. O biri adını özü qazanacax.

Məhəmməd qocadan almanı alıf dedi:

– Bava dərviş, dayan, nəzirini gətirim.

Dərvişin bu gəlişinnən çox sevinən Məhəmmədin evə girməyinnən çıxmağı bir oldu. Onun bir əlində qocanın verdiyi alma, o biri əlində qızıl varıydı. Dərviş isə qapıda yoxuydu. Elə bil dərviş bir tikə əppəy oluf göyə çəkilmişdi. Məhəmməd nə qədər axtardı, nə qədər soraxladısa, dərvişdən xəvər verən olmadı. Məhəmməd kor-peşiman evə qayıtdı. Başına gələnnəri arvadına danışdı. Sonra da dərviş dediyi kimi almanı ortadan ikiyə böldü. Yarısını arvadına verdi, yarısını özü yedi.

Vaxt gəlif, zaman yetişdi. Növrəstə doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəyqədən sonra bari-həmlini yerə qoydu. Məhəmmədin bir oğlu oldu" (səh, 391-392).

Nağıllarda qəhrəmanın mö'cüzəli doğuluşu üzərində tədqiqat aparan Oruc Əliyev bu motivin digər örnəklərində, o cümlədən qəhrəmanlıq və məhəbbət dastanlarında da mühüm yer tutduğunu və bunun əski inamlarla bağlı olduğunu yazır.

"Həmin mifoloji elementlər nağıllarımızı folklorumuzun başqa janrları ilə, o cümlədən, mif və dastanlarımızla da yaxınlaşdırır. Bu isə bu uyğunluğun əski qaynaqlardan irəli gəlməsini ehtimal etməyə əsas verir."[1]

"Miskin Abdal və Sənubər" dastanının analoji motivləri də bu baxımdan diqqəti çəkir. Alma verən dərviş əvvəlcədən uşağın adını deyib, o biri adını isə özünün qazanacağını bildirir.

Mə'lum olduğu kimi, adqoyma təsadüfi olmayıb əski inam-

---

1. Oruc Əliyev. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru. Bakı. Elm, 1999, səh. 15-16.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

larla bağlıdır.

"Adqoyma motivi dastanlarda qəhrəmanın epik bioqrafiyasını tamamlayan magik xeyir-dua kimi semantik yüklüdür. Qəhrəmanlıq dastanlarından aydın olur ki, qəhrəmana magik adla yanaşı, yenilməz güc də verilir (məsələn, "Alpamış"da yeddi yaşlı uşaq oxla Əsgər dağını uçurur. Həzrət Əli uşağa Alpamış adını verir. Sonra əlini uşağın kürəyinə vurmaqla onu oxbatmaz, qılınckəsməz edir). Belə magik aktı başqa dastanlarda Xızır, dərviş, qırx ərənlər icra edirlər.

Adqoyma mərasiminin magig, mifoloji səciyyəsini tədqiq edən bir çox alimlər onu şamançılıqla əlaqələndirirlər. Onların fikrincə, adalma gəncin kişilər cəmiyyətinə daxil olmasıdır. Şaman mətnlərində şaman olma mərasimindən sonra şamanın ad alıb şaman kimi yenidən qurulması dastanlarda qəhrəmanın yeni ad alıb, yeni status qazanması ilə üst-üstə düşür."[1]

"Miskin Abdal və Sənubər" dastanının qəhrəmanı qeyri-adi doğuluşu ilə seçildiyi kimi, buta verildikdən sonra da bir çox qeyri-adi keyfiyyətlərə yiyələnir.

Dastan qəhrəmanlarına müqəddəs bir şəxs tərəfindən "buta" verilir. Prof. M.H.Təhmasib "buta" sözünün çoxmə'nalı söz olub, qönçə, gül, budaq, nişanə mə'nalarının olduğunu, dastan süjetinin ikinci hissəsinin "buta"nın meydana çıxması ilə başlandığını, qəhrəmanların bir-birini yuxuda görüb aşiq olmalarının çox qədim ədəbi priyomlardan olduğunu yada saldıqdan sonra yazır:

"...Hər hansı bir sevgi macərası məhəbbət süjetinin son nöqtəsidir. İslamiyyətin qayda-qanunlarına tam riayət etmək belə əsərlərdən əl çəkmək demək idi. Bizcə, dastan yaradıcıları bu çətinliyi aradan qaldırmaq üçün çox düşünmüş, nəhayət, dindən icazə almaq yolu ilə işin içindən çıxmaq qərarına gəlmişlər ki, bunun üçün də qəhrəmanların bir-birini yuxuda görməsi motivi ilə onları bir-birinə "buta" eləmək priyomları birləşdirilmişdir."[2]

---

1. Füzuli Bayat. Oğuz epik ən'ənəsi və "Oğuz xaqan" dastanı. Bakı: Sabah, 1993, səh. 21.
2. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, Elm, 1972, səh. 69.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mə'lum olduğu kimi, qəhrəmana yuxuda butanı Xızır, nurani dərviş, daha sonralar Həzrət Əli verir. "Miskin Abdal və Sənubər" dastanında bu motiv belədir:

"Bütün günü gözdədilər, gecə də gəlif keşdi. İkinci gün də axşama çatdı, ancaq Hüseyn qalxmadı ki, qalxmadı. Bu xəvəri eşidif-bilən qohum-əqrəba da bir yandan axışıf gəlirdi. Axırda bunnarın arasınnan dünyagörmüş bir qoca irəli yeriyif dedi:

– Ay camaat, narahat olmuyun! Ona yuxusunda haxdan buta verilir. O, haqq aşığı olacaq. Üş günün tamamında ayılacax.

Qərəz, hamı üş günün tamamını gözdəməyə başdasın görək Hüseynin başına nələr gəldi. Hüseyn baş yastığa atan kimi aləmi-röyada gördü ki, onun otağında bir nurani dərviş peyda oldu. Onu İsfahana aparmaq istiyən atası Məhəmməd kişiyə üz tutuf dedi:

– Sən hələlik heş yerə getmə, Hüseyni mən özüm Təbrizə aparajam. Təbrizdən qayıdana qədər gözdə. Bunu deyif, qoja Hüseyni yanına alıf onnan neçə-neçə dərələr keşdi, dağlar aşdı, ormannar dolaşdı. Kənddərdə, şəhərrərdə oldu. Onnar yollarda qara-borana düşdülər, quldurrardan sağ-salamat qurtarıf, gəlif uca bir dağın başına çıxdılar. Olannan, qalannan yeyif, dağların dupduru sularınnan içif dincəldilər. Buradan baxanda hər tərəf aydın görünürdü. Buradakı gözəllikləri seyr etdikcə, az qalırdı Hüseynin ürəyi qopuf düşsün.

Bir az dincələnnən sonra bava dərviş dedi:

– Eşit oğul, diqqətnən qulağ as. Bizə lazım olan yerə gəlif çıxmışıx. Bir azdan Təbrizi də görəjəksən. Sənin gələcək taleyin bu torpaxnan bağlıdı. O, qəflətən əlindəki badəni Hüseynə uzadıf dedi:

– İç, oğlum, iç badəni!

Hüseyn bir addım geri çəkilif dili dolaşa-dolaşa dedi:

– Bava dərviş, mən müsəlmanam, şərab bizə haramdı!

Dərviş dedi:

– İç, oğlum. Bu şərab deyil, eşq badəsidi. Sən çox-çox çətinniklərdən keçəjəksən, çox əzaflarnan qarşılaşajaxsan. Eşqin yolunda sana miskin də deyəcəklər, abdal da. Sən hər bir çətinnikdən keçif, ucalara qalxajaxsan. Mənim kimi bir kəramət sahibi, övliya olajaxsan. Bu günnən Miskin Abdal adınnan dola-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şajaxsan, bütün dünyanı. Bu haqqın əmri, Tanrının istəyidi.

Hüseyn nurani qojanın əlindəki badəni istər-istəməz alıf başına çəkdi. Dünya gözündə nura boyandı. Halı dəyişdi. Ürəyi həsrətnən döyünməyə başdadı. Elə bil başqa bir aləmdəydi.

Baba dərviş sağ əlini irəli uzadıf, şəhadət və orta barmağını haçalayıf dedi:

– Bala, bax gör, barmaxlarımın arasınnan nə görünür?

– Bava dərviş, gözəl bir şəhər. Şəhərdə gözəl bir saray, sarayda gözəl bir qız.

Bu sözləri deyif qurtaran kimi, bihuş oluf yerə yıxıldı. Dərviş onun üzünə su töküf ayıltdı. Əlini başına çəkif dedi: –

Eşit oğul. Həmin gördüyün şəhər Təbrizdi. O saray Sövdəgər Mahmudun evidi. Ona qəddarlığına görə İlan Mahmud da deyillər. Orada gördüyün o gözəl, İlan Mahmudun qızı Sənubər xanımdı. Səni ona, onu da sənə buta verdim. Gözlərini yum, aç.

Hüseyn gözdərini bava dərvişin dediyi kimi yumdu. Açanda evlərini, bu üş günü onun ayılmasını həsrətnən gözdüyən ata-anasını, qohum-qonşularını, dost-tanışdarını gördü" (səh 393-394).

Hüseynlə bərabər nurani dərviş Mahmud sövdəkərin qızı Sənubər xanıma da oğlanı göstərir, ona da eşq badəsini verir.

Dastanlarımızda yuxuda qəhrəmana buta verilməsi məsələsinə toxunan prof. Mürsəl Həkimov göstərir ki, əlbəttə, yuxu, buta məsələsinin bu cəhəti vardır, ancaq onu bütünlükdə bədii priyomla bağlamaq o qədər də düzgün deyildir. Bu barədə fikrini əsaslandırmağa çalışan müəllif xalq ədəbiyyatında, xüsusilə dastanlarda yuxu, yuxugörməyə və ustad-dədə aşıqlar haqqında işlədilən "haqq aşığı", "şeyx", "ürəklər oxuyan", "bilici"usta baba" və s. ifadələrə sıx-sıx rast olunduğunu göstərir.

"Dastanlarımızda" rö'yalar maddi aləmin gerçəkliyi ilə bağlıdır. Rö'yada buta alma fizioloji oyanma ilə əlaqadar olan ideal bir təzahürdür ki, aşiq mə'şuqəsini ideya gerçəkliyində görə bilir. Bu baxımdan "Kitabi—Dədə Qorqud", "Koroğlu" kimi qəhrəmanlıq dastanları, "Bənidaş şəhərinin sirri", "Aldərviş" nağılları, "Danatma mərasimi", "İrvaham", "Novruz", "Tahir-Zöhrə", "Lətif şah", "Əmrah", "Heydər bəy", "Nəcəf-Pərzad" və b. onlarca məhəbbət dastanları diqqəti cəlb edir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizə elə gəlir ki, yuxunun dini qayda-qanunlarla, xüsusilə, islamiyyətin gətirmiş olduğu hicabla əlaqədar olması bədii priyom ola bilər. dastançı aşıqlarımızın əsərlərindən də göründüyü kimi, hadisələrin sonrakı mərhələlərində heç bir dini yasağa rast gəlmirik. Bu mə'nada aşiqin mə'şuqəsini yuxuda görməsi kimi bədii təfəkkür detalları xalq yaradıcılığına qanuni tərzdə daxil olduğundan, din onun qarşısında acizdir."[1]

Ancaq onu qeyd etməliyik ki, dastanlarımızda geniş yayılmış "buta verilməsi"nə sadəcə bir priyom kimi yanaşmaq bəlkə də doğru olmazdı. çünki burada əski köklərə bağlılıq vardır. Elə buna görə də buta almış qəhrəmanlar öz qeyri-adilikləri ilə başqalarından seçilməyə başlayırlar. Belə qəhrəmanlar çətin sınaqlardan asanlıqla çıxırlar. Dastan qəhrəmanlarına buta verilməklə bərabər, onlara həm də vergi verilir, mö'cüzəli qabiliyyətə sahib olurlar. Miskin Abdal da belə vergiyə yiyələnir. Buta alana qədər söz deyib, saz çalmayan qəhrəman artıq saz çalıb, söz qoşur. Onun qarşısında çox aşıqlar aciz qalırlar.

Yuxudan oyanan Hüseyn sazını istəyir, sazını alan kimi sinəsinə basıb ürək sözlərini söyləyir:

"... Dərviş bavam verdi eşqin camını,
İçif atəşdərə saldı canımı,
Uçurdu könlümün xanimanını,
Gördünüz eşqi-hal bu səhər məni.

Gedirəm, bu yoldan dönən deyiləm,
Od tutuf yananam, sönən deyiləm,
Bir comərd iyidəm, zənən deyiləm,
Doğufdu anadan anam ər məni.

Hamıya könüldən yetirrəm salam,
Unudun o adı, Miskin Abdalam,
Bir eşqin yolunda zəlili-xaram,
Eyləyir vətənnən dərbədər məni". (səh.395)

---

1. Həkimov M. Azərbaycan aşıq ədəbiyyatı, Bakı: Yazıçı, 1983, səh. 140-141.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yuxuda buta verilməsi ilə qəhrəman öz statusunu dəyişir, yeni ad alır. Miskin Abdalın dastanda toylara gedib məclis aparması barədə danışılmır. O, buta verildikdən sonra söz deyib, saz çalır, hamını da valeh edir.Onun ustad yanına gedib aşıq kimi dərs almasından da söhbət getmir. Ancaq başqa məhəbbət dastanlarımızın qəhrəmanları kimi Miskin Abdal da yuxuda buta alandan sonra uzun illər aşıqlıq etmiş, yaşlı, tanınmış aşıqları cavan, təcrübəsiz olmasına baxmayaraq mat qoyur. Hətta səfər zamanı İsgəndər bəyin toyunda üç gün çalıb oxuyur, toya gələnlərin məhəbbətini qazanır. Onun şöhrətinə paxıllıq eyləyən qoca aşıqlardan birini öz təmkini, tutarlı cavabı ilə məğlub edir. Onda özünə, gücünə, qüvvətinə böyük bir inam var.

"Miskin Abdal halını pozmadan dedi:

Aşıx gəl kəşt elə ağır elləri,
El içində namus, arı unutma.
Həyalı gəz, təmiz saxla adını,
Dost yanında e'tibarı unutma.

Halal mala haram qatmax nə lazım?
hədər yerə kəmənd atmax nə lazım?
Hər yetənə yalan satmax nə lazım?
Əhdi-peyman, düz ilqarı unutma.

Miskin Abdal bir qonaxsan dünyada,
Könlün bir dəryadı, ürəyin ada,
İstəsən ki, yetişəsən murada,
Yaş torpağıN: dar məzarı unutma".

"Miskin Abdal və Sənubər" dastanında da buta alandan sonra qəhrəman tamamilə dəyişir, ona buta ilə yanaşı aşıqlıq, qeyriadi bacarıq da verilir. Onun qabağında böyük aşıqlar, saz bilicileri belə aciz qalırlar. Belə qəhrəmanlar bütün çətinlikləri dəf edirlər, onlara hər şey əyan olur, "haqq aşığı" kimi, onlar böyük hörmət qazanırlar. Bu "haqq aşıqları" ədalət yolunda vuruşurlar.

"Miskin Abdal və Sənubər" dastanının qəhrəmanı Miskin

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdal belə "haqq aşıqlarından" biridir. Miskin Abdalın haqq aşığı olması təkcə toy motivində deyil, başqa çətinliklər zamanı da özünü göstərir. Məsələn, Miskin Abdalla Qasım Təbrizə gedən zaman bir düzə gəlib çatırlar ki, susuzluqdan yanırlar. Bu vaxt bir tufan, yağış başlayır ki, gəl, görəsən. Miskin Abdal sazı əlinə alıb çalıb-oxuyandan sonra tufan dayanır. Dastanda bu epizod belə verilir:

"...Göz gözü görmürdü, Bir neyzənbillah başdadı ki, elə bil dünyanın axırıydı. Elə bil yer-göy bir-birinə qarğımışdı. Sel-su dünyanı başına aldı. Dağlardan qopan selin nə'rəsi yeri-göyü silkələyirdi. Miskin Abdalgil bir daşın başına çıxdılar. Az qaldı ki, sel daşı da, onnarı da süpürüf aparsın. Uzun Qasım fikirləşdi ki, bizimki bura qədər imiş. Miskin Abdal isə haxdan umudunu üzməmişdi. Baxdı ki, bu xına o xınadan döyül, sazını sinəsinə basdı, üzünü göylərə tutuf aldı görək nə dedi:

Bu nə dərddi, nə bəladı,
İmdada çat, qadir Allah!
Yollarımı sellər aldı,
İmdada çat, qadir Allah!

Gözü yolda qalanım var,
Dərdə, qəmə dolanım var,
Çiçək kimi solanım var,
İmdada çat, qadir Allah!

Ata-anam yoxdu burda,
Gecə-gündüz ahu-zarda,
Abdal qaldı yaman darda,
İmdada çat, qadir Allah!

Söz tamama yetməmiş buludlar yarıldı. Gücdü küləklər buluddarı qovuf uzaxlara apardı. Göyün üzü açıldı. Sellər-sular get-gedə azaldı. Bir azdan onnardan heş bir əsər-əlamət qalmadı".

Miskin Abdala yuxuda nurani dərvişin dedikləri dastan hadisələrinin sonrakı inkişafında həyata keçir. O, bütün çətinliklər-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dən uğurla çıxır, butasına qovuşur doğma elinə-obasına yetişir.

Prof. M.Seyidov "buta almağ"ın, "haqq aşığı olmağ"ın mifik inamlarla, mifik təfəkürlə bağlı olduğu fikrini irəli sürür:

"Xızırın və onun badəsinin nurlu olması təsadüfi deyil, onlar yazın istisi, odu ilə sıx bağlıdırlar. Ona görə də Xızırın badəsini içən gəncin sinəsi odlanır. O dərhal ilhama gəlib aşıq olur. Xızırın gəncə verdiyi buta nədir? Bunun nə olduğunu aydınlaşdırmaq üçün, "buta" sözünün həm lüğəti, həm də mifoloji mə'nalarına diqqət yetirək. "Buta/buta"nın türk dillərinin çoxunda "şüvül", "çubuq", "hörük", "çiçək hörüyü", "şaxələnmə", "qönçə", "badamvari naxış" və s. mə'naları vardır.

Diqqət edilərsə, görərik ki, butanın "şüvül", "şaxələnmə", "qönçə" mə'naları onu istər-istəməz ağac, bitki mifi ilə bağlayır. Əsasən yazla bağlı qönçə, şaxələnmə artımdır, bu dünya ağacı mifinin atributu, əlamətidir. Dünya ağacı kainatın yaradıcısı olduğu üçün, həm də yaranışın, artımın mifi sayılmışdır. Deməli, onun əlaməti, atributu buta gəncliyə verilərkən onlar bir-birilərini sevməlidirlər ki, yeni ailə yaransın, artım olsun. Butanı başqa müqəddəslərin yox, yalnız Xızırın verməsi də xalq tərəfindən düşünülmüşdür. Yazı gətirən Xızır gəncliyə buta, istilik verməklə onları yeni həyata hazırlayır, canlandırır. Dediyimiz kimi, buta həm də "qönçə" deməkdir. Qönçənin şəklinə diqqət yetirsək görərik ki, onun odla, istiliklə bağlı olduğunu gözə çarpdırmaq üçün xalq sənətkarları, naxışçılar, me'marlar, xalçalar, dulusçular və b. onun başını sağa əymişlər. Guya külək onun şö'ləsini tərpədir. Bu da təsadüfi deyildir. Bəllidir ki, oğuzlarda sağ həm də günçıxanın (gündoğanın) rəmzi imiş. günçıxan isə Günəşlə bağlıdır. Butanın başının, şö'ləsinini sağa əyilməsi onu Günəşlə əlaqələndirmək əlamətidir. Deməli, buta istiliklə, odla, Günəşlə, dünya ağacı ilə bağlı mifoloji mə'na daşıyan sözdür, rəmzdir, nurlu, odlu içkidir.

Gənclərə buta verərkən onlar aşıq, aşiq olurlar. Belə aşıq, yə'ni odla, Günəşlə əlaqədar aşıq təbii ki, gizli sirlərdən agah olmalı idi. çünki mifoloji inama görə od sirləri açır, sirlər ona agah olur. Sirlərə agah olan Qorquda da bu keyfiyyət oddan, günəşdən gəlir. Gəncə buta verərkən ona istilik - Günəşin istiliyini, odunu, Öləngin ailə, gənclik (gənclik həm də sevgidir)

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ilahəsinin sevib-sevilmək, məhəbbət ehtirasını, dünya ağacının (artım) həyat qüvvəsini verir. Belə bir mifik qüvvəyə yiyələndiklərinə görə onlar yenilmirlər, düşməni, rəqibi əzirlər."[1]

M.Seyidovun "buta"nın semantikasını* mifoloji dünya ağacı ilə bağlaması doğru bir aşkarlama kimi anlaşıla bilər. Çünki bütün ən'ənəvi mətnlərin mifoloji arxetiplərinin mövcudluğu və transformasiya prosesində sxem, kod, mə'lumat[2] səviyyələrinin ən azı birini saxlaması faktı mə'lumdur. Bu mə'nada "buta" motivində arxaik semantika elementlərinin saxlanması tamamilə təbii mifopoetik bir hadisədir.

Azərbaycan məhəbbət dastanları üzərində struktur araşdırma aparan M.Cəfərli yazır: "Məsələ burasındadır ki, məhəbbət dastanlarının əsas kütləsi ilə təsdiq olunan butavermə mexanizmi öz simvolik təbiəti ilə əski türk inisiasiya (ölüb-dirilmə) mərasimini əks etdirir. İnisiasiya mərasimindən keçən simvolik şəkildə ölür, ölüm dünyasına - sakral dünyaya daxil olur, sonra təzə statusla doğulur. Bu ritual strukturu məhəbbət dastanlarının butavermə aktında da var. Bu mə'nada biz butaverməni əski inisiasiya mərasimlərinin məhəbbət dastanlarındakı trasformasiyası hesab edirik".[3]

Bu transformasiya prosesində daha çox sxem səviyyəsi konservativlik nümayiş etdirir. Qəhrəmanın fiziki kontekstdə "yuxuya getməsi", "yuxu görməsi" və "ayılması" əski oğuz dünyagörüşünə görə sakral dünya ilə təmasa girməkdir və "Kitabi-Dədə Qorqud"da yuxunun "kiçik ölüm" adlandırılması və başqa oxşar motivlərlə təsdiqlənir. "Oğuzun yuxusu" adi ölümdən fərqli olaraq qəhrəmanı yeni, keyfiyyətcə fərqli bir sosial-mədəni statusa transformasiya edərək bir tərəfdən ona aşıqlıq, şairlik, saz çalmaq qabiliyyətləri, digər tərəfdən isə "haqq aşiq-

---

1. Seyidov M. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, Yazıçı, 1983, səh. 130-131.

* Sufi kontekstində "buta" "İlahi Eşq"in simvoludur.

2. К.Леви - Строс. Как умирают мифы, с. 77-78. Зарубежные исследования по семиотике фолклора. М., Наука: 1985, с. 7.

3. M.Cəfərli. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., Elm, 2000, s. 95.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

liyi" buta olaraq verilir. M.Cəfərliyə görə "butavermə" üç mərhələdən keçir: 1) qəhrəmanın əvvəlki vəziyyəti; 2) simvolik ölüm - yuxuda buta alması vəziyyəti; 3) qəhrəmanın yeni vəziyyəti. Müəllif inisiasiya mərasimi ilə butavermənin mərhələlərini aşağıdakı cədvəldə təqdim edir:

İnisiasiya (ölüb-dirilmə) prosesi	*Butavermə prosesi*
1. Ayrılma	*1. Qəhrəmanın ya yuxuya gedərək, ya da huşdan gedərək əvvəlki vəziyyətindən ayrılması.*
2. Keçid	*2. Qəhrəmanın sakral qüvvə ilə təmasa girib yeni duruma keçməsi prosesi.*
3. Bərpa olunma	*3. Qəhrəmanın yeni vəziyyətlə həyata yenidən qayıtması, doğulması (bərpa olunması).*

Beləliklə, butavermə qəhrəmanın ölərək o biri dünyaya getməyini, ilahi qüvvələrdən yeni status almağını və təzədən yeni statusda bu dünyaya gəlməyini simvollaşdırır."[1] Bu arxaik ritual - semantik substratın sxemi özünü hətta dastan - rəvayətlərdə belə göstərə bilir. Məsələn, "Ələsgər və Səhnəbanı" dastanında[2] janrın rəvayət informasiyasında təqdim olunması onu tamamilə reallıq kontekstinə gətirir, sehrli, mö'cüzəli, qeyri-adi elementlərdən izolə edir. Amma bununla yanaşı Ələsgərin yeni statusa - Haqq Aşiqliyinə keçməsi "xəstəlik" motivinə transformasiya olunmuş, əski sxemin cizgiləri zəif görünsə də tamamilə silinməmişdir.

Azərbaycan aşıq sənətinin inkişafında xüsusi rolu və mövqeyi ilə seçilən Göyçə aşıqlarının yaradıcılığı dastan informasiyası ilə olduqca zəngindir. Göyçə dastanları özündə mif və ritual elementlərini xüsusi semantik işarələr altında saxlamaqla yanaşı türk arxaik eposunun, orta əsrlər dastançılığının bir sıra ən'ənələrini də yaşada bilib. Bu mə'nada Göyçə dastanları türk dastan

---

1. M.Cəfərli. Göstərilən əsəri. s. 96.
2. "Ələsgərnən Səhnəbanı", Aşıq Ələsgər, B. Elm, 1972, II c. s. 129-151.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

informasiyasının fasiləsizliyini tə'min edən "Oğuz-türkman ədəbiyyatı" tipinin birbaşa daşıyıcısıdır. Oğuz ədəbiyyatının əski ən'ənə üzərində, əski türk poetik sistemi çərçivəsində yaşaya bilməsinin başqa kültür tə'sirlərinə uğramadan yüksək vüs'ətlə inkişaf etməsinin başlıca tə'minatı "tərəkəmə - elat mühiti" və Göyçədə qorunan əski türk-oğuz folklorunun funksional sferası olmuşdur. Göyçəli aşığın coğrafi və folklor mühitlərinin təbiiliyi və təmizliyi ilkinliyi qoruyub, etnik - milli ruhun folklorda yaşayan türk könlünün və ağlının yaratdığı sözə söykənib, fasiləsiz şəkildə ondan qaynaqlanıb. Göyçə aşıq poeziyası, o sıradan Göyçə aşıqlarının dastan yaradıcılığı türk dilinin, Türk fikrinin və Türk sənətinin çoxminillik tarixi-mədəni arsenalının ən sağlam örnəklərinin qorunduğu əvəzsiz söz xəzinəsidir.

Göyçə dastanlarının strukturu

Ədəbi mühitin genezisi və coğrafi-mədəni lokalizasiyasına dair.

Bütövlükdə türk mədəniyyətinin öyrənilməsində əsas yanlışlıqlardan biri bu mədəniyyətin bir tərəfli, bir istiqamətli inkişafda götürülməsidir. Bu istiqamət, əsasən, ədəbiyyat kontekstində Şərqdən Qərbə doğru götürülür və ilkin ədəbi material kimi VI-VIII əsrlər qədim Uyğur və Oğuz mətnləri, o sıradan "Orxon-Yenisey" abidələrindən çıxış olunur. Əlbəttə, mə'lum mətnlərin tarixi xronologiyasından görünən təkamül prosesi "Şərq" təmayülünə müəyyən qədər haqq qazandıra bilər. Amma nəzərdən qaçırılmamalıdır ki, türk ədəbiyyatının etnik - milli səciyyəsində bir xüsusi əlamət də onun şifahi ən'ənəylə sıx bağlılığı və şifahi ədəbiyyatın funksional fasiləsizliyidir. Buraya o da əlavə olunmalıdır ki, Türklərin Avrasiya materikinin böyük mərkəz zolağında yayılması eramızdan əvvəlki minilliklərə aid olan prosesdir. Sonrakı etnik - mədəni, siyasi-iqtisadi proseslər isə daha çox mədəni inteqrasiya səciyyəsi daşımışdır.

Türklərin çox əski zamanlardan geniş ərazidə yayılması müxtəlif coğrafi, iqtisadi, siyasi, mədəni, dini mühitlərə düşməsi, etnik - mədəni təkamül və başqa etnik-mədəni sistemlərlə əlaqələr türk ədəbiyyatının inkişafında çeşidli təmayüllər və hətta

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ədəbiyyat tiplərinin yaranması üçün əsas foktorlar olmuşdur. Türk mədəni - ədəbi mühitinin Şərqdə - Türküstanda (Mərkəzi Asiyada) yaratdığı ədəbi dəyərlər sistemi Qərbdə - Mərkəzi Qərbi Asiyada və Şərqi Avropada müstəqil ədəbi mühitlərin yarana bilməsini istisna etmir. Mə'lumdur ki, qərbdə əski türk-Bulqar ədəbiyyatı Şərqdə əski türk - Uyğur və Türk-Oğuz ədəbiyyatlarına nə yaranma zamanına görə, nə də poetik mükəmməlliyinə görə güzəştə getmir. Şərq türklərinin və Qərb Türklərinin həm dilini, həm də ədəbiyyatını qovuşduran Oğuz - Qıpçaq dili və Oğuz-Qıpçaq ədəbiyyatıdır. Şərqdə Karluq və Uyğurların, Qərbdə isə Bulqarların təkcə mədəniyyətdə və ədəbiyyatda deyil, həm də birbaşa etnomədəni təkamülündə Oğuzların və Qıpçaqların iştirakı şübhəsizdir. F.Köprülüdə qoyulmuş Çin-Türk və İran-Türk ədəbi tə'sir kontekstləri də bir tərəfli baxışdır. Ən azı fizikadan mə'lumdur ki, tə'sir əks tə'sirə bərabərdir. Ona görə də məsələyə həm də Türk-Çin, Türk-İran, Türk-Ərəb, Türk-Yunan, Türk-Slavyan, Türk-German kontekstlərindən baxılmalıdır. Çünki, Türkün əski tarixin, qədim dünyanın Superetnosu olması bir danılmaz fakt kimi hərbi-siyasi və sosial-iqtisadi üstünlüyün, hakimliyin mədəniyyətdə buraxdığı izlərlə, zəngin mədəni dəyərlərlə şərtlənir. Türk sosial-mədəni arealında onlarla ədəbi mühitlərin, yüzlərlə ədəbi mərkəzlərin mövcudluğu faktı istisna olunmadan onun iri kültür çevrəsi kimi Şərq və Qərb ədəbi mühitləri şəklində əski ən'ənələrə malik olması da tarixi-filoloji araşdırmalarla təsdiqlənir. Amma differensial mədəni qütbləşmə ilə yanaşı türk ədəbi-bədii yaradıcılığının bütün türklər üçün ümumi olan etnik mədəni əsasları vardır. Bunlar - türk dil invariant sistemi, türk mifoloji dünya modeli, türk arxaik ritual kompleksi, türk mifopoetik sistemi, türk ədəbi-bədii düşüncəsi-poetik sistemi, türk metoforik sistemi, əski türk inamları, türk - etnik yaşam tərzi (sosial münasibətlər sistemi) və s. dir.

Azərbaycan ədəbi-mədəni mühiti Şərq və Qərb mühitlərinin mərkəzində yerləşib, qeyri-türk Şərq kültür çevrələri ilə də təmasda olub. Çeşidli ədəbi yaradıcılıq istiqamətləri ilə zəngin olan Azərbaycan ədəbiyyatı, xüsusilə, Azərbaycanın qərb ədəbi mühitində daha çox şifahi ən'ənə üzərində inkişaf etdiyindən

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əski ədəbi dəyərləri mühafizəkar şəkildə saxlaya bilmişdir.

Göyçə dastançılıq ən'ənəsi Qərbi Azərbaycan ədəbi mühiti çevrəsində olmaqla çox əski köklərə bağlıdır. Oğuz dastanını tarixi-sosioloji istiqamətdə araşdıran görkəmli Türk alimi Z.V.Toğana görə dastanda oğuz hökmdarları ilə bağlı hissələr eramızın IV yüzilliyinin hadisəsi olan Ağ hunların və Qara hunların Göyçə gölü ilə Van gölü arasında yerləşməsini əks etdirir. Alimə görə Oğuz dastanı həmin dövrün bədii tərənnümüdür.[1] Göyçədə müqəddəs ocaq kimi qalan "Oğuz qəbri" və "Oğuz qəbri" haqqında əfsanə onu oğuz genoloji şəcərəsinin başında dayanan Oğuz Ataya bağlayır. Bu da Göyçənin ən qədim Oğuz yurdu olması haqqında folklor informasiyası kimi anlaşıla bilər. Göyçə folklorunun və Göyçə dastançılığının zənginliyi də onun birbaşa əski kökün varisi olmasından irəli gəlir.

Türk - oğuz dastanlarının araşdırılma istiqamətləri

Türkün özünün və sözünün öz kökü üzərində təbii şəkildə yaşam ən'ənəsi Ulu Göyçədə qorunub, göyçəlilərin yaddaşında mühafizə olunub. Göyçə dastanları Türk-Oğuz dastançılığının davamı kimi Azərbaycan aşıq ədəbiyyatına zəngin örnəklər təqdim edib; türk şüurundan anlaşılan dünyanın semantik strukturu haqqında çeşidli informasiya daşıyıcısı rolunda çıxış edib.

Göyçə dastanlarının da daxil olduğu Azərbaycan və bütövlükdə Türk dastanlarının mə'lum mətnləri üzərində aparılan araşdırmalar bir neçə istiqaməti əhatə edir. "Oğuz kağan" dastanı üzərində tədqiqat aparan F.Bayata görə, həmin "dastanla ilgili tədqiqatları iki istiqamətdə qruplaşdırmaq olar:

a) Filoloji istiqamətdə aparılan araşdırmalar

b) tarixi - sosioloji aspektdən aparılan tədqiqatlar."[2]

Qeyd edim ki, Göyçə dastanlarının çox az bir qismi elmi

---

1. Z.V. Toğan. Oğuz dastanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili. İstanbul, 1972; F.X. Gözəlov (Bayat), Oğuz dastanı: tarixi - mifoloji kökləri, təşəkkülü, spesifikası. Doktorluq dissertasiyasının avtoreferatı. B., 1997, s. 9-10.
2. F.Gözəlov (Bayat). Doktorluq dissertasiyasının avtoreferatı. B., 1997

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tədqiqat dövriyyəsinə daxil edilibdir. Göyçə dastanlarının xeyli hissəsi hələ nəşr olunmayıb. Göstərilən tədqiqat istiqamətləri ümumiyyətlə, dastanların öyrənilməsində priaritet təşkil edir.

Mirəli Seyidovun təhlilləri[1] mifoloji arxetiplərin müəyyənləşdirilməsi yönümündə olmaqla Amerika ədəbiyyatşünaslığının mifotənqid istiqamətinə[2] uyğundur. N.Biçurin, V.Radlov, V.Bartold, A.Berniştam, S.Tolstov və b. alimlər dastan mətnlərinə tarixi mənbə kimi yanaşmış və mətn informasiyası əsasında tarixi sosial gerçəkliyi təsvir etməyə sə'y göstərmişlər. Tarixi-filoloji və tarixi sosioloji yönümdə aparılan araşdırmaların ən mükəmməl əsərlərini O. Kökyay, M.Ergin, Z.V.Toğan, M.F. Köprülü, Ə.Cəfəroğlu, Ə.Ərcilasun, O.F.Sərtqaya və b. türk alimləri yazıblar. Azərbaycan dastanlarının öyrənilməsi sahəsində istər respublika daxilində, istərsə də ondan kənarda çoxsaylı, əhəmiyyətli araşdırmalar aparılıbdır.[3]

Azərbaycan folklorşünaslığında dastanla bağlı burada qeyd etmədiyimiz onlarla əsər vardır ki, ümumiyyətlə heç bir elmi informasiya təqdim etmir. Bu tipli əsərlər əsasən "təsvir" və

---

1. M.Seyidov. Azərbaycan mifoloji təfəkküründün qaynaqları. B., 1983; Yenə onun, Azərbaycan xalqının soykökünü düşünərkən. B., 1989.

2. А.С.Козлов. Мифологическое направление в литературоведении США: М., "Высшая школа", 1984. С. 48; Л.М.Землянова. Современное литературоведение в США. М., изд-во МГУ, 1990, с. 103.

3. İ.Abbaslı. Azərbaycan folklorşünaslığı: təşəkkülü və inkişaf mərhələləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IX kitab, s. 3-40, B., səda, 2000, s. 24.

M.H.Təhmasib. Azərbaycan xalq dastanlarının (orta əsrlər) bir növü haqqında. Azərbaycan Şifahi xalq ədəbiyyatına dair tədqiqlər, IV kitab, B., Elm, 1973 s. 3-22; Yenə onun, İlk söz, Azərbaycan məhəbbət dastanları, B., 1979; H.Araslı. Aşıq yaradıcılığı. B., 1960; Ş.Cəşidov. "Kitabi-Dədə Qorqud" B., Elm, 1977; V.Vəliyev, Azərbaycan qəhrəmanlıq dastanları, B., ADU, 1980; A.Nəbiyev, Qəhrəmanlıq səhifələri, B., 1975; X.Q.Koroqlı, A.İ.Nabiev. Азербайджанский героический эпос, Б., Yazıçı, 1996; T.Xalisbəyli. Məhəbbətə xalq abidəsi, B., Yazıçı, 1989 В.М. Жирмунский, Огузский эпос и книга Коргута - Книга моего Деда Коргуда, М-Л. 1962; Yenə onun, Народный героический эпос, М-Л, 1962; Yenə onun, Тюркский героический эпос, М-Л. 1975; Б.Каррыев. Эпические сказание о Кероглы у тюркских народов: М., 1968; С.Якубова. Азербайджанское народное сказание "Ашиг Гариб". B., Elm, 1968; P. Əfəndiyev. Dastan yaradıcılığı. B., 1999; İ.Abbasov.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"tərənnüm" xarakterli olub, elmi təhlil prinsiplərinə qətiyyən cavab vermir.

Azərbaycan dastanşünaslığında Ə.Abidin, V.Xuluflunun, S.Mümtazın, H.Zeynallının. H.Əlizadənin, Ə.Axundovun, Ə.Dəmirçizadənin, Ə.Sultanlının və b. xüsusi xidmətləri olmuşdur. 1920-1930-cu illərdə yüksək vüs'ətlə və ciddi elmi prinsiplərlə aparılan tədqiqatlar 1937-ci il repressiyası ilə dayandırılır.

M.H.Təhmasibin Azərbaycan dastanlarının öyrənilməsi sahəsindəki xidmətləri ayrıca qiymətləndirilməlidir. Onun folklorşünaslıq fəaliyyətində orta əsrlər Azərbaycan xalq dastanlarına həsr olunmuş monoqrafiya xüsusi mərhələ təşkil edir. Bu araşdırma eposşünaslığın son nailiyyətləri və müəllifin uzun illik elmi-nəzəri təcrübəsi əsasında yazılmışdır. Əsərdə dastanların formalaşması prosesi müəyyənləşdirilmiş, aşıq sənəti barədə bir sıra maraqlı mülahizələr söylənmişdir. Ozan, yanşaq, aşıq istilahlarının söz açımı barədəki fikirlər xüsusilə dəyərlidir. Bir janr kimi dastan, onun yaradıcıları, ifaçılıq ən'ənələri və özgə məsələlər tam mahiyyəti ilə geniş şərh olunmuşdur.[1] İ.Abbaslının qeyd etdiyi "istilahların söz açımı" əslində folklorşünaslığımızda geniş yer almış nəzəri əsasları və metodoloji prinsipləri olmayan uğursuz və primitiv təhlil istiqamətidir. Aydın olmalıdır ki, bir termin bir və ya bir neçə mə'nanı işarələyə bilər. Həm də o yalnız işarədir, informasiya isə işarələnən, həmin işarənin altında nəzərdə tutulan mətndədir. Mətnin geniş bilgi vermək imkanlarını buraxıb, mətn tipini işarələyən terminin üzərində "əməliyyat" aparılması özünü doğrultmur.

M.H.Təhmasib məhəbbət dastanlarının struktur vahidləri kimi "ustadnamə"ni, "dastanın özü"nü və sondakı "duvaqqap-

---

Ön söz. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. B., Yazıçı, 1987. И.Аббасов Ареал распространения азербайджанских дастанов (на армянских источниках) Б., 1986. (doktorluq dissertasiyası); M.Həkimov. Azərbaycan aşıq sənəti. B.Yazıçı, 1983; M.Allahmanlı. Türk dastan yaradıcılığı. B., Ağrıdağ, 1998; K.Vəliyev. Dastan poetikası. B., Yazıçı, 1984. F.Bayat. Oğuz epik ən'ənəsi və "Oğuz Kağan" dastanı. B., Sabah, 1993; T.Hacıyev. Dilimiz, düşüncəmiz. B., Elm, 1999; N.Cəfərov. Eposdan kitaba, B., maarif, 1999, M.Cəfərli. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., Elm, 2000; və b.

1. M.H.Təhmasib. Azərbaycan xalq dastanları. s. 62.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ma"nı göstərir. O, dastanın bütöv mətn hadisəsi olduğunu, onun sistem xarakterini görə bilməmiş, ona görə də onu üç struktur vahidində hissələrdə şərh etmiş, əsasən, "dastanın özü" adlandırdığı hissənin morfoloji strukturunu müəyyənləşdirmişdir.

Dastan mətninin yeni tipli təhlil nəzəriyyəsini K.V.Nərimanoğlu hazırlamışdır. Dastana dil səviyyəsindən baxan K.V.Nərimanoğlu "folklorda, xüsusən, dastan yaradıcılığında ayrı-ayrı zamanlarda dəyişmə necə gedir, tarixən labüd olan dəyişməni və sabitliyi tənzim edən qanunauyğunluqlar hansılardır?"[1] – sualı üzərində dayanaraq dastanın dil tarixini araşdırmaya cəlb edərək dastan mətn-lərinin bir sıra spesifik keyfiyyətlərini aşkarlamağa imkan verən mükəmməl bir linqvistik nəzəriyyə yaratmışdır. Həmin nəzəri əsasların təhlil modelində "Əsrlərin süzgəcindən keçə-keçə gələn, zaman-zaman arılaşıb-durulaşan folklorun poetik sistemi, ardıcıllığı, qanunauyğunluğu ilə seçilir. Digər tərəfdən isə folklor xalqın poetik dünyagörüşünün ifadəsi olduğu üçün onun poetik sisteminin bütövlükdə və dəqiq öyrənilməsi ikiqat əhəmiyyət kəsb edir."[2]

K.V.Nərimanoğlu dastan mətnində poetik hadisə elementlərini - ritm və intonasiya, sintaktik paralelizm, bədii tə'yin və bədii xitablar, semantik (aktual) üzvlənmə və s. geniş şəkildə şərh edib. K.V. Nərimanoğlunun adı keçən əsəri və başqa araşdırmaları Azərbaycan dastanşünaslığında keyfiyyət dəyişməsinə səbəb olmuşdur.

Azərbaycan dastanşünaslığında dastan informasiyasının müxtəlif areallara yayılması, ədəbi-mədəni əlaqələr, müxtəlif dövrlərdə yazıya alınmış mətnlərin öyrənilməsi sahəsində ciddi tədqiqatların müəllifi İ.Abbaslı Azərbaycan kültür çevrəsinin Qafqazda hakim mövqeyini faktiki araşdırmaları ilə təsdiqləmişdir. Alimin aşkarladığı dastanlar və aşıq şe'rləri (erməni mənbələrində) bir tərəfdən XIX əsrdə yazıya alınmış, mətnlər[3] elmi dövriyyəyə daxil etməklə tədqiqatları genişləndirmiş, digər tərəfdən isə birbaşa olmasa da, Qərbi Azərbaycan aşıq mühi-

---

1. K.Vəliyev. Dastan poetikası. s. 31.
2. K.Vəliyev. Göstərilən əsəri. s. 30.
3. И.Аббаслы. Ареал распространения азербайджанских дастанов (на армянских источниках). Автореф. докт. дис. Б., 1986.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tinin (xüsusi olaraq Göyçə aşıq mühiti) zənginliyi və tə'sir gücü haqqında aydın təsəvvür yarada bilmişdir. Çünki bu ərazidə aşıq sənəti məhz Göyçədən qaynaqlanmışdır.

"Oğuz Kağan" dastanı üzərində araşdırma aparan F.Bayat dastanın ümumi spesifikasını belə müəyyənləşdirir: "Həcmcə kiçik olan bu dastan əski dövlət dastanları kimi (Şu, Alp Ər Tonqa, Erkənəkon, Boz qurd) arxaik strukturlu olub türk bədii düşüncə tərzini, poetik mətndə qorunan dövlətçilik ideyasını əks etdirməyə xidmət edir. "Oğuz Kağan" dastanı oğuz-türkmən ən'ənəsinə uyğun nəzm və nəsrlə söylənilmiş, yazıya alınarkən bu prinsip qismən də olsa gözlənilmişdir."[1] Müəllif mifoerik informasiyadan çıxış etməklə "Oğuz dastanının mahiyyət e'tibarı ilə daimi inkişaf edən etnik - mədəni prosesdə bədii-estetik hadisə, bu hadisənin yönünü müəyyənləşdirən milli dünyagörüş olmasını",[2] türk etnik mədəniyyətində siyasi, etik, hərbi davranış normaları, sosial münasibətlər sistemi, ikili qarşıdurmaların (binar oppozisiya) tənasüblüyü və onun dünyanı qavramaq aktı kimi aparıcı mövqeyi və s. aspektlərin milli dastanşünaslığın təhlil kontekstinə gətirir.

Görkəmli türkoloq T.Hacıyev KDQ mətni üzərində dil və ədəbi-bədii düşüncə, tarixilik və bədiilik kontekstində təhlil apararaq əski oğuz cəmiyyətinin sosial-siyasi, mə'nəvi-əxlaqi, ədəbi-estetik dəyərlərini bir sistem olaraq təqdim edir. Müəllif tarixiliyi və bədiiliyi sosial və estetik münasibətlərin dastan ifadəsində tam tarazlıq vəziyyətində olduğunu əsaslandırır.[3] Alimin araşdırmaları bütövlükdə Türk dastanşünaslığına yeni tədqiqat istiqamətləri təqdim etmək iqtidarındadır.

N.Cəfərov əsası F.Köprülü tərəfindən qoyulmuş KDQ-yə fərqli baxışın (KDQ və "Dədə Qorqud" dastanının fərqli keyfiyyəti) üzərində dayanaraq tamamilə orijinal araşdırmalar aparmış epik təfəkkürün müxtəlif kültür çevrələrində fəaliyyətinin

---

1. F.Gözəlov (Bayat). Oğuz dastanı: tarixi - mifoloji kökləri, təşəkkülü, spesifikası. s. 8.

2 Yenə orada. s. 49.

3. T.Hacıyev. Dədə Qorqud: dilimiz, düşüncəmiz. B., Elm, 1999. s. 150-151.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

differensial elementlərini müəyyənləşdirməyə sə'y göstərmişdir.

Kültür diaxroniyasının iki din (Tanrıçılıq və İslam) sistemindən keçməsi, birincinin tənəzzülü və ikincinin təşəkkülü proseslərini epik informasiyadan müşahidə etməklə qənaətlərini belə müəyyənləşdirir. "Qədim türk eposu ilə təxminən eyni dövrdə təşəkkül tapan və türkçülük təfəkkürünün ideya-estetik əsasını təşkil edən tanrıçılıq elə bir mükəmməl ideoloji - mə'nəvi sistemdir ki, qədim türk mədəniyyətini (o cümlədən ədəbiyyatını) həmin sistemdən kənarda izah etmək mümkün deyil. Çünki qədim türk idrakının ən böyük əsəri həmin idrakın gəlib çıxdığı "Tanrı" ideya-obrazıdır ki, onu türk varlığı özünün bütün potensial imkanı ilə yaratmış, ən azı minillik (e.ə.I minilliyin orta-larından eramızın I minilliyinin ortalarına qədər) ictimai və mə'nəvi həyat təcrübəsinin etnik (universal) idrak metodologiyasına çevirmişdir".[1]

N.Cəfərov Türk eposunu bir sistem olaraq struktur təhlil edir və həmin sistemin funksional-diaxron sferasını, kültür çevrələrini araşdırır, sistem-mühit münasibətlərini aydınlaşdırır, sistemin (türk epos təfəkkürünün) dominant funksional struktur elementi kimi epik təfəkkür potensiyasını (seçmə mənimdir – H.İ.) müəyyənləşdirir.[2]

M.Cəfərlinin Azərbaycan məhəbbət dastanları üzərində apardığı araşdırma keyfiyyətcə yeni tipli tədqiqat olaraq dastan mətninin strukturunu aşkarlayır və analoji mətnlərin təhlili üçün ümumiləşdirilmiş nəzəri əsaslar təqdim edir.[3]

Beləliklə, Azərbaycan dastanşünaslığında bir sıra linqvistik, tarixi müqayisəli, tarixi tipoloji və struktur təhlil istiqamətləri müəyyənləşir.

---

1. N.Cəfərov. Eposdan kitaba. B., Maarif, 1999, s.13.
2. N.Cəfərov. Eposdan kitaba. B., 1999; yenə onun. Türk dünyası: Xaos və kosmos, B., BDU, 1998, yenə onun, Genezisdən tipologiyaya, B., BDU, 1999, və b.
3. M.Cəfərli. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., Elm, 2000.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Kitabi-Dədə Qorqud" etalonu və Göyçə dastanları

a) subyekt-mətn münasibəti.

Qeyd edim ki, "Göyçə dastanları" Türk, Oğuz və Azərbaycan dastançılığında xüsusi bir tip təşkil etmir; amma, eyni zamanda spesifik regional elementlərdən də məhrum deyildir. "Göyçə" adının tə'yinedici söz yerində işlənməsi də spesifik elementlərin mövcudluğu ilə yanaşı qədim Türk - Oğuz yurdu Göyçənin - məkan kimi, qədim türk - oğuz - azərbaycanlı (qərbi) qövmünün bu məkanda minillərlə yaşamış varislərinin - Göyçəlilərin - subyekt kimi, soydan-soya, yaddaşdan-yaddaşa ötürülərək dildə, fikirdə və sənətdə olduğu kimi ağılda, ruhda və könüldə daşınan ən'ənəsinin-informasiya kimi, folklor və ədəbi mühit kimi kökə bağlılığın güclülüyü və etnik - milli - mədəni ən'ənənin mühafizəkarlığı ilə şərtlənir. Göyçə dastanları Göyçəlilərin, Göyçə aşıqları və el şairlərinin, Qərbi Azərbaycanlıların, bütövlükdə oğuz türklərinin və ümumiyyətlə, türklərin dastanıdır. Bu sıralama təsadüfi deyil, hissə və tam, element və sistem arasındakı qanunauyğun münasibətlərin, xüsusidən ümumiyə doğru ardıcıllığın və bağlılığın retrospektiv diaxron əlaqəsinin göstəricisidir. Göyçə dastanlarında subyekt - tərənnüm olunan qəhrəman və tərənnüm edən aşıq (yaradıcı və ifaçı), söyləyən və qeydə alan Azərbaycan türküdür. KDQ-də tərənnüm olunan oğuz boyları, soyları, ərənləri, alpları, türk-oğuz igidləridir, söyləyən Oğuz ozanıdır (onlardan biri Dədə Qorquddur və həm də o başqa funksiyaları ilə yanaşı Dədə Ozandır), yazan, (katib) müsəlman-oğuzdur, oğuz türküdür, Azərbaycan oğuzudur. Oğuz "boyu"nun yaradıcısı oğuz ozanı, Göyçə "nağılı"nın (dastanının; Göyçədə "dastan"a "nağıl" deyilir) yaradıcısı Göyçəli Oğuz aşığıdır. Konkret olaraq, Miskin Abdaldır, Ağ Aşıqdır, Aşıq Alıdır, Aşıq Musadır, Dədə Ələsgərdir... və onlarla Göyçəli ustad aşıqlardır. Göyçə dastanlarında xüsusi mövqeyi olan baş qəhrəmanlardan biri Şah İsmayıl Heydər oğludur (Xətaidir). Onunla yanaşı dayanan Miskin Abdaldır. Bunlardan sonra Aşıq Alı, Dədə Ələsgər və başqalarıdır. Göyçə aşıqları bütün Azərbaycan xalq dastanlarını (qəhrəmanlıq və məhəbbət) bilir və

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yüksək səviyyədə ifa edirlər. Təbii ki, onların öz improvizələri ilə yanaşı və həm də onun tərkib hissəsi kimi xalq dastanlarının ifasında (ifa prosesində) Göyçə şivəsi və Göyçə yumoru gülüşün bütün semantik dolğunluğu ilə tərəkəmə-elat həyatından, məişətindən yoğrulmuş xalq deyimləri, "duzlu zarafat" və lətifələrlə birgə iştirak edir.

Bizim təqdim etdiyimiz "Göyçə dastanları" isə həmin kanonik, həmin şablon dastanların və yaxud ən'ənəvi dastan qəliblərinin tamamilə mexaniki şəkildə təkrarlandığı mətn tipləri deyildir. Doğrudur, Göyçə dastanlarında ən'ənəvi modellər iştirak edir, amma, obrazlarda, motivlərdə və süjetdə orijinal elementlər mövcuddur. Ona görə də Göyçə dastanlarının janr spesifikası və təsnif prinsipləri məhz həmin mətn materialı əsasında araşdırılaraq müəyyənləşdirilməlidir.

b) mətn-məkan münasibəti.

Göyçə təkcə Azərbaycanın qərb ərazisi deyil, Qərbi Azərbaycan ərazisinə daxil olan ən böyük mahallardan biri, türkün qədim vətənidir. Tamamilə, dünyəvi, demokratik dəyərlər əsasında qurduğumuz dövlətin - Azərbaycan Demokratik Respublikasının (1918-1920) qanuni ərazisidir. Məsələnin siyasi yönümünə geniş yer vermədən qeyd edim ki, biz ərazi problemimizi ADR-in sərhədləri daxilində həll etməliyik və beynəlxalq təşkilatlardan da varisi olduğumuz demokratik dövlətin sərhədlərinin bərpasını tələb etməliyik.

Göyçə dastanları coğrafiyasına görə geniş bir ərazini - Qərbi Azərbaycanı (Ermənistanı), Naxçıvanı, Şərqi Anadolunu, Cənubi Azərbaycanı, Şimali Azərbaycanı və qismən də digər bölgələri əhatə edir; onomastik fondunda və peyzaj motivlərində işarələyir.

Məsələn, "Aşıq Alının Türkiyə səfəri"ndə məkan belə qeyd olunur: "Bəli, mənim əzizdərim, sizə haradan xəvər verim, Göyçə mahalının Qızılvəng kəndinnən"[1] "Aşıq Ələsgərin Qaraqoyunlu səfəri"ndə Göyçə belə təsvir olunur: "Oğul, mən də elə toxlucadan gəlirəm... Mənim də səfərim Qaraqoyunnuyadı, ama

---

1. Azərbaycan folklor antologiyası, III kitab, Göyçə folkloru. B., Səda, 2000, səh. 448.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çoxdan yolum bu meydan düzünə düşmür... Bax o geniş düzən-gahı görürsən? Gör nejə çəmənzardı. Odu, Şah dağınnan gələn bulaq suyu iki yerə bölünür. Yarısı Göyçüyə doğru axıf gedir, yarısı da sola buruluf Qaraqoyunnu dərəsinə tərəf axır. Elə Şah dağı da elə burda qurtarır. Odu, Çəmbərəyin qavağınnan qısır Murğus başdıyır..."[1]

Göyçə dastanlarında qeyd olunan ərazilərin fiziki, iqtisadi, siyasi, etnik, mədəni və mə'nəvi coğrafiyası aydın şəkildə müşahidə olunur. Türk dastançılığında ümumi, ən'ənəvi təkrarlanan məkandan (lokusdan) başqa konkret məkanın təsviri hadisəsi də istisna hal deyildir. KDQ-də "hadisələr Azırbaycanda cərəyan edir. Burada Gəncə, Bərdə, Naxçıvan, Şərur, Əlincə qalası, Göyçə gölü, Dərəşam, Dərbənd və s. yer adları qeyd olunur. Qəhrəmanlar ən çox bu yerlərdə fəaliyyət göstərirlər..."[2] *Dastanın Qafqaz mühitində formalaşdığını, onun ilk tədqiqatçılarından biri olan V.V.Bartold da qeyd etmişdir.*[3] *KDQ-də təsvir olu--nan Oğuz yurdunun təbiəti Göyçəni xatırladır: "Kafər sərhəddinə Cızığlara, Ağlağana, Gögcə, tağa oluban çıqayın. ...Qazan oğlını alub qara tağlar üzərinə ava çıqdı. Av avladı, quş quşladı. Sığın - keyik yıqdı. Göy olan görklü çəmənə çadır tikdi."*[4] *Burada Göyçənin əsrarəngiz təbiəti, əsrarəngiz qara dağları öz zəngin florası ilə birlikdə əks olunmuşdur.*

"Kitabi-Dədə Qorqud"un izahlı lüğətində "Gögcə adı belə izah olunur: "Gögcə is. Göl adı: Kafər sərhəddinə Cızıqlara Ağlağana, Gögcə tava aluban çıqayın (69)" Gətirilən örnəkdəki "tava" sözünün texniki yanlışlıq olduğunu nəzərə almaqla qeyd edək ki, bu örnəkdə məhz göl adından yox, dağ adından danışıla bilər. Buradakı "Gögcə" göl adı yox, dağ adıdır. Bu baxımdan lüğət qüsurlu işlənmişdir.[5]

---

1. Yenə orada, səh. 481.
2. P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., Maarif, 1981, səh. 225.
3. В.В.Бортолд, Турецкий эпос и Кафказ. Книга моего Деда Коркута, М., 1962, səh. 120.
1. Kitabi-Dədə Qorqud. B., Yazıçı, 1988, səh. 69.
2. "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti. B., Elm, 1999, səh 126. (yuxarıdan aşağı 14-cü, aşağıdan yuxarı 2-ci söz).

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Kitabi-Dədə Qorqud"da IV boyda adı çəkilən "Göycə dağ" M.F.Kırzıoğluya görə (Kırzıoğlu M.F. Dede Korkut Oğuznameleri. İst., 1952). Axalsıx yolu üzərindən dövlət sərhəddi keçən Ağbaba yaylasında Çivinli kəndinin şimalında olan dağın adıdır.

Hündürlüyü 287m-dir. Bu dağ Türk qaynaqlarında və KDQ-də Göycə dağ adlanır.

Göycə dağ Çızıqlar, Ala dağ bir-birinə yaxındır. Vaxtilə bu ərazidə yaşayan Aborigen azərbaycanlılar arasında bu dağ həm Göy dağ, həm də Göy dağlar adlanmışdır. Göy dağ Çıldır gölünün şərqindədir. Ağalkələk ərazisindəki mingöllər sıra dağlarına aiddir. Otlaqlar zəngin, göz oxşayan gözəl yaylası var. Göycə gölün şimal-qərbini əhatə edən dağlara da Göycə dağlar deyilir. Bundan başqa bir yanı Kəlbəcər dağları, bir yanı Qazaxla sərhədlənən bu qədim mahal çox əski çağlardan Göycə mahalı adlanır.

Göycə mahalı Azərbaycanın aşıq sənətinin, folklorunun beşiyi olmuşdur. Burada Dədə Alı, Aşıq Ələsgər, Aşıq Nəcəf, Xəstə Bayraməli kimi el sənətkarları yaşayıb, aşıq sənətini zirvələrə qaldırmışlar.

Ancaq həmin ərazilərdə yaşayan Azərbaycan Türkləri bu yerlərdən silah gücünə qovulub çıxarılmış, dinc əhalinin qanı tökülmüşdür."[1]

"Kitabi-Dədə Qorqud" ensiklopediyasının II cildində Kırzıoğlu M.F. (Göstərilən əsəri), Acaroğlu Türker (Bulqarıstanda Türkce yer adları kılavuzu. Ankara, 1988), Budaqov B.Ə. (Türk ulusunun yer yaddaşı. B., 1994), Bayramov A. (Qədim oğuz ellərinin Ağbaba, Şörəyel və Pənbək bölgələrində yer adları. Sumqayıt, 1996, səh. 94), Ataniyazov S. (Türkmənistanın geoqrafik adlarının düşündürişli sözleri, Aşqabad, 1980) kimi görkəmli tədqiqatçılara istinadən hazırlanmış yığcam mə'lumatda "Göy" leksik vahidinin Türk xalqları arasında tarixən geniş yayılmış derivatları da təqdim olunur: "Türkmənistanda Aşqabad, Vəkilbazar, Blötan, Marı rayonlarında Göycə obaları, Göycə dağ; Qazaxıstanda Göycədəniz, Koşka; Türkiyənin Malatiya vilayətində Göycə viran, Göycə, Göycəli; Bolqarıstanda Gökçə, Gökçə-

---

1. "Kitabi-Dədə Qorqud" ensiklopediyası. B., Yeni nəşrlər evi, 2000, II c., səh.134 (ensiklopediyanın baş redaktoru Kamil Vəli Nərimanoğludur).

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

su, Kökçədə pinar; Gürcüstanda Göygöd, Göyüşlər (tayfa); (Azərbaycanda Göyəzən dağı (Qazax rayonu), Göy-göl (Gəncə), Göyçay (eyniadlı rayon); Göytəpə (Ağdam və İsmayıllıda kənd), Göydəlləkli (Ağsuda kənd), Göyçəli (Qazaxda kənd), Göyçələr (Qubadlıda kənd), Göynüyən (Goranboyda kənd), Göyərli (Qubadlıda kənd); Göydərə (Kəlbəcər və Lerikdə kənd), Göyçəli (Gədəbəydə kənd), Göynük (Şəki və Qusarda kənd), Göylər (Şamaxıda kənd) və s. coğrafi istilahlar bu gün də xalq arasında qorunub saxlanmaqdadır."[1]

KDQ-nin X boyunda Göyçə dənizi – "Göyçə gölü"nün adı bu şəkildə keçir: "Meyxanədə beş gün yemə-içmə oldı. Andan Şirokuz ucından Gögcədən(q)izədəkin el çarpdı. Ğalaba toyum oldı."[2] (Meyxanada beş gün yemək-içmək oldu. Ondan sonra Şirokuz kənarından Göycə dənizədək sahəni çapıb taladılar (ov ovladılar mə'nasında, çünki mətndən də bu aydın olur - H.İ.) Böyük qənimət əldə etdilər).[3] Gögcə dənizi Dədə Qorqud boylarında təsvir olunmuş qədim oğuzların vətəni daxilində olan, hazırda Ermənistan ərazisində qalan Göyçə gölüdür.

Uzunluğu 75 km, eni 33 km olan bu göl dəniz səviyyəsindən 1916 metr hndürdədir. Teymur səfərnamələrində və Ağqoyunluların rəsmi tarixi olan "Kitabi-Diyarbəkriyyədə, həmçinin Əfşarlı Nadirin hərbi səfərlərindən bəhs edən "Cihangüşeyi-Nadiri" əsərində bu göl "Gögcə dəniz" kimi yazılmışdır. A.Kırıminin xəritəsində isə "Gögcə-dərya" olaraq göstərilmişdir. Bə'zi İran qaynaqlarında bu gölün adı "Dəryayi-Şirin" (Şirin dəniz) adlanır. Ermənilər də bu tarixi adı dəyişdirərək "Sevank (Sey-Vank), - Sevan gölü" adlandırmış və "qara monastır" mə'nasına uyğunlaşdırmışlar. Bə'zi erməni mənbələrində də gölün qədim adı "Gögərni"//"Koqaruni" olduğu söylənilir. N.Adrns və Q.Kolanğanyan bu hidronimin nüvəsindəki "Gög", "qoq" leksik vahidinin mənşəyi haqqında bir söz deməsə də sözün tayfa adı ilə bağlı olduğunu qeyd edir... Qazaxıstan ərazisindəki

---

1."Kitabi-Dədə Qorqud" ensiklopediyası, II cild, s. 134.
2. Kitabi-Dədə Qorqud. B, 1988, səh. 110.
3. Yenə orada, s. 208.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Balxaş gölünün də digər adı Kökcə tenqiz (Gökçe deniz) olmuşdur.[1] KDQ-də "Gökcə tağ" və "Gögcə dəniz" hərəsi bir dəfə (IV və X boy) işlənmişdir.[2] KDQ-nin məhdud kəmiyyətdə olan onomastik vahidlər sistemində Göyçə adının iki yerdə (iki boyda) işlənməsi, hətta lokus səviyyəsində olsa belə oğuz dastan fasiləsizliyinin məkan elementi kimi çıxış edə bilir; çünki KDQ-də təsadüfi heç nə yoxdur, o, Oğuz sabitləşmiş dəyərlər sistminin daşıyıcısı olan eposdur.

Göyçədə yaşayan klassik dastanlardan fərqli olaraq həcmcə yığcam, real zəmində, dastandan daha çox tarixi səpkili hekayətlər, yə'ni "səfərlər" şəklində meydana çıxan "Aşıq Alının Türkiyə səfəri", "Aşıq Hüseynin Naxçıvan səfəri", "Aşıq Hüseyn və Bəyçoban", "Çoban Məhəmmədin Qars səfəri" və s. dastanlar dərin məzmunu və orijinal üslubu ilə mükəmməl sənət nümunəsi olmaqla yanaşı,[3] həm də Göyçə dastanlarının məkan sferasını, Göyçə aşığının hərəkət trayektoriyasını cızır. "Aşıq Ələsgərlə Dəli Alı" dastan-rəvayətində Dəli Alını öyən şe'rində Ələsgər Göyçə aşıqlarının dinləyici auditoriyasının məkan ölçüsünü belə təqdim edir:

Dəli Alının vəsfini
Yazmışam dastana, deyin!
Afərin, şəyirtlərim,
Gedəndə hər yana deyin!
Eşidif Göyçə mahalı
Küllü-Şirvana deyin!*

Addıyın Şah taxtınnan,
Təbrizə, Tehrana deyin!
Üz tutun Alosmana,
Qarsa, Qazımana deyin! (s. 220).

---

1. KDQ ensiklopediyası. II cild, s. 135.
2. "Kitabi-Dədə Qorqud"un statistik təhlili. B., Elm, 1999, səh. 58.
3. T.Göyçəli. Göyçə aşıq məktəbi. B., Göytürk, 1998, s. 9-10.

* Göstərilən mənbədə "Külli İrəvana deyin" şəklindədir. İfada isə yuxarıda göstərildiyi kimidir. Biz topladığımız materiala əsaslanaraq misranı canlı ifada olduğu şəkildə təqdim edirik.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Epik məkan istənilən eposda tamamilə görünən və mə'nalanan ümumi əlamətləri ilə xarakterizə olunaraq orqanik şəkildə epik sistemə qoşulan kompleksdir.[1] B.N.Putilovun yazdığına görə eposda məkanın təsvirinin əsas xüsusiyyətlərindən biri onun fraqmental olmasıdır. Bu da öz növbəsində təbii olaraq, ona fasiləsiz tətbiq olunan situativlik qanununun nəticəsi kimi meydana çıxır. Məkan təsvirləri dekorativ xarakter daşıyır, şərtidir, ekspressivdir, funksionaldır, yaradıcı subyektin simpatiya və antipatiyasından asılı olaraq dəyişə bilir. Eposda bir-birinə qarşı dayanan iki dünya ilə ("özünün" və "özgənin") üzləşirik.

Eposda daimi epik fondu təşkil edən bə'zi lokuslar vardır: davamlı obrazlar lokusu, işarələr lokusu, eposun məkan spesifikasını müəyyən edən tiplər-lokuslar.[2]

Altay dastanı "Maaday-Qara"da "öz" torpağının həm qəhrəmana məxsus ərazi kimi, həm də mifoloji mə'na daşıyan ən'ənəvi kosmoqonik sxem kimi birgə anlaşılır:

"Maaday Qaranın ölkəsi "üç Altay"dan ibarətdir. Bu üçlüyü Altay dağları, düzənlikləri, vadiləri mə'nasında başa düşmək olar. Altayın yeddi böyük dağı - qalası, dağlar arasında yeddi vadisi var. Bunlar Altayın otlağı adlanır. Altayın çeşməsi sayılan yetmiş qollu, kök talayı (Göy dəryası - çayı) var. Yeddi qollu çayın qırağında, yeddi dağın ətəyindəki vadidə daşdan doxsan künclü "orqöö" (saray-yurd) qurulmuşdur. Bu sarayın girəcəyində at bağlamaq üçün doqquz günclü (qırlı) kirşüşü dirək dayanır. Onun bir ucu yer altına, o biri ucu yuxarıdakı dünyaya gedir, ortası isə Maaday Qara batıra məxsusdur".[1] Göründüyü kimi, burada poetik şərtilik və coğrafi qeyri-müəyyənlik vardır. KDQ-də isə məkan coğrafi və epik olmaqla professor T.Hacıyevin tarxilik və bədiilik formuluna uyğun olaraq əllinin əlliyə nisbətindədir. Göyçə dastanlarında isə epik məkanla coğrafi məkan bir-birinə bərabərdir; burada müəyyənləşmiş bir məkan fondu, panorama vardır, bu da dövrün öz tarixi reallığıdır.

---

1. Б.Н.Путилов. Героический эпос и действительность. Л., наука, Ленинградсое отделение, 1988, с. 18.
2. Yenə orada. s. 18-26.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

v) Mətn-zaman münasibəti

"Eposda temporallığın təhlili ən azı üç əsas bədii aspekt zamanının ayırd edilməsindən başlanmalıdır"[2]; "Eposda zaman"ı B.N.Putilov bu şəkildə müəyyənləşdirir: təhkiyə zamanı, süjet zamanı və epoxal zaman[3]. Müəllif ən'ənəvi, (artıq elmi ən'ənədə olan nəzərdə tutulur) hadisəvi və süjet zamanlarına da münasibətini bildirir və bu tipli bölgünü məqsədə müvafiq saymır. Zaman və mətn münasibətlərinin üç aspektini istisna etmədən, qeyd edək ki, ən'ənəvi mətnlərdə zaman özünü iki şəkildə göstərir: dəyişən (diaxron) və dəyişməyən (sinxron). K.Levi-Stros mifin strukturunu araşdırarkən üçüncü zaman sistemini aşkarlayır: sinxron-diaxron (dəyişməyən-dəyişən). Deməli, mətndə və həm də mətni törədən şüurda sabit, dəyişən və sabit olanın dəyişən mühitin içində kod, mə'lumat, sxem kimi səviyyələrdə transformasiya olunaraq arxetipi saxlayan dəyişmə forması vardır.[4]

Qədim türk epik sisteminin reallaşmış mətn tiplərindən dastan ölçülərinə uyğun gələn dövrümüzədək gəlib çıxmış "Yaradılış", "Alp Ər Tonqa", "Oğuz Kağan", "Göy türk", "Ərgənəkon", "Şu", "Siyen-pi", "Köç" və s. əsərlər yarandığı zamandan çox gec yazıya alındığına görə zəif informasiya daşıya bilirlər.

Onlar qəlpələnərək son minillikdə yazılmış abidələrə bu və ya başqa dərəcədə səpələnmişdir. Bu baxımdan "Qədim türk dastanları" bir anlayış kimi həm də ona görə şərtidir ki, mənbələrdə həmin əsərlərin, əsasən "qısa məzmunu" və ya "süjeti" mühafizə olunmuşdur.[5] N.Cəfərovun da dəqiq müşahidələrində təsdiqləndiyi kimi dastanlardakı hadisə çox uzaq bir keçmişi

---

1. P.Xəlilov. Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı. B., Maarif, 1994, s. 116.

2. N.Putilov. Göstərilən əsəri. s. 22; Маадай Кара: Алтайский героический эпос. М., 1973, с. 33.

3. Yenə orada. s. 33-44.

4. К.Леви-Строс. Как умирают мифы, 77-88. Зарубежные исследования по семиотике фольклора. М., Наука, 1985, с.77.

1. N.Cəfərov. Göstərilən əsəri. s. 16.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təsvir edir (məsələn, "Şu" dastanında Makedoniyalı İsgəndərin yürüşü və onunla döyüşdən bəhs olunur), amma aparıcı ovqat, dünyagörüşü, etnik-ictimai emosiya isə məhz dastanların formalaşdığı və ya abidələrə daxil olduğu dövrü əks etdirir.

KDQ (a) də və "oğuznamə" (b) də zaman qəlibi aşağıdakı şəkildə özünü göstərir:

a-b) "İnal xan Sır Yavquyun dövründə" ("Oğuznamə". B., 1992 s.43) "Bayat boyından, Qorqut ata diyərlər, bir ər qopdı" (KDQ, B., 1988, s.31). "Bu Qorqud* Bayat nəslindən olub Qara Xocanın oğlu idi" (Oğuznamə. B., 1992, s.43). "Oğuzun ol kişi təmam bilicisiydi" (KDQ, B., 1988, s. 31), "Çox ağıllı, bilikli və kəramət sahibi bir kəs idi" (oğuznamə, B., 1992, s. 43). "Nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala (Tanrı) anın könlinə ilham edərdi..." (KDQ, B., 1988, s. 31).

"Qorqut ata Oğuz qövminin müşkilini həll edərdi. Hər nə iş olsa, Qorqut ataya tanışınca işləməzlərdi. Hər nə ki buyursa, qəbul edərlərdi, sözin tutub təmam edərlərdi... (KDQ. B., 1988. s. 31).

v) "Kayı (ilindən) Qara Xocanın oğlu Qorqud atanın, Salur (ilindən) Enkeş Xocanın və Avaşban Xocanın başçılığı ilə bütün oğuz eli yığıldı və Kayı elindən olan İnal Yavını padşah seçdilər. Onun vəziri Qorqud ata idi. Və Qorqud ata nə desə, padşah onun sözündən kənara çıxmazdı. Qorqud ata bir çox qəribə işlər gördü. O, iki yüz doxsan beş il yaşamış və üç padşahın vəziri olmuşdur." (Əbül Qazi. s. 57; Oğuzname, B., 1987, s. 70; s.112, bax: 188-ci qeyd).

---

* "Bu Qorqud" ifadəsi çox zəif də olsa əski türk cəmiyyətində "qorqutluq" institutunun mövcudluğu haqqında informasiya verir. Ehtimal etmək olar ki, bu ya dini, ya da rəsmi siyasi tə'sisat olmuşdur; tə'sisata daxil olanadək o "Bayat Dədə kərənçikdir". Bu artıq əski "ata"lıq institutudur.

Patriarxal münasibətləri ifadə edir. Tərəkəmə-elat (Oğuz-türkman arealı) mühitində "ata" semantik strukturun bütün elementləri ilə birgə "dədə" yə transformasiya olunmuşdur.

Ehtimal etmək olar ki, "Qorqud Ata" müxtəlif tarixi mərhələdə mövcud olmuş iki inam sistemini özündə ifadə edir:

1) "Ata" və "atalıq" institutu; Tanrıçılıq sistemində peyğəmbər statusundadır və ona bərabərdir. Bu kontekstdə "Ata" peyğəmbərdir. Onun müqəddəs kitabı "Qorqud Ata" kitabıdır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

2) "Qorqut" çox əski bir inamdır; hami ruhdur; qurdla bağlıdır; qurd totemidir; "A-şina" ilə bağlı əfsanələr kontekstində izah oluna bilər. Vatikan nüsxəsində "Qorqurt" yazılış şəkli (bax: KDQ ensiklopediyası. s. 311. V yuxarıdan aşağı III sətir) orfoqrafik bir xəta olmayıb, katibin "Qorqud" adı ilə bağlı əlavə informasiyasının olduğundan xəbər verir; bu anlamda "Qorqut" "qoru qurt" (qoruyucu qurd) kimi izah oluna bilər. Hami ruh kimi əski türk şaman panteonunda, ata (peyğəmbər) kimi tanrıçılıq sistemində (Göy tanrıçılığı; müşahidələrimizə görə "Yer tanrıçılığı" monoteist inam deyildir və heç təsadüfi bir xarakter daşımadan M.Kaşqarlı "divan"ında "Yer tanrıçılığına inanan türklər "kafir" adlandırılır, müqayisə et: "Lə'nətə gəlmiş kafirlər dağa bənzər şeylərə də Tanrı deyirlər").

"Qorqud" nə qeyri müəyyən bir mifoloji obraz, nə də müəyyən bir tarixi şəxsiyyətdir. Əski çağın reallığına görə bu konkret olaraq "qurd"** (börü, gök börü, canavar) kimi təsəvvür olunmuşdur. Hami ruh kimi, (animizm səviyyəsi) totem kimi (totemizm səviyyəsi) təsəvvürlərdə oturuşmuş Qorqud (qoruyucu qurd, xilaskar qurd) mifopoetik qavrama prosesində sakral (xilaskar, şaman, ata, peyğəmbər) və real (kahin, ozan, ağsaqqal, müdrik şəxsiyyət) olaraq semantik üzvlənmişdir. Əski türk cəmiyyətində "qorqutçuluğun" özündə nəyi ehtiva etməsi geniş təsəvvür olunmasa da "KDQ"-də və "Oğuznamə"lərdə bunu tarixi şəxsiyyət kimi Qorquda transormasiya olunmuş informasiyaların funksional semantikasından müşahidə və qismən bərpa etmək mümkündür. Qorqud adının antroponim kimi onomastik sistemə daxil olması sonrakı prosesdir və öncə bildirilən hipoteza türklər - oğuzlar arasında Qorqud adlı şəxsiyyətin - boy başçısının, tanrıçı peyğəmbərin (Atanın), Qorqud adlı şaman kahininin, Qayıların, Bayatların, Kınıkların, Bayandurların hakimiyyəti zamanında və hətta konkret olaraq Salur Qazanın (Qazan xan Hülakinin), yaxud Qara Osmanın eyni adlı vəziri olması da qətiyyən istisna təşkil etmir. Bununla yanaşı "KDQ"-də saxlanmış informasiyanın islam redaksiyasından kənarda olan hissəsi (İslam redaksiyasının isə bərpa olunması mümkün olan hissəsi) İslamdan çox öncəki qədim və zəngin türk - oğuz mədəniyyətinin və ədəbiyyatının geniş mənzərəsini təqdim edə bilir.

** Qurd obrazının funksional semantikasının "us böri" və "or böri"yə üzvlənməsi M.Kaşqarlının "Divani lüğət it-türk" kitabında saxlanan informasiyadan müşahidə olunur. "Divan"da bununla bağlı qarğış mətni ("səni yesin or böri") də vardır. "Or böri"nin (DLT, B.Atalay nəşri. Ankara 1992, I cild, s. 172; "Endeks", s. 440) rəng bildirməsi, qızılı rəngə çalan boz qurd (boz qırmızı) anlamına gəlməsi mümkündür. "Böri" qurddur. M.Kaşqarlının mə'lumatına görə oğuzlar böriyə qurd deyirlər. "Or" sözünün başqa mə'nası isə "gəsmək, biçmək, vurmaqd"ır (bax: DLT, "Endeks", s. 440); "us" sözü DLT-də aşağıdakı mə'nalarda göstərilib: "us"-xeyir və şəri ayırd edən (etmək) (oğuzca); "us" - kərkəs quşu (üs); "us" - susuzlamaq; "us" - sanmaq (oğuzca); (bax: DLT. "Endeks", s. 699); İfadədəki "us"un birinciyə uyğun olduğu görünür. Beləliklə, "or böri" - cəza allahı, "us böri" isə ədalət allahı kimi anlaşıla bilər. "Qurd" obrazı ilə bağlı araşdırmalarda bu tamamilə yeni bir kontekstdir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ən'ənəvi mətnlərdə epoxal zamanın "qədim zamanlarda" (nağıllarda), "Nuh əyyamında" (danışıqda), "İsgəndər Zülqərneynin zamanında" (bə'zi əski mətnlərdə), "Rəsul əleyhüssəlamın zamanında" (KDQ-də) və s. şəkildə onlarla ifadə forması mümkündür. Məsələn, KDQ-nin İslamdan öncəki dastan formasında zaman qəlibi hökmən "Qorqud ata adlı bir ərin qopmasını" Oğuz xanın zamanına" aid etməli idi və yaxud onun ən mümkün formalarından biri budur.

KDQ-də "Rəsul Əleyhüssəlamın zamınına yaqın" ifadəsi zaman qəlibi kimi izomorf təbiətlidir. Burada qətiyyən görünməyən bir məkan anlayışı da vardır. Bu məkan sakral mahiyyətlidir və peyğəmbərlik statusunun xüsusi işarəsidir. Dastançı ozan, katib və hətta yazıçı olsa belə türk dastan informasiyasının daşıyıcı subyektidir və öz əski kökünü, əski inamını, öz peyğəmbərini (atasını) unutmur; onu gerçək mövqeyində, peyğəmbər statusunda təqdim edir. Tanrıçılıq epoxasından İslama keçid, kültürdə baş verən qlobal "sivilizasiya dəyişməsi" şəraitində Oğuz cəmiyyətinin öz mə'nəvi-ruhani dəyərlərini yeni sistemə adlatmağın mümkün yollarını aramağı zəruri etdiyi də KDQ və "Oğuznamə"lərdən müşahidə olunur. Əslində Qorqud ata R.Ə.-nin zamanından daha çox onun məqamına yaxındır. Sonrakı informasiyalar da bunu təsdiqləyir.

Göyçə dastanlarında epoxal zaman Şah İsmayılla başlanır. Bu keyfiyyətcə yeni bir hadisədir; milli doğuluşdur, mədəniyyətdə və siyasətdə intibahdır. Daha çox mifogenoloji türk soy şəcərəsini (geneoloji sxem) təqdim edən Oğuz xanla başlanan epoxal zaman türk etnik-mədəni intibahının əski reallığı haqqında informasiya kimi anlaşıla bilər. Dədə Qorqud boylarında əski informasiya İslam dəryasında parlayan türk inciləri kimi məhz İslam intibahını bəzəyir. Göyçə dastanlarında isə zaman da, inam da, hakim də, dövlət də, mədəniyyət də türkündür. Xızırdan, Həzrət Əlidən, Rəsul Əkrəmdən və ondan da öncə ilk türk Tanrıçı peyğəmbəri (Atası) Oğuz xandan gələn xilaskar - ata, xilaskar - əcdad kultu birbaşa Oğuz dövlətinin (səfəvi xanədanının) başçısı İsmayıl Şeyx Heydər oğluna transformasiya olunur; pirə, mürşidə, övliyaya differensiallaşma bir şəxsin simasında sintezləşir və Şahi Mərdan statusunda ən yüksək sakral pilləyə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yüksəlir. Klassik dastanlardan fərqli olaraq Göyçə dastanlarında zaman realdır. Təbii ki, bu da şüurun gerçəkliyə münasibətinin təbii təzahürü kimi anlaşıla bilər. XVI-XX əsrlərin dinləyici auditoriyası zamanı və məkanı məhz reallıq kontekstində tələb edir.

Göyçə dastanlarında Şah İsmayıl obrazı. Öncə qeyd edim ki, bu ən'ənə (dövlət başçısının epik qəhrəmana çevrilməsi), əski türk dastançılığından gələn ən başlıca istiqamətlərdən biridir. "Oğuz Kağan", KDQ-də və b. dastanlarda belədir.

Bu mə'nada "Miskin Abdalnan Şah İsmayıl" dastanını tarixi məzmuna malik dastan kimi səciyyələndirmək olar. Dastanın süjetində əsas yer tutan Miskin Abdalın, Şah İsmayılın, Sultan Səlimin, Əlvənd Mirzənin və başqalarının adının çəkilməsi dastanın süjetində müxtəlif mövqe tutmağı bu fikri irəli sürməyə əsas verir. Şübhəsiz ki, dastanın əsas baş qəhrəmanı Miskin Abdaldır. Onun Səfəvilər hakimiyyətinin ilk illərində sarayla bağlı olması haqqında müxtəlif rəvayətlər dastanda da əks olunmuşdur. Şübhəsiz ki, Şah İsmayılın ana dilinə böyük əhəmiyyət verməsi, özünün də ana dilində xalq şe'ri üslubunda qoşma və gəraylılar yazması, xalq sənətkarlarına böyük qiymət verməsi, onların bir çoxunu saraya yığması da bu dastanın yaranmasında müəyyən rol oynamışdır.

O da mə'lumdur ki, dastanlarımızın içində öz əsasını tarixi hadisələrdən almış başqa bir sıra dastanlar da vardır.

Prof. Təhmasib də bu məsələyə bir qədər daha geniş anlamda yanaşaraq, göstərmişdir ki, əsil həqiqətdə bizim dastanların elə hamısı tarixi əsərlərdir. Məsələyə bir qədər ümumi şəkildə yanaşılsa, tarix olmayan heç bir əsər, o cümlədən heç bir dastan yoxdur.[1] Sadəcə olaraq real tarix folklorun, ədəbi-bədii sisteminin spesifik qəliblərinə dolaraq fərqli keyfiyyət qazanırlar. Ədəbi" mətndən informasiyanı ala bilmək üçün "mif dilini", "folklor dilini", ədəbi dili bilmək onun spesifik qanunauyğunluqlarını mətn təhlilində nəzərə almaq vacibdir.

Ancaq bununla yanaşı tariximizin müəyyən hadisələri ilə səsləşən bir çox dastanlar da olmuşdur. Adı aşıqların dilində böyük

---

1. Təhmasib M.H. Azərb. Xalq dastanları, səh. 152.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məhəbbətlə çəkilən Şah İsmayıl haqqında müxtəlif tipli dastanlar yaranmışdır. Belə dastanlardan biri "Şah İsmayıl və Taclı bəyim"dir. Bu dastan da şübhəsiz ki, tarixi hadisələri bütöv olduğu kimi əks etdirmir. Bu dastanda çətin məqamda Xızır peyğəmbər şahın köməyinə çatır, onu çətinlikdən qurtarır.

Göstərmək lazımdır ki, bir çox dastanlarımızda elə şah Xətai də xeyirxah hami, müqəddəs şəxs kimi yüksəklərə qaldırılmış, hətta Əli kultu ilə birləşməyə başlamışdır. Bu heç də təsadüfi deyildir.

"Xətai əzəmətli dövlət yaratmış, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmış, özü də bu dildə siyasi təbliği rübabi şe'rlər, böyük poemalar yaratmış, Azərbaycan dilində yazıb-yaradan bütün sənətkarları da öz himayəsi altına almış, doğma ədəbiyyat üçün doğrudan da "tikandan bərgi-gül izah edən növbahar" yaratmışdı.

Xətai çox mürəkkəb xarakterli bir şəxsiyyət olmuşdur. O, bir tərəfdən bir barmaq işarəsi ilə minlərlə insanın mürşidi, üçlər, yeddilər, qırxlar, ərənlər piri uğrunda candan keçməyə çağıran din xadimi, bu yolda ona düşmən çıxanlara heç bir güzəştə getməyən, kiçik bir saymazlığı belə cəzasız buraxmayan bir şah, döyüş meydanlarında ən heybətli pəhləvanlarla təkbətək vuruşan, meşələrə, dağlara tək başına şir-pələng ovuna gedən bir cəngavər, digər tərəfdən isə hər şeyi eşqə, məhəbbətə qurban verməyə hazır olan bir şair idi. Əgər onun bir neçə əsr əvvəl yaşamış sələfi "Eşqdir mehrabı uca göylərin" demişdisə, o da "Məhəbbətdən keçən haqdan keçər" deyirdi.

Beləliklə, Xətai özünün mürəkkəb əhatəli çoxcəhətli keyfiyyətləri ilə cəmiyyətin bütün təbəqə və zümrələrinin məhəbbətini qazanmış məhz bu mə'nada Əli kultu ilə birləşməyə başlamışdır.[1]

"Miskin Abdalnan Şah İsmayıl dastanında da Şah İsmayıl Xətai müqəddəs bir şəxs kimi verilir. Həqq aşığı Miskin Abdal ən səmimi misralarını yaratdığı musiqi havalarını onun adı ilə bağlayır. Şah seçilərkən İsmayıla ilk xeyir-duanı da Miskin Abdal verir.

---

1. Təhmasib M.H. Azərb. Xalq dastanları, səh. 152.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"İsmayıl qırmızı geyinif şahlıq tacını da başına qoyuf taxta əyləşdi. Şahlıx şərbətini Miskin Abdalın əlinnən alıf nuş elədi. Şaha ilk xeyir-duanı Miskin Abdal verdi. Təbriz coşa gəlmiş bir ümman kimi coşuf çağlıyırdı. Aşıxlar da heş kəsə aman vermirdilər. İsmayılın özünnən Göyçədən gətirdiyi on iki aşığın sazı-avazı və zənkulələri bütün Təbrizi başına götürmüşdü. Bu şadyanlığa dünyanın hər yerinnən qonaxlar təşrif buyurmuşdular. Elə ki, saz-söz meydanı Miskin Abdala verildi, hamı susdu. Miskin Abdal meydanın bir o başına getdi, bir bu başına getdi, telli sazını sinəsinə basıf, aldı görək nə dedi:

Bu tac, bu taxt qılınc vəfa,
Şıx oğlu Şah İsmayıla
Xızır Nəbi ol Mustafa
Olsun pənah İsmayıla.

Haxdan yerə gəlir bir səs,
Bəxtin üzü dönməsin tərs.
Qır qazana düşər nakəs,
Etsə günah İsmayıla.

"Miskin Abdalnan Şah İsmayıl" dastanında da bir çox dastanlarımızda, aşıq şe'rlərində olduğu kimi Şah Xətai ideallaşdırılır. Öz dövrünün hökmdarından daha yüksəkdə durduğu məhəbbətlə tərənnüm edilir, hətta məğlub olduğu döyüşdə də qeyri-adiliyi, gücü mübaliğə edilir.

Miskin Abdal məhz buna görə də yaratdığı divanini onun adı ilə bağlayır. Burada həm də maraqlı cəhət odur ki, bu dastanı yaddaşlarında yaşadıb gətirən Göyçə aşıqları o inamda olmuşdur ki, bir çox saz havalarının, elə sazın özünün də yaradıcısı Miskin Abdal olmuşdur:

"Mikin Abdal dedi:

– Qibleyi-aləm saz-söz sənətində divani ilk dəfə salınıf, oxunduğu üçün adını "Baş divani" qoymuşam. Buna həm də şahımızın ad-sanına, şərəfinə layiq olaraq "Şah divani" də demək olar.

Bunu eşidəndə Şah İsmayıl çox xoşhal oluf dedi:

– Yaxşı ustad, bəs ilk divaninin adı nədi?

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Miskin Abdal sazı sinəsinə alıf dedi:

– Qibleyi-aləm çalıf oxuyaram, bilərsən. Bunu deyif telli sazını dilə gətirdi.

Könülləri riqqətə gətirən bir avaznan "Şah divanisi" üstündə dedi:

Bu bismillah əzbərimdi, hey xudadan, ya Əli,
Ən ibtida gəldi səda, ərşi-əladan, ya Əli.
Badi-sərsər, lahu qələm, oldu dünya olmamış,
Bir Cəbrayıl qalxdı göyə ol dəryadan, ya Əli.

Səmi- aləm mahi aşkar zülmətdən var pərdəsi,
Sey sərridən səda gəldi, Cəbrayıl çəkdi bəzsi.
Həqiqəti düz bilmədi tərsə döndü kəlməsi,
Alışıf yandı şahpəri oldu, fərman ya Əli.

Yandı şahpəri endi, nələr gəldi yadına,
Xaki kəlam verdi salam yetişdi muradına,
Haqq-taala dedi rəhmətdər ustadına,
Hər tərəfdən səda gəldi əhsən, əhsən ya Əli.

Hər kəlmədə tə'rif edir, Qur'anda ayət səni,
Cəmi kəlmədə övliyadı, yazır əhli-zat səni.
Həbib özü tə'rif edir külli vilayət səni,
Zahirdə təvəllüdsən, sirri-sübha ya Əli.

Göyçəli Miskin Abdalam, yoxdur heç bir günahım
Hər kəlmədə, hər ayədə sən ol mənim pənahım.
Puli-sirat haqq divanda ol xudadan köməyim,
Vəli sənsən, vəkil sənsən, şiri yazdan ya Əli.

Göyçə dastanlarında Miskin Abdal obrazı

Dastanda Miskin Abdalın özü də müqəddəs bir şəxs kimi verilir. Onun kəramət sahibi müqəddəs bir şəxs olduğu təbliğ olunur. Misal üçün: Şah qoşunun ac qaldığını, azuqənin qurtar-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dığını bildirib, çətin vəziyyətdə qaldıqlarını söyləyəndə Miskin Abdalın mö'cüzəsi hər şeyi aradan götürür:

"– Şahim icazə versəydi, qoşunu yedizdirif, doyuzdurardım.

Şah İsmayıl təəccübnən soruşdu:

– Ustad, mən bir qüdrətli ölkənin şahı ola-ola bunu eliyə bilmədiyim halda sən nejə eliyəjəksən?

Miskin Abdal əvvəlki inam və qətiyyətnən dedi:

– Şahım sən mənə izin ver, sonrasınnan işin yoxdur.

Bu sözdən çaşqın qalmış şah istər-istəməz icazə verdi. Sonra Miskin Abdalı diqqətnən izdəməyə başdadı ki, görsün bu qədər yeməyi hardan alıf döyüşçülərə paylıyajax. Gördü ki, Miskin Abdal xurcunnan bir kömbə çörək, bir badya qatıx çıxartı. Əskərrərə bir kömbədən və qatıxdan bölüf verdi. Payladıxca nə bu kömbə çörək, nə də badya qatıx qurtarmırdı ki, qurtarmırdı. Hələ bir az da artıx qaldı. Bunu görən şah heyrətə gəldi. Onsuz da Miskin Abdalın kəramət saibi olduğunu bilirdi."

Bu epizod da göstərir ki, "Miskin Abdalnan Şah İsmayıl" dastanında bir çox şəxsiyyətlərin həyat fəaliyyəti, bu və ya digər dərəcədə əks olunsa da ayrı-ayrı tarixi hadisələr, məişət təsvirləri, özünə yer tapsa da, bir çox dastanlarımızda olduğu kimi arxaik motivlər, ən'ənəvi təsvir üsulu əsas yer tutur. Miskin Abdala haqq vergisi verilir, o, ocaq, kəramət sahibi olur.

"Bir gejə Miskin Abdal yatıf aləmi röyadə gördü ki, güllü-çiçəkli uca bir dağın başındadı. Ordan baxanda dünyanın hər yanı lap aydın ovuc içi kimi peyda oldu. Onun üzündəki nur dörd yana işıq saçırdı. Ədəfnən salam verif, əleyk aldı. Sonra atdan düşüf mehribanlıqla Miskin Abdala baxıf dedi:

– Oğul, məni tanıyırsanmı?

Miskin Abdal özündə güj tapıf, onun üzünə:, günəş ziyası qədər işıxlı gözdərinə baxıf cəsarətnən dedi:

– Yox, bava.

– Miskin Abdal bil və agah ol, darda olannarın dadına çatıf, onnara kömək eliyən Həzrəti Əli mənəm. Allahın on iki imamlarının əvvəlincisiyəm. Mən sana böyük Yaradanın misilsiz payını, qismətini gətirmişəm.

Bundan sonra Həzrət Əli Miskin Abdalın başına gələcək hadisələri xəbər verir. İkinci dəfə evlənəcəyini, dörd uşağı olaca-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ğını övliya məqamına" yüksələcəyini xəbər verir. Yuxuda haçadil atın onun qisməti olduğunu da söyləyir. Elə həmin gün qeyriadi hadisə baş verəcək qayanın parçalanması nəticəsində Allahtala tərəfindən sənə bir ojax peyda olajax. Hiss eliyəjəksən ki, namaz otağında dördkünc taxta bir təpə var. həmin təpəni əlinə götürməmişdən əvvəl üç dəfə salavat çöyür. Bu sənin övliyaya çevrilməyinnən ilk nişanəsidi. Savah sübh açılanda gejə ildırım dağıdan qayanın yanına qalx. Burada bütün kənd əhli toplanacax. Orada siz mö'cüzə görəjəksiniz. Dağılmaz qayanın altındakı iri bir daşın arasından çox kiçik bir çinar ağacının zoğunu görəjəksiniz. O ildən-ilə böyüyüf böyük bir ağaca çevriləjək. Hər axşamı şər qarşandan sonra burada bir şam yanajax. Adamlar dağılmış iri qaya parçalarınnan yaxınnıxdakı evlərə heç bir zəfər toxunmadığını görüf heyrət edəjəklər. Sən birdən yaranan bu dumduru durna gözü kimi təmiz bulax suyunnan hamıdan qavax bir qav götürüf evə gəti və qeyifdən sana nazil olmuş taxta çanağa tök. Soyux su burada öz-öznə qaynamağa başdıyajax. Bu mö'cüzə hamıyı heyrətə gətirəjək. Sonra sən hamının gözü qarşısında çanaxdan çeşmə suyunu axıra qədər içif qurtararsan. O günnən sən böyük yaradanın yanında müqəddəs bəndə hesav ediləjəksən. O günnən sonra hər yerdə sənnən danışajaxlar. Ojağının qonax-qarası kəsilmiyəjək. Xoş niyyətnən bu otağa təşrif gətirənnərin üzünə çanağa tökülmüş bulax suyu qayniyıjax. Bəd əməlli adamlar ojağa gələndə su tərpənmiyəjək, ləm durajax. Bu ojax könüllərin məlzəmi, insannarın and yeri olajax. Sən dünyadan köçənnən sonralar da adını zaman-zaman yaşıdajax. Sənin dediyin sözdər, yaratdığın saz havaları, göstərdiyin mö'cüzələr səni əbədi yaşadajax.

Nurani müdrik şəxsin dedkləri hadisələrin sonrakı inkişafında tamamilə reallaşır.

Bu ən'ənəvi motiv nağıl və dastanlarımızda geniş yayılıb.

"Qəhrəman gec və ya tez, bu və ya digər şəkildə sehrli qüvvələrlə əlaqəyə girir, bu da fantastik süjetin yaranması üçün zəminə çevrilir. Həmin funksiyada qeyri-adi insanlar, fantastik varlıqlar, quşlar, heyvanlar və b. iştirak edirlər. qəhrəman xeyirxah sehrli qüvvələrin və ya əşyaların köməyilə şər qüvvələrə qalib gələ bilir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çətin səfərə yola düşən qəhrəman, bədxah qüvvələrin şərinə mə'ruz qalan kimsəsizlər, köməksizlər, müdrik məsləhətçinin köməyilə istəklərinə yetirlər. Çox vaxt onun verdiyi sehrli vasitə qəhrəmanın çətin anlarda köməyinə çatır. Həmin funksiyada çox vaxt nurani qoca çıxış edir. Bu işıqlı müdrik və xeyirxah qoca qəhrəmanı məqsədinə çatdırır, ona doğru yol göstərir. Qəhrəman gələcəkdən xəbər verən müdrik qocanın sözünə danışıqsız əməl etməsilə istəyinə yetir. Müdrik qoca öz məsləhətini o şəxslərə verir ki, o haqq və ədalət uğrunda şər qüvvələrlə vuruşur, özündə xalqın arzu və ümidini ifadə edir və ona yoldaş olur.[1]

Miskin Abdala da yuxuda vergi verilməsi təsadüfi deyildir. O, haqqa çatmaq üçün mö'cüzələrə, kəramətlərə sahib olmalıydı.

Dastandan da göründüyü kimi Miskin Abdal Göyçə mahalında və, ona qonşu olan diyarlarda sufi təriqətinin nüfuzlu, müdrik, sinədəftər bir saz şairi kimi hörmət və şöhrət sahibi olmuşdur. O, bədahətən şe'rlər qoşur, təsəvvüfü sirləri böyük bir ustalıqla açır. O, saz çalıb söz qoşmaqla qalmır, sazın-sözün şöhrətin el-el, oba-oba yayır. O, din məzhəb yolunun Abdalı olacağını qərarlaşdırır.

"Bu xəyallar içində o üzünü Allaha tutuf dedi: "Sənnən güdrətdi, sənnən qüvvətdi, heş kim, heş bir qüvvə yoxdu, hər şeyin yaradıcısı sənsən, hər şeyi yoxduxdan təkcə sən yaradırsan, nə qədər ömrüm var, yalnız sana qovuşmaq üçün yaşıyajam. Ömrüm boyu din-məzhəb yolunun Miskin Abdalı olajam, "ya Qadir Allah". Sonra əlini atıf sazını köynəkdən çıxartdı. Başdadı yavaş-yavaş dınqılllatmağa. Gördü ki, sazın kökü pozuluf. Baş pərdə üstündə sazı köklədi".

Miskin Abdala saz da, saz çalmaq da vergi kimi verilir. Ehtimal olunur ki, ona qədər saz və saz havaları da olmayıb. Göyçə aşıqlarının təsəvvürünə görə ilk aşıq elə Miskin Abdal olub, ilk saz havalarını da yaradan elə o olub. Onun saz çalıb söz deməyinin Şah Xətai kimi bir qüdrətli saz-söz sərrafını, görkəmli şair və hökmdarı heyran etməsi də qətiyyən təsadüfi deyil. Bu sənə-

---

1. Oruc Əliyev. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru. Bakı. Elm, 1999, səh. 19-20.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tin sirlərini belə yüksək səviyyədə bilməsi də vergili olması ilə bağlıdı.

"Ustad mən həm də sənin sözünün vurğunu, aşiqiyəm.

Miskin Abdal dedi:

– Sən həmişə var ol: şahım.

Şah İsmayıl dedi:

– Ustad görəsən saza ürəkdən bağlıyıf onu günəşlərnən, aylarnan, eşitməkdən doymurux. Bəlkə bunun da bir sirri var?

Miskin Abdal dedi:

– Bəli, qibleyi-aləm, onun böyük bir sirri var.

Şah İsmayıl dedi:

– Nədi o sirri?

Miskin Abdal dedi:

– Qibleyi-aləm mən hələ balaca uşaq idim. Atam məni əvvəlcə molla yanına qoydu, orada dərsimi aldım. Sonra döyüş sirrərini öyrəndim. Daha sonra atam məni Göyçənin dəliqardaş kəndinnən olan Ozan Heydərin şəyirdi olmuş Ozan İbrahimin yanına şəyirdliyə qoydu. Az vaxtda qopuz çalmaxnan ustadımı mat qoydum. Ancaq nə qopuz, nə də onda çalınan havalar məni qane eləmirdi. Hey düşünürdüm ki, qopuza oxşar musiqi aləti yaradım. Gejə-gündüz səbr-qərarım yoxuydu. Fikrim xəyalım yalnız oradaydı. Bir gün yuxuda gördüm ki, bir nurani qoja mana yaxınlaşdı, mehribançılıqla saçımı sığallayıf dedi:

– Oğul, sözdərimə yaxşı qulax as. Görürəm çox nigaransan, nigaran olma.

Get qadir Allahın köməkliyinnən səni bu sıxıntılardan azad eləməyə gəlmişəm.

O bu sözdəri deyif mana bir saz göstərif dedi:

– Sabah gedərsən filan ustanın yanına. O səni görən kimi tanıyajax. Çünki, mən onun da yuxusuna girif nə lazımdı demişəm. Sonra ürəyinə yatan bir çalğı aləti düzəltdirif verəjəm. Onun adı sazdı. Sazı gördüyün kimi ürəyi oxşuyur. Sən onu qopuz kimi dizinin üstündə yox, ürəyinin üstünə qoyuf üzü Allaha doğru çalajaxsan. Çünki sazın incə, gözəl səsində Allah eşqi var. Sazı çalana ozan yox, aşıx deməlisən, sana saz kimi əvəzsiz bir qismət verirəm. sazına-sözünə görə adın dillərdə əzbər olajax. Dünya neçə qərinə doluf, boşalsa da sən hörmətnən yad edi-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ləjəksən. Bu sənət sənin adınnan qalajax. Bunu deyib qoja qeyb oldu. Mən yuxudan ayıldım. Gördüyümü atama danışdım. O məni həmin ustanın yanına apardı. Usta məni görən kimi tanıdı. Sazı düzəldif verdi, sazı əlimə alıf baxanda elə bildim ki, dünya mənimdi. Onu ürəkdən çalmağa başladım. Başıma xeyli adam toplaşdı. Onda sazı görüb çox təəccübləndilər. Mən gördüyüm yuxuyu onnara danışdım. Usta da belə bir yuxu gördüyünü söylədi. O günnən başladım Allah vergisi və eşqi olan sazı ürəyimin başında çalıf oxumağa.

Dastanda aşıqlığın ədəb-ərkan qaydaları, el içində durub oturmağı, həyatı, fəaliyyəti, arzuları, ideyaları ilə bağlı səhnələr də mühüm yer tutur. Elə bil ki, dastan bütövlükdə aşıqlığın prinsiplərinin konsepsiyasını, açıb təqdim edir. Bunlarda mifik, magik və mistik motivlər ailə-məişət təsvirləri müəyyən tarixi hadisələrlə qaynayıb-qarışmış şəkildə təqdim olunur. Miskin Abdal haqqa tapınan aşıqdır. Ən ali mə'nəvi məqama ucalmağa şəriət, təriqət, mə'rifət, həqiqət mərtəbələrindən keçib haqqa qovuşmağa can atan bu əqidə sahibi sufi təriqətinin əsil təbliğatçısı və mürşididir. Ən abstrakt mistik təsəvvür ideyalarını el müdrikliyi və sadəliyi ilə mö'cüzəli bir dillə birləşdirə bilir. Miskin Abdal dastan boyu müqəddəs bir şəxs kimi verilir. Onun poeziyasında insan, dağlar, təbiət, gözəlliklər, hamısı həm mə'nəvi, həm də mə'cazi kontekstlərdə şifrələnir, sufi simvolika ilə açıqlanır. Ustad sənətkar insanları aliliyə çağırır, hikmət dolu şe'rlərində ən ali ideyaları təbliğ edir, aşıq sənətinin sirli-sehrli dünyasını açıqlayır.

"Bu vaxt cavan bir aşıx onun əlinnən öpüf yazıx-yazıx dedi:

– Ustad başına dönüm dədənə qurvan olum, atam-anam sana fəda olsun, mən əlimə təzə-təzə saz götürüf aşıxlıx eləmək istəyirəm. Ancaq bilmirəm aşıx, necə olmalıdı ki, onun el içində hörməti olsun.

Miskin Abdal dedi:

– Bala, bunu çox sənn kimilərinə demişəm. İndi deyim sən də eşit. Ama bu sözlərimi sırğa elə qulaxlarınnan as. Bunnarı unutsan aşıx olmuyajaxsan.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq kəşt eliyif ağır elləri
El içində namus, arı unutma
Hər yanı gəz, təmiz saxla adını
Dost yanında e'tivarı unutma.

Halal mala haram qatmax nə lazım
hədər yerə kəmənd atmax nə lazım
Hər yetənə yalan satmax nə lazım
Əhd-peymanı, düz ilqarı unutma.

Miskin Abdal bir qonaxsan dünyada
Könlün bir dəryadı ürəyin ada,
İstəsən ki, yetişəsən murada
Yaş torpağı, dar məzarı unutma.

Biz üç dastanı - "Miskin Abdal", "Miskin Abdalnan İsmayıl", "Asdan şahnan İrvahım" dastanlarının ustad sənətkar Miskin Abdalın yaradıcılığının məhsulu olduğu qənaətindəyik. Aşıq yaradıcılığının sonrakı dövrlərindən də bəlli olduğu kimi, ustad aşıqların bir çoxu həm də dastan yaratmış və bu sənətin nümunələri ağızdan-ağıza, əsrdən-əsrə keçərək gəlib zəmanəmizə çıxmışdır. Şübhəsiz ki, yaradıcılıq prosesində həmin nümunələrə müəyyən əlavələr də edilmiş, dəyişikliklərə uğramış, cilalanmış, formalaşmış, hər bir dövrün, ifaçısının müəyyən əlavələri də burada özünə yer tapa bilmişdir. Hər halda biz o fikirdəyik ki, zəngin həyat və yaradıcılığı ilə seçilən Miskin Abdalın dastan yaradıcılığı daha zəngin olmuş, bu yaradıcılıq sonrakı aşıq yaradıcılığına böyük tə'sir göstərmiş, onun inkişafında mühüm yer tutmuşdur. Miskin Abdalın yaradıcılığının tədqiqi bu problemin hər tərəfli öyrənilməsinə imkan yaradacaq.

Göyçədə aşıqların repertuarında geniş yayılmış dastanlardan biri kimi "Miskin Abdalnan Şah İsmayıl" dastanı süjetinə, məzmununa, obrazlarına görə orijinal keyfiyyətləri olan dastandır. Hadisələrin məkan spesifikası və dastandakı üslubu nəzərə alaraq bu dastanı da Göyçə aşıqlarının yaradıcılığı hesab etmək olar. Göyçə aşıqlarının mə'lumatına əsaslansaq, bu dastanı da Haqq Aşığı Miskin Abdalın yaradıcılığı saymalıyıq. Lakin əldə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olunan bu dastan görünür ki, sonralar nədənsə unudulmuş, onun arı-ayrı epizodları xalq arasında rəvayətlər şəklində qorunub saxlanılmışdır. Dastanı yazıya aldığımız aşıq Abbaseli Abbasovun da e'tiraf etdiyinə görə, onun dastan şəklində yenidən yaranmasında ustadı Aşıq Əsədin və onun özünün böyük əməyi olmuşdur. Beləliklə, klassik dastanlarımıza xas olan zəngin dil, üslub və bədii ifadə vasitələri bu əsərdə lazımi səviyyəyə qaldırılmışdır. Daha doğrusu, dastanın bərpasında iştirak edən sənətkarlar nə qədər kamil olsalar da folklorlaşma prosesi getmədiyindən müasir nəsrə məxsus olan üslubi-poetik vasitə və fiqurlar özünü qabarıq bir şəkildə göstərmişdir. Amma bununla yanaşı burada tarixi hadisələrin əksi, bir çox tarixi şəxsiyyətlərin birbaşa adının çəkilişi, iştirakı, hadisələrin bir çox tarixi hadisələrlə səsləşməsi, zəngin ailə-məişət lövhələri dastan yaradıcılığımızın nə qədər orijinal, əvəzsiz bir sənətin məhsulu olduğunu göstərir.

Göründüyü kimi, "Miskin Abdalnan Şah İsmayıl" dastanı öz quruluşuna, poetik sisteminə görə qəhrəmanlıq və məhəbbət dastanlarımızdan fərqlənir. Bununla belə dastanda real tarixi məişət hadisələri ilə yanaşı, arxaik elementlər də mühüm yer tutur.

"Eposun genezisinin tarixi-tipoloji mənzərəsindən də göründüyü kimi, eposun "əcdadı" mifoloji hekayətlərdir. Həmin hekayətlərdən isə arxaik epos boy atır".[1]

"Nəticə e'tibarilə ümumi dastançılığın işlənməsində üç mərtəbəli bir inkişaf nəzərə çarpır.

1. Qədim Türk dastan yaradıcılığı

2. Ozan dastan yaradıcılığı

3. Aşıq dastan yaradıcılığı"[2]

"Miskin Abdalnan Şah İsmayıl" dastanını bu bölgüdə üçüncü qrupa aid etmək olar. Daha doğrusu, bu dastanı aşıq dastan yaradıcılığının ilkin nümunələrindən biri və yaxud birincisi say-

---

1. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası, Bakı, Elm, 2000, səh. 43.
2. Allahmanlı M. Türk dastan yaradıcılığı. Bakı. "Ağrıdağ" nəşriyyatı, 1998, səh. 31.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

maq olar. Buradan da ustad sənətkar "Miskin Abdalı" aşıq yaradıcılığının, onun yaratdığı ehtimal olunan Miskin Abdal, "Miskin Abdalnan Şah İsmayıl" eləcə də "Asdan şahnan İbrahimin dastanı"nı isə aşıq dastan yaradıcılığının ilk nümunələri kimi dəyərləndirmək olar.

Dastanların dilinə dair

"Miskin Abdal və Sənubər" dastanı gözəl təbiət mənzərələrinin təsviri, xalq danışıq dili ifadələri, danışıq dilinin sintaksisi baxımından da diqqəti çəkir.

Mə'lum olduğu kimi, müxtəlif səbəblər üzündən topolama nümunələrində uzun mddət söyləyicinin dil və üslubunun, danışıq tərzinin özünəməxsusluğunu, təbiiliyini qoruyub saxlamaq bir növ yaddan çıxarılmış, bir çox folklor nümunələri kimi aşıqların dilində də yazıya alınmış örnəklər, o cümlədən, dastanlar bir növ bədiiləşdirilmişdir. Dastanı hansı regionun aşığının söylədiyi bu nümunələrdə demək olar ki, hiss olunmur. Bu məsələ barədə söhbət açan prof. Kamil Vəliyev fikirlərini belə açıqlayır:

"Folklor dili Azərbaycan dilinin ədəbi örnəyidir. Bizcə, bədii dil üçün bu söz gerçəkdir. Nağıllarımızda, atalar sözlərimizdə, bayatılarda, dastanlarımızdakı dil sanki dil üstündə bir dildir, yığcamdır, sərrastdır, ən başlıcası isə bu dilə baxsan, bu dildə danışan xalqın özünü, düşüncə tərzini, duyum yönünü aydın görərsən, hiss edərsən...

Təəssüf ki, bu sahədə də çatışmazlıq çoxdur. Yazı dilinə, publisistik üslub normalarına alışan bir sıra tərtibçilər, redaktorlar nağılı öz hekayəsinə, dastanı öz romanına çevirir, sözün sərbəst, yerli-yerində olan sırası dəyişilir, eşitmə ilə oxuma arasındakı fərq unudulur, cümlələr sadələşdirilir. Şablon çərçivədə təqdim olunur. buna inanmaq üçün Azərbaycan SSR EA nəşri olan altı cildlik "Azərbaycan dastanları" ya beş cildlik "Azərbaycan nağılları" ilə H.Zeynallının, H. Əlizadənin, S. Mümtazın 20-30-cu illərdəki folklor örnəklərinin nəşri tutuşdurulsa bəs edər. Çox təəssüf ki, Azərbaycan folklorşunaslığının daşını qoyanların bu gözəl ən'ənəsi demək olar ki, unudulmuşdur."[1]

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Miskin Abdal və Sənubər" dastanının (eyni zamanda təqdim edilən digər dastanların) toplanması prosesində bu səhv mövqedən qaçılmış, Azərbaycan folklorunun əsasını qoyanların gözəl ən'ənəsinə riyaət olunmuşdur. Daha doğrusu, dastan yazıya alınarkən söyləyicinin dil və üslubunun, danışıq dilinin, sintaksisin qorunub saxlanmasına çalışılmışdır. Məsələn, sözügedən dastanda qəhrəmanın böyüməsi, yaşa dolması, xalq dili, "nağıl dili" ilə belə təhkiyə olunur:

"El ağzı fal olar, deyiflər, Hüseyn gündə bir buğda boyu yekəlif yeddi yaşına çatdı" (səh. 392); və yaxud: "Miskin Abdal gördü ki, atası bahar buludu kimi doluf. Atasını dindirən olsa, zulum-zulum ağlıyar" (səh. 399).

Dastan və nağılarımızda ən'ənəvi şəkildə işlənən formulların, ən'ənəvi ifadələrin ifası prosesində də bu prinsip tam dolğunluğu ilə müşahidə olunur. Söyləyicilərin ifa özəllikləri diqqət mərkəzində saxlanmış və yazı zamanı qorunmuşdur. Bə'zi nümunələrə müraciət edək.

"Bunu deyif, başdadılar yerin damarını qıra-qıra yol getməyə" (səh. 433);

"Qırxıncı gün gəcavə bəzəndi, atdar nəmərə durdu" (səh. 433);

Qeyd edim ki, bu cəhət (folklor dili) dastanın bütün süjetində, nəzm və nəsr hissələrində qorunub saxlanılmışdır. Aşağıdakı təbiət mənzərəsinin təsvirinə diqqət yetirək:

"...İlin o vaxtıydı ki, gül-gülü, bülbül-bülbülü çağırırdı. hər tərəf ala, yaşıla bürünmüşdür. Dan yeri təzəcə açıldığınnan hər yannan qoyun-quzu mələşməsi, at kişnərtisi, çovan tütəyinin yanıxlı səsi eşidilirdi. Bir yannan eldən, ovadan ayrılmax, bir yannan da bu gözəl mənzərələr Miskin Abdalın ürəyini parça-parça elədi, qəlbini cuşa gətirdi. Sazını sinəsinə sıxıf, aldı görək nə dedi:

Bahar vaxtı yol başdadım Təbrizə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı.
Öz elimdə mələkmisal gözəllər,
Yanax qaldı, dodax qaldı, tel qaldı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Savax-savax yarpaxlara şeh düşür,
Gül bülbülnən, bülbül gülnən öpüşür,
Asimanda ulduzdarı sayrışır,
Tufan qaldı, şimşək qaldı, sel qaldı.

Bu güllərdən dəstələ, al əlinə,
Miskin Abdal, apar canan elinə,
İzin versə, düz yarının telinə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı (s. 400).

Şe'rin alt qatında türk dünya modeli üst qatında isə həmin strukturda proyeksiya olunan estetik işarələr yerləşir. Gətirilən örnək ən'ənəvi olmayan təhlil modelində bir neçə semantik yarusda spesifik elementlər təqdim edir:

Qeyd: tel leksik vahidi əski türkcədədir "dil" deməkdir (məsələn, "ərdəm başı til" - Fəzilətin başı dildir. M.K. DLT). Onun "tük" anlamına gələn "tel" olmadığı da "yanaq, dodaq, dil" fizionomik kompleksindən aydınlaşır. "Tel" saç kompleksinə - qaş, kiprik, zülf və s. daxil ola bilər".

Göyçə dastanlarının sufi konteksti

Sufizm mövzusu olduqca geniş əhatə dairəsinə maikdir. Amma nəzərdən qaçırılmamalıdır ki, biz ən ümumi şəkildə sufizmin iki tipi ilə üzləşirik: xalq sufizmi və ortadoksal sufizm. Birincisi kökləri çox qədim zamanlara gedib çıxır və onu öyrənmək üçün informasiya ehtiyatları da məhduddur. İkinci isə orta əsrlərdə şərqdə formalaşmış ortodoksal islamın içində onun təməl prinsiplərinə zidd getmədən avtonom bir sistem təşkil edə bilmişdir. Sufizmin (II) sadə nəzəri modeli belədir "Dünyanın yaranması mütləqdən (əhədiyyə) insan dünyasına enmədir (tənəzzül). Əksinə, Yaradana qayıdış doğulmadır (tərəqqi) eyni pillələr üzrə özündə dörd etapı birləşdirir: şəriət (qanun), təriqət (yol), həqiqət, mərifət. Sonuncu etapa yetişərək sufi öz ayrıca "mən"ini və fərdi mövcudluğunu itirir. O Allaha – İlahi Eşqə qovuşaraq ekstaz məqamını yaşayır (fəna), bundan sonra tam transformasiyaya uğrayaraq dünyaya qayıdır və bundan sonra

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allahda əbədi həyat (bəqa) qazanır".[1]

Bu sufi mərtəbələri insan davranışının kamilləşməyə doğru inkişafının dərəcələrinə uyğundur. Sufi dünyagörüşü, sufi tə'limi və sufi təriqətləri orta əsrlər şərq kültür çevrəsində geniş yayılıb. Təsəvvüfün əksi türk xalq şüurunda və dünyagörüş sistemində kökləri Tanrıçılıq erasına, qam-şaman epoxasına, ozançılıq dövrünə – bir sözlə əski türk cəmiyyətinin həyatına, məişətinə və mədəniyyətinə bağlanır. Ərəb və İran tə'sirləri ikincidir. Təbii ki, əski türk dünyagörüşündə rüşeym halında olan sufi ideya öncə və hər şeydən əvvəl, monoteist inamla – tanrıçılıqla, Tanrı ideyası ilə bağlı idi. Tanrıya qovuşmaq, onda ərimək və bəqa əhlinə çevrilmək üçün mümkün sufi yolu Tanrıya məhəbbətdən (İlahi Eşqdən) başlanır: Ağız açıb əgər olsam, üstümüzdə Tən(q)ri görkli!

...(KDQ), s.32

Ol ögdigim yuca Tən(q)ri dost oluban
Mədəd irsün, xanım hey!
(KDQ, s.33)

Türk xalq sufizmi Tanrıya öygü şəklində özünü əski ədəbi mətnlərdə göstərir: "Allah-allah (Tən(q)ri- Tən(q)ri)" diməyincə işlər on(q)maz"

(KDQ, s.31)

Əski uyğur mətnlərində "Tanq Tenqri" təkcə şe'r örnəyi olmayıb, Türk Tanrıçılıq sistemində mövcud olmuş ritual elementidir. Həmin rituala görə Tanrı adı müəyyən bir sayda (bizə görə, üç dəfə) ritmik şəkildə (ehtimal ki, müəyyən intonasiya ilə) təkrarlanır. KDQ-də "Ağ alnunda beş kəlmə dua qıldıq, qəbul olsun!" (KDQ, s.51) deyimi xüsusi ritual kimi Tanrıçı türkün yüküncünün İslam namazına transformasiyasıdır. Türk xalq sufizmi əski dövrün mədəniyyət abidələrində bu və ya başqa şəkildə, xüsusilə mistik mahiyyət daşıyan elementlərdə müşahidə olunur.

"İslamiyyətdən öncəki qövmi ədəbiyyatla çox açıq əlaqələri olan təsəvvüf ədəbiyyatını" ərəb və əcəmlərin sufiyanə əsərlərini təqlid və tərcümə edən, əruz vəzni və dəbdəbəli bir dillə yazan

---

1. В.И. Брагинский. Малайские классические повести аллегории. 116-164. Теория жанров литератур Востока. М., Наука , 1985, с.121.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Türk şairlərinin yaratdığı ədəbi materialdan fərqləndirməyin zəruriliyini F.Köprülü xüsusi olaraq qeyd edib.[1] Deməli, Köprülüyə görə əslində Türk ədəbiyyatının üç tipi fərqləndirilir:

1. Şifahi xalq ədəbiyyatı (qövmi ədəbiyyat)

2. Təsəvvüf ədəbiyyatı

3. Şərq ədəbiyyatı (ərəb, fars, türk)

Körpülü onu da əlavə edir ki, "bütün qarşılıqlı tə'sirlərə və içinə aldığı geniş ölçüdə Əcəm ünsürlərinə rəğmən, bu təsəvvüf ədəbiyyatını... digərindən ayrı bir üzv kimi tədqiq edə bilmək mümkün və hətta zəruridir".[2]*

Milli ruhu göstərməsi baxımından çox qiymətli olan və əski xalq ədəbiyyatıyla sıx münasibətləri olan xalq təsəvvüf ədəbiyyatının uzun bir tarixçəsi vardır: Türklər, başqaları kimi qılınc qüvvətiylə deyil, sırf öz arzularıyla qəbul etdikləri islamiyyət dairəsinə girməmiş, yaxud girib də onun əqidələri və əsasları ilə layiqiylə uyuşa bilməmiş qardaşları arasında din təbliğatı aparmaqdan geri durmadılar. Məhz Türk ədəbiyyatının İslami şəkildə ilk intişarı bu surətlə dini bir mahiyyətdə oldu:

Bir çox türk dərvişləri yeni dini və təriqətlərini yaymaq eşqiylə köçəbə Türklər arasına gəlir və yeni məfkurəni onların anlayacağı bir dil və zövq ala biləcəkləri bədii bir şəkil ilə yaymağa çalışırlardı. Beləcə təməli qurulan təsəvvüf ədəbiyyatına Türklər arasında əsrlərdən bəri davam edib gələn xalq ədəbiyyatının bir model vəzifəsini görməsi məhz bu səbəbdəndir. Bizim görə bildiyimiz ilk səhifələrində, bəlkə də təbliğini bir qayə izlədiyi üçün, bir az quru və bəsit əsərlər verən bu ədəbiyyat əsrlər boyunca incələ-incələ türkün milli dühasını göstərəcək dərəcədə xüsusi bir mahiyyət almış, əcəm mütəsəvvüflərinin ən yüksək məhsullarıyla ölçülə biləcək əsərlər vücuda gətirmişdir. Ərəblərin və farsların analoji ədəbiyyatlarından fərqli olaraq bu xalq təsəvvüf ədəbiyyatı son dərəcə milli idi.

Türk epik informasiyası qəhrəmanlıq epoxasından alplıqdan (tanrıçılıq sistemində) və qazilikdən (İslam sistemində), çomaq

---

1. F.Köprülü, Türk ədəbiyyatında ilk mütasavviflar. S.1.

* Şifahi xalq ədəbiyyatında təsəvvüf nəzərdə tutulur.

2. Yenə orada

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ərliyindən (tayfa münasibətlərindən) və qılınc müsəlmanlığından (İslam ordusunun mücahidliyindən), şamandan, ozandan, dərvişdən, təkkə şairindən, mənqəbədən, salnamədən keçir; mif, əfsanə, nağıl, rəvayət, hekayə ilə birgə ritual elementləri, ritmik parçalar, şe'r, dastan və.s. kimi nəsr və nəzmlə ifadə olunan mətnlərdə reallaşır, şifahi ən'ənədə yaddaşlaşaraq daşınır, yazı ən'ənəsində daşlaşır. Əski kosmoloji çağdan çağdaş dövrə qədər informasiya fasiləsizliyini tə'min edən etnik şüur fenomeninin varlığa münasibətdə formalaşmış xüsusi modelləşdirici sistemləri differensial mətn tipləri törədib və onu informasiyanın xüsusi estetik işarəsinə çevirib. Epik informasiyanın aşığa qədərki XVI əsrədək) mərhələsi olduqca mürəkkəb proseslərdən keçib; həm dünyagörüş, həm sosial-mədəni mühit, həm də sənət səviyyələrində keyfiyyət elementləri ilə təkmilləşib.

"Türk ədəbiyatının inkişafını elmi şəkildə öyrənmək üçün hər dövrdə və hər sahədə Xalq ədəbiyyatının, Aşıq ədəbiyyatının xüsusi inkişafını və bütün bu müxtəlif zövq səviyyələrinə xitab edən zümrə ədəbiyyatlarının bir-biriləri üzərindəki tə'sir və əks tə'sirlərini anlamaq da zəruridir".[1]

Bütövlükdə aşıq ədəbiyyatında və onun dastan janrında sufi kontekst dominant mövqedədir. Sufi dünyagörüş bir sıra dastanların ideya-bədii əsasını təşkil edir, dastan şe'rləri sufi simvolikası ilə qurulmuş xüsusi metoforik sistemlə işləyən işarələrdən yaradılır. Bu sistem dastan şe'rlərində (başqa şe'rlər də) semantik paradiqmaya daxil olur və sintaqmatik konstruksiyada xüsusi səviyyə (yarus) qazanır.

Göyçə dastanlarında sufi kontekst qabarıq şəkildə özünü göstərir. Aşıq ədəbiyyatının sufizmlə bağlı, təsəvvüfi problemlər üzrə öyrənilməsi olduqca zəruridir və müstəqil araşdırmalar tələb edir. Bizim Göyçə dastanlarından verdiyimiz nümunələrin fraqmental xarakter daşıması da araşdırmanın birbaşa bu problemə həsr olunmaması ilə bağlıdır.

"Təbii ki, başlanğıcda aşığa çevrilən aşiqlər təriqət əhli idilər

---

1. F.Köprülü. Türk edebiyatında aşık tarzı'nın menşei və tekamülü. Milli Tetebbülər Mecmuası, 1331, nu, 1, s.35-46; yenə onun, Türk edebiyatında ilk mütasavviflar, s.3.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və sonralar müstəqil bir təşkilat kimi formalaşan aşiqlar təxəllüs alaraq "Qul", "Miskin", "Abdal", "Xəstə", "Şah", "Sultan" və s. kimi terminləri qəbul etməklə özlərinin təsəvvüfi axına bağlılıqlarını saxlaya bilmişdilər. Aşıqlıq bir sənət növünə çevrildikcə təxəllüslər də arxa plana keçməyə, daha çox "Aşıq" tə'yinedici adı işlənməyə başladı. Sufizmin eşq anlayışı, vəhdəti-vücudun ontoloji və qnoseoloji köklərini açıqlayan şe'rlər bu ədəbiyyatda seyrəlməyə başladı. Aşıq ədəbiyyatında dəyişməz qalan ilhamın vergi olduğuna, ilahi mənşəli olduğuna inam, bir də sufi rəmzləri oldu.

Aşıqlar haqqında xalq rəvayətləri bu verginin ilahi qaynağını açıq-aydın göstərməkdədir. Aşıq Ələsgər, Molla Cümə ilə bağlı rəvayətlər dediklərimizə misal ola bilər. Bəşəri eşqdən ilahi eşqə qədər yüksələn aşıqlarda saz çalıb, söz qoşmağı onlara ərşi-gürşü yaradan uca Allah vermişdir. Vergini onlara ötürənin Hz. Əli, Qırxlar, Xızır, nurani qoca olması da bu ilhamın sufi köklü olduğunu göstərir. Haqq aşığının adi şairlərdən üstünlüyü də onun haqqın dili ilə, bədahətən şe'rlər qoşması, qıfılbənd kimi sorulan təsəvvüfi sirləri ilahi bir qüdrətlə açmasındadır. Aşıqlar aşiqlikdən aşıqlığa gedən yol, ilahi vergi, sufi mətləbləri, dərvişlik, ərənlik məqamları haqqında qoşduqları eşq dastanlarında uzun-uzadı mə'lumat verirlər. Xüsusi bir zümrə kimi seçilən aşıqların mədəniyyət tarixində ən böyük xidmətləri haqq aşiqliyinin dastan tipini (seçmə mənimdir – H.İ.) yaratmaqla təsəvvüfü tamamilə xalqın malına çevirmələri oldu"[1].

"Həcər xanım" dastan-rəvayəti də Ələsgər sənətinin vergili olduğundan soraq verir.

Ustad Ələsgərin poeziyası, eyni zamanda onun haqqında yaradılmış dastan-rəvayətlər göstərir ki, bu qüdrətli sənətkarın sənəti dərin köklərə bağlıdır.

O, Miskin Abdal, Qurbani, Abbas Tufarqanlı kimi haqq aşıqlarındandır. Onun ilhamı vergili, ilahi mənşəlidir. Deməli, onun məşhur şe'rində aşıqlığın ədəb-ərkan konsepsiyasının əsas cəhətlərini açıqlaması da təsadüfi deyildir:

---

1. Füzuli Bayat. Məhəbbət (eşq) dastanları. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IX kitab. Bakı, Səda, 2000, səh. 123,127.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Aşıqlıq ədəb-ərkan baxımından özünəməxsus keyfiyyətə malik olsa da, onun bu ədəb-ərkan sistemi təsəvvüf mədəniyyətinin tərkib hissəsini təşkil edir. Araşdırma göstərir ki, aşıqlığın ədəb-ərkan sistemi, əslində təriqətin ədəb-ərkanının sadələşdirilmiş və kütləviləşdirilmiş şəklindən başqa bir şey deyildir. Təriqət böyüyü pir, mürşid adlandığı kimi, aşıqların da böyüyü ustad və dədə adlanırdı. Türk təkkə böyüklərinə də ustad, dədə deyildiyi mə'lumdur.

Ustadın yanında aşıqlığın əbəb-ərkanını, saz çalıb oxumağı, məclis aparmağı, dastan söyləməyi öyrənən şagirdlərin üç-dörd ildən on-on beş ilə qədər tə'lim keçdikləri mə'lumdur. XIX yüzilliyin məşhur aşıqlarından Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin, Molla Cümənin məhz ustad yanında yetişdikləri qaynaqlardan bəlli olur. Təkkə şairləri şe'rlərində şeyxlərini dönə-dönə xatırladıqları kimi, aşıqlar da qoşmalarında ustadlarını yad etməyi unutmurdular. Təriqətə qəbul mənbələrdə qalsa da, aşıqlığa qəbul və şagirdin necə adlanması bizə mə'lum deyildir.

F.Köprülü bunu çıraqlıq mərtəbəsi adlandırır və çırağın aşıq oluncaya qədər bir neçə mərtəbə keçdiyini, ustaddan məxləs (təxəllüs) alıb müstəqil aşıq olduğunu yazır.Çoxsaylı şifahi aşıq mənbələri aşıqlığın vergi kimi verildiyini bildirməklə yanaşı, ustad-şagird münasibətini də açıqlamağa xidmət edir. Ancaq bu tip mənbəvi rəvayətlərin toplanıb nəşr edilməyindən (yalnız Aşıq Ələsgərlə və Molla Cüma ilə bağlı bə'zi rəvayətlər nəşr edilmişdir.) aşıqlığın ədəb-ərkan sistemini, aşıqlıq tə'limini tam şəkildə araşdırmaq mümkün deyildir. Ancaq bə'zi aşıq şe'rlərində, xüsusən də eşq dastanlarında və Aşıq Ələsgərin məşhur və mə'lum şe'rində aşıqlığın ərkan konsepsiyasının əsas konturları cızılmışdır".[1]

Aşıq Ələsgərin həyat və yaradıcılığından bəhs edən "Həcər xanım", Aşıq Ələsgərnən Dəli Alı", "Aşıq Ələsgərin Qarabağa toy səfəri" dastan-rəvayətlərində də ustad aşığın şəxsiyyəti, həyata baxışı barədə söhbət açılır. Onun təkcə Göyçədə deyil, di

gər mahallarda da şan-şöhrət sahibi olduğu, elin şad günü ilə yanaşı dərdli-qəmli günlərində də Ələsgər kimi el ağsaqqalının,

---

1. Aşıq Ələsgər. Bakı, Elm, 1972, səh.305.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müdrik şəxsiyyətin sözünə, məsləhətinə ehtiyac olduğunu görürük.

"Aşıq Ələsgərin Qarabağa toy səfəri" dastan-rəvayətində Qarabağın Xanqərvənd kəndinin də göyçəlilər kimi sazı-sözü xoşladıqlarından, məclislərinə aşıq gələndə dinə-imana gəldiklərindən söhbət açılır. Bu camaat yaylağa köçəndə toy tədarükü görürlər:

"Buranın camaatı Aşıq Ələsgəri çox yaxşı tanıyırdı. İstər aranda, istərsə də yaylaqda toy eyləyəndə çox zaman Aşıq Ələsgəri aparırdılar. Əgər Aşıq Ələsgəri tapa bilməsələr, başqa aşıq çağırırdılar".

Bu dəfə Aşıq Ələsgərin dalınca adam göndərirlər. Ələsgər deyir ki, üç gündən sonra gedərik. Ələsgəri aparmağa onun siğə qardaşı Məşədi Qara gəlibmiş. Bu sözdən qonağın incidiyini görən Ələsgər toya getmək məcburiyyətində qalır. Onlar gəlib Zod kəndi ilə Zərzibil kəndinin arasında atdan düşüb dincələndə sazı çıxarıb çalmaq istəyəndə dostu təəccüblənir. Ələsgər deyir:

"- Öyün tikilsin, vurhavuru görmürsən?

- Nə vurhavur?

- Bu saat mənim qəlbimdə iki padişahın davasıdı.

- Hansı padişahların?

Aşıq Ələsgər belə deyəndən sonra sazı sinəsinə basdı, görək nə dedi, Məşədi Qara nə eşitdi:

Nəfsnən mə'rifət duruf cahada,

Mə'rifət deyir-Belə kar eyləməynən!
Nəfs deyir: - Baxma naqqal sözünə,
Xeyrin gələn yerdə ar eyləməynən!

Qara indi başa düşdü ki, Aşıq Ələsgərin qəlbində dava eliyən hansı padişahlarıymış. Ələsgər aldı o biri bəndi dedi:

Mə'rifət deyir:

Günahkardı nə ki yoldan azan var,
İki mələk-xeyir-şəri yazan var,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qiyamət var, qıl körpü var, qazan var,
Röyşən yollarını tar eyləməynən!

Aşıq Ələsgər qışın son ayını bu yana getməmişdi. Ondan sonrada ki Məhərrəmlik araya düşmüşdü. Bu il birinci dəfəydi ki, xeyir işə gedirdi.

Aldı Nəfs:

Zimistan çəhmişəm, yeni yaz oluf,
Üzüm gözəllərə payəndaz oluf,
Sözüm bəyənilif, işim saz oluf,
Sən Allah, gözümü kor eyləməynən!

Aldı Mə'rifət:

Haqq bizə göndərif dəlili-ayət,
Oruj tut, namaz qıl, eylə ibadət,
Mehdi divanında çəhmə xəcalət,
Məhşərdə yerini nar eyləməynən!

Aldı Nəfs:

Sən müztərsən, loyğa-loyğa danışma,
Belə sualları məndən soruşma,
Nə xeyrimə, nə şərimə qarışma,
Qarışsan, çıx yeri dar eyləməynən!"[1]

Dastandan gətirdiyimiz örnəkdən də göründüyü kimi Haqq aşiqi Dədə Ələsgərin könlündə gedən savaş motivində (təbii ki, bu Ələsgərin öz sənətkarlıq xüsusiyyətidir və əski türk ən'ənəsində (məsələn, Divanü-lüğət it-türk"dəki şe'r örnəklərində mövcud olan bir üsuldur) sufi pillələri -təriqət ("nəfs" termini altında) və mərifət arasındakı münasibətlər insanın kamilləşmə prosesinin xüsusi səviyyələri kimi, İslamı da bu kontekstdən kənarlaşdırmadan yüksək estetik keyfiyyətdə təqdim olunur.

Göyçə aşıqlarının yaradıcılığı, o sıradan dastan yaradıcılığı bütövlükdə İslam, Sufizm, Sufi təriqətləri, Şiyəlik kontekstləri-

---

1. Aşıq Ələsgər B., Elm, 1972, 229-239

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nin içində baş verir.

Bunların mükəmməl öyrənilməsi olduqca zəruridir və gələcək tədqiqatlarda qeyd etdiyimiz məsələlərə geniş yer verilməli, müstəqil araşdırmalar aparılmalıdır.

Yaradıcı subyekt kimi aşığın (şairin, sənətkarın) birdən birə XVI əsrdə yaranmadığı aydındır. Amma bizim mövcud aşıq tipi məhz XVI əsrdə yaranmışdır. Öncə istinad etdiyimiz müəllifin mülahizələrindən aşığın (haqq aşiqlərinin) yeni dastan tipi (eşq dastanları tipini) yaratmasını təmamilə doğru sayırıq. Amma aşığın meydana gəlməsində təkkə şairindən birbaşa aşığa keçidin baş verməsi tezisi, əslində kifayət qədər mürəkkəb olan ədəbiyyat və sənətin inkişafı prosesinə çox sadə və bəsit yanaşma kimi anlaşıla bilər.

Göyçə dastanlarında Türk dünya modeli: xaos və harmoniya

Göyçə dastanları Türk epik təfəkkürünün reallaşmış mətn faktı kimi özündə türkün dünya haqqında təsəvvürlər komleksini bu janr çərçivəsində və onun qəliblərində müvafiq elementlərlə (obraz, motiv, süjet) və müxtəlif səviyyələrdə (kod, mə'lumat, sxem) ifadə edir. Sözügedən dastanlarda tarixilik güclü olduğundan, yeni dövr dastan tipi kimi tarixi dünyagörüşün ifadəsi üstünlük təşkil edir; amma bu heç də semantik strukturun alt qatında qalan modelləşdirici sistemi istisna etmir. Həmin sistem digər səviyyələri özündən və özündən böyük şəkildə, onun özünü içərisinə alan çevrələrə proyeksiya edir və bütün çevrələr onda konfiqurasiya olunur: bu kosmik modeldir,-mif, ritual, dil və maddi mədəniyyət abidələri əsasında bərpa olunan dünya obrazıdır. Dar mə'nada kosmik modeli dünyanın məkan obrazı kimi anlamaq qəbul olunmuşdur. Dünya haqqında təsəvvürlərin ifadəsi kimi "dünya ağacı"nın yardımı ilə İnsan və Tanrının, yer və göyün zəruri əlaqələri dəstəklənir. "Dünya ağacı" obrazı hər şeydən öncə dünyanın üçlü şaquli strukturunu təşkil edir: Göy, Yer, Yeraltı. Bu bölünmə iki qütblü şaquli strukturda yuxarı-Allah, orta-İnsan, aşağı ölü və xtonik varlıqlardır. "Dünya ağacı" üfüqi sıxlıqda dünyaya dördtərəfli (bə'zən 8 tərəfli) dayanıqlı və statik struktur verir.

Mərkəzi ağacdan dörd tərəf üzrə üfüqi sıxlıqda yerləşən dörd ağacı kosmik üfüqün təşkilinin ideal sxemidir. Üfüqi sıxlığın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dördtərəfli modeli dünyanın dörd cəhəti haqqında təsəvvürlərə uyğundur; onların kəsişmə yerindən "Dünya ağacı yaranır". "Dünya ağacı"nın köməyi ilə nəinki kainatın əsas məkan sahələri fərqlənir, həm də başqa sferalar üzvlənməyə mə'ruz qalır. Belə üzvlənmə adətən üçlü strukturda reallaşır: məsələn, keçmiş, indi, gələcək; əcdad,indiki nəsil, varis (zaman sferası); əlverişli, neytral, əlverişsiz (etioloji sfera) və s. "Dünya ağacı" konsepsiyası birbaşa dünyanın yaranması haqqında təsəvvürlə, kosmik məkanın differensasiyası ilə, dünya nizamı yaradılması ilə bağlıdır.[1]

Görkəmli mifoloq alimlərin mülahizələrindən aydın olur ki, ən'ənəvi mətnlərin əsasında mifoloji dünya modeli durur. Burada zamanın və məkanın çeşidli transformasiya variantları mümkündür; amma dünyanın zamanda, məkanda və insanda təkrarlanan şaquli və üfüqi strukturu qeyd olunan kəmiyyət və keyfiyyət çevrəsində baş verir.

Türk-oğuz epik ən'ənəsinin fasiləsiz davamı kimi Göyçə da stan yaradıcısı subyektinin təsəvvürləri də həmin əski modeli birbaşa və ya dolayısı ilə təkrarlayır. Məsələn, Dədə Ələsgərin bir müxəmməsində türk dünya modelinin mətn reallaşmasına diqqət edək:

"Xaliqi-ləmyəzəl-allah
Mö'cüz nümayan eləyib;
Görün bir qətrə məkidən
Nə cürə insan eləyib;
Ona fəthi-nüsrət verib,
Bəbir pəhlivan eləyib;

---

1. А.К.Байбурин. Космическая модель. С.61-62. Народные знания. Фольклор, Народные искусство.вын.4.М.,Наука, 1991.с.61-62; В.Н.Топоров. О структуре некоторых архаических текстов, соотносимых с концепцей мирового дерева (труды но знаковым системам. Тарту, 1971. 5; Yenə onun. О космологических источниках раинеиторических рписаний) orada, 1973. 6; Е.М.Мелетинский. Поэтика мифа. М.,1976; Б.А.Латынин. Мирвое дерево-дерево жизни в орнаменте и фольклоре Восточной Европы (Изв.ГАИМК.Л.,1933. Вып,69 Е.Г.Кагаров. Мифологический образ дерева, растущего корнями вверх) докл. АН СССР. Сер. В. 1928. №15.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səfalının yaynında
Dörd dəfə meydan eləyib;
Hər kimə xişm ilə baxsa
Xofu hərəsan eləyib".[1]

Gətirilən örnəkdə dünya modelinin şaquli strukturu allah (yuxarı)-insan (orta)-"hər kim" (yeraltı, "xofun hərəsan etdiyi"-dolayısı ilə bildirilir) olmaqla üçlü sistemdə sıralanır. Üfüqi struktur isə "dörd dəfə meydan eləyib" misrasında (əslində dörd tərəfə) bir qədər fərqli deyilişlə ifadə olunub.

Göyçə dastanlarının "dünya modelinin" strukturunda diqqəti çəkən bir cəhət də sakral sferanın üzvlənməsidir. Adətən mətnlərində Allah, Məhəmməd, Əli sakral sferanı təşkil edir. Pir, Mürşid, ocaq, övliya, seyid isə onun ətrafında təsəvvür edilir.

Dünyanın yaranması haqqında mifoloji təsəvvürlər sistemi kimi mifoloji kosmogenez əsas reallaşma forması olaraq kosmoqonik mif motivlərində (mifologemlərdə və mifemlərdə) xaosun kosmosa çevrilməsindən danışılır. Dünyanın mifoloji yaranma prosesi əsasən ilin təqvim ritualında (məsələn, yazın qarşılanması mərasimində, "kosa-kosa" oyunu) özünü göstərir. Xaos istənilən kosmoqoniyalarda gecə, boşluq, dibsizlik və ya xtonik varlıqlar kimi təsvir olunur. Dünyanın yaranması üçün ilkin material hava, od, torpaq, su xaosun kosmosa çevrilməsində mərhələli şəkildə ierarxik ardıcıllıqla iştirak edir; ilk növbədə məkan-zaman qarşıdurması su-quru, göy-yer, yuxarı-aşağı, işıq-qaranlıq, gündüz-gecə şəklində baş verir. Xaosdan kosmosa keçidin sonrakı mərhələlərində diri-ölü, kişi-qadın və s. şəklində təzahür edir. Bundan sonra dünyanın saxlanması insanın, heyvanların, bitkilərin ilkin mədəni simvolların iradəsi ilə əlaqəli olur. Xaosdan kosmosa keçid Tanrının, daha sonra isə mədəni qəhrəmanların iradəsi ilə baş verir. Yer-ana və Göy-atanın (Ay ana, Günəş ata) müqəddəs nigahı ilə dünyanın yaranması haqqında da süjetlər mövcuddur.[1]

---

1. Aşıq Ələsgər. B., Elm, 1972. S. 37.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məsələn, Ay və Günəşin iştirakı ilə kosmosun yaranması aşıq Alının aşağıdakı misralarında bu şəkildə ifadə olunub:

Aydı, gündü gəlir keçir ömürdən,
Tələsirik görən yaza nə qaldı?

Üst qatda real tarixi zamanın altında mifoloji kosmogenez modeli dayanmışdır. Ayla Günün gəlib keçməsi yazı doğurur. Yaz isə məhz həyat, dirilik, törəyiş deməkdir. Mifoloji zaman çevrəsi bitir, təbiət ölür və ölümüylə dirilir. Ölüm həyata, həyat ölümə eyni bir nöqtədə qovuşur. Nəhayət, bə'zi kosmoqonik miflərdə yaranış sözlərin köməyi ilə baş verir.[2]

Göyçə dastanlarında kosmosu təmsil edən Göyçəli aşıq və ya onun tərənnüm etdiyi müsbət qəhrəman şər qütbün təmsilçilərinə qələbə çalır. Aşıq münasibətləri kontekstində Göyçəli aşığın harmoniya yaratması daha çox istedadsız aşığın ifşası motivi ilə ifadə olunur və ona qarşı görülən cəza tədbiri onun sazının odunluğa göndərilməsi ilə məhdudlanır. Tərəkəmə-elat mühitindən və məişətindən gələn (və həmin məişətin spesifik terminologiyası çevrəsində baş verən) duzlu yumor motivləri dastanı müşaiyət edir və gülüşün xüsusi semantik funksiya daşıyıcısı kimi auditoriyanı daim şən əhvali-ruhiyyədə saxlaya bilir.

Təbiətlə harmoniyaya intuitiv cəhd ən'ənəvi mədəniyyətlərin xarakterik əlamətidir. Lakin, insan həyatında tale xarakterli situasiyalar təkrar-təkrar dönməz müntəzəmliklə yaranır. Hər şeydən öncə onlar həyat siklinin daha çox əhəmiyyətli məqamları ilə uzlaşırlar: doğuluş, toy və ölümlə. Həmin situasiyalar mifik başlanğıcın mikrokosma daxil olması kimi duyulur. Bə'zi zamanlarda xaos təsdiqlənir. Hamı "o dünyaya" yaxınlaşır. Düşünürük ki, qədimdə belə situasiyalar güclü emosional streslərin mənbəyi olmuşdur.[3]

---

1. А.К.Байбурин. Космогенез мифологический. С. 63-64. Народные знания, Фольклор, Народные искусство. М.;1991,с.63.
2. Yenə orada
3. Традиционные мировозрение тюрков южной Сибири.

Пространство и время. Вещный мир. Новосибирск, Наука, Сибирское отделение. 1988. С. 153-154.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O.M.Freydenberqə görə, eyni bir situasiyanın real (və ya insanın ömründə onların real) mövcudluğuna baxmayaraq qəbul olunması aydın şəkildə göstərir ki, biz iki hadisə ilə üzləşirik: birincisi, gerçəkliklə, ikincisi, həmin gerçəkliyin şüurdakı konsepsiyası ilə:[1]

Göyçə dastanları Azərbaycan-Oğuz-Türk gerçəkliyini və həmin gerçəklik haqqında təsəvvürləri dastan modelində təqdim edir. Klassik məhəbbət dastanlarının kononik "monoton" informasiyasından fərqli olaraq göyçə dastanları özündə arxaik türk eposu tipini, orta əsrlər dastanı motivlərini saxlaya bilib, real tarixi hadisələri də öz içinə alıb; onlarda qəhrəmanlıq eposuna meyl də güclüdür. Arxalik eposun əsas süjet mövzusu "biz-onlar" qarşıdurması modelində qurulur; Epik qəhrəman, adətən soy başçısı harmoniyanın tə'minatçısı rolunda çıxış edir. Türk dastanları üçün bu daha əhəmiyyətli bir mövqeyə malikdir. Çünkü türkün əzəli və əbədi missiyası harmoniya yaratmaqdar.

Bizə görə dastan (xüsusilə, məhəbbət dastanları) iki diskretik tipin sintezində reallaşan harmoniyanın mətn işarəsidir. Göyçə dastanları əski Türk təsəvvürlərinin, Türk həyatının və Türk cəmiyyətinin bütün etnik-mədəni-keyfiyyətlərini özündə cəmləşdirən zəngin və əvəzsiz informasiya qaynağıdır. Göyçə dastanlarında bütövlükdə Türk epik sistemini elmi şəkildə müşahidə etmək mümkündür.

"Aşıq Ələsgərə Dəli Alı", "Aşıq Ələsgərin Qarabağa Toy səfəri", "Aşıq Alının Türkiyə səfəri" və b. dastanlar (dastan rəvayətlər) spesifik şəkildə əski türk qərhəmanlıq motivlərini özündə ifadə edir. Türk xalqının döyüşü, Göyçə aşığının deyişməsinə transformasiya olunaraq yeni keyfiyyət göstəricisi kimi çıxış edir. Bu dastanlarda yeni dövrün harmoniyasını tə'min etmək üçün zəruri informasiya üstünlüyü nümayiş olunur. Göyçə aşığının yaratdığı və yaşatdığı dastanda xaos bütün hallarda kosmosla əvəzlənir, harmoniya tə'min olunur.

---

1. О.М. Фрейндерберг. Поэтика сюжета и жанра. Л., 1936. С. 59.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dastan şe'ri

Tanınmış türkoloq K.V. Nərimanoğlunun da qeyd etdiyi kimi həm mübahisəli, həm də maraqlı problemlərdən biri "Dastanlarda" şe'r və nəsr məsələsidir. Alim eyni zamanda "Dədə Qorqud" və Orxon-Yenisey abidələri üzrə müxtəlif istiqamətlərdə tədqiqat aparmış V.Jirmunski, X.Koroğlu, N.V.Stebleva, Ə.Uysal, V.Valker, F.Sümer, O.Ş.Gökyay, M.Ergin, Ə.Sultanlı, M.Təhmasib, M.Adilov, Ş.Cəmşidov, V.Aslanov, K.Abdullayev, və b. müəlliflərin məsələyə baxışında əsas ümumi cəhət kimi retrospektiv aspekti qeyd etmiş və eyni zamanda məhz bu tipli baxışın "Dədə Qorqud" şe'rini müəyyənləşdirmək üçün yetərli olmadığını da əlavə etmişdir. Müəllifin o fikri də tamamilə doğrudur ki, əski şe'rə müasir şe'rin tələblərindən yanaşmaq olmaz. "Şe'r əvvəldir, yoxsa nəsr?" – sualını dünya ədəbiyyatşünaslığı kontekstində araşdıran K.V. Nərimanoğlu məsələ ilə bağlı bir sıra müəlliflərin münasibətlərini örnək olaraq gətirir.[1] "Qədim insanların sözə inamı, sözün magik qüvvəsi şe'ri, yə'ni xüsusi sırası olan, adi danışıqdan seçilən söz komplekslərini yaratmışdır."

Zaman keçdikçə bu seçimli ifadələr, cümlələr, mətnlər yarandığı dilin ifadə vasitələri imkanına, dilin fonetik , leksik, qrammatik, poetik sisteminə uyğun şəkildə min illər boyunca kollektiv yaradıcılıq prosesində cilalana-cilalana böyük inkişaf yolu keçən və nəhayət, dastan dövrü keçirən bədii söz kontekstində şe'rin ifadə və məzmun planı öz qanunauyğunluqları ilə zəngin sistem kimi ortaya çıxır.[2] M.Təhmasibə görə dastan şe'rlə nəsrin növbələşməsi prinsipilə əsaslanır. Bə'zən rus və Avropa alimləri bunu sadəlik, hətta bəsitlik, primitivlik kimi başa düşür, qələmə vermək istəyirlər. Bu əlbəttə doğru deyildir. Bu, bizim dastanlarımızın çox qədimlərdən başlayaraq gələn və bu gün də davam edən xüsusiyyətidir. Bu, "Kitabi-Dədə Qorqud" boylarında da belə olmuş, "Koroğlu"da, Böyük Vətən

---

1, K. Vəliyev. Dastan poetikası. B., 1984, S. 105-106.
2. K. Vəliyev. Göstərilən əsəri. S. 107-108.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müharibəsi qəhrəmanı haqqında yaranmış "Kamal" kimi müasir qəhrəmanlıq dastanlarında da, yüzdən artıq məhəbbət dastanımızda da belədir. Dastanda adətən, hadisə, əhvalat, macəra sadəcə danışılır və onun aşıqlar tərəfindən Yurd adlandırılan bu təhkiyə hissəsi ancaq nəsrlə olur.

Qəhrəmanların müraciətləri, münasibətləri, məhəbbətləri, iztirab və həyacanları, kədər və sevincləri, deyişmə və müşairələri isə qoşmalarla verilir. Yeri gəlmişkən qeyd edək ki, yazılı ədəbiyyat dastanları ilə xalq dastanları bu cəhətdən müəyyən dərəcədə fərqlənir.[1] Türk epik ən'ənəsində tamamilə şe'rlə yaradılmış dastanlar vardır. Və bu forma dastançılıq ən'ənəsində ilkin sayıla bilər. Çünki "dastan qoşmaq", "dastan bağlamaq", "dastan yazmaq" və s. ifadələrin hər biri əski çağlarda onun şe'rlə ifadə olunduğunu bildirir. Göyçə dastanları həm ən'ənəvi, həm də ən'ənədə unudulmuş dastan tiplərini saxlaya bilib. Məsələn, Aşıq Ələsgərin müxəmməslərinin içərisində elə şe'r örnəkləri[2] vardır ki, arxaik eposu, qəhrəmanlıq dastanlarını, konkret olaraq, "Oğuz kağanı", "Koroğlu"nu xatırladır. Bunun üzərində dəqiq təhlil aparılsa, burada çox maraqlı elementlər aşkarlanacaq.

Bizə görə, dastanda şe'r epik süjeti müşaiyət edir; əslində iki "süjet" yaranır: birincisi hadisəvi süjetdir ki, nəsrlə təhkiyə olunur (söylənir), ikinci şe'rlə oxunur və emosional ovqatı tə'min edir. Ümumi süjet nəsr-nəzm (nəzm-nəsr) növbələşməsində qırılmır. Klassik məhəbbət dastanlarında "ustadnamə", "dastan", "duvaqqapma" (və yaxud "cahannamə") ardıcıllığı (hökm-sınaq-nəticə)[3]. Göyçə dastanları üçün heç də məcburi bir model deyildir. "Ustadnamə" və ya "duvaqqapma"dan istifadə olunmadığı hallar da istisna təşkil etmir.

---

1. M.H. Təhmasib. Azərbaycan xalq dastanları. Orta əsrlər. B., Elm, 1972, S. 58
2. Aşıq Ələsgər. B., Elm, 1972, ll-ci kitab. S. 42 (bax: "kimi" şe'ri)
3. M. Cəfərli. Göstərilən əsəri.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göyçə dastanlarının janr spesifikası və təsnifi prinsiplərinə dair

Əski Türk-Oğuz ədəbiyyatının (XI əsrə qədər) Oğuz-Türkman tipinin (XI-XV əsrlər) davamı olaraq Göyçə aşıq poeziyası (XVI-XX əsrlər) əski xalq ədəbiyyatının zəngin örnəklərini (janrlarını və şəkillərini) şifahi ədəbi ən''ənənin qanunauyğunluqları çevrəsində mühafizə edib, funksional dinamikanı tə'min edən şifahi ədəbi fəaliyyət enerjisini itirməyib. "Göyçə sazının, sözünün sorağı ilə son illərdə aparılan axtarışlardan mə'lum olmuşdur ki, bu torpaqda hələ XVI-XVIII yüzilliklərdə Ozan Heydər, Ozan Cəlil, Ozan İbrahim, Miskin Abdal, Dərdli Nəsib, Qul Mahmud, Şımpırlı Sevgili kimi sənətkarlar yaşayıb-yaratmış"[1] onların sənət ən'ənəsini Ağ Aşıq, Aşıq Alı, Məmmədsöyün, Almməmməd, Dədə Ələsgər, Aşıq Məhərrəm, Aşıq Əziz, Şair Aydın, Aşıq Musa, Mirzə Bəylər, Hacı Əliş Ağa, Şair Məhəmməd, Usta Abdulla, Bəşir, Aşıq Qurban, Şair Əbdüləzim, Aşıq Əsəd, Aşıq Talıb, Aşıq Mehdi, Həsən Xəyallı, Xəstə Bayraməli, Aşıq Nəcəf, Şair Bəhmən, Növrəs İman, Şair Aqil, Aşıq Musa, Şair Həşim, Aşıq Məhərrəm, Şair Əbülfət, Aşıq Cahad, Aşıq Əli, Aşıq Saleh, Aşıq İsmayıl, Aşıq İmran, Aşıq Haqverdi, Aşıq Murad Niyazlı və b. davam etdirmişlər.[2]

Bir başqa deyilişlə də olsa türk ədəbi-bədii fikrinin tarixi inkişaf qanunauyğunluqları, onun ayrı-ayrı faktları, hadisələri və görkəmli nümayəndələrinin yaradıcılığı Azərbaycan ədəbiyyatı kontekstində M.F.Köprülü, Ə.Cəfəroğlu, Ə.Abid, H.Zeynallı, F.Köçərli, Ə.Nazim, M.Arif, C.Xəndan, Ə.Sultanlı, Mir Cəlal, M.Cəfər, M.İbrahimov, H.Araslı, F.qasımzadə, Ə.Şərif, M.Rəfili, X.Yusifov, Ə.Səfərli, K.Talıbzadə, K.Məmmədov, A.Dadaşzadə,

---

1. Ziyəddin Məhərrəmov. XX əsr Göyçə aşıq mühiti (1920-1950-ci illər). "Azərbaycan Ensiklopediyası" NPB, B., 1997, s.9.

2. İslam Ələsgərov, "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları". Namizədlik dissertasiyası, ADU-nun kitabxanası. B., 1971; Z.Məhərrəmov. Göstərilən əsəri; Vətən qürbətdə qaldı. B., Yazıçı, 1993; "Ulu Göyçə" qəzeti, №20. 8 sentyabr 1993, s.2; Sazlı-sözlü Göyçə. Azərnəşr, B., 1999 (toplayıb tərtib edəni və ön sözün müəllifi İ.Ələsgərdir); Tərlan Göyçəli. GÖyçə aşıq məktəbi. B., Göytürk, 1998.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

N.Məmmədov, F.Hüseynov, X.Əlmirzəyev, P.Xəlilov, K.Hüseynoğlu və b. tərəfindən çeşidli aspektlərdən araşdırılıb.

Azərbaycanda bədii fikir tarixinin vahid konsepsiyasının çağdaş nəzəriyyəsini yaratmaq istiqamətində xüsusi xidmətləri və fenomenal baxış səviyyəsi ilə seçilən Y.Qarayev yazır: "...Sovet nəzəri-estetik fikrində özünü göstərən ümumi metodoloji qüsur – bədii bir hadisə kimi realizmi və fəlsəfi bir kateqoriya kimi materializmi eyniləşdirmək, realizmin bütün məzmunu "gerçəkliyə sədaqət" əlamətindən, hətta "həyata bənzərlik" anlayışından ibarət etmək, bədii cəhətdən kamil, mütərəqqi olan nə varsa hamısını mütləq gətirib realizmə bağlamaq ("realizm-antirealizm" konsepsiyası) həmin dövrün (sovet dövrünün – H.İ.) əsərləri üçün səciyyəvidir".[1]

Məsələ burasındadır ki, Göyçə dastanlarının əksəriyyəti məhz həmin dünyagörüş tipinin (realizmin) artıq sənətdə hakim olduğu zamanda qeydə alınmışdır. XVI-XVIII əsrlər dastanları da XIX-XX əsrlər aşığının dünyagörüşü çevrəsində reallaşmışdır.

Dastanların janr spesifikasında iki xüsusi əlamət müşahidə olunur: dəyişə bilən (diaxroniyaya meylli və onun üçün açıq olan) və dəyişməyən (sinxron). Birincinin janr dinamikası funksionaldır; o ən azı yeni şəkillər törədə bilmək iqtidarındadır. ikincinin isə belə bir imkanı yoxdur; o yalnız variantlaşma və variasiyalaşa bilir. Göyçə dastanları birinci əlamət üzrə xüsusi olaraq seçilir. Klassik dastanlar üçün ən'ənəvi sayılan sadə süjet strukturu burada özünü başqa şəkildə göstərir: süjet şaxələnir, yardımçı süjetlər yaranır, amma bu qəhrəmanın doğulması, böyüməsi, səfərə çıxması, sınaqdan keçməsi, uğur qazanması modelini pozmur. Məsələn, "Ağ Aşıq və Sənubər dastanı" eşq kontekstində "aşiq-məşuq" qarşıdurmasından keçir; problem həll olunur: aşiq məşuqa qovuşur, əslində bununla dastan bitməlidir, amma bundan sonra qəhrəman yeni bir ziddiyyət çevrəsinə – "Şah-rəiyyət", "cahil-aqil", "güclü səfeh – zəif ağıllı" konfliktinə salınır. Orjinal spesifik elementlərin intensiv şəkildə işlənməsi məhz aşıq subyektinin realist şüur tipinin daşıyıcısına

---

1. Q.Yaşar. Realizm: sənət və həqiqət. B., Elm, 1980, s.4.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çevrilməsi ilə bağlıdır. Göyçə dastanları Türk dastan janrının çevrəsi daxilindədir; onun inkişaf qanunauyğunluğu mexanizmi ilə işləyir; passiv epik imkanlar da onda reallaşa bilir. Yə'ni türk dastançılığı fasiləsiz şəkildə yaşayır və müxtəlif səviyyələrdə transformasiya olunur.

Dastanların təhlilində təsnifat məsələsinin aydınlaşdırılması əhəmiyyətsiz deyildir. təsnifatın düzgün aparılması folklor örnəklərinin, eləcə də dastanların daha düzgün və dərindən öyrənilməsinə imkan verir. Mə'lum olduğu kimi dastanlarımızın təsnifatı məsələsində də müxtəlif fikirlər olmuşdur. Bu barədə Azərbaycan xalq dastanlarının tədqiqi ilə uzun müddət məşğul olmuş professor M.H.Təhmasibin apardığı təsnifat əhatəliyi ilə seçilir, O, Azərbaycan xalq dastanlarını belə təsnif etmişdir.

I. Qəhrəmanlıq dastanları.

1. Qədim bahadırlıq nağılları, sehrli nağıllar və xatiri görüşlərlə səslənən qəhrəmanlıq dastanları.

2. Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları.

3. Adi qəhrəmanlıq dastanları.

II Məhəbbət dastanları.

1. "Məhəbbətlə qəhrəmanlığın hüdudunda dayanan dastanlar".

2. Əsil məhəbbət dastanları.

a) Nağıllarla bağlı məhəbbət dastanları.

b) Qədim eposla bağlı məhəbbət dastanları.

v) Yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları.

q) Orijinal məhəbbət dastanları.

III Ailə-əxlaq dastanları.[1]

"Miskin Abdalnan Şah İsmayıl" dastanını bu bölgüdə birinci qrupa, tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları qrupuna aid etmək olar. Qeyd etdiyimiz kimi, dastanda bir çox tarixi hadisələrin əksi, tarixi qəhrəmanlıq dastanlarının əsasında qəhrəmanlıq motivi durur. Bu dastanın baş qəhrəmanı isə

---

1. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər) Bakı, Elm, 1972, səh.112.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ustad sənətkar, haqq aşığıdır. Burada əsas yeri saz, söz tutur, ona görə də bu dastanı qəhrəmanlıq dastanları bölümünə aid etmək olmazdı. Prof. Təhmasib dastanlarımızın 3-cü bölümünü ailə-əxlaq dastanları kimi təqdim edir.

Bə'zi motivlərinə görə ailə-məişət məsələlərinin geniş təsvirləri ilə də səciyyəvi olduğuna görə bu dastanı həmin qrupa aid etmək olardı, ancaq "Miskin Abdalnan Şah İsmayıl" dastanı öz əhatə dairəsi, mövzu genişliyinə görə bu bölgüyə sığışmır. "Miskin Abdalnan Şah İsmayıl" dastanı çoxşaxəli, zəngin süjetli dastanlarımızdan biridir. Onu da qeyd edək ki, hələ neçə-neçə dastanlarımızın sistemli şəkildə nəşr olunmaması, bu janrın təsnifatı məsələsində də çətinlik törədir. Dastanların təsnifatı bü örnəklərin tam (mümkün olduğu qədər) toplanması və nəşrindən sonra daha dəqiq olardı. Onu da xüsusilə qeyd etmək gərəkdir ki, M.H.Təhmasibin bölgüsü mövcud dastanlar əsasında aparılmışdır və bu gün də ən mükəmməl təsnifat sayılır.

Dastanların bölgüsü ilə bağlı aparılmış bə'zi tədqiqatlarda da orijinal baxış müşahidə olunur. Misal üçün, V.M.Jirmunski və H.T.Zarifov özbək dastanlarını aşağıdakı kimi təsnif etmişdir.

1. Bahadırlıq eposu.
2. Əsgəri-hərbi povest.
3. Tarixi məzmuna malik dastanlar.
4. Roman dastanlar.
5. "Koroğlu" silsiləsi
6. "Mənşəyi yazılı ədəbiyyatdan götürülən dastanlar"

Bu bölgü mövzu və məzmun baxımından aparılmışdır. Göyçə dastanları genezisinə görə əski türk dastançılığından gəlir, tipologiyasına görə oğuz epik sistemi çevrəsindədir; oğuz eposunun funksional dinamik özəyini təşkil edir. Qeyd edim ki, Göyçə dastanlarını "dastan", "rəvayət", "əhvalat", "səfər" kimi qruplaşdırmaq mümkündür. Göyçə dastanlarında həm "KDQ", həm də "Koroğlu" ən'ənəsi iştirak edir. "Hacı Hüseynin Aşıq Alıya at bağışlaması", "Aşıq Alının Türkiyə səfəri", "Aşıq Ələsgərin Qaraqoyunlu səfəri" KDQ-də "Qanlı Qoca oğlu Qanturalı" boyu

---

1. Жирмунский В.М., Зарифов Х.Т. Узбекс. народ. героичес. эпос ОГИЗ М-1947. с.27.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ilə müqayisə oluna bilər. qanturalıdan fərqli olaraq Aşıq Alı Türkiyəyə sevgilisinin dalınca yox, sevgilisinə qovuşmaq üçün vəsait əldə etməyə gedir. Türkiyə motivi KDQ-də konkret subyektlə ifadə olunur, bu eşq motivinin siyasi konfederasiyaya qədər semantik izahı vardır. Aşıq Alı üçün isə Türkiyə məqsədə yetmək üçün vasitədir, köməkdir, arxadır, "yaman günün yarağıdır". Dastanda XIX əsr Azərbaycanın müstəmləkə şəraiti müxtəlif ovqat ifadə edən elementlərlə aydın şəkildə verilib.

Əski Oğuz "boyu" (dastanı) "soylama" (soy), "boylama" (boy) və "yum"dan ibarət olmaqla üç hissəli bir bütövdən təşkil olunur. Göyçə dastanlarında bu üçlü sistem saxlanılır. Soylama – ustadnamə üç olmaqla söylənir, dastan nəql olunur, duvaqqapma oxunur. KDQ ilə klassik dastanların uyğunluğu sxemi aşağıdakı şəkildədir:

	boy	*dastan*
1.	*Soylama*	*ustadnamə*
2.	*Boylama*	*dastan*
3.	*Yum*	*duvaqqapma (cahanin amə)*

Göyçə dastanları müasir şəraitdə də inkişafda davam etdiyinə görə daha çox tarixi istiqamətə meyllənir. Məsələn, "Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıq Şəmşirin görüşü", "Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü" tamamilə real hadisə zəminində yaradılmış dastanlardır. Ona görə də biz dastanları məhz "dastan – rəvayət" kimi təsnif etməyi məqsədəuyğun sayırıq.

Ümumilikdə isə "Göyçə dastanları"nı aşağıdakı şəkildə təsnif etmək olar:

1. Kanonik məhəbbət dastanları (Göyçə variantları)
a) Azərbaycan məhəbbət dastanlarının Göyçə variantları
b) Göyçə mühitinə məxsus məhəbbət dastanları
2. Göyçə aşıq dastanları
a) Ustad aşıqların yaratdığı dastanlar
b) Ustad aşıqlar haqqında yaradılmış dastanlar
v) Digər tarixi şəxsiyyətlər haqqında dastanlar
3. Göyçə dastan - rəvayətləri

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

a) Aşıqlarla bağlı dastan rəvayətlər

b) Başqa görkəmli şəxsiyyətlər haqqında dastan-rəvayətlər

Bunlardan üçüncüsünü a) "rəvayətlər", b) "əhvalatlar", v) "səfərlər" adı altında mətn tiplərinə bölmək olar. Amma bunun üçün Göyçə dastanlarının yazıya alınmış nümunələri üzərində ətraflı tədqiqatlar aparılmasına ciddi ehtiyac duyulmaqdadır. Əlimizdə olan mətnlər möhtəşəm bir folklor xəzinəsini, bütövlükdə əhatə etmir, amma onun haqqında geniş təsəvvür yaratmaq imkanından da məhrum deyil. Göyçəli aşığın repertuarı bizim yuxarıda qeyd etdiyimiz qəhrəmanlıq dastanları da daxil olmaqla bütün Azərbaycan dastanlarını əhatə edir.

Göyçə dastanlarında qəhrəmanlıq motivi olduca güclüdür; burada aşıq həm aşiqdir, həm də nominal mə'nada qəhrəmandır (döyüşçüdür). Sadəcə olaraq o mübarizəsini qılıncla və başqa silahla deyil, sazla və sözlə aparır, qalib gəlir və rəqibi olaraq basdığını kəsmir, onu ifşa etməklə kifayətlənir. Həmin qəhrəmanlıq ruhu bu gün də mövcuddur və Vətən igidlərinin ulu məskənimiz uğrunda zəfər yürüşünə tə'minat verir. Bizim nəşrə hazırladığımız materiallar məhz Göyçə dastanlarının sonuncu (3) tipinə uyğundur. Ona görə də biz mətnləri "Göyçə dastanları və aşıq rəvayətləri" adı altında nəşr etməyi müvafiq hesab etdik. Təqdim etdiyimiz araşdırmada isə mə'nəviyyatımızın aynasına işıq tutduq.

Əlbəttə, Göyçə dastanlarının (eləcə də bütün Azərbaycan dastanlarının) toplama, nəşr və tədqiq işi bundan sonra daha yüksək templə gedəcək. Çünki folklor, mə'nəviyyat və ədəbiyyat işi milli mədəni inkişafımızın əsasını təşkil edir və bütövlükdə sosial-siyasi və mədəni-mə'nəvi inkişafımız ölkənin maddi ehtiyatlarının artımının da verəcəyi imkanlarla birgə yüksələn xətlə mədəni irəliləyişimizi tə'min edəcəkdir. Müstəqil ölkədə və demokratik şəraitdə yetişən onlarla alim və tədqiqatçı Azərbaycan - türk mə'nəviyyatının - inamının ideyasını və ruhunu minillərlə toplanmış dəyərlər məcmusunun son beş yüz ilin tarixi reallığı ilə yoğrulmuş Göyçə dastanlarını araşdıracaq, öyrənəcək və öyrədəcək: Türk millətinin milli mədəni birliyi, azadlığı və yüksəlişi naminə.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

a) Aşıqlarla bağlı dastan rəvayətlər

b) Başqa görkəmli şəxsiyyətlər haqqında dastan-rəvayətlər

Bunlardan üçüncüsünü a) "rəvayətlər", b) "əhvalatlar", v) "səfərlər" adı altında mətn tiplərinə bölmək olar. Amma bunun üçün Göyçə dastanlarının yazıya alınmış nümunələri üzərində ətraflı tədqiqatlar aparılmasına ciddi ehtiyac duyulmaqdadır. Əlimizdə olan mətnlər möhtəşəm bir folklor xəzinəsini, bütövlükdə əhatə etmir, amma onun haqqında geniş təsəvvür yaratmaq imkanından da məhrum deyil. Göyçəli aşığın repertuarı bizim yuxarıda qeyd etdiyimiz qəhrəmanlıq dastanları da daxil olmaqla bütün Azərbaycan dastanlarını əhatə edir.

Göyçə dastanlarında qəhrəmanlıq motivi olduca güclüdür; burada aşıq həm aşiqdir, həm də nominal mə'nada qəhrəmandır (döyüşçüdür). Sadəcə olaraq o mübarizəsini qılıncla və başqa silahla deyil, sazla və sözlə aparır, qalib gəlir və rəqibi olaraq basdığını kəsmir, onu ifşa etməklə kifayətlənir. Həmin qəhrəmanlıq ruhu bu gün də mövcuddur və Vətən igidlərinin ulu məskənimiz uğrunda zəfər yürüşünə tə'minat verir. Bizim nəşrə hazırladığımız materiallar məhz Göyçə dastanlarının sonuncu (3) tipinə uyğundur. Ona görə də biz mətnləri "Göyçə dastanları və aşıq rəvayətləri" adı altında nəşr etməyi müvafiq hesab etdik. Təqdim etdiyimiz araşdırmada isə mə'nəviyyatımızın aynasına işıq tutduq.

Əlbəttə, Göyçə dastanlarının (eləcə də bütün Azərbaycan dastanlarının) toplama, nəşr və tədqiq işi bundan sonra daha yüksək templə gedəcək. Çünki folklor, mə'nəviyyat və ədəbiyyat işi milli mədəni inkişafımızın əsasını təşkil edir və bütövlükdə sosial-siyasi və mədəni-mə'nəvi inkişafımız ölkənin maddi ehtiyatlarının artımının da verəcəyi imkanlarla birgə yüksələn xətlə mədəni irəliləyişimizi tə'min edəcəkdir. Müstəqil ölkədə və demokratik şəraitdə yetişən onlarla alim və tədqiqatçı Azərbaycan - türk mə'nəviyyatının - inamının ideyasını və ruhunu minillərlə toplanmış dəyərlər məcmusunun son beş yüz ilin tarixi reallığı ilə yoğrulmuş Göyçə dastanlarını araşdıracaq, öyrənəcək və öyrədəcək: Türk millətinin milli mədəni birliyi, azadlığı və yüksəlişi naminə.

MİSKİN ABDAL VƏ SƏNUBƏR

USTADNAMƏ

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mə'rifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən lə'lü-gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana.
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əmələn mələklər yaza dəftərə.
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, dostların qəlbi şad olsun.

Varlıynan dost olub, yoxsula gülmə,
Çox da havalanıb coşma, dünyada.
El səni istəyib, qabağa çəksə,
Ağır ol, alçağa düşmə dünyada!

Dərdini bölüşdür qədir bilənnən,
Vəfalı dost olmaz üzə gülənnən.
Bir adam ki, "sən öl" desə yalannan
Onun körpüsünnən keçmə dünyada.

Bu sözü bəyənər bir arif, əyyar,
Bədəsil kimsəyə yapış, nə yalvar,
Qonşuya söyləyib, aləmə yayar,
Sirrin seyraquba açma dünyada.

Yaxşı oğul əkər bir yaxşı ata,
Ölüncə heç kəsə yetirməz xata.
Yeri gəlsə, xeyir verər elata,
Onun arxasından qaçma dünyada.

Ələsgər, söylənir sözün adınan,
Arif məclisində hər isbatınan.
Bir dost sənlə olsa, sirri yadınan,
Onu düşmənindən seçmə dünyada.

Ustadlar ustadnaməni iki deməz, üç deyər. Biz də deyək, üç olsun, mərdlərin könlü açılsın.

"Can" deməklə, candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deməyin nə'fi nədi dünyada
Abad könülləri pərişan eylər.

Nakəs adam danışıqda saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nütfədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

Bir gün Mansır qalxar, gəli toxmaq-yay,
Dağlara atmağa eylər haqq-say,
Seçilməz məhşərdə nə şah, nə gəday,
Xaliqi-ləmyazəl haqq divan eylər.

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər kanı,
Mənim sözüm yoldan azan mollanı,
İnşallah, qaytarar, müsəlman eylər.

Mən istərəm alim, mö'min yüz ola,
Meyli haqqa doğru, yolu düz ola.
Diliynən zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər.

Sizə hardan deyim, kimnən xəvər verim Göyçə mahalının Zərgərri kəndində olan Məhəmməd kişidən. Deyilənnərə görə, bu kənd öz adını Zərgərri tayfasının adınnan götürüf. Bu tayfanın addı-sannı, adamlarının sorağı hər yana yayılıfmış. Hər yerdə onnarın varınnan, dövlətinnən, cah-cəlalınnan, bir-birinnən gözəl zərgərrik işdərindən ağız dolusu danışılardı. Qızılın bolluğunnan hamı zərgərriknən məşğul olardı.

Məhəmməd kişi kəndin hörmətdi adamlarınnan sayılırdı. Sürüsü su bulandırar, ilxısına yer tapılmazdı. Qızılının, gümüşünün, pulunun sayı-hesavı yoxuydu. Nə qədər var-dövlət, cahi-calal sahibi idisə, bir o qədər də səxavətdiydi. Atası pullu Cəfər, oğlu Məhəmmədi molla yanında oxutdurmuş, ustad sənətkarrar yanında Göyçədə hər şeydən çox sevilən saz-söz sənətindən hali eləmişdi. Kənddəkəsəkdə elə bir toy-nişan olmazdı ki, Məhəmməd Cəfər oğlu orada başda olmasın. Kasıfların, yetim-yesirrərin dayağı, mərdiməzarrarın, nanəciflərin qənimiydi.

Çoxları bilmirdi ki, adı, şöhrəti hər tərəfə yayılan Məhəmməd Cəfəroğlunun böyük bir dərdi var. Onun övladı yoxuydu. Nə vaxtıydı ki, əmisi qızı Növrəstəynən evlənmiş, lakin züryətləri olmamışdı. Vaxt ötsə, zaman keşsə də, Məhəmmədnən Növrəstə Allahın ətəyinnən əllərini çəkməmişdilər.

Bir gün savah-savah o başdan qapı döyüldü. Məhəmməd qapıyı açdı. Qapıda üzünnən, gözünnən nur tökülən bir dərviş dayanmışdı. Salam-əleykdən sonra Məhəmməd dərvişə xoş gəldin deyif, onu evə də'vət elədi. Dərviş dedi:

– Oğul, bil və agah ol. Savah-savah sana qismət gətirmişəm. Al, bu almanı, yarıya böl, arvadınnan ye. Doqquz aydan sonra bir oğlu-

nuz olajax. Adını Hüseyn qoyarsınız. O biri adını özü qazanajax.

Məhəmməd qojadan almanı alıf dedi:

– Bava dərviş, dayan nəzirini gətirim.

Dərvişin bu gəlişinnən çox sevinən Məhəmmədin öyə girməsinnən çıxmağı bir oldu. Onun bir əlində qojanın verdiyi alma, o biri əlində xeyli qızıl pul varıydı. Dərviş qapıda yoxuydu. Elə bil dərviş bir tikə əppək oluf göyə çəkilmişdi. Məhəmməd nə qədər axtardı, nə qədər soraxladısa, dərvişdən xəvər verən olmadı. Məhəmməd kor-peşiman öyə qayıtdı. Başına gələnnəri arvadına danışdı. Sonra da dərvişin dediyi kimi almanı ortadan ikiyə böldü. Yarısını arvadına verdi, yarısını da özü yedi.

Vaxt gəlif, zaman yetişdi. Növrəstə doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqədən sonra bari-hamiləni yerə qoydu. Məhəmmədin bir oğlu oldu.

Nəzirrər paylandı, qurvannar kəsildi, toy-düyün başdandı. Hamı gözaydınnığına gəldi. Yedilər, işdilər, Allaha şükürrər oxudular. Uşağın adını dərviş dediyi kimi Hüseyn qoydular. Hamı bir ağızdan: – Adınnan böyüsün, addı-sannı bir oğul olsun, ata-anasının, tayfasının, elinin-gününün adını ucaltsın!!! – dedi.

El ağzı fal olar, deyiflər. Hüseyn gündə bir buğda boyu yekəlif yeddi yaşına çatdı. Üzünnən-gözünnən ağıl-kamal yağırdı. Hüseyni atası molla yanına qoydu. O, tez bir zamanda bütün elmləri sinədəftər eliyif, açarını civinə qoydu.

Bunnan sonra atası oğluna qılış vurmağı, qalxan tutmağı, at çapmağı, kəmənd atmağı, xülasə, cəngdə lazım olan fənd-fe'lləri öyrətdirməyə başdadı.

Vaxt ötdü, illər keşdi. Hüseyn gəlif həddi-buluğa çatdı. Bu yaşında o, çox şeyləri bilirdi. Mərfətinə, ağlına, kamalına, qanacağına görə hamı onun başına and içirdi. O, boylu-buxunnu, cüssəli bir iyid olmuşdu. Atası tez-tez onu özünnən səfərrərə aparır, onun daha çox görüf-götürməsinə çalışırdı.

Bir axşam Məhəmməd kişi yenə də yol tədarükü gördü. Arvadı Növrəstə yola hazırrıx gördü. Bu dəfə onnar İsfahana səfər eləməliydilər. Yeyif-içənnən sonra tez yatdılar kı, savah ala-qarannıxda oyansınnar, karvana gejikməsinnər. Atalar yaxşı deyif: sən saydığını say, gör fələk nə sayır.

Savah o başdan, hamı qalxdı. Amma Hüseyn hələ şirin yuxu-

daydı. Dedilər:

– Ya'qın yuxusuzdu. Bir azdan qalxar. Bir az da gözdədilər, qalxmadı. Silkələdilər, çağırdılar, qışqırdılar, qalxmadı kı, qalxmadı. Karvanbaşı ismarış göndərdi ki, gejikirik, gəlsinnər.

Nə başınızı ağrıdım. Karvan öz yolunnan gedəsi oldu. Məhəmmədin səfər də, ticarət də yadınnan çıxdı. Başdarı qarışdı Hüseynə. Heş kim bir şey annıya bilmirdi. Hamı mat-məəttəl qalmışdı. Hüseyn illər yorğunu kimi şirin-şirin yatırdı.

Bütün günü gözdədilər, gejə də gəlif keçdi. İkinci gün də axşama çatdı, ancax Hüseyn qalxmadı kı, qalxmadı. Bu xəvəri eşidif bilən qohum-əqrava bir ujdan axışıf gəlirdi. Axırda bunnarın arasınnan dünyagörmüş bir qoja irəli yeriyif dedi:

– Ay camaat, narahat olmuyun! Ona yuxusunda haxdan buta verilir. O, haqq aşığı olajax. Üş günün tamamında ayılajax...

Qərəz, hamı üş günün tamamını gözdəməyə başdasın, görək Hüseynin başına nələr gəldi. Hüseyn baş yastığa atan kimi aləmi-rö'yada gördü kü, onun otağında qəflətən bir nurani dərviş peyda oldu. Onu İsfahana aparmax istiyən atası Məhəmməd kişiyə üz tutuf dedi:

– Sən hələlik heş yerə getmə. Hüseyni mən özüm Təbrizə aparajam. Təbrizdən qayıdana qədər gözdə.

Bunu deyif qoja Hüseyni yanına alıf onnan neçə-neçə dərələr keşdi, dağlar aşdı, ormannar dolaşdı. Kənddərdə, şəhərrərdə oldu. Onnar yollarda qara-borana düşdülər, quldur-qaçaxlardan sağ-salamat qurtarıf çox çətinniknən gəlif uca bir dağın başına çıxdılar. Olannan, qalannan yeyif, dağların dup-duru sularınnan içif dincəldilər. Buradan baxanda hər tərəf aydın görünürdü. Buradakı gözəllikləri seyr etdikcə az qalırdı Hüseynin ürəyi qopuf düşsün.

Bir az dincələnnən sonra bava dərviş dedi:

– Eşit, oğul. Diqqətnən qulax as. Bizə lazım olan yerə gəlif çıxmışıx. Bir azdan Təbrizi də görəjəksən. Sənin gələcək taleyin bu torpaxnan bağlıdı.

O, qəflətən əlindəki badəni Hüseynə uzdıf dedi:

– İç, oğlum, iç bu badəni!

Hüseyn bir addım geri çəkilif dili dolaşa-dolaşa dedi:

– Bava dərviş, mən müsəlmanam, şərab bizə haramdı!

Dərviş dedi:

– İç, oğlum! Bu, şərab deyil, eşq badəsidi. Sən çox-çox çətinnik-

lərdən keçəjəksən, çox əzaflarnan qarşılaşajaxsan. Eşqin yolunda sana miskin də deyəjəklər, abdal da. Sən hər bir çətinnikdən keçif ucalara qalxajaxsan. Mənim kimi bir kəramət sahibi, övliya olajaxsan. Bu günnən Miskin Abdal adınnan tanınıf, bu adnan dolaşajaxsan bütün dünyanı. Bu haqqın əmri, tanrının istəyidi.

Hüseyn nurani qojanın əlindəki badəni istər-istəməz alıf başına çəkdi. Dünya gözündə nura boyandı. Halı dəyişdi. Ürəyi həsrətnən döyünməyə başdadı. İndi elə bil başqa bir aləmdəydi.

Bava dərviş sağ əlini irəli uzadıf şəhadət və orta barmağını haçalıyıf dedi:

– Bala, bax gör, barmaxlarımın arxasından nə görünür?

– Bava dərviş, gözəl bir şəhər. Şəhərdə gözəl bir saray, onun içində gözəl bir qız.

Bu sözdəri deyif qurtaran kimi o, bihuş oluf yerə yıxıldı. Dərviş onun üzünə su töküf ayıltdı. Əlini başına çəkif dedi:

– Eşit, oğul. Həmin gördüyün şəhər Təbrizdi. O saray sevdakar Mahmudun evidi. Ona qəddarlığına görə ilan Mahmud da deyillər. Orada gördüyün o gözəl ilan Mahmudun qızı Sənubər xanımdı. Səni ona, onu da sənə buta verdim. Gözdərini yum, aç.

Hüseyn gözdərini bava dərvişin dediyi kimi yumdu. Açanda evlərini, bir də yuxuda olduğu bu üş günü onun ayılmasını həsrətnən gözdüyən ata-anasını, qohum-qonşularını, dost-tanışdarını gördü.

Savahlar üzünüzə xeyirriknən açılsın. Hüseynin ayılmağına hamı şad oldu. O saat qurvannar kəsildi. Kasıflara, yetimlərə, dullara, kimsəsizdərə nəzir-niyaz paylandı. Xülasə, bir şadyanalıx oldu ku, gəl görəsən. Anası Növrəstənin şaddığınnan göz yaşı selə dönmüşdü. Ancax Hüseyn dinif-danışmırdı. Qara bulud kimi tutulmuşdu. Əvvəlcə elə bildilər ki, nitqi tutuluf. Nə qədər dilə tutdularsa, bircə kəlmə də ala bilmədilər. Anası fəryad qopartdı. Atası Məhəmmədin gözdəri yaşnan doldu. Hamı donuf qalmışdı.

Hüseyn hannan-hana özünə gəldi. Əlini divara uzadıf sazını istədi. Divarda üç saz varıydı. Biri bavasının, biri atasının, biri də özünün. Adamlar karıxdıxlarınnan o biri sazdarı vermək istədilər. Hüseyn əlinnən işarə edif öz sazını istədi. O, sazını alan kimi köynəyinnən çıxarıf sinəsinə basdı. Aldı görək nə dedi:

Eşidin, həzarət, ərzi-halımı,
Salıf kəməndinə bir dilbər məni.
Divanə eliyif, alıf canımı,
Oxluyuf sinəmnən bixəvər məni.

İsmi Sənubərdi, xəvərdar olun,
Qızıdı Təbrizdi ilan Mahmudun
Allaha şükr edin, bu dərdi udun,
Bəlkə eyləməyə bir təhər məni.

Dərviş bavam verdi eşqin camını.
İçif, atəşdərə saldım canımı
Uçurdum könlümün xanimanını,
Gördünüz eşqi-hal bu səhər məni.

Gedirəm, bu yoldan dönən deyiləm,
Od tutuf yananam, sönən deyiləm,
Bir comərd iyidəm, zənən deyiləm,
Doğufdu anadan anam ər məni.

Hamıya könüldən yetirrəm salam,
Daha Hüseyn yox, Miskin Abdalam
Bir eşqin yolunda zəlili-xaram,
Eyliyir vətənnən dərbədər məni.

Hamının yavaş-yavaş qırışığı açılmağa başdadı. Onnar indi annadılar kı, Hüseynə, doğrudan da, hax vergisi verilif. Hüseyn yuxuda gördüklərini saznan olduğu kimi, söznən də başına toplaşannara annatdı. Sözünü bitirənnən sonra bildirdi ki, Sənubərə qovuşmax üçün tezdiknən yola çıxmalıdı. Bunu eşidən anası Növrəstə xanım qulac hörüklərini sinəsinə sıxıf ağlıya-ağlıya aldı görək nə dedi:

Başına döndüyüm gül üzdü oğul,
Getmə, oğul, getmə, aman günüdü.
Getsən, mən olaram zəlili naçar,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Başına döndüyüm gül üzlü ana,
Butamın dalınca gedəsiyəm mən.
Ağlıyıf qəlbimi döndərmə qana,
Butamın dalınca gedəsiyəm mən.

Aldı Növrəstə:

Yazığam, anana yazığın gəlsin,
Qoyma ahu-ünü göyə yüksəlsin.
Dərddiyəm, dərdimi el-aləm bilsin,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Dua et, tanrıya ağlama daha,
Getməsəm bataram böyük günaha
Bağla umudunu qadir Allaha,
Butamın dalınca gedəsiyəm mən.

Aldı Növrəstə:

Ağlayıb, dad çəkif, deyər Növrəstə
Düzülüb sinəmə qəm dəstə-dəstə.
Sən getsən illərnən olaram xəstə,
Getmə, oğul, getmə, aman günüdü.

Aldı Miskin Abdal:

Yanmış ürəyimin qalmıyıf halı,
Zarıncı eyləmə Miskin Abdalı.
Eşitsin qoy bütün Göyçə mahalı,
Butamın dalınca gedəsiyəm mən.

Söz tamama yetdi. Ana-bala bir-birinə sarmaşıx kimi saralıf ağladılar. Anası nə qədər yalvardı, nə qədər dil tökdüsə, oğlunu dediyinnən döndərə bilmədi. Axırda ələssiz qalıf qəmgin halda bir tərəfə çəkildi. Dedi: "Bəlkə bir neçə gün keçər, anasının göz yaşdarına rəhm eliyif bu yoldan qayıdar".

Adamlar arasında xısın-xısın söz-söhbət gəzdi, pıçhapıç düşdü. Biri dedi: gəlin murdarrıyax. Biri dedi: zornan başqa bir qıznan ev-

ləndirsinnər. Biri belə dedi, biri elə dedi. Əlqərəz, ağlabatan bir fikrə gələ bilmədilər. Axırda atası irəli yeriyif dedi:

– Onu murdarramax çox böyük günah olar. Hüseynə hax vergisi verilif. Bu Tanrının qismətidi. O ku qaldı başqa qız təklif olunmasına, onu eliyək. Razı qalar, lap yaxşı. Razı olmaz, Allah yaxşı yol versin. Özgə neyliyə bilərik?!

Xülasə, Miskin Abdalı nə qədər dilə tutudular, nə qədər bəy, xan, paşa qızının adını dedilər, bir nəticə hasil olmadı.

Adamların onnan əl çəkmədiyini görən Miskin Abdal sazını sinəsinə basıf aldı görək nə dedi:

Fələk yazıfdı yazımı,
Mən butamnan ayrılmaram.
Əcəl mana yar olmasa,
Mən butamnan ayrılmaram!

Göy gurlasa, şimşək çaxsa,
Başımıza oddar yağsa.
Mən də yoxam, o qız yoxsa,
Mən butamnan ayrılmaram.

Miskin Abdal divanədi,
Dedikləri görün nədi?
Ayrı qızdar əfsanədi,
Mən butamnan ayrılmaram.

Hamı gördü kü, Hüseyni bu yoldan döndərmək mümkün deyil. Ona görə ələjsiz qalıf razılıx verdilər. Dedilər ki, get, Tanrı köməyində olsun. Doğma ojağımıza, sağ-salamat qayıdasan. Sevdiyinə qovuşasan. Miskin Abdalın qəlbi coşa gəldi. Sazı sinəsinə basıf aldı görək nə dedi:

Ay ata, ay ana, halallıx verin,
Uzax bir səfərdə, yol üstəyəm mən.
Sirri bəlli deyil sonsuz gəydərin,
Tükənməz bir eşqdə, həvəsdəyəm mən.

Hayana baxıram, hər yan gülüstan,
Şamama tağ atıf, dəymiyif bostan.
Hələ yazılmamış bir böyük dastan,
Hələ oxunmamış şikəstəyəm mən.

Bu yolda tufan da, çən də olajax,
Çiçək açılıfsa, bir gün solajax.
Miskin Abdal gej-tez yarı bulajax,
Nə çolax, nə şikəst, nə xəstəyəm mən.

Növrəstə xanım oğlunun tel-tel olan qəlbinin sızıltılarını eşidif biruzə verməsə də, için-için ağladı, əllərini qoşa hörüklərinə apardı, onnarı sinəsinə sıxıf, aldı görək nə dedi:

Sənə xeyir-dua verirəm, oğul,
Get, oğul, üstündə Allah yar olsun.
Gül aşsın umudun, arzun, diləyin,
Yolların tər çiçək, laləzar olsun.

Gör nələr eylədi, gərdişi-dövran,
Nə zaman istəsən ol yola rəvan.
Tanrıdan balama dilərəm aman,
Görüm butasıynan bəxtiyar olsun.

Yazıq Növrəstənin mə'lul çağıdı,
Qəlbini yandıran hicran dağıdı.
Sənnən dünya mana cənnət bağıdı,
Sənsiz hər nəyim var tarimar olsun.

Bayaxdan ana-balaya diqqətnən qulax asan Məhəmməd kişinin də sinəsi yaman dolmuşdu. Üzünü arvadına tutuf dedi:

– Ay arvad, sinəmə bir-neçə xanə söz gəlif. Qoy mən də deyim, bəlkə sinəm boşala.

Arvadı dedi:

– Buyur, ay kişi:

Məhəmməd sədəfli sazını sinəsinə basıf dedi:

Haqqın dərgahına tapşırram səni,
Sağ get, yara yetiş, salamat qayıt.
Elinnən, obannan ayırdı səni,
Sağ get, yara yetiş, salamat qayıt.

Nə dövlətin olsun, nə malın olsun,
Gözəl baxtın olsun, yığvalın olsun,
Çəkdiyim zəhmətdər halalın olsun,
Sağ get, yara yetiş, salamat qayıt.

Dünyada heş bir şey deyil əbədi,
Üzündə, gözündə bu məlal nədi?
Gözü yaşdı qoyma qul Məhəmmədi,
Sağ get, yara yetiş, salamat qayıt.

Elə ki, söz tamama yetişdi hamı bir ağızdan "amin" dedi.

Ər-arvad Miskin Abdala yol tədarükü görməyə başdadı. Hər şey hazır olannan sonra Uzun Qasımı da Miskin Abdalın yanına qatdılar. Dedilər: uzax yoldu, Miskin Abdal da çox cavandı, yola-izə nabələddi. Demək olmaz, cannıdan qada əskik deyil. Bir şey-zad olsa, xəvər çatdırar. Bir də uzun Qasım bərkə-boşa düşmüş adamıydı. Həm də yazıf oxumağı da bajarırdı. Elmlərdən halıydı. Yol xurcununa dəftər-qələm də qoydular kı, Miskin Abdal harada nə desə, başına nə gəlsə, yazarsan. Ayrılıx məqamı gələndə Miskin Abdal gördü kü, anası bahar buludu kimi doluf. Atasını dindirən olsa zulum-zulum ağlıyar. Qohum-qonşular da mə'lul-mə'lul ona baxıllar. Miskin Abdal buna dözmüyüf aldı görək nə dedi:

Bir sevdaya düşmüşəm mən,
Allah, məni özün saxla!
Dərd içində bişmişəm mən,
Allah, məni özün saxla!

Anam qalır gözü yaşdı,
Atam dərddi, başı daşdı.
Qohum-qonşu qəm ataşdı,
Allah, məni özün saxla!

Miskin Abdal gedər, gələr,
Atam-anam qalmaz mələr.
Qəmli könlüm bir gün gülər,
Allah, məni özün saxla!

Söz tamama yetdi. Miskin Abdalnan Uzun Qasım hamıynan halallaşıf yola düşməyin binasını qoydular. Onnarın arxasınca güzgü tutdular, su atdılar.

Bir az keçənnən sonra kəndin kənarındakı uca yerə gəlif çıxdılar. Doğma yurdunnan, yuvasınnan, elinnən, ovasınnan ayrı düşən Hüseynin ürəyi quvar elədi, sıra dağlara, şırıl-şırıl axan bulaxlara, əli ilə saldığı bağ-bağçaya nəzər saldıxca, ötən günnərini xatırradı... Dözmədi. Sazını köynəyinnən çıxardıf üzünü kəndə tərəf tutdu. Qəmli-qəmli oxumağa başdadı:

Mən gedirəm, sən qalırsan,
Ulu dağlar, salmat qal!
Yadıma nələr salırsan,
Gur bulaxlar, salamat qal!

İnlə, yazıx qəlbim, inlə,
Ay çöl, çəmən məni dinlə.
Günüm keşdi toy-düyünlə
Ötən çağlar, salamat qal!

Bağça saldım, gül dərmədim,
Bağ becərdim bar görmədim
Miskin Abdal, budu dərdim,
Barrı bağlar salamat qal!

İlin o vaxtıydı kı, gül-gülü, bülbül-bülbülü çağırırdı. Hər tərəf ala, yaşıla bürünmüşdü. Dan yeri təzəcə açıldığınnan hər yannan qoyun-quzu mələşməsi, at kişnərtisi, çovan tütəyinin yanıxlı səsi eşidilirdi. Bir yannan eldən, ovadan ayrılmax, bir yannan da bu gözəl mənzərələr Miskin Abdalın ürəyini parça-parça elədi, qəlbini coşa gətirdi. Sazını sinəsinə sıxıf aldı görək nə dedi:

Bahar vaxtı yol başdadım Təbrizə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı.
Öz elimdə mələk misal gözəllər
Yanax qaldı, dodax qaldı, tel qaldı.

Savah-savah yarpaxlara şeh düşür,
Gül bülbülnən, bülbül gülnən öpüşür.
Asimanda ulduzdarı sayrışır,
Tufan qaldı, şimşək qaldı, sel qaldı.

Bu güllərdən dəstələ al, əlinə,
Miskin Abdal, apar canan elinə.
İzin versə, düz yarının telinə,
Çəmən qaldı, çiçək qaldı, gül qaldı.

Bunu deyif başdadılar yerin damarını qıra-qıra yol getməyə. Gün çeşdə qalxanda gəlif Alçalıya çatdılar. Hələ axşama xeyli varıydı. Dost-tanışdar çox yalvar-yaxar elədilər ki, bu gejə qalıf onnarın qonağı olsunnar. Miskin Abdal razı olmadı.

Alçalı camahatınnan xudafisdəşif yollarına davam elədilər. Qavaxda yol haçalanırdı. Yolun biri quru yoluydu. Bu yolnan getmək əlverişdi deyildi. Çünki neçə gün dağlardan-daşdardan keçif, uzun bir yol keşməliydilər. Ona görə gəmiynən getmək istiyirdilər. Amma inanmırdılar kı, bu vaxta gəmi qalsın. Ona görə çarığın bağını bərkidif piyada getmək istiyəndə Miskin Abdal gölün sahilində bir gəminin dayandığını görüf Qasıma dedi:

– Qasım, tələs. Baxtımızdan bərədə gəmi qalıf.

Onnar gəmiyə yaxınnaşdılar. Bu vaxt külək başdadı. Gəminin böyüyü də, gəmidəkilər də sevindilər. Gəminin böyüyü üzünü Miskin Abdalgilə tutuf dedi:

– Səmt küləyi olmadığınnan dünən axşamdan burada qalmışıx. Elə bil bu küləyi siz gətirdiniz. Tez olun gəmiyə minin!

Gəminin böyüyü biləndə ki, bu haqq aşığıdı, Miskin Abdalın üzünə salavat çöyürdü, onnara təzədən xoş gəldin elədi. Gəminin böyüyü qonaxlara olmazın hörmət elədi. Miskin Abdal da sazı köynəyinnən çıxarıf çalıf-oxumağa başdadı.

Gəmidəkilərin başı aşığa elə qarışmışdı kı, vaxtın nejə keşdiyini,

hara getdiklərini yaddan çıxartmışdılar. Bir də o vaxt ayıldılar ki, gəmi sahilə xeyli qalmış bir adaya zərbnən dəydi. Hamı tələş içində adaya atıldı. Tez lövbər saldılar. Tufanın yatmağını gözlədilər. Tufandakı kəsmək bilmirdi. Tufan düz üç gün gəmiyi yerinnən tərpənməyə qoymadı. Buradakıların hamısı tezdiknən suya qərq oluf, məhv olajaxlarınnan qorxurdu. Vətəndən ayrı düşmək, bir yannan da yar həsrəti Miskin Abdalın bir dərdini min elədi. Dağ-daş başına fırrandı, için-için alovlanıf yandı. Heş nəyə güjü çatmıyıf sazını əlinə aldı. Zilini-zil, bəmini-bəm eliyif, aldı görək nə dedi:

Gejə yuxum yoxdu, gündüz qərarım,
Fələk niyə qoydu adada məni.
Bilməm, neynəmişəm, nəydi günahım?
Niyə saldı aha, fəryada məni?

Mən bir hal əhliyəm, mətləf qanıram,
Nələr düşünürəm, nələr anıram.
Elə alışmışam, elə yanıram,
Söndürə bilməzdər suda da məni.

Mən Miskin Abdalam, haqqı seçmişəm,
Ərənnər əlinnən badə içmişəm,
Bir canannan ötrü cannan keçmişəm,
Qorxutmaz bəla da, qada da məni.

Miskin Abdal sözünü qurtarar-qurtarmaz tufan dayandı. Bayaxdan at kimi şahə qalxıf, əjdaha kimi nə'rə çəkən dalğalar sahil boyu sürünüf, gölə tərəf çəkildilər. Dağılan qara buluddarın arasınnan günəş göründü. Gəmidəkilər Miskin Abdalın ayaxlarına döşəndi. İndi hamı onun haqq aşığı olduğunun cannı şahidi olmuşdu.

Gəmi genə yoluna davam elədi. Tezdiknən sahilə çatdılar. Hamı sağ-salamat mənzil başına yetdiyinə, bu bəladan xilas olduğuna görə Allaha şükr eliyir, Miskin Abdalın ömrünə dualar oxuyurdular.

Axşama hələ xeyli varıydı. Gəmidəkilər nə qədər minnət eləyif yalvardılarsa, Miskin Abdalnan Uzun Qasım qalmadı. Yollarına davam elədilər. Axşamüstü gedif bir şenniyə çıxdılar. Camahat bunnarı çox mehribannıxnan qarşıladı, Meydanəli adlı bir kişi onnarı evlə-

rinə də'vət elədi. Çaydan, çörəkdən yeyib-içif bir az rahatdandılar. Eşidif bilən qohum-qonşular buraya toflaşdı. Mətləvi qanan Miskin Abdal sazını köynəyinnən çıxarıf çalıv-oxudu. Axırda da kim olduğunu, haradan gəliv, haraya getdiyini, yolda başına gələnnəri bunnara danışdı. Məclisə toplanannar bildilər ki, bu haqq aşığıdı. Vergi verilib, butasının dalinnan gedir. Hamı onnara xeyir-dua verif, evlərinə dağılışdı.

Savah açıldı. Savahlar üzünüzə xeyirriknən açılsın. Qonaxlar yuxudan durana kimi süfrə açılmışdı. Miskin Abdalnan Qasım yeyif-içənnən sonra ev sahibinə öz razılıxlarını bildirif, yola düşməyə icazə istədilər.

Meydanəli kişi yola da bir xeyli tədarük görüf, bunnarı böyük hörmət, izzətnən yola saldı.

Miskin Abddalgil kəndə axşamüstü çatdıxlarınnan çox şeyi görə bilməmişdilər. Yol boyu hər tərəfin gül-çiçək içində olduğunu görüf, ürəyində dedi ki, əbəs yerə buraya Dərəçiçək demiyiflər. Dərə də, dağ da, çəmən də, çöl də, bostan da, bağ da, yamac da gülə-çiçəyə bürünmüşdü. Miskin Abdalın könlü bu yerrərin misilsiz gözəlliyinnən coşa gəldi, sazını sinəsinə basıf aldı görək nə dedi:

Əcəb səfası var sizin ellərin,
Dərəsi çiçəkdi, dağı çiçəkdi.
Ətri bihuş edir qönçə güllərin,
Bağçası çiçəkdi, bağı çiçəkdi.

Bura dərə deyil, cənnət məkandı,
Mat-mətəl qalmışam xeyli zamandı.
Pis gözdən qoruyun, Allah, amandı
Sol yanı gül açıf, sağı çiçəkdi.

Yaxşı ki güzarım düşdü bu yerdən,
Baxanın ağlını aparıf sərdən.
Hər yan xəvər verir bardan-bəhərdən,
Körpə şamamanın tağı çiçəkdi.

Miskin Abdal özü haxdan pay alıf,
Ürəyi yüz dəfə boşalıf, doluf,

Hürilər, pərilər burda cəm oluf,
Lalə yanaxların ağı çiçəkdi.

Qonaxları yola salmağa yığışannar dönə-dönə rica etdilər ki, qayıdanbaş genə bu elin qonağı olmamış Göyçüyə getməsinnər. Miskin Abdal söz verdi ki, muradına çatıf qayıdanda mütləq onnara baş çəkəjək.

Miskin Abdalnan Qasım yola başdadılar Təbrizə tərəf. Az getdilər, çox dayandılar. Çox getdilər, az dayandılar. Neçə oba, orman keşdilər, dağ, dərə aşdılar. Qavaxlarına çıxan hər kənddə, hər şennikdə onnarı böyük hörmətnən, izzətnən qarşıladılar, xeyir-dualarnan yola saldılar. Dərələyəz ellərinnən keçəndə, bir də gördülər ki, qarşıdakı çəmənnikdə bir dəstə qız çiçək dərir. Al-yaşıl geyinən, bir-birinnən gözəl qızdar Miskin Abdalgili görüf diksinən kimi oldular. Qızdarın içində Cəvahir addı dilli-dilavər bir qız varıydı. O dedi:

– Qorxmuyun, qızdar. Bunnar quldur-qaçax, yol kəsən deyillər. El aşığı, yol adamıdılar. Özü də lap cavandılar.

O biri də zarafatyana qayıtdı kı:

– Özdəri də subaydılar.

Bu sözə qızdarın hamısı gülüşdü. Uzun Qasım bu gülüşdən pərt oldu. Miskin Abdal ona göz vurdu ku, sakit olsun. Burada başqa şey var.

Cəvahir bunnarın baravarına gəlif salam verif, əleyk aldıxdan sonra dedi:

– Bizim ellərə xoş gəlifsiniz. Sizi bizə Allah yetirif. İndi bu güllü-çiçəkli çəməndə aşıxlar çalar, oxuyar, biz nərmənazik, nazdı-qəmzəli qızdar da qulax asıf feyziyab olarıx.

Uzun Qasım özünü saxlıya bilmiyif dedi:

– Xanım, mən aşıx deyiləm.

Cəvahir dedi:

– Yoxsa balabançısan?

Uzun Qasım dedi:

– Yox, xanım. Nə aşığam, nə də balabançı.

O, başdadı oluf-olanın hamısını qızdara danışdı. Qızdar bir ağızdan onnara Allahdan kömək dilədilər, alxış elədilər. Qonaxlara gül dəstələri bağışdadılar.

Cəvahirin dili yenə dinc durmadı, dedi:

– Miskin Abdal, gedirsən, Allah işinə rəvac versin. Ancax bir də səni görək, görmüyək. Sənin kimi haqq aşığına rast gələk, gəlmiyək. Əyər, doğrudan da, haqq aşığısansa, biz qızdara da bir tə'rif de. Bir az da bizim üçün çal, oxu.

Miskin Abdal bir-birinnən gözəl olan bu qızdarı gözaltı süzdü. Qəlbi riqqətə gəldi, dedi:

– Gözüm üstə, qızdar. Sizin tə'rifinizi yaradan özü verif. Mən də Allahın sizə verdiyi o gözəlliyi vəsv eliyərəm. Uzax yol gəlmişik. Susamışıx. Mana bir içim su verin, sonra başdıyım tə'rifinizi deməyə.

Qızdardan biri cəld qaçıf yaxınlıxdakı durna gözlü bulaxdan dolçasını dolduruf aşığa verdi. Buz kimi suyu içənnən sonra görək Miskin Abdal qızdara nə dedi:

Bir-birinizdən gözəlsiniz,
Qarşımıza çıxan qızdar
De, biznən var nə qəsdiniz?
Qəlb uçuruf, yıxan qızdar.

Şərbət bildim suyunuzu,
Mən öyərəm boyunuzu,
Kaş görəydim toyunuzu,
Oğrun-oğrun baxan qızdar.

Körpəsiniz, qonçasınız,
Yol üstündə xonçasınız.
Pərvazlanıf uçansınız,
Sultan qızdar, ay xan qızdar.

Nə şirindi kələkləri,
Xoş arzusu, dilək ləri,
Neçə-neçə ürəkləri,
Atəşdərə yaxan qızdar.

Mən Abdalı etdi xəstə,
Bir qara göz, boyu bəstə.

Bənövşəni dəstə-dəstə,
Yaxasına taxan qızdar.

Qızdar bir ağızdan Miskin Abdala "Sağ ol!", "Əhsən!" dedilər.

Cəvahir bildirdi ki, aşıx "boyu bəstə" deyəndə dərdindən divanə olduğu Sənubəri nəzərdə tutur. Ancaq özünü o yerə qoymuyuf dedi:

– Aşıx, bizim aramızda o "qara göz, boyu bəstə" kimdi?

Miskin Abdal dedi:

– Xanım, mən öz sevgilimi nəzərdə tuturam. Axı, o da sizin kimi nocavan qızdı.

Cəvahir dedi:

– Yaxşı, onda sənin sözünnən belə çıxır kı, dünyada sənin Sənubərinnən başqa gözəl yoxdu. Nə oluf. Allahın adına şükür. Tə'rifimizi özün dedin. Nejə oldu ku, bizdərdən birimiz sənin Sənubərinə tay olmadıx.

Bu sözdərnən Cəvahir aşığı özü qəsdən bərkə-boşa çəkirdi.

Miskin Abdal dedi:

– Xanım, indi ki, belədi, onda qulağ as:

Sizə çirkin deməmişəm,
Dərələyəz gözəlləri.
Haxdan yanan bir atəşəm,
Dərələyəz gözəlləri.

Bir ocax var hər binədə,
Bir sevgi var hər sinədə.
Eyviniz yox bir dənə də,
Dərələyəz gözəlləri.

Sənubərdi mənim tacım,
Ona qalıf bir əlacım,
Siz hamınız mənim bacım,
Dərələyəz gözəlləri.

Yarpax düşər, xəzəl olar,
Könül sevən gözəl olar.

Sevgi haxdan nazil olar,
Dərələyəz gözəlləri.

Miskin Abdal, budu sözüm,
Sizdə işvə, məndə dözüm.
Yolunuza güllər düzüm,
Dərələyəz gözəlləri.

Qızdar yenidən şaddandılar. Aşığa təzə-tər gül, çiçək dəstələri bağışdadılar. Cəvahir üzünü Miskin Abdala tutuf dedi:

– Qalmağ istəsən, buyur qal. Biz də elik, ovayıx. Qonax Allah qonağıdı. Neçə vaxtdır yollardasan, yoruluf əldən düşərsən. Bir neçə gün qonax qal, çal-çağır. Sonra genə Təbrizə, sevgilinin dalınnan gedərsən.

Miskin Abdal:

– Sağ ol, xanım. Yolçu yolda gərək. Sənubər xanımın gözü yoldadı. Biz mütləq getməliyik.

Cəvahir dedi:

– Madam ki, belə oldu, onda qulaq as.

O, siyah zülfünnən üç tel ayırıf mərmər sinəsinin üstünə basıf, aldı görək nə dedi:

Sözüm budu, sana, aşıx,
Səni yara yetişəsən.
Biz daha bajı-qardaşıx,
Səni yara yetişəsən.

Aldı Miskin Abdal:

Gedərgiyik, rüsxət verin,
Qalın Allah amanatı.
Ömrünüzdən xeyir görün,
Qalın Allah amanatı.

Aldı Cəvahir:

Bas sinənə, çal sazını,
Haqq özü yazıf yazını

Allah versin murazını,
Səni yara yetişəsən.

Aldı Miskin Abdal:

Sazım kökdə, sinəm dolu,
Mənəm ərənnərin qulu.
Göstərin Təbrizə yolu,
Qalın Allah amanatı.

Aldı Cəvahir:

Cəvahiri sanma naşı,
Bilir nədi eşq atəşi,
Unutmaz bajı qardaşı,
Səni yara yetişəsən.

Aldı Miskin Abdal:

Bu yerrərdə gözüm qalar,
Söz-söhbətim, sözüm qalar.
Abdal deyər: izim qalar,
Qalın Allah amanatı.

Hər ikisi sözünü tamam eləyif əhdi-peyman bağladılar, qardaş-bajı oldular. Cəvahir dedi:

– Qardaş, mən özüm səni bərkə-boşa çəkirdim. Halal olsun sana. Sən, doğrudan da, haqq aşığısan. Yarına da yetişəjəksən. Mən də bu görünən kənddə Məlik ağanın qızıyam. Nişannım da öz əmim oğludu. Bu payız toyumuzdu. Sağ-salamat qayıdanda bir bajına da baş çək. Tez qayıtsan toyumuzu özün eliyərsən. Sonra birrikdə gedərik sizin ellərə. Göyçənin tə'rifini çox eşitmişəm, amma indiyə kimi görməmişəm.

Miskin Abdal dedi:

– İnşallah, hər şey qaydasına düşər, bu murazına da çatarsan.

O, saznan olduğu kimi, söznən də buradan Təbrizə sarı getməyin səmtini soruşuf, örgəndi. Qızdar görüşüf, hallalaşıf onnara yol göstərdilər. Yolçular yola düzəldi. Az getdilər, çox getdilər gəlif İrəvan səmtinə çıxdılar. Miskin Abdal məsləhət gördü kü, şəhərə girməsinnər. Çünki böyük şəhərdi. Aşığı tutdular, həftələrnən, ay-

larnan buraxmıyajaxlar. Özü də ki, bilələr Göyçədən gəlmişik heş buraxmıyajaxlar.

Qərəz, xeyli dərs-gors, məşvərətdən sonra Naxçıvana tərəf yollarını davam etdirdilər. Bir xeyli yol getdikdən sonra bir bulağın başında oturuf dincəldilər. Birdən Uzun Qasımın gözdəri göylərə baş alıf ucalan "Ağrı dağı"na sataşdı. Dedi:

– Bilmirsən, bu hansı dağdı? Ətəyində istidən ilan mələşir, başında nə boyda qar var!

Bu yerrərə Miskin Abdal da birinci dəfəydi ki, gəlirdi. Ancax, dağın duruşunnan, əzəmətinnən bildi ki, bu "Ağrı dağı"dı. O bu dağın İrəvan şəhərinin yaxınlığında yerrəşdiyini eşitmişdi. Kənd yığnaxlarında, məclislərdə aşıxlar, el ağsaqqalları Miskin Abdalın yanında dəfələrnən "Ağrı dağı"nnan çox söhbətdər eləmişdilər.

Miskin Abdal bunnarı unutmamışdı. O öz-özünə dedi: "Bu heç insafdan deyil ki, bu qədər yol gələsən, xata-balalardan qurtarasan, hər yerdə qatar-qatar söz deyəsən, amma adı dillər əzbəri olan, Nuh peyğəmbərin nişanəsi "Ağrı dağı"na bir qatar söz qoşuf, oxumuyasan". O, sazını köynəyinnən çıxarıf üzünü "Ağrı dağı"na tutuf oxumağa başdadı:

Qüdrətdən yaradıf yaradan səni,
Məğrur dayanıfsan sən, Ağrı dağı.
Şöhrətin tutufdu cümlə cahanı
Məftunam hüsnünə mən, Ağrı dağı.

Başında qış olar, ətəyində yay,
Təksən bu dünyada, yoxdu sana tay.
Qartallı qoynunnan kəsməz, hay-haray
Çəkilməz başınnan çən, Ağrı dağı.

Nuhun gəmisinnən bir xəvər söylə,
Karvana yetmirəm, sarvanı əylə.
Bu Miskin Abdala inayət eylə,
Danış bircə kəlmə, din, Ağrı dağı.

Söz qurtarannan sonra sazı köynəyinə qoyuf yol başdadılar Naxçıvan şəhərinə tərəf. Neçə gün yol getdilər. Axır bir gün gəlif Nax-

çıvan şəhərinə varid oldular.

Qara zurnanın səsi şəhəri başına götürmüşdü. Sən demə, Naxçıvanın addı-sanlı kişilərinnən biri, səxavəti dillərdə dastan olan İsgəndər bəy oğluna toy eliyirmiş. Qırx günnük toya bir neçə aşıx da də'vət olunmuşdu. Bunnar bu yerrərin addı-sannı aşıxları sayılırdı. Ancax İsgəndər bəyin ürəyində bir tıqqıltı qalmışdı. Axı, o Göyçədən aşıx gətirə bilməmişdi. Hər yerdə olduğu kimi buralarda da Göyçə aşıxları adnan söylənirdi.

Birdən İsgəndər bəyə xəvər gətirdilər ki, deməzsənmi şəhərə Göyçədən bir aşıx gəlif. Özü də çox cavandı. İsgəndər bəy əmr elədi ki, onnarı tez onun yanına gətirsinnər. Bir göz qırpımında Miskin Abdalnan, Uzun Qasımı tapıf İsgəndər bəyin yanına gətirdilər. Xoşbeş, on-beşdən sonra İsgəndər bəy başdadı bunnarnan əhvalpürsannığa. Miskin Abdal başına gələnnəri ona nağıl elədi. İsgəndər bəy xeyli fikrə gedənnən sonra dedi:

– Oğul, atanı tanıdım. Şeyx Heydərin dostudu. Mən də Şeyx Heydərnən çox yaxın dostam. Deməli, sən həm haqq aşığı, həm də mana dünyada hamıdan yaxın olan dostumun dostunun oğlusan. O ku, qaldı Təbrizdi İlan Mahmuda, onu da tanıyıram. Çox nanəcif adamdı. İş işdən keçif. Bura qədər gəlifsən. Allahın ətəyinnən tut. İnşallah, axırda hər şey yaxşı olar. Amma getməyə çox tələsmə. Bir neçə gün qal, oğlumun toyunda iştirak elə. Burda hamı Göyçə sazının-sözünün ölüsüdü.

Miskin Abdal onun sözünü yerə salmadı. Üç gün toyda-mağarda çalıf, çağırdı. Onun səsinə, avazına hamı heyran qalmışdı.

Üçüncü gejə paxıllıxdan özünü saxlaya bilmiyən bir qoja aşıx irəli yeriyif icazəsiz, filansız Miskin Abdala dedi:

– Görürəm özünə çox güvənirsən. De görüm, aşıx nejə olmalıdı?

İsgəndər bəy aşığa gözünü ağartdı. O, dərhal yerində oturdu. İsgəndər bəy üzünü Miskin Abdala tutuf dedi:

– Aşıx, öz işində ol. Onun dediyini saya salma!

Hamının qoja aşıxdan zəhləsi getdi. Elə bildilər ki, Miskin Abdal onun dediyinə cavaf qaytara bilmiyif, pisikəjək.

Miskin Abdal halını pozmadan dedi:

– Bəy, lütfkarlığına görə sağ ol. Aşığın sözünə cavav vermək mənim borcumdu:

Aşıx, kəşt eləyif ağır elləri,
El içində namus, arı unutma.
Həyalı gəz, təmiz saxla adını,
Dost yanında e'tibarı unutma.

Halal mala haram qatmax nə lazım?
Hədər yerə kaman atmaq nə lazım?
Hər yetənə yalan satmax nə lazım?
Əhdi-peyman, düz ilqarı unutma.

Miskin Abdal bir qonaxsan dünyada
Könlün bir dəryadı, ürəyin ada.
İstəsən ki, yetişəsən murada,
Yaş torpağı, dar məzarı unutma.

Hər yerdən alqış sədaları göyə ucaldı. Ariflər dedilər: "Di, al payını!" Baxdılar kı, elədiyi qələtə görə qoca aşıx əkilmək istiyir. Miskin Abdal üzünü aşığa tutuf dedi: Qulaq as, hələ sözümü qurtarmamışam.

İnsan oğlu, kələk qurma,
Kələyə, fəndə düşərsən.
Nahax yerə üzə durma,
Zülümnən anda düşərsən.

Hər adamnan olma tanış,
Yaz gününü eliyər qış.
Fikir elə, sonra danış,
Qəfil kəməndə düşərsən.

Miskin Abdal xəvərdar ol,
Yoldaşınnan düz ilqar ol.
Yaman günə şükürdar ol,
Dönüf hasanda düşərsən.

Alqış alqışın, əhsən əhsənin dalınnan sel kimi yağdı. İsgəndər bəy özünü saxlaya bilmiyif düz meydana gəldi. Miskin Abdalı bərk-

bərk qucaxlıyıf alnınnan öpdü, əlini kürəyinə vuruf dedi:

– Halal olsun sana Göyçənin suyu, çörəyi. Halal olsun sənə süd verən anaya, ərsəyə çatdıran ataya! Hanı qoja aşıx? Cavanı bir də sınamax istəmirmi?!

Baxdılar qoja aşıx nə gəzir? Bayaxdan əkilif. İsgəndər bəy keçif bayaqkı yerində əyləşdi. Miskin Abdal üzünü İsgəndər bəyə tutuf dedi:

– Bəy, bəlkə o biri aşıxlardan da mənnən deyişmək istiyənnər var. Buyursunnar. Kim istiyir, çıxsın meydana.

Daşdan, qayadan səs çıxdı, aşıxlardan səs çıxmadı. Miskin Abdal öz-özünə düşündü kü, bu da kişilikdən deyil, neçə gündü əziyyətini çəksinnər, başına fırransınnar, sən İsgəndər bəyə, onun oğlunun bu xeyir işinə bir neçə kəlmə söz demiyəsən. Miskin Abdal üzünü İsgəndər bəyə tutuf dedi:

– Bəy, ojağın həmişə toylu-düyünnü, sözdü-söhbətdi, qonaxlı-qaralı olsun. Bilirsən ki, biz savah yola düşürük. Neçə gündü, yeyif, içif, çalıf oxuyurux. İzin versəydin, bu toya mən də öz sözümü deyərdim.

İsgəndər bəyə də elə bu lazımıydı. Dedi:

– Buyur, Göyçəli balası! Buyur, görək, qulağımız səndədi.

Aldı Miskin Abdal:

Bu cəlalı, bu novrağı,
Sən qurufsan, İsgəndər bəy!
Xəmirini halallıxnan,
Yoğurufsan, İsgəndər bəy!

Sən hatəmsən, öyün, öyün,
Yaddan çıxmaz bu toy, düyün.
Öz yurdunda dünən, bu gün
Mərd durufsan, İsgəndər bəy.

Abdal aldı sorağını,
Yazdı könül varağını,
Namərddərin tifağını,
Uçurufsan, İsgəndər bəy.

Hər yandan "afərin" sədaları ərşə bülənd oldu. İsgəndər bəy meydana gəldi. Ortaya iri bir dəsmal sərdi. Əvvəlcə özü dəsmala bir xışma onnux qızıl qoyuf dedi:

– Məni istiyən aşığa nəmər!

Tezdiknən dəsmala bir kəndin bir illik xərci yığıldı. Miskin Abdal dəsmalı İsgəndər bəyin qavağına qoyuf dedi:

– Bağışda, İsgəndər bəy. Mən o aşıxlardan döyüləm. Nə eləmişəm, sənin xətrin üçün eləmişəm. Mana pul, mal, var-dövlət lazım döyül. Atamın varı-dövləti bir mahala sığışmır. Özün bilirsən ki, mən öz murazımın dalınnan gedirəm. Ən böyük nəmərim sizin xeyir-duanızdı.

Hamı Miskin Abdalın ağlına, mə'rifətinə heyran qaldı. Ona murazına çatmax üçün uğurrar deyif, el xeyir-duası verdilər.

Gejə keçmişdi. Hamı evə dağılışdı. İsgəndər bəy də qonaxları rahatdadı.

Savahlar üzünüzə xeyirriyə açılsın. Elə ki, savah açıldı, yığışdılarkı, Miskin Abdalgili yola salsınnar. Yəhərri-yüyənni iki at, bir də atların tərkində yol azuqəsi hazır oldu.

Miskin Abdal yol azuqəsinnən bir az götürüf, atdardan imtina elədi. Dedi:

– Xətrin xoş olsun İsgəndər bəy. Niyyətim var, butamın dalınnan piyada getməliyəm.

Bu sözdən sonra İsgəndər bəy heş nə demədi. Yola düşmə məqamında o Miskin Abdalı bağrına basıf dedi:

– Get, yaxşı yol. Nə çətinniyin olsa mən hazıram. Ancax bir şeyi yadında saxla. Butana nə zaman qovuşuf geriyə dönsən, mütləq bizə gəl. Sənin toyunu burada özüm eliyəjəm. Göyçüyə sizi mən özüm aparajam.

Onnar bu əhd-peymannan ayrıldılar. Üzü Təbrizə doğru yol başdadılar. Bir neçə gün yol gedənnən sonra bir düzə çatdılar. Hava bərk istiydi. Ətrafda bulaxdan, çaydan əsər-əlamət yoxuydu. Dağlar da uzaxdaydı. Peşiman oldular kı, nahax yola su götürmüyüflər. Daha iş-işdən keşmişdi. Dözməkdən başqa çarə yoxuydu. Miskin Abdal uzun Qasımın halını görüf dedi:

– Darıxma, Allah bizi darda qoymaz, köməyimizə çatar.

Bunu deyər – deməz, birdən-birə göyün üzünü qara buluddar aldı, göy gurulladı, şimşək çaxdı. Qar, dolu, çovğun başdadı. Göz-gözü

görmürdü. Bir neyzənbillah başdadı ki, elə bil dünyanın axırıydı. Elə bil yer-göy bir-birinə qarışmışdı. Sel, su dünyanı başına aldı. Dağlardan qopan selin nə'rəsi yeri-göyü silkələyirdi. Miskin Abdalgil yekə bir daşın başına çıxdılar. Az qaldı sel daşı da, onnarı da süpürüf aparsın. Uzun Qasım fikirrəşdi ki, daha bizimki də buraya qədəriymiş. Miskin Abdal umudunu haxdan üzməmişdi. Baxdı ki, bu xına o xınadan döyül. Sazını sinəsinə basdı, üzünü göylərə tutuf, aldı görək nə dedi:

Bu nə dərddi, nə bəladı,
İmdada çat, qadir Allah!
Yollarımı sellər aldı,
İmdada çat, qadir Allah!

Gözü yolda qalanım var,
Dərdə, qəmə dolanım var.
Çiçək kimi solanım var,
İmdada çat, qadir Allah!

Atam-anam yoxdu burda,
Gejə-gündüz ahu-zarda.
Abdal qaldı yaman darda,
İmdada çat, qadir Allah!

Söz tamama yetməmiş, buluddar yarıldı. Güjdü küləklər buluddarı qovuf uzaxlara apardı. Göyün üzü açıldı. Sellər-sular get-gedə azaldı. Bir azdan onnardan heş bir əsər-əlamət qalmadı. Miskin Abdalnan Uzun Qasım qayanın üstünnən düşüf paltarrarını sıxıf, sərdilər, qurutdular, yenə də yola rəvan oldular. Axşamüstü bir şenniyə gəlif çatdılar. Obanın adamları qonaxları hörmətnən qarşıladı. Yeyiv-içənnən sonra bir az da çalıv-oxudular. Gejəni orda yatıf dincəldilər. Savah yenə "ya mədəd" deyif yola düşdülər. Yolda bir çovana rast gəldilər. Onnan Təbrizin yolunu soruşdular. Çovan da zırramanın, qanmazın biriydi. İki ayağını bir başmağa diriyif dedi:

– Aşıx bir-iki ağız çalıf oxumasa, yolu göstərən döyüləm.

Miskin Abdal bir özünə baxdı, bir çovana baxdı. Kimə möhtac olduğunu görüf dərin fikrə getdi, ürəyi quvar elədi. Sözdər sinəsinə

düzüldü. Sazını zilə köklüyüf aldı görək nə dedi:

Təbriz yolu bir nadana tuş oldum,
Nə annadı, nə qandırdı, nə qandı.
Bir söz sordum, çənə vurdum, yoruldum,
Gördüm vallah qəflətdərdə yatandı.

Çovan dedi:

– Sağ ol aşıx, yaman oxuyursan, lap ürəyimnən xəvər verirsən. Ay belə oxusan, nə demişəm? Əgər axıra kimi belə oxusan, işin düzəldi, getdin Təbrizə. O birini də gəlsin:

Od üstündə korğun qızan bir sacam,
Gör nə gündə, gör kimlərə möhtacam?!
Adı bəlli, istəmirəm sirr açam,
Bərələrdə keçi başı tutandı.

Bayaxdan bir az aralıda çomağına söykənif aşığa qulağ asan çovan bu bəndi eşidənnən sonra bir az da irəli gəlif dedi:

– Dədəm sənə qurvan olsun, aşıx! Məni yaman kövrəltdin. İndiyə qədər nə qədər aşıx eşitmişəm, sənin sözdərin kimisi yoxdu. Hamısı elə bil ustadnamədi. Sana mən də, o dediyin keçilər də qurvan olsun. De görüm, o birini nejə deyirsən?

Aldı Miskin Abdal tafşırmada nə dedi:

Miskin Abdal hər gədaya kiçilməz,
Şah oğluna bezdən xələt biçilməz.
Qanacağı davarrardan seçilməz,
Heş nə üstə aralığı qatandı.

Elə ki, söz tamama yetdi, Miskin Abdal sazını köynəyinə qoydu, yolu tutuf getməyə başdadı. Çovan ha çağırdı, ha bağırdı, xeyri olmadı. Dallarınnan qaçıf yalvardı, yaxardı... Gördü yox, bunnar heş dala dönüf baxmıllar.

Çovan kor-peşman öz sürüsünün yanına qayıtdı. Öz-özünə dedi:

– Yazıx aşığı bir elə oxutdum, məni, keçimi, qoyunumu bir elə tə'riflədi, heç olmasa ona bir loxma çörək, bir badya süd də vermə-

dim.

Çovanı burada deyinə-deyinə qoyax, görək yolçular neylədilər? Miskin Abdalgil, özdəri də bilmədən yolu düz gedirdilər. Belə-belə neçə gün yol getdilər. Soruşa-soruşa Təbrizə yaxınnaşdılar.

Bir xeyli gedənnən sonra örgəndilər ki, Təbrizə az qalıf. Yorulduxlarınnan bir çəmənnikdə dincəlməyi qərara aldılar. Bir az oturmuşdular kı, gördülər başdarının üstündə bir dəstə atdı dayanıf. Ancax atdılardan biri lap pəhlivana oxşuyur. Miskin Abdalnan Qasım ayağa qalxdılar. Qasım ürəyində dedi: "bizimki də bura qədəriymiş. Bunnar yaqın yol kəsənnərdi". Bir də öz-özünə təskinnik verdi ki, axı biz yol adamıyıx, talanası nəyimiz var?

Atdılardan böyüyünün adı Qaçax Mehdiydi. O dedi:

– Aşıx, de görüm kimsiniz, hardan gəlif, harya gedirsiniz?

Miskin Abdal dedi:

– Göyçədənik. Təbrizə gedirik. Adım da Miskin Abdaldı.

Qaçax Mehdi dedi:

– Təbrizdə nə işiniz var?

Miskin Abdal bir istədi Təbrizə nə məqsədnən getdiklərini deməsin. Sonra düşündü ki, ey dili-qafil, birdən yalan danışdığımızı öyrənər, pis olar. Yaxşısı budu, gəl elə düzünü de. Axırı da nə olajax, olsun.

Dedi:

– Sevdagar Mahmudun qızı Sənubərin dalınnan gedirəm. Ağam onu mana buta verif.

Qaçax Mehdi:

– Deməli, sana vergi verilif, haqq aşığısan?

Miskin Abdal dedi:

– Bəli.

Qaçax Mehdi Miskin Abdalı çox bərkə-boşa çəkdi. Gördü yox, aşıx qorxu nə olduğunu bilmir. Özü də çox ağıllı oğlandı. Haqq aşığı olduğuna söz ola bilməz. Axırda tanışdıx verif Miskin Abdalnan dostdaşdı.

Qaçaq Mehdi mehriban-mehriban dedi:

– Miskin Abdal, olmazmı gəlişinin məqsədini saznan-söznən də deyəsən?

Miskin Abdal dedi:

–Niyə olmur, Mehdi qağa. İndi mən çalım-çağırım, sən də o biri

uşaxlar da qulağ asın. Görün ki, mən kiməm, nəçiyəm, məramım, məqsədim nədi:

Yatmışıydım, bir sevdaya tuş oldum,
Oyanannan düşdü dilə qismətim.
Asimana pərvazdanan quş oldum,
Şüdd olufdu eldən-elə qismətim.

Yol ərkanım, təriqətim bəllidi,
Dar günümdə ol pənahım Əlidi,
Deməyin ki, yoldan ötən dəlidi,
Səpələnif çəmən-çölə qismətim.

Harayımı yaradanım eşitsin,
Xata varsa, mənnən uzax ötüşsün,
Məqamında muradına yetişsin,
Heş görməsin ahu, nalə qismətim.

Urcah olsun alma kimi yanağa,
Cannar alan al qırmızı buxağa,
Xoş zəbana, baldan şirin dodağa,
Şux yerişə, qara telə qismətim.

Dəhanımda əzbər olub Əlif-Lam,
Mənnən olsun Xudamıza min salam,
Mən Abdalam, doğulannan halalam,
Yaradannan gəlif belə qismətim.

– Aşıx, mənim adım Mehdidi. Bu tərəflərdə mana Qaçax Mehdi deyillər. Özüm də sənin kimi adamların, kasıfların, yetim-yesirrərin dostuyam. Pis adamlara qan uddururam. Sevgilinin atası çox qəddar adamdı. Ona İlan Mahmud deyillər. Xoşduxnan qızı sana verməsə, yanıma gələrsən, zornan da olsa butanı sana yetirəjəm.

Sonra Uzun Qasımı göstərif zarafatnan soruşdu:

– Bu kişi kimdi bə? Yoxsa buna da buta veriflər?

Miskin Abdaldan qavax Qasım dilləndi:

– Yox, Mehdi qağa, hayançıyam. Özü də kişi yox, cavan oğlanam.

Onnar gülüşdülər.

Qaçax Mehdi baxdı ki, uşaxlar yol gəlif yoruluflar. Ona görə də zarafatını davam etdirdi:

– Deyirsən ki, cavan oğlansan, yə'ni suvaysan, eləmi?

– Bəli.

– Söz altında qalana oxşamırsan, ha. De görüm, indiyədək nə əcəf evlənmiyifsən?

– Vaxtım olmuyuf.

Hamı gülüşdü. Qaçax Mehdi zarafatına davam elədi:

– Ə, evlənməyə nə vaxt. Noluf vaxtına?

– Nə bilim. Gejələr göydə ulduzdarı sayıram, gündüzdər çəməndə otdarı.

– Deyə bilərsənmi, nə qədər ot, nə qədər ulduz var?

– Hələ sayıf qurtarmamışam. Özü də say tez-tez yadımnan çıxır. Hər gün təzədən başdıyıram.

– Yaxşı, sənin adın nədi?

– Qasım. Özü də Uzun Qasım deyillər.

Yenə də hamı ucadan güldü. Qaçax Mehdi dedi:

– Yaxşı, evlənməyin barədə dədənə niyə bir söz demirsən?

– Dədəmnən utanıram.

– Anana de.

– Demişəm. Anam deyir, hələ bir az da uzanmalısan.

– Axı, niyə?

– Nə bilim, deyir ki, başqalarının oğlu çoxdu, mənimki bircədi. Qoy lap uzun olsun.

– Onda sana bir adam qız verməz.

– Bir adam qız verməz, bir neçəsinin qızını birdən alaram.

Bu söhbəti eşidənnər uğunuf getdilər. Xülasə, çox sözdən, zarafatdan sonra Qaçax Mehdi uşaxlara Təbrizin yolunu göstərdi. Özü də tafşırdı ki, harda dara düşsəniz, mana xəvər çatdırarsınız. Sağlığ olsun, Allahın köməkliyinnən iki aşiq-mə'şuq bir-birinə qovuşajax. Aşığı burda oxutmuram. Əhd eliyirəm ki, yarına yetişənnən sonra ona doyunca qulağ asajam.

Hamı bir ağızdan dedi:

– O günnən Allah pay versin.

Sonra Qaçax Mehdi üzünü genə Qasıma tutuf dedi:

– Ə, gödək Qasım, çalış Təbrizdən bir qız da sən tap. Çox əziy-

yətdər çəkifsən. Göyçüyə əliboş qayıtma. İkinizin də toyunuzu bir eliyərik. Bu uzunda adama Göyçədə heş kəs qız verməz...

Genə də hamı gülüşdü.

Qasım dedi:

– Sözünnən çıxmaram, Mehdi qağa!

Ayrılanda Qaçax Mehdi gördü kü, Miskin Abdalın deyəsən yenə də deməyə sözü var. Dedi:

– Miskin Abdal, olmuya bizə demədiyin bir söz yadınnan çıxıf qalıf?

Miskin Abdal dedi:

– Mehdi qağa, sinəmə bir qatar da söz gəlif, izin versən...

Qaçax Mehdi tez dedi:

– Buyur, bizdən ötrü çox xoşdur, eşidirik, de gəlsin.

Bunu eşidəndə Aldı Miskin Abdal görək nə dedi:

Nə müddətdi eldən irax düşmüşəm,
Bu dağlarda, bu düzlərdə izim var.
Sinəm dolu, kürələrdə bişmişəm,
Məclis quruf söyləməyə sözüm var.

Buta aldım bir qaragöz dilbəri,
Öz yolumnan dönəmmərəm mən geri,
Addım-addım, qarış-qarış hər yeri,
Axtarmağa ürəyimdə dözüm var.

Bu sevdada ömrüm viran, talandı,
Məhəbbətsiz ötən ömür yalandı,
Atasının ayaması ilandı,
Mahmud qızı Sənubərdə gözüm var.

Şimşəy oluf alosmanda çaxaram,
Bir sel oluf kükrüyərəm, axaram,
Başdan-başa geyinməyə zər-xaram,
Ayağıma dolamağa bezim var.

Sanmıyın ki, Miskin Abdal fağırdı,
Yarın dərdi hər cəfadan ağırdı,

Ağam məni bu sevdaya çağırdı,
Saz qoşmağa, oxumağa sazım var.

Qaçax Mehdinin yoldaşdarınnan Miskin Abdalgil görüşüf, öpüşüf mehribannıxnan ayrıldılar.

Təbrizə cəmi üç günnük yol qalmışdı. Miskin Abdalgil Təbrizə üz tutmaxda olsun, görək Sənubər xanım neylədi?

Bava dərviş eşqin camını Hüseynə içirdəndə həmin badədən birini də Sənubər xanıma vermişdi. O günnən Sənubər xanım da eşqə düşüf Miskin Abdala qovuşmax həsrətinnən alışıf-yanırdı. Sənubər xanımın Gülçöhrə adında bir xidmətçisi varıydı. Gülçöhrə sözə, sirrə çox möhkəm qızıydı. Sənubərin nə sirri varıydısa, bircə onnan bölüşürdü. Bir gün o sübh tezdən gördü kü, Sənubər xanımın halı hal döyül. Yanaxları lalə kimi qızarıf, rəngi allanıf. Bir haldadı kı, gəl görəsən. Özündə-sözündə döyül. Nə qədər elədi Sənubərdən bir cavaf ala bilmədi. Qorxdu, ürəyində dedi:

– Yaqın qız naxoşduyuf, eləyif. İstədi qaçıf atasına, anasına xəvər eləsin. Bunu hiss eliyən Sənubər xanım əlinin işarəsinnən onu saxladı. qara hörüklərinin birini qar kimi ağ sinəsinin üstünə endirdi. Aldı görək nə dedi:

Ağam mana buta verif,
Bir oğlana vurulmuşam.
Uzağ elli bir iyidə,
Bir oğlana vurulmuşam.

Ərənnərnən qoşa gəzən,
Eşqin dəryasında üzən,
Bağrımın başını əzən,
Bir oğlana vurulmuşam.

Sənubərə oldu olan,
Könlüm şəhri viran, talan.
Gözəllərə dərdə salan,
Bir oğlana vurulmuşam.

Sözünü tamama yetirənnən sonra Sənubər nurani bir dərvişin yuxuda ona eşq piyaləsi içirtdiyini, Göyçə mahalının Zərgərri kəndinnən olan Məhəmməd oğlu Hüseyni ona buta verdiyini söylədi. Sənubər bir az sözdən-söhbətdən sonra Gülçöhrəyə dedi:

– Gülçöhrə, bu söhbəti ikimizdən başqa kimsə bilməməlidi. Bu sirri anama da deməmişəm. Bircə sana deyirəm. Əgər mana kömək eləmək istəyirsənsə, bu günnən gözdə, qulaxda ol, öyrən, gör Təbrizə qəriv adam, aşıx gəlirmi? Şəhərimizə Göyçə ellərinnən Hüseyn adında cavan aşığın gəldiyini öyrənən kimi mana xəvər elə. Ürəyimə damıf: bu günnərdə o, Təbrizə gəlməlidi.

Gülçöhrə dedi:

– O, nə sözdü xanım. Sənin yolunda ölümə də getməyə hazıram.

O günnən Gülçöhrə Hüseynin sorağında oldu. Günnər ötdü, həftələr keşdi. Hüseyn gəlmədi ki, gəlmədi, Sənubərin gözü yollarda qalmışdı. Ürəyinə min fikir gəlirdi. Sənubər qorxdu ku, Hüseyn çox gejikə. Dədəsi onu başqasına vermək istiyirdi. Bir də Sənubər bilirdi ki, atası heş vaxt onun tanımadığı bir adama ərə getməsinə razı olmuyajax.

Elçilər İlan Mahmudun qapısını yağır eləmişdilər. Hamıya da yox deyirdi. Atası qızını bəzirgan Qeysərin oğluna vermək istiyirdi. Çünki onun varı-halı dünyadan aşmışdı. Amma oğlu Cümşüd bir qara qəpiyə dəyəsi oğul döyüldü. Beyvejin, fərasətsizin biriydi. Bunu Sənubər xanım da eşitmişdi. Anası Səlbinaz da bilirdi. Amma hər ikisi İlan Mahmudun qorxusunnan cınqırrarını belə çıxara bilməzdilər. Ona əbəs yerə ilan Mahmud demirdilər. Qəddarlıxda, mərdimazarrıxda, tamahkarrıxda tayı-baravarı yoxuydu. Evdə də, eşikdə də, hamının onnan zəhləsi gedirdi.

İlan Mahmud bəzirgan Qeysərə söz vermişdi ki, İsfahana sövdəgarrığa gedirəm, bir aya qayıdajam. Qayıdannan sonra hər şeyi qurtararıx. Bəzirgan Qeysər də buna çox sevinmişdi. Sövdakar Mahmud İsfahana təzəcə yola düşmüşdü. Gülçöhrə yenə mə'lul-mə'lul Sənubər xanımın yanına gəlirdi. Birdən qulağına yanıxlı bir səs gəldi. Qulağını qapıya verif dinniyəndə baxdı kı, Sənubərin səsidi. O butasının ayrılığına dözə bilməyif oxuyurdu:

Ay hazarat, yandı canım,
Harda qaldı yarım mənim?

Gözüm yolda, könlüm səsdə,
Harda qaldı yarım mənim?

Həsrətinnən qan ağlaram,
Sinəmi çarpaz dağlaram.
Ölüncə qara bağlaram,
Harda qaldı yarım mənim?

Sənubərəm, gözüm yaşdı,
Neyniyim mən başı daşdı?
Qəlb yanğılı, can atəşdi,
Harda qaldı yarım mənim?

Gülçöhrə dözə bilmiyif içəri girdi. Sənubərin boynunnan qucaxlıyıf, üzünnən-gözünnən öfdü, gözdərinin yaşını silif dedi:

– Sənubər xanım, sən lap mənim ürəyimi dağladın. Çox qəm eləmə, sizi bir-birinizə yazan, heş vaxt sizi darda qoymuyajax. Bu yaxınnarda sizi bir-birinizə qovuşdurajax.

Sənubər dedi:

– Allah ağzından eşitsin, dediyin fal olsun. Məni qınama, ürəyimə damıf kı, Hüseyn hardadısa bu gün burada olajax. Bu düz olsa, peşkəşin məndə.

Gülçöhrə Sənubərin qəlbini xoşhal etmək üçün dedi:

– Peşkəşin nə olajax, xanım?

Sənubər:

– Səni də özümnən Göyçə ellərinə aparajam.

Hər ikisi güldü. Sənubər dedi:

– Gülçöhrə, bu günnən mana xanım demə. Səni özümə bajı seşmişəm. Allah bilir ki, sirrimi sənnən başqa heş kəsə deməmişəm. İstiyirəm ki, axıracan belə olsun. Bu gün get şəhərin gündoğan səmtində dayan. Bəlkə Hüseyn gəldi.

Gülçöhrəgilin evi şəhərin kənarında, özü də həmin yolun yaxınnığındaydı. O, Allah, Məhəmməd, ya Əli eləyif yola düzəldi. Deyilən yerə təzəcə çatmışdı kı, uzaxdan iki qaraltı göründü. O, Allahı çağırıf gözdəməyə başdadı. Qaraltılar yaxınnaşanda Gülçöhrə gördü kü, iki kişi xeylağıdı. Lap yaxınnaşanda gördü kü, iki cavan oğlandı. Birinin də çiynində saz var. Gülçöhrə onnarın qavağını kəsif dedi:

– Deyin görüm, kimsiniz, nəkarəsiniz, haradan gəlif, haraya gedirsiniz?

Qızın belə yekə-yekə danışması Qasımın heç xoşuna gəlmədi. İsdədi desin: "Axı sən kimsən ki, bizi sorğu-suala tutursan, buralarda kişi yoxdumu?" Miskin Abdal tez onun ayağınnan basdı. Bildi ki, qız sözdü adamdı. Qız xeylağına yalan danışmağı da kişiliyinə sığışdırmadı. Fikirrəşdi ki, isdanmışın yağışdan nə qorxusu? Olajağa onsuz da çara yoxdu. Düzünü deyəjəm:

– Xanım, niyə ajığın tutur. Biz uzağ-uzağ ellərdən gəlmişik.

– Uzağ, yə'ni haradan?

– Göyçədən. Səfərimiz Təbriz şəhərinədi. Mənim adım Miskin Abdal, yoldaşımın adı Qasımdı. İkimiz də subayıx. Xanım, özgə nə soruşmax istiyirsən?

Aşığın adı Gülçöhrəni çaşdırmışdı. Axı, Sənubərin dediyi oğlanın adı Hüseyniydi. Qalan nə deyirdisə, hamısı düz gəlirdi. Gülçöhrə soruşdu:

– Aşıx, sənin başqa adın yoxdu?

Miskin Abdala dərhal hər şey aydın oldu.

Dedi:

– Xanım, əvvəlki adım Hüseyniydi. Sonralar Miskin Abdal oldu. Bunun da sirri var.

Gülçöhrə artıx bildi ki, bu həmin adamdı. O, sevincək axırıncı sualını verdi:

– Aşıx, Təbrizə nə məqsədnən gəlifsən?

– Butamın dalınca.

– Sənin yarın kimdi?

– Xanım, bunu dilnən desəm dilim yanar. İcazə ver, saznan deyim.

– Buyur, de.

Miskin Abdal sazı köynəyinnən çıxarıf zilini-zil, bəmini-bəm, sinəsinə müstəkəm eliyif, görək Təbrizə nə məqsədnən gəldiyini nejə bəyan elədi:

Göyçəliyəm Təbrizdədi,
Namus, qeyrət, arım mənim.
Bir sənəmə bənd olmuşam
Sənubərdi yarım mənim.

Qurban ərənnər pirinə,
Kim yetər onun sirrinə?
Gəlmişəm yarım şəhrinə,
Sənubərdi yarım mənim.

Odu eşqimin əzəli,
Abdaldı dərdinnən dəli.
Təbrizin türfə gözəli,
Sənubərdi yarım mənim.

Bunu eşidən Gülçöhrə çox sevindi. Buraya nə məqsədnən gəldiyini açıf danışdı. Miskin Abdalnan Qasım çox şad oldular. Uzun Qasım biləndə ki, Gülçöhrə suvay qızdı, bir gözuju ona baxdı. Onun alovlu-oddu baxışdarı Gülçöhrənin gözünnən yayınmadı. Gülçöhrənin yanaxları Təbrizin tər lalələri kimi allandı. Miskin Abdal bunu o saat duydu. O, üzünü Qasıma tutuf zarafatyana dedi:

– Qasım, deyəsən sənin də işin düzələjək. Allah deyəsən sana da bir qapı açajax.

Bayaxdan dil-dil ötən Gülçöhrə utana-utana dedi:

– Yol gəlifsiniz, yorğunsunuz. Gedəyin bizdə dincəlin. Mən Sənubər xanıma xəvərə qaçım.

O, qonaxları evə gətirdi. Atası İsmayıl kişi, anası Gülnisə, qardaşı Mədəd qonaxlara xoş gəldin elədilər. Süfrə aşdılar, çay-çörək qoydular. Qonaxlar yeyif-içif rahatdanannan sonra söhbətə başdadılar. Hamı mətləfdən halı oldu.

Gülçöhrənin atası İsmayıl kişi dedi:

– Bala, vallah, indiyə kimi Gülçöhrə bu barədə bizə heç nə demiyif. Xoş gəlif, səfa gətirifsiniz. Allah qoysa, muradınıza da çatarsınız.

Bunnar burda söz-söhbətdə olsun. Görək Gülçöhrə neynədi? O vaxt itirmədən, davanına tüpürüf, üz tutdu Sənubərgilə tərəf. Sənubər külafirəngidə duruf həsrət-həsrət yollara baxırdı. Bir də gördü kü, budu Gülçöhrə qan-tər içində onnara tərəf gəlir. Bildi ki, bir şad xəvər var. İstədi qavağına çıxsın. Bu dəmdə Gülçöhrə qapıyı açıf içəri girdi. Tövşüyə-tövşüyə dedi:

– Dinnə, Sənubər! İndi də mən deyim, sən eşit!

Bunu deyif gərdəninnən üç tel ayırıf sinəsinə basdı, aldı görək nə

dedi:

Eşit, deyim, ay Sənubər,
Bağçalardan barın gəldi.
Gül, ay bajım, baxtın gülüf,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

O dillərə canım qurvan,
Muştuluğun gözüm üstə
Xəvərinə canım qurvan,
Muştuluğun gözüm üstə.

Aldı Gülçöhrə:

Ona nüsrət verən haxdı,
Bu dünyada tayı yoxdu.
Qaşdar kaman, kirpik oxdu,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

Elə demə, nəzər dəyər,
Qürrələnər, özün öyər,
Dediklərin düzsə, əyər,
Muştuluğun gözüm üstə.

Aldı Gülçöhrə:

Gülçöhrənin halına bax,
Dur boynuma hamayıl tax.
Daha dərdi, qəmi burax,
Muştulux ver, yarın gəldi.

Aldı Sənubər:

Sənubərəm haxdı yolum,
Bir qönçəyəm, necə solum.
Dillərinə qurvan olum,
Muştuluğun gözüm üstə.

Söz tamama yetər-yetməz, sevindiklərinnən hər ikisi bir-birinə sarmaşıx kimi sarılıf, göz yaşı axıtdılar. Gülçöhrə gördüklərinin, eşitdiklərinin hamısını bircə-bircə Sənubərə danışdı. Sənubərin rəngi gül kimi açıldı. Gülçöhrəni bir də bağrına basıf üzünnən-gözünnən öfdü. Sonra da aparıf onun boğazınnan bir həmayıl asdı. Gülçöhrə əvvəlcə götürmək istəmədi. Gördü kü, yox, Sənubərin xətrinə dəyir, həmayılı açmıyıf dedi:

– Xanım, Allah qoysa sən tezdiknən Göyçə ellərinə gəlin gedəjəksən. Bu həmayıl da sənnən mana əziz bir xatirə qalar. Qoxunu onnan alaram.

Sənubər zarafatyana dedi:

– Elə şey yoxdu, ay qız. Demişəm, genə də deyirəm, səni də özümnən aparajam. Özün demirsənmi Miskin Abdalnan gələn oğlan da yaxşı oğlandı? Ay qız, bəlkə elə o da sənin qismətindi.

Gülçöhrə gülümsüyüf çiynini çəkdi.

Sənubər bir az fikirrəşif dedi:

– Gülçöhrə, bilirəm, Miskin Abdal indi görüşmək üçün bərk darıxır. Denən çox tələsməsin. Ehtiyat igidin yaraşığıdı. Bizi istəmiyən çoxdu. Atamın da nejə adam olduğunu yaxşı bilirsən. Əvvəlcə Miskin Abdalgilə öz həndəvərinizdə bir ev kirələ. Bilirəm, qavaxda bizi hələ çətin günnər gözdüyür. Bu işi düzəltsə, Allah düzəldəjək. İstəmirəm ki, atam siznən düşman ola. Atam İsfahana bu gün yola düşüf. Bir aya ancax qayıdar. O gələnə kimi bildiyimizi eliyərik. Gələnnən sonra Allaha pənah, görək nə məsdahat görür.

Gülçöhrə dedi:

– Baş üstə, xanım! Düz buyurursan. Ağıllı sözə nə deyə bilərəm. Elə bilirəm ki, bu tədbir Miskin Abdalın da xoşuna gələjək.

Sənubər dedi:

– Təki sən deyən olsun!

Gülçöhrə gəlif gördü kü, evlərində bir çal-çağır var kı, gəl görəsən. Eşidən qohum-qonşular aşığın başına toflaşıflar. Miskin Abdal da Sənubərin eşqinnən yorğunnuğunu yadınnan çıxarıf, elə həvəsnən çalıv-oxuyur ku, daha nə deyim. Gülçöhrə də çəkilif bir tərəfdə dayanıf aşığa qulax asmağa başdadı. Amma arabir gözü Qasımın gözünə sataşanda hiss eliyirdi ki, Miskin Abdalın dostu da, deyəsən Təbrizdən əliboş qayıtmax istəmir.

Məclisə yığışannarın çoxusu cavanıydı. Söhbətin şirin yerində bir

ağsaqqal üzünü Miskin Abdala tutuf dedi:

– Aşıx, cavan olsan da, görürəm ağıllı, kamallı oğlansan. Sözdərinin hamısı nəsihətdi. Sazının, sözünün işığına yığılannarın da çoxusu, görürsən ki, cavannardı. Onnara deyiləsi bir sözün varmı?

Miskin Abdal dedi:

– Bajardığımnan bir-iki kəlmə deyərəm.

Aldı Miskin Abdal görək nə dedi:

Namərd ilə yoldaş olma,
Çox bəlalar çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş qalalar sökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana.
Arxalanma bəyə, xana,
Qoy sağ olsun nökər başın.

Haxdan istə bəxti-iqbal,
Yaradanı yadına sal.
Söz gövhərdi, Miskin Abdal,
Saxla dürdü, tökər başın.

Söz Miskin Abdalın ağzınnan qurtarmamış hər yandan "Sağ ol, aşıx!" sədaları göyə ucaldı. Savah tezdənnən çalmağa-çağırmağa başdıyan aşıx, bir də baxdı kı, axşam düşüf, şər qarışıf.

İsmayıl kişi üzünü gələnnərə tutuf dedi:

– Aşıx çox uzaxdan yol gəlif. Savahdan da oxuyur. Yorğundu. İmkan verək dincəlsin. Oxuduğu daha bəsdi.

Hamı razılaşdı, hərə öz evinə dağılışdı. Evdə bir özdəri qalanda, Gülçöhrə bu xoş xəvəri Sənubərə nejə çatdırdığını, onun Miskin Abdala ismarıcını söylədi. Bu tədbir hamının xoşuna gəldi. Savahdan Miskin Abdalgilin qalması üçün ev behlədilər. Həmin ev Gülçöhrəgilin evinin yaxınnığında yaşıyan bir qarının eviydi.

Savahdan Miskin Abdalnan Qasım qarının evində yaşamağa başdadı. Artıx bilirdilər ki, hələ nə az, nə çox, düz bir ay buralıdılar. Sonrasını da Allah bilir. İndi qalırdı bir-birinnən gizdi oddara yanan

iki aşiq-məşuqun görüşməsi. Bu görüşdən heş kim xəvər tutmamalıydı. Çünki sövdagar Mahmud bunu bilsəydi, qan dizə çıxardı.

Miskin Abdal Sənubər xanımın həsrətinnən alışıf yanırdı. Çox götür-qoydan sonra bir namə yazıf Gülçöhrəynən göndərdi Sənubər xanıma.

Miskin Abdal namədə yazırdı:

Bir gözəlin sorağıynan,
Dağlar keşdim, düzə gəldim,
Neçə-neçə bələn aşdım,
Yar, elinə, sizə gəldim.

Dərdim artıf,qəm azalıf,
Gözüm yollarında qalıf.
Yarmı nəzərinnən salıf,
Yoxsa ay qız, gözə gəldim?

Dərd ağlatdı, qəmə güldüm,
Çeşmimin yaşını sildim.
Abdalam, vəfadar bildim
Gəldim yar, Təbrizə gəldim.

Sənubər naməni oxuyuf çox quvarrandı. Dərdi artıf bir ümmana döndü. Həsrətnən yolunu gözlədiyi yarının görüşünə gedə bilməməsi qəlbinə dağ üstünnən dağlar çəkdi. Yar dərdinə çarə, məlhəm olmaq istiyərkən, yar tə'nəsinə tuş olmaq qəlbini göynətdi, ruhunu sızım-sızım sızıllatdı. Öz-özünə dedi: "Axı, mən yarımın həsrətinə onnan az yanmamışam. Niyə o mənim çəkdiklərimi duya bilmir? Gəl kim olduğunu ona bir nişan ver". Qələmi əlinə alıf yara yazdığı namədə görək öz dərdini söz ilə nejə izhar elədi. Biz deyək, siz də şad olasınız:

Qəm üstündə köklənmişəm,
Çalınmamış bir sazam mən.
Yar həsrəti qəddim əyif,
Nalə dolu avazam mən.

Dərd sinəmdə düzüm-düzüm,
Bu sitəmə nejə dözüm?
Yar yolunda qalıf gözüm,
Gözü yaşdı bir qızam mən.

Baxma günün üç-beşinə,
Sazını da sıx döşünə,
Tez gəl yarın görüşünə,
Gül ətirli bir yazam mən.

Bağça-bağdan yol keçəndə,
Azmamışam duman-çəndə,
Adım bəlli el içində,
Nurlu ayam, ulduzam mən.

Sənubərəm, bu çağıma,
Özünü çatdır bağıma.
Gəl, qədəm bas otağıma,
Burda sənsiz yalqızam mən.

Mikin Abdal bu naməni oxuyuf çox şad oldu. Gülçöhrə də Sənubər xanım dediyinin hamısını bircə-bircə Miskin Abdala danışdı.

Miskin Abdal səhəri diri gözdü aşdı. Duruf yollara baxanda gördü kü, Sənubər bir bölük qıznan sallana-sallana onnara tərəf gəlir. Onu görəndə elə bil Miskin Abdalın ürəyi qopuf ayağının altına düşdü. Onun sevgilisi bu qızların arasında on dörd günnük bir ay parçasına oxşuyurdu. Yarəb, belə gözəllikmi olar, sən buna verifsən? Huri də, pəri də, mələk də bunun yanında olsaydı utandığınnan qaçıf gizdənməzdimi?

Miskin Abdalın eşqi coşa gəldi. Sazı sinəsinə basıf görək öz sevgilisinin boyunu nejə öydü:

Asta yeri a gözəllər sultanı,
Həsrətinnən cavan canım çürüdü.
Qara gözdər saldı məni bəndinə,
Siyah zülfün zəncirində sürüdü.

O qamətə, o camala vuruldum,
Bir bulağam bulanmışdım, duruldum,
Ah çəkməkdən axır bezdim, yoruldum.
Qəm dalğası dörd yanımı bürüdü.

Utanmazmı görən mana gülənnər?
Bu eşqimi, bu dərdimi bilənnər
Belə deyər: bir vaxt məni görənnər:
Miskin Abdal bir zamannar piriydi.

Sənubər onun yanıxlı-yanıxlı oxumağına dözəmmiyif uzaxdan-uzağa ona bir qıyğacı nəzər salıf gülümsədi. Sonra Gülçöhrənin boynunu qucaxlıyıf qulağına dedi:

– Bu gün axşamnan bir az keçmiş gələrsiniz. Yolunuzu səvirsizdiknən gözdüyürəm.

Gülçöhrə dedi:

– Xanım, Miskin Abdalın yanındakı oğlan da gəlsinmi?

Sənubər zarafatnan dedi:

– Ay qız, o oğlan gündə sənin yanında döyülmü, bu qaça-qaşda onu neyniyirsən? Siz də bizim kimi bir-birinizə tamarzı ha döyülsünüz?

Gülçöhrə nəsə demək istədi. Sənubər onun sözünü ağzında qoydu:

– Zarafat öz yerində. Qasım mütləq gəlməlidi. Çünki onu Miskin Abdalın yanına elə-belə qatmıyıflar. Onnar hər yerdə bir olmalıdı. Demək olmaz gejə itə, qurda rast gələrsiniz. Kömək yaxşı şeydi.

Axırda da, – Ay qız deyəsən ikimizin də toyumuz bir olajax, – deyib Gülçöhrədən yüngül bir burma götürdü.

Və'də vaxtında görüşə gələndə Miskin Abdal gördü: ay Allah, elə bil otaxda gün doğuf. Sənubər də baxıf gördü kü, doğrudan da, Miskin Abdal cannara dəyən oğlandı. Boy onda, buxun onda. Üzünnən-gözünnən də ağıl, kamal yağır. Hörüklərini saz eliyif görək yarına nejə xoş gəldin elədi:

Qədəm qoyub yar yanına,
Oğlan, xoş gəldin, xoş gəldin,

Eşq oduna yana-yana,
Oğlan, xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

Tək Allahdan arzum buydu,
Ay qız, xoş gördük, xoş gördük.
Yar həsrəti qəlbim oydu,
Ay qız, xoş gördük, xoş gördük.

Aldı Sənubər:

Sənsiz qara keşdi günüm,
Ərşə qalxdı ahım, ünüm.
Duruban başına dönüm.
Oğlan, xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

Yollar yoruf, əzginəm mən,
Əhd-peymana düzgünəm mən.
Yar yolunda üzgünəm mən,
Ay qız, xoş gördük, xoş gördük.

Aldı Sənubər:

Gül-çiçəkli yar bağına,
Bər-bəzəkli otağına,
Sənubərin bu çağına
Oğlan, xoş gəldin, xoş gəldin.

Aldı Miskin Abdal:

O ləblərdən süzüldü bal,
Dur qolunu boynuma sal.
Qıyma ölsün Miskin Abdal
Ay qız, xoş gördük, xoş gördük.

Bu çal-çağıra yuxudan ayılan Səlbinaz xanım bayaxdan qızınnan oğlanın deyişməsinə qulağ asırdı. Elə ki, söz tamama yetdi Sənubər qolunu Miskin Abdalın boynuna salmax istiyəndə otağın qapısı açıldı, anası içəri girdi. Hamı donuf yerində qaldı. Ancax Səlbinaz

xanım qızının taleyini pozmax fikrində döyüldü. Baxdı kı, doğrudan da, qızının butası cannara dəyən oğlandı. Ağzınnan da dürr tökülür. Lakin özünü o yerə qoymadı. Oğlanı bərkə-boşa çəkib, sınamax üçün əlini sinəsinə qoyuf görək nə dedi:

Ağır daşdan yapışıfsan,
Bu sevdadan əl çək, oğlan.
Yaman həddini aşıfsan,
Bu sevdadan əl çək, oğlan.

Aldı Miskin Abdal:

Tanrı verib bu qisməti,
Bu sevdadan, əl çəkmərəm.
Satmaq olmaz məhəbbəti,
Bu sevdadan əl çəkmərəm.

Aldı Səlbinaz xanım:

Mahmud bilsə dara çəkər,
Anan-bajın qan-yaş tökər,
Yurdunuzda bil turp əkər,
Bu sevdadan əl çək, oğlan.

Aldı Miskin Abdal:

Qorxutmayır məni inan,
Nə ölümlər, nə də zindan.
Butamı verif Yaradan,
Bu sevdadan əl çəkmərəm.

Aldı Səlbinaz xanım:

Səlbinazı salma cəngə,
Əlinnən gələrsən təngə.
Neyniyərsən aj pələngə?
Bu sevdadan əl çək, oğlan.

Aldı Miskin Abdal

Abdal deyər, bir ac şirəm,
Alov saçan bir şəmşirəm.

Dünyamızı dəyişərəm,
Bu sevdadan əl çəkmərəm.

Səlbinaz xanım gördü kü, yox, Miskin Abdal sözünə bütöv oğlandı. Üzünü haqqa tutuf onnara xeyir-dua verdi:

– Ümidinizi haqqa bağlıyın, haqqın ətəyinnən tutun. Mahmud çətin adamdı. İnanmıram kı, bu işə razı olsun. Amma tanrı nə yazıfsa, o da qismət olajax, balalarım!

"Allaha pənah" – deyif öz otağına keşdi. Aşiq-məşuqlar da gejənin yarısınacan öz çalıf-çağırmaxlarında, kef-damaxlarında oldular.

Xülasə, Miskin Abdal, Qasım və Gülçöhrə hər gejə bura gəlir, yeyir, içir, deyif, gülür, çalıf-oxuyur, səhərə yaxın evlərinə qayıdırdılar. Miskin Abdal bir az çimir alannan sonra uzun Qasımı da yanına alıf şəhərə gəzməyə çıxırdı. Hər yerdə onu hörmətnən qarşılıyırdılar. Miskin Abdal da güjü çatan qədər saz çalar, söz çağırar, adamların könlünü şaddandırardı. Hər nə qədər çalıv, oxusa da heş kəsdən pul götürməzdi. Bir aya yaxınıydı kı, Miskin Abdal Təbrizdəydi. Bu müddətdə o özünə o qədr dost, tanış tapmışdı kı, gəl görəsən. Adamlar onu bir saat görmüyəndə darıxırdılar. Miskin Abdalın Sənubərə olan məhəbbəti də dildə, ağızda gəzirdi. Hamı bu haqq aşığınnan danışırdı. Hamının əlləri göydəydi; Allah bu iki aşiq-məşuqun bir-birinə qovuşması üçün ilan Mahmudun ürəyinə rəhm salsın.

Varına, dövlətinə görə İlan Mahmudnan qohum olmağa can atannar, bir də Sənubərin gözəlliyinə vurulannar Miskin Abdala paxıllıx eliyirdi. Onnar çalışırdılar kı, Miskin Abdalı aradan götürsünnər. Ancax mümkün olmurdu. Çünki Miskin Abdalın dostu, yarı, yoldaşı çoxuydu. İstəməyəni də cəmisi bir-neçə nəfəriydi.

Bəzirgan Qeysərin oğlu Cümşüd bu xəvərdən sonra vurnuxmağa başdadı. Dedi: "Ayə, elə şey olar, yerri olam, dədəmin adını bir qatar dəvə çəkmiyə, varımız-halımız dünyadan aşa, bir Göyçəli gədəsi gəlif sənin istədiyin qızı əlinnən ala". Bir gün o yaxşı bir xonça hazırradı. Yox olsun yoxsulluğu. Xonçada nələr yoxuydu. Xonça qızıldan, gümüşdən od tutuf yanırdı. Cümşüd qarannıx qarışanda xonçasını da götürüf Sənubərgilə adaxlıbazdığa getdi.

Baxdı həyət-bajada heş kəs yoxdu. Amma Sənubər xanımın

otağının pəncərələrinnən işıx gəlirdi. Bir az da irəli gedəndə oxumax səsi eşitdi. Öz-özünə sevindi. Dedi ki, yaqın Sənubər xanım mənim dərdimnən belə yanıxlı-yanıxlı oxuyur. Tez ora-bura vurnuxuf bir nərdivan tapdı. Gejənin qarannığında nərdivanın sınıx olduğunu görmədi. Nərdivanın başını divara diriyif xonça əlində pəncərəyə qalxdı. Nə görsə, yaxşıdı?! Gözləri bərələ qaldı. Əlləri əsməyə, dizləri titrəməyə başladı. Şəhərdəki aşıxnan Sənubər xanım bir kefdəydi, bir kefdəydi ki, gəl görəsən. Miskin Abdal başını qoyuf Sənubərin dizinin üstünə. Sənubər də onun saçını sığallıyır. Həm də deyişillər. Qeyri ixtiyari: "Öl, ay Cümşüd, öl, gözdərin nələr görür!" – demişdi ki, nərdivan Cümşüdün ayağının altınnan çıxdı. Cümşüd tappa-tapnan, səs-küynən yerə yıxıldı. Xonça da yerə düşüf dağıldı. Səsə Sənubərgil eşiyə çıxdılar. Bir kişi xeylağının barıyı aşdığını gördülər. Gülçöhrə onu Cümşüdə oxşatdı.

Aşiqlərin kefinə soğan doğrandı. Əhvalları bir anda pozuldu. Onlar bu işdən çox pərişan oldular. Sənubər xanım dedi:

– Tez gedin, hələlik bu yerrərdə görünməyün. Görək başımıza nələr gələjək.

Qonaxlar dərhal çıxıf getdilər. Sənubər də yatağına uzandı. İlan vuran yatdı, ancax o yatmadı. Səhər tezdən duruf pəncərənin altına dağılmış xonçanı də tər-təmiz yığışdırdı kı, qonşulardan görüf-eliyən olmasın. Miskin Abdalnan Qasım da bu hadisədən çox narahat oldular. Səvirsizdiknən bu işin sonunu gözdəməyə başdadılar.

Bunnarı burda qəm dəryasında qoyax, görək Cümşüd neynədi. O, gejə yıxılanda ayağının birini əzmişdi. Bir təhər sürünə-sürünə gejəyarı gəlif evlərinə çıxdı. Canının ağrısınnan çox, gördükləri onu savaha qədər yatmağa qoymadı. Savah tezdən bəzirgan Qeysər oğlunun ayağını çəkdiyini görüf nə olduğunu soruşdu. Cümşüd də heş nəyi danmadı. Gördüklərinin də üstünə bir az artırıf hamısını atasına danışdı. Atası bu işdən kədərrənsə də, özünü o yerə qoymuyuf dedi:

– Bala, eybi yoxdu. Cavannıxda hər şey olar. Sənubər də cavandı. Bu işi heç harda açıf-ağartmaq lazım döyül. Sənubər sövdagarın yeganə züryətidi. Elə eliyək ki, onun bir elə varı, döyləti başqasına qismət olmasın. Qəlbini qaralama. Qız ağacı, qoz ağacı, yüzü atar, biri vurar,- deyiflər. Bu işi mən özüm yoluna qoyajam.

Cümşüd də ki, biqeyrətin biriydi. Atasının dediklərinə cannan, başnan razı oldu.

Miskin Abdal gözdədi. Bir gün keşdi, iki gün keşdi, üç gün keşdi. Ancax o gejəki əhvalatdan bir səs-sorax çıxmadı. Bir az rahatdandı. Sənubər də buna çox sevindi. Bilmədilər ki, onnarın dadına yetən hiyləgər Qeysərin tamahkarrığıdı.

Bəzirgan Qeysər öz-özünə çox götür-qoy elədi, çox düşündü. Axırda belə qərara gəldi ki, Sevdagar Mahmud gələn kimi bu işi qurtarsın. Elə bu arada xəvər gəldi ki, Sevdagar Mahmud gəlir. Qeysər oğlunu da götürüf onun pişvazına çıxdı. Mahmud bunnan çox xoşhal oldu. Evdə gejə yarıyacan ordan-burdan söhbət elədilər. İlan Mahmud uzax yoldan gəlif yorulmuşdu. Hamı dağılışdı. O da uzanıf yatdı.

O biri axşam bəzirgan yenə gəldi. Bir xeyli söhbətdən sonra mətləvi aşdı. Dedi:

– Mahmud, Allahın adına şükür kü, səfərdən sağ-salamat qayıdıf gəldin. Əhdimiz-əhd, sözümüz sözdü. Qız Cümşüdündü.

Mahmud dedi:

– O nə sözdü, deyirsən. Kişidə söz bir olar. Toya hazırraş.

Qeysər dedi:

– Dost, bir iş var, iki əməl. Sən gedənnən sonra Göyçə tərəflərdən buraya bir cavan aşıx gəlif çıxıf. Şəhərə yayılıf kı, onu buraya Sənubərin eşqi gətirif, haqq aşığıdı. Deyilənə görə, guya qoja bir dərviş yuxularında onnara eşq badəsi içirdif, onnarı bir-birinə buta verif.

Bunu eşidən Mahmudu od götürdü, nə götürdü. Cin atına mindi. Ağzı köpüklənə-köpüklənə dedi:

– Mən gəda deyiləm ki, hər yoldan ötənə qız verəm. Onun başına bir oyun açaram kı, yarandığına peşman olar.

Qeysər dedi:

– Mahmud, hirsini boğ, səvirri ol. Bu hərəkət bizi el içində hörmətdən salar. Ehtiyatdı olmax lazımdı. Birdən, doğrudan da, haqq aşığı olar. Bir şey eliyif, Allahın qəzəvinə gələrik. Əlimizdə də xeyir işimiz var. Demək olmaz, işin içinnən iş çıxar.

Mahmud ajıxlı-ajıxlı:

– Nə deyirsən? Demək istiyirsən ki, çağırım bu yoldan ötəni, gədanın birini, deyim ki, ay haqq aşığı, gəl sövdagar Mahmudun

qızı, dünya gözəli Sənubəri al apar, get Göyçüyə? Yox, Qeysər, mən haqq aşığı -zad tanımıram. Onu yox eliyəjəm.

Qeysər əlini onun çiyninə qoyuf dedi:

– Mahmud, bir tədbir fikirrəşmişəm. Gəl elə eliyək ki, nə şiş yansın, nə kavav.

Mahmud dedi:

– De görüm, nə deyirsən?

Qeysər:

– Aşığı çağırtdır yanına. De ki, mənim sana veriləsi qızım yoxdu. Eşitməsə de ki, şəhərdən çıxıf getsin. Buna da razı olmasa, saldır zindana. Toydan sonra, iş-işdən keçənnən sonra buraxarsan, çıxıf gedər öz dağılmışına.

Mahmud bığının altınnan qımışıf dedi:

– Bu lap ağıllı məsdahat oldu.

Sevdagar Mahmud tez qoldan zorlu, ağıldan kəm iki pəzəvəng tapıf Miskin Abdalın dalınnan göndərdi. Yolda gördülər ki, aşıx da, yolddaşı da sövdagar Mahmudgilə tərəf gedillər. Mahmudun adamları bu işə mat-məəttəl qaldılar. Aşığı da, onun yoldaşını da götürüf sövdagar Mahmudun yanına gətirdilər. Miskin Abdal salam verdi. Mahmud onun salamını almıyıf ajıxlı-ajıxlı dedi:

– Gədanın biri, gəda. Bilirsənmi kimə sataşırsan? Səni qurda-quşa yem eliyərəm, ananı mələr qoyaram. Başın bədəninnən üzülməməiş, rədd ol şəhərdən.

Miskin Abdal təmkinini pozmadan dedi:

– Sevdagar Mahmud, mən ölümnən qorxsaydım, bu neçə ayda yollar yorğunu oluf, anamı gözü yaşdı qoymazdım. Mən Sənubərin yolunda ölməyə gəlmişəm. İxtiyar sahibisən, sən bilərsən. İstiyirsən məni lap tikə-tikə doğra. Mən haqq aşığıyam.

İlan Mahmudun gözdəri çıxdı kəlləsinə. Əlini atdı qılınca kı, durub onun boynunu vursun. Qeysər onun ayağınnan basdı. Tez Qeysərin dediyi onun yadına düşdü. Qışqırdı:

– Aparın, bu yetim-yesirrəri atın zindana!

Miskin Abdal baxıf gördü kü, doğurdan da İlan Mahmuddur ku, oturuf yerində. Sənubəri də ona heş vaxt vermiyəjək. Öz-özünə fikirrəşdi ki, ölməy-ölməydir, xırıldamax nə kişilikdir. Allah kərimdi, gəl ürəyini dillə dediyin kimi saznan-söznən də boşalt, axırı da nə olar-olar. Ona görə də dedi:

– Sövdagar Mahmud, ixtiyar sahibisən, özün bilən yaxşıdı. ancax ürəyimə bir qatar söz gəlif, onu deyim, sonra da nə bilirsən onu da eliyərsən.

Miskin Abdal bunu deyif icazəsiz-filansız sazı köynəyinnən çıxardıf basdı sinəsinə. Qeysər də bir yannan Mahmudun bir yanını yağır etmişdi ki, səbrli ol. Mahmud da onu eşidif Miskin Abdalı rüsvay etmək istəmədi, işin hələ axırını gözlədi.

Aldı Miskin Abdal görək İlan Mahmuda nə dedi:

Eşq badəsin ol ağamdan alınca,
Leysan oluf yağa-yağa gəlmişəm.
Gejə-gündüz öz butamın dalınca,
Gəzə-gəzə bu torpağa gəlmişəm.

İlan Mahmud gördü kü, yox, yaman paza ilişif. Bu elə dediyinnən dönmür kü, dönmür. Ajıxlı-ajıxlı dedi:

–Ayə, tez ol, sözünü qurtar, rədd ol gözümün qavağınnan. Hələ bunun özünü bax, sözünə bax! Gör bir adı hər yerdə bəlli olan Mahmuda bu göyçəli gədəsi qəzəl oxuyur.

Miskin Abdal dedi:

– Sövdagər Mahmud, eşit sözümün o biri xanəsini:

Çox insafın qırılıbdır qaytanı,
Yerə-göyə sığışmayır böhtanı,
Mərdi-məzar, aravuran şeytanı,
Günah yoldan qaytarmağa gəlmişəm.

Mahmud ucadan istehza ilə gülüb dedi:

– Paho, bilməmişdik, bir göyçəli gədəsi gəlibmiş ki, şeytanı yolunnan qaytarsın. Amma heş özünü düşdüyü pis yoldan qaytarmax istəmir. Dünyanın işinə bir bax, ha!

Miskin Abdal aldı sözün o biri xanəsini:

Dərd içimi oyur-oyur oyurdu,
Bu mətləbi haqqın özü buyurdu,
Xoşluq ilə verməsələr bu yurdu,
Məhvərinnən qoparmağa gəlmişəm.

Bunu eşidəndə İlan Mahmud cin atına minmədimi? Dedi:

– Adə, gədanın biri gəda, özün qərif ola-ola buralarda nə örüş-örkən açıfsan. Sənin başına bir oyun açaram ki, gəldiyin yolu tərsinə gedərsən, sədanı heş quşdar da bilməz. Qanmaz-qanmaz az danış. Tez ol, sözünü qurtar. Rədd ol buralardan, bir də gözün səni görməsin.

İlan Mahmudun "qanmaz" sözü Miskin Abdala yaman toxundu. Aldı görək sövdagara cavabında nə dedi:

Bu dünyada Yaradanı anmazı,
Od içində buza dönüb yanmazı,
Nanəcibi, yaramazı, qanmazı,
Davar bilib otarmağa gəlmişəm.

Bunu eşidəndə İlan Mahmudu od götürdü, nə götürdü. Hirsinnən dodağını çeynədi. İstədi durub Miskin Abdalın dərsini versin, Qeysər yenə də qoymadı. Əlaşsız qalan Mahmud, Miskin Abdalın üstünə bağırıf dedi:

– Göyçəli gədəsi, sözünə sərhəd qoy və müxtəsər eylə. İndi səni yaxşı qandırajam. Onda bilərsən ki, qanan kimdi, qanmaz kimdi.

Miskin Abdal aldı görək sözünün tafşırmasını nejə dedi, biz də eşidək şad olax:

Miskin Abdal olsun yara sadağa,
Məhəbbətə haqqdan yoxdu qadağa,
Göyçəmizdən Təbriz adlı torpağa,
Sənubəri aparmağa gəlmişəm.

Söz Miskin Abdalın ağzınnan çıxanda İlan Mahmud düz ərş-öyünə kimi cızım-cızım yanıf, cızırığı çıxdı. Bağıra-bağıra dedi:

– Aparın, mə'lunnarı salın zindana!

Şəhərə xəvər yayıldı ki, bə deməzsənmi, İlan Mahmud haqq aşığını da, onun yoldaşını da zindana saldırıf. Eşidənnərin hamısı mə'yus oldu. Nə eləmək olardı? Umud haqqa qalmışdı.

Bunu bilən Səlvinaz xanım getdi ki, görsün qızının halı nejədi. Baxdı kı, qızı gözünün yeddi yerinnən yaş tökür. Elə belə leysan yağış yağırdı. Anasını görəndə Sənubər daha da köyrəldi. Səlvinaz

xanımın boynuna sarılıf hönkür-hönkür ağladı. Anası buna dözə bilmiyif hörüklərini sinəsinə basıf görək qızına nejə təsəlli verdi, qızı öz dərdini anasına nejə izhar elədi:

Bu nə haldı, bu nə ündü?
Ağlama, qızım, ağlama!
De çəkdiyin bu nə gündü?
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Abdalım dustaq olufdu,
Ağlaram, ana, ağlaram!
Gülüm çiçəyim solufdu
Ağlaram, ana, ağlaram!

Aldı Səlbinaz:

Tanrı qoymaz səni naçar,
Bir bağlıyan, bir də açar.
Günəş doğar, zülmət qaçar,
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Bu dərdimin yox çarası,
Getməz könlümün qarası.
Sızıldar eşqin yarası,
Ağlaram, ana, ağlaram!

Aldı Səlbinaz:

Səlbinaz da deyər belə,
Ərənnərdən imdad dilə,
Göz yaşın döndərmə selə,
Ağlama, qızım, ağlama!

Aldı Sənubər:

Sənubərin yox imdadı,
Dillərdə dolaşır adı

Oda saldım dostu, yadı,
Ağlaram, ana, ağlaram!

Ana-bala ağlamaxda, İlan Mahmudnan bəzirgan Qeysər də toya tədarükdə olsunnar. Görək zindanda Miskin Abdalnan Qasımın başına nələr gəldi?

Onnarın hər ikisini gətirif atdılar qarannıx, kif basmış zirzəmiyə. Qərif yer, qarannıx zindan. Bir yandan da yarınnan ayrılması, bir yandan da bu zülümlər, bu sitəmlər qəlbini şan-şan elədi. Qəlbi kövrələn Miskin Abdal aldı görək ürəyinnən keçənnəri nejə dilə gətirdi:

Neçə gündü dustağam mən,
Gedənim yox, gələnim yox.
Vətənsiz, elsiz qərivəm
Göz yaşımı siləmin yox.

Mərd ölsə, namərd gülərmiş,
Göz yaşın kimlər silərmiş,
Dərdi dərd çəkən bilərmiş,
Nə çəkirəm, bilənim yox.

Abdal eldən düşdü irax,
Ömür oldu varax-varax.
Yardan mənə gəlməz sorax
Ağlıyanım, gülənim yox.

Miskin Abdal çox düşündü, daşındı. Ağlına çox şeylər gəldi. Birdən yadına düşdü kü, payız girif, qavaxdan qış gəlir. Hələ əli nə yara yetişif, nə də bir yana çatıf. Bu sevdaya düşdüyünnən az qala bir il keçir. Hələ bu zindanda nə qədər qalacağı da mə'lum deyil. Kim bilir, hələ hansı müsibətdənən qarşılaşajax. Bu fikirrər, bu çək-çövürrər içində dərdi tüğyan elədi. Telli sazı sinəsinə sıxıf aldı görək nə dedi:

Tərs düşüb fələyin işi,
Lil basan arxdımı, nədi?

Bu nə dünya, bu nə gərdiş,
Dolanan çarxdımı, nədi?

Qalanıb küfrün kürəsi,
Yanırsan gözüm görəsi.
Tutuluf yanı-yörəsi
Bir bilən yoxdumu, nədi?

Miskin Abdal, işin xata
Ünün gedif ərşə çata.
Səvəv nəydi baxtım yata?
Bu görən baxtdımı, nədi?

Miskin Abdal burda qəmli-qəmli çalıf oxumaxda, Sənubər də orda dərddən saralıf-solmaxda olsun, görək bəzirgan Qeysər neynədi? O, kələyinin baş tutduğunu görüf, tez-tələsik toya hazırraşdı. Elçi getdi. Qızın atasınnan "hə"sini aldı. Nişan göndərdi. Sənubər atasının qorxusunnan dinə bilmədi. Üzüyü götürdüsə barmağına taxmadı. Umudu haxda, Miskin Abdalın yolunu gözdədi.

Elə ki, toy tədarükü görüldü, toyun vaxtı müəyyənnəşdirildi, Sənubərin dərdi birə-beş artdı. İstədi özünü öldürsün, səvir gəldi. Anası bilif o ku, var dannadı. Hər saatın bir hökmü var, dedi. Anası onu öz südünə and işdirdi ki, bu fikrinnən əl çəksin. Sənubər anasına dedi:

– Ana, sana qurvan olum. Eybi yoxdu, səbr eliyərəm. Görək hələ nolur. Gərdəyin dalına qədər gözdüyəjəm. Cümşüd kimi biqeyrətə qismət ola bilmərəm. Mənim öz istəklim var, Ağam özü məni ona buta verif. Onnan qeyrisinin əli mənim əlimə dəyə bilməz.

Anası çar-naçar razı oldu.

Toya başdamağa hələ bir-neçə gün varıydı. Bir gejə İlan Mahmud yuxuda gördü kü, bir qoca dərviş ona yaxınnaşıf dedi:

– Miskin Abdalı da, yoldaşını da dustaxlıxdan azad elə. Yoxsa gözdərini oyaram.

O, əlini Mahmudun gözdərinə uzadanda, Mahmud qorxusunnan yuxudan dik atıldı. Sübhə kimi ilan vuran yatdı, ancax ilan Mahmud yatmadı. Qorxusunnan arvadı da ona nə olduğunu soruşmadı. O gün axşama kimi Mahmud qaş-qavaxlı gəzdi. Ancax qojanın dediyinə

əməl eləmədi. İkinci gecə yenə həmin yuxu təkrar olundu. Mahmud yenə deyiləni eləmədi. Üçüncü gecə Mahmudun gözünə təzəcə yuxu getmişdi ki, birdən hövlang qışqırıf yuxudan ayıldı. Elə bil boğulurdu. Gözdərinin altında və boğazında barmaq izdəri varıydı. Bunnarı Səlvinaz xanım da gördü. Ərinə su verdi. İlan Mahmud bir az toxdadı. Hannan-hana özünə gəldi. Güjnən ayağa qalxıf eşiyə çıxdı. Adam göndərif iri heyvərə pəhlivannarı çağırtdırıf dedi:

– Gedərsiniz, o zindandakı Göyçə yetim-yesirlərini çıxarıf şəhərin kənarındakı meşəliyə apararsınız. İkisini də öldürüf, qannı köynəklərini mana gətirərsiniz. Sizi dünya malınnan qəni eliyəjəm.

Cəlladların ikisi də bir ağızdan dedilər:

– Baş üstə, ağa. Onnarı elə bu gün cəhənnəmə vasil eliyərik.

Cəlladlar zindana yaxınnaşanda gördülər ki, ağlamax səsi gəlir. Qulax asıf gördülər ki, aşıx oxuyur:

Guşə-guşə yanıf nara yaxıldım,
Cismim od-atəşə qalanıf gedər.
İmtahan eyləyir könlüm şəhrini
Ömrüm haqq əlinnən talanıf gedər.

İnsan olan getməz fitnə fe'liynən,
Yandırar şamını bir öz əliynən,
Yalan peymanıynan, haça diliynən,
Könül yar yolunda aldanıf gedər.

Qeylü-qaldı səhər-axşam əhvalım,
Tor görər gözdərim, qarışar halım.
Qanlı çeşmi yazıx Miskin Abdalın,
Coşqun çaya nisbət sellənif gedər.

Aşığın belə oxuması cəlladdarın qəlbini bir azca yumşaltdı. Ancaq deyiləni eləməliydilər. Qapıyı açanda gördülər ki, doğrudan da, ikisi də cannara dəyən oğlannardı. Ancax nə fayda? Gejəynən hər ikisini götürüf şəhərin qırağındakı meşiyə apardılar. Miskin Abdala hər şey aydın oldu. Üzünü cəlladdara tutuf dedi:

– İcazə verin, bizi öldürməmişdən qavax bir-neçə kəlmə deyim.

Onnarın qəlbi bir az da yumşaldı. Dedilər:

– Buyur, de.

Aldı Miskin Abdal:

Aman cəllad, zalım cəllad,
Mənə qıyın, Qasıma yox.
Qalmıyıfdı halım cəllad,
Mənə qıyın, Qasıma yox.

Qəriv ölsəm, qəvrim itər,
Üstümdə ot, qanqal bitər!
Zülüm olmaz bunnar betər,
Mana qıyın, Qasıma yox!

Sızıldayır qannı yaram,
Yar yanında günahkaram.
Onsuz mana ömür haram,
Mana qıyın, Qasıma yox!

Su içəni ilan çalmaz,
Belə zülüm, zillət olmaz.
Bu nahax qan yerdə qalmaz,
Mana qıyın, Qasıma yox!

Abdal deyər, yana-yana,
Haqq özü çəkər divana.
Nahaxdan düşmüyün qana,
Mana qıyın, Qasıma yox!

Söz tamama yetdi. Cəlladdarın bunnarı öldürməyə əlləri gəlmədi. Gördülər ki, bu yazıxların günahı yoxdu. Özü də bu, doğrudan da, haqq aşığıdı. Tanrıdan onnarın qəlbinə rəhm gəldi. Cəlladdarın biri o birinə dedi:

– Gəl, bunnarı buraxax. Köynəklərini alıf meşədə dovşannanzaddan vuruf qanına buluyax, aparıf verək İlan Mahmuda. Belə oğulları da öldürmək olarmı?! Bu qanı Allah heş kəsə bağışdamaz. İlan Mahmudun zatı-pakına, yeddi arxa dönəninə Allah nəhlət eləsin.

Dedilər:

– Soyunuf alt köynəklərinizi bizə verin. Sonra da kir-kirimişcə çıxıf buralardan gedin. İlan Mahmudun bir də əlinə keşsəniz tək sizin yox, bizim də dərimizə saman təpəjək.

Miskin Abdalnan Qasım can köynəklərini çıxarıf cəlladlara verdilər. Bir də gördülər ki, Miskin Abdalın yanında bir cüt dovşan dayanıb. Adamnan da pəsiniv eləmir. Cəlladdar bu işə mat-məəttəl qaldılar. Bunnarı öldürmədiklərinə görə çox sevindilər. Annadılar kı, bu aşıx Allah-taalanın pənahındadı.

Cəlladlar dovşanı öldürüf qanını köynəklərə buluyuf şəhərə yola düşməkdə olsunnar. Görək, Miskin Abdalnan Qasımın başına nələr gəldi.

Miskin Abdal belə məsdahat gördü kü, bu gejə gedif başdarına gələnnəri Gülçöhrəyə danışsın. Onu da desin ki, biz Qaçax Mehdinin yanına gedirik. Allah qoysa, yaxın vaxtdarda hər şey yaxşı olajax.

Belə də elədilər. Gejəynən ikisi də yola düşdülər. Bir-neçə günnən sonra onnar gəlif Qaçax Mehdiynən görüşdükləri yerə çatdılar. Xoşbəxtlikdən Qaçax Mehdi də, yoldaşdarından bir neçəsi də buradaydı. Xoş-beş, on-beşdən sonra Miskin Abdal başdarına gələnnəri birər-birər uşaxlara danışdı. Gördülər ki, heş bunnarda hal qalmıyıf.

Qaçax Mehdi dedi:

– Eybi yoxdu, Allaha şükür kü, sağ-salamatsınız. Bunnan sonra mən bilərəm, İlan Mahmud bilər. Ona bir toy tutajam kı, dadı ömrü boyu damağınnan getmiyəjək. Sonra uşaxlara tapşırdı kı, Miskin Abdalnan Qasımı aparıf rahatdasınnar.

Qaçax Mehdi adam göndərif örgəndi ki, İlan Mahmud qızının toyuna başdıyıf. Toy qırx gün çəkəjək. Toyun qurtaracağı günü də örgəndilər.

İlan Mahmudun da, bəzirgan Qeysərin də əli vuruf, ayağı oynuyurdu. Elə bilirdilər ki, göyçəli aşıxdan cannarını qurtarıflar. Sənubərə də xəvər çatmışdı kı, darıxıf-eləməsin. Toyun qırxıncı günü yanında hazırıx.

Sənubərin kefinin ala buludda olması atasını yamanca sevindirirdi. O elə bilirdi ki, qızı Miskin Abdalı daha yadınnan çıxardıf. Axı, hardan biləydi ki, o Allahın qəzəvinə tuş gəlif. Qaçax

Mehdiyi onun hüzuruna göndərir.

Əlqərəz, toy başdadı, nə başdadı. Otuz doqquz gün yeyif içif, çalıf-oynadılar. Qırxıncı gün gəcavə bəzəndi, atdar nəmərə durdu. Sənubər xanımı mindirdilər gəcavəyə. Bir azdan istədilər ki, gəcavəni bəy evinə tərəf sürsünnər. Sənubər xanımın gözdəri yolda, qulağı səsdəydi. Gəcavə təzəcə yerinnən tərpənmək istiyirdi ki, bir hay-küy qopdu ku, gəl görəsən. Əli siyirmə qılışdı oğlannar toyu dövrüyə aldılar. Camaat çaş-baş qalmışdı. Toy adamları karıxmışdı. Sənubər gəcavənin bir tərəfindən baxıb gələnlərin arasında Miskin Abdalı da, Qasımı da gördü. Ürəyi yerinə gəldi.

Sarı köhlənin belində boylu-buxunnu bir pəhlivan gəcavənin qavağını kəsif dedi:

– Hardadı bəy? Çıxsın ortalığa. Bəynən güləşmək istiyən var. El var, adəti var.

İlan Mahmud da, bəzirgan Qeysər də çaş-baş qalmışdılar. Bu nəydi başdarına gəldi? Bəy kimnən güləşməlidi?

Qaçax Mehdi dedi:

– Bəy güləşə çıxmalıdı. Sənubərə çatmaq üçün qabiliyyətini göstərməlidi. Kim qaliv gəlsə, Sənubər xanım onun olmalıdı.

Hövsələdən çıxmış İlan Mahmud üzünü pəhlivana tutuf dedi:

– Sən kimsən, nəkarəsən? Haranın dələduzusan? Rədd ol, buradan...

Qaçax Mehdi təmkinini pozmadan dedi:

– İlan Mahmud, məni sonra tanıyarsan. Çox qalmıyıf. Bəy meydana çıxsın.

Ələşsiz qalan Cümşüd ortalığa çıxdı. Onsuz da onun güləşməyə halımı varıydı? Cümşüdnən güləşə Miskin Abdal çıxdı. Qırx günüydü kü, Miskin Abdal yeyif-içif dağlarda gəzirdi. Kökəlif, qüvvətdənmişdi. Ona görə də əlini atan kimi Cümşüdü başının üstünə qaldırıf arxası üstə yerə vurdu. Yerdən toz qalxdı. Cümşüd qalxıf üstü toz-torpax aradan çıxdı. Rüsvay olan Mahmud ajığınnan Qaçax Mehdinin üstünə cumdu. İlan Mahmud hara, Qaçax Mehdi hara. Atalar yaxşı deyif ki, ilan ulduz görməsə ölməz! İndi tanı mən kiməm. Qaçax Mehdiyi tanımırsansa, indi tanıyarsan! – deyif bir əlinnən onun boğazınnan tutuf havıya qaldırdı, o biri əlindəki qılıncı endirmək istiyəndə Sənubər xanım gəcavədən çıxıf bərkdən qışqırdı və yalvardı kı, atasını öldürməsin.

Qızını görən İlan Mahmudun "Ləçər!!!" sözünü deməyinnən qılıncın enməyi bir oldu. Qılınc onu ikiyə böldü.

Qaçax Mehdi üzünü camaata tutuf dedi:

– Toy davam eləyir. Miskin Abdalnan Sənubər xanımın, Qasımnan Gülçöhrənin toylarını burada eliyəjiyik. Kəvinnəri Göyçədə kəsilər. Allah-mübarək elәsin!

Təzədən burada yeddi gün, yeddi gejə toy oldu. Səkkizinci gejə gəcavə üz tutdu Qaçax Mehdi bulağına tərəf. Sənubərin anası Səlbinazı da, Gülçöhrənin qardaşı Mədədi də götürdülər. Səlbinaz xanım öz ev-eşiyini Gülçöhrənin ata-anasına tafşırdı.

Qaçax Mehdi gəcavəni öz ovasına gətirdi. Burda da yeddi gün, yeddi gejə çal-çağır oldu. Səkkizinci gün ilk dəfə görüşdükləri bulağın başına gəldilər. Ayrılıq vaxtıydı. Qaçax Mehdinin ürəyinnən keşdi ki, Miskin Abdalı bu qədər xata-baladan qurtardım, butasına qovuşdurdum, neçə yerdə toy çaldırdım hələ mənim haqqımda bir kəlmə də söz deməyif. Elə bil Miskin Abdal Qaçax Mehdinin ürəyinnən keçənnəri eşitdi. Sazını köynəyinnən çıxarda-çıxarda dedi:

– Mehdi qağa, sən mənə atadan, anadan, doğma qardaşdan artıx hörmət elədin. Sənin qoçaxlığınnan, mərddiyinnən, kişiliyinnən söz açmasam, dilim alışar, ürəyim od tutuf yanar.

Aldı Miskin Abdal:

Düşmənnərə gözdağıdı,
Bir bəladı, Qaçax Mehdi.
Əl çatmayan bir zirvədi,
Bir qaladı, Qoçax Mehdi.

Haqsızdığa qılınc çalıf,
Çörək verif, süfrə salıf.
Dərsini pünhannan alıf,
Haqq ilədi Qaçax Mehdi.

Uca olsun daim baxtı,
Yana çevrilməsin taxtı.
Coşuf-daşan bir bulaxdı,
Dağ selidi Qaçax Mehdi.

Əğyar qıranda belimi,
Naşı dərəndə gülümü,
Daşdı, kəsəkli yolumu
Gül elədi, Qaçax Mehdi.

Kişilikdə yoxdu tayı,
Mərd yaşamaq olub payı,
Abdala var haqqı-sayı,
Qoç dəlidi Qaçax Mehdi.

Söz tamama yetişdi, qucaxlaşıf öpüşdülər. Bir-birinnən əhd-peyman bağladılar, bir-birrərinə baval yüklədilər.

Qaçax Mehdi uşaxlardan bir neçəsini onnara qoşuf tafşırdı ki, gəcavəni Naxçıvan torpaxlarına qədər ötürüf, sonra qayıtsınnar.

Gəcavə dağlar aşıf, dərələrdən keçif yarım aya Naxçıvana çatdı. İsgəndər bəy də burada bir toy başdadı, gəl görəsən. Bir neçə günnən sonra Gülçöhrənin qardaşı Mədədnən İsgəndər bəyin qızı Yasəmənin bir-birinə aşiq olması xəvəri hər yerə yayıldı. İsgəndər bəy Miskin Abdalın elçiliyinə "yox" demədi. Toy-toya qarışdı. Yeddi gün, yeddi gejə toy çalındı. Bir neçə gün də burada qalannan sonra gəcavələr yola düzəldi. İsgəndər bəyin oğlu Qəhrəman, gəlini Məsmə, Göyçə həsrətində olan neçə-neçə qohum-əqrava gedənnərə qoşuldu. Gethaget, gethaget gəlif Dərələyəz ellərinə yetişdilər. Soraxlaşıf Cəvahiri tapdılar. Ötən payız Cəvahirnən Lətifin də toyu olmuşdu. Öpüşüf, görüşdülər. Bir-birrərinnən hal-əhval tutdular. Başdarına gələnnəri danışdılar. Bir neçə gün də çal-çağır, şadyanalıx keçirildi. Sonra gəcavə genə yola düzəldi. Cəvahirnən Lətif də toy adamlarına qoşuldular. Yazın axırına gəlif Dərəçiçəyə çatdılar. Miskin Abdal əhdinə xilaf çıxmadı. Gəcaviyi sürdürdü Meydanəli kişinin qapısına. Meydanəli kişi tez gəmiynən Göyçənin Zərgərri kəndinə Miskin Abdalın atasına xəvər göndərdi ki, oğlun sağ-salamat, qayıdıf gəlir.

Şənniyin beşinci günü Məhəmməd kişi, başında da xeyli adam gəlif çıxdılar. İki gün də çal-çağır davam elədi. Sonra gəcavə Zərgərriyə yola düşdü. Dərəçiçəkdən də xeyli adam toy gəcavəsinə qoşuldu.

Dərəçiçəkdən Zərgərriyə bir həftiyə getmək olardı. Ancax Göy-

çə gölünün sol sahilinnən uzanan yolun üstündə elə bir kənd, elə bir ova olmadı kı, gəcavəni heç olmasa bir gün saxlıyıf, şaddıx keçirif, toy çaldırmasınnar. Qərəz Dərəçiçəkdən çıxan gəcavə qırxbeş günnən sonra Zərgərriyə gəlif çatdı. Növrəstə il yarım ayrılıxdan sonra oğlunun və gəlininin ayaxlarına süründü, torpax yaladı. Allaha dualar elədi. Gəcavənin qavağında öyəşdər, burmancdar, cöngələr kəsildi. Bir toy, bir şaddıx, bir şadyanalıx başdadı ki, gəl görəsən. Düz qırx gün, qırx gejə qara zurnanın səsi dağı-daşı lərziyə gətirdi. Aşıxların sinələrindəki sədəfli sazdar dil-dil ötdü. Miskin Abdalnan Sənubər xanımın, Qasımnan Gülçöhrənin kəvini kəsildi. Mədədnən Yasəmənin kəvini Təbrizə niyyət olundu.

Toyun axırıncı günü aşıx sədəfli sazını sinəsinə basıf bu duvaqqapmaynan toya öz xeyir-duasını verdi:

Bir belə gözəl sənəmin,
Özünə qurvan olasan.
Dindirif, danışdırıf,
Sözünə qurvan olasan.
Camalı mahi-təban,
Üzünə qurvan olasan.
Süzülüf nə xoş baxır,
Gözünə qurvan olasan.
Nə əcəb, goftarı xoş,
Avazına qurvan olasan!

Qız, sənin qoynun içi
Mixək, darçın, hil kimidi,
Tökülüf dal gərdənə,
Saçların sünbül kimidi.
Dəhanın şəhdi-şəkər,
Dodaxların bal kimidi.
Sinən qar, buxaq bəyaz,
Yanaxların gül kimidi.
Bülbülü şeyda oluban,
Yazına qurvan olasan!

Bircə baxın bu gözələ,
Nə əcəb türfə çağıdı.
Məclisi məst eliyən,
Əlində gövsər sağıdı.
Sinəsi mərmər kimi,
Savalanın yaylağıdı.
Sonası pərvaz olub,
Şux tərlanın növrağıdı.
Göllərində ördəyinə,
Qazına qurvan olasan!

Məhəmməd gəşt eliyif,
Bu cümlə cahanı gəzif.
Gəncəni, Qarabağı,
Şəkini, Şirvanı gəzif.
Xoy nədi, Salmas, Marağa,
Təbrizi, Tehranı gəzif.
Arıyıf, axtarıban,
Mülki-Süleymanı gəzif.
Bir belə şux gözəlin,
Nazına qurvan olasan!

MİSKİN ABDALNAN ŞAH İSMAYIL

USTADNAMƏ

Nələr gördüm, kəmt elədim dünyanı;
Hər bir işin qilu-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış.

Haqq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun.
İnsanda insanlıq səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış.

Qayım ağa, niyə fikrə dalırsan?
Yoxsa ki, özündən hesab alırsan,
Sayılmaz mehmana keçə salırsan,
Saydığın qonağa xalı varıymış.

Çox gəzmişəm, az görmüşəm danəndə,
Deməliyəm sözün yeri gələndə.
İnsan üzün görməyəsən dönəndə,
Açılanda xoş camalı varıymış.

Ataş alıb çox da yanma, Ələsgər,
Sənətində heç usanma, Ələsgər.
Öz-özünə qubarlanma, Ələsgər,
Dünyanın Urustam-Zalı varıymış.

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək, iki olsun, dostdarımız sevinsin, düşmənnərimiz paxıllıxdan çatdıyıf ölsünnər:

Qafil könül, bu nə yoldu tutubsan,
Sərf edirsən nə kamaldı dünyada?!
Dövlətə qul olub, gül tək açılma,
Çox sənin tək güllər soldu dünyada.

Kibridən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı.
Yüz sənin tək ahu gəzən şahmarı
Fələk kəməndinə saldı dünyada.

Guşumda sırğadı, sinəmdə dağdı;
Ağıllı unutmaz neçə ki sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Fələk bərhəm edib çox nizamları,
Zülm ilə söndürüb yanan şamları,
Hayıf cavannarın gül əndamları,
Mara, mura qismət oldu dünyada!

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər.
Onda vay halına, yazıx Ələsgər
Özün getdin, sözün qaldı dünyada!

Ustadlar ustadnaməni iki deməz, üç deyər. Biz də deyək üç olsun, dostdarımız şad, düşmannarımız naşad olsunnar:

Arif məclisində bir söz söylərəm,
Nə hədyan, nə çaşqın, nə qələt olmaz.
Nütfədən pak olan, loğmadan halal,
Mə'rifət elminə nabələd olmaz.

Bir haqq söz söylərəm, ariflər qanar,
Müxənnətdər etdiyinnən utanar.
Varlıxda dost olma, yoxluxda – kənar,
"İyidəm" deyəndə bu adət olmaz.

O dünyanı, bu dünyanı gözdüyən,
Həm savahı, həm üsyanı gözdüyən,
Namus qədri bilif, nanı gözdüyən,
İnşallah, heş yerdə xəcalət olmaz.

Bir şəxsin sənəti istəmək ola,
Səxavət eyləməz, hatəm tey ola,
Dövlət tapa, gədalıxdan bəy ola,
Başı ərşə çıxsa, ədalət olmaz.

Ələsgər, mətləbin xudadan istə,
Kərəm olmaz müxənnəsdə, nakəsdə.
Bəylik, göylük, səylik olan məclisdə,
Qaş kı orda xeyir-bərəkət olmaz.

Hə mənim əzizdərim, sizə hardan söylüyüm, kimnən deyim əyyamı-qədimnən bu yana adı dillər əzbəri olan Göyçə mahalında doğuluf boya-başa çatan, ağlının, kamalının böyüklüyüynən ad-san qazanan, Allahın izninnən, misilsiz kəramətinnən müqəddəsdiyə qovuşan, ərənnərdən hax vergisin alıf söz xəzinəsinin xiridarına çevrilən Miskin Abdaldan... Elə ki, Miskin Abdal öz butasına yetişdi, sevgilisi Sənubər xanımı Təbrizdən Göyçə mahalına, doğma kəndi Sarıyaquba gətirif çıxartdı, başdadı xoş ömür-gün sürməyə. Evlənənnən sonra da bir-birrərini elə sevirdilər ki, elə bil əsl Leyli Məcnunuydular. Bir-birrərinnən bir gün də olsa ayrı dura bilmirdilər. Sənubər ev işdəri, həyət-bajaynan məşğul olur, Miskin Abdal da əkin-biçinə, mal-qarıya baxır, axşamlar öz telli sazını sinəsinin üstünə alıf bir-birrərinnən gözəl, şirin havalar çalardı. Çox vaxt bu axşamlara qohum-qonşular, tanış-bilişdər də toflaşardı. Hələ sazın sorağına uzaq ellərdən gəlif qulaq kəsilənnər də varıydı. Miskin Abdalın sazdı-sözdü gejələri elə maraxlı, elə şirin keçərdi ki, bə'zən vaxtın nejə keçif getdiyini bilmirdilər. Bir də görərdilər ki, xoruzdar bannıyır, dan yeri sökülür. Miskin Abdalın oxuduğu sözdər ürəklərə məlhəm, çaldığı havalar könüllərə hərarət gətirərdi. O yavaş-yavaş başdadı özünnən saz havaları qoşmağa. İlk qoşduğu saz havasının adını "Sənubəri" qoydu. Az keşmədi "Abdalı" saz havasını da yaratdı, ona tay kimi. Bu saz havalarında təbii bir gözəllik, doğmalıq, şirinnik varıydı kı... Sonralar o gün olmazdı kı, o, bu saz havalarını heç olmasa bir dəfə dilləndirməsin. Gözəl saz çalmağı, söz qoşmağı onun adını mahaldan-mahala salmışdı. Hər yerdə onun bu hünərinnən ağzıdolusu danışırdılar. Heş yerdə buna bənzər bir sənətkarın olmadığını indi hamı təsdiq eliyirdi. Əlqərəz, Miskin

Abdalın gününə gün, döyranına döyran, hörmətinə hörmət çatmazdı. Adı-sanı hər tərəfə səs salmışdı. Bunnardan lovğalanmıyan Miskin Abdal rahatdıx nə olduğunu bilmir, sazdan-sözdən bir an da olsun uzaxlaşmırdı. Sazın-sözün şöhrətini hər gün el-el, oba-oba yayırdı. Artıx telli sazın səsdaları uzax-uzax yerrərdən gəlirdi. O bə'zən Göyçədən çıxır, həftələrnən evə qayıtmırdı. Məqsədi, məramı təkcə sazın-sözün sirrini ellərə çatdırmax deyildi. O, həm də ulu bavası Yaqubdan üzü bu yana nəsil-nəsil təbliğ edilən dini məzhəbin bö yüklüyünü, müqəddəsdiyini dünyaya yaymaxnan məşğuluydu. Miskin Abdal elə şirin, elə gözəl danışırdı kı, eşidənnər onun bir sözünü iki eləmirdilər. Miskin Abdal nə danışırdısa, hamısınnan böyük bir hikmət, böyük bir mə'na süzülürdü. Belə səfərrərdə Sənubər nə qədər darıxsa da, Miskin Abdala mane olmurdu. Çünki o da Miskin Abdalın haqqa doğru uzanan müqəddəs yolunun yolçusu olmuşdu. Bu yoldan onu döndərmək mümkün deyildi. Buna heş ehtiyac da yoxuydu. Axı o öz ulularının müqəddəs yolunu yaşatmax üçün bu dünyaya gəlmişdi.

Bir gün Miskin Abdal yenə də bir neçə günnüyə harayasa getməli oldu. O axşamnan yol tədarükü gördü. Telli sazını Sənubərin tikdiyi qırmızı köynəyə saldı. Toy gərdəyinin yanınnan asdı. O gejə elə bil yuxusu ərşə çəkilmişdi. Sənubərin halı onunkunnan da betəriydi. Həmişə axşamnan yuxuya gedən Miskin Abdal bu gejə çox gej yatdı. Bunu görən Sənubər soruşdu:

– Abdal, bu gejə sana nə oluf?

Miskin Abdal:

– Heş nə, Sənubər, bilmirəm nədənsə yuxum qaçıf.

Sənubər:

– Abdal, naxoş-zad deyilsən ki?

Miskin Abdal:

– Yox, yox. Narahat olma. İndijə yuxuya gedəjəm.

Doğrudan da bir azdan sonra ikisi də yuxuya getdi. Həmin gejə onnar yuxularını bərk qatdılar. Demə, bu onnarın son gejəsiymiş. Miskin Abdal aləmi-röyada gördü kü, gözəl bir çəmənnikdə bardaş quruf oturuf nahar eliyir. Qəflətən havada qara bir bulud göründü. Buludun içinnən qəflətən bir qara quş şığıyıf Abdalın qavağındakı süfrüyü caynağına alıf havaya qalxdı. Uça-uça gedif həmin buluda girdi. Bir anın içində buluddarın qoynunda gözdən itdi. Bu işə mat-

məttəl qalan Abdal hövlnak yuxudan ayıldı. Gözdərini dolandırıf Sənubərin üzünə baxdı. Gördü kü, Sənubərin üzündə müdhiş bir solğunnux, böyük bir təşviş, vahimə var. Deməynən Sənubər də yuxusunu qatıfmış. O da yuxuda görür kü, Abdalla səfərə çıxıf. Hər yan gül-gülüstandı. Quşdarın cəh-cəhi, bülbüllərin avazı aləmi başına götürüf. Dörd yanda bir gözəllik var kı, gəl görəsən. Birdən-birə göy üzündən qopan qara bir bulud hər tərəfi zil qarannığa bürüdü. Sənubər bu qara dumanın içində qarıxdı. Nə qədər döyündüsə Miskin Abdalı görə bilmədi. Ucadan bir neçə dəfə "Abdal! Abdal!" – deyə qışqırdı. Özü öz səsinə yuxudan ayıldı. Bu qəribə haraydan Miskin Abdal da diksindi. O solğun yanan çırağın piltəsinə əl atdı. Çırax evi işıxlandırdı. Sənubəri haraylıyıf nə baş verdiyini soruşdu. Sənubər Miskin Abdalı görən kimi özünnən asılı olmuyarax onu bərk-bərk qucaxladı. Miskin Abdal tez Sənubərə bir parç su verdi. O suyu içif toxtadı. Miskin Abdal soruşdu:

– Sənubər, sana nə oldu?

Sənubər:

– Heş nə.

Miskin Abdal:

– Niyə belə qışqırırdın?

Sənubər:

– Yuxuda səni itirmişdim...

O başdadı gördüyü yuxuyu həyəcannan Miskin Abdala danışmağa. Danışdıxca bədəni titim-titim titriyirdi. Miskin Abdal öz yuxusunu Sənubərə danışmadı. Onu dilə tutdu, toxtaxlıx verdi. Nə qədər dil tökdüsə, gördü kü, heş bir xeyri yoxdu. Sənubərin halı özündə döyül. Gözdəri bahar buludu kimi doluf. Çırtıx vursan qanı tökülər... Dan yeri təzəcə sökülürdü. Miskin Abdalın yadına savahkı səfəri düşdü. Sənubəri belə görüf heş bilmədi neyləsin. Odnan su arasında qalmışdı. Sənubəri bu vəziyyətdə görən Miskin Abdal sazını sinəsinə basıf aldı görək Sənubərə nə dedi, biz də nə eşitdik:

Ahu gözlüm, niyə mə'lul baxırsan,
Bu sevdaya, bu səfərə gedimmi?
Ürəyimi yandırıfnan, yaxırsan,
Bu sevdaya, bu səfərə gedimmi?

Sənubər saçınnan üç tel ayırıf basdı sinəsinin üstünə, aldı görək Miskin Abdala nə cavaf verdi:

Yollarına həsrət ilə baxıram,
Mehribanım, din-imanım yaxşı yol,
Həm yanıram, həm oddara yaxıram,
Mehribanım, din-imanım yaxşı yol.

Aldı Miskin Abdal:

Yar sevmişəm, muradıma çatmışam,
Yaman günü yaxşı günə qatmışam.
Mən bu gecə bir qıl üstə yatmışam,
Bu sevdaya, bu səfərə gedimmi?

Aldı Sənubər:

Heş bilmirəm hara yozum yuxumu,
Yoxsa fələk daşa vurur oxumu?!
Çiçəklərdən sən alarsan qoxumu,
Mehribanım, din-imanım yaxşı yol.

Aldı Miskin Abdal:

Abdal deyər, bu yuxudan almıram,
Saz götürüb pərdə-pərdə çalmıram.
Qalma dedin, səfərimnən qalmıram,
Bu sövdaya, bu səfərə gedimmi?

Aldı Sənubər:

Sənubərdən de aldınmı barı sən?
Qəlb evində yaşat dostu, yarı sən.
Arzum budu ilahidən yarı sən,
Mehribanım, din-imanım yaxşı yol.

Söz tamama yetdi. Miskin Abdal istədi ki, səfərə getməsin. Ancax Sənubər razı olmadı kı, olmadı. Bu vaxt həyətdən Məhəmməd kişinin səsi eşidildi:

– A bala, hələ yatırsanmı?

Miskin Abdal dedi:

– Yox, qalxmışam, ay ata.

Məhəmməd kişi:

– Onda bir az çəpik ol. Yolçu yolda gərək.

Miskin Abdal:

– Bu saat, hazır olaram.

Bir az sonra Miskin Abdal, dalınnan da Sənubər həyətə çıxdılar. Gördülər ki, Məhəmməd kişi atı yəhərriyif, yüyənniyif, nə lazımdısa bir xurcuna dolduruf atın belinə çatıf. Sənubər gördü kü, Miskin Abdalın sazı yadınnan çıxıf evdə qalıf. O cəld qayıdıf sazı gətirdi. Həmişə atın belinə quş kimi sıçrıyan Abdal bu dəfə yəhərə ağır-ağır qalxdı. Nə qədər çalışırdısa gözdərini Sənubərdən çəkə bilmirdi. Sənubərin də gözdəri dolmuşdu. Bunu görən Növrəstə dedi:

– Qızım, səfərə çıxanın dalınnan su atallar, ağlamazdar.

Qaynanasının bu sözünnən Sənubər bir az toxtadı, özünü ələ aldı. Gördü kü, doğrudan da düz eləmir. Gülümsündü kü, Abdal nigaran getməsin. Bunu qaynatası Məhəmməd kişi də hiss elədi. Mehriban bir baxışnan gəlnini süzüf dedi:

– Qızım, Allah-taala həmişə sizi bir-birinizə istəkli eləsin. Bir-birinizə gözünüz dolusu baxasınız.

Qaynatasına başınnan razılığını bildirən Sənubər utandığınnan evə keçif pəncərənin ağzınnan Abdal gedən yollara baxdı. Miskin Abdal da "ya mədəd" – deyif atının başını gedəjəyi səmtə döndərdi. Miskin Abdal gözdən itənə kimi atası Məhəmməd kişi, anası Növrəstə, bir də nigarançılıx içində qalan sevimli xanımı Sənubər onun arxasınca boylandılar...

O gün beləjə keşdi. Savah açılanda gördülər ki, Növrəstə arvad azarrıyıf, yerinnən qalxası döyül. Ona görə də qalaxdan kərmə, təzək gətirif təndiri qalamax Sənubərin boynunda qaldı. O, qalağın balaca ağzınnan bədəninin yarısını içəri salıf əlini atdı kərmələrə. Birini çəkdi, ikisini çəkdi, elə birini də çəkmək istiyəndə, qalaxdakı iri-iri kərmələr yuxarıdan uşdu Sənubərin başına. Huşunu itirən Sənubər özünü güjnən eşiyə çıxarda bildi. Çıxan kimi də tir-tap yıxıldı yerə. Elə bu yıxılmaxnan da canını tafşırmağı bir oldu.

Evdə ha gözdədilər gəlin gəlmədi. Növrəstə ərinə dedi:

– Ay kişi, bir çıx gör gəlinə nə oldu, axı o bu qədər ləngiməzdi.

Məhəmməd kişi gedif nə görsə yaxşıdı. Qalax-uçuf Sənubərin

başına. Sənubər də bu ilmi ölüfsən, bildirmi! Bir vay-şüvən başdadı kı, gəl görəsən. Qohum-qonşu, tanış-biliş hamısı bir su içimində Məhəmməd kişinin qapısına toflaşdılar. Saçını yoluf üzünü cıran kim, dil deyif ağlıyan, ağılar söylüyən kim... Allah heş kəsə belə müsibət göstərməsin. Bir vay-şüvən başdadı ki, heş demə.

Kənd ağsaqqalları yığışıf məsdahat elədilər ki, Miskin Abdal gəlməmiş Sənubəri dəfn eləməsinnər. Ona görə dərhal Miskin Abdalın dalınnan bir atdı göndərdilər. Özünə də tafşırdılar ki, nəbadə Sənubərin öldüyünü Miskin Abdala söylüyəsən. De ki, anan xəstələnif, səni arzuluyur.

Bunnar burada qalsın, görək atdı neylədi. O, atını qan-tər içində çapıf Miskin Abdal olan məkana çatdı. Bu vaxt Miskin Abdal eşikdə duruf Göyçüyə sarı baxırdı. Bir də gördü kü, bir atdı ley kimi çapa-çapa ona tərəf gəlir. Miskin Abdalın sümükləri üşəndi. Bədəninnən bir sızıltı, üşütmə keşdi. Bildi ki, bu atdı xeyirxəvərə oxşamır. Bir azdan Miskin Abdala dedilər ki, Göyçədən sənin dalınca gələn var. Görüşdülər. Miskin Abdal Sənubərin başında bir iş oluf-olmadığını nə qədər soruşdusa, gələn adam hey dedi: "Anan xəstələnif, səni arzuluyur".

Miskin Abdal da onun bu sözünə inanıf dərhal Göyçüyə qayıtdı. Hələ kəndə girməmiş uzaxdan gördü kü, gənddə bir vay-şivən var kı, gəl görəsən. Göyçədə adam qalmıyıf, hamısı onnarın qapısına yığışıf. Miskin Abdal elə düşündü kü, yə'qin anası rəhmətə gedif. Gələndə gördü kü, yox, anası dil deyif ağlıyır. İndi başa düşdü kü, ölən Sənubəriymiş. Hamı Miskin Abdalı görüf ona yol verdi. Miskin Abdal içəri keçif gördü kü, iki gün əvvəl salamat qoyuf getdiyi Sənubərinin cəsədini evin ortasına uzadıflar. Sənubər də elə bil ölmüyüf, yuxu yatır. Özü də elə bil bədirrənmiş aydı.

Dünya Miskin Abdalın başına dolandı.Sinəsi para-para oldu. Qaynanası Səlbinazı tanımax olmurdu. Qızının dərdinnən üz-gözündə tutar-istəhat yoxuydu. Tez-tez də huşunu itirirdi. Halı heç özündə döyüldü. Ağlını az qala itirmişdi. Camahat bilmirdi ölüyü ağlasın, yoxsa Sənubərin anası Səlbinazı sakitdəşdirsin. Hamı Miskin Abdalın bu müsibəti necə qarşılayacağını gözdüyürdü. Onsuz da Miskin Abdal bu günün böyük müsibətlərini bir neçə gün əvvəl yuxuda görmüşdü. Bir də ki, axı olacağa çarə yoxdu. Odu ku, bu dərdinin haxdan gəldiyini duyduğu üçün özünü tox apardı. Belə gəlif,

belə gedən dünyanın vəfasızdığına öz giley-güzarını təzəcə yaratdığı "Göyçə şikəstəsi" saz havası üstündə aldı görək öz yaxınlarına, doğmalarına nejə bəyan elədi:

Ay hazarat, ay camaat, ay ellər,
Könlüm quşu bir dilbəri itirdim.
Yasa batıb bağçadakı bülbüllər
Bəxtim yatdı, canda səri itirdim.

Silinmiyif toy gününün xınası,
Yarımçıxdı naxış-naxış xanası,
Gejə-gündüz mələr qaldı anası,
Lə'ldən baha bir gövhəri itirdim.

Könlüm evi viran oldu, talandı,
Korun-korun atəşdərə qalandı,
Çoxdan billəm qoca dünya yalandı,
Dan ulduzu, al səhəri itirdim.

Ay camalı dağ qarınnan ağıydı,
Ötən günnər ələ keşməz çağıydı,
Xəzan yeli toxunmamış bağıydı,
Bağça-bağı, bar, bəhəri itirdim.

Zulum deyil, bu zulumnan betərdi,
Ölüm deyil, bu ölümnən betərdi,
Miskin Abdal kimə desin bu dərdi,
Ahu gözlü Sənubəri itirdim.

Miskin Abdalın belə yanıxlı-yanıxlı çalıf çağırması hamının qəlbini para-para elədi. Göz yaşdarı axıf selə döndü. Nalədən, ağıdan, qışqırtıdan qulaxlar tutulurdu. Sinəsi söznən dolu olan Miskin Abdal sazını sinəsinə bərk-bərk sıxıf ürəkdağlıyan bir fəryadnan öz dərdini-dilini görək nejə bəyan elədi:

Ay hazarat, görün nədi,
Bir tuti-dildən ayrıldım.

Könlüm bağı viranədi,
Bülbüləm, güldən ayrıldım.

Müşk-ənbər qoxuluydu,
Şirin-şirin yuxuluydu,
Sözü şəkər, noğuluydu,
Saçı sünbüldən ayrıldım.

Sənubərsiz qalmadı hal,
Mənə həmdəm oldu mələl
Cida düşdü Miskin Abdal,
Obadan, eldən ayrıldım.

Miskin Abdal elə yanıxlı-yanıxlı çalıf-oxuyurdu ku, hamı züy-züyə gedirdi. El ağsaqqalları Miskin Abdala ürək-dirək verdilər. Ancax kimə deyirsən, Miskin Abdal sızım-sızım sızıllıyır, özünnən asılı olmuyarax gözdərinnən qannı yaşdar axıdırdı. Sinəsi də boşalmax bilmirdi. Miskin Abdal üzünü ağsaqqallara tutuf dedi:

– Siz allah, qoyun sinəmi boşaldım. Bunu deyif sazı sinəsinə sıxdı. Dodaxlarınnan qopan yanıxlı nalələr hamının göz yaşını selə döndərdi:

Qəfil ölüm gəldi, keşdi araya,
Yaman yerdə ahu-zarda qalmışam,
Qəm karvanı düzülüfdü sıraya,
Çox çətində, yaman darda qalmışam.

Bir doyunca baş yastığa qoymadım,
Yerişinnən, duruşunnan doymadım,
Buyurmağa, çağırmağa qıymadım,
Zimistanda boran-qarda qalmışam.

Miskin Abdal, hanı ötən vaxtdarım,
Çiçəyindən perik düşdü baxt arım.
Heş bilmirəm gedim harda axtarım,
Dünya boyda dar məzarda qalmışam.

Camaat gördü kü, yox, Miskin Abdal heç sakitdəşənə oxşamır. Çar-naçar qalıf düşdülər onun əl-ayağına kı, amanın bir günüdü, bir az səbr elə, bu camahata da yazığın gəlsin. Qoy barı onnar bir az dincəlsinnər. Ömrün boyu nə qədər istəsən ağlıyarsan.

Kimə deyirsən?! Sənubərin qəfil ölümü elə bil Miskin Abdalı havalandırmışdı. Dünyada gözünə heş nə görünmürdü. Dərdini, ününü kədər dolu sazına, sözünə, bir də göz yaşdarına vermişdi. O sazı yenə basdı sinəsinə. Yanıxlı-yanıxlı elə bir "Göyçə şikəstəsi" çaldı kı, gəl görəsən. Sazın bu sızıltısına otdarın başı qıvrıldı., adamların başındakı tüklər biz-biz oldu. Miskin Abdal özündə, sözündə deyildi. Çala-çala başdadı bir-birinin ardınca bayatıları zilə çəkməyə:

Mən aşıx, saza neylim?
Nəs gələn yaza neylim?
Öldü, qaldım zuluma,
Bu gəlin-qıza neylim.

Ağlaram, ağım ağlar,
Sol yanım, sağım ağlar,
Bülbüləm dar qəfəsdə,
Bağbansız bağım ağlar.

Təmizləyin axırı,
Tez qaytarın naxırı,
Bəlkə gəlif çatıbdı,
Bu dünyanın axırı.

Ağ suları sonalım,
Otağı zər xanalım,
Kimə dedi sözünü,
Barmaxları xınalım?

Teyim-teyim teylədim,
Bu qışı yaz eylədim.
Ayırdı yardan məni,
Bu fələyə neylədim?

Təbrizdən gələn gəlin,
Danışıf gülən gəlin,
Əhdinə xilaf çıxdın,
Və'dəsiz ölən gəlin.

Yer-göy qara dumandı,
Haqqa qalan gümandı,
Təbrizə xəvər verin,
Göyçədə ah-amandı.

Ovçular çıxır ova,
Kədikdə tapır yuva,
Maralınnan ayırar,
Ceyranı qova-qova.

Saza qara bağlaram,
Sinələri dağlaram,
Gejə-gündüz ah çəkif,
Zulum-zulum ağlaram.

Miskin Abdalın bu nalәsinə qulaq asannarın hamısı suya döndü. Atası Məhəmməd kişi gördü kü, yox, oğlu heç özündə döyül. Belə getsə Miskin Abdaldan da əli üzüləjək. Oydu ku, qavağa yeridi, əlini oğlunun boynuna salıf nə qədər dil tökdüsə, heş bir xeyri olmadı. Miskin Abdalın dilinnən "Sənubər" kəlməsi düşmürdü. Oğlunu belə görəndə ata ürəyi paralandı, göyüm-göyüm göynədi... Baxdı kı, Abdala elə-belə söz keşmir. Ona görə də üzünü oğluna tutuf aldı görək nə dedi:

Sənsən mənim nuri-didəm,
Ağlama, oğul, ağlama.
Gəl eyləmə mənə sitəm,
Ağlama, oğul, ağlama.

Aldı Miskin Abdal:

Dağılıfdı xanımanım,
Ağlaram, ata, ağlaram,

Nə qalır, nə çıxır canım,
Ağlaram, ata, ağlaram.

Aldı Məhəmməd kişi:

Bu nə ahdı, bu nə ündü,
Yanar çırağımız söndü,
Yaradanın üzü döndü,
Ağlama, oğul, ağlama.

Aldı Miskin Abdal:

Yar oduna qalanmışam,
Dolmamışdan calanmışam,
Torpaxlarda yalanmışam,
Ağlaram, ata, ağlaram.

Aldı Məhəmməd kişi:

Məhəmmədə etmə zulum,
Bağlanıfdı gedər yolum,
Özüm sana qurvan olum,
Ağlama, oğul, ağlama.

Aldı Miskin Abdal:

Abdal deyər: ölüm haxdı,
Sənubərsiz həyat yoxdu,
Nə qədər ki, canım sağdı,
Ağlaram, ata, ağlaram.

Elə bil bu sözdər Miskin Abdala bir balaca tə'sir elədi. O, ahnaləsinə ara verdi. Camaat əl-ayağa düşüf Sənubərin cənazəsini kənd qəvirstannığına apardılar. Burada dağ-daş, yer-göy yenə də Miskin Abdalın başına dolandı. Gözdərinə qarannıx çökdü. Gördü kü, bayax heç olmasa, Sənubərin cəsədinə baxa bilirdi. İndi qara torpaxlar onu da udajax. Götürdü görək "Abdalı" saz havasınnan öz dərdini nejə dilə gətirdi:

Gördüm yarım bir quş oluf uçufdu,
Haray çəkən, qəm ağlıyan elim vay.

Bu dünyadan din-imanım köçüfdü,
Gülşənimdə bülbül ağlar, gülüm vay.

Sular axıf doldurufdu çuxuru,
Hara gedir bu dünyanın axırı?
Heç açılmır fəndi-feli, paxırı,
Həftəm ağlar, ayım innər, ilim vay.

Eynim yaşı çıldır-çıldır süzülər,
Bu sitəmnən yazıx canım üzülər,
Kədər köçü sinəm üstə düzülər
Gejə-gündüz ağı deyən dilim vay.

Sədaqəti haxdan gələn payıydı,
Gözəlliyi Züleyxaya tayıydı,
Abdal deyər, on dörd günnük ayıydı,
Sənubər tək ölüf gedən gəlin vay.

Sözdərini axıra çatdırıf Miskin Abdal bir az rahat oldu. Adamlar cənazəni torpağa endirəndə Sənubərin anası Səlbinaz elə bir şivən, elə bir haray qopardı kı, az qaldı qulaxlar tutulsun. Bu harayı eşidən göydə uçan quşdar da az qala qanad saldılar. Ağılar dil açıf yerə-göyə meydan oxudu:

İtən biryolluq itdi,
Əli xınalım getdi,
Fələyə neyləmişdim,
Sinəmi dağ-dağ etdi.

Dünya gedir ha yana,
Bu ölüm bir bəhana,
Bir ah çəksəm qorxuram,
Od tutuf, aləm yana.

Qanadsız quşam indi,
Möhnətə tuşam indi,

Bu dərdi kimə deyim?!
Dil bilməz daşam indi.

Səlbinaz bu sözdəri güjnən tamamlıya bildi. Dərin bir qəşş eləyib tir-tap yerə yıxılıf, huşunu itirdi. Adamlar onu salaca ilə evə gətirdilər. Xeyli gözdədilər, üz-gözünə su çilədilər, Səlbinaz ayılmadı ki, ayılmadı. Gördülər yox, bu heç dirilənə oxşamır. Qaldılar əl-ayaxda. Tez-tələsik yaxınnıxdan loğman-təbib çağırdılar. Loğman əlini Səlbinazın nəbzinə qoyuf dedi:

– Balam, bu adam diridən çox, ölüyə oxşuyur. Onun ürəyinin heyi qalmıyıf. Bunnan sağalıf adam olmaz. O ancax və ancax bir iki saat yaşıya bilər. Çünki ürəyi para-para oluf. Buna mən heç bir çarə eliyə bilmərəm.

Miskin Abdal loğmana yalvar-yaxar eliyif dedi:

– Əgər sən qaynanamı sağaltsan, səni dünya malınnan qani eliyəjəm. Nə bajarırsan əsirgəmə.

Loğman dedi:

– Bala, bildiklərimin hamısını elədim. Onu sağaltmax mümkün deyil. Ancax belə bir şey eliyərəm. Məndə bir dərman var, onu burnuna tutaram ayılar. Bəlkə deyəsi bir sözü-savı var, onu deyər.

– Eybi yoxdu, heç olmasa, qoy vəsiyyətini eliyə bilsin. Bəlkə də doğrudan da ürəyində demədiyi bir sözü qalıf. Sonra da nə olar, olar.

Loğman civinnən bir dəstə ot çıxartdı. Onu həvəng-dəstədə un kimi əzdi, sonra bir çimdik gətirif Səlbinazın burnuna tutdu. Səlbinaz gözdərini aşdı. Hamı buna sevindi. Gözdərinnən axtarıf Miskin Abdalı tafdı. Əlinnən işarə elədi ki, yaxın gəlsin. Miskin Abdal özünü tox tutuf onun baravarına gəldi. Səlbinaz dili tutar-tutmaz dedi:

– Oğul, allah bilir mən səni özümə kürəkən yox, oğul bilirdim. Neyliyək, bəlkə də qismət beləymiş. Olacağa çarə yoxdu. Qəzadan qaşmax olmaz. Alnımıza nə yazılıfsa, onu da görəjiyik Ancax mənim qızımı gorvagor dədəsi İlan Mahmudun qarğışı tutdu. Ona min təsbah nəhlət olsun. Mənim bu dünyamı da, o dünyamı da yandırdı. Bu yastıxdan qalxası döyüləm. Sənubərsiz yaşamax istəmirəm. Mən öləndə Sənubərin yanında basdırarsan. Ancax ölməmişdən qavax sinəmdə bir neçə xanə var, onu demək istiyirəm. Mən deyim, sən də yaxşı-yaxşı qulaq as.

Aldı Səlbinaz:

Tərsinə dolandı fələyin işi,
Sinəmdə Sənubər dağı gedirəm.
Dəydi qayalara çərxin-gərdişi,
Sinəmdə Sənubər dağı gedirəm.

Aldı Miskin Abdal:

Fələk dara çəkdi qara baxtımı,
Sinəmdə Sənubər dağı qalıram.
Yerinnən uçurtdu təxti-butamı,
Sinəmdə Sənubər dağı qalıram.

Aldı Səlbinaz:

Naz ilə böyütdüm, cana qıymadım,
Üstünə qonmağa qubar qoymadım,
Hüsnü-kamalınnan dadar doymadım,
Sinəmdə Sənubər dağı gedirəm.

Aldı Miskin Abdal:

Özüm də bilmirəm nəydi günahım,
Eşqimdə olmuşdu yar qibləgahım,
Yerləri, göyləri yandırar ahım,
Sinəmdə Sənubər dağı qalıram.

Aldı Səlbinaz:

Bu da bir qismətdi, bu da bir yazı,
Döndü viranəyə ömrümün yazı,
Gəl görmə günahkar sən Səlbinazı,
Sinəmdə Sənubər dağı gedirəm.

Aldı Miskin Abdal:

Qalmayıb Abdalın səbri-qərarı,
Qəlbində yar dağı, yar intizarı,
Yalanmış dünyanın dövləti, varı,
Sinəmdə Sənubər dağı qalıram.

Söz tamama yetməmiş Səlbinaz gözdərini birdəfəlik yumdu. Ha çığırdılar, ha hayladılar Səlbinaz bir daha gözdərini aşmadı kı, aşmadı. Səlbinaz ölüf yüz ilin ölüsünə qarışmışdı. Miskin Abdalın dərdi biriydi, oldu min. El-ova yığışdı. Səlbinazı aparıf qızının yanında dəfn elədilər.

Günnlər ötüşdü. Hərə bir yana çəkilif getdi. Çox vaxt Miskin Abdal evdə tək qalırdı. Fikirdən, xəyaldan ayrıla bilmirdi. Atası-anası onu güjnən ovundururdu. Sazını qırmızı köynəyinnən çıxardıf qara köynəkdə saxladı. Ömrünün sonuna qədər sazının qara köynəyini soyundurmadı. Bunu bilən aşıxların, sazandaların hamısı öz sazdarının qırmızı köynəyini dəyişif qara köynəyə saldılar.

Sənubərin dərdi Miskin Abdalı lap əldən-dildən salmışdı. Dörd divar içinnən bir yana çıxmır, ağrısını-ajısını saza-sözə söylüyürdü. Onun yanına təsəlli vermək üçün gələn tay-tuşdarı da Miskin Abdalın dərdini yüngülləşdirə bilmirdilər. Anası Növrəstə gördü kü, oğlu üzülüf əldən gedir. Gəlif ona nə qədər yalvar-yaxar elədisə bir xeyri olmadı. Axırda əlacı kəsilif qoşa hörüyünü sinəsinə basıf aldı görək nə dedi:

Butanın dərdindən oluf divanə,
Ah çəkif, dad edif, ağlama, oğul.
Bir sönən çırağa oluf pərvanə,
Bu qədər yasını saxlama, oğul.

Miskin Abdal gördü kü, anası onu sakitdəşdirməyə çalışır. Ancax bunnarın xeyri yoxuydu. Miskin Abdalın dərdi özünə bəsiydi. Ona görə də anasının cavavında aldı görək nə dedi:

Nə qədər canımda canım var mənim,
Sənubər deyərək ağlaram, ana.
Yıxıfdı evimi nakam yar mənim,
Ölüncə yasını saxlaram, ana.

Növrəstə gördü yox, oğlu heç yola gələnə oxşamır. Başdadı söhbətin səmtini bir az dəyişif onun qəlbini ələ almağa. Aldı görək sözün o biri xanəsində nə dedi:

Yayılıf hər yana səsin, sorağın,
Şeyda bülbülüsən bağçanın, bağın,
Yazılsın, qalmasın bəyaz varağın,
Sazına qaralar bağlama, oğul.

Anasının son sözdəri Miskin Abdalın qəlbinə yaman toxundu. Bu dəfə o, "Göyçə şikəstəsi" üstündə elə bir ah çəkif, elə bir nalə qopartdı kı, daha nə deyim:

Qalmıyıf ürəkdə eşqim, həvəsim,
Kəsilif taqətim, titriyir səsim,
Nə saz günahkardı, nə pərdə, nə sim,
Sazıma qaralar bağlaram, ana.

Miskin Abdalın belə yanıxlı-yanıxlı oxumağı Növrəstəni daha da kövrəltdi. Oğluna yazığı gəldi. Elə bil sinəsinə çalın-çarpaz dağlar çəkildi. Aldı sözünün tafşırmasında görək oğluna nə dedi:

Çoxdu Növrəstənin cövri-məlalı,
Dərdini çəkməkdən qalmıyıf halı,
Dedim ki, halımdan olasan halı,
Sinəmi çal-çarpaz dağlama, oğul.

Anasının qəlbini ovutmaq üçün Miskin Abdal özünü ələ alıb görək nə dedi:

Mən sənə söylüyüm, sən də ol halı,
Qəmlər içindədi Göyçə mahalı,
Elə yazıx bilmə oğlun Abdalı,
Yağılar sinəsin dağlaram, ana.

Bunnan sonra Miskin Abdal sazını köynəyinə qoydu. Düz bir il sazı köynəkdən çıxarmıyıf qurulu kərdəyin üstünnən asdı. Nə atası Məhəmməd kişi, nə anası Növrəstə xanım, nə də bu evə ayax basannarın heş biri boş qalmış qırmızı kərdəyin üstündəki qara köynəkli saza baxa bilmirdilər. Baxannarın da gözdəri yaşnan dolurdu. Çoxu da özünə saxlıya bilmiyif göz yaşdarını leysan kimi

axıdırdı.

Bir il beləjə keşdi. Bir ildən sonra Miskin Abdal çox götür-qoy elədi. Dünyanın əzəlini-axırını fikirrəşdi. Baxdı kı, yox, dünya elə belə gəlif, belə də gedəjək. Oturuf dərd-qəm çəkməknən, ah-uf eləməknən, nalə-fəryad qoparmaxnan nə gələni əyləmək olur, nə də gedəni qaytarmax. Ona görə də öz-özünə belə fikirrəşdi ki, onsuz da Sənubərin dərdi yaddan çıxası dərd döyül. Ancax bunnan baravar evdə qapanıf qalmax da olmaz. Atam, anam da yazıxdılar. Onnarın da baxıf-baxacaxları bir odu. Bu heç Allaha da xoş getməz. Bir də axı, o, nəsilbənəsil bavalarınan ona miras qalan dini məzhəbi yayıf başa çatdırmalıydı. Axı, onun üstündə böyük bir yük, boynunda dünya boyda bir deyin varıydı.

Bu xəyallar içində o, üzünü Allaha tutuf dedi: "Sənnən qüdrətdi, sənnən qüvvətdi heş kim, heş bir qüvvə yoxdu. Hər şeyin yaradıcısı sənsən. Hər şeyi yoxluxdan təkcə sən yaradırsan. Nə qədər ömrüm var, yalnız sana qovuşmax üçün yaşıyajam. Ömrüm boyu din-məzhəb yolunun Miskini, Abdalı olajam, Ya qadir Allah!" Sonra əlini atıf sazını köynəkdən çıxartdı. Başdadı yavaş-yavaş dınqıldatmağa. Gördü kü, sazın kökü pozuluf. Baş pərdə üstündə sazını köklədi. İlk çaldığı hava "Sənubəri" oldu və başdadı bunnarı oxumağa:

Yıxdın könlüm şəhrini,
Dad fələk, aman fələk!
İçdim hicran zəhrini,
Zülm etdin yaman, fələk!

Qara geyifdi sazım,
Nə oxuyum, nə yazım...
Nakam qaldı murazım,
Vermədin aman, fələk!

Zülm olmaz beyləsinnən,
Qoru şər hiyləsinnən,
Abdalın naləsinnən
Bir diksin, oyan, fələk!

Sonra da "Miskini" söz havasında bunnarı oxudu:

Aləmi-röyada bir bağça saldım,
Gülünnən qoxladım yar deyə-deyə.
Çəkdim hasarını alovdan, oddan,
Dolanıf yoxladım yar deyə-deyə.

Nakam Sənubərim birdən nejoldu?!
Bəxtin üzü döndü, niyə kəj oldu?
Bu eşq bay olmadı, axır heç oldu,
Canda can saxladım yar deyə-deyə.

Bir də görünmədi bulax başında,
Öldü qar-borannı ilin qışında,
Axtardım mən onu çeşmim yaşında,
Sellər tək çağladım yar deyə-deyə.

Sazım qara geydi, çala bilmədim,
Dərdim canda yandı, gülə bilmədim.
Ölmək istəsəm də, ölə bilmədim,
Könüllər dağladım yar deyə-deyə.

Sənubərin dərdi əydi qəddimi,
Çağırdım köməyə, çatsın cəddimi.
Ağladım, sızladım, aşdım həddimi,
Qaralar bağladım yar deyə-deyə.

Abdalam, itirdim din-imanımı,
Dərbədər eylədim var gümanımı,
Göylərə yetirdim ah-amanımı,
Hər yanda ağladım yar deyə-deyə.

Bunnan sonra "Abdalı", "Göyçə şikəstəsi", "Göyçə döndərməsi" və başqa yanıxlı saz havaları dil aşdı. Çaldıxca elə bil dərdi bir az yüngülləşdi. Özündə, içində bir dinşdik, rahatdıx hiss elədi. Onun sazının səsini ilk dəfə atası-anası eşitdi. Onnar inanmadılar. Elə bildilər qulaxlarına səs düşüf. Səs gələn tərəfə yaxınnaşıf gördülər

ki, yox, bu xəyal deyil, Miskin Abdalın sazının səsidi. Özü də sazı sinəsinə elə sıxıf kı, elə bil uzun illər boyu həsrətnən balasını gözdüyən ana öz övladını bağrına basıf. Elə bil onun bu dünyadan xəvəri yoxdu. Heş kimə, heş nəyə baxmadan havalardan havalara keçir. Ata-ana əllərini göylərə qaldırıf Allaha dualar elədilər, şükürrər oxudular. Bildilər ki, hamısını eliyən Allahdı. Hər şey bir onun əlindədi. Ulu yaradan zavallı ata-ananın yalvarışdarını, dualarını yerdə qoymuyuf. Miskin Abdalın niskilli könlündə bir umud çırağı yandırıf. Sənubərin bir illik yasınnan sonra Miskin Abdal ilk dəfəydi ki, əlinə saz alırdı. Hamı Məhəmmədnən Növrəstəyə gözaydınnığı verdi. Qurvannar kəsildi, nəzir-niyazdar paylandı. Qohum əqrava, istiyif-bilən Miskin Abdal olan otağa keşdi. Miskin Abdal onnarı görüf ayağa qalxdı. Hamıya xoş gəldin elədi. Baxdı kı, sevinşdən valideynnərinin, qohum-qonşularının gözdəri yaşnan doluf. Miskin Abdal da kövrəldi. Ancax özünü toxtatdı. Göz yaşdarını bir təhər gizdətdi. Anası irəli yeriyif oğlunun boynuna sarıldı. Onu duz kimi yaladı. Sonra yazıx-yazıx Miskin Abdalın üzünə baxıf dedi:

– Boyuna, buxununa, adına-sanına, sazına-sözünə qurvan olum, ay oğul. Bu insafı, mürvəti sənin ürəyinə salan Allaha da qurvan olum, ay bala. Nə yaxşı oldu, bizə yazığın gəldi. Dərddən, qəmnən, silkinif çıxdın.

– Ana, bunnarın hamısı qadir mövlamın işidi, Onun qismətinə min şükür. Ürəyimdə bu umud çırağını yandıran da odu. Nə deyim vallah, Allah özü bilən yaxşıdı.

Növrəstə mə'nalı-mə'nalı oğlunun gözdərinin içinə baxıf dedi:

– Oğul, dərdin alım, olarmı bunnan sonra sazını qırmızı köynəyinə geydirəsən? Mən istəmirəm ki, oğlumun sazı qara köynəkdə olsun.

Miskin Abdal dərinnən bir köks ötürüf dedi:

– Ay ana, sazı mən saz elədim. Sazın pərdələri mənim əlimnən cana gəldi. Mənnən başqa heş kim sazda bircə hava da çalmıyıf. Sazın köynəyini Sənubərin ölümü qara rəngə boyadı. Bu rəng həmişəlik saza Sənubər naləsinnən, fəryadınnan, nakamlığınnan bir yadigar olarax qalajax.

Miskin Abdalın bu cavavınnan sonra Növrəstənin deməyə sözü qalmadı. O günnən başdıyarax Miskin Abdal yavaş-yavaş adam

içinə, tay-tuş arasına çıxdı. Elin-ovanın söz-söhbətinə, dərdinə-sərinə qarışdı. Ev işdərində atasının-anasının yaxın köməkçisi, həmdəmi oldu.

Aradan xeyli keşmişdi. Hər iş öz qaydasında gedirdi. Miskin Abdalın ata-anası gəlin, nəvə üçün darıxırdılar. Bilmirdilər öz fikirrərini oğullarına nejə çatdırsınnar. Bir gün xeyli düşünüf-daşınıf belə qərara gəldilər ki, bir bəhanəynən ürəklərini Miskin Abdala aşsınnar.

Anası dedi:

– A bala, biz nə qədər işdiyəjiyik. Tək işdəməkdən laf təngə gəlmişik. İşdəməsək də olmur. Mən evdə gəlinin də işini görürəm. Neyləyək, Allahın qismәti beləymiş. Tək sənin başında döyül, ha. Yüzü oluf, biri də bu. Nə qədər yasdı qalmağ olar? Nə çoxdu elimizdə, obamızda qız. Birini özün sev-seç. Biz də el adətinnən elçi gedif toy eliyək. Biz də istiyirik ki, doyunca gəlin buyuruf, çağırax. Nəvə boyunu sevək, əzizdiyək.

Daşdan səs çıxdı, Miskin Abdaldan səs çıxmadı. O, dərin fikir-xəyal içində ötən günnərini xatırrıyır, içində aranı-dağa, dağı-arana aparırdı. Onun susduğunu, cavaf vermədiyini görən atası xeyli ürəklənif dedi:

– Anan düz deyir, ay bala, bir bizə də yazığın gəlsin. Yaş ötüf keçir. Kimi, nəyi gözdüyürsən? Neyləyək. Allahın buyurduğu beləymiş. Daşı tök ətəyinnən, sözümüzü yerə salma. Bizim də murazımız, arzu kamımız var. Böyük bir nəslin ojağını kor qoymax olmaz. Bizim umudumuz, pənahımız axı təkcə sənsən.

Miskin Abdal atası Məhəmməd kişiyi diqqətnən dinniyənnən sonra ağır-ağır dilləndi:

– Ay ata, ay ana siz ikiniz də mənim əzizim, iki gözümüzsünüz. Sizin sözünüzdən çıxmağı Allah da mana bağışdamaz. Hələ tezdi. Gözdüyüfsünüz, bir az da gözdüyün. Fikirrəşif qəti sözümü deyərəm.

Məhəmmədnən Növrəstə Miskin Abdalın bu sözünnən bir az rahatdandılar, ürəklərində bir ümid çırağı yandı. Onnar otaxdan yarı xoşhal çıxdılar. Öz aralarında bu söhbəti genə də götür-qoy elədilər. Məhəmməd kişi dedi:

– Arvad, deyəsən oğlumuz bir az yumşalıf. Əvvəllər bu sözü eşidəndə daş atıf, başını tuturdu. Şükür olsun Tanrının birdi-

birriyinə. Deyəsən, yavaş-yavaş yola gəlir.

Növrəstə dedi:

– Ay kişi, zarafat döyül, oğlumuz Sənubər kimi yarını, cannan artıx sevdiyi butasını itirif. Bu yara soyumalıdı, ya yox? Halal süd əmmiş uşaxdı. Razılığa gəlmiyif, neyliyəjək. Bir gün özü də başa düşəjək ki, dünya belə gəlif, belə də gedir. Onda hər şey düzələjək.

Məhəmməd kişi dedi:

– Təki sən deyən olsun, arvad.

Hər ikisi yenə də əllərini haqqın ətəyinnən üzmədilər, ulu Tanrıya şükürrər eliyif, dualar oxudular. Miskin Abdala bu təklifi başqaları, tay-tuşdarı da tez-tez eliyirdilər. Miskin Abdal da qəlbində Sənubər nisgili hamısına yarıkönül "hə" desə də, evlənmirdi ki, evlənmirdi... İşi, güjü telli sazını götürüf, yaxın-uzaq ellərə, ovalara getmək, öz ürək sözdərini camahata çatdırmax, onnarı haqqın ulu dərgahına səsdəməyiydi. O, bu məqsədnən Göyçədən çox-çox uzaxlara da ayax aşmışdı. Günnər ötüşdükcə o daha çox tanınır, daha çox sevilirdi. Bu yol artıx onun həyatının mə'nasına çevrilmişdi. Onun bu əməlləri Allah-taalanın da xoşuna gəldi. Öz sevimli bəndəsinə səxavətini əsirgəmədi.

Bir gejə Miskin Abdal yatıf aləmi-röyada gördü kü, güllü-çiçəkli uca bir dağın başındadı. Ordan baxanda dünyanın hər yanı ap-aydın, ovuc içi kimi görünürdü. Birdən onun yanında gözəl bir köhlənin üstündə, nurani bir şəxs peyda oldu. Onun üzündəki nur dörd yana işıx saçırdı. Ədəfnən salam verif, əleyk aldı. Sonra atdan düşüf mehriban-mehriban Miskin Abdala baxıf dedi:

– Oğul, məni tanıyırsanmı?

Miskin Abdal özündə güj tapıf, onun üzünə, günəş ziyası qədər işıxlı gözdərinə baxıf cəsarətnən dedi:

– Yox, bava.

Həmin şəxs dedi:

– Miskin Abdal, bil və agah ol, darda olannarın dadına çatıf, onnara kömək eliyən Həzrəti Əli mənəm. Allahın şiri, on iki imamlarının əvvəlincisiyəm. Mən sana böyük Yaradanın misilsiz payını, qismətini gətirmişəm. İndi mana diqqətnən qulaq as. Dediklərimi yadınnan çıxartma.

Bunnan belə Sənubərdən ötrü dad-fəryad eliyif nə özünə, nə də valideynnərinə, əziyyət vermə. Sənubərin ruhu sənin bu

hərəkətdərinnən incik düşür. Bu heç qadir Mövlaya da xoş getmir. Sənin taleyində əlli yaşında ikinci dəfə evlənmək qismətin var. Dörd uşağın olajax – üç oğlan, bir qız. Ağlınnan, kamalınnan şahlıx səltənətində yüksək mərtəbələrdən birinə çatajaxsan. Uzun ömür yaşıyajaxsan. Min-bir xətadan, bəladan qurtarajaxsan. Sazınnan-sözünnən ürəkləri ovsunnuyajaxsan. Haqq dünyasına doğma ata-baba yurduna qovuşacaxsan. Bunnar bir yana; Allah-taala tərəfindən heç kəsə nəsib olmuyan bir halal qismətin də var. Bu qismətin sana əlçatmaz bir ujalıx gətirəcək, müqəddəs bir övliya məqamına yüksələjəksən. Sınaxlı adam kimi aləmdə məşhur olajaxsan. Nə qədər çətində, darda qalsan ulu tanrı səni hər cür bəladan hifz eliyəjək. Müqəddəs bir övliya kimi özünnən sonra da zaman-zaman yaşıyajaxsan. Sənin adın, şöhrətin özünnən sonrakı nəsillərinin də başını uca, alınlarını açıx eliyəjək.

İndi isə dediklərimə yaxşı-yaxşı qulaq as. Sübh tezdən bazara gedərsən. Orada sənin qismətinə bir at var. Tutqun qırmızı rəngdə olan bu köhlən atası od, anası yel olan dəniz aygırınnan törüyüf. Həmin atı axtarıf tafmax o qədər də çətin olmuyajax. Çünki at səni bazarda görən kimi kişniyif üstünə gələjək. Atın sahibi sənnən pul almax istəmiyəjək. Sən atın pulunu artıxlamasınnan ver. Ata layiq yəhər, yüyən alarsan. Sonra ifçin nallatdırarsan. Belinə qalxıf yüyənini buraxarsan. O yel kimi sən bir su içimində evinizə gətirəjək. Atın ağzındakı dili haçadı. Ona görə də atının adını "Haçadil" qoyuram. Bu atın yerişinə, duruşuna hamı heyran qalajax. Çox padşahların gözü onda olajax. Ancax o sənin qismətindi. Həmin gün gecə yarı hava qara buluddarnan örtüləjək. Güjdü göy gurultusunnan az qala qulaxlar tutulajax. Aramsız ildırım çaxajax, göz-qamaşdırıcı şimşəklər oynuyajax. Bu dəhşətdi gejədə güjlü bir ildırım sənin yaşadığın evin arxasındakı qayanın başına düşəjək. Onun zərbəsinnən qaya parça-parça oluf ətrafa dağılajax Qayadan qopan iri daş parçalarınnan nə sizin, nə də yaxınnıxdakı qonşuların yaşadıxları evlərə heş bir xata dəymiyəjək. Bunnan sonra birdən-birə qara buluddar yox olajax, hava tamamilə açılajax. Sübh namazına az qalmış göydən, Allah-taala tərəfindən sana müqəddəs bir ojax nazil olajax. Hiss eliyəjəksən ki, namaz otağında dörd künc kiçik taxta təknə var. Həmin təknəni əlinə götürməmişdən əvvəl üç dəfə salavat çöyür. Bu sənin övliyaya çevrilməyinin ilk nişanəsidi. Savah

sübh açılanda gejə ildırım dağıdan qayanın yanına qalx. Buraya bütün kənd əhli toplaşajax. Orada siz bir mö'cüzə görəcəksiniz. Dağılmış qayanın altındakı iri bir daşın arasından su axajax. Bu sənin adınnan bağlı əbədi bir çeşmədi. Həmin çeşmənin yanında kiçik bir çinar ağacının zoğunu görəjəksiniz. O ildən-ilə böyüyüf böyük bir ağaca çevriləjək. Hər adna axşamı şər qarışannan sonra burda qəyifdən bir şam yanajax. Adamlar dağılmış iri qaya parçalarınnan yaxınnıxdakı evlərə heç bir zərər toxunmadığını görüf heyrət edəjəklər. Sən qəyifdən yaranan bu dum-duru, durna gözü kimi təmiz bulaq suyunnan hamıdan qavax bir qav götürüf evə gəti və qəyifdən sana nazil olmuş taxta çanağa tök. Soyux su burda özözünə qaynamağa başdıyajax. Bu mö'cüzə hamıyı heyrətə gətirəjək. Sonra sən hamının gözü qarşısında çanaxdakı çeşmə suyunu axıra qədər içif qurtararsan. O günnən sən böyük yaradanın yanında müqəddəs bəndə hesav ediləjəksən. O günnən sənin cəddin olajax. Müqəddəs nəfəsin adamlara xeyirxahlıx gətirəjək. Adını çağırannar darda qalmıyajax. Səsin-sorağın aləmi başına götürəjək. O günnən başdıyarax hər yerdə sənnən danışajaxlar. Ojağının qonax-qarası kəsmiyəjək. Hər gün bu ojaxda neçə-neçə qurvannar kəsiləjək. Xoş niyyətnən bu ojağa təşrif gətirənnərin üzünə çanağa tökülmüş bulax suyu qaynıyajax. Bəd əməlli adamlar ojağa gələndə, su tərpənmiyəjək, ləm durajax. Bu ojax könüllərin məlhəmi, insannarın and yeri olajax. Sən dünyadan köçənnən sonra da adın zaman-zaman yaşıyajax. Sənin dediyin sözdər, yaratdığın saz havaları göstərdiyin mö'cüzələr səni əbədi yaşadajax.

Bunnarı deyif həmin nurani şəxs birdən-birə qeyvə çəkildi. Miskin Abdal ayılıf ha axtardısa, həmin adamı bir daha görə bilmədi. Bu vaxt onun gözdərini göydən təzəcə boylanan günəşin zərrin şüaları işıxlandırdı. Elə bil günəş Allahın bu sevimli bəndəsinə özünün nur payını verirdi.

Hər gün o başdan oyanan Miskin Abdal bu gün günəş çeşdə qalxana qədər yatdı. Bunnan atası Məhəmməd də, anası Növrəstə də bərk narahat oldular. Bunu eşidən yaxın-uzax qonşular da tökülüf gəldilər. Ağsaqqal, ağbirçəklər, dünya yoruf-yola salannar ata-anaya ürək-dirək, təskinnik verdilər. Bir də baxdılar kı, budu Miskin Abdal yuxudan ayıldı. O dörd yanını adamlarnan dolu görüf təəccüfləndi. Sonra anladı kı, məsələ nə yerdədi. Miskin Abdal qalxıf geyindi.

Sonra gördüyü yuxuyu hamıya söylədi. Bu yuxudan elə həyacannanmışdı ki, fərəhinnən bilmirdi neyləsin. Əlini atıf divardan asılmış sazı götürdü. Zilini zil, bəmini bəm eliyif aldı görək özdərdi-dilini nejə izhar elədi:

Bu gejə vayğamda gördüm Əlini,
Səni pir sahibi görürəm, – dedi.
Gülüb, kürəyimə vurdu əlini,
Ömrünə bir çələng hörürəm, – dedi.

Allahın şiriyəm, bir bax didəmə,
Qoru din-məzhəbi, olmaz sədəmə,
Dolan bu dünyanı, yoruldum demə,
Dalında dağ kimi dururam, – dedi.

Sərində ağıl var, qüvvət qolunda;
Mələklər qoruyur sağı-solunda,
Seyidsən, dərvişsən haqqın yolunda,
Abdala hax payı verirəm, – dedi.

Eşidənnərin hamısı bu işə lap mat-məhəttəl qalmışdı. Gördülər ki, doğrudan da elə bil Miskin Abdalın üz-gözünə nur çilənif. Bunnarı görüf eşidən valideynnərin sevinşdən uşmağa bir qanaddarı yoxuydu. İndi anası Növrəstə yaqın elədi ki, oğlu gej də olsa evlənəjək. Atası Məhəmməd sevindi ki, Miskin Abdal hax yolunun yolçusu olajax. Ona görə də atası tez Abdalın atını yəhərriyif yüyənnədi. Özünə də xeyli pul verif bazara yola saldı. Kənddən bir neçə tay-tuş da Abdala qoşuluf kənddən bir iki ağac uzaxlıxda olan Basarkeçər bazarına at sürdülər. Kənd adamları onnarı gözdən itənə qədər izdədi. Bunnar bazara getməkdə olsunnar. Sizə kimnən xəvər verək Göyçənin Qızılvəng kəndində olan Əhməddən. Əhməd kişi istiqannı, qohumcannı, öz tükünün üstündə dolanan adamıydı. Vardövlətdən də qisməti pis deyildi. Həmişə Allahın qoyduğu yolnan getdiyinnən qadir mövla onun ruzisini bol eliyirdi.

Əhməd kişinin cins at nəslinnən bir madyanı varıydı. Əhməd kişi də bu atını lap çox istiyirdi. Madyanın yerişinə, duruşuna söz ola bilməzdi.. Nəmərə də duranda bütün mənəm-mənəm deyən atdarı

geridə qoyardı. Hamı bu atın dayçasını ələ keçirmək üçün əldən-dildən gedirdi.

Əhməd kişinin madyanının yenə də höyürə, dalafa gəlmək vaxtı çatmışdı. At bir həşirə qalxmışdı kı, gəl görəsən. Əhməd kişi nə qədər eliyirdi atı axşamlar tövlüyə sala bilmirdi. Madyan harada erkək at görürdüsə, kişniyə-kişniyə dörd nal ora qaçırdı. Əhməd kişi razı deyildi ki, madyanı dalafını kənddəki ayğırrardan yığsın. Ona görə öz-özünə götür-qoy eliyif belə qərara gəldi ki, savah madyanı Göyçə gölünün kənarındakı sıx meşəliyə-ormannığa aparsın. Çünki burada cins ayğırrar çoxuydu. Elə də elədi. Elə ki, Əhməd kişi madyanı Göyçə gölünün sahilindəki sıx meşəliyə, ormannığa gətirdi, bir də gördü kü, burada nə qədər ayğır varsa hamısı atın dörd yanındadı. Onnar hingilləşir, bir-birini gəmirir, hər biri özü madyanın belinə sıçramax istiyirdi. Madyan da kişnəyə-kişnəyə sahil boyu o başa bu başa qaçırdı, ayğırrar da dalınca.

Əhməd kişi bilmirdi neyləsin. Elə bu vaxt gördü kü, uzaxdan meşəlikdən qonur rəngli bir ayğır çıxdı. Madyana aman vermiyən erkək atdar bu ayğırı görən kimi qulaxlarını şəkləyif, yerrərində donuf qaldılar. Qonur ayğır madyana doğru sür'ətnən gəlirdi. Onu görəndə madyan da ayğıra tərəf qaşdı. Meşədən çıxan ayğır madyana çatıf cəld onun belinə sıçrıyıf dalafını aldı və atın belinnən düşüf gəldiyi tərəfə yel kimi çapıf bir anın içində meşədə görünməz oldu. Əhməd kişi elə bil yuxu görürdü. Madyan sakitdəşdi. Bayaxkı erkək atdar daha madyana yaxın gəlmirdilər. Uzaqdan-uzağa peşman-peşman onu imsiliyirdilər.

Günnər keşdi, aylar ötdü, vaxt düzəldi. Əhməd kişinin madyanı bir kürük doğdu. Kürük elə gözəliydi ki, baxmaxdan doymaq olmurdu. Vaxt ötdükcə kürük yekəlif dayça, qulan oldu. Eldə, ovada hamının gözü bu qulandaydı. Qulana çox adam müştəriydi. Amma Əhməd kişi onu heş kəsə satmax istəmirdi. Məqsədi onu özünə saxlamağıydı. Elə ki, qulan üç yaşar oldu, Əhməd kişi istədi ki, onu minməyə öyrətsin. Qulan artıq ürgə olmuşdu. Yorğa yerişinə, qaçışına hamı həsəd aparırdı.

Əhməd kişi nə qədər çalışdısa ürgənin beləni sıçrıya bilmədi. Ürgə bir göz qırpımında onun əlinnən çıxıf uzaxlara qaşdı. Kəndin mənəm-mənəm deyən oğulları ürgənin nə belinə yəhər qoya bilir, nə də minə bilirdilər. Əhməd kişi çar-naçar qalıf ürgüyü satmağı

qərara aldı. Bazar günü bir at minif ürgəsini də yedəyinə alıf gəlif çıxdı bazara. Bazarda nə qədər adam vardısa, töküldü ürgənin başına. Onu almaq istiyən də, istəmiyən də ürgüyə həvəsnən, maraxnan baxmağa başdadı. Qiymətini soruşdular. Almaq istiyənlər istədilər ki, ona əl vursunlar ürgə göydə oynadı.

Əlqərəz, Əhməd kişi ürgəsini bazara gətirdiyinə də peşman oldu. Elə bu vaxt bazarın qiblə tərəfinnən bir neçə atlı göründü. Bu Miskin Abdal və onun yoldaşdarı idi. Ürgə onları görən kimi ucadan kişniyif Əhməd kişinin əlinnən çıxdı və bir göz qırpımında atdara çatdı. Miskin Abdal tez atdan düşdü. Ürgən ona yaxınnaşıf başını Miskin Abdalın üzünə söykədi, onu qoxuladı. Bunu görənnər mat qaldılar. Miskin Abdal öz atının yüyənini yoldaşlarına verif ürgənin ipək kimi yalmanından tutuf onun sahibinin durduğu yerə gəldi. Buradakı adamlardan çoxusu Miskin Abdalı yaxşı tanıyırdı. Qalanları isə onun kim olduğunu hələ bilmirdi. Bayaxdan ipə-sapa yatmıyan, hamıyı zinhara gətirən ürgə quzuya dönmüşdü. Əhməd kişi də işləri belə görüf yerindəcə lal-dinməz qalmışdı. Bilmirdi ki, bu gördükləri yuxudu, yoxsa nədi?

Miskin Abdal Əhməd kişidən razılıx alıf ürgüyü nalvəndin yanına apardı. Nalvəndin balaca oğlu ürgənin ayaxlarını bir-bir qaldırdı. Nalvənd də onu nalladı. Miskin Abdal nalvəndin pulunu artıxlamasınnan verdi. Bunu görənnər deməyə söz tapa bilmiyif başdarını buladılar. Miskin Abdal getdikcə onnarın gözdərində böyüyürdü. Sonra Miskin Abdal pulunu verif bazardan zər-ziba bəzəkli, gümüş üzəngili bir yəhər, bahalı məxmərdən tərrik, ipəkdən çul, zər-naxışdı yüyən aldı. Ürküyü yəhərrədi. Quşqununu, qayışını yerbəyer elədi. Xurcununu, sazını yəhərin qantcırğasına bağladı. Ürkənin gözəlliyi birə beş artdı. Miskin Abdal Əhməd kişinin də pulunu artıxlamasınnan verdi. Elə istiyirdi ki, sıçrayıf yəhərin üstünə qalxsın, bu vaxt yadına ürgənin dilinə baxmax düşdü. O əlləri ilə ürgənin ağzını açanda Əhməd kişi elə düşündü kü, Miskin Abdal ürgəni yaşdı at bilif dişinə baxmax istiyir. Qorxdu ku, müştəri ürgüyü qaytarar, onun zülmü ərşə dirənər. Ona görə tez-tələsik dedi:

– Oğul, a bala, dişinin nəyinə baxırsan? Üş yaşındadı.

Miskin Abdal Əhməd kişinin fikrini başa düşüf qımışarax dedi:

– Əmi, narahat olma, mən atın dişinə yox, dilinə baxıram.

Əhməd kişi dedi:

– A bala, bəlkə mən yaşdaşmışam, qulaxlarım yaxşı eşitmir. Bir de görüm, nə deyirsən?

– Əmi, mən bilən bu ürgənin dilinin ucu haça olmalıdı. Deyirəm, görüm doğrudumu?

Əhməd kişi dedi:

– Ay oğul, atın da dili haça olarmı? Mən bunu birinci dəfədi ki, eşidirəm.

Miskin Abdal atın ağzını aşdı. Gördü kü, doğrudan da onun dilinin ucu haçadı. Bunu hamıya göstərdi.

Əhməd kişi narazı halda astadan dedi:

– A bala, qaytarırsan qaytar, pis mal yiyəsinindi.

Miskin Abdal dedi:

– Əmi, at mənimdi. Bu ürgüyü mana bu gejə yuxumda qismət eliyiflər. Onun dilinin haça olmağını da yuxumda dedilər.

Əhməd kişinin üstündən elə bil ağır bir dağ götürüldü. Miskin Abdalın bu sözünü eşidənnər maddım-maddım onun üzünə baxmağa başdadılar. O gördü kü, hamının gözü onun üzündədi. Ona görə də buradan sazsız-sözsüz getməyi heç özünə rəva görmədi. Əlini uzadıf yəhərin qaşınnan asdığı sazını götürdü, basdı sinəsinin üstünə. Bu dəm "Haçadil" yanıxlı bir kişnərti qopardı. Elə bil o da Miskin Abdalın sazının, sözünün həsrətindəymiş. Miskin Abdal telli sazını "Göyçə qaytarması" ("Göyçə döndərməsi") üstündə köklüyüf aldı görək Haçadilinə nə dedi, biz nə eşitdik:

Dillərdə söylənər hünərin, adın,
Hər mənzil başına çatsan, Haçadil.
Bir gündə yetərsən abi-göysərə,
Gejəni gündüzə qatsan, Haçadil.

Od atsan, yel atsan, deyə bilmərəm,
Sənnən özgəsini öyə bilmərəm,
Düşmənin qəddini əyə bilmərəm,
Sayıxlıq etmiyif yatsan Haçadil.

Qoyma sən Abdalı yaddar içində,
Düşsən də yanmazsan oddar içində,

Köhlənnər, ayğırrar, atdar içində,
Adınnan sən manşır atsan, Haçadil.

Miskin Abdal sözünü tamamlıyıf sazını köynəyinə qoydu və atın yəhərinin qantırğasına bağladı. Buradakılarnan görüşüf bir quş kimi sıçrıyıf qalxdı atın üstünə. Yoldaşlarına da dedi ki, mən getdim, siz də mənim atımı gətirif dalımca gəlin. O, ürgənin yüyənini buraxdı. Ürgə elə bil quşdan qanad aldı. Qırxbulax kəndinin altınnan, Qoşabulaq kəndinin üstünnən bir nəfəsə keçif Zərgərrinin qənşərindəki "Darama" deyilən çətin keçidi olan bir qayalığa çatdı. Buradan da quş kimi sıçrıyıf özünü Məhəmməd kişinin qapısına çatdırdı. Buraya toplaşıf yol gözdüyənnər görəndə ki, Miskin Abdalın yuxusu çindi. Sevindiklərinnən bilmədilər nə eləsinnər. Doğrudan da Haçadil atın gözəlliyinə baxmaxdan doymaq olmurdu. Elə bil Allah-taala bu atı Miskin Abdalın boyuna qismət eləmişdi.

Qərəz, bir xeyli keçənnən sonra Miskin Abdalın o biri dostdarı da gəlif çıxdılar. Miskin Abdalın yuxusu hər yerə şüdd oldu. Gejə heş kəs yatmadı. Gejənin bir vaxtı bir də gördülər ki, Miskin Abdal dediyi kimi, bir anda göyün üzünü qara buluddar aldı. Şiddətdi göy gurultusu az qalırdı qulaxları dağıtsın, aramsız şimşəklər göz qamaşdırırdı. Birdən elə bir ildırım şaqqıldıyıf qayaya düşdü kü, o boyda yekə qaya çilik-çilik oluf hər yana səpələndi. Nə başınızı ağrıdım, Miskin Abdal söylədiklərinin haması çin oldu. Atası savah müqəddəs ocax nişanəsi olan su çanağını eşiyə çıxardıf, onun qavağında bir çöngə, bir neçə öyəc, burma qoçdan qurvan kəsdi, gələnə-gedənə payladı, bir tikəsini də özünə saxlamadı.

O günnən " Miskin Abdal ocağ"ı adamların sidq ürəknən çağırdıxları iman, güman yeri oldu. Nəzir-niyaz deyənnərin, qurvan gətirənnərin dilək diliyənnərin, sayı günnən-günə artmağa başdadı. Miskin Abdal oldu din, məzhəb yolunun əsl miskini və abdalı. El-el, ova-ova, oymaq-oymaq gəzdi. Sazının, sözünün dili ilə niyyətini, ürəyinnən keçənnəri yaymaxda davam elədi. Qonşu mahallara üz tutdu. Hara getdisə də hörmətnən qarşılanıf, izzətnən də yola salındı.

Bir gün Miskin Abdal yolunu Dərəçiçək mahalına saldı. Dərəçiçəyə xəvər çatdı kı, Göyçəli Miskin Abdal onnarın torpağına təşrif buyuruf. Elə bil mahalda toy-bayram oldu. Elin ağsaqqalları bu

tanınmış, addı-sanı ojax sahibinin pişvazına çıxdılar. Onun ayağının altında qurvannar kəsdilər. Hamı onun yaydığı dini-məzhəbə iman gətirməyə hazır olduğunu bildirdi. Ancax bir dəstə adamın qəlbinə şeytan girmişdi. Onnar and işdilər ki, neçə ki, Miskin Abdal bir mö'cüzə göstərmiyif, ona iman gətirmiyəjəklər. Bunu eşidən Miskin Abdal göstəriş verdi. Meydanın ortasında elə bir tonqal qaladılar kı, uju gedif ərşə çatdı. Sonra qujağına bir qumral quzu aldı. Üzünü ulu tanrıya tutuf dodaqaltı nəsə pıçıldadı və quzu qujağında alovun içinə girdi. Ojax söndü. Miskin Abdal qujağında da qumral quzu sağ-salamat ojağın qorunun içinnən çıxıf buraya toplaşannarın arasına gəldi. Hamı heyrətdən yerində donuf qalmışdı. Həmin inamsız adamlar Miskin Abdalın ayaxlarına döşənif onnan imdad dilədilər, günahlarını bağışdaması üçün onnan dönə-dönə təvəqqe elədilər. Miskin Abdal onnarın günahınnan keşdi. Onun böyüklüyünü, müqəddəsdiyini Allahın sevimlisi olmasını nəzərə alıf bu kəndin adını "Miskin" qoydular. Miskin Abdalın bu mö'cüzəsinin sorağı hər yana yayıldı. O, Göyçə mahalına xoş xəvərnən qayıtdı. Artıx Miskin Abdalın əlli yaşı düzəlirdi. Bunu yadınnan çıxartmıyan Növrəstə oğluna dedi:

– A bala, indi sözün nədi? Əlli yaşındasan. İndi də evlənmək istəmirsən? Allaha ağır gedər, bala. İzin ver toy tədarükündə olax.

Miskin Abdal şəstnən dedi:

– İzindi, ana.

Elə ki, Miskin Abdalı ikinci dəfə evlənməyə razı saldılar, başdadılar qız sorağında olmağa. Çox dərs-görs, çox çək-çevir, çox götür-qoydan sonra belə qərara gəldilər ki, soraqlaşıb bu dəfə qızı Göyçə elindən alsınnar. Gecəni yatıb səhər elədilər. Məhəmməd kişi gecə yuxusunda nə görmüşdüsə də oyanan kimi Uzun Qasımı çağırtdırıf dedi:

– Qasım, minərsən Haçadil ata, cilovunu buraxarsan. Harda yorulsanız at özü dayanacaq. Dincəlin, sonra yola düşün. At hansı eldə, ovada, kənddə, şəhərdə dayanıf ucadan kişnəsə, bilki Miskin Abdalın qisməti oradadır. Bundan sonrakını Allah bilir.

Uzun Qasım dedi:

– Baş üstə, Məhəmməd qağa.

Tez tələsik Uzun Qasıma yol tədarükü gördülər. Ona bir saz da verdilər. O da Haçadil atın belinə sıçrayıb yola düşdü. Uzun Qasım

Məhəmməd kişinin dediyi kimi elədi, buraxdı atın cilovunu. Yorulanda dincəldilər, at çiçəkli otdardan otdadı, Qasım çörək yedi, su işdi, yenə yola düşdülər. Gəldilər, gəldilər, nəhayət gəlib Ağrı dağın ətəyindəki İrəvan şəhərinə çatdılar. Şəhərin bir küçəsi ilə gedirdilər ki, birdən Haçadil dayanıb bərkdən kişnədi. Bu vaxt yaxınnıqdakı dükandan bir tacir eşiyə çıxdı. O, bir Qasıma baxdı, bir çiynindəki saza, bir də altındakı ata. Gördü kü, bu, heç bura adamlarına oxşamır, qərifdir, özü də deyəsən pis adam deyil. Sazını da görüf, lap müştax oldu. Yaxınnaşıb soruşdu:

– Aşıq, yoxsa qərifsən?

Qasım dedi:

– Bəli, tacir ağa.

Tacir:

– Haradansan?

Qasım:

– Göyçədən.

Göyçə sözü eşidəndə elə bil tacirin çiçəyi çırtdadı. Dedi:

– Aşıq, bu axşam mənim qonağımsan.

Qasım:

– Baş üstə, tacir ağa.

Tacir dedi:

– Aşıq, adım Ziyaddır. Özü də Güney məhəllədə yaşayıram. Kimdən soruşsan evimi göstərəjək. Gün batannan sonra yolunu gözdəyirəm.

Qasım dedi:

– Baş üstə, tacir Ziyad.

Uzun Qasım lap cavan vaxtdarından Miskin Abdalın yanında idi, aşıqlıq etməsə də özünə görə çalıf-çağırmağı bilirdi. Nejə deyərlər, lazım gələndə çulunu sudan çıxarırdı.

Qərəz, deyilən vaxt Uzun Qasım oldu tacir Ziyadın qapısında. Onu çox mehribanlıqla və gülər üzlə qarşıladılar. Tez-tələsik atını yerbəyer elədilər, özünə dünyanın bütün nazı-ne'mətlərindən yemək-işmək verdilər. Bu vaxt aşıq sözünü eşidən qohum-qonşular da tacir Ziyadın evinə toplaşmışdılar. Oradan-buradan bir az söhbət edəndən sonra tacir Ziyad dedi:

– Aşıq, bu uşaq-böyük buraya səndən ötrü toplaşıblar. Bir az çalıb-oxuyarsanmı?

Qasım dedi:

– Baş üstə, tacir Ziyad.

Uzun Qasım sazını köynəyindən çıxardıf, başdadı çalıf oxumağa. Hamısına da Miskin Abdaldan oxudu. Miskin Abdalın adını eşitdikcə hamının Qasıma hörmət-izzəti birə-beşə artdı. Nəhayət, gecənin bir vaxtı tacir Ziyad üzünü adamlara tutub dedi:

– Aşıq, yol gəlif, yorğundur, oxuduğu bəsdir, izn verin dincəlsin.

Bunu eşidif adamlar razılıq edif dağılışdılar. Tacir Ziyada da elə bu lazım idi. Yenidən gəlib oturdu Qasımla üz-üzə, dedi:

– Aşıq, əvvəl-əvvəl de görüm adın nədir?

Qasım dedi:

– Tacir Ziyad, mənim adım, Qasımdır, özü də ayamam da var, mənə balaca vaxtından Uzun Qasım deyirlər.

Tacir Ziyad bu sözü eşidib gülümsünüf dedi:

– Aşıq Qasım, yorğun olsan da bağışla. Madam ki, deyirsən Miskin Abdalla həmişə bir yerdə olubsunuz. O adam haqqında çox eşitmişəm, ancaq hələ ki, üzünü görməmişəm. Ya qismət... Gəlsənə, Miskin Abdaldan mənə əməlli-başlı söhbət eliyəsən.

Uzun Qasım dedi:

– Tacir Ziyad, atalar deyib ki, igidin adını eşit, üzünü görmə. İnşallah, Tanrı qismət edər görüşərsiniz də... Bunu deyib Qasım başdadı Miskin Abdal haqqında nə bilirdisə də, hamısını bir-bir danışdı. Qasım sözünü qurtarar-qurtarmaz tacir Ziyad dərindən bir köks ötürdü. Bunu görən Qasım soruşdu:

– Tacir Ziyad nə üçün belə köks ötürdün?

Elə bil tacir Ziyad bu sözə bənd imiş. Dedi:

– Aşıq Qasım, təxminən eyni hadisə mənim də başıma gəlib.

– Uzun Qasım dedi:

– Necə?

Tacir Ziyad dedi:

– Aşıq Qasım, dərdim uzundur. İndi mən deyim, sən də eşit, hər yanda danış. Mənim yeddi oğlum, bir qızım var. Ağrı dağın həndəvərində, İrəvan mahalında qızımın gözəlliyi hamını mat qoymuşdu. Hələ on dörd yaşa çatmamış elçilər qapımızı yağır elədi. Hamısına da "yox" dedik. Bir-iki il də bu minvalla ötdü. Gördük yox, olmur, qızın da vaxtıdır, məcbur olub doğma xalası oğluna nişanladıq. Üç il də nişanlı qaldı. Dördüncü il toy tədarükündə

olduq. Elə ki, toy təzəcə başlamışdıq, xəbər çıxdı ki, oğlan yatıb, qalxmayıb. Toy vaya döndü. O vaxtdan qızım qara bağladı. Əhd etdi ki, ömrü boyu heç kəsə ərə getməyəcək. Nə az, nə də çox, on ildir ki, qızım qara bağlıyırdı. Nəhayət, onu dilə tutduq, razılaşdıq ki, bu inadından əl çəksin, qismət olsa bir halal süd əmmişə ərə getsin.

Bunu eşidəndə elə bil uzun Qasım yatmışdı, ayıldı. O saat barmağını dişlədi ki, Məhəmməd kişi gördüyü yuxu elə bu imiş. Səbrini basa bilməyib dedi:

– Tacir Ziyad, bil və agah ol, mən aşıq-zad deyiləm. Məqsədim soraqlaşıb Miskin Abdala bir halal süd əmmiş qız tapmaqdır. Məni buraya Miskin Abdalın atası Məhəmməd kişinin yuxusu gətirib çıxardıf. İndi razı qalsan Göyçə elinə bir şad xəvər apararam.

Qasımın bu sözləri elə bil tacir Ziyadın ürəyindən imiş. O dərhal arvadını, qızını və oğlanlarını çağırdı. Əhvalatı onnara danışdı. Hamısı da bu işə çox ürəkdən sevindi. Qız da e'tiraz etmədi. Qasım gördü kü, qız doğrudan da Miskin Abdala layiq qızdır. Adını soruşdu, dedilər Həlimədir. Danışıb razılaşdılar ki, elçilər gələn kimi toya başdasınnar. Yola düşərkən uzun Qasım dedi:

– Tacir Ziyad, mindiyim at Miskin Abdalındır. adı da Haçadildir. Allah qoysa axşama evdəyəm. Bir-iki günə gəlirik. Allah mübarək eləsin! Toya hazırlaş.

Bunu deyib üz tutdu. Göyçə tərəfə Uzun Qasım axşama demişdi, ancaq Haçadil onu hələ xeyli erkən evə çatdırdı. Xoş-beşdən sonra bildilər ki, Uzun Qasım xoş xəvərlə gəlif. O gördüklərini, eşitdiklərini ətraflı danışdı. Elə səhərisi gün İrəvana yola düşdülər.

Aradan bir neçə gün keçməmişdi, tacir Ziyad bir də gördü ki, toy adamları özdərini yetirdi. Xoş-beşdən sonra onnara ədəflə yer göstərdilər. Əhval-pürsan oldular. Baxdılar ki, doğrudan da Miskin Abdal adına layiq adamdır. Üz-gözündən abır-ismət, nur yağır. Özü də ona heç əlli yaş vermək olmaz. Otuz -otuz beş yaşında oğlannara oxşayır. Qərəz, başdadılar toya. Tacir Ziyad düz yeddi gün-yeddi gecə toy çaldırdı. Toyda bir təlxək də varıydı. O yeddinci gecə üzünü Miskin Abdala tutub zarafatnan dedi:

– Ustad, mənim bu kar qulaqlarım eşidif ki, tacirin qızı Həlimə xanım səni bəyənmir.

Bunu eşidəndə Miskin Abdal da güldü. Bildi ki təlxək nə demək istəyir. Ona görə də sazı sinəsinə basıb dedi:

Ay dilbilməz neyləmişəm,
Yandırırsan oda məni.
Cəllad isən al xəncəri,
Gecə-gündüz buda məni.

Qara bəxtim qış gətirdi,
Başıma min iş gətirdi,
Bir tacirə tuş gətirdi,
Ucuz satdı yada məni.

Qoxlamadım qızılgülü,
Aldı məni qürbət eli,
Həlimənin fitnə-fe'li,
Saldı eldən cida məni.

Mən Miskin Abdal olmuşam,
Dərd əlindən saralmışam,
Allah, nə günə qalmışam,
Bəyənməyir bu da məni.

Söz tamama yetişəndə hamı Miskin Abdalın kamalına əhsən dedi. Bir az da gülüşdülər. Ustad baxdı ki, Həlimə bir haldadır, day demə. Elə bil on dörd gecəlik aydır ki, duruf. Dodaqları gül qönçəsinə, yanaqları laləyə bənzəyir. Elə bil ki, məclisdə bir gün doğub ki, bu da odur. Özü də şala bürünüb. Bu arada təlxək yenə sözə başdadı, dedi:

– Ustad, sən lap mənim dədəmi yandırdın. İndi bir de görək qız xoşuna gəldi, ya yox? Olarmı ki, bu Ağrı dağın nərgizini aparasan, ancaq onun haqqında bircə qatar gözəlləmə deməyəsən. Daha onda sənin adın niyə Miskin Abdaldır.

Miskin Abdal arif idi. Təlxəyin nə dediyini annayıb Həlimə xanımın tərifini belə dedi:

Dodaqları gül qönçəsi,
Yanaqları lala yarım.
Kölgən gələndə gün qaçar,
Sən bəlasan, bəla, yarım.

Tanrı səni var edibdi,
Mən aşiqi xar edibdi,
Fələkləri kar edibdi,
Çəkdiyim ah-nala, yarım.

Miskinin şirin sözüsən,
Cümlə gözəllər gözüsən,
Ağrı dağın nərgizisən,
Bürünmüsən şala, yarım.

"Afərin" sədaları göyə ucaldı. hamı Miskin Abdalın hünərinə heyran qaldı. Onun ömrünə dualar oxudular, toya "mübarək" dedilər.

Səhərisi gün gəcavə Göyçə tərəfə üz tutdu. Gəlif nəhayət Zərgərri kəndinə çatdılar. burada da toy çaldırıf şadyanalıq etdilər. Həlimənin kəbini Miskin Abdala kəsildi. Növrəstə xanım toy gününün sonunda oğlunun boynunu qucaxlıyıf üzünnən-gözünən dönə-dönə öpüf dedi:

– Arzum gözümdə qalmadı, bundan sonra ölsəm də dərdim olmaz, ay oğul!

Toy qurtardı. Başdadılar şad-xürrəm yaşamağa. Bunnar burada deyə-gülə yaşamaxda olsunnar, sizə hardan xəvər verək, Təbrizdən, Şeyx Heydərin yeganə sağ qalan züryəti İsmayıldan. Elə ki, İsmayıl on dörd yaşında oldu, baxdı kı, bütün elmləri sinədəftər eliyif açarını da qoyuf civinə. Gördü kü, düşmənnər at oynadır, ölkə parça-parça oluf dağılır. Ölküyü xilas eləmək, düşmənnərdən qisas almaq məqamının yetdiyini görüf, qoşun topladı özü də oldu sərkərdə. Qoşun atdanıf üz tutdu Azərbaycanın şimalına. Bu səfəri haradan başlamaq məsələsi ortuya çıxanda Hüseyn Lələ bəy əllərini sinəsinə qoyuf kamali-ədəfnən İsmayılın qarşısında baş əyif dedi:

– Ya mürşüdüm, məsləhət görürəm ki, Göyçədən keçək. Bu yol sənnən ötrü həm əlverişdi, həm də çox gərəklidi. Çünki Göyçə başdan-başa şiə məzhəbinə qulluq eliyir. Burada atan Şeyx Heydərin, bavan Şeyx Cüneydin, ulu bavan Şeyx Səfiəddinin nəsil-nəsil davam edən yaxın dostdarı, müridləri var. Səfəvilərin dini təriqətlərini həm Göyçədə, həm də onnan çox-çox uzaxlarda yayılmasında can qoyuflar. Bu addı-sannı nəslin son yetirməsi Miskin Abdalın

hünəri heç dilnən deyiləsi döyül. Allahın sevimli bəndəsidi, müqəddəs ojax sahibidi. Saz çalmaxda söz qoşmaxda ad çıxardıf. Özü də böyük kəramət sahibidi. Gözəllik beşiyi olan Göyçənin adamları bütün varlığınnan Səfəvilərə, saza-sözə bağlıdı. Minnərnən göyçəli sənin yolunda canınnan keşməyə çoxdan hazırdı.

Hüseyn Lələ bəyin bu sözdəri elə bil gənc İsmayılın ürəyinə təpər, qollarına qüvvət, dizdərinə taqət gətirdi. Göyçəyə olan məhəbbəti birə-beş artdı. Qoşuna əmr elədi ki, Çuxur Sə'ddən keçif, Səlim kədiyinnən aşıf Göyçüyə üz tutsun. Qoşun hərəkətə gəldi. Günə bir mənzil, teyyi-mənzil, çoxlu dağlar, dərələr keçif, axır kı, gəlif "Qarannıx" deyilən bir yurda çatdılar. Bura artıx Göyçə mahalıydı. İsmayıl gördü kü, ayə, Lələ hələ az deyif, bura lap behiştin özüdü. Gül-gülü çağırır, bülbül-bülbülü. Üzük qaşı kimi sıralanmış dağların ortasındakı durna gözdü göl könül oxşuyur. İsmayıl Göyçənin gözəlliyinə baxıf lap hayıl-mayıl oldu. Bunu görən Hüseyn Lələ bəy İsmayıla yaxınnaşıf soruşdu:

– Ya mürşüdüm, necədi, Göyçə dediyim kimi varmı?

İsmayıl gözdərini Göyçənin gözəlliyindən çəkmiyif dedi:

– Lələ, Göyçə sənin dediyinnən da artığıymış.

Lələ dedi:

– Ya mürşüdüm, hələ bu gördüklərin nədi ki, buranın öz mö'cüzələri var.

İsmayıl dedi:

– Nədi o mö'cüzələr?

Lələ dedi:

– Mürşüdüm, icazə ver, qoşunu yerbə-yer eliyim, sonra gəlif hamısını danışaram.

İsmayıl dedi:

– İzindi, Lələ.

Hüseyn Lələ bəy dərhal göstəriş verif çadırrarı qurdurdu. Yol gəlmiş qoşun dincəlməyə başdadı. Özü isə geri qayıdıf İsmayılın qənşərində duruf danışmağa başdadı:

– Ya mürşüdüm, gördüyün bu göl adı dillərdən düşmüyən Göyçə gölüdü. Bu göl öz suyunu durna gözdü bulaxlardan alır. Bu göldə "Qızıl balıx" adında dünyada tayı-baravarı olmuyan balıxlar var. Çox şahlar, sultannar o balıxdan ötrü sinoy gedillər. Deyillər bu göldə bir erkək dərya atı da var. Bu at hər yeddi ildən bir yaz vaxtı sulardan

qırağa çıxır, ilk rastına çıxan ilxıda bir madyana yaxınnaşır və dərhal da geriyə qayıdıf suların qoynunda görünməz olur. Əgər bu dəniz ayğırınnan əmələ gələn kürük doğulan günnən sonra qırx gün müddətində qarannıx yerdə saxlanarsa, daha doğrusu, işıx üzü görməzsə bu dayçanın qanaddarı olar. Ona quş da çatammaz. Ya Mürşüdüm, bu gözəl gölün başqa başqa bir sirri də var. İsmayıl dedi:

– Nədi o sirr?

Lələ dedi:

– Gedək göstərim.

Onnar birrikdə gölün sahilinə endilər. Lələ yerdən bir daş götürüf gölün suyuna batırdı və qarşıdakı qayaya atdı. Daş qayaya dəyən kimi yapışıf orada qaldı. Bunu görən İsmayıl lap mat-məhəttəl qaldı. Özü də bir neçə daşı gölün suyuna batırıf qayaya atdı. Atdığı daşdarın hamısı yapışıf qayada qaldı. İsmayıl soruşdu:

– Lələ, bu mö'cüzəli yerin adı nədi?

Lələ dedi:

– Ya mürşüdüm, bu adı sən qoyajaxsan!

İsmayıl dodaqaltı bir neçə dəfə öz-özünə "at daşı", "at daşı" dedi. Sonra üzünü ləliyə tutuf söylədi:

– Lələ, qoy bu yerin adı "At daşı" qalsın.

Lələ dedi:

– Ya mürşüdüm, bunnan da gözəl ad ola bilərmi?

Onnar geriyə, çadıra qayıtdılar. Lələ dedi:

– Ya mürşüdüm, Göyçənin başqa bir sirri də var.

İsmayıl dedi:

– Lələ, o mö'cüzələri, o sirrəri də söylə.

Lələ dedi:

– Ya mürşüdüm, Göyçədə "Qoşabulax" addanan bir yer var. Hər yeddi ildən bir, gejə vaxtı göylərdən bu bulağa bir göz qırpımında nur axır. Bu nurun tə'sirinnən bulağın suyu aşıf-daşır, köpüklənir. Həmin vaxt hər kim bu sudan işsə, onun köpüklü suyunda çimsə ömrü boyu naxoşdamaz, gözəl səsi, qulaq batıran nə'rəsi olar, onun qollarının güjünə güj çatmaz.

İsmayıl dedi:

– Lələ, bu xoşbəxtdiyə kimsə çatıfmı?

Lələ dedi:

– Ya mürşüdüm, eşitməmişəm.

İsmayıl dedi:

– Bəs bu düşərgə saldığımız yerə niyə "Qarannıx" deyillər?

Lələ dedi:

– Bu sıra dağlar o qədər ujadı kı, axşama hələ xeyli qalmış, gün batmamış bu yerrərə kölgə düşür. Uzaxdan buralar qarannıx görünür. Ona görə də buraya "Qarannıx" deyillər.

İsmayıl dedi:

– Gəl söhbətimizin davamını saxlıyax sonruya. Durmax vaxtı döyül. Başımız söhbətə qarışar, vaxt ötər gejikərik. Allah qoysa, o qədər boş vaxtımız olajax kı. Gəlişimiz barədə Miskin Abdala xəvər göndərmək lazımdı.

Lələ dedi:

– Düz buyursan, ya mürşüdüm.

Hüseyn Lələ bəy İsmayılın göstərişinnən bir neçə nəfər atdı seçif Miskin Abdala xəvərə göndərdi. Atdılar yol getməkdə olsunnar, eşit Göyçə camahatınnan. Bir səhər adamlar qalxıf gördülər ki, Göyçəyə "Qarannıx" tərəfdən xeyli qoşun-ləşkər varid oluf. Camahat elə hesab elədi ki, yurddarına düşmən ayax basıf. Oydu ki, hər kənddə, hər kəsəkdə, hər ovada özünə gümanı gələn qeyrətdi oğullar dərhal dava livasını geyif ata süvar oldular. Gəldilər görsünnər ki, ağsaqqalları nə deyir bu işə. Davaya başdasınnarmı? Miskin Abdal gördü kü, yurdunun oğulları dəstə-dəstə axışıf gəlir. Bir azdan o qədər adam toflaşdı kı, ota, suya san varıydı, onnara yox. Özü də elə silahlanmışdılar kı, heş Rüstəm-Zalın da bunnara güjü çatmazdı. Altdan geyinif, üstdən qıfıllanmışdılar, üstdən geyinif altdan qıfıllanmışdılar. Hər birinin də gözdərinnən qan damırdı. Elə bir himə bəndiydilər ki, düşmənin hər tikəsini bir dərəyə səpələsinnər.

Miskin Abdal dünyagörmüş, çox hadisələrin şahidi olmuş bir adamıydı. O, qoşuna göz gəzdirif dedi:

– Uşaxlar, gəlin bir az səvirri olax. Biz tələsiklik eliyif özümüzü düşmən üstünə gedən kimi göstərərik. Birdən gedif görərik ki, gələn dostumuzdu. Utanıf, xəcalət çəkərik. Gəlin qavaxca adam göndərif məsələdən hali olax. Görsək ki, gələn yağıdı, onda davamız davadı.

Miskin Abdalın bu məsləhətinnən sonra hamı sakitdəşdi. Tez bir neçə adam ayırıf həmin yerə yola saldılar kı, örgənsinnər, bu gələn qoşun kimindi, nə məqsədnən gəlif?

Atdılar bir az gedənnən sonra bir də gördülər ki, qavax tərəfdən

bir-neçə atdı onnara tərəf gəlir. Onnar yaxınnaşıf salam verdilər, əleyk alannan sonra bildirdilər ki, bizi qoşun böyüyü göndərif. Onun bu elin ağsaqqalı Miskin Abdala ismarıcı var, onu çatdırmalıyıx. Gedənnər mənzil başına çatmamış həmin atdılarnan birlikdə geriyə qayıtdılar. Miskin Abdal, bir də qoşun əhli gördü kü, göndərdikləri atdılar budu yoldan yarı-yarımçıq qayıdıllar, özü də yannarında daha bir neçə atdı var. Axır onnar gəlif çatdılar, salam verif, əleyk aldılar. Qonaxlardan biri qavağa yeriyif dedi:

– Bizə, bu elin ağsaqqalı Miskin Abdal lazımdı.

Miskin Abdal bunu eşidif qoşunun arasınnan çıxıf mehriban-mehriban dedi:

– Əvvəla, siz burya xoş gəlif, səfa gətirifsiniz. İkincisi, axtardığınız Miskin Abdal mənəm. Nə sözünüz varsa, deyin, qulağım sizdədi.

Həmin adam dedi:

– Bizi buraya Şeyx Heydər oğlu İsmayıl göndərif. Bu qoşun da onundu. Biz də onun adamlarıyıx. Sizdərə xəvər göndərdi ki, narahat olmasınnar, dost elinə dostdar qonax gəlif.

Bu xəvəri eşidəndə elə bil Miskin Abdalın üstünnən bir ağır dağ qalxdı, başınnan duman ayazıdı. Qoşun əhli də rahat oldu, əllər qılınşdarın dəstəsinnən çəkildi. Hamı bu işə çox sevindi. Ən çox sevinən Məhəmməd kişiydi. O, irəli yeriyif oğluna dedi:

– Oğul, bilirsənmi İsmayıl kimdi? O bizim dədə-bava dostumuz Şeyx Heydərin oğludu. Dayıları İsmayılın anasını, dədəsini, qardaşdarını qətlə yetirdi. Dostdarı güjnən İsmayılı onnarın qılıncının ağzınnan qaçırdı, aradan çıxarda bildilər. İndi bu həmin İsmayıldı. Sən onun pişvazına, özü də əməlli-başdı çıxmalısan. Onnarı qonaq də'vət elə. Yolunuzu gözdüyürük.

Bunu eşidən Miskin Abdal gələn atdılara dedi:

–Siz gedin, biz də indijə gəlirik.

Atdılar atlarını dörd nala geriyə çapdılar. Miskin Abdal da qoşuna göstəriş verdi ki, yenidən atdansınnar, birlikdə gənc İsmayılı qarşılamağa gedəjəklər. Atdanarkən telli sazını, bir də başqa bir saz götürüf yəhərin qantırğasına bağladı, "Haçadil"in belinə qalxdı. Miskin Abdal qavaxda, qoşun-leşkər də dalda "Qarannığ"a İsmayılı qarşılamağa yola düşdülər.

Atdılar qavaxa gəlif İsmayılı məsələdən halı elədilər, sonra

Göyçə camaatının gülərüz, mehriban olduxlarınnan ürək dolusu danışdılar. Miskin Abdal haqqında nə qədər tə'rifli sözdər vardısa, dedilər.

Gözdəri yollarda olan İsmayıl və onun qoşunu bir də gördülər ki, Göyçədən gələnnərin qavağı açıldı. Ancax lap qavaxda bir adam gəlir, boyda, buxunda hamıdan seçilir. Atı özünə, özü də atına yaraşır. Zalım oğluna baxanda adamın qarnı doyur. Özü də yəhərinin qaşınnan bir, arxasınnan da başqa bir saz asılıf. İsmayıl nə qədər göz gəzdirdi, onda qılınc, qalxan görmədi. Axı, igidin qılıncı-qalxanı olar. Axı eşitmişik ki, Miskin Abdal həm də igid adamdı. İsmayılın ürəyinə dammışdı ki, bu adam Miskin Abdal olajax. O, lələsinin üzünə baxmadan, gözünü Miskin Abdaldan çəkmədən astadan soruşdu:

– Lələ, bu Miskin Abdaldı?

Lələ dedi:

– Bəli, mürşüdüm, başqa cür də ola bilməz.

İsmayıl dedi:

– Bəs onun yarı-yarağı niyə yoxdu?

Lələ dedi:

– Ya mürşüdüm, Miskin Abdalın qılıncı-qalxanı sazı-sözüdü.

İsmayıl dedi:

– Lələ, atı da çox yaraşıxlı atdı. Lap özünə layiqdi.

Lələ dedi:

– Ya mürşüdüm, eşitdiyimə görə onun atı, Göyçə gölündəki dərya ayğırınnan törüyüf.

İsmayıl maraxnan soruşdu:

– İndi bu at quş kimi uça bilər?

Lələ dedi:

– Yox, mürşüdüm, deyillər bu atın əvvəlki sahibi çox sonralar bilif ki, onun bu köhləni dəniz ayğırınnan törüyüf. Onu saxlıya bilməyif, aparıf bazarda satıf. Onu da Miskin Abdal alıf.

İsmayıl dedi:

– Lələ, Göyçənin miskini, abdalı budusa, görəsən oranın şahı, sultanı nejədi?

– Lələ dedi:

– Yə'qin ki, mürşüdümə bənzəri olar.

İsmayıl dedi:

– Heç bu da o böyük addan, sannan geri qalan döyül.

Söz İsmayılın ağzınnan təzəcə qurtarmışdı kı, Miskin Abdal öz qoşununnan baravar qonaxların baravarına çatdı. Ona İsmayılın çadırını göstərdilər. Miskin Abdalnan qoşun əhli atdan düşüf, İsmayıla tə'zim elədilər, qonaxlara xoş gəldin elədilər. Miskin Abdalın üz-gözünnən, baxışdarınnan yağan nur İsmayılı ovsunnamışdı. O, şəstnən ayağa qalxıf Miskin Abdala tərəf addımladı. Miskin Abdal da ona tərəf gəldi. İsmayılı doğma balası kimi bağrına basıf üz-gözünnən öpdü. İsmayıl da onu qucaxladı, əlini öpüf, alnına qoydu. Hamı bu mehriban görüşə mat qaldı. Miskin Abdal atının yəhərindəki ikinci sazı gətirif İsmayıla bağışdadı. İsmayıl bunnan çox xoşhal oldu. Sonra öz sazını sinəsinə basıf, görək şə'ninə qoşduğu "İsmayılı" saz havası üstündə əziz qonağına necə xoş gəldin elədi:

Və'də verdiyin ilqara,
Oğul, xoş gəldin, xoş gəldin!
Göyçə addı bu diyara,
Oğul, xoş gəldin, xoş gəldin!

Bura gələn bir də gələr,
Qəm çəkənin üzü gülər,
Pişvazına çıxıb ellər,
Oğul, xoş gəldin, xoş gəldin!

Sazın-sözün sirri burda,
İgid olan qalmaz darda,
Sana sadiq olan yurda,
Oğul, xoş gəldin, xoş gəldin!

Bu günümüz taydır ilə,
Toy-bayramdı bizim elə,
Lalə, nərgiz gəlib dilə,
Oğul, xoş gəldin, xoş gəldin!

Bəxt yazılıf hər alına,
Bax Abdalın əhvalına,

Gözəlliklər mahalına,
Oğul, xoş gəldin, xoş gəldin!

İsmayıl Miskin Abdalın hünərinə, qabiliyyətinə, mə'rifətinə, qanacağına heyran qaldı. Fürsət tapıf astadan Hüseyn Lələ bəy dedi:

– Lələ, bu ağıllı-kamallı, üzünnən nur yağan bu müdrik ağsaqqala necə müraciət eliyim?

Lələ dedi:

– Ya mürşüdüm, bu adam adı hər yerdə bəlli olan hörmətdi, böyük-kiçik yanında urvatdı bir adam, haqqın dərgahına ucalmış böyük bir övliyadı. O bütün elmlərdən halı olan məşhur bir ustaddı. Bəlkə də səhv edirəm, ustaddar ustadıdı. Yaxşı olar kı, Miskin Abdala "Ustad" deyə müraciət eliyəsən.

İsmayıl dedi:

– Lələ, çox düz buyurdun. Belə adamı ancax "Ustad" addandırmax olar. Hələ biz onun çox kəramətdərinnən xəvərsizik.

Lələ dedi:

– Elədi, mürşüdüm.

Söz tamama yetdi. Miskin Abdal sazını çiyninnən endirdi. Çaldığı hava İsmayılın lap sümüyünə düşmüşdü. O astaca lələdən soruşdu:

– Lələ, görəsən bu saz havasının adı nəydi.

Miskin Abdal onun pıçıltısını eşidif dedi:

– Mürşüdüm, bu saz havasının adı "İsmayılı"ydı. Sənin adına bağlamışam.

Bunu eşidəndə İsmayıl lap xoşhal oldu, dedi:

– Ustad, sağlıq olsun, vaxt gələr, əvəzini çıxarıx.

Miskin Abdal dedi:

– Oğul, mana sənin adın-sanınnan, sağlığınnan başqa heş nə lazım döyül. Mən dünyanın hər üzünü görmüşəm. Dünya malında da gözüm yoxdu. Nə qədər canımda can var, qayım-qədim dostumuzun nəslinnən olan İsmayılın yolunda hər cür qəza-qədərə, cəfaya dözəjəm. Onsuz da mən bu yolun miskini, abdalıyam. Mən bu yoldan dönən deyiləm. İsmayıl baxıf gördü kü, yox, Miskin Abdal çox ağıllı, kamallı adamdı. Hələ deyilənnərdən də artıxdı. Öz-özünə götür-qoy elədi ki, tale ona yar olsa, əlinə bar hökmrannıx keşsə, gərək Miskin Abdal kimi bir ağıllı adam heş vaxt yadınnan çıxarmasın.

İsmayıl bu fikir, xəyalda ikən Miskin Abdal üzünü ona tutuf dedi:

– Ya mürşüdüm, sən başda olmaxnan bütün qoşun mənim qonağımdı.

Dərhal İsmayıl qoşuna göstəriş verdi. Əvvəlcə Miskin Abdalla İsmayıl, sonra hər iki tərəfin igiddəri atdandılar. Onnar qavaxda, igiddər də arxalarınca Sarıyaquba doğru yol başdadılar. Gün hələ varkən Basarkeçəri keçif Sarıyaquba çatdılar. Onnarı hamıdan əvvəl Miskin Abdalın atası Məhəmməd kişi qarşıladı. Hamıya xoş gəldin elədi. İsmayılı qucaxlıyıf bağrına basdı. Sevincinnən gözdəri yaşardı. Oluf keçən günnəri xatırradı. Dərin bir köks ötürüf, İsmayıla dedi:

– Bala, özünü burada qəriv hesav eləmə. Sən mənim əziz dostumun, mürşüdümün oğlusan. Oluf keçənnərin hamısını yaxşı xatırıyıram. Bizim bu dədə-baba dostduğumuzun tarixi çox qədimdi. Sənin rəhmətdik ulu bavan, Şeyx Səfiəddinnən bizim ulu bavamız, "Zərgərli" tayfasının başçısı, öz zəmanəsinin addı-sannı ağsaqqalı kimi tanınan Yaqub çox yaxın dost oluf. Sonra da bu dostduğu Yaqubun oğlu İbrahim, onun oğlu İsmayıl, onun oğlu Əli, onun oğlu, mənim bavam olan Cəfər, mən və oğlum Miskin Abdal nəsil-nəsil davam etdirmişik. İnşallah, bunnan sonrakı nəsillərimizdə davam etdirəjəklər.

Məhəmməd kişini bu söhbətini İsmayıl onsuz da çoxdan eşitmişdi. Məhəmməd kişi oluf-keçənnər haqqında xeyli mə'lumat verdi. Sonra Miskin Abdal hamıyı qonaqlığa də'vət elədi. Burada elə bir toy-büsat, elə bir çal-çağır oldu ku, rüzigarın gözü belə şadyanalıx görməmişdi. Göyçə aşıxları bülbül kimi cəh-cəh vurur, çalıf-çağırırdılar. Aşıxların belə oxumağı İsmayılın lap xoşuna gəlirdi. Ürəyində götür-qoy elədi ki, qayıdan başı bu aşıxlardan bir neçəsini Təbrizə aparsın. Nə başınızı ağrıdım, o gejiyi beləjə kef-damaxnan aşdılar. Savah açılan kimi İsmayıl Miskin Abdala dedi:

– Ustad, bilirsən ki, bizim yolumuz uzaxdı. Atalar yaxşı deyif ki, yolçu yolda gərək. Sağlıq olsun, qayıdan baş belə yox, əməlli-başdı qonağın olarıx, sana daha böyük əziyyət verərik.

Miskin Abdal dedi:

– Ya mürşüdüm, sizin kimilərinin əziyyətini çəkmək həmişə bizə xoşdu. Allah özü köməyiniz olsun. İnşallah, siz bu torpağa qələbəynən qayıdajaxsınız. Bir məsləhətim də var.

İsmayıl dedi:

– Ustad, nədi o məsləhət?

Miskin Abdal:

– Ya mürşüdüm, məsləhət görürəm ki, Göyçənin azman, ərkən igiddərinnən də öz qoşununa qatasan.

İsmayıl Miskin Abdalın bu sözünnən çox razı qaldı. Onun sözünü yerə salmıyıf öz qoşununa xeyli göyçəli igiddərin də qatılmasına razılıx verdi. Qoşun yerinnən tərpənmək istiyərkən Lələ İsmayılın qulağına astadan nə isə pıçıldadı. İsmayıl dönüf Miskin Abdala dedi:

– Ustad, biz uzax, özü də çox mühüm bir səfərə gedirik. Səfərdən qavax sənin adına olan ojağı ziyarət eləmək, o müqəddəs çanağında baxtımızı sınamaq olarmı?

Miskin Abdal dedi:

– Niyə olmur, mürşüdüm.

İsmayıl başında bir neçə adamnan "Miskin Abdal ojağı"nı ziyarət elədi. Çanağa su töküf baxtını sınadı. Gördü kü, taxta təknəyə tökdüyü soyux su dərhal poqqa-poqqnan qaynamağa başdadı. Hamının üzü güldü. İsmayıl ucadan dedi:

– Böyük yaradanın izniynən qələbə biznəndi. Haydı igiddərim, atdanın. Bizi böyük qalibiyyət gözdüyür! Çünki biz müqəddəs bir insanın ağır ojağının adınnan döyüşdərə gedirik. İnşallah, bu torpağa xoş xəvərnən qayıdarıx!

İsmayılın bu sözünnən sonra qoşun atdandı. Bir azdan İstisu deyilən tərəfdən uja dağları aşıf gözdən itdilər. Miskin Abdalın ürəyinə dammışdı kı, İsmayıl yaxın vaxtdarda xoş müjdəli bir soraxnan gələjək. Elə də oldu. Aradan bir xeyli vaxt keşmişdi. Bir də bir gün sübh vaxtı gördülər ki, qıvla tərəfdən, İsti su tərəfdən, böyük bir qoşunun uju çıxdı. Qavaxda gələnnərin əllərində bayraxlar dalğalanırdı. Göyçədən qoşuna qatılannar toy-bayramnan qoşunun qavağında gəlirdilər.

Miskin Abdalın tafşırığnan el-ova onnarın pişvazına çıxdı. Miskin Abdalın onu belə dəm-dəsgahnan qarşılamağını görəndə İsmayılın ürəyi atdandı, üzünü Miskin Abdala tutuf ujadan dedi:

– Ustad, saz-sözün beşiyi bu Göyçə çuxuruna mütləq qələbəynən qayıtmalıydıx.

İsmayıldan bu sözdəri eşidən Miskin Abdalın ürəyi dağa döndü. Düzdü, o indiyə kimi Göyçə haqqında onnan-bunnan çox ulu tə'rifəlayiq sözdər eşitmişdi. Ancax İsmayılın sözdəri onun üçün çox qiymatdıydı. Oydu ku, dedi:

– Ya mürşüdüm, sənin qələbən bizim baş ucalığımızdı. Sənin zəfərin bütün göyçəlilərindi. İlk dəfə sənin ağzınnan eşitdiyim "Göyçə çuxuru" sözü mənim çox xoşuma gəldi. İzin versən, sinəmdə təzəcə yaranan "Göyçə çuxuru" saz havasınnan sana öz ürəyimdəkiləri bəyan eliyərdim.

İsmayıl həvəsnən dedi:

– İzindi, ustad, de gəlsin.

Miskin Abdal sazı köksünə sıxıf zilini-zil, bəmini-bəm elədi. Aldı görək nə dedi, biz də nə eşitdik:

Sən getdin hünərnən, gəldin zəfərnən,
Qurtardın elləri yasdan, İsmayıl.
Yolların bəzənsin xalıynan, zərnən,
Adına yazılsın dastan, İsmayıl.

Sən ki, getməmişdin nişana, toya,
Nə'rənə hay verdi hər dağ, hər qaya,
Səni qeyrətinnən bu qoja dünya,
Çəkirdi sınağa qəsdən, İsmayıl.

Demə ki, Abdalın meydanı dardı,
Qəlbinə Allahın sevgisi yardı,
Qolunda pələngin qüvvəti vardı,
Tülkü meydanında asdan İsmayıl.

Söz tamama yetən kimi hər yannan "Əhsən! Əhsən!" sədaları göylərə büləndoldu. Miskin Abdal irəli yeriyif İsmayılı doğma balası kimi bağrına basıf alnınnan öfdü, hünərinə min əhsən dedi.

Yol boyu söhbət elədikcə gözünü Göyçənin qənirsiz gözəlliyinnən çəkmiyən İsmayıl Miskin Abdaldan soruşdu:

– Ustad, adı zaman-zaman dillər əzbəri olan bu ulu yurdumuzun gözəlliyini birə-beş artıran bu dağların, dərələrin, qayaların, təpələrin addarını deyə bilərsənmi?

Miskin Abdal dedi:

– Ya mürşüdüm, istisular qaynayan dağlardan bu üzə aşdığınız yer "Uca dağ"ın ətəyidi. Bunnan o yana gördüyün geniş çəmənnik

Tərsə qoruğudu. Burya yağı qoruğu da deyillər. O biri dağların başında görünən o yer "Ağ qaya"dı. "Ağ qaya"nın o biri tərəfində, dərin sıx otdu-ormanı dərədə "Qoşa bulax" deyilən yer var. Özü də bu bulaxlar sınaxlıdı. İsmayıl dedi:

– Bəli, ustad görürəm, ora çənni, dumanı, çiskinnidi. Miskin Abdal yenə də söhbətinə davam elədi:

– Ya mürşüdüm, "Çənlibel"in baş tərəfinnən görünən ucu şivri dağa "Şişpilləkən" deyillər. Onnan o yana Səlimin gədiyinnən keçif bu üzə gəldiyiniz aşırımın adı "Qarannıx"dı.

Bu yerdə İsmayıl Miskin Abdalın sözünü kəsif dedi:

– Ustad, Qarannıxnan Göyçə gölü haqqında mana çox danışıflar. Bəs bu qarşımızdakı qırmızı qayanın adı nədi? Özü də elə bil qızıldı, par-par alışıf yanır.

Miskin Abdal dedi:

– Düz buyursan, ya mürşüdüm. Həmin qaya "Qızıl qaya"dı...

Söhbətin bu yerində İsmayıl dedi:

– Ustad, sizin bu torpax başdan-başa xəzinədi ki...

Miskin Abdal mehribannıxnan dedi:

– Elədi, oğul. Allahın böyük məhəbbətinnən yaranan bir torpağın qisməti başqa nə ola bilərdi?!

Qərəz, beləcə şirin söhbət eliyə-eliyə Miskin Abdalla İsmayıl qavaxda, qoşun-ləşkər arxada Sarıyaquba gəldilər. Bu gəlişə görə bir toy-büsat, bir çal-çağır başdadı kı, gəl görəsən Rüzigarın gözü belə toy-bayram görməmişdi. Aşıxlarda kı, heç dincəlmək bilmirdilər. İsmayıl bilmirdi bu şənnikdə nəyə daha çox tamaşa eləsin. Bu şənniyin gözəlliyi qarışmışdı Göyçənin gözəlliyinə. Hər şey gözəllik içində itif-batmışdı. Arada İsmayıl Miskin Abdala dedi:

– Ustad, gedən baş Göyçə aşıxlarınnan bir neçəsini Təbrizə aparmax istiyirəm. Sən nə deyirsən?

Miskin Abdal dedi:

– Ağıllı sözə mən nə deyə bilərəm, ya mürşüdüm? Bu ara ürəyi atdanan Məhəmməd kişi söhbətə qarışdı:

– Oğul, İsmayıl, sənin ana bavan Uzun Həsən Göyçədən sarayına nə az, nə də çox, düz yüzə qədər aşıx aparmışdı. O, aşıxdan ötrü sinoy gedirdi. Tez-tez də Göyçə dağlarına gəzməyə, dincəlməyə çıxardı. Deyərdi ki, Göyçənin suyu, havası, təbiəti loğmandı, min bir dərdə dərmandı.

Bunu eşidəndə İsmayıl daha da maraxlanıf dedi:

– Atayi-mehriban, bəlkə eşitmiş olarsan. Bu gözəllik diyarının adı nədən götürülüf?

Məhəmməd kişi bir az fikrə gedif dedi:

– Oğul, bil və agah ol, Göyçə sözünü ilk dəfə dilinə gətirən Həzrəti Əli oluf. Eşitdiyimə görə o, ilk dəfə bu yerə gələndə bu yerin gözəlliyinnə valeh oluf. Özünnən biixtiyar deyif: "bu nə Göyçək diyardı!" O vaxtdan da bu torpağın adı "Göyçə" adınnan çağrılıf. Oğul, başqa cür də ola bilməzdi. Çünki bu yer, bu yurd Allah-taalanın ən xoş günündə yaranıf.

"Həzrət Əli" sözünü eşidəndə elə bil İsmayılın üstünə nur ələndi, dünya gözdərində işıxlandı. Bu torpağa olan mehri-məhəbbəti birəyüz artdı. Bunu hiss edən Məhəmməd kişi sözünə davam eliyif dedi:

– Oğul, İsmayıl, Həzrət Əli təkcə Göyçənin adını qoymuyuf. O Göyçə gölünə qonur dəniz ayğırı, bir də dünyada tayı-baravarı olmuyan qızıl balıx kimi qismətdər də verif. Eşitdiyimə görə bir az aralıda "Qoşabulax" deyilən yerdə hər yeddi ildən bir qoşa bulaxlar Əlinin üzünün nurunnan köprüyüf qaynıyır. Həmin gejə onun suyunnan içif köpüyündə çimənnər xoşbaxtdığa çatıllar. Dəniz ayğırı da hər yeddi ildən bir sahilə çıxır, bir madyana yaxınnaşır. Onnan törüyən atdara at çatmaz, deyillər.

Bu söhbətdər İsmayılı elə aludə eləmişdi ki, günün haradan gəlif, hara getdiyini hiss eləmirdi. Söhbəti Miskin Abdal davam etdirdi:

– Ya mürşüdüm, ulu Tanrının eşqinnən yaranan bu diyar doğrudan da mö'cüzəlidi. Dünyaya qan udduran Teymurləng hər yeri viran qoya-qoya Göyçüyə gəlir. Özü də bilmədən qılıncını qında saxlıyır. Qoşununa əmr eliyir ki, bu torpağı basın keçin. Teymurləng bəlasınnan belə asannıxnan sovuşduğu üçün camahat bir bayatı da qoşuf:

Teymurləng susar keçər,
Qan tökməz basar keçər,
Toy-bayramdı Göyçədə,
Ad qalar: "Basarkeçər".

Bu yer o günnən Basarkeçər addanır.

İsmayıl Göyçə haqqında eşitdiklərinnən, bu müdrik insannarın

şirin söhbətdərinnən vəjdə gəldi. Miskin Abdalın üzünnən yağan nur onun könlünü işıxlandırdı. Yadına dədə-bava, nəsil-nəsil davam edən dostduxları, bu illərdə qorunuf saxlanılan sədaqət, e'tibar düşdü. Ucadan, şövqnən dedi:

– Böyük ustadın doğulduğu Sarıyaqub kəndini bu günnən Miskin Abdala bağışdıyıram. Bu ətrafdakı daha beş kəndin vergisi də nəsilbənəsil ona çatajax.

İsmayıl üzünü Hüseyn Lələ bəy tutuf dedi:

– Lələ, Təbrizə çatıf hakimiyyəti tə'min etdikdən sonra Göyçədən bir şahlıx iqamətgahı qurulmalıdı. Biz tez-tez bu torpağa ziyarətə gələjiyik. Çünki bu torpaxda Allah eşqi, Əli rəhmi, cənnət gözəlliyi var.

Sonra üzünü Miskin Abdala tutuf dedi:

– Ustad, təzə fikrə gəlmişəm. Sənin Təbrizə getməyini məsləhət görürəm. Gərək biznən Təbrizə gedəsən. Sənin kimi müdrik ağsaqqala bizim ehtiyacımız çoxdu. Biz sənnən hələ çox şey öyrənməliyik. İnşallah, hər şey Allahın buyurduğu kimi olar.

Miskin Abdal İsmayılın sözünü yerə salmadı. Yola hazırrıx gördü. On iki aşıx da seçif İsmayıla təhvil verdi. Qoşunun tərpənmək vaxtı çatanda Miskin Abdal İsmayıldan soruşdu:

– Ya mürşüdüm, indi biz Təbrizə hansı səmtdən getməliyik.

İsmayıl dedi:

– Ustad, yə'qin ki, gəldiyimiz tərəfdən.

Miskin Abdal dedi:

– Ya mürşüdüm, məsləhət görürəm ki, qayıdan baş güney yolunnan gedək. Ziyan çəkmərik.

İsmayıl dedi:

– Nə deyirəm, ustad, get deyirsən, gedək. Məsləhət sənindi. Böyüyün, ağsaqqalın sözünü eşidən ziyan tapmaz. Bir halda kı, sənin kimi bir müdrik adamı eşidəsən.

İsmayıl yola düşməzdən əvvəl yenə də "Miskin Abdal ocağı"nı ziyarət elədi. Tutduğu niyyət xoş oldu; taxta çanaxda su yenə də poqqur ha poqqur qaynadı. İsmayıl buna çox sevindi. Qayıdıf qoşuna əmr verdi ki, Miskin Abdal dediyi səmtdən Təbrizə doğru yol başdasın. Getmək vaxtı çatanda Miskin Abdal bir az kövrəldi, qəlbi yuxaldı. Doğma Göyçəsinnən ayrılmax ona çox çətiniydi. Üzünü İsmayıla tutuf dedi:

– Ya mürşüdüm, doğma eldən, ovadan, yar yoldaşdan, qohum-qonşudan, tanış-bilişdən ayrılıram. Sinəmə bir neçə xanə söz gəlif. Atanızın, ulu mürşüdümüz Şeyx Heydərin adına bir "Heydəri" havası yaratmışam. İzin versəydin həmən sözdəri o havaynan səsdəndirərdim.

İsmayıl dedi:

– Buyur, ustad. O nə sözdü? Ustadın çalıf-çağırmasına heç bir qorux, qadağa ola bilməz.

Bunu eşidən Miskin Abdal telli sazını sinəsinə sıxıf, aldı görək nə dedi, biz də deyək, eşidif feyziyav olasınız:

Halallaşıb ayrılıram elimnən,
Qayıdaram, qayıtmaram, ya qismət.
Doymamışam çəmənimnən, gülümnən,
Qayıdaram, qayıtmaram, ya qismət.

Ömür keçif, yetmişimə çatmışam,
Yaradanın ətəyinnən tutmuşam,
Neçə ili, neçə ilə qatmışam,
Qayıdaram, qayıtmaram, ya qismət.

Bu torpağın qoxusunda canım var,
Bulaxların sularında qanım var,
Qatar-qatar ağır adım-sanım var,
Qayıdaram, qayıtmaram, ya qismət.

Bu torpaxda ululərım uyuyur,
Baş bədəndə, ürək canda soyuyur,
Vətən indi gözdərimdə böyüyür,
Qayıdaram, qayıtmaram, ya qismət.

Miskin Abdal deyər sözün müxtəsər,
Bu dünyanı dolanmışam sərasər,
Karvan keçər, neçə mənzil yol kəsər,
Qayıdaram, qayıtmaram, ya qismət.

Söz tamama yetdi. İsmayıl gördü kü, Miskin Abdal yaman kövrəlif. Ancax deyəsən hələ sinəsindəki sözünün hamısını deyif qurtarmıyıf. Ona görə də üzünü Miskin Abdala tutuf mehriban-mehriban dedi:

– Ustad, bəlkə yenə deyiləsi sözün var. Varsa, de gəlsin.

Bu təklif Miskin Abdalın ürəyinnən oldu. Sazını Göyçə həsrətli sinəsinə basıf "Miskini" havası üstündə aldı görək nə dedi:

Yaxın gəlin yaxın qohum-qonşular,
Sizə deyim indi hara gedirəm.
Kövrəlmişəm, dost, tanışdar-bilişdər,
Təbriz addı bir diyara gedirəm.

Ərənnər əlinnən badə almışam,
Söz götürüf neçə hava çalmışam,
Haqq oğluyam, haqqa meyil salmışam,
Doğru əhdə, düz ilqara gedirəm.

Dərd üstünnən dərdə dərddər yazılıf,
Ömür bağım neçə dəfə pozuluf,
Gör yoluma neçə sitəm düzülüf...
Mən Miskinəm, ahu-zara gedirəm.

Miskin Abdal sözünü tamamlıyıf sazını köynəyinə qoyanda İsmayıl başa düşdü kü, ustad daha dediyini dedi. Artıx yola düşmək məqamıdı.

Elə bu vaxt gördülər ki, göydən bir dəstə durna qatarı uçur. Onnar Miskin Abdalın başının üstünə çatanda hərəsi düm ağ bir lələk saldı. İsmayıl buna heyran qaldı. Bunu görən lələ dedi:

–Ya mürşüdüm, eşitdiyimə görə hər ilin payızında və yazında Göyçə mahalının üstündən qatarla uçan durnalardan hər biri Miskin Abdalın ziyarətgahına bir ağ lələk salıf, qismət alırlar.

Bunu eşidəndə İsmayıl heyrətləndi. Bir xeyli sükutdan sonra gördü ki, daha getmək vaxtıdır.

Əmr elədi. Qoşun-ləşgər hərəkətə gəldi. Güney yolunnan Təbrizə doğru yol başdadılar. Göyçədən keşdikləri hər kənddə, hər kəsəkdə onnarı toy-bayramnan qarşılıyıf, böyük hörmət-izzətnən yola

salırdılar. Başda İsmayıl olmaxnan Göyçədə ilk dəfə olannarın hamısı bu yerin camaatının gülər üzünə, qonaxpərvərriyinə, ürəkdən həsəd aparırdı. Kənd camahatı görəndə ki, İsmayıl öz ağsaqqalına "Lələ" deyə müraciət eliyir, başdadılar atalarına, özdərinnən böyüklərə o günnən "lələ" deməyə.

Nəhayət, qoşun güney yolunnan yavaş-yavaş keçif Dərəçiçək mahalının qənşərinə çatdı. İsmayıl gördü kü, bura elə gözəl bir yerdi ki, gəl görəsən. Hayana baxırsan gül, çiçək bir-birini çağırır. Quşdarın cəh-cəhinnən doymax olmur. Gözəllikdə bura heş Göyçədən də əkskik deyil.

Bunnar Dərəçiçək mahalının gözəlliyini seyr etməkdə olsunnar, eşit dərəçiçəklilərdən. Elə ki, el-obaya xəvər çatdı kı, İsmayılın qoşunu gəlif çatıf, hamı əl-ayağa düşdü. Elin ağsaqqalları, ağbirçəkləri, başbilənnəri məsləhət-məşvərətdən sonra toy-bayramnan qoşunu qarşılamağa getdilər. Onnarın ayaxları altında saysız-hesavsız qurvannar kəsildi. Bu görüş əsl el şənliyinə çevrildi. Çalan kim, oxuyan kim, oynuyan kim... Bir çal-çağır oldu ku, gəl görəsən... Biləndə ki, Miskin Abdal da burdadı, day sevincin, şaddığın həddi-hüdudu olmadı. Bunu görəndə İsmayıl lap məhəttəl qalıf dedi:

– Ustad, bunnar səni haradan, tanıyıllar. Bunnarın bu qədər hörmətini nejə qazanıfsan?

Miskin Abdal istədi ki, ağzını açıf İsmayıla cavaf versin, bu vaxt Dərəçiçəyin bir el ağsaqqalı qabağa yeriyif tə'zim elədikdən sonra dedi:

– Oğul, bu el, bu oba Miskin Abdalı çoxdan tanıyır. O, dərəçiçəklilərin ən çox böyük ehtiram bəslədiyi müqəddəs bir şəxsiyyətdi. Bu onun Dərəçiçəyə dördüncü gəlişidi. Birinci dəfə cavannığında Təbrizə öz butasının dalınca gedəndə bu torpağa ayax basıf. İkinci dəfə butasına yetişif geri qayıdanda burada oluf. Bütün el onda iki cavanın qovuşmasına "mübarək" dedi. Üçüncü gəlişində dərəçiçəklilər onun təbliğ etdiyi şiəlik dini məzhəbi qəbul etdilər. Bu gəliş Miskin Abdalın Dərəçiçəyə dördüncü gəlişidi.

Ağsaqqal Miskin Abdalın burada böyük bir mö'cüzə göstərdiyinnən də söhbət aşdı. Bunu eşidəndə tez də gözdərini çəkdi. Çünki bu adi gözdər deyildi. Bu gözdərdən qeyri-adi qüdrət boylanırdı. Üzgözünnən nur yağan bu pirani qocanın uca adı-sanı onu tamam-kamal valeh elədi.

Eşitdiklərindən vəcdə gələn İsmayıl dedi:

– Ustad, eşitdiklərim məni lap heyrətə gətirdi. Sən müqəddəs bir övliyasan. Sən müqəddəs insan, əvəzsiz pir, kəramət sahibisən. Mən buna çox şadam. Sənin bu ucalığın, böyük adın-sanın mənim qolum-qanadımdı. Deyə bilərsənmi sən bu qədər ad-san, şan-şöhrətə, hətta müqəddəsliyə necə çatdın? Bunnarı sana kim ərmağan elədi?

Miskin Abdal dedi:

– Ya mürşüdüm, nəyim varsa Allahın izniynən Həzrət Əlinin köməyinnən oluf. Sonra o başdadı Həzrət Əliynən bağlı olan yuxusunu danışmağa.

Miskin Abdal danışdıxca İsmayıl da, eşidənnər də bu işə matməhəttəl qaldılar. Hamının heyrətdən matı-mutu qurumuşdu. İsmayıl dedi:

– Ustad, Həzrət Əli haqqında heş dəyərri sözün olufmu?

İsmayılın bu sualı Miskin Abdalı elə bil coşa gətirdi. Sazını sinəsinə basıf dedi:

– Ya mürşüdüm, Əlini necə tanıdığımı, necə sevdiyimi, söznən desəm dilim quruyar. İzin versən, saznan deyərdim:

Ələstü rəbbi-cəm xitab olanda,
Xub qailəm o adına, ya Əli,
Sənin pənahına iman gətirdim,
Biqəraram o sevdana, ya Əli.

O, "Zey", "fey" adına, o nuri səfa,
Yetişsin şə'ninə hər quli-kəfa,
Varlığın mə'nası dini-Musdafa,
Sərxeyli-karvanın cuda, ya Əli.

Fəthi şəhri-zərrin, qatili-salsal,
Mürşüdü-Cəbrayıl, şahı-beyzaval,
Qəşəmşəm, qəzənfər, şiri-Zülcəlal,
Müsəmmasan bir Minada, ya Əli.

Əzrayıl cəngəlin cana çalanda,
Ruhlar pərvaz oluf, cəsəd qalanda,

Üz xakə döşənif zəlil olanda,
Özün yetiş o fəryada, ya Əli.

Məhşər günü özün tutarsan camı,
Tutmuş ətəyinnən niku, bad-hamı,
Seçmə muxsullardan Miskin Qulamı,
Kərəm et, kövsərdən badə, ya Əli.

Miskin Abdalın Həzrət Əli haqqında dediyi sözdər İsmayılın lap xoşuna gəldi. Ustadın kamalına, bacarığına "səd afərin" dedi. Bu söhbətdən sonra el ağsaqqalı İsmayılı qoşununnan birrikdə nahara də'vət elədi. İsmayılgil bir gejə onnarın qonağı oldular. Qonaxlıxda nələr yoxuydu. Süfrələr dünyanın yüz nazı-ne'mətinnən ləmələm dolmuşdu. Qoşun əhli doyunca yeyif-içənnən sonra rahatdandı. Qərəz, savah açıldı. Çox qalmax olmazdı. Çünki Təbrizdə İsmayılın yolunu hamı böyük həsrətnən gözdüyürdü. Yola çıxmax məqamında Miskin Abdal üzünü İsmayıla tutuf dedi:

– Ya mürşüdüm, heç insafdan döyül, buradan sazsız-sözsüz ayrılax.

İsmayıl Miskin Abdalın bu fikrini çox bəyəndi. Miskin Abdal sazını köynəyinnən çıxartdı aldı, görək Dərəçiçək mahalına, onun bu qonaxpərvər camahatına öz ürək sözdərini nejə izhar elədi:

Bu yerin nə gözəl bir aləmi var,
Daş da çiçək açar Dərəçiçəkdə.
Hər zaman bu yerə həmdəmdi bahar,
Güllər ətir saçar Dərəçiçəkdə.

Sürüsü çaylarda su bulandırar,
Ətri, təravəti behişt andırar,
Gözəllər alovsuz, odsuz yandırar,
Ağıl başdan uçar Dərəçiçəkdə.

Bu yerdə qonağı əziz tutallar,
Yaxşıya sevinif, pisi udallar,
A Miskin, qannarın, qana qatallar,
Dostlar qalmaz naçar Dərəçiçəkdə.

Söz Miskin Abdalın ağzınnan qurtaran kimi hər yannan "əhsən" "əhsən" sədaları göylərə büləndoldu. El ağsaqqalının məsləhətinnən Dərəçiçək mahalınnan da İsmayılın qoşununa igidlər qatıldılar. Onnar da Qızılbaş papağı geyif siyirməqılınc, öz atdarına süvar oldular. Başbilənnərin öyüd-nəsihəti, Miskin Abdalın xeyir-duasınnan qoşun-ləşkər Təbrizə doğru yol aldı.

Bir xeyli gedənnən sonra gəlif, Dərələyəz mahalına çatdılar. Miskin Abdal cavan vaxtı buradan keşdiyini, Dərələyəzin bir dəstə gözəlinə saz tutuf, söz qoşduğunu söylədi. İndi o vaxtdan nələr keşmişdi... Çox şeylər dəyişmişdi. Ancax Dərələyəzin gözəlliyi öz yerində qalmışdı. Buranın da adamları İsmayılı təmtəraxnan, toy-düyünnən qarşıladı. Burada da bütün qoşuna yaxşı yemək-işmək verdilər. Mənəm-mənəm deyən iyid, pəhlivan cüssəli oğlannar gəlif Qızılbaş qoşununa qoşuldular. Bir gün dincələnnən sonra İsmayıl öz qoşun-leşkərinnən yenə də Təbrizə doğru yol başdadı. İsmayıl tez-tez Miskin Abdala tərəf baxırdı. Hiss eliyirdi ki, Miskin Abdal İsmayılın ürəyinnən keçənnəri bilir. Ona görə istər-istəməz sazı köynəyinnən çıxardıf dedi:

– Ya mürşüdüm, buradan sazsız-sözsüz ötüşsək el bizi qınıyar.

İsmayıl sevincək dilləndi:

– Elədi, ustad.

Miskin Abdal dedi:

– İndi ki, belə oldu, onda bir "Sultanı" havası üstündə görüm Dərələyəzi nejə vəsv eliyə biləjəm.

İsmayıl soruşdu:

– Ustad bu nə havadı?

Miskin Abdal qürurnan dilləndi:

– Ya mürşüdüm, bu saz havası Şeyx Heydərin oğlu Sultanəlinin adınadı.

Qardaşı Sultanəlinin adını eşidəndə İsmayıl kövrəldi, gözdəri doldu. Özünü o yerə qoymuyuf dedi:

– Çal, ustad, çal.

Miskin Abdal telli sazını sinəsinə müstəkəm eliyif, aldı görək nə dedi, bu yurdun tərifini necə verdi:

Yaxşı ki, güzarı saldıx bu yerdən,
Özgə növrağı var Dərələyəzin.

Şahlara layixdi hər mina gərdan,
Eldə sorağı var Dərələyəzin.

Bülbülü oxuyar güllü budaxda,
Söhbəti dolaşar dildə, dodaxda,
Düşmənə bac verməz çətin ayaxda,
Yarı-yarağı var Dərələyəzin.

Miskin Abdal deyər şux gözəllidi,
Adamlar xoşxislət, xoş əməllidi,
Ojağı, tüstüsü elə bəllidi,
Sönməz çırağı var Dərələyəzin.

Miskin Abdal sözünü tamama yetirif sazını köynəyinə qoydu. Mahalın ağsaqqallarının, ağbirçəklərinin xeyir-duasınnan dəstə-dəstə növcavan igiddər Qızılbaş əsgərlərinin paltarlarınnan geyinif bellərinə qılınc, əllərinə qalxan götürüf qoşuna qatılıf, Təbriz deyif yol başdadılar.

Qoşun az getdi, çox getdi İrəvan düzənniyinə yetişdi. Buradan Ağrı dağı aydınca görünürdü. Miskin Abdalın ilham pərisi genə ona qonax gəldi. Özü də bilmədi sazı köynəyinnən havax çıxardıf sinəsi üstünə nejə qaldırdı. Bunu görən İsmayıl Miskin Abdalı dinnəmək üçün qoşuna dayanmax əmri verdi. Miskin Abdal bir qoşa dayanan Ağrı dağına nəzər saldı, bir də İsmayıla baxdı. Onun qardaşdarını yanında görmüyüf pis oldu. Öz-özünə dedi:

Ey dili qafil, qardaşdarı sağ qalsaydı, yanında olardı, o da Ağrı dağı kimi daha vüqarrı, daha məğrur, daha ehtişamlı görünərdi. "Nəhlət şeytana, nəhlət mərdimazara" – deyif, İsmayıla üz tutdu:

– Ya mürşüdüm, bu dünyanı yoruf yola salan, sirri bilinməyən bu qocaman Ağrı dağına deyiləsi ürəyimdə bir qatar sözüm var. İzin versən onu deyərdim. Özü də səsləndirdiyim bu saz havasının adı "İrvahamı"dı. Sənin kiçik qardaşının adınadı.

Miskin Abdal gördü kü, İbrahim adını eşidəndə İsmayılı yenə qəm, kədər çuğladı. Ona görə də tez saza dəm verdi:

Dayanıbdır mətin, qoşa,
Şah vüqarrı Ağrı dağı.

Bir qüdrətdi başdan-başa,
Bar-baharrı Ağrı dağı.

Başda Nuhun gəmisi var,
Ətəyində zəmisi var,
Tarixində qəm izi var,
Boran-qarrı Ağrı dağı.

Mövlam verif sirri pünhan,
Səcdəsinə gəlir cahan,
Abdal kimi sürür dövran,
E'tivarrı Ağrı dağı.

Söz tamam olan kimi, qoşun öz yoluna davam elədi. Elə ki, gəlif Naxçıvana çatdılar, bir də gördülər ki, dağların arasınnan bir atdı onnara tərəf elə gəlir, elə gəlir, elə bil kamannan qopmuş oxdu. Atı da, özü də qan-tərin içindədi. Bunu belə görəndə İsmayıl göstəriş verdi ki, qoşun dayansın. Yaqın bir xəvər var.

Atdı bir təhər özünə gəlif dedi:

– Amandı, çox irəli getmiyin. Neçə gündü kü, bu dağlarda, bu dərələrdə sizin yolunuzu gözdüyürəm.

Baxdılar kı, atdının dili topux çalır, danışmağa taqəti yoxdu. İsmayıl dedi:

– Ona su verin, özünə gəlsin görək nə oluf, nə demək istiyir, nə xəvərnən gəlif?

Tez atdıya su verdilər. O toxtduyuf dedi:

– Ya mürşüdüm, qurumsax Əlvənd Mirzənin qoşunu bax, o görünən dağın dalında, qayalıxların arasında gizdənif sənin yolunu gözdüyür kü, qəfildən üstünüzə atılıf sizi məhv eləsin. O namərd həm də möhkəm silahlanıf. Ehtayatdı olun.

İsmayıl dedi:

– Atdıyı nəzarətdə saxlıyın. Bir adam gedib xəlvətcə örgənsin, görsün atdı düz deyir, yoxsa yalan. Bəlkə atdı bizi Əlvənd Mirzə kimi tülkünün tələsinə salmax istiyir. Bunu eşidən atdı hönkür-hönkür ağlıya-ağlıya dedi:

– Dədəmin goru haqqı düz deyirəm. Gedin yoxluyun.

Hüseyn Lələ bəy dərhal bir adam göndərdi. O xəvər gətirdi ki,

bəli, atdı düz deyir. Əlvənd Mirzə öz başının dəstəsinnən qavaxda pusqudadı.

Bunu eşidəndə İsmayılın göstərişinnən atdı azad olundu. Ancax o geriyə getmədi. Xahiş elədi, yalvardı kı, onu da özdərinnən aparsınnar. İsmayıl razı oldu. Sonra göstəriş verdi ki, qoşun döyüşə hazır olsun. Bu vaxt Hüseyn Lələ bəy dedi:

– Ya mürşüdüm, gejiyi gözdüyək, Əlvəndi özümüz mühasirəyə alıf məhv eliyək.

İsmayıl bir az kinni-küdurətdi səsnən dedi:

– Əlvənd Mirzə kimi bir çaqqalın üstünə gejə getməyin özü də bir kişilikdən döyül. Onda olarıx biz də Əlvənd Mirzənin tayı. Kişi öz qeyrətini döyüşdə göstərər. İndi görərsiniz bizim qoç igiddər Əlvənd Mirzə kimi qor-qoduğun özünə, başının dəstəsinə nejə divan tutur. Onda görəllər analar necə oğlannar doğuf. Hər gədə-güdənin qavağından qaşsax, onda hamı bizi söyər.

İsmayılın əmrinnən qoşun irəliyə doğru yola düzəldi. Elə ki, gəlif Əlvənd Mirzənin gizdəndiyi dağa çatdılar, hamı döyüşə hazır dayandı.

Bir az irəli gedəndə gördülər ki, arxa tərəfdən səs-küy qopdu. Elə İsmayıla da bu lazımıydı. Qızılbaş qoşunu düşdü Əlvənd Mirzənin quldur-qaçax dəstəsinin üstünə. Şərur düzündə onnarı qannarına qaltan elədilər. Qırılan qırıldı, əsir düşən əsir düşdü, güj balaynan qaça bilən də qaçıf gözdən itdi. Əlvənd Mirzəni də diri tutdular. Əlvənd Mirzə nə qədər yalvardısa, xeyri olmadı. İsmayıl dedi:

– Görürəm, ustadın Əlvənd Mirziyə deməyə sözü var. Qoy o sözünü deyif qurtarsın, sonra onun layixli cəzasını verərsiniz.

Bunu eşidəndə Miskin Abdal "Heydəri" havasınnan aldı görək Əlvənd Mirzənin tə'rifini nejə verdi:

Duruşu oxşuyur quldur-qaçağa,
Nə pis günə qaldı halı Əlvəndin,
Kim dedi dava sal nadan, alçağa?
Söküldü, qalmadı nalı Əlvəndin.

İşdədi qılınşdar, nə'rə bir yana,
Qaşdı sağ qalannar hərə bir yana,

Əzilən dəymişi hələ bir yana,
Töküldü, qalmadı kalı Əlvəndin.

Bu dünya varına nələri satmır,
Qırıf dağıtmağa gejə də yatmır,
Bir zənən olmağa bunnarı çatmır:
Tumanı, yaylığı, şalı Əlvəndin.

Özünə güvəndi, unutdu haqqı,
Birdən tənəzzülə döndü taraqqı,
Kişilik adına qalmadı haqqı,
Yaman əldən getdi dalı Əlvəndin.

Abdal deyər, vurun burnuna kötək,
Xisləti qırıxdı, mayası kəpək,
Nejoldu ulduza hürüyən köpək,
Soyudu yalaxda yalı Əlvəndin.

Bu sözdəri eşidəndə hər yannan gülüş səsdəri eşidildi. Əsgərrər gülməkdən uğunuf getdilər. Əlvənd Mirzənin bir layiqli cəzası varıydı, onu da cəllad bilirdi. İsmayılın bir himi ilə bayax ha Əlvənd Mirzə cəlladın əlində cəhənnəmə vasil oldu. İsmayıl dedi ki, onnara xəvər gətirən atdıya da qalxan-qılınc verif özdərinnən ayırmasınnar.

Beləliklə, İsmayıl bu döyüşdən də qələbəynən çıxdı. Onnarın Şərur düzündə Əlvənd Mirzə kimi bir qurumsağa qalib gəlif, məhv eləməsi, tez bir zamanda hər yana yayıldı. Qoşun Naxçıvana tərəf üz tutdu. Nəhayət, gəlif Naxçıvana çatdılar. Miskin Abdal İsgəndər bəyi soruşdu, dedilər ki, çoxdan rəhmətə gedif. Miskin Abdal onun ruhuna dualar oxudu. Sonra kim olduğunu dedi. İsgəndər bəyin uşaxları Miskin Abdalı qucaxlıyıf əllərinnən öpdülər, onu duz kimi yaladılar. İsmayılgilə də böyük hörmət-izzətnən xoşgəldin elədilər. Bütün qoşun-leşkərə böyük ziyafət verdilər. İsmayıl Naxçıvan əhlini bu qonaxpərvərriyinnən çox razı qaldı. Təbriz İsmayıl üçün möhkəm darıxırdı.

Qoşun Naxçıvannan bir azca aralanmışdı kı, bir də gördülər qavaxdan bir dəstə atlı onnara tərəf gəlir. Yaxınnaşanda Miskin Abdal qaçax Mehtiyi tanıdı. Atdan düşüf onun yanına getdi. Mehti çox

yaşdaşmışdı. Deyəsən köhnə dostunu anşırda bilmədi. Miskin Abdal onnan soruşdu:

– Sən qaçax Mehti deyilsənmi?

O bir az duruxannan sonra dedi:

– Bəli, Mehtiyəm.

Miskin Abdal dedi:

– Məni tanımadın? Mən Miskin Abdalam.

Qaçaq Mehtinin sevincinnən gözdəri doldu. Ağlamsınıf Miskin Abdalı bərk-bərk qucaxlıyıf bağrına basdı. Onu duz kimi yaladı. Miskin Abdal İsmayılı nigaran qoymamaq üçün cavannığında butasının dalınca Təbrizə gələrkən qaçax Mehtinin onu neçə dəfə ölümnən qutardığını, İlan Mahmudu nejə öldürdüyünü, nə başınızı ağrıdım, bunun qəhrəmannıxlarını bir-bir İsmayıla danışdı. Hamı qaçax Mehdinin bu mərdanəliyinə və qeyrətinə heyran qaldı. Gördülər ki, yaşı çox olsa da, qaçax Mehtinin üz gözünnən kişilik, dəyanət yağır. Qolları da əvvəlki qollardı. Şir şirdi. Nə qojası, nə cavanı.

Bu tanışdıxdan sonra qaçax Mehdi İsmayıla yaxınnaşıf dedi:

– Oğul, icazə versən, dəlilərimnən mən bu günnən sənin xidmətində olarıx.

İsmayıl can-başnan razı oldu. Bir də baxıf gördü kü, Miskin Abdalın əli genə sazın köynəyindədi. Dedi:

– Ustad, o vaxt qaçax Mehtiyi necə tə'rif eliyifsən bizə mə'lum oldu. İndi də saznan-söznən qaçax Mehtiyi bizə bir daha isnad ver.

Miskin Abdal elə bil bir himə bəndiymiş. Tez sazını köynəyinnən çıxardıf sinəsinə basdı. Aldı görək "İrvahamı" havasınnan nə dedi, biz də nə eşitdik:

Zaman keçif, yaş çoxalıf,
Qojalıfdı, qoçax Mehdi.
Ürəyi bir az yuxalıf,
Sənnən söhbət açax, Mehdi.

Sənə batmaz əyri, oğru,
Yaşın gedir yüzə doğru,
Yoxdu sana zaval-sorğu,
Bir ojaxsan, ojax, Mehdi.

Düşmənə vermədin aman,
Adın gəzir dildə yaman,
Söylənəjək zaman-zaman,
Keçirdiyin bu çağ, Mehdi.

Yağılara gərif sinə,
Od vurufsan dədəsinə,
Xanın, bəyin didəsinə,
Qılınc, xəncər, bıçax Mehdi.

Ucaldıfsan canda səri,
Yaxşı sözün var kəsəri,
Abdal deyər müxtəsəri,
Bir dastansan, qaçax Mehdi.

Miskin Abdala diqqətnən qulaq asan İsmayıl gördü kü, ustad burada da "dastan" sözünü işlətdi. Ona görə də səbr eləmiyif dedi:

– Ustad, sənin dastanını nə vaxt eşidəjiyik?

Miskin Abdal bığaltı qımışıf dedi:

– Allah qoysa, tezdiknən, ya mürşüdüm.

Qoşun yenə də Təbrizə doğru yol aldı. Qavaxda İsmayıl, Miskin Abdal, Hüseyn Lələ bəy bir də qaçax Mehdi. Arxada da Qızılbaşların qoşun-leşkəri. Bu qoşuna uzaxdan baxanda göz qaralırdı. Artıx Təbrizə az qalırdı. İsmayıl qəsdən Miskin Abdalın sazını dilə gətirmək üçün dedi:

– Ustad, bu yerrərə bir diqqətnən nəzər sal. Gör buralar gözəldi, yoxsa Göyçə.

Bunu eşidəndə Göyçə Miskin Abdalın gözdəri önünə gəldi. Xəyalında yola saldığı günnər oyur-oyur oyandı. Onsuz da onun üçün dünyada Göyçədən gözəl bir yer, bir məkan yoxuydu. Əlini atıf sazını köynəyinnən çıxartdı, zilə köklədi, aldı görək "Miskini" havası üstündə öz ürək sözdərini eşidənnərə nejə çatdırdı:

Ərzim alsın həm yaxınnar, uzaxlar,
Yüz dağ olsa, bizim dağa bənzəməz.
Şərbət olsa, bal olsa da bulaxlar,
Göyçədəki hər bulağa bənzəməz.

Toy-düyünü qulaxlardan silinmir,
Çal-çağırın say-hesavı bilinmir,
Qəm üstünə heç vaxt qəmlər ələnmir,
Bu növraxlar, o növrağa bənzəməz.

Almaların sarısı var, ağı var,
Meynələrin qulac-qulac tağı var,
Bu yerrərin öz bağçası, bağı var,
Heş birisi bizim bağa bənzəməz.

Günnərimiz hay-haraylı keçərdi,
Qız sevənnər toy-şərvətin içərdi,
Biçinçilər zəmiləri biçərdi,
Bu çağlarım ötən çağa bənzəməz.

Qızlar saça gül-çiçəyi düzəllər,
Cavannarın ürəyini üzəllər,
Abdal deyər naz-qəmzəli gözəllər,
Sənubər tək gül yanağa bənzəməz.

İsmayıl gördü kü, Miskin Abdal nə Göyçəsini, nə də yaş ötüf keçsə də Sənubərini heç cürə unuda bilmir. Ürəyinnən onun bu sədaqətinə, e'tibarına səd-afərin dedi.

Nəhayət, qoşun təmtəraxnan Təbrizə daxil oldu. Yollara xalça döşənmişdi. Şamlar az qala dünyanı işıxlandırdı. Hər yanda bir toy-büsat, bir çal-çağır oldu ku, gəl görəsən. Elin adətinə görə İsmayıl qırmızı geyinif şahlıx tacını başına qoyuf taxta əyləşdi. Şahlıx şərvətini Miskin Abdalın əlinnən alıf nuş elədi. Şaha ilk xeyir-duanı Miskin Abdal verdi. Təbriz coşa gəlmiş bir ümman kimi coşuf çağlıyırdı. Sarayda bir toy-bayram, bir vur çatdasın varıydı kı, gəl görəsən. Aşıxlar da kı, heş kəsə aman vermirdilər. İsmayılın özünnən Göyçədən gətirdiyi on iki aşığın sazı-avazı, zəngulələri bütün Təbrizi başına götürmüşdü. Bu şadyanalığa dünyanın hər yerinnən qonaxlar təşrif buyurmuşdular. Elə ki, saz-söz meydanı Miskin Abdala verildi, hamı susdu. Miskin Abdal meydanın bir başına getdi, bir bu başına gəldi, telli sazını sinəsinə basıf, aldı görək nə dedi:

Bu tac, bu taxt qılsın vəfa,
Şıx oğlu Şah İsmayıla,
Xızır Nəbi, ol Mustafa
Olsun pənah İsmayıla.

Haxdan yerə gəlir bir səs:
Bəxtin üzü dönməsin tərs.
Qır qazana düşər nakəs,
Etsə günah İsmayıla.

Abdal telə mizrab vurar,
Gün gələr ki, dastan qurar,
Yerdə Əli kömək durar,
Göydə Allah İsmayıla.

Miskin Abdal əlini sazdan ayırmamış hər yannan "afərin", "əhsən" səsdəri göyə büləndoldu. İsmayıl ayağa qalxıf ucadan dedi:

– Məni istiyən, ustada xələt.

Şah İsmayılın ağzınnan bu söz çıxmamış meydana bir xələt, bir nəmər töküldü kü, gəl görəsən. Qızıl pul, başqa hədiyyələr meydanda üst-üstə qalaxlandı. Bunu görən Miskin Abdal şahın qarşısında tə'zim eliyif dedi:

– Qibleyi-aləm sağ olsun. Mənim dünya varında tamahım yoxdu. Hörmət-izzətinə görə var ol, səni min yaşa. Məsləhət görürəm ki, yığılan bu nəmər kasıf-kusuva paylansın.

İsmayıl üzünü Hüseyn Lələ bəy tutuf dedi:

– Lələ, düz deyirmişsən, doğrudan da Göyçənin miskini də, abdalı da şahlığa layiq admlardı.

Sonra üzünü Miskin Abdala çevirif dedi:

– Ustad, məsləhətinə görə var ol. Dediklərini qəbul eliyirəm. İndi keçək başqa məsəliyə.

Miskin Abdal soruşdu:

– Qibleyi-aləm, nədi o məsələ?

Şah İsmayıl dedi:

– Ustad, oxuduğun tə'rifdə yenə "dastan" sözünü işlətdin. Allah qoysa nə vaxt bir dastan eşidəjiyik?

Miskin Abdal dedi:

– Şah sağ olsun, darıxmax lazım döyül. Vaxtı çatanda şahımızın adına layiq bir dastan danışajam. Təki sən sağ ol. Sənin sayəndə hələ çox işdər görəjiyik.

Şah İsmayıl soruşdu:

– Ustad, bu günkü çalıf-çağırmağın qurtardı?

Miskin Abdal təmkinnən dedi:

– Xeyr, qibleyi-aləm, qurtarmayıb. Hələ şahımızın adına bir saz-söz bəxşişim də var.

Şah İsmayıl dedi:

– Nədi o bəxşiş?

Miskin Abdal dedi:

– Qibleyi-aləm, indi sənin adına layiq bir "divani" çalıv oxuyajam.

Bu sözü eşidəndə Şah İsmayıl maraxnan soruşdu:

– Ustad, divani nədi?

Miskin Abdal:

– Qibleyi-aləm, divani sazın-sözün övliyasıdı.

Şah İsmayıl təəccüfnən:

– Divani sazın-sözün övliyasıdı?

Miskin Abdal dedi:

–Bəli, qibleyi aləm.

Şah İsmayıl dedi:

– Ustad, onda bu divaninin adı nədi?

Miskin Abdal dedi:

– Qibleyi-aləm, bu divaninin iki adı olajax.

Şah İsmayıl soruşdu:

– İki adı olajax?

Miskin Abdal dedi:

– Bəli, hökmdar.

Şah İsmayıl dedi:

– O addarı qavaxcadan deyə bilərsənmi?

Miskin Abdal dedi:

– Niyə deyə bilmirəm, hökmdar.

Şah İsmayıl dedi:

– Onda de gəlsin.

Miskin Abdal dedi:

– Qibleyi-aləm, saz-söz sənətində divani ilk dəfə çalınıf oxun-

duğu üçün adını "Baş divani" qoymuşam. Buna həm də şahımızın ad-sanına, şərəfinə layiq olaraq "Şah divani" də demək olar.

Bunu eşidəndə Şah İsmayıl çox xoşhal oluf dedi:

– Yaxşı, ustad, bəs ilk divaninin sözü nejədi?

Miskin Abdal sazı sinəsinə alıf dedi:

– Qibleyi-aləm, çalıb, oxuyaram, bilərsən. Bunu deyif telli sazını dilə gətirdi.

Könülləri riqqətə gətirən bir avaznan "Şah divanisi" üstündə çalıv-oxumağa başdadı:

Bey bismillah əzbərimdi, hey xudadan ya Əli,
Ən ibtida gəldi səda, ərşi-ə"ladan, ya Əli,
Badi sərsər, lohu qələm, oldu dünya olmamış,
Bir Cəbrayıl qalxdı göyə, ol dəryadan, ya Əli.

Səlli-aləm, mahi aşkar, zülmətdən var pərdəsi,
Sey sirridən səda gəldi, Cəbrayıl çəkdi bəhsi,
Həqiqəti düz bilmədi, tərsə döndü kəlməsi,
Alışıf yandı şahpəri, oldun fərman, ya Əli,

Yandı şahpər, endi suya nələr gəldi yadına,
Xaki kəlam verdi salam, yetişdi muradına,
Haqq-taala özü dedi rəhmətdər ustadına,
Hər tərəfdən səda gəldi, əhsən, əhsən, ya Əli.

Hər kəlməndə tə'rif edir, qur"anda ayət səni,
Cəmi aləm övliyadı, yazır əhli-zat səni,
Həbib özü tə'rif edir külli-vilayət səni,
Zahirdə təvəllüdsən, sirri-Sübhan, ya Əli.

Göyçəlidi Miskin Abdal, yoxdu heç bir günahım,
Hər kəlmədə, hər ayədə sən ol mənim pənahım,
Puli-sirat, haqq divandı ol xudadan köməyim,
Vəli sənsən, vəkil sənsən, şiri yəzdan, ya Əli.

Söz tamama yetəndə heyrətdən yerində qalmış şah irəli yeriyif meydanda Miskin Abdalı qucaxlıyıf bağrına basdı. Hər yannan alqış

sədaları ucalıf göylərə bülənd oldu. Məclisə toplaşannarın çoxu başqa ölkələrdən olduxlarınnan əvvəlcə bu adamın kim olduğunu öyrənmək istədilər. Biri şahdan icazə alıf soruşdu:

– Aşıx, sən hardansan?

Aşıx sözünü eşidəndə Şah İsmayıl özü ayağa qalxıf dedi:

– Ay camaat, çoxda ki, Miskin Abdal gözəl saz çalıf-oxuyur. Bilin və agah olun o böyük şairdi, əsil haqq aşığıdı. O heş kəsə bənzəmiyən ustad sənətkardı. Harada doğulduğunu, haralı olduğunu o özü deyəjək.

Miskin Abdal məclisin tən ortasında sazını köksünə sıxıf aldı görək nə dedi:

Mən aşıx, göycə dənəm,
Kim görüb Göyçədə nəm,
Hər kəsin öz eli var,
Mən ulu Göyçədənəm.

Alqış sədaları dünyaynan bir oldu. Miskin Abdal elə bil öz sazınnan, sözünnən bütün məclisi ovsunnamışdı. Şah da özünü göyün yuxarı qatdarında hiss eliyirdi. Vaxtın necə keşdiyini yadına salan yoxuydu. Hamı istiyirdi ki, Miskin Abdal danışsın,çalıf-oxusun, onnar da şirin-şirin qulaq assınnar.

Bu ara məclisdəkilərdən biri icazə alıf dedi:

– Ustad, haralı olduğunu bildik. Deyə bilərsənmi, hansı məzhəbə, hansı məsləkə qulluq eliyirsən?

Miskin Abdal dedi:

– Onda qulaq as:

Anadan pür kamal oluf,
Şəriətə tapınmışam.
Din yolunda abdal oluf,
Təriqətə tapınmışam.

Miskin günüm gəlməz saya,
Qismətimdi ismət, haya,
Qulluq edif tək xudaya,
Mə'rifətə tapınmışam.

Miskin Abdal tanrı qulu,
Qəlbindədi haqqın yolu,
Ululardan daha ulu,
Həqiqətə tapınmışam.

Bunu eşidənnər gördülər ki, yox ayə, bu haqqı aşığı kimi ərşdənkürşdən danışır. Ariflər də o saat başa düşdülər ki, Miskin Abdala vergi verilif. Özü də maşallah, yaşı yetmiş olsa da, elə qıvrax hərrənir ki, elə bil on dörd yaşında cavan oğlandı. Nə qədər çalıf-çağırırsa, yorulmur ku, yorulmur. Hamı başa düşdü kü, o adi insan döyül, övliyadı, pirdi, ojaxdı. Bu vaxt cavan bir aşıx onun əlinnən öpüf yazıx-yazıx dedi:

– Ustad, başına dönüm, dədənə qurvan olum,atam-anam sana fida olsun, mən əlimə təzə-təzə saz götürüf, aşıxlıx eləmək istiyirəm. Ancax bilmirəm aşıx necə olmalıdı kı, onun el içində hörməti olsun.

Miskin Abdal dedi:

– Bala, bunu çox sənin kimilərinə demişəm. İndi deyim sən də eşit. Amma bu sözdərimi sırğa elə qulaxlarınnan as. Bunnarı unutsan aşıx olmuyajaxsan:

Aşıx, kəşt eliyif ağır elləri,
El içində namus, arı unutma,
Hər yanı gəz, təmiz saxla adını,
Dost yanında e'tivarı unutma.

Halal mala haram qatmax nə lazım?
Hədər yerə kaman atmax nə lazım?
Hər yetənə yalan satmax nə lazım?
Əhd-peymanı, düz ilqarı unutma.

Miskin Abdal, bir qonaxsan dünyada,
Könlün bir dəryadı, ürəyin ada,
İstəsən ki, yetişəsən murada,
Yaş torpağı, dar məzarı unutma.

Söz tamama yetənnən sonra gördülər ki, budu ey, gejə lap arxada qalıf, xoruzdar bannaşır, dan yerinə də səda düşüf. Şahın göstərişinnən məclis dağıldı. Miskin Abdal da sarayda öz yerində dincəlməyə getdi. Elə gözünə təzəcə yuxu getmişdi ki, qəflətən ayıldı. Nə qədər elədi yuxusu gəlmədi ki, gəlmədi. Çar-naçar qalxdı. Bir az var-gəl elədi. Sonra sazını əlinə alıf nə isə yeni bir hava çalmağa başdadı. Miskin Abdalın başı saza yaman qarışmışdı. Şah İsmayıl da şirin-şirin yatırdı. Birdən qulaxlarına saz səsi gəldi. Elə bildi ki, yuxu görür. Gözdərini açıf gördü kü, yuxu nədi, zad nədi? Bu səs doğrudan da saz səsidi. Ancax saz elə gözəl çalınır kı, eşitməknən doymax olmur. Özü də Şah İsmayıl bu saz havasını təzə eşidirdi. O, sazın səsinə heyran qala-qala yavaş-yavaş səs gələn otağa getdi. Qapıyı açanda Miskin Abdalı saz çalan gördü. Miskin Abdal şahı görən kimi mizrabını sazın telinnən ayırıf ayağa qalxdı. Sazın susmasınnan narahat olan Şah İsmayıl özünnən biixtiyar dedi:

– Ustad, ey sazın-sözün hökmdarı, sazı susdurmaxnan mana qəsdmi eliyirsən? Sənin sazının səsinə ayılmışam.

Miskin Abdal dedi:

– Şah sağ olsun, bu havanı təzəcə çalırdım. Adını da hələ seçməmişdim. Səni oyadan bu havanı "Şah qalxdı" adlandırajam.

Şah İsmayıl başınnan razılığını bildirdi. Miskin Abdal "Şah qalxdı" havasını böyük şövqnən çalmağa başdadı.

Aradan bir neçə gün keşdi. Şah yenə bir məclis qurdu. Məclisdə saray ə'yanları, mö'təbər adamlar, aşıxlar, bir də çox hörmətdi qonaxlar varıydı. Hamının gözü Miskin Abdaldaydı kı, görək çalıv-oxuyurmu. Bu ara məclisin ağsaqqalı bəyan elədi ki, bu axşamkı şənniyimizin başında duran böyük ustadımız Miskin Abdaldı. Buna hamı sevindi. Miskin Abdal şahanə addımlarnan saz çiyinidə meydana daxil oldu. Ədəfnən bütün məclisə salam verdi. Yavaş-yavaş şahın qavağına gəlif dedi:

– Qibleyi-aləm, sənin icazənlə birinci dəfə nə çalım?

Şah İsmayıl istiyirdi ki, ağzını açıf nəsə desin, bu vaxt Hüseyn Lələ bəy qavağa yeriyif dedi:

– Ustad, özün bilmirsənmi nə çalajaxsan? Şah sevəni çal. Bu sözdər Miskin Abdalın ürəyinə yatdı. İlhamı yenidən coşa gəldi. Bir az fikirə gedənnən sonra sol əlinnən sazın qolunu sıxıf, sağ əlini sazın sinəsində gəzdirdi. Birdən bir tüğyan qopartdı kı, gəl görəsən. Telli saz dilə gəldi. Miskin Abdal sazı çala-çala dedi:

– Şahim, bu çaldığım təzə havanın adı da qoy "Şah sevəni" olsun.

Hamı əhsən dedi. Miskin Abdal üzünü şaha tutuf "Şah sevəni" havasında aldı görək nə dedi:

Dostu-mehribanım, yetiş dadıma,
Səndən qeyri yox imdadım, ağlaram.
Ah çəkif dağlara salaram səda
Qohum gəlməz, gülər yadım, ağlaram.

Dəstində zülfiqar, Düldülə süvar,
Məhzərül-əcayib, bir adı Kərrar.
Müşkülə düşmüşəm, könlüm intizar,
Sən gəlməsən, ey ustadım, ağlaram.

Salma nəzərinnən salma ilahim,
Dar gündə köməyim, püştü pənahım,
Ərşə bülənd olub fəryadi-ahım,
Abdaldı, Miskindi adım, ağlaram.

Qızılbaş şahı gördü kü, elinnən-gününnən ayrıldığı üçün Miskin Abdal yaman kövrəlif. Bir də ki, yaşı o yaş döyül. Ancax neynəmək olardı. Miskin Abdal kimi müdrik, ağıllı bir adam ona hava, su kimi lazımıydı.

Onun könlünü almaq üçün dedi:

– Ustad, məclisdə hamının diqqəti səndədi. Adın dillərdən düşmür. Özün də Göyçə kimi ağır bir eldənsən. İndi hamı mat qalıfdı kı, görəsən Miskin Abdala bu ağılı, bu müdrüklüyü kim verif, bu böyük ustad dərsini kimnən alıf.

Miskin Abdal sazının zilini zil, bəmini bəm eliyif aldı görək şaha nə cavaf verdi:

Təmiz əkilmişəm, pak doğulmuşam,
Atadan-anadan lütfi-halalam.
Dərsimi hax verif, haxdan almışam,
Dilimdən əzbərdi doxsan min kəlam.

Qafdan qərar tapmış, kafdan kainat,
İsmi, feyli hərfi olmuş əslizat,

Beydən bina tutub, kaf-nundan nicat,
Yeydən bişərikdi, bişərik dilam.

Əlifdən ə'ladı, alidən ali,
Cimdən dücəhandı, böyük calalı,
Mimdən mehribandı mərdi-məlalı,
Nun-hər vaxt zəmini xəlq edif tamam.

Şin şükrü sənalar, vav vahid ismə,
Hey həlim, rey rəhim acı yel əsmə,
Zey zəlil bəndədən, sin nəzər kəsmə,
Sat sahib-ixtiyar, mən həşir qulam.

Ocaxzadə bir təb əhli nökərəm,
Kuyində qələndər, sinə dəftərəm,
Mimnən Məhəmmədəm, cimnən Cəfərəm,
Ləqəbi çox olan Miskin Abdalam.

Eşidənnər gördülər ki, Miskin Abdal dəryaydı, özü də uju-bujağı görünmüyən bir dərya. Bu nurani kişi bütün elmlərin açarını qatdıyıf qoyuf civinə.

Şah İsmayıl üzünü Miskin Abdala tutuf iftixarnan dedi:

– Ustad, olarmı Göyçənin gözəlliyinnən bizi bir feyziyav eliyəsən?

Bu sözü eşidəndə Miskin Abdalın eşqi coşa gəldi. Meydanda bir o başa, bir bu başa gərdiş elədi, sonra gəlif tən ortada dayanıf dedi:

– Şah sağ olsun, çal-oxu deyirsən, çalım-oxuyum. Sən dediyin kimi Göyçənin gözəlliyini "Göyçə gözəlləməsi" havası üstündə oxuyajam.

Şah İsmayıl dedi:

– Buyur, ustad.

Miskin Abdal başdadı çalıf-oxumağa. Göyçənin gözəlliyini məclisdəkilərə görək nejə çatdırdı, biz də deyək, siz də eşidif, şad olasınız:

Eşidin sözümü ərzim qanannar,
Uludu, bilinməz yaşı Göyçənin,

Dünyanı ay yoruf yola salannar,
Qafdan da ucadı başı Göyçənin.

Ərənnər at çapar haradan-hara,
Köhlənnər yaraşar pəhlivannara,
Adı bəzək oluf çox dastannara,
Qədrini nə bilər naşı Göyçənin.

Xəngəli, xaşılı gəlmiyif sana,
Beçə qızartması loğmandı cana,
Ballı qayğanağı hələ bir yana,
Dillərdə söylənir aşı Göyçənin.

Torpağın üstündə qızıl rəngi var,
Hər elin, ovanın öz ahəngi var,
Sanasan qurtarmaz neçə kəndi var,
Yaqutdu, qızıldı daşı Göyçənin.

Cahanda hələ də tapılmır tayı,
Xoşdu bir-birinnən ötən hər ayı,
Cənnət misallıdı baharı, yayı,
Özgə bir aləmdi qışı Göyçənin.

Mehmannar bu yurdu müqəddəs sayıf,
Bunu qanmıyannar eyləsin ayıf,
Neçə mahallara bərəkət yayıf,
Öküzü, kotanı, xışı Göyçənin.

Yazda qol çırmanar bağa, bostana,
Hər yayı bənzəyər bir gülüstana,
Payız-qış evlərdə qurular xana,
Kəsilməz il boyu işi Göyçənin.

Çörək ətirridi isti təndiri,
Baldan da daddıdı motal pendiri,
Kavavın xoş iyi tutar hər yeri,
Çəkilməz ojaxdan şişi Göyçənin.

Arı şanı neylər, qalarsa balsız,
Qərib-qürbət eldə qalmışam halsız,
Mən yaxşı bilirəm Miskin Abdalsız,
Axır gözdərinin yaşı Göyçənin.

Gördülər ki, oxuduxca Miskin Abdalın gözdəri boşalıf-dolur. Şah İsmayıl ustadın bərk kövrəldiyini hiss eliyif söhbətin səmtini dəyişmək üçün dedi:

– Ustad, olmazmı sazı bir "Baş divani"yə köklüyəsən.

Miskin Abdal dedi:

– Baş üstə, qibleyi-aləm. Ancax mən bu havanı həm də "Şah divani" addandırmışam.

Şah İsmayıl dedi:

– Nolar, ustad. Qoy "Şah divani" olsun. Sən sazını dilləndir, biz də eşidək.

Miskin Abdal şahın bu sözünnən sonra sazı sinəsinə sıxıf aldı görək nə dedi:

Yazıx könlüm, nə sızlarsan, bülbülə tay olmusan,
Haçan yardan yarımısan, sevilib bay olmusan
Sən dərvişsən haqq yolunda, haqqı istə, haqqı sev,
Nə olsun ki, bel bükülüf, kamana tay olmusan.

Yar olsan da incimə gəl, ulu tanrı bağışdar,
Dərgahında ap-aydındı bu cizgilər, naxışdar,
Qoy didənnən sel-sel oluf axsın qara yağışdar,
Axır məhşər görərsən ki, köpüklü çay olmusan.

Çay olmağın paklığındı, durma, yuyun, paka çıx,
Doğru-düzə yol açıxdı, nə qar, boran, nə palçıx,
Miskin Abdal, dolansan da ayaxyalın, baş açıx,
Zər qədrini zərgər bilər, zaylara tay olmusan.

Miskin Abdalın bu divanisi məclis əhlini ofsunnamışdı. Miskin Abdal bunu hiss eliyif, sazın kökünü dəyişmiyif başdadı başqa bir divani oxumağa:

Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,
Ha silkinəm, dəryan dərin, narın üzə bilmərəm.
"Qırxlar piri" özü düzüf ayağıma atəşi,
Alışaram Səməndər tək, narın üzə bilmərəm.

Dərviş gərək bu meydanda qurban olsun baş-başa,
Mürşüdümnən üzüm dönməz, dünya gəlsə baş-başa
Ayaq olan uzaq olsun, yetsin gərək baş-başa,
Fələk nə vaxt sökər üzüm, narın üzə bilmərəm.

Miskin Abdal, eşq əhlisən, ömrü vermə bada hey,
Özün haqqsan, haqq əlinnən götür nuş et badə hey,
Məhşər günü tab etməzsən, od, alovlu bada hey,
Nə tutmusan özün dərviş, narın üzə bilmərəm.

Miskin Abdal sözünü tamamlıyan kimi, şah dedi:

– Ustad, oxuduğun bu divanilərdə elə mətləblər var ki, onnarı izahına ehtiyac hiss elədik.

– Şahım, mən bilirəm sən nələri deyirsən. Amma sənin sayeyi-mərhəmətinnən indi hamı bizim təriqətin qayda-qanunnarını yaxşı bilir. Mənim yolum haqq yoludu. Mən haqqın dərgahına qovuşmax üçün bu dünyada hər şeyə çoxdan əlvida demişəm. Mən Səfəvi müridiyəm. Kim səfəvilərin böyük, müqəddəs yolunu annıyırsa, bu kəlmələrin başa düşülməsi onnar üçün çətin ola bilməz.

Bunnarı eşidən hər bir kəs Miskin Abdalın ağlına, kamalına bərəkallah dedi. Heyrətini gizdədə bilmiyən şah ayağa qalxıf amiranə səsnən dedi:

– Bitikçi başı!

Bitikçi başı əmrə müntəzar halda dayanıf dedi:

– Nədi, qibleyi-aləm?

Şah İsmayıl dedi:

– Tez xəttatı bura çağır.

Bitikçi başı:

– Baş üstə, qibleyi-aləm.

Bir göz qırpımında bitikçi başı xəttatnan geri qayıtdı.

Xəttat:

– Mən burdayam, qibleyi-aləm.

Şah İsmayıl dedi:

– Xəttat, yaz: "Anadan olduğu kəndin və beş kəndin vergisini veririk Miskin Abdala həmişəlik – nəsilbənəsil".

Xəttat:

– Yazdım, qibleyi-aləm.

Xəttat gümüş suyu ilə yazdığı fərmanı şahın qavağına qoyuf dalı-dalı geri çəkildi. Şah İsmayıl möhürünü qavdakı qızıl suyuna batırdı, fərmana vurdu. Sonra da qələmin qızıl suyuna batırıf qol qoydu. Fərmanı Miskin Abdala doğru uzadanda, ustad ağır addımlarnan irəli gəldi, istədi şahın qavağında yeri öpsün.

Şah dedi:

– Yox, yox ustad, sən yeri öpmə, Sənin yerin çox ucadı. Sənin bu gejə verdiyin zövqün müqabilində bu fərman kiçik və acizdi. Sən bir daha doğma anamızın dilinin nə qədər şairana, musiqili bir dil olduğunu xatırlatmaxnan, aşıx, saz-söz sənətinin qüdrətini də göstərdin. Əhsən, sə'd əhsən sənin kimi ustadın kamalına.

Miskin Abdal Şahdan fərmanı alıf dalı-dalı öz yerinə qayıtdı.

Şah İsmayıl sözünə davam elədi:

– Lələ.

Lələ dedi:

– Bəli, qibleyi-aləm.

Şah İsmayıl dedi:

– Lələ, Göyçə mahalında verdiyimiz sözün birini yerinə yetirdik. Qaldı ikincisi.

Lələ dedi:

– O hansıdı, qibleyi-aləm?

Şah İsmayıl dedi:

– Lələ, Göyçədə iqamətgah qurdurmax lazımdı. Vaxt olanda gedif bu cənnət guşədə dincələrik.

Lələ dedi:

– Baş üstə, qibleyi-aləm.

Şah İsmayıl dedi:

– Lələ, bir məsələ də var.

Lələ dedi:

– Qibleyi-aləm, bəyan edin, halı olax, yerinə yetirək.

Şah İsmayıl dedi:

– Lələ, Miskin Abdal çox müdrik adamdı. Beləleri hər zaman elə

düşməz. Bizim ölkəmizin Dağıstan tərəfdən təhlükəsi var. Savahdan Miskin Abdalı Dağıstana elçi göndərək. Oradan gözlənilən davaşavanı qoy ağlının güjünnən, danışıxlar yolunnan ram eləsin.

Hüseyn Lələ bəy dedi:

– Qibleyi-aləm, bəlkə Miskin Abdal razı döyül.

Lələ bu sözü deyəndə hamı Miskin Abdala baxdı. Miskin Abdal əllərini sinəsinə qoyuf, şaha tə'zimi-əzəm eliyif, başınnan razılığını bildirdi. Bunnan xoşhal olan şah dedi:

– Ustad, mən heş vaxt bu ayrılığı istəməzdim. Mən sənin həm nurru üzünnən, həm müdrik kəlamlarınnan, həm də mana ilham verən sazınnan-sözünnən ayrılıram. Neyliyək, iş belə gətirdi. Sağlıx olsun, bir neçə ilə vəziyyəti yaxşılaşdırıf geri qayıdarsan. Onsuz da sənsiz darıxajıyıx. Savah, buradan Göyçüyə, oradan da köç-külfətini götürüf Dağıstana yola düş.

Savah açılan kimi şah fərmanı Miskin Abdala verif ona "yaxşı yol!" dedi. Miskin Abdal da şahnan, saray əyyanlarınnan xudahafizdəşif "Haçadil" atının belinə qalxdı və vətənə doğru yol başdadı. Bir müddətdən sonra gəlif doğma yurduna yetişdi. Eşidənnərin hamısı onun başına toflaşdı. Hal-əhval tutdular. Miskin Abdal başına gələnnərin hamısını danışdı. Bir neçə gün də burada qalıf, nəhayət el-ovaynan, ata-anasıynan görüşüf, arvad-uşaxlarını götürüf köç-külfətinnən gedif Dəmirqapı Dərbəndə çatdı. Evini-eşiyini rahatdıyıf başdadı öz ölkəsinin elçisi kimi işdəməyə. Burada olan xata-balaları ağlının güjünnən sovuşdurdu.

Dağıstanda bir Axtı bölgəsi varıydı, burada da azərbaycanlılar yaşayan bir böyük kənd. Kənd adamları Miskin Abdalın Dağıstana gəldiyini eşidif çox sevindilər, onu kəndə də'vət etdilər. Miskin Abdal həmin kəndə təşrif buyurdu. Onun bu gəlişi əsl toy-bayrama çevrildi. Hamı bir nəfər kimi Miskin Abdalın təbliğ etdiyi şiəlik dini təriqətinə iman gətirdi. Bu kəndi onun adı ilə "Miskinli" adlandırdılar.

Miskin Abdal eşitdi ki, burada bir dağ var. Orada da "Qırxlar piri" deyilən bir ziyarət yeri var. Deyilənnərə görə, bir vaxtdar burada qırx müqəddəs övliya dəfn olunduğunnan bu yer ziyarətgaha, pirə dönüf, zaman-zaman adamların ümid, inam yerinə çevrilif. Miskin Abdal da kəramət sahibi kimi bu yeri dəfələrlə ziyarət elədi. O hər dəfə "Qırxlar piri"nə ziyarətə gedəndə böyük oğlu Şadmanı da özünnən aparırdı. Axırınca dəfə onnar pirdən geri qayıdanda yolun

kənarında bir çəmənzarrıx gördülər. Bu çiçəklik oğlu Şadmanın çox xoşuna gəldi. Gözünü onnardan ayırmıyıf dedi:

– Ay ata, bir bax, elə bil bu güllər Göyçə gülüdü.

Oğlunun bu sözü Miskin Abdalın şair könlünə elə bil od qoydu. Yenə vətən yadına düşdü. Xəyalında dağı arana, aranı dağa çəkdi. Əl atdı telli sazına. Sinəsini boşaltmasa dözə bilməzdi. Bir təzə saz havası səsdəndirdi. Adını da qoydu "Göyçə gülü". Görək Miskin Abdal bu hava üstündə öz vətəninə olan məhəbbətini necə dilə gətirdi.

"Şiş pilləkən" dağların şah dağıdı,
Maralları neçə başı dolanır.
Quldur-qaçax bu yerrərə yağıdı,
Fürsət güdər, dağı-daşı dolanar.

Ətəyində durna gözdü gölü var,
Zirvəsində dərilməmiş gülü var,
Yağılara basılmayan eli var,
Yazda yazı, qışda qışı dolanar.

Torpaxları zər yükünə yüklənif,
Könül sazı "Şahsevənə" köklənif,
Karvannarı uzağ səmtə diklənif,
Nagah-nagah burda naşı dolanar.

Basılmazdı hər igidi, ərəni,
Biri saxlar neçə bəndi, bərəni,
Baxıf görsə dağda çiçək dərəni,
Ürəyində can ataşı dolanar.

Doğmaları bu torpağa yad olmaz,
Qəriblərin dəhanında dad olmaz,
Qürbət eldə Miskin Abdal şad olmaz,
Gözdərində kədər yaşı dolanar.

Bir neçə il iydi ki, Miskin Abdal burda işdiyir və yaşıyırdı. Ailəsinnən savayı burada heç bir əziz-xələfi, doğması yoxuydu.

Ömür-gün yoldaşı Həlimə, uşaxları onun vətən niskilinə təskinlik gətirirdi. Ancax doğma el-ova, ata-ana üçün həmişə darıxırdı.

Bir gün səhər tezdən Miskin Abdal evdən çıxanda arvadına tafşırdı ki, şam yeməyinə yağlı bir aş bişirsin. Axşam evə dönəndə gördü kü, evdən aş qoxusu gəlmir, Zarafatnan arvadına dedi:

– Arvad, yoxsa aşı bişirdiniz, yediniz, mana qalmadı.

Həlimə dedi:

– Ay kişi, Allah məni öldürsün. Gəlif çıxdın? Başımı Həsənnən Əli elə qatıf kı, heş bilmirəm axşam havax oluf.

Miskin Abdal soruşdu:

– Uşaxlara nə olub, arvad?

Həlimə dedi:

– Yaman halsızdılar. Savahdan dillərinin arasınnan su da keşmiyif.

Miskin Abdal dedi:

– Bəlkə soyux dəyif?

Həlimə dedi:

– Nə bilim, vallah. Axı heç onnarı gözdən qoymamışam. Üç-beş yaşdı uşaxlar hara gedəllər ki, soyuğa da dəysinnər. İndi sən bir az uşaxlara göz-qulaq ol, mən də aş qazanını ojağın üstünə qoyum.

Uşaxların azarramasını eşidən Miskin Abdalın da qanı bərk qaraldı. Qərif-qürvət eldə vətən həsrəti onun halını pozdu. Hərrənif güzgüyə baxdı. Gördü kü, bura gələnnən bəri xeyli qojalıf. Uşaxları da belə görüf xeyli kədərrəndi. Dörd yanına baxdı, dostdarını, həmdəmlərini görmədi. Ələşsiz qalıf ürəyinnən keçənnəri sazınnan bölüşmək istədi:

Ay dolanıf, il ötüşür,
Yavaş-yavaş qojalıram.
Cavannığım yada düşür,
Ötüşür yaş, qojalıram.

Bu gen dünya mana dardı,
İşim-peşəm ahu-zardı.
Şəvə kimi telim vardı,
Çallaşıf baş, qojalıram.

Hayıf, ömür getdi bada.
Xəvər olsun dosta, yada,
Sözüm keşmir arvada da,
Bişməyir aş, qojalıram.

Zimistandı hər gələn yaz,
Dünya uzun, ömür lap az,
Dilimdə söz, əlimdə saz,
Gözümdə yaş qojalıram.

Miskin Abdal bəlli adım,
Pərvazdanmır qol-qanadım,
Qayaları oynadardım,
Tərpənmir daş, qojalıram.

Miskin Abdalın belə dərddi-dərddi oxumasını görən arvadı zarafatnan dedi:

– Ay kişi, Allah məni öldürsün. Mən nə vaxt sana aş bişirməmişəm?

Miskin Abdal dedi:

– Arvad, incimə, bir zarafatıydı, elədim.

Bir azdan aş hazır oluf süfrüyə gəldi. Miskin Abdal aşdan yedi. Böyük uşaxlar da doyunca yedilər. Ancax balaca Əli və sonbeşik Həsən yeməyə əl də uzatmadılar. Elə süfrə təzəcə yığışdırılmışdı ki, qapı döyüldü. Qapıyı aşdılar kı, bir nəfər Qızılbaş şahınnan ona namə gətirif. Naməni açıf oxuyanda gördü kü, anası Növrəstəynən atası Məhəmməd kişi rəhmətə getdiyinə görə şah Miskin Abdala köç-külfətinnən birrikdə geri dönməyə icazə verir.

Bunnan sonra Miskin Abdalın kefi yaman pozuldu. Özü də bilmədi sazını nejə götürüf sinəsinə sıxdı.

Dərdini bu qəriv eldə görək nejə izhar elədi:

Qadir Allah, əlim əldən uzaxdı,
Yazıx könlüm görən indi dinərmi?
Vaxt yetişif, ömürdə qış-sazaxdı,
Şahin könlüm yuvasına enərmi?

Elim qalıf neçə dağlar dalında,
Qismətim var yazılıfsa, alında,
Gedəjəyəm, ayax qalsa yalın da,
Pir iyidin çırağı da sönərmi?

Miskin Abdal, hanı zərdən livasın?
İnsan olan unudarmı ovasın?
Yada salıf ulu-ulu bavasın,
Axır bir gün Göyçəsinə dönərmi?

Gejədən köçü hazırradılar. Dan yerinə sədə düşməmiş yola düşdülər. Zarıncı, xəstə Həsənnən Əli bərk-bərk büküldülər. Dağıstan dağlarına çatanda gün çeşdə qalxmışdı. Miskin Abdal tələsirdi ki, uşaxları sağ-salamat öz elinə çatdırsın. Sonra da allah kərimdi. Birdən-birə göyün üzünü qara buluddar aldı. Yaz ağzıydı, birdən-birə elə bir qar, elə bir çovğun başdadı ki, gəl görəsən. Borannan göz-gözü görmürdü. Uşaxların dördünü də güj-bəlaynan yorğana bükdülər. Soyux adamın lap sümüyünə işdiyirdi. Hava ayazıyanda gördülər ki, Həsənnən Əliyi şaxta donduruf. çoxdan cənnət quşuna çöyürüf. Miskin Abdalın bir zaman gördüyü yuxusu yadına düşdü. Olacağa çarə olmadığını yaxşı bilsə də, itirdiyi uşaxları üçün göyüm-göyüm göynədi. Elə bil başınnan tüstü-duman qalxdı. Nə etmək olardı. Yer qazıf uşaxlarını torpağa tafşırdı. Sonra yanıxlı-yanıxlı oxumağa başdadı:

Bu dağlar zulum dağlar,
Kəsilif yolum dağlar,
Hanı o bir cüt balam:
Həsənim, Əlim, dağlar

Bu bələni dağ kəsər,
Ürəyim tel-tel əsər,
Ana "balam, vay!" deyif,
Dörd yanı mələr, gəzər.

Bu dağlarda dağım var,
Ölənim var, sağım var,

Ağla gözdərim, ağla,
Dil deməyə ağım var.

Başını qaldırıf Dağıstan dağlarına baxdı. Baxdı kı, dağlar elə əvvəlki kimi öz kefindədi. Onun dərdinə şərik çıxmax fikrində döyül.

Quvarranıf sazını sinəsinə sıxdı. Üzünü dağlara tutuf aldı görək nə dedi:

Məğribdən məşriqə səf çəkib duruf,
Qüdrətdən çəkilif baş-başa dağlar.
İtaət boynuna həmayil vuruf,
Misli-pəsəd, xotkar, xan, paşa dağlar.

Baxıf hökmü yek, dal dürey dükafa,
Gah kükrəyif, gah gəlirsən insafa,
Dey peykarə çəkif, bəyaz əffafə,
Pərvərdin geydirir qumaşa dağlar.

Ağ çeşmən sərinnən car eylər seli,
Yaşıl tirmə qurşar adaja, beli,
Zabitə kölgəsi, Dağıstan yeli,
Sədrin səfasıdı həmişə, dağlar.

Nəs illərdən satın aldın nəs günü,
Çağırıf dumanı, tökdün çiskini,
Gözü yaşdı qoydun Cüda Miskini,
Eylə gülə-gülə tamaşa, dağlar.

Dağların zulumundan gileyli Miskin Abdalın ürəyinə bir qatar da söz gəldi:

Adəmdən cavandı, Nuhdan qojadı,
Bir sirdi, bilinməz yaşı dağların.
Tufana əyilməz, yada basılmaz,
Həmişə qar olar başı dağların.

Əhvalın necədir, bir səyyaddan sor,
Quşa cələ olur, ahulara tor.
Can desən – can deyər, çor söyləsən – çor,
Səs salar, səs verər guşu dağların.

Qüdrətdən yetifdi uca barata,
Sinəsi açıqdı elə, elata,
Mən Cüda Miskinəm, başımda xata,
Kəsif yollarımı qışı dağların.

Miskin Abdal gördü kü, yox, bu dediklərinnən ürəyi sakitdəşmir. Ürəyini boşaltmax üçün genə sazını sinəsinə bərk-bərk sıxıf, dağlara ün saldı:

Qadir Allah qismət etdi cəfanı,
Gejə-gündüz qəm kotanı çəkərəm.
Elə bildim qopdu Nuhun tufanı,
Bəxt şumuna dərd-sərimi əkərəm.

Kəsilməzdi əllərimin səxası,
Zərdən idi köynəyimin yaxası,
Sınaxlıdı abiddərin çuxası,
Başım ilə daş qalalar sökərəm.

Qürbət eldə yanar ömür sürənnər,
Yasa batar bu halımı görənnər,
Yada düşdü igid ərrər, ərənnər,
Göz yaşımı sel yerinə tökərəm.

Həsrət qaldım Göyçə kimi elimə,
Əl uzatdım, əl çatmadı əlimə,
Əslim, zatım manşır oluf aləmə,
Ev yıxmaram, müdam evlər tikərəm.

Miskin Abdal, çox ağlıyıf, sıxtama,
Yazan yazıf bu işdəri baxtıma,

Çoxu keçif, nə qalıb kı, vaxtıma,
Hax yolunda mən bir qulam, nökərəm.

Miskin Abdal sözünü tamamlıyıf, sağ qalan uşaqlarına şükür eliyə-eliyə köçünü hayladı. Bir xeyli gedənnən sonra axır kı, gəlif Göyçüyə yetişdi. Yazın əvvəliydi. Hər yan gül-çiçəyə bürünmüşdü. Bütün el-ova onun gəldiyini eşidif pişvazına çıxdı. Miskin Abdal başına gələnnəri hamıya danışdı. Hamı Həsənin, Əlinin ölümünə görə çox kədərrəndi. Ancaq uşaqlardan Şadmanın və Məleykənin sağ qalmasına çox sevindilər. Allaha min şükür dedilər. Miskin Abdal camahatnan birrikdə ata-anasının qəbrini ziyarət elədi. Bir neçə gün burada qalannan sonra arvad-uşağını öz evində qoyuf "Haçadil" atına minif tək-tənha Təbrizə yola düşdü.

Az getdi, çox dayandı, çox getdi az dayandı, nəhayət, gəlif Təbriz şəhərinə çatdı. Saraya gedif Şah İsmayılnan, əyan-əşrəflərnən görüşdü, əhval-pürsannıx elədi. Şah Miskin Abdalın başına gələnnərdən çox mütəssir oldu.

Şah İsmayıl aradan bir az keçənnən sonra Miskin Abdalı yenidən öz elçisi kimi başqa bir ölkəyə göndərdi. O, elçisi olduğu dövlətlərdə şahının bütün tafşırıxlarını can-başnan yerinə yetirdi, təkcə Osmannı dövlətində öz işdərini tamamlıya bilmədi. Çünki Osmannı hökmdarı Sultan Səlim bir dəfə onun möhkəm könlünə dəymişdi. Bu belə olmuşdu. Miskin Abdal Osmannıya təzəcə gəlmişdi. Günnərin birində Sultan onu yanına çağırtdırıf dedi:

– Miskin Abdal, sən öz şahının adına dillər əzbəri olan bir "Baş divani" saz havası yaradıfsan. Olmazmı mənim də adıma başqa bir "Baş divani" saz havası düzüf-qoşasan.

Çox hazırcavaf olan Miskin Abdal Sultanın qarşısında şax dayanıf vüqarnan demişdi:

– Bəli, Sultan, öz şahımın adına gözəl bir saz havası qoşmuşam. İndi ki, istiyirsən, birini də sənin adına qoşaram. Miskin Abdal sazının zilini zil, bəmini bəm eliyif aldı görək nə dedi:

Şeşpərlərə əgər nişan olsa yaxan, qoymaram,
Cəng olarsa bu meydanda könül yıxan qoymaram.
Yaxşılıxdan payım vardır, qismətimdi halallıx,
Beca yerə sitəmlərə qəlbi yaxın qoymaram.

Pak olmasan ulu Tanrı verər ağır cəzanı,
Qır qazanda qaynadar o, düz yolunnan azanı,
Sitəmlərə düçar edər mərdə quyu qazanı,
Mərdü-məzar deyiləni səmtə yaxın qoymaram.

Miskin Abdal göstərməyib heç zaman sərt üzünü,
Dərviş oluf əridərəm ürəklərin buzunu.
Yol gedirəm diyar-diyar neçə illər uzunu,
Düz ərkanı əyri gedən ya bəy, ya xan qoymaram.

Arif adamlar Miskin Abdalın nəyə işarə elədiyini o saat annadılar. Saz da, söz də hamının xoşuna gəldi. Ələlxüsus da, Sultan Səlimin. O, ağzını açıf "Məni istiyən ustada xələt" – demək istiyəndə Miskin Abdal irəli yeriyif dedi:

– Sultan, mana heş bir xələt, nəmər lazım döyül. Mən pay alan yox, pay verənnərdənəm. Heş kəsin də varında gözüm yoxdu. Dünyanın malı dünyada qalajax. Var, pul əl kiridi, gələr də, gedər də. Yaxşılıq, mərddik isə həmişəlikdi.

Eşidənnər Miskin Abdalın bu sözdərinə bərəkallah deyif, onu alqışdadılar. Sultan Səlim üzünü Miskin Abdala tutuf dedi:

– Miskin Abdal, mənə bir de görüm, şahınnan mənim adıma qoşduğun bu divaniləri necə bir-birinnən ayırd eləmək olar.

Miskin Abdal dedi:

– Sultan, addarı ilə.

Sultan təəccüfnən soruşdu:

– Nejə, yə'ni addarınnan, hər ikisinin də adı "Baş divani" deyilmi?

Miskin Abdal təmkinini pozmuyuf dedi:

– Xeyr, Sultanım, hər iki divaninin adı "Baş divani" döyül. Şah İsmayılın adına qoşuduğum havanın adı "Baş divani", sənin adına qoşuduğumunku isə "Ayax divani"di.

Bunu eşidəndə sultanı elə bil ildırım vurdu. Əsəbi halda soruşdu:

– Bu nə deməkdi? Bunu necə başa düşmək olar?

Miskin Abdal qürurnan dedi:

– Çox asan. Burada başa düşülməyən heş nə yoxdu. Şah İsmayıl mənim şahımdı. Sən isə başqa bir ölkənin sultanısan. İndi mənim sana bir sualım var, Sultan, əgər sənin elçin səni başqa hökmdar-

rardan üstün tutmasa, sən ona hansı göznən baxarsan? Yaqın kı, ona nankordu, deyərsən.

Sultan özünnən asılı olmuyarax dedi:

– Bəli.

Miskin Abdal dedi:

– Sultan, onda inciməyin yeri yoxdu. Əgər sənin adına qoşduğum "Ayax divani" saz havasının adı xoşuna gəlmirsə, bu adı dəyişmək də olar.

Sultan Səlim narazı halda soruşdu:

– İndi nə ad qoymax istiyirsən?

Miskin Abdal dedi:

– Sultana layiq bir gözəl ad: "Osmannı divanisi".

Bu söz Sultan Səlimin ajığından köz-köz olan ürəyinə bir su çilədi. Başı ilə razılığını bildirdi. Ancax Miskin Abdalın xətrinə dəyə bilmədi. çünki onu hamı bir kəramət sahibi, övliya kimi tanıyırdı, qədrini bilir, hörmətini saxlıyırdı.

Ürəyini Sultana boşaltdığına görə Miskin Abdal özünü rahat hiss elədi. Çünki o Sultan Səlimin nə yuvanın quşu olduğunu yaxşı bilirdi. O zəhərri bir ilan kimi Şah İsmayılı vurmağa girəvə axtarırdı. Hələlik Miskin Abdal buna yol vermirdi.

Bir neçə günnən sonra Miskin Abdalın qapısı döyüldü. O qapıyı açıf Sultan Səlimin adamını gördü. Həmin adam bildirdi ki, Sultan onun "Haçadil" atını almaq istiyir. Bu sözdən bərk qəzəflənən Miskin Abdal dərhal şaha məktuf yazıf elçilikdən geri çağrılmasını rica elədi. Şahın cavabını gözləmədən tezliklə Təbrizə qayıtdı.

Şah İsmayıl Miskin Abdalın Osmannı dövlətində başına gələnnəri eşidif, ustadının kamalına, qeyrətinə dönə-dönə əhsən dedi. Xeyli vaxtdan bəri Miskin Abdalın sazınnan-sözünnən ayrı düşən Şah üzünü ona tutuf dedi:

– Ustad, yadındamı bizim bir "dastan" əhdi-peymanımız varıydı. İndi o əhdi-peymanımızı yerinə yetirməyin vaxtı döyülmü?

Miskin Abdal dedi:

– Bəli, qibleyi-aləm, vaxtıdı. Savax axşam məclis qur. Dediyim sözə əməl eliyim.

Şahın əmrinnən bir gün sonra sarayda məclis quruldu. Buraya çoxlu mö'təbər adamlar toplaşmışdı. Meydana xalçalar döşənmişdi. Hər yannan çil-çıraxlar, şamlar bərq vururdu. Hamı yerbəyer olan

kimi Miskin Abdal şahın yanınnan qalxıf sazı çiynində meydana daxil oldu. Məclisə başdan ayağa göz gəzdirif salam verdi. Sonra üzünü şaha tutuf dedi:

– Qibleyi-aləm. Dastan nə şe'rdi, nə nağıl. Dastan qəhrəmannar haqqında sözdü-nağıllı düzülüf qoşulan bir uzun hekayətdi. Bə'zən bunu on beş gejə də danışsan qurtarası döyül.

Bunu eşidən məclisdəki sənətkarrarın matı-mutu qurudu. Çünki onnar hələ indiyəcən dastan nə olduğunu bilmirdilər. Bir də bunu haradan biləydilər. Axı ilk dəfəydi dastan söylənirdi. Miskin Abdal ilk dastan yaradırdı.

Miskin Abdal sözünə davam eliyif dedi:

– Qibleyi-aləm, bu dastanın adı belədi: "Aslan Şahnan İbrahim". Mən bu dastanı Şeyx Heydərin oğlannarına düzüb-qoşmuşam. Aslan şah sənsən, İbrahim isə nakam qardaşın.

Şah başınnan razılığını bildirdi. Miskin Abdal üç ustadnamədən sonra dastanı söyləməyə, çalıf-oxumağa başdadı. Hamı elə qulaq kəsmişdi ki, məclisdə milçək vızıltısı da eşidilirdi. Nə məclisdə əyləşənnər, nə də dastana diqqətnən qulaq asannar Miskin Abdalın söhbətinnən doymaq bilmirdilər. Dastanın şirinniyi hamının yuxusunu ərşə çəkmişdi. Miskin Abdal axşamnan başdadığı "Aslan şahnan İbrahim" dastanının duvaqqapmasını oxuyuf qurtaranda bir də gördülər ki, xoruzdar bannamağa başdıyıf, dan yeri də təzəcə sökülür.

Dastan gejəsinnən doymuyan Şah İsmayıl soruşdu:

– Ustad, de görüm bunnan başqa da dastanın varmı?

Miskin Abdal dedi:

– Hələlik biri də var, qibleyi-aləm.

Şah İsmaylı soruşdu:

– Ustad, o nə dastandı?

Miskin Abdal dedi:

– Qibleyi-aləm, o "Yetim Hüseyn"in dastanıdı.

Şah İsmayıl soruşdu:

– Ustad, o dastanda söhbət nədən gedir?

Miskin Abdal dedi:

– Yetim Hüseynnən, qibleyi-aləm.

Şah İsmayıl soruşdu:

– Ustad, bəs "Yetim Hüseyn" dastanını nə vaxt eşidə bilərik?

Miskin Abdal dedi:

– Şahımın könlü nə vaxt istəsə, onda.

Bu sözdən Şah İsmayıl çox xoşhal oldu. Elə söhbət təzəcə qurtarmışdı kı, şaha xəbər gətirdilər ki, qonşu ölkədən bir qasid gəlib şahı görmək istiyir. Bu qasid kim ola, kim olmuya qonşu dövlətin hökmdarı Şeybanı xanın göndərdiyi adam. Şahın göstərişinnən qonaq içəri daxil oldu. O əlindəki naməni şaha verdi. Şah naməni oxuyuf gördü kü, Şeybani xan onu davaya çağırır. Bunu eşidəndə elə bil hamının üstünə su ələndi. Xeyli çək-çevir, məsləhət-məşvərətdən sonra belə qərara gəldilər ki, bu qasidə bir adam qoşuf Şeybani xanın yanına göndərsinnər. Şahın adınnan ona məsləhət görsün ki, bu işdən əl çəksin, davaya nəhlət deyiflər. Elə də elədilər. Amma Şeybani xan həmin adamları geriyə qaytarıf Şah İsmayıla bir kəşkül, bir də bir çəlik göndərdi. Bu onun şah yox, dərviş nəslinnən olduğuna işarəydi. Belə bir təhqirə dözmək olmazdı. Şah İsmayıl qoşun böyüyünü çağırıf məsələdən hali elədi. Qoşun döyüşə hazır oldu. Bu vaxt Miskin Abdal irəli çıxıf dedi:

– Şahım, mən Şeybani xanı yaxşı tanıyıram. O, Osmannı sultanının fitfasına gedir. Düdəmənin biridi. O qədər güjü yoxdu. İcazə versəydin döyüşə əvvəlcə Göyçədən, Dərəçiçəkdən, Dərələyəzdən, Qaçaq Mehdinin dəstəsindən olan igiddər girərdi. Görsək ki, düşmən güj gəlir, onda sən bütün qoşununnan hay verərsən.

Miskin Abdalın bu məsləhəti şahın ağlına batdı. Miskin Abdal gördü kü, bunu eşidən igiddər cilov gəmirillər. Elə bir himə bəndilər ki, qılışdar qınnan sıyrılsın. Miskin Abdalın ürəyi coşa gəldi, sazını çiyninnən aşırıf bir "Atdandırma" havası çaldı ki, dağ-daş lərzəyə gəldi. Atdar qulun kimi kişnədilər. İgiddər sazın bu səsinnən coşa gəlif atdara süvar oldular. Miskin Abdal da "Haçadil"in belinə qalxdı. Sinəsində saz çala-çala qoşunun qavağında getdi.

Şeybani xan uzaxdan gördü kü, paho Şah İsmayılın qoşununun qavağı açıldı. Baxanda adamın gözü qaralır. Ota, suya san var, qoşuna yox. Bunu görəndə canına bir vicvicə düşdü ki, taa nə deyim. Sonra gördü qoşunun qavağında gələnnərdin biri də Miskin Abdaldı. Özü də sinəsində saz çala-çala gəlir. Öz-özünə fikirrəşdi ki, ey dilqafil, mən bunnarı davaya çağırmışam, yoxsa toya. Sümüyü yaman ürpəşdi. Qavax cərgədəki nər kimi döyüşçüləri görəndə ayağı yerdən üzüldü. O saat annadı kı, bunnara güjü çatmıyajax. Daha bir

qələtiydi eləmişdi. Bir belə camahatın qavağında sözünü geri götürə bilməzdi. Bir də Şah İsmayıl çox ağır təhqir olunmuşdu. Yaxşı bilirdi ki, Şah İsmayıl qisası qiyamata qoyannardan deyil. Qoşunnar üz-üzə dayandılar. Şah İsmayıl ucadan dedi:

– Əgər Şeybani kişidisə, meydana çıxsın. İkimiz vuruşax. Kim-kimi bassa, qələbə onun olsun. Nahax yerə qırğına yol vermiyək.

Daşdan səda gəldi. Şeybani xannan yox. O baxdı kı, iş şuluxdu dərhal öz qoşununa əmr elədi ki, hücum eləsinnər. Şah İsmayılın igiddəri elə bunu gözdəmirdimi? Dərhal, Miskin Abdalın dediyi kimi Göyçədən, Dərəçiçəkdən, Dərələyəzdən, Qaçaq Mehtinin dəstəsinnən olan igiddər misri qılıncdarını qınınnan sıyırıf düşmənin üstünə atıldılar. Gözünüz yamannıx görməsin, Şeybani xanın qoşununa bir divan tutdular kı, day demə. Leş-leşə söykəndi. Qırılan qırıldı, qaçannar it unu kimi dağa, dərəyə səpələndi. Bu döyüşü seyr edən İsmayılın rəngi gül kimi açılmışdı. O tafşırdı kı, Şeybanidi, quleybanidi, nədi, onu diri tutsunnar. Nə qədər axtardılarsa Şeybanini nə dirilərin, nə də ölülərin arasında tapa bilmədilər. Bir də baxıf gördülər ki, bu düdəmə qorxusunnan qaçıf bir kolun arasında gizdənif. Onu murdar ət kimi sürüyə-sürüyə şahın qavağına gətirdilər. Şeybaninin tula sifətini görən şah dedi:

– Necəsən, quleybani xan?

Şeybani tir-tir əsə-əsə, Şah İsmayılın ayaxlarına döşənif dedi:

– Dədəm, anam sana qurvan, şah. Mana rəhmin gəlsin. Mən şeytan felinə düşdüm. Bir qələtdi eləmişəm, keç günahımnan. Bir də belə qələt eləmərəm. Amanın bir günüdü, məni öldürmə.

Şah İsmayıl dedi:

– Quleybani xan, sənin kimi ləyaqətsiz adamın yaşamağınnan ölməyi məsdahatdı. Amma səni elə belə yox, əzafnan öldürəjəm.

Şahın əmrinnən Şeybani xanı aparıf zindana atdılar. Qavğına çörək əvəzinə bir az təzək, kərmə qoydular. Şah İsmayıl bunnan Şeybani xana demək istiyirdi ki, sən xan nəslinnən yox, davar nəslinnənsən. Bir neçə günnən sonra zindanı açıf gördülər ki, Şeybani xan ajlığa tav gətirmiyif, təzəkdən xeyli gəmirif. Şah İsmayıl baxdı kı, Miskin Abdalın sinəsi genə söznən doluf. Oydu ku, dedi:

– Ustad, bəlkə bu quleybaniyə bir deyiləsi sözün var?

Miskin Abdal dedi:

– Bəli, qibleyi-aləm, izin versən deyərəm.

Şah İsmayıl dedi:

– İzindi, ustad, de gəlsin.

Aldı Miskin Abdal görək Şeybani xanın tə'rifini nejə verdi:

Atalar deyif ki, davaya nəhlət,
Çox dedik, gəlmədi yola Şeybani,
Qatdı aralığı vermədi möhlət,
Nə yaman tez girdi kola, Şeybani.

Əsli haramzada, zatı qırıxdı,
Dəhanda söz qalmaz, ağzı cırıxdı,
Hulqumu quruyuf, çoxdan zırıxdı,
Qurumsax, dələduz, qula Şeybani.

Hazırdı ömürrük zəhər olmağa,
Qoymadı gejəni səhər olmağa,
Çalışdı köhləndə yəhər olmağa,
Döndü bir qatırda çula Şeybani.

Tamahı ujunnan tora düşüfdü,
Qayadan yapışıf, zora düşüfdü,
Zindana düşmüyüf, gora düşüfdü,
Aslan meydanında tula Şeybani.

Adını "xan" qoyuf, düdəmə imiş,
Ağıldan kəm imiş, dəmdəmə imiş,
Hədəsi, qorxusu sərdəmə imiş,
Dəyməz beş şahılıx pula Şeybani.

Bir zaman Allaha Allah demirdi,
Qoyunun ətinnən kabab yemirdi,
Zindanda ajınnan kərmə gəmirdi,
İndi çaqqal kimi ula, Şeybani.

Miskin Abdal deyər, sağdı sağırı,
Açıldı, qalmadı pası-paxırı,

Nə yaman pis gəldi onun axırı,
Tay oldu bir qara qula Şeybani.

Söz Miskin Abdalın ağzınnan qurtaran kimi Şah İsmayıl əmr elədi ki, bu mə'lunu aparıf bütün ölkəni dolandırsınnar, sonra qul bazarına çəksinnər. Qoy hamı bunun cəmdəyinə tüpürsün. Sonra cəllada tafşırdılar kı, aparıf bir dərədə onun başını kəssinnər, cəmdəyi qurda-quşa yem olsun. Qoy hamı bilsin ki, günahsız tökülən qannarın cəzası budu.

Elə də elədilər. Şeybani xan cəhənnəmə vasil oldu. Onun əlindən cana gəlmiş xalq da dincəldi. Bu qələbədən sonra ölkədə bayram oldu. Hər yan əl-əlvan bəzəndi. Elə bil dünya çırağvana döndü. Bir şaddıx, bir şadyanalıx başdadı kı, gəl görəsən. Axşam sarayda dastan məclisi quruldu. Miskin Abdal "Yetim Hüseyn"i başdamazdan əvvəl şaha xitabən iki saz havası çaldı. Birincisinin adını "Şah Xətai" gəraylısı, ikincisinin adını "Şah sarayı" qoydu. Sonra başdadı səhər xoruz banına kimi "Yetim Hüseyn" dastanını söyləməyə. Aşıxlar da bu təzə dastanı da, saz havalarını da sinədəftər elədilər.

Miskin Abdal qojalsa da, şah onnan əl çəkmirdi. Yenə də ən çətin yerrərə onu səlahiyyətdi elçi göndərirdi. Fürsət düşən kimi da bir məclis təşkil etdirər, Miskin Abdalı çaldırar, oxutdurar, həyatdan bir zövqü-səfa alardı. Miskin Abdal da onnana nəfəs alır, İsmayılı öz doğma balası kimi sevirdi.

Bir gün xəvər gəldi ki, bəs, bilməzsənmi Osmannı sultanı Səlim müharibə etməyə gəlir. Bunu eşidən qoşun böyüyü gəlib Şah İsmayıla dedi:

– Qibleyi-aləm sağ olsun. Osmannıların qoşununun sayı bizimkinnən qat-qat çoxdu. Özləri də gedib Firəng dövlətinnən top gətiriflər. Onnar indi Çaldıranın o bir yanında filan dağın arxasında xəbərsiz dincəlillər. Gəl gecə ikən üstdərini kəsək. Belə olsa biz onnarı məğlub eliyərik.

Qoşun böyüyünün bu sözdərini eşidən Şah İsmayıl bərk qəzəfləndi. Dedi:

– Bu nə deməkdi? Biz bəyəm oğru, quldurux ku, gejə yarı gedif karvan qavağı kəsək. Dava igid üçündü. Neyliyək ki, onnar çoxdu. Kişi kimi vuruşmalıyıx. Allah ya onnara verər, ya bizə.

Beləliknən Çaldıran düzündə dava başdadı. Qılınc, qalxan səsinnən, igid nə'rəsinnən bu düz ərəsət-məhşər ayağına dönmüşdü. Bütün dünya al-qana batmışdı. Şahın döyüşçüləri şir kimi döyüşürdülər. Şah İsmayılın qılıncının nər savaşına düşmən tab gətirə bilmirdi. Osmannılar pərən-pərən düşmüşdülər. Qaçıf dağılan vaxtı birdən osmannılar tərəfdən toplardan atəş açılmağa başdadı. Nər savaşına tav gətirmiyən osmannılar firənglərin təzə icad elədiyi bu silahlardan Qızılbaş ordusu üzərinə od yağdırmağa başdadılar. İlk dəfə belə bir silah görən Qızılbaş ordusu pərən-pərən düşdü.

Bu dəhşətli qırğına tab gətirə bilmiyən Şah İsmayıl bir dəli nə'rə çəkif yaralı aslan kimi düşmən üzərinə şığıdı. Onun qılıncı havada hər parlıyanda neçə-neçə düşmən başı yetişmiş meyvə kimi Qəmərdayın ayaxları altına tökülürdü. Bir neçə həmlədən sonra Şah İsmayıl düşmən səflərini yarıf Firəng toplarına çatdı. Onun oddu qılıncı topların lülələrini biçif-tökməyə başdadı.

Düşmən bü dəhşətli mənzərədən qorxuf geri durdu. Dava səngidi. Hər iki tərəf böyük itkilər verif öz tərəfinə çəkildi

Döyüş meydanında bir addım belə yanınnan aralanmadığı şahının çox kədərri olduğunu görən Miskin Abdal onan sual elədi:

– Şahım, niyə belə kədərrisən?

Şah İsmayıl kədərri gözdərini onun üzünə dikib dedi:

– Ustad, qoşunun azəqəsi tükənif. Arxadan da hələ yemək gəlif çatmıyıf. Belə ağır döyüşdə aj qoşunnan neyləmək olar?

Miskin Abdal fikirrəşmədən cavaf verdi.

– Şahım, icazə versəydi qoşunu yedizdirif, doyuzdurardım.

Şah İsmayıl təəccüfnən soruşdu:

– Ustad, mən bir qüdrətli ölkənin şahı ola-ola bunu eliyə bilmədiyim halda, sən nejə eliyəjəksən?

Miskin Abdal əvvəlki inam və qətiyyətnən dedi:

– Şahım, sən mənə izin ver. Sonrasınnan işin yoxdu.

Bu sözdən çaşqın qalmış şah istər-istəməz icazə verdi. Sonra Miskin Abdalı diqqətnən izdəməyə başdadı kı, görsün o, bu qədər yeməyi haradan alıf döyüşçülərə paylıyajax?! Gördü kü, Miskin Abdal xurcununnan bir kömbə çörək, bir badya da qatıx çıxartdı. Əsgərrərə bir-bir kömbədən və qatıxdan bölüf verdi. Payladıxca nə bu bir kömbə çörək, nə də bir badya qatıx qurtarmırdı kı, qurtarmırdı. Hələ bir az da artıx qaldı. Bunu görən şah heyrətə gəldi. Onsuz da Miskin Abdalın böyük kəramət sahibi olduğunu bilirdi. Ancax belə

bir mö'cüzəyə adamın inanmağı gəlmirdi. Sabah dava yenidən qızışdı. Çox ağır savaş oldu. Axır kı, topların hesabına Osmannılar döyüşdə uğur qazandılar. Osmannılar Qızılbaşdardan xeyli əsir almışdılar. Xəvər gəlib çatdı ki, sultanın əmrinnən paşa əsirrəri qılınşdan keçirdir. Bunu eşidəndə istər şahın, istərsə də saray ə'yanlarının kefinə soğan doğrandı. Çox mə'yus oldular. Çıxış yolu axtardıxları vaxt Miskin Abdal dilləndi:

– Şahım, icazə versəydin, bu işi də öz yoluna qoyardım.

Bunu eşidəndə elə bil Şah İsmayılın başınnan duman ayazıdı. Axı o, Miskin Abdalın hünərinə yaxşı bələdiydi. Bu nurani ağsaqqal hara gedirdisə, orada iş düzəldir, əmin-amannıx yaradırdı.

Şahınnan icazə alan Miskin Abdal Osmannı dövlətinə, Sultan Səlimin yanına getdi. Ədəb-ərkannan salam verdi. Sultan da, başqaları da onu böyük ehtiramnan qarşıladılar. Sultan gördü kü, Miskin Abdal yaman doluf, sözdü adama oxşuyur. Oydu ku, dedi:

– Miskin Abdal, xeyir ola, sən hara, bura hara? Nə əcəb gəlmisən? Bəlkə çox sevdiyin şahının bir xahişini gətirivsən?

Miskin Abdal gözdərini sultanın gözdərinə zillədi. Bu baxışdan sultanı elə bil vahimə basdı. Bunu hiss edən Miskin Abdal dedi:

– Sultan, mən sənin yanına şahımın xahişini yox, sana deyəcəyim öz sözdərimi gətirmişəm.

Sultan şaşqın halda dedi:

– Nədi o sözdər?

Miskin Abdal dedi:

– Onda qulaq as.

Bunu deyif Miskin Abdal sazını köynəyinnən çıxardıf bir "Osmanlı divanisi" üstündə aldı görək nə dedi:

Çərxi-gərdiş yarıtmadı dövlətdən, vardan məni,
Min-bir dərdi əzab verif, ayırdı yardan məni.
Səkrəqibin fitnə-feli çəkdi məni çarmıxa,
Yazıq Həzrət İsa kimi asdı divardan məni.

Bunu eşidən Sultanı qucunma tutdu. Ürəyində öz-özünə dedi: "Ayə bu məni lap biyavır elədi ki... "

Miskin Abdal aldı divanisinin o biri bəndini:

Türk əcəmə, əcəm türkə zülm eləsə günahdı,
İkisi də bir kökdəndi, yaradan da Allahdı,
Öz elinə düşmən kəsin axır günü kütahdı,
Qadir mövlam, uzaq eylə bayquşdan, sardan məni.

Sultan gördü kü, Miskin Abdal ovu gözünnən vurdu. Onun sözdəri eşidənlərin hamısını yerinnən tərpətdi. Gördülər ki, kişi lap qur'anın ortasınnan danışır. Özü də onun kəramət sahibi-bir övliya olduğu hamıya bəlliydi.

Onnarın nə fikirrəşdiyini hiss eliyən Miskin Abdal aldı görək sözünün tafşırmasında onnara nə dedi:

"Qırxlar piri" özü verif dərsimi ümman mənim,
Çətin girə ürəyimə, ləini-şeytan mənim,
Seyid Miskin Abdal mənəm, söz mənim, meydan mənim,
Qoruyanım, özün qoru xain dostdardan məni.

Söz tamama yetəndə Miskin Abdal gördü kü, Sultan da, onun adamları da yaman kirişiflər. Daşdan səs çıxır, onnardan yox. Axır kı, sultan bir az özünü düzəldif dedi:

– Miskin Abdal, açıx de görüm sözün, mətləvin nədi?

Miskin Abdal dedi:

– Sultan qulaq as. Qoy dediklərimi paşaların da eşitsin.

Miskin Abdal "Paşa köçdü" saz havası üstündə görək nə dedi, biz də nə eşitdik:

Sultanın fərmanı, paşa qəzəbi,
Paşam, mürvət elə, belə kar olmaz.
Üzdü məni bu yolların əzabı,
Paşam, mürvət elə, belə kar olmaz!

Canım qoydum mürşüdümün yolunda,
Sərgərdən qalmışam Urum elində,
İslam bada gedir cəllad əlində,
Paşam, mürvət elə, belə kar olmaz!

Miskin Abdal çəkər qəmi, möhnəti,
On iki imamdı peyğəmbərin züryəti,
Sünnü, şiə Məhəmmədin hümməti,
Paşam, mürvət elə belə kar olmaz!

Bu sözdən sonra elə bil, sultan da, yanındakılar da yatmışdılar ayıldılar. Bildilər ki, Miskin Abdal nə demək istiyir. Sultan Səlim Miskin Abdalı süzüf dedi:

– Miskin Abdal, sənin sözdərini yerinə yetirmək üçün iki şərtim var. Əməl eləsən, əsirrər qılıncdan keçirilmiyəjək. Əməl eliyə bilməsən, bu mənim günahım döyül.

Miskin Abdal dedi:

– Sultan, o şərtdər hansılardı?

Sultan dedi:

– Birincisi bizə görə bir söz də çalıf oxuyasan. Özü də ustadnamə ola. İkincisi, gərək sənin istəkli şahının qılıncını mana gətirtdirəsən.

Miskin Abdal hər iki şərti qəbul eliyif dedi:

Bir sultan əyləşif nərgiz taxtında,
Ortalığı şəmşir endi, ağlaram.
Məkas fəqan etdi, dərya üzündə,
Yelkənim tərsinə döndü, ağlaram.

Nökər olan qulluq edər xanına,
Mə'şuqlar susadı aşiq qanına,
Cəbrayıl yetişdi hax məqamına,
Ahınnan şahpəri yandı, ağlaram.

Ya rəbb, görən kimlər yetər dadıma,
Həsrət qaldım, ojağıma, oduma.
Miskinəm, ərənnər düşdü yadıma,
Didəm yaşı selə döndü, ağlaram.

Hamı gördü kü, Miskin Abdal baltanı lap kökünnən vurdu. Nə deyirsə, düz deyir. Sultan çox nainsaflıx eliyir. Onu deyim ki, sultan da əvvəlki sultan deyildi. Miskin Abdalın sözdəri onun ürəyinə bir tıqqıltı salmışdı. Onu eşitməsə, bu işin axırının yaxşı olmayacağını

hiss eliyirdi. Qərəz, nə başınızı ağrıdım, Miskin Abdal tez adam göndərif şahın qılıncını gətirtdi. Sultan Səlim qılıncı əlinə alıf bir o yana, bir də bu yana baxıf topun lüləsinə endirdi. Qılınc lüləyə heç iz də salmadı. Bunu görüf adamların yanında pərt olan Sultan qəzəfnən dedi:

– Miskin Abdal, görürsən, şahın məni alladıf, mənə öz misri qılıncını yox, başqa bir qılınc göndərif.

İşin nə yerdə olduğunu bilən Miskin Abdal üzünü sultana tərəf tutuf qürurnan dilləndi:

– Sultan, qılınc həmin qılıncdı, amma vuran qol o qol deyil.

Bunu eşidəndə elə bil sultanı ildırım vurdu. Annadı kı, Miskin Abdal sözün düzünü danışır. Özünü o yerə qoymadı. Gördü kü, hamının diqqəti ondadı. Öz sözünə xilaf çıxsa xalq onnan üz döndərər. Oydu ku, ələci kəsilif içinnən qırıla-qırıla dedi:

– Miskin Abdal, get əsirrəri sana bağışdadım.

Miskin Abdal xoş xəvərnən geri qayıtdı. Başına gələnnərin hamısını Şah İsmayıl başda olmaxnan bütün saray ə'yanlarına danışdı. Hamı Miskin Abdalın ağlına, kamalına heyran qaldı. Şah əmr elədi. Miskin Abdalın şərəfinə şənnik məclisi quruldu. Yemək-işmək, çal-çağır dünyanı başına aldı. Hamı hər yerdə Miskin Abdalın böyüklüyünnən, müdrikliyinnən ağız dolusu danışırdı. Axşam saz-söz məclisində meydan genə Miskin Abdala verildi.

Şah İsmayıl dedi:

– Ustad, bu gün nədən başdamax istiyirsən?

Miskin Abdal dedi:

– Qibleyi-aləm, "Şah divani" üstündə bir divani oxumax istiyirəm.

Şah İsmayıl dedi:

– Buyur, ustad.

Miskin Abdal başdadı oxumağa:

Xoşbəyanlıx virdim oldu, böhtana yol vermədim,
Şirin-süxən əndəlibəm, hədyana yol vermədim.
Nifrin edib, lə'nət dedim xainə, iblisdərə,
Qəlbimi ayna saxladım, nadana yol vermədim.

Bir bəşəri incitmədim, özümü şah saymadım,
Dostun sirrini söylüyüf, dildən-dilə yaymadım,
Ömür qısa, dünya əzəl, çox yaşadım, doymadım,
Dür mətaha meydan açdım, tək cana yol vermədim.

Aşıq oluf dərs alannar, söz desin sözüm kimi,
Miskin Abdal, məğrur istə hamıyı özün kimi,
Arifi, mətləb qanını bilirəm gözüm kimi,
Sinəm üstdən mərd yeridi, şeytana yol vermədim.

Hər yandan "Afərin", "Əhsən" sədaları ucaldı. Şah Miskin Abdala üz tutuf dedi:

– Ustad, indi nə oxumax istəyirsən?

Miskin Abdal dedi:

– Şahımın icazəsi ilə bir təcnis oxuyardım.

Şah təəccüfnən dedi:

– Bu da sənin təzə icaddarınnan biridi? İndiyə kimi heş yerdə eşitməmişəm.

Miskin Abdal dedi:

– Qibleyi-aləm sağ olsun, indi oxuyaram, eşidif feyziyab olarsınız:

Yaz olanda büsatıdı dağların,
Ətəyində yer eyləyər elata.
Qarı düşmən qovğa, sala üstünə,
Bata bilməz, süvar olsa el ata.

Bir Allahdı ərşi-kürşü yaradan,
Adı çoxdu, bir adı da Yaradan,
Nə yaratsan Yaradanı yarat, an,
Qorx ku, sənə qara daşı el ata.

Miskin Abdal, şeytan anma, nər div an,
Müxənnəsə tutajaxdı nər divan.
Haqqa doğru sən qoyufsan nərdivan,
Ona görə deyir sənə el: "Ata".

Gördülər ki, paho Miskin Abdal saz-söz xəzinəsinin ağzını hələ təzəcə açıf. Məclisdəkilər Miskin Abdalın bu qabiliyyətinə də heyran qaldılar.

Şah İsmayıl vəcdə gəlif Miskin Abdala dedi:

– Ustad, bu gejəki məclisimizdə bizi yaqın ki, hələ çox heyrətləndirəjəksən.

Miskin Abdal dedi:

– Şahım, indi də "Şah Xətai" havasını səsdəndirmək istiyirəm.

Şah gülümsüyüf dedi:

– Buyur, ustad.

Miskin Abdal sazını "Şah Xətai" gəraylısı üstündə köklüyüf aldı görək nə dedi:

Vətən deyif ağlıyanın,
Göz yaşdarı selə dönər,
Axıf gedər gejə-gündüz,
Bir məkanda gölə dönər.

Yolu yorğun yol aşanın,
Axırı yox şöhrət-şanın,
Qürbət eldə yaşıyanın,
Bir həftəsi ilə dönər.

Bir yandadı hay-haraylar,
Bir yandadı sonsuz vaylar,
Çil-çıraxlı çox saraylar,
Yanıb-yanıf külə dönər.

Mayasıdı haxdan halal,
Hər kəlməsi sirli sual,
Qərib olan Miskin Abdal,
Bir gün olar elə dönər.

Belə-belə Şah İsmayıl ona saz-söz sənətinə dair bir-birindən maraxlı suallar verdi. Miskin Abdal da başdadı sazın, sözün sirrərinnən onnara mə'lumat verməyə. Şah dedi:

– Ustad, neçə saz havasının ustadısan?

Miskin Abdal dedi:

– Qibeliyi-aləm sağ olsun, bir xeyli var...

Şah İsmayıl maraxnan dedi:

– Onnardan bir-neçəsinin adını çəkə bilərsənmi?

Miskin Abdal dedi:

– O nə sözdü, şahım, indi mən deyim, sən də, eşidənnər də qulax assınnar: "Şah divani", bu həm də "Baş divani"di, "Şah sevəni", "Şah qalxdı", "Şah Xətai" gəraylısı, "Ayaq divani", bu həmdə "Osmannı divanisi"di, "Şah sarayı", "Heydəri", "İrvahamı", "Sultanı", "Miskini", "Abdalı", "Sənubəri", "Göyçə gözəlləməsi", "Göyçə çuxuru", "Göyçə döndərməsi", "Göyçə şikəstəsi", "İsmayılı", "Göyçə gülü", "Hüseyni", "Atdandırma", "Paşa köşdü" və yeri düşdükcə adını çəkəcəyim bir çox başqa havalar.

Şah İsmayıl dedi:

– Yaxşı, ustad, bəs niyə həmişə sazını köklüyəndə ortadakı bir pərdənin üstündə köklüyürsən? Olmazmı bir pərdə yuxarı, bir pərdə aşağı tutasan?

Miskin Abdal dedi:

– Yox, olmaz, şahım. Bu da sazın öz qayda-qanunudu. Onnan kənara çıxmaq mümkün deyil. Özü də həmin pərdənin adı "Baş pərdə"di. Bu günnən mən onu "Şah pərdə" adlandırıram. Çünki şahım sazın vurğunudu.

Şah İsmayıl dedi:

– Ustad, mən həm də sənin sözünün vurğunu, aşiqiyəm.

Miskin Abdal dedi:

– Səni həmişə var ol, şahım!

Şah İsmayıl dedi:

– Ustad, görəsən niyə saza ürəkdən bağlanıf, onu günnərnən, aylarnan eşitməkdən doymurux. Bəlkə bunun da bir sirri var?

Miskin Abdal dedi:

– Bəli, qibleyi-aləm, onun böyük bir sirri var.

Şah İsmayıl dedi:

– Nədi, o sirr?

Miskin Abdal dedi:

– Qibleyi-aləm, mən hələ balaca uşağıydım. Atam məni əvvəlcə molla yanına qoydu, orada dərsimi aldım. Sonra döyüş sirrərini öyrəndim. Daha sonra atam məni Göyçənin Dəliqardaş kəndinnən

olan Ozan Heydərin şəyirdi olmuş Ozan İbrahimin yanına şəyirdiyə qoydu. Az vaxtda qopuz çalmaxda ustadımı mat qoydum. Ancax nə qopuz, nə də onda çalınan havalar məni qane eləmirdi. Hey düşünürdüm ki, qopuza oxşar bir musiqi aləti yaradım. Gejə-gündüz səbri-qərarım yoxuydu. Fikrim-xəyalım yalnız ondaydı. Bir gün yuxumda gördüm ki, bir nurani qoja mana yaxınnaşdı, mehriban-mehriban saçımı sığallıyıf dedi:

– Oğul, sözdərimə yaxşı qulaq as. Görürəm çox pəjmürdəsən. Nigaran olma. Mən Qadir Allahın köməkliyinnən səni bu sıxıntılardan azad eləməyə gəlmişəm.

O bu sözdəri deyif mana bir saz göstərif dedi:

– Savah gedərsən filan ustanın yanına. O, səni görən kimi tanıyajax. Çünki mən onun da yuxusuna girif nə lazımdı demişəm. Sana ürəyinə yatan bir çalğı aləti düzəltdirif verəjəm. Onun adı "saz"dı. Saz gördüyün kimi ürəyə oxşuyur. Sən onu qopuz kimi dizinin üstünə yox, ürəyinin üstünə qoyuf, üzü Allaha doğru çalajaxsan. Çünki sazın incə, gözəl səsində Allah eşqi olajax. Sazı çalana ozan yox, aşıx deyiləjək. Sana saz kimi əvəzsiz bir qismət verirəm. Sazına-sözünə görə adın dillərdə əzbər olajax. Dünya neçə qərinə doluf, boşalsa da sən hörmətnən yad ediləjəksən. Bu sənət sənin adınnan qalajax.

Bunu deyif qoja qeyb oldu. Mən ayıldım. Yuxumda gördüklərimi atama danışdım. O məni həmin ustanın yanına apardı. Usta məni görən kimi tanıdı. Sazı düzəldif verdi. Sazı əlimə alıf baxanda elə bildim ki, dünya mənimdi. Onu ürəkdən çalmağa başdadım. Başıma xeyli adam toflaşdı. Onnar sazı görüf çox təəccüfləndilər. Mən gördüyüm yuxuyu onnara danışdım. Usta da belə bir yuxu gördüyünü söylədi. O günnən başdadım Allah vergisi və eşqi olan sazı ürəyimin başında çalıf oxumağa. Daha iki saz düzəltdirif birini bavam Cəfərə, birini də atam Məhəmmədə ərməğan elədim. Onnar da sazı yavaş-yavaş dınqıldatmağa başdadılar. Sazın "Şah pərdə"də köklənməsini də, həmin nurani qoja yuxuda mana öyrətdi. O günnən sazın səsi-sorağı hər yana yayılmağa başdadı. Aşıq olmaq istiyənnərin sayı günnən-günə çoxaldı. Qısa zamanda aşığın-sazın sorağı hər yannan gəldi.

Eşitdiklərinnən vəcdə gələn şah ucadan dedi:

– Lələ, Miskin Abdal həm də gözəl şairdi. Mən onun daha çox

sevdiyim yeddi böyük şairdən biri bilirəm.

Hüseyn Lələ bəy:

–Doğrudur, mürşüdüm! Miskin Abdal bu sevgiyə layıxdı.

Şah İsmayıl:

– Lələ, Miskin Abdal özü boyda mö'cüzədi. Çağır Xəttatı. Xəttat o saat hazır oldu. Şah İsmayıl dedi:

– Yaz, Xəttat. "Ey mö'min insannar, Miskin Abdal mö'təbər şəxsdi, ona sidq ürəknən inanın, nə mətləbiniz varsa onnan diliyin".

Şah həmin fərmana möhür vuruf qol çəkdi, verdi Miskin Abdala, dedi:

– Ustad, bu fərmanı mənnən yadigar saxla. Qoy gələcək nəsillər bilsinnər ki, mö'cüzələri, müdrikliyi ilə hamıyı heyrətə gətirən Miskin Abdal Şah İsmayılın ən yaxın dostu, ən çox inandığı adamlardan biri oluf. Həmin günnən bu mö'təbər ağsaqqalı özünün vəziri tə'yin elədi.

Şah İsmayıl Miskin Abdala həm də üzərində ay və səkkiz guşəli ulduz olan bir daş möhür və şeyx nəslindən qalan sınaqlı bir əl əsası da bəxşiş etdi.

Məclis beləcə deyif-gülə başa çatdı. Miskin Abdal ürəkləri öz şirin sözdəri, ağlı, kamalı ilə sehrləmiş, məftun eləmişdi. Heç kəs onnan ayrılmax istəmirdi.

Miskin Abdalın hörməti sarayda günnən-günə yüksəlirdi. Bunu gözü götürmüyən saray ə'yanlarınnan biri Şah İsmayılla Miskin Abdal arasında olan bu qayım-qədim dostduğu sarsıtmaq üçün gecə-gündüz fürsət axtarırdı. Axır kı, bir gün o uydurduğu dəhşətli bir yalannan şahın qəlbinə şübhə toxumu səpə bildi.

Hamıdan çox inandığı bir adamın ona xəyanət edə biləcəyini təsəvvür eliyə bilmiyən şah möhkəm sarsılmışdı. O gözətçilərə əmr eləmişdi ki, axşama kimi saraya heş kəsi buraxmasınnar. Baş verənnərin hamısı Miskin Abdala gün kimi aydınıydı. O özünün vəzir libasını geyinif saraya doğru addımladı. Bütün keşikçilərin arasından səssiz-səmirsiz keçib saraya daxil oldu. Dərin fikirlər, xəyallar içində boğulan şah bir də gördü kü, qapı açıldı. O, Miskin Abdalı qarşısında görəndə heyrətdən yerindəcə donuf qaldı. Dərin bir heyrətnən onnan sual elədi:

– Ustad, bu saraya nejə daxil oldun? Sən bura gələndə keşikçilər hardaydılar?

Miskin Abdal kirimişcə sazını sinəsinə basıf aldı görək onun bu sualına necə cavaf verdi:

Səhərdən bu bağın keştinə vardım,
Bu bağın bağbanı ayaq üstədi,
Könlüm pərvaz elər şahı görməyə,
Yatmıyıf seyraquf, ayax üstədi.

Salam verdim, əleyk aldı dərinnən,
Səda gəldi dəryalardan dərinnən,
Əlim üzməm ərennərin dərinnən,
Ağam şahi-mərdan ayax üstədi.

Abdalın paklığı düzgün cavafdı,
Doğru söz söyləmək özü savafdı,
Şahim, nə yatıfsan, dünya xarafdı,
Haqq özü yatmıyıf, ayax üstədi.

Bu sözdəri eşidəndə elə bil Şah İsmayıl qəflət yuxusunnan ayıldı. Şeytan hiyləsinə aldandığını başa düşüf çox peşman oldu. Tez bütün saray ə'yannarını, gözətçiləri, cəlladları çağırtdırdı. Başına gələnnəri onnara danışdı. Özü qəsdən gözətçilərdən soruşdu:

– Mən sizə tafşırmamışdımmı ki, bu gün saraya heş kəsi buraxmıyın? Bəs siz nə hədnən Miskin Abdalı buraxıfsınız?

Gözətçilər bir ağızdan dedilər:

– Qibleyi-aləm sağ olsun, Miskin Abdalı hələ biz uzaxdan görəndə buraxmax istəmirdik. Ancax o bizə gəlif çatanda elə bil qəyifdən dilimiz-ağzımız qurudu, yerimizdə lal-dinməz qara daşa döndük. Özümüz də bilmədik bu nejə oldu.

Bunu eşidənnər heyrət elədilər. Qəzəfdən şahın gözdəri qan çanağına döndü. Miskin Abdal kimi bir övliya haqqında bir xainin sözünnən bədgüman olması onu tamam sarsıtmışdı. Əmr elədi ki, həmin naxələfi tapıf hüzuruna gətirsinnər. O saat namərdi tapıf gətirdilər. Xain ayax üstə ölmüşdü. Nə qədər yalvar-yaxar elədisə xeyri olmadı.

Şah İsmayıl qəzəfnən dedi:

– Cəllad!

Cəllad dedi:

– Mən burdayam, qibleyi-aləm.

Miskin Abdal gördü kü, xainin işi şuluxdu, axırı çatıf. Bir istədi ki, Şah İsmayıldan təvəqqə eləsin ki, onun günahınnan keşsin. Gördü kü, yox, Şah İsmayıl elə pərtdi, elə qəzəflidi ki, ona başqa söz demək olmaz. Naəlac qalıf dedi:

– Qibleyi-aləm, ixtiyar sahibisən. Mə'luna nə cəza verirsən, ver. Ancax yaxşı olar kı, o cəzasını almamışdan əvvəl sinəmdə bir-iki xanə sözüm var, onu deyim, ürəyimdə qalmasın.

Şah İsmayıl dedi:

– Buyur, ustad, de!

Aldı Miskin Abdal:

İnsan oğlu qeybət etdin yoldaşdan,
Kəsdin haqq-salamı, harası qaldı?
Söz yetişdi sahibinə, utandın,
Axır sənə üzün qarası qaldı.

Pislikdən nə çıxar, söylə ay insan,
Çıxmaz yaddan, yüz il keşsə aradan,
Tutax kı, bir yoldaş çıxdı sıradan,
Kimə zər-zivası, xarası qaldı.

Miskin Abdal, bəsdi daha bu qədər,
Bülbül nəğmə deyər, bayquşdar ötər,
Xəncərdən, bıçaxdan, qılınşdan betər,
Sinəmdə pis sözün yarası qaldı.

Söz tamama yetdi. Doğrudan da, Miskin Abdalın hər sözü qılışdan da betər kəsərriydi. Xain nə qələt elədiyini indi lap yaxşı annamışdı. Miskin Abdalın ayaxlarına düşüf yalvarmağa başdadı: "Qələt eləmişəm zatı-pakımnan, bir səhvdi eləmişəm, keş günahımnan".

Bunu eşidən Şah İsmayıl qəzəfnən dedi:

– Mə'lun, sən bir səhv eləmiyifsən. Sən məni bu dünya boyda günaha batırıfsan. Sən məni müqəddəs bir insanın qavağında xəcil eliyifsən. Bunu mana heç allah da bağışdamaz. Sən layiq olduğunu cəzanı almalısan kı, başqalarına dərs olsun:

– Cəllad...

Cəllad dedi:

– Bəli, qibleyi-aləm.

Şah İsmayıl dedi:

– Cəllad apar bu mə'lunu qıyma-qıyma doğra, yekə tikəsini qulağı boyda elə, bəlkə ürəyim soyuya.

Miskin Abdal vəzir olanda da öz səfərrərinnən qalmırdı.

Bu hadisədən sonra genə də Miskin Abdal el-el, oba-oba gəzif Şahının qüdrətini, mənsub olduğu dini təriqətin ideyalarını yayırdı. Hər yerdə Miskin Abdalı böyük hörmətnən qarşılayır, bu nurani qojanın sözünnən, söhbətinnən doymax bilmirdilər.

Bir dəfə yenə də Miskin Abdal sazı çiynində haradansa Təbrizə qayıdırdı. Yaşı doxsanı addamışdı. Yaşdansa da hələ dizi təpərri və gümrahıydı. Səfəri uzaq olmadığınnan yolu piyada keçif gəlirdi. Yol yeriyif yorulduğunnan gəlif Təbrizin kənarındakı bir uçux-sökük, xarava qalmış evin divarının divində oturuf dincəlirdi. Birdən yolnan saray cəlladının atın üstündə keşdiyini gördü.

Elə bil Miskin Abdalın başına göylərdən od ələndi. Bütün ölümlərə nifrət edən bu böyük din xadimi sarayda heç vaxt cəllada salam verif, salam almırdı. Bunu cəllad da yaxşı bilirdi. Miskin Abdal deyirdi ki, insan öz əjəlinnən ölməlidi, insan insanı qətlə yetirməməlidi. Buna görə o var, pul, qızıl üstündə dava eliyif məcburi qırğınnar törədən padşahlara, xannara, sultannara nifrət eliyirdi. Onnarı görməyə gözü yoxuydu. Cəllad da bunnarın biriydi. Miskin Abdal belələrini daş ürəkli adlandırırdı.

Miskin Abdalın burada oturduğunu görən cəllad atının başını döndərif Miskin Abdalın baravarına sürüf dedi:

– Salam, ustad.

Miskin Abdal heç yerinnən də tərpənmədi. Gözdərini uzax bir yerə zilləyif ajıxlı-ajıxlı dedi:

– Cəllad, sən yaxşı bilirsən ki, mən qan tökənlərin salamını almıram.

Salamının cavafsız qaldığını görən cəllad yaman pərt oldu. Ancax özünü o yerə qoymadı. Miskin Abdalı çaşdırmax üçün dedi:

– Əgər sən belə ürəyi yumşax adamsansa niyə o gözəl çəmənzarrığı qoyuf, gəlif bu xaraba, kalafa qalmış evin tozdu-torpaxlı divarının divində oturufsan. Axı, şairlər təbiətin, gözəlliyin

vurğunudu.

Miskin Abdal amiranə bir səsnən dedi:

– Cəllad, sənin baş kəsdiyin çil-çıraxlı, hay-haraylı, dəbdəbəli sarayların da axır taleyi xarabazarrıxdı. Dediyin o çəmənzarrığın da ömrü gödəkdi. Bu gün var, savah yox. Ancax söz çəmənzarrığının ömrü əbədidi.

Cəllad gördü kü, yaman pis yerə ilişif. Peşmannadı kı, nahax yerə yolu düz çıxıf getmədi. Onsuz da Miskin Abdal onu heş vaxt saya salmırdı. Öz-özünə fikirrəşdi ki, gəl ona Göyçəsini yada sal, bəlkə ürəyi yumşaldı. Dedi:

– Ustad, eşitdiyimə görə sənin vətənin Göyçə, Mahalı gözəllik diyarı, cənnət məkanıdı. Bu yaşda belə gözəl vətənnən ayrı düşmək sana çətin deyilmi?

Miskin Abdal fəxrnən dedi:

– Cəllad, indi yurdumuzun hər qarış torpağı mana vətəndi.

Cəllad gördü kü, yox, Miskin Abdala söz tapıf deyə bilmiyəjək. Qaldı çar-naçar, bilmədi nə eləsin. Başdadı sözün səmtini dəyişməyə. Dedi:

– Mana bir saz çal.

Miskin Abdal kinni-kinni dedi:

– Çalmaram.

Cəllad elə zənn elədi ki, Miskin Abdal saz çalmağa pul istəyir. Civinnən xeyli pul çıxardıf dedi:

– Al bu pulları, mana bir saz çal.

Miskin Abdal qəzəfnən dedi:

– Dedim ki, çalmaram.

Cəllada elə gəldi ki, Miskin Abdal pula azımsınır. Ona görə də dedi:

– Bir saz havası üçün mən sana nə qədər pul verməliyəm?

Miskin Abdal qürurnan dedi:

– Cəllad, sən mana dünyanı da bağışdasan, mən sana saz çalmaram. Çünki sən cəlladsan, başkəsənsən, qantökənsən!

Bu sözdəri eşidəndə elə bil cəlladı ildırım vurdu. Əhvalı qarışdı. O ömründə hələ belə təhqir eşitməmişdi. Cəllad öz-özünə qəzəflənif dedi:

– Şair, sən nə üçün adamların ölümünə fərman verən şaha saz çalırsan, onu yerinə yetirən cəllada yox.

Miskin Abdal təmkinnən dedi:

– Cəllad,qulaxlarını aç, yaxşı-yaxşı eşit. Mən heş vaxt Şah İsmayıl Xətaiyə saz çalmamışam. Mən sazı Şeyx Heydər oğlu şair İsmayıla çalmışam!

Eşitdiyi sözlərin zərbəsinnən cəlladın qulaxları uğuldadı, gözdərinə qarannıx çökdü, dünya başına fırrandı. Miskin Abdal onu gözündə getdikcə böyüdü, ucaldı. Özü elə bil kiçilif yox oldu. Miskin Abdalın sözdəri onu ildırım kimi vurmuşdu. Cəllad bu sözdən sonra elə bil dəli olmuşdu. Elə bil o bütün günahlarını başa düşmüşdü. Özü də bilmədi atdan nejə düşüf, qılıncını daşdara çırpıf, əzik-əzik elədi, atını qamçılıyıf bərri-biyavana buraxdı, çul kimi dö-şəndi Miskin Abdalın ayaxlarına. Göz yaşdarını sel kimi axıda-axıda yalvardı, yaxardı, dedi:

– Yalvarıram, əllərini göylərə aç, Ulu Tanrıdan mana rəhm dilə. Daha mana cəllad demə, daha mən cəllad döyüləm. Məni əfv elə, keş günahlarımnan.

Miskin Abdal cəlladın yalvarışdarını eşidif dedi:

– Ömrü boyu günah iş tutanı bağışdamax özü günahdı.

O, cəlladın kürəyinnən tutuf ayağa qaldırdı. Gözünü onun üzünə zilliyif dedi:

– Yüz ağlasan da, sıtqasan da, sən cəlladsan, başkəsənsən, qantökənsən.

Ümidsizdiyə qapılan cəllad Miskin Abdalın əlinnən çıxıf dəli kimi bərri-biyavana üz tutdu. Gözdən itif yox olanadək "daha mana cəllad demə, daha mən cəllad deyiləm" sözdəri eşidildi. O hara getdiyini heç özü də bilmirdi...

Cəllad gözdən itənnən sonra Miskin Abdal əllərini göylərə açıf Ulu Tanrıdan ona rəhm dilədi.

Saray cəlladının birdən-birə yoxa çıxması hamıyı çaş-baş salmışdı. Miskin Abdal əlaşsız qalıf bu nigarançılığa son qoydu. O, cəlladnan olan söhbətini olduğu kimi şaha və saray ə'yanlarına danışdı. Onun bu hərəkəti hamının çox xoşuna gəldi. Şah İsmayıl ayağa duruf Miskin Abdala tərəf gəldi, onun qarşısında dayanıf dedi:

– Ustad, mən ömrümdə hələ belə hikmət eşitməmişdim. Sonra o amiranə səsnən dedi:

– Çağırın, xəzinədarı.

Xəzinədar dərhal gəlif çıxdı. Şah onnan bütün xəzinələrin açarın

alıf yenidən Miskin Abdalı üz tutuf dedi:

– Ustad, sənin İlahi vergisi olan müdrikliyinin əvəzində cü'zi də olsa, al bu xəzinələrin açarını. Nə qədər istiyirsən götür, payla. İstiyirsən Şah İsmayıl Xətainin xətrinə, istiyirsən Şeyx Heydər oğlu şair İsmayılın xətrinə.

Bu təklifdən bir məğrurrux duyan Miskin Abdal mehribannıxnan dedi:

– Qibleyi-aləm sağ olsun. İstər Şah İsmayıl Xətaiyə, istərsə də Şeyx Heydər oğlu şair İsmayıla olan sonsuz sədaqət və hörmətim tanrı payımdı. O ku, qaldı xəzinələrin açarınnan imtina etməyimə, bunnan incimə. Çünki xəzinələrini daşıyaram, paylıyaram qurtarar. Ancax sənin mənim hikmətimə verdiyin qiymət tükənməz xəzinədi. Daşımaxnan, paylamaxnan qurtarası döyül. Bunnan böyük bəxşiş olarmı?!

Bu sözdər elə bil eşidənnərin hamısını oysunnadı. Hamının diqqəti şahda idi. Şah İsmayıl bunnarı dinniyənnən sonra üzünü saray ə'yanlarına doğru çevirif iftixarnan dedi:

– Sən adi insan deyilsən, ustad! Sən ərənnər ərəni, kəramət sahibi, övliyasan!!!

Bunu deyif Şah İsmayıl Miskin Abdalı qucaxlıyıf bağrına basdı.

Bir gün eşitdiyi dəhşətdi bir xəvər Miskin Abdalın qəlbinə sarsılmaz dağ çəkdi. Ona xəvər gətirmişdilər ki, Şah İsmayıl Xətai – Şeyx Heydər oğlu şair İsmayıl vəfat eliyif. Bu xəvərdən sonra, elə bil dünya uçuf altında qalmışdı. Doğma övladı kimi sevdiyi İsmayılın vaxtsız ölümü onu göyüm-göyüm göynədir, yandırıf yaxırdı. Bu ahıl çağında gözdərinin yaşı çay kimi axıf, yaxasında göl bağladı. Əlləri əsə-əsə sazını sinəsinə sıxıf öz dərdi dilini görən nejə izhar elədi:

Guşə-guşə yanıf nara yaxıldım,
Cismim od-atəşə qalanıf gedər.
İmtahan eliyif könül şəhrini,
Eşqi-haxdan qeyri talanıf gedər.

Dərviş olan getməz fitnə-feliynən,
Yandırar şamını o öz əliynən,

Təmiz ürəyinnən, şirin diliynən,
Könlüm şah yolunda dolanıf gedər.

Qeylü-qaldı səhər-axşam əhvalım,
Tor görür gözdərim, qarışır halım.
Qannı çeşmi yazıx Miskin Abdalın,
Coşqun çaya nisbət sellənif gedər.

Sonra "İsmayılı" söz havasında bunnarı oxudu:

Gedin deyin Lələ bəyə,
Bu naleyi-əfğanımı.
Qanlı fələk zülm elədi,
Ayırdı cannan canımı.

Mən bu bağa girərəmmi?
Gül dəstəsin hörərəmmi?
Bir də, ya rəbb, görərəmmi,
Özə mürşüdü-sultanımı?

Miskin Abdal bilməz kələk,
Dövran qoymaz bir az külək.
Yerə vurdu məni fələk,
Ucaltdıqca düşmanımı.

Onun yanıxlı harayı az qaldı əlindəki sazı kösövə döndərsin:

İqlimin şahıydı – Həzrəti Süleyman,
Ədalətə pənah idi – Nuşirəvan,
Şey oğlu İsmayıl – o cənnət məkan,
Düşməz ələ, o bir yadigardı getdi.

Bu dərdə dözə bilmiyən Miskin Abdal biryollux saraya əlvida söylüyüf, doğma Göyçəsinə, dədə-bava yurdu Zərgərri-Sarıyaqub kəndinə qayıtdı. İtirdiyi əzizdərinin ağır dərddərini çəkə-çəkə kənddə məktəb açıf, balalara elmin sirrərini öyrətməyə başdadı.

Miskin Abdal Təbrizdən Göyçəyə dönənnən sonra bir gün savah

tezdən qalxıf gördülər ki, onun qapısında bir sürü maral var. Marallar onun qapısına qayıfdan sağına gəlmişdilər. Marallar sağınnan sonra genə örüşə qayıtdılar. Adamlar bu mö'cüzəyə mat-məətəl qalmışdılar.

Bunnan sonra marallar hər gün Miskin Abdalın qapısına sağına gəlir və sonra da geriyə, örüşə qayıdırdılar.

Bir gün ojaxda maral südünün qan kəsdiyini görən arvadı bunu tez ərinə xəvər verdi. Miskin Abdal dərhal təşviş içində dedi:

– Arvad, yaqın oğlum Şadman adam öldürdü.

Bir azdan Şadman gəlif çıxır. Mə'lum olur ku, Şadman atasının "Sarı yer" yaylağında olan mal-qarasına, ilxısına basqın edən quldur-qaçaxlardan bir neçəsini öldürüf. Bunu eşidəndə hirsinnən Miskin Abdalın əlindəki çəlik burum-burum olur. Çəliyi qəzəfnən yerə elə bərk vurur ki, bu vaxt zəlzələ baş verir. Sonra da əlini atıf ojaxdan bir höyüş odun çəkif oğlu Şadmana tərəf qulamazdıyır. Allah-taala günahsız Şadmanı atanın bu qəzəvinnən qoruyur. Ağac Şadmana çatmamış yerə sancılır, qol-budaq atıf, yaşıl bir armud ağacına dönür. O günnən həmin ağac bir ziyarətgaha çevrilir.

Miskin Abdalın yaşı yüzü addamışdı. Qojalıx yavaş-yavaş özünü göstərirdi. Keçirdiyi günnər göz önünə gəlirdi. Qəlbində nisgillər baş qaldırırdı. Bu fikirrər içində sazını əlinə alıf, öz ürəyindəkiləri onnan bölüşmək istədi. Miskin Abdalın sazı dilləndi. Aldı görək "Hüseyni" saz havasında nə dedi:

Hardan gəldi-getdi ömür bilmədim,
Baxdım kı, qapımı döydü qojalıx.
Bir kərə ürəkdən deyif gülmədim,
Qəddimi kaman tək əydi qojalıx.

Ümidim, pənahım, qadir Allahım,
Dar gündə hoy edən var qibləgahım,
Pakam, tanrı bilir yoxdu günahım,
Ağlayan, sızlayan neydi qojalıx.

Şaha baş əyməzdim, şeşpər atardım,
Sultannar yurdunda at oynadardım,

Namərdi bazarda qul tək satardım,
Bilməm niyə gəldi, nəydi qojalıx?

Ötüfdü hay-hayım, qalıf vay-vayım,
Sananır dillərdə hər günüm, ayım,
Oxum əldən çıxıf, sökülüf yayım,
Miskin Abdal deməz yeydi qojalıx.

Miskin Abdalın yanıxlı-yanıxlı qojalıxdan şikayətdənməsi onun yanındakıları yamanca kövrəltmişdi. Onnardan biri dözə bilmiyif Miskin Abdala dedi:

– Hax dərgahına çatannar, diri ikən ojağa çevrilənnər qojalmır, ustad.

Miskin Abdal gülümsüyüf dedi:

– Dünyada qojalmıyan yoxdu, oğul. Nə deyirsiniz, deyin, qojalıx qojalıxdı. Bunnan heş kim qaça bilmiyifsə, Miskin Abdal da qaça bilməz. Bu sözdəri deyif sazını yenə sinəsinə sıxdı. Aldı görək "Abdalı" saz havasında nə dedi:

Yaman yerdə yaxalayıf vaxt məni,
Hey desəm də qojalmaram, qojaldım.
Yüzü keçif, silkələyir bəxt məni,
Çox da ki, mən pirəm, nuram, qojaldım.

Seyid mənəm, pay paylayan dərvişəm,
Namərddərin xatasını görmüşəm.
İsmətimdən bir məbədgah hörmüşəm,
Sızıldayır qannı yaram, qojaldım.

Miskin Abdal, yolun haqqın yoludu,
Ömrün tanrı dərgahının quludu,
Adın-sanın halallığı uludu,
Eləmədim birjə haram, qojaldım.

Bu məclisdən bir az sonra Miskin Abdal xəstələnif yorğan-döşəyə düşdü. Oğlunu, qızını, nəvə-nəticələrini başına topluyuf vəsiyyətini eliyənnən sonra bu şe'ri dedi:

Eşit deyim, dünya səndə,
Ayım, ilim, yazım qaldı.
Qövr eləyir söz sinəmdə,
Dil-dil ötən sazım qaldı.

Yar sevmişdim, yarım getdi,
Var yığmışdım, varım getdi.
Eşqim, e'tibarım getdi,
Ahım, ünüm, sızım qaldı.

Qayaları sökdürərdim,
Zərdən saray tikdirərdim,
Yağılara çökdürərdim,
Məndən təpər, dözüm qaldı.

Ərşə-gurşə bəlli əslim,
Yaradana ollam təslim,
Adnan, sannan olan nəslim,
Bir oğlum, bir qızım qaldı.

Hər nə varsa hədər imiş,
Hər şey gəldi-gedər imiş.
Ölüm yaman betər imiş,
Yol-ərkanım, izim qaldı.

Şadman könlüm tari-mardı,
Şanda balım zəhri-mardı,
Günüm-gecəm ahu-zardı,
Şirin-şirin sözüm qaldı.

Yaşayan kim, ölən kimdi,
Ağlayan kim, gülən kimdi,
Gedən gedir, gələn kimdi...
Nə mizrabım, nə sim qaldı.

Yoxdur daha Şahənşahım,
Ərşə büləndoldu ahım.

Adım, sanım, qibləgahım,
Haqq çağıran səsim qaldı.

Telli saza mizrab vurdum,
Məclislərdə dastan qurdum,
Neçə-neçə aşıq yordum,
Sözüm düzüm-düzüm qaldı.

Bir şəcərəm, bir kəşkülüm,
Gur ocağım, odum, külüm,
Yığın-yığın, varım, mülküm,
Al-qumaşım, bezim qaldı.

Dünya puçdu, puçdu dünya,
Dünya heçdi, heçdi dünya,
Abdal, yaman keçdi dünya,
Yaşamaqda gözüm qaldı.

Axırda da bunnarı dedi:

Bu dünya, o dünya var,
Allah, ölümün haqqdı!
Bir dirilik suyu var,
Allah, ölümün haqqdı!

Axırın puçdu, dünya,
Var ikən heçdi dünya,
Hey gəldi, keçdi dünya...
Allah, ölümün haqqdı!

Abdal, yastıq daş olar,
Üst torpağın yaş olar,
Mələklər yoldaş olar,
Allah, ölümün haqqdı!

Nəhayət, fani dünyaya əlvida deyif, gözdərini qapadı. Müqəddəs ruhu cənnət quşuna dönüf haqqın ulu dərgahına

qovuşmax üçün göylərə qanad aşdı.

Bir ustad aşıx Miskin Abdalın ruhunu yad elədi, dualar oxudu, Allahdan ona rəhmət dilədi və bu cahannamə ilə bu dastanı tamamladı:

Dəhri-fənada belə insan hanı?
Qılmaya fani onu dövran hanı?
Ey bivəfa dünya, sən nə zalımsan,
Bu qayətdə sənə gələn can hanı?

Əvvəl sənə gəldi Adəmü-Həvva,
Beş gün qonaq oldu səndə binəva,
Öldürdün Habili, saldın bir dava,
Düşdü aralığa nahaq qan, hanı?

Neçə padişahlar gəldi sahib-cəng,
Cəmşidü Cəm, Nuşirəvanü – Huşəng,
Dağyanus, Hülakü, Çingiz, Teymur – Ləng,
Onlardan birəsi bu zaman hanı?

Ey bivəfa dünya, fanisən, fani,
Necə dağıtdın sən şövkəti-şani,
Gecələr çaldılar gürzü-girani,
Rüstəmi-Zal kimi pəhləvan hanı?

Neçə həkim gəldi təbibi zaman,
Ərəstun, Əflatun, Fərəzdək, Xaqan,
İstədi diriltsin özünü Loğman,
Qaldı kuzəsi də yarımcan, hanı?

Dünya, səndə Aşıq Səməd var idi,
Nəzmü, şe'ri lə'li gövhərdar idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bəs bəhri-ümman hanı?

Bu dünyada heç də gəzməmişdi kəm,
Aşıq Əli oğlu, Aşıq Məhərrəm,

Həsrətin çəkirdi Rumi, həm Əcəm,
Əlində tütəyi-balaban hanı?

Tamam yola gedər, heyif gözəllər,
Sırf müşki-ənbər qoxuyan tellər,
Murad üstə neçə xınalı əllər,
Torpağa döndülər, vay, aman hanı?

O ala gözlərə, o gül yanağa,
O nazik əndama, o tər buxağa,
Necə qıyıb döndərirsən torpağa,
Nazənin-nazənin incə can hanı?

Hanı Xosrov, Həsən, Yusif, Züleyxa?
Hanı Əsli, Kərəm, Vamiku-Əzrə?
Şeyx-Sən'an sevmiş idi bir tərsa,
Onların sürdüyü o dövran hanı?

Hafizu, Nəvai, Füzuli, Cami,
Şeyx Sə'di, Hilali, Ürfi, Nizami,
Dünya, səndə kəşt eyləyib tamami,
Firdovsi tək nəzmi-dürr-əfşan hanı?

Hanı Molla Pənah, bivəfa cahan?
Təxəllüsü Vaqif, nəzmi-dürr-əfşan,
İndi eyləmisən xak ilə yeksan,
Tapmaq olmaz o kamalda can, hanı?

Çox çətinki bir də dolana dövran,
Növbə mənə yetsə, aman, əl'aman!
Bir gün ola görən, bilən, tanıyan,
Deyərlər Valehi-natəvan hanı?

ASDAN ŞAHNAN İRVAHAMIN DASTANI

Bəli, mənim əzizdərim, qulluğunuza hardan ərz eliyim, Rey şəhərinnən, kimnən, Zülal şahdan. Zülal şahın varı-dövləti, cahi-cəlalı həddini aşmışdı. Bir cüt oğluə varıydı. Böyük oğlunun adı Asdan, kiçiyinin adı isə İrvahamıydı. Bunnar gedif molla yanında dərs alırdı.

Günnərin bir günü Zülal şahnan arvadı küləfrəngidə oturuf, qapılarındakı çinar ağacının başında yuva salan zümrüd quşdarının balalarına baxırdılar. Bir gün Zülal şahın arvadı gördü kü, Zümrüd quşu tək gəldi. Bir neçə gün keçənnən sonra baxıf gördü kü, quş gedif özünə bir tay tapıf gətirif. Geri qayıtdı, gəldi Zülal şahın yanına, Zülal şah baxdı arvadı çox bikefdi. Zülal şah soruşdu:

– Xanım, niyə bikefsən?

Dedi:

– Zülal şah, mənnən çıxax yenə bir küləfirəngidə oturax.

Zülal şah duruf arvadınnan baravar küləfirəngiyə çıxdı. Bir azdan Zümrüd quşu çinarın başına gəlif balalarına yem gətirdi, gətirdiyini balalarına verif uçuf getdi. Bir qədər sonra təzə gələn Zümrüd quşu gəldi. Balaların qavağındakı yemi özü götürüf yedi. Sonra onnarı dimdikləyif qanına qəltan elədi.

Arvad bunu görüf hönkür-hönkür ağladı. Şah dedi:

– Övrət, niyə ağlıyırsan?

– Şah sağ olsun, o Zümrüd quşunun tayı ölüf. Gedif özünə bir tay tapıf gətirif. Ona fikir verirsənmi? O təzə gələn Zümrüd quşu analıx hesav olunur. Bunu görəndə fikirrəşirəm ki, mən ölsəm mənim uşaxlarım da analıx yanında elə olajax.

Bunu deyif arvad yenə ağladı. Şah dedi:

– Övrət, ağlama. Allah eləsin ki, sən ölmüyəsən. Amma elə iş olsa mən heş vaxt evlənmiyəjəm.

Vaxt dolandı, aylar keşdi, insannan ötrü ölüm haxdı, hamı öləjək. Vaxt o vaxt oldu ku, bir gün, Asdan şahın arvadı ömrünü sizə bağışdadı. El yığılıf onu dəfn eliyif, ehsan verdi. Şəhər əhli şaha başsağlığı verif dedi:

– Şah, axır qəmin olsun, başın sağ olsun, oğlannarın sağ olsun.

Zülal şah arvadına söz vermişdi ki, sən ölsən də, mən uşaxlara

analıx gətirmiyəjəm. Asdannan, İrvaham da doğrudan da dünya gözəliydilər. Hər ikisi Yusifi Kə'nana bənziyirdi.

Aylar ötdü, illər keşdi, Zülal şah evlənmədi. Amma ildən-ilə camaatın xərcini artırırdı. Özünün də səvri daralmışdı. Camaat, şəhər əhli, ağsaqqallar, yığışıf saraya gəldilər. Şaha tə'zim eliyif dedilər:

– Şah sağ olsun, ya bizim camaatın sözünü tut, ya da bizə icazə ver, sənin vilayətinnən çıxax. Neçə ki, sən evlənmiyifsən bizə gün-güzəran olmuyajax.

Şah dedi:

– Yaxşı, bir az mana möhlət verin.

Zülal şah gəldi oğlannarının yanına. Başdarını sığalladı, üzdərinnən öfdü. Bir söz demədi. Bunnar bir-birinnən danışdılar. Daha yekəlmişdilər. Hər işi başa düşürdülər. Asdan dedi:

– Qardaş, gedək atamıza biz də deyək, getsin bizə bir ana gətirsin.

Getdilər atalarının dərgahına. Baş əyif atalarına tə'zim elədilər. Zülal şah hər ikisinin üzünnən öpüf qızıl kürsünün üstündə əyləşdirif, soruşdu:

– Ey nuri-didələrim, mənim yanıma nə məqsədnən gəlifsiniz, buyurun.

Asdan şah dedi:

– Ey ateyi-mehriban, şəhər əhlinin sənnən narazılığını eşitmişik. Deyillər ki, Zülal şahın övrəti ölənnən sonra camaata zülm eliyir. Ona görə sənin yanına xahişə gəlmişik. Gərək bizim sözümüzü yerə salmıyasan. Camaatın sözünü eşidif bizə bir ana gətirəsən.

Zülal şah oğlannarının sözünnən çıxa bilmiyif dedi:

– Yaxşı, siz gedin.

Sonra vəzirini çağırıf dedi:

– Qulağıma sədalar gəlir ki, mən günü-günnən camaata daha çox zülm eliyirəm. Onnarın dolanışığı getdikcə pisdəşir. İndi mana bir tədbir tökün kü, ədalət yerini tapsın. Mən neyliyim ki, əvvəlki hörməti yenidən qazanım?

Dedilər:

– Şah sağ olsun, sənin kimi ədalətdi, insaflı şah heş bir yerdə yoxuydu. Biz belə başa düşürük ki, sənin övrətin ölənnən sonra səndə belə qəzəf, insafsızdıx, səvirsizdik peyda oluf. İstiyərdim ki, sən bir cuma günü seyrə çıxasan, qəm-qüssən dağıla, eynin açıla.

Onnan sonra sana bir masdahat eliyərik.

Zülal şah dedi:

– Nə deyirəm. Savah cumadı. Hazırrıx görün, sübh tezdən yola düşək.

Vəzir, vəkil eşiyə çıxannan sonra camaat bu xəvəri eşitdi. Söyündülər ki, Allah, sana şükür. Yeddi iliydi Zülal şah seyrə çıxmırdı. İndi gənə inşallah camahata gün doğar. Səhər tezdənnən Zülal şah, vəzir, vəkil, bir xeyli qoşun atdanıf seyrə çıxdılar. Axşama qədər ovladılar, quşdadılar. Geriyə, şəhərə qayıtdılar. Vəzir, vəkil şahnan baravar saraya gəldi. Vəzir dedi:

– Şah sağ olsun, mən belə masdahat eliyirəm ki, sana bir övrət gətirək.

Zülal şah baxıf gördü kü, vəzir də şəhər əhlinin dediyini deyir. Zülal şah soruşdu:

– Vəzir, nə məsdahat eliyirsən?

Vəzir dedi:

– Şah sağ olsun, sizə layıx bir qız Cum şəhərinin padşahının arvadıdı. Özün bildiyin kimi də o padşah da yeddi ildi irəhmətə gedif.

Zülal şah dedi:

– Vəzir, məsdahatdısa, gedin gətirin.

Vəzir qavaxcan bir qasid göndərdi. Dedi:

– Gedin o xanımın ağzını arıyın. Görün, gəlmək fikri olsa, gəcavə göndərərik.

Bəli, çapar gedif xəvər gətirdi ki, xanım razıdı. O, Zülal şahın ədaləti, səxavəti haqqında çox eşitmişdi. Ona görə də razılıx verdi. Gəcavələr bəzəndi. Vəzir, vəkil, bir xeyli qoşun getdi gəlinin dalınca. Bir neçə günnən sonra xəvər gəldi ki, gəcavə gəlir. Asdan İrvahamı çağırıf dedi:

– Qardaş, gəlsənə anamızın qavağına gedəsən.

İrvaham dedi:

– Yox, mən sənnən kiçiyəm, sən özün get.

Onda İvrahamın on beş yaşı varıydı. Asdan gedif köhlən yəhərrədif, qılınc bağlıyıf, atına bəzək vuruf cövlana gətirdi, gəcavənin qavağına sürdü. Xanım faytonnan göz gəzdirdi, görsün onu kimə gətirillər. Asdan at oynadırdı. Arvad baxıf gördü kü, bir gözəl bəynişin oğlan at oynadır. Öz-özünə dedi:

– Noleydi, məni bu oğlana gətirəydilər.

Üzünü çöyürdü qıvlıya, Allaha dualar oxudu. Gəcavə gəldi dayandı padşahın qapısında. Padşah bir neçə ağsaqqalnan söhbət eliyif dedi:

– Bir gəlin çörəyi vermək lazımdı.

Aradan bir neçə gün keçənnən sonra arvad Zülal şaha dedi:

–Ay kişi, bə sənin oğlannan, qızdan bir züryətin yoxdu?

Zülal şah dedi:

– A arvad, bə sənin qavağında at oynadan mənim oğlumdu da, hələ biri də var. Onnar təkcə mənim yox, həm də sənin oğlannarındı.

Arvad dedi:

– İndi başa düşdüm kü, mən analığam. Ona görə onnar mənim yanıma görüşə gəlmədilər.

Zülal şah dedi:

– Arvad, onnar dərsdədilər, yaxın şəhərdə. İndi onnarı mən ismarrıyaram, gələllər sənnən görüşməyə.

Padşah xəvər göndərif onnarı çağırtdırdı öz imarətinə. Onnarı arvadına göstərif dedi:

– Sənin övladdarın bax, bunnardı.

Arvad baxıf gördü kü, gəcavənin qavağında at oynadan Zülal şahın böyük oğludu. O vaxtdan gözü onu yaman tutmuşdu. Bir-iki gün aradan keçənnən sonra arvad Zülal şaha dedi:

– Bəs, sənin gəzmək üçün qırx otağın, qırx bağın yoxdumu?

Zülal şah dedi:

– Var, niyə yoxdu, qırx otağım da var, qırx bağım da.

Arvad dedi:

– Bəs mana niyə demirsən gəzəm, dolaşam. Qərifsiyirəm. Bəlkə bir az eynim açılardı.

Zülal şah Asdanı çağırtdırıf dedi:

– Asdan, oğlum, güllü bağlarımızı, otaxlarımızı aparıf anana birbir göstərərsən.

Asdan dedi:

– Baş üstə, ateyi-mehriban.

Asdan anasını aparıf güllü bağı gəzdirdi. Sonra otaxların açarını atasınnan alıf başdadı onnarı göstərməyə. Asdan qavaxca qapıyı açırdı. Açarı üstündə qoyurdu. Arvad dalıncax qapıyı bağlıya-bağlıya gedirdi. Otuz doqquzuncu otağı keşdilər. Qırxıncı otaxda arvad

dedi:

– Ə axmax, oğlu axmax, ana nədi. Səni görənnən gözüm səni tutuf. Mənnən başbirrik eliyirsən elə, eləmirsənsə, vay sənin halına.

Asdan arvadın ağzının üstünnən bir elə şillə vurdu ku, gəl görəsən. Qaçmax istədi qapının birini açdı. İkinciyi açana qədər arvad daldan ona çatdı. Bıçaxnan köynəyinin dalınnan tutuf kəsdi. Dedi:

– Get, köpəy oğlu, köpəy.

Asdan getməkdə olsun. Arvad Zülal şahın yanına özünü çatdırmaxda. O, Zülal şahı görən kimi səsini başına atıf ağlıya-ağlıya dedi:

– Sənin taxtın tarac olsun, balalarının vayına oturasan.

Zülal şah məhəttəl qalmışdı. Dedi:

– Ay arvad, noluf?

Arvad bir az da səsini qaldırıf yalannan qışqıra-qışqıra dedi:

– Görmürsənmi, noluf? Ağzımın, burnumun qanını bir-birinə qatdı oğlun.

Zülal şah təccüflənmiş halda dedi:

– Niyə, nə üstə?

Dedi:

– Ciyarı yanmışın dedi ki, ya gərək mənnən başbirrik eliyəsən, ya da səni öldürəjəm. O biqeyrətin əlinnən zornan qaşdım, qurtardım. Bu əlimdə ki, onun köynəyinin dal ətəyidi.

Zülal şah taxta çıxıf cəllada əmr elədi ki, tez oğlannarımı gətirin.

Cəlladdarı gedif Asdannan İrvahamı gətirdilər. Şəhər əhli əhvalatdan xəvər tutuf, dedilər ki, bəlkə Zülal şahnan söhbət eləsinnər, onu dilə tutuf, fikrinnən döndərsinnər. Fikirrəşdilər ki, bəlkə şahın bu gün ajığı tutuf, oğlannarının boynunu vurdurur. Birdən savahları hirsi dağılannan sonra deməzmi, ay vəzir, ay vəkil, ay camahat mənim ajığım tutmuşdu, bə siz niyə mana ağıl vermədiniz. Sonra o camahata heş rəhm eliyər? Camahat bu fikirnən irəli yeridi. Dedilər:

– Şah sağ olsun, dünyasında elə şey olmaz. Biz özümüzü onnardan qavax qılınca verəjiyik.

Zülal şah dedi:

– Vəzir, tədbir.

Vəzir dedi:

– Şah sağ olsun, qurra atanı çağırax gəlsin, nə məsdəhətdisə o

deyəjək.

Qurra atan gəldi. Camaat qurra atanı öyrətdi ki, elə elə ki, bunnar sürgün olunsunnar. Qurra atan qurrasını atıf dedi:

– Şah sağ olsun, qurrada bunnarın payına sürgün düşür. İndi özün bilən məsdahatdı.

Şah dedi:

– Onda onnarı sürgün eliyin. Amma bu şərtnən ki, hərəsi xəzinədən bir qızıl götürüf tərəzinin gözünə qoysun. Biri o birinnən ağır gəlsə ikisinin də boynunu vurdurajam.

Hər ikisi öz qızılını qoydu tərəziyə. Xudavəndi aləm elə elədi ki, ikisininki də eyni çəkidə gəldi. Zülal şah dedi:

– Çıxardın bunnarı şəhərdən!

Asdannan İrvahamı şəhərdən çıxardıf Misirə doğru yola saldılar. Bunnar gejə-gündüz yol gedif bir basəfə yerə çatdılar. Çörəkləri qurtardığınnan dizdərində taqət qalmamışdı. Asdan yay – oxnan bir quş vurdu. Bu quş şah şonqar quşuymuş. Bu quşun ətini yeyən dövlətdi olurmuş, başını yeyən padşah. İrvaham kiçik olduğuna görə Asdan ətin hamısını ona verdi. Quşun başını isə özü bişirif yedi. Bir az dincələnnən sonra yollarına davam elədilər. Çox çətinniknən gəlif Misir torpağına çatdılar. Bir böyük məzarıstanın yanınnan keçəndə Asdan dedi:

– Qardaş, sən yorulufsan. Atalar deyirlər məzarıstan da şennikdi. Qorxma, gəl sən bu gümbəzdə dur, mən görüm bu qəvirsttannıx hansı şəhərin, hansı kəndindi. Bir tikə çörək tapım. Görək, sonrası nə olur.

İrvaham gümməzdə qalmaxda olsun, görək Asdanın başına nə gəldi. Asdan gəlif bir böyük şəhərə çatdı. Soruşdu:

– Bu hansı şəhərdi?

Dedilər:

– Misir şəhəridi.

Bir az ora-bura vurnuxannan sonra gördü kü, camaat çox yığılıf. Xəvər aldı:

– Bu nə yığıncaxdı?

Dedilər:

– Misirin padşahı ölüf. Quş uçurdajaxlar. Gəlif kimin başına qonsa, onu padşah seçəjəklər.

Baxıf gördü kü, vəzirin, vəkilin oğlannarı ən hündür yerə çıxıflar.

Fikirrəşillər ki, quş hündür yeri daha tez tapar.

Quşu uçurtdular. Quş havada cövlan elədi, bir xeyli dolaşannan sonra gəlif Asdanın başına qondu. Vəzirin oğlu özünü yetirif Asdana bir yumrux vuruf dedi:

– Hələ sən bunun işinə bax. Öldüyü yerdə ölmür, gəlif şahlıx eşqinə düşüf.

Xülasə, bunu döyüf camaatdan araladılar. Asdan çox pisikdi döyülməyinə görə. Axı, bu gəlmişdi yazıx qardaşına çörək aparsın. Yenə də quşu uçurtdular. Quş yenə havaya qalxdı hərrəndi, fırrandı, təzədən gəlif Asdanın başına qondu. Bu dəfə vəkilin oğlu yetirdi özünü:

– Ayə, sən haranın dələduzusan?

Camahat dedi:

– A kişi, yazığı niyə öldürürsünüz? Aparın uzaxda xarava bir dəyirman var, çoxdan işdəmir. Salın ora, qapısını da örtün. Bir-iki nəfər də qarolu qoyun gözdəsin. Baxax, görək quş onu yenə tapır, ya yox.

Bə'ziləri də dedi ki, bəlkə papağın altına ətdən-çörəkdən qoyuf, quş ona görə gedif onun başına qonur.

Uzun sözün qısası Asdanı aparıf həmin dəyirmana salıf ağzını bağladılar. İki nəfər də gözətçi qoydular. Quşu yenə uçurtdular. Quş bu dəfə də çox hərrəndi, getdikcə hündürə qalxdı. Bir də gördülər ki, quş qəflətən şığıdı dəyirman tərəfə. Özünü dəyirmanın bajasınnan içəri salıf Asdanın başına qondu. Asdan quşu tutuf oxşadı, üzünnən öpüf dedi:

– Ay allahın heyvanı, məni niyə döydürürsən, mana şahlıx qismət olsaydı öz atamın vilayətində olardı. Nə özünə, nə də mana əziyyət vermə.

Bunu deyif quşu buraxdı. Quş yenə getmədi, qayıdıf genə Asdanın çiyninə qondu. Pasıbannar içəri girif Asdanı götürüf getdilər şəhərə. Camaata dedilər:

– Oğlan quşu tutuf belə deyirdi:

– Ay allahın heyvanı, şah olsam elə öz atamın vilayətində olardım!

Sirri-Sübhan vəzir irəli yeriyif dedi:

– Camaat, bir haldakı quş bu oğlanın başına qonuf, gəlin elə bunu padşah seçək.

Camaatın hamısı razı oldu. Asdan şahı gətirif taxta çıxartıf şahlıx tacını onun başına qoydular. Dedilər:

– Buranın şahı sənsən.

Asdan şah bir neçə gün camaatnan, şəhər əhliynən məşğul oldu. Sarayın işdəriynən başı bərk qarışdı. Qardaşı yadına düşmədi. Bir neçə günnən sonra gecənin birində yatdığı yerdə İrvahamı xatırrıyıf, dedi:

– Ey dadi-bidad, mən ki, gəlmişdim İrvahama çörək aparam.

Tezdənnən vəzirini-vəkilini çağırıf dedi:

– Vəzir, camaata xəvər ver, gedəjəm qəvirsannığa dua verməyə. Qoy hazırraşsınnar.

Sizə hardan xəvər verim İrvahamnan. İrvaham gejə-gündüz günbəzdə ağlıyırdı. Qırx lotu varıydı. Başçısı Ziyad haramıydı. Ziyad haramı gejə vəyğasında görmüşdü kü, bir xeyirri şey tapıf. Savah tezdənnən qalxıf yoldaşlarına dedi:

– Uşaxlar, bu günkü səfərimizdə nə tapsax mənim olsun.

Razılaşdılar. Atdarına minif səfərə çıxdılar. Gəzə-gəzə gəlif gümbəzə rast gəldilər. Gördülər ki, gümbəzin içində bir cavan oğlan ağlıyır. Ziyad haramı gümbəzin qapısınnan baxanda gördü kü, bu oğlan o qədər gözəldi, daha nə deyim, üz-gözünnən nur tökülür. Amma bunnarı görəndə, hiss elədi ki, bərk qorxur. Ziyad haramı dedi:

– Oğul, qorxma.

Ziyad haramının yoldaşdarı içəri girdilər. Bu cavan oğlanı görəndə bi az şübhələnif, dedilər:

– O özü bunu gətirif burya qoyuf, bizə də deyir ki, bu günkü şikarımıza nə çıxsa mənim olsun.

Bir az xısınlaşannan sonra dedilər:

– Gəlin, bunu öldürək.

İrvaham onnarın niyyətini duyuf dedi:

– İcazə versəydiniz dərdimi sizə saznan annadardım.

Dedilər: – buyur, de. İrvaham sazını sinəsinə sıxıf aldı görək nə dedi:

Başına mən dönüm Ziyad haramı,
Gözüm yolda qaldı, gedən gəlmədi.

İtkin qardaş bağlamadı yaramı,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Ziyad haramı soruşdu:

– Sənin kimin var, hardan gəlif, harya gedirsən?

İrvaham dedi:

– Qərivəm. Gəlif burya çatannan sonra qardaşım mana burda qalmağı məsdahat gördü. Özü də getdi ki, çörək tapıf gətirsin.

Ziyad haramı dedi:

– Gözdüyək, qardaşı da gəlsin. Qardaşını siz aparın qul adına satın, pulunu bölüşdürün. Amma bunu mən aparım. Züryətim yoxdu, özümə züryət eliyim.

İrvaham aldı sözün o biri xanəsini:

Göydə bulud bulum-bulum bulanar,
Yaralarım köz-köz oluf sulanar.
Qardaş gəlif gümbəz divin dolanar,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Bir xeyli gözdədilər. Gördülər heş kim gəlmədi. İrvaham aldı sözünün tafşırmasında görək nə dedi:

Əyağım apardı yolların daşı,
Yaxamı çürütdü gözümün yaşı.
Gedif İrvahamın Asdan qardaşı,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Ziyad haramı yoldaşdarına üzünü tutuf dedi:

– Nə məsdahat görürsünüz?

Bunnarın içinnən biri irəli yeriyif dedi:

– Ə, belə bir oğulu heç qul adına satallarmı? Verək Qiyas vəzir özünə oğul eləsin.

İrvahamı götürüf, Qiyas vəzirin evinə apardılar. Qiyas vəzir arvadına dedi:

– Köynəyinnən keçirt bu oğlanı özümüzə oğul götürək.

Arvad Qiyas vəzirnən razılaşdı. Köynəyinin yaxasınnan keçirdif İrvahamı özünə oğul elədi. İrvaham burda qalsın, sizə hardan xəvər

verim, Asdan şahdan. Asdan şah vəzirə demişdi. Şəhər əhli yığılıf şəhərdən çıxdı. Çox razı qaldılar ki, gör nə gözəl şahdı kı, dirimiz o yanda dursun, ölülərimizin də qədrini bilir. Asdan vəzirə dedi:

– Camaat qəvristana dolmasın. İkimiz hərrənək. Daşdarı oxuyax, gələk qəvirstannığa dua verək.

Vəzir dedi:

– Camaat, ayağınızı saxlıyın.

Camaat dayandı. Asdan hərrənə-hərrənə gümbəzə çatdı. Baxdı gördü kü, qardaşı yoxdu. Göydəki bulud kimi qaraldı. Vəzir onun dolduğunu görüf dedi:

– Şah, niyə birdən-birə tutuldun?

Asdan şah gözünün on yerinnən qannı yaş tökdü, vəzirin üzünə baxıf dedi:

– Vəzir, bu sirr ikimizin arasında qalsın.

Aldı görək Asdan şah nə dedi:

Alçaxdan ucaya çəkilif başın,
Məzərsannıx, İrvahamı neylədin?
Atılsın kərpicin, qalmasın daşın,
Məzərsannıx, İrvahamı neylədin?

Qalalar içində nə bərk qalasan,
İgiddər başına yaman balasan.
Qarğamıram səni veran qalasan,
Məzərsannıx, İrvahamı neylədin?

Asdan şaham, qəm öyündə yatmışdım,
Mən dərddiyəm, dərdi-dərdə qatmışdım.
İrvahamı səndə qoyuf getmişdim,
Məzərsannıx, İrvahamı neylədin?

Söz tamama yetişdi. Vəzirnən baravar qəvirstannığı çox dolaşdılar. Çox gəzənnən sonra Asdan şah geri qayıdıf gümbəzə bir də baxdı. Dərdi tüğyan elədi. Aldı görək Asdan şah nə dedi:

Çarxı-fələk mənnən yaman yağıdı,
Öz mülkünnən qoymur kana dərdimi,

Bir gün olar bu ölkəni dağıdı,
Çıxartmadım bir məkanə dərdimi.

Vəzir dedi:

– Şah sağ olsun, gəlsən sana bir söz deyəm.

Asdan şah dedi:

– Buyur, vəzir nə istiyirsən de!

Vəzir dedi:

– Şahım sən dərdini mana de, bəlkə bir şey fikirrəşdik. Yoxsa, bu camaat elə bilər ki, şah eşqə-zara düşüf, ya da başına hava gəlif.

Asdan şah dedi:

– Vəzir qayıdan kimi başına çarə qıl. Sənnən vəzir olmaz.

Vəzir kor-peşiman dedi:

– Şah sağ olsun, məni bağışda, mən özüm belə dedim ki, bəlkə sənin eynin açıla. Asdan şah vəzirin sözünnən yaman tə'sirrənmişdi. Dodaxları titriyə-titriyə Asdan şah aldı görək nə dedi:

Bir ah çəksən köksüm üstdən ötürməz,
Eynim yaşı sağçarələr bitirməz.
Mənim dərdim nər mayalar götürməz,
Siz yükləyin gərgədana dərdimi.

Asdan şaham, qəm öyündə nökərəm,
Dost bağında qızıl güllər əkərəm.
Öz dərdimi özüm pünhan çəkərəm,
Deyə bilməm hər nadana dərdimi.

Vəzir elə başa düşdü ki, şahın yaqın bir istəkli qardaşı ölüf, ona görə kümbəzə, qəviristannığa belə söz deyir. Gəlif qəviristanlığın qırağına çıxdılar. Şah dedi:

– Hamı üzünə qıvlıya tutsun. Cəmi qəviristannıx əhlinə dua verək.

Camaatın hamısı dua verif şahdan çox razı qaldı. Şad-xürrəm geri qayıtdılar. Şah gəlif öz taxtına çıxdı, həmən günnən vəziri azad elədi.

Vəkil dedi:

– Ey qibleyi-aləm, Sirri-Sübhan bilikli vəzirdi. Nahax çıxartdın.

Şah bir söz demiyif təzə qaydalar qanunnar çıxartdı. O, fərman verdi ki, heş bir dükançılar, aşbazdar yaddardan, qəriflərdən pul almasın. Gəmiçilərə tafşırıldı ki, kasıblardan, qəriflərdən yol pulu almasınnar. Camaat baxıf gördü kü, bu təzə padşah kasıb-kusuvun pənahıdı. Buna görə camahat çox sevinib gejə-gündüz onun canına dualar oxuyurdu. Amma camaat nə bilirdi ki, padşahın nə dərdi var. O fikirrəşirdi ki, bəlkə qardaşım gəlif buralara çıxar, pulu olmaz, aj qalar. Bütün bu işdəri ona görə eliyirdi. Şah öz yerində şahlıx eləməyində olsun, görək İrvahamın başına nələr gəldi. Ziyad haramının evində qaldığı vaxtdar onun mal-dövləti o qədər artdı kı, daha haramılığa tova dedi. Haramı yoldaşdarı Ziyad haramısız bir yana çıxa bilmirdilər. Ajdarınnan batıf qırılırdılar. Ayə, nağayrax Qiyas vəzir biznən getmir, başsız qalmışıx. Bir nadürüst oğlu, nadürüst varıydı işdərində, dedi:

– Əyə, onu düzəltmək çox hasantdı. Bir şeytan muncuğunnan olan qarı var. Onu tapmax lazımdı.

O biri dedi:

– O qarı nağayra bilər ki?

O dedi:

– Onun əlinnən hər şey gəlir, bir ev tikməkdən başqa.

Dedilər:

– De, onda sən bildiyini eliyə bilərsən. Nə danışajaxsan, nə deyəjəksən, tezdəşdir.

Oğlan gedif qarıyı tafdı. Qarı baxıf gördü kü, quldur dəstəsinnəndi. Dedi:

– Oğul, buyur, eşidirəm.

– Nənə, sənin yanına bir işə gəlmişəm.

Qarı dedi:

-A bala, Allah eliyəydi xeyir iş olmuyaydı.

Dedi:

– Nənə, xeyir iş döyül.

Dedi:

– Amma bu sirr ikimizin arasında qalmalıdı.

Oğlan dedi:

– Nənə, əlvəttə ki,ikimizin arasında qalajax.

– Oğul, onda sözünü de görüm, nə deyirsən?

– Sözüm budu ku, Ziyad haramı biznən haramılığa getmir. Gərək

onun evindəki oğlanı ordan didərgin salasan.

Qarı sevincək dedi:

– Bıy, nənən ölsün,ona nə var kı. Amma mana bir ay vaxt ver, düzəldərəm.

Qarının əlində şeytan çuvuğunnan bir təsbeh varıydı. Ona görə də buna şeytan qarı deyirdilər. Qarı bu dəfə həmən təsbehi gizlədif, özünə yüsürdən bir təsbeh aldı, qara-qənöyüzdən özünə bir paltar tikdirdi, qara çərşöy saldı, qara sandal geydi. Əlinə bir cəvərə alıf küçəynən en gedif, uzun gəlməyə başdadı. hərrənif-hərrənif axır kı, yönünü saldı Ziyad haramının evinin yanınnan. Başdadı qışqırmağa:

– Ay çərçi xırdası alan.

– Ay nənə, ay nənə, bəridən gəl, – deyə qaravaşdar qarını çağırdılar. Qarı dedi:

–A...z kimsiniz, kimin qaravaşdarısınız?

Dedilər:

– Biz, Sürəyyə xanımın qaravaşdarıyıx.

Qarı dedi:

– Ay çəpəllər, mən səhv düşüf burya gəlmişəm. Mən onun torpağına əyax basarammı?!

Qızdar dedilər:

– Nənə, o nə sözdü?

Qarı dedi:

– Onu çox yaxşı bilirsiniz. O, çəpəlin biridi. Ona hələ xanım da deyirsiniz?

Qaravaşdar kor-peşiman geri qayıtdılar. Onnar gəlif xanımın yanına çatdılar. Xanım soruşdu:

– A qızdar, o qarı nə satırdı?

Qızdar dedilər:

– Xanım, hər şey satırdı, amma bizə çox sərt bir cavaf verdi.

Xanım dedi:

– Nə dedi,axı?!

– Onu özünnən soruşun.

Qızdar gəlif gördülər ki, qarı gedir.

Xanım dedi:

– Ay qızdar, qoymuyun getməyə.Qaçın dalınca, qarıyı tutun gətirin bura.

Qızdar qarının dalınca qaçıf ona çatdılar; qarının qavağını kəsif

dedilər:

– Nənə, xanım səni çağırır.

Qarı yenə dediyini dedi:

– Nənə sizə qurvan, mən onun torpağına əyax basmaram.

Qızdar dedilər:

– Niyə, nənə?

Axır kı, qızdar qarıyı al dilə tutuf gətirdilər. Qarı güləfirəngiyə daxil oldu. Xanım ayağa qalxıf qarıya yaxınnaşdı. Üzünü ona tutuf dedi:

– Ay nənə, xoş gəlifsən, səfa gətirifsən.

Qarı dedi:

– Heç xoş günün olmasın. Bu qızdarın xətrinə gəlmişəm bu qapıya. Yoxsa, ölsəydin bu qapıya ayax basmazdım.

Xanım təəccüflənmiş halda soruşdu:

– Nənə, niyə, nə oluf? Niyə belə danışırsan?

Qarı dedi:

– A...z, o Ziyad haramı tapıf gətirdiyi gədə gedif orda-burda ağzını boş qoyuf, ağlına gələni danışır. Hələ sən eşitmiyifsən? Eşidərsən, bir çovanın düdüyündə çalınırdı kı, İsgəndərin buynuzu var, buynuzu. İndi sən onun gününə düşüfsən.

Xanım mat-məhəttəl qarıdan soruşdu:

– Nənə, sən nə danışırsan, o nə deməkdi ki, mən onun gününə düşmüşəm?

Qarı bir az da özünü düzəltdi:

– Nejə yanı nə cür, bəyəm eşitmirsən bu vələdızna oturuf-duruf hər yerdə deyir ki, Ziyad haramının arvadı gejə özünündü, gündüz də mənim?

Xanımın gözdəri az qaldı kı, hədəqəsinnən çıxsın. Dili tutar-tutmaz dedi:

– Nənə, nə danışırsan?

Qarı dedi:

– İmanım kirpi dərisində olsun ku, mən hələ indiyə qədər yalan danışmamışam.

Xanım dedi:

– Nənə, yaxşı, mən billəm, o bilər.

Qarı qalxıf qızdara safdan-sancaxdan verdi. Bir az da puldan-paradan alıf çıxıf getdi. Qarı gedənnən sonra Sürəyyə xanım çox

qəmgin, bikef oturmuşdu. İrvaham hər gün ov ovluyuf, quş quşduyuf, at oynadıf, axşamlar evə gəlirdi. Axşam düşəndə İrvaham genə qayıdıf gəldi. Gördü kü, Sürrəyyə xanım çox bikefdi. həmişə olduğu kimi yenə soruşdu:

– Aneyi-mehriban, nətərisən?

Sürəyyə xanım qalxıf onun üzünnən öpərdi. "Gəl qadan alım, balama qurvan olum" deyərdi. Amma indi İrvahama dedi:

– Kəs səsini, ananı tanıyırsan.

İrvaham dedi:

– Ana, noluf?

Xanım hirsdi-hirsdi dedi:

– Sən nə danışdığını yaxşı bilirsən.

İrvaham qarının burdan çıxdığını görmüşdü. Axşam oldu. Ziyad haramı gəldi. Çörək yox, xörək yox. Hamı bikefiydi. Dedi:

– Xanım, niyə eliyirsən?

Sürəyya xanım dedi:

– Tapıf gətirdiyin bu xort gör nə danışır?

Hamısını Ziyad haramıya söylədi. Ziyad haramı inanmadı. Dedi:

– Ay övrət, o adam gör nə adamdı? Xudavəndi aləm, onu bizə qismət eliyənnən sonra bizim varımız, dövlətimiz artıf. Sən ağlına gələni danışma.

Xanım dedi:

– Yox, ya gərək məni öldürəsən, ya da onu.

Ziyad haramı baxıf gördü kü, yox heç cür imkan yoxdu. Nökəri çağırıf dedi:

– Mənim atımı yəhərrə. Ziyad haramı xançalı belinə bağlıyıf çıxdı qapıya. Ata minif dedi:

– İrvaham, oğul, sən də gəl.

Dedi:

– Qoy mən atımı yəhərriyim.

Dedi:

– Yox, lazım döyül, tərkimə min.

İrvaham sıçrıyıf mindi onun tərkinə. Arvad baxıf gördü kü, Ziyad haramı İrvahamı aparır. Dedi:

– Hardan gətirifsən, apar orda öldür. Oğru pişiyi dəyirmanda azdırallar.

Ziyad haramı İrvahamı gətirif çıxardı günbəzin yanına. Qəflətən

qamçıyı əlinnən saldı. Üzünü ona tutuf dedi:

– Oğul, qamçı əlimnən düşdü, düş qamçıyı mana ver.

İrvaham sıçrıyıf atdan düşdü. Ziyad haramı da atdan düşdü. İrvahama badalax vuruf yerə yıxdı. Tez onun əllərini bağladı. Xançalı çıxardıf boğazına söyküyüf dedi:

– De görüm, başınnan böyük nə qələt eliyifsən?

İrvaham dedi:

– Vallah, mən nə günahın sahibi olduğunu bilmirəm.

Ziyad haramı dedi:

– İndi sənin başını kəsəndə biləjəksən, günahın var, ya yox?

İrvaham dedi:

– Onda, icazə ver bir-iki qatar söz deyim.

Ziyad haramı dedi:

– De, amma tez ol. Cəhənnəmdə səni çoxdan gözdüyüllər. Aldı İrvaham:

Başına döndüyüm Ziyad haramı,
Öldürmə, Allaha bağışda məni.
İtkin qardaş bağlamadı yaramı,
Öldürmə, Allaha bağışda məni.

Çarxı-fələk yada salıf andırdı,
İtkin qardaş ciyarımı yandırdı.
Beyman qarı gəlif yaman qandırdı,
Öldürmə, Allaha bağışda məni.

Dərd əlinnən düyünnüyəm, dağlıyam,
Qürvət eldə dərdim kimə ağlıyam.
İrvahamam, Zülal şahın oğluyam,
Öldürmə, Allaha bağışda məni.

Ziyad haramı həmi bunun cavannığına rəhm elədi, həmi də şah oğlu olmasınnan ehtiyatdandı. Öz-özünə dedi:

– Bir gün bu işin üstü açılar, məni bunnan pis eliyərlər. Ə, o nə qarıydı?

İrvaham dedi:

– Şeytan qarının bizdən çıxıf getdiyini gördüm.

Ziyad haramı barmağını dişdədi. Ürəyinnən keçəni dilinə gətirdi:

– Mənim öyümü yıxan odu.

İrvahamın əlini aşdı. Üz-gözünnən öpüf dedi:

– Oğul, sən burda dur mən gedim qarıyı tapım.

İrvaham burda gecə yatmaxda olsun, görək başına nə iş gəldi. Gecənin bir vaxtı aləmi-röyada bir nurəni ağsaqqal ona badə verif, nuş etdirənnən sonra barmağını onun gözdəri qarşısında haçalıyıf dedi:

– Oğul, nə görürsən?

Bunu deyif şəhadət barmağını haçaladı.

İrvaham dedi:

– Uzun-uzun bir yol görürəm. Sonra böyük bir şəhər görürəm. Deyəsən Misir şəhəridi. Qəribə imarət görürəm. Bir də bir nazənin sənəm görürəm.

Ağası dedi:

– O sənin sevgilindi. Onu sana, səni də ona buta verirəm.

Gejənin bir vaxtı İrvaham ayılıf gördü kü, savaha yaxındı, aldı görək nə dedi:

Aləmi-röyada, gördüm vəyğada,
Dilimi örgətdim ya sana, Mövla.
Bir Allahı iki bilən kafərdi,
İllah şəkk eyləsə, ya sana, Mövla.

Çöl quşuydum, çöl ovunun kanında,
Ovladılar səhrasında-çölündə.
Yeddi tabaqada mehrac evində,
Verdi xətabanı ya sana, Mövla.

İrvaham din bəslər abid içində,
Müdəmma zülflərin abid içində.
Ərəb nisbətində, tabut içində,
Qalxdı, cavab verdi həsana, Mövla.

İrvaham gejiyi savah eliyif, yol başdadı getməyə. Ağası hansı səmtə demişdi, o səmtə getdi. Bir neçə gün gedənnən sonra bir kərvana rast gəldi. Salam əleyküm, əleykümə salamnan sonra İrvaham dedi:

– Qoja, icazə ver sənnən bir söz xəvər alım.

Sövdayar dedi:

– Oğul, gəl əyləş, günorta namazımızı qılax, yeməyimizi yeyək, füqara adama oxşuyursan. Onnan sonra sən deyərsən, mən də qulax asaram.

Otdular. Namaz qıldılar. Qurtarannan sonra sövdayar dedi:

– Oğul, buyur.

İrvaham fikirrəşdi ki, dərdini şe'rnən desin.

Aldı görək nə dedi:

İrvaham:

Başına döndüyüm gül üzdü qoja,
Xoja, bir yar deyim, ver nişan barı.
Nə günüm gün keçir, nə gejəm-gejə,
Xoca, bir yar deyim, ver nişan barı.

Xoca Saleh:

Başına mən dönüm gül üzdü oğlum,
Oğul, sən adın de, mən isnat verim.
Sana yedirərəm qəndiynən, noğul,
Oğul, sən adın de, mən isnat verim.

İrvaham:

Baxçaların baharıdı, yazıdı,
Gəzəllərin söhbətidi, sazıdı.
Salığnan Fətəli xanın qızıdı,
Xoca, bir yar deyim, ver nişan barı.

Xoca Saleh:

Mən gələndə pəncərədə durmuşdu,
Ağ üzünə halqa birçək vurmuşdu.
Firəngi qaçıynan ujun vurmuşdu,
Oğul, sən adın de, mən nişan verim.

İrvaham:

İrvahamam, öz canımnan bezaram,
Gejə-gündüz qardaş deyif gəzərəm.

Sevgilimi pünhan-pünhan gəzərəm,
Xoca, bir yar deyim, ver nişan barı.

Xoca Salch:

Xoca Saleh xocaların gözüdü,
Şirin-şirin söhbətidi, sözüdü.
Salığ verdin Fətəli xan qızıdı,
Oğul, sən adın de, mən nişan verim.

Bəli, əzizdərim, söz tamama yetdi. Xoca Salch İrvahamı gətirif öz gəcavəsinin yanında rahat elədi. Yemək-işmək hazır oldu. İrvaham gejiyi burda qalıf, savah elədi. Savahlar üzünüzə xeyirriknən açılsın. Savah çay-çörəyini yeyənnən sonra Xoca Saleh həmin yolu İrvahama göstərif dedi:

– Oğul, bax bu yolnan düz Herat şəhərinə gedəjəksən. Yol qırağında böyük bir imarət görəcəksən. Bax, o Hürnisə xanımın imarətidi.

Bu sözü deyif İrvahamı yola saldı. İrvaham getməkdə olsun, sizə hardan xəvər verim, Hürnisə xanımnan.

Hürnisə xanım üç gün bunnan qavax yatıf vəyğasında bir dərviş gördü. O da ələmi-röyada İrvahamı Hürnisə xanıma göstərif dedi ki, o gördüyün oğlanı sana buta verirəm. Hürnisə xanım da elə o günnən başındakı qırx qaravaşını çağırıf onnara dedi:

– Bu boyda, bu buxunda, bu yaşda, çiynində saz, belə bir oğlan gəlif burdan keçəjək. Onu görən kimi mana xəvər eliyin.

Həmin günnən bunnar yol gözdəməyə başdadılar. Hürnisə xanım da pəncərədən yollara baxırdı. Günnərin birində baxıf gördü kü, həmən ələmi-röyada gördüyü oğlandı. Qızdarı çağırıf dedi:

– Qızdar, bax o gördüyünüz oğlan vəyğamda gördüyüm oğlandı. Qoymuyun başqa yerə gedə.

İrvaham imarətin qavağınnan keçif getmək istiyirdi. Hürnisə xanım küləfirəngiyə çıxıf dedi:

– Ay cavan oğlan, bir əyax saxla.

İrvaham başını qaldırıf yuxarı baxanda gördü kü, küləfirəngidən bir xanım boylanır. Hürnisə xanım özünü tanıtmazdığa vuruf dedi:

– Oğlan, kimi axtarırsan? Hardan gəlif, harya gedirsən?

İrvaham dedi:

– Xanım, yolçuyam, heş kimi də axtarmıram, yolumnan gedirəm.

Hürnisə xanım qızdara dedi:

– Siz onun ağzını danışığa tutun, mən özümə bəzək verim, paltarımı geyinim gəlim.

Xanım gedif qənöyüzdən, qavırqotdan, hindiqotdan elə bir livas geyindi, elə bir bəzək vurdu ku, gəl görəsən. Qaşdarına sürmə, vəsmə yaxdı, üzünə önnik-kirşan vurdu, gülə-gülə küləfirəngiyə çıxdı. Aldı görək Hürnisə xanım nə dedi, biz də nə eşitdik:

Çiyni sazdı, gedən oğlan,
Qayıt gəl bəri, gəl bəri.
Mən olum boyuna heyran,
Qayıt gəl bəri, gəl bəri.

İrvaham fikirrəşdi ki, ola bilər ki, ala çəkillər məni. Mən ona bu saat başqa cür cavaf verməliyəm

İrvaham:

Pəncərədən baxan gözəl,
Qayıdıf gələ bilmərəm.
Bir yarım var sənnən gözəl,
Qayıdıf gələ bilmərəm.

Hürnisə:

Gözəllərin gözü mənəm,
Aşıxların sözü mənəm.
Sevgilinin özü mənəm,
Qayıt gəl bəri, gəl bəri.

İrvaham:

Dağların başı dumandı,
Dindirmə halım yamandı.
Yarımın adı Yəməndi,
Qayıdıf gələ bilmərəm.

Hürnisə:

Buyurallar sana fərman,
Olaram dərdinə dərman.
Hürnisəndi sana qurvan,
Qayıt gəl bəri, gəl bəri.

Hürnisə xanım qızdara dedi:

– Sözünün təxəllisində görün nə deyir?

Aldı görək İrvaham nə dedi:

Yolçuyam yoldan qalmaram,
Canımı oda salmaram.
İrvahamam səni almaram,
Qayıdıf gələ bilmərəm.

Söz tamama yetdi. Hürnisə xanım özü yerə düşdü. İrvahama əl üzadıf, salam verdi. İrvaham onun əlinnən tutanda baxıf gördü kü, bu əl döyül, mığrı pambığıdı. Dedi:

– Oğlan, Hürnisə xanım mənəm, məni sana buta veriflər. Buyur gedək imarətə.

İrvaham gəldi imarətə. Xanım qaravaşdara tafşırdı:

– Birinizin ağzınnan çıxmasın. İrvaham burda qalajax.

İrvaham bir neçə gün burda qalannan sonra dedi:

– Mən darıxıram. Mən işsiz dura bilmirəm, gərək mənim bir işə qoyasınız.

Xanım dedi:

– Hələ atama-anama deyəjəm bizi meçidə aparıf, kəbin kəsdirif, toy eliyəjəklər.

Qız qaravaşın birini göndərif anasının çağırtdırdı. Anası gəldi, hal-əhvaldan sonra soruşdu:

– Qızım, noluf, qadan alım, dərdin-çorun nədi, məni niyə çağırtdırıfsan?

Hürnisə qaravaşdarın birini göndərif İrvahamı çağırtdırdı, dedi:

– Ana, vəyğamda ağam məni buna, bu oğlana, onu da mana buta verif.

Anası dedi:

– Ay bala, ağana qurvan olum. Səni belə gözəl bir oğlana buta

verənə canım sadağa olsun!

Doğurdan da İrvaham dünya gözəliydi. Yusif Kə'nan onun əlinə su tökməyə yaramazdı. Anası çox şad oluf dedi:

– Qızım, gedim atana deyim, oğlanı yanına çağırtdırsın, bir ağlını, huşunu yoxlasın, görsün kimdi, nə karadı? Bəlkə, a bala, səydəşin, yersiz-yiyəsin biridi.

Fətəli xan İrvahamı yanına çağırtdırdı. İrvaham şah oğluydu, bir şahzadə salamı verdi, əl köksünə qoydu, baş əydi, ikram elədi. Kürsü göstərdilər, əyləşdi. Fətəli xan dedi:

– Oğul, nəslin-nəcabatın varmı, kimsən, nə karasan? Yerin-yurdan haradı?

İrvaham dedi:

– Ey qibleyi-aləm, qəribəm. Şah oğluyam, amma qismət elə gətirdi ki, indi cəlayi vətənəm.

Xan hər şeyi başa düşdü, çox çək-çevirə salmadı. Öz adamlarını çağırtdırıf İrvahamın toyunu başdadı. Toy başdandı, nə başdandı. Yeddi gün, yeddi gejə toy elədilər. Hürnisə xanımı İrvahama verdilər. Bəli, əzizdərim, bunnar burda qalmaxda olsun, İrvaham bir neçə günnən sonra Hürnisə xanıma dedi:

– Mən bir iş isdiyirəm.

Dedi:

– Atam nə cür iş desən sana verər.

İrvaham dedi:

– Yox, başqa iş istəmirəm. Mənim ticarət işinnən çox xoşum gəlir.

Şəhərdə bir halvaçı Musa kişi varıydı. Fətəli xan Musa kişiyi çağırtdırıf dedi:

– Mənim bu göyümü yanına götür, sən halvanı bişir, bu da dükanda satıcı olsun.

Musa kişi dedi:

– Mənim gözüm üstə.

İrvahamı aparıf halvaçı Musanın yanına, dükana qoydular. İrvaham burda işdəməyə başdadı. Sizə hardan xəvər verim, Dağıstanda Şəmil Cühüd addı bir yəhudidən. Yəhudi Süleyman xanın qızına aşiq olmuşdu. Tez-tez Süleyman xanın yanına gedif deyirdi:

– Qızını mənim oğluma ver.

O da deyirdi ki, get oğlunu gəti, qız bəyənsə verərəm. Bu da

gedif oğlunu gətirif. Qız baxıf görür ki, ayə, bu bir dəri, bir sümükdü, yörü-yöndəmi aynıtdı. Bir ay, iki ay keçənnə sonra yəhudi gedif deyirdi ki, qardaşım oğluna almaq istiyirəm. Süleyman xan deyir ki, get həmən oğlanı gəti, qız bəyənsə verərəm. Şəmil Cühüd qızı onnarın adına isdiyif özü almaq istiyirdi. Axırda baxıf gördü kü, bu kələyi baş tutmadı. Şəhərbəşəhər düşüf elə bir adam, yanı elə bir cavan oğlan gəzirdi ki, qız gedəndə ayrı bir söz tapmasın, bəyənsin. Bu fikirnən qatırını minif yola düşdü. Onun bir qatırı varıydı, adına Maça qatır deyirdilər. Yəhudi onun nalını həmişə tərs vurdurardı. Şəmil Cühüd gəzə-gəzə gəlif, Herat şəhərinə çatdı. Karvansarada qapını bağlıyıf şəhəri gəzməyə başdadı. Gəzə-gəzə gəlif bazara çatdı. Baxıf gördü kü, bazarda böyük bir növbə var. Bu da gəldi. Birinnən xəvər aldı;

– Ayə, bu nə olan işdi, camahat niyə bura toflaşıf?

Dedilər:

– Burda halva satılır.

Şəmil cühüd gülüf dedi:

– Niyə, bu şəhərdə bircə yerdə halva satıllar?

Dedilər:

– Yox. Bu camahat halva satanın gözəlliyinə görə bura toplaşıf. Bir alan gəlif bir də alır.

Şəmil cühüd də sıraya durdu. Xeyli adamnan sonra bunun da novatı gəlif çatdı. Yəhudi dedi:

– Mana da halva çək, ay bala.

Şəmil cühüd bir gərvəngə halva çəkdirdi. Pulunu verif qurtarana qədər gözü İrvahamın üzündə qaldı. Geri qayıtdı, karvansaraya gəldi. Gejə burda qaldı. Sübh tezdən duruf düşdü şəhərin canına. Hardakı camahat var, ağsaqqal var orya gedirdi. Hərəsinə bir söz deyir, bir söz öyrənirdi. Daha doğrusu, halvaçı Musanın kökünü, nəcabətini, atasını, anasını, yeddi arxa dönənini xəvər alıf, addarını dəftərinə yazır, gətirif karvansarada bir sandığa qoyurdu. Bu şəhərdə bir neçə gün qalıf Musanın bütün qohumlarının adını örgəndi. Bir gün də bir sorax tutdu ku, Musanın bir əmisi oğlu Qulam o vaxtdan gedif; itif tapılmıyıf. Bunnarı da gətirif sandığa qoyuf gəldi halvaçı Musanın yanına. Salam əleyküm. əleykümsalamnan sonra tez Musanın boynunu qucaxladı. O üzünnən, bu üzünnən öpüf dedi:

– Ə, mən Qulamın oğlu döyüləmmi? O vaxt Qulam burdan başını

götürüf gedif Dağıstanda yaşıyıf. İndi bu sorağı mən almışam, eşitmişəm, Herat şəhərində mənim belə qohumlarım var. O günü də gəlif burda halvaçı dükanının qavağında duranda xəvər aldım:

– Ə, bu kimin oğludu? Elə gədiyə qanım qaynadı. Dedilər halvaçı Musanın oğludu.

Elə ki, mən eşitdim ki, bu sənin oğlundu, mən də Allaha şükür elədim ki, nəsil-nəcabətimizdə belə bir oğlan var.

Halvaçı Musa İrvahamı oğulluğa götürmüşdü. Ona görə də hamı on halvaçı Musanın oğlu deyirdi.

Musa kişi öz qohumlarına xəvər eliyif, bir böyük məclif düzəltdirdi ki, deməzsənmi əmisioğlu tapılıf. Camahat tökülüşüf ona gözaydınnığına gəlirdi:

– Allaha şükür! Ay Musa, Allaha şükür! Deyəsən, əmin oğlu gəlif.

– Hə, şükür içində olasınız, oğlunuz sağ olsun. Qulamın özünü də görməsək, oğlunu görmək qismət oldu bizə.

Musa soruşdu:

– Nə var, nə yox?

Dedi:

– Sağlığın, bir gün evdə otururdum atamın bir sandığı varıydı onu heş kim aşmırdı. Bir gün mən aşdım. Gördüm bu şəhərdə çox adam ona boşdudu. Həmin sandığı eləjə içi dolu burya gətirdim. İndi gözüm görmür, yazı köhlənif. Deyirəm savah bu gədiyi verəsən gedə mənnən o kağızdarı oxuya. Adamların kim olduğunu bilim, nisyələrimizi yığax.

Musa dedi:

– Bu nə sözdü, lap mən də gedərəm.

Dedi:

– Yox, canım, səni qoymaram, əziyyət çəkəsən.

Musa dedi:

– Onda, oğlum İrvaham, gejdənnən qalx, əminnən get karvansarada o kağızdarı oxu,qoy getsin pulunu yığsın.

İrvaham dedi:

– Baş üstə.

İrvaham gəlif Hürnisə xanımnan söhbət eliyif bir az rahatdandı. Gejə bunnarın hər ikisi genə yuxu gördü. İrvaham gördü kü, Şəmil Cühüd bunu Dağıstana aparır. Hürnisə də vəyğasında gördü kü,

İrvahamı Dağıstana aparıllar.

Hər ikisi səhər tezdənnən qalxıf bir az yeyif içənnən sonra, İrvaham gördü kü, Hürnisə yaman kədərridi. Onun sözdü adama oxşadığını görən İrvaham soruşdu:

– Xanım, noluf, niyə belə fikirrisən?

Xanım özünü saxlıya bilmədi, birdən hönkürtüynən ağlamağa başdadı. Qarabaşdar töküldülər.

– Xanım, sizə nə oldu?

Aldı görək xanım nə dedi:

Hürnisə

Başına döndüyüm, qurvan olduğum,
Sən gedirsən Dağıstana, İrvaham.
Alışıf oduna büryan olduğum,
Sən gedirsən Dağıstana, İrvaham.

İrvaham baxdı onun yuxusu xanıma da agahdı. Oydu ku, dedi:

– Qardaş dərdi bir yannan, yar dərdi də o biri yannan. Dərdimi özüm tək çəkmək istiyirdim. İndi səni də dərdə saldım.

Hər şey sevgilisinə əyan olannan sonra aldı görək İrvaham nə dedi, biz də nə eşitik:

Badi-sabah yuxusundan oyanmış,
Niyyət qoyuf Dağıstana gözdərin.
Əlvan birçəkləri qana boyanmış,
Niyyət qoyuf Dağıstana gözdərin.

Hürnisə müşk-ənbər qoxuyan qara saşdarınnan üş tel ayırıf, mərmər sinəsinin üstünə endirdi, gözünnən qannı yaşdar axıdı-axıda aldı görək nə cavaf verdi:

Əmdik-əmdik yarın ləbinnən qandıx
Pərvana tək eşqin oduna yandıx.
Yəhudu boyuna kəsdirif sandıx,
Sən gedirsən Dağıstana, İrvaham.

Şəmil Cühüd istədiyni bulmasın,
Yuvasında çır deyəni qalmasın,
Hürnisəni yanar oda salmasın,
Sən gedirsən Dağıstana, İrvaham.

İrvaham baxdı kı, xanım, qaravaşdar züy-züyə gedir, bunnarın ağlamasına özü də məhəttəl qalıf, aldı görək sözünün o biri xanəsində nə dedi:

Yəhudi şəhərdə bir qılınc asdı,
Gələni-gedəni sındırıf kəsdi.
Herat şəhərini almaxdı qəsdi,
Niyyət qoyuf Dağıstana gəzdərin.

Gəlib bu şəhərdə bir qala yapdı,
Gələni-gedəni sındırıf çapdı.
İrvaham axdardı, yar, səni tapdı,
Niyyət qoyub Dağıstana gözdərin.

Söz tamama yetdi. Xanım, qaravaşdarı İrvahamı öpüf yola saldılar. İrvaham getdi. Hürnisə fikirrəşdi ki, İrvahamgil hansı yolnan gedəjəksə, orada yəhudinin qavağını kəsif pul versəm, bəlkə İrvahamı onnan ala bildik?

Bəli, İrvaham gəlif Şəmil cühüdün yanına çatdı. Şəmil cühüd sandığı irəli çəkif içindəki kağızdarı İrvahama verif dedi:

– Başına dönüm, bu şəhərdə olan adamları tap.

İrvaham əyildi ki, yaxdanın lap divinnən kağızdarı çıxartsın, Şəmil Cühüd tez bunun ayağınnan qaldırıf sandığa basdı. Sandığın qapağını bağladı. Tez bir qatırın üsdünə qoyuf möhkəm-möhkəm sardı. Özü Maça qatıra minif, üstündə sandıq olan qatırı da onun quyruğuna bağladı. Şəmil Cühüd Hürnisə xanımın imarətinin yanınnan gəlif keşmək isdiyəndə, xanım irəli yeriyif yolu kəsdi, aldı görək nə dedi:

Hürnisə:

Ay yahudu, sən Allahı sevərsən,
İnsaf eylə, gəl aparma yarımı.

O nə yoldu ona qullux edirsən?
İnsaf eylə, gəl aparma yarımı.

İrvaham sandığın içinnən dilləndi:

– Yahudu, sənə and verirəm dininə, məssəvinə, bir az ayax saxla, mən ona cavaf verim.

Yahudu dedi:

– Ay gij, nə cavaf verəjəksən ona, kiri, səsini kəs!

İrvaham cuhuda yalvara-yalvara aldı görək nə dedi:

İrvaham:

Ay nazənin, özün beddam eyləmə,
Hər kəs olsa əldən qoymaz yarını.
Xançal alıf bağrım başın teyləmə,
Hər kəs olsa əldən qoymaz yarını.

Hürnisə xanım qızdara dedi:

– Qatırın noxtasınnan asılın, yalvarax, görək nə deyir, bəlkə insafa gələ.

Hürnisə:

Pul isdəsən yüz tümənnən pul verrəm,
Qul isdəsən neçə-neçə qul verrəm.
Var istəsən sürü-sürü mal verrəm,
Ay yahudu, gəl aparma yarımı.

İrvaham baxdı Hürnisə İrvahamnan ötəri hər zada əl atır, amma Yahudi yola gəlmir ki, gəlmir. Dedi:

– Hürnisə özünü biavır eləmə, eldən ayıfdı.

İrvaham:

Gəl heş kəsə bağışdama qulunu,
Ara yerdə bada vermə pulunu.
El içində gödək etmə dilini,
Hər kəs olsa əldən qoymaz yarını.

Hürnisə:

Hürnisəni qəm-qüssəyə doyurma,
Allahın var yarı mənnən ayırma.
Ayırsan da qul adına buyurma,
İnsaf eylə, gəl aparma yarımı.

İrvaham:

İrvahamam, dərya döyül, adayam
Saqilər içində duru badayam.
Zulal şah oğluyam, mən şahzadəyəm,
Hər kəs olsa əldən qoymaz yarını.

Söz tamama yetdi, yəhudi qatıra bir şallax çəkdi. Qatır bayaxdan əli üstdə qalxdı, yola düzəldi. Gəlhagəl, üç ay on günə gəlif Dağıstana çatdılar. Yəhudi qatırı sürdü karvansaraya. İrvahamı da sandıxdan çıxardıf yaxşı yemək-içmək verif rahat eliyənnən sonra dedi:

– Oğul, mən səni öldürməyə gətirməmişəm. Mənim bir məqsədim var, onu yerinə yetirənnən sonra səni buraxajam, gedif öz yarına qovuşarsan.

İrvaham dedi:

– Nədi, sənin o istəyin mənnən?

Şəmil cühüd dedi:

– Çox hasand bir işdi, mən səni gətirmişəm ki, Süleyman xanın qızını alıf mənə verəsən. Onnan sonra hayana gedirsən get, sənin öz işindi.

İrvaham soruşdu:

– Mən nə təhər alajam?

Şəmil cühüd dedi:

– Mən sana nə desəm, elə eliyərsən!

İrvaham dedi:

– Baş üstə.

Şəmil cühüd dedi:

– Süleyman xan sənnən xəvər alsa ki, sən kimin oğlusan, deyərsən Şəmil cühüdün. Bunnan başqa heş bir söz deməzsən. Qızı alannan sonra hər şey öz yerinə düşəjək.

İrvaham razılaşıf dedi:

– Baş üstə, nə desən elə də olajax.

Şəmil cühüd gedif elçi daşının üsdündə oturuf gözdəməyə başdadı.

Süleyman xan adamlarına dedi:

– Gedin, görün o kişi nə istiyir?

Gəlif salam verif Şəmil cühuddan nə murada gəldiyini soruşdular:

Şəmil cühüd dedi:

– A bala, gedin xana deyin ki, onun qızına elçiliyə gəlmişəm.

Bunnar gəlif xana dedilər:

– Xan sağ olsun, o kişi deyir ki, qızının elçiliyinə gəlmişəm.

Xan dedi:

– Gedin, gətirin mənim yanıma.

Şəmil cühüdü xanın yanına gətirdilər. Şəmil Cühüd ədəfnən baş əydi, ikram elədi. Süleyman xan baxdı bu çox qanan, elmli, bir adama oxşuyur. Onnan söhbətə başdıyıf soruşdu:

– Buyur, məqsədini söylə!

Şəmil cühüd dedi:

– Mətləb sahibi olasan, xan! Mən gəlmişəm, Allahın buyruğu, peyğəmbərin şəriətinnən, əyər rəva bilsən, mənnən qohum olasan, qızını mənim oğluma verəsən.

Süleyman xan dedi:

– Oğlun hardadı?

Şəmil cühüd dedi:

– Xan sağ olsun, burda, Ala Xojanın yanındadı.

Xan dedi:

– Get oğlunu burya, mənim yanıma gətir.

Şəmil cühüd tez gəlif İrvahamı yanına salıf apardı. Yolda örgətdi ki, dediyim kimi eliyərsən.

Bunnarın hər ikisi gəldi imarətə. Şəmil cühüd girdi içəri. genə salam verif, əleyk alannan sonra İrvahamı çağırıf dedi:

– Gəl, bala, gəl, utanma.

İrvaham içəri girdi. Süleyman xana şahanə baş əyif, ikram elədi, salam verif ,əl köksünə qoydu.

Xan baxıf gördü kü, Şəmil cəhənnəm kəsöyü kimidi. Amma oğlu olduxca mə'rifətdi, olduxca gözəl bir cavandı. Hüsnünü çox bəyənif soruşdu:

– Bala, sən Şəmilin oğlusan?

İrvaham dedi:

– Səki, Süleyman xan.

Xan dedi:

– Şəmil bu nə deyir?

– Xan sağ olsun, onu mən mollanın yanınnan gətirirəm. Bu mollasına o qədər səki deyif ki, dilinin əzbəri oluf. Yanı molla qur'an, kitavı istədikcə o deyif ki, səkidədi. Yadında o qalıf. Həmi də sənnən utanır.

Süleyman xan bir molla çağırtdırıf dedi:

– Mənim qızımın siğəsini bu oğlana oxu. Qoy bu oğlannan sənin yanında söhbət eləsin. Görüm qızım bu oğlanı bəyənirmi? Bəyənsə hər ikisinin dilinnən kağız gəti.

Molla dedi:

– Baş üsdə.

Molla siğəni oxuyuf tafşırdı ki, oğlannan qıza onun yanına gətirsinnər.

Molla qızdan soruşdu:

– Qızım, de görüm bu oğlanı bəyənirsənmi?

Qız dedi:

– Molla əmi, icazə ver mən söznən deyim, sən də yaz atama apar.

Molla razı oluf dedi:

– Buyur qızım,

Qızın adı Şəhrəbanıydı.

Şəhrəbanı aldı görək nə dedi:

Şəhrəbanı:

Başına mən dönüm, ay molla baba,
Molla, bəy bavama yazgınan, versin.
Kəmərin qurşasın Məkkeyi-Kəbə,
Molla bəy, bavama yazgınan, versin.

Molla baxdı kı, qızın getmək fikri var. Dedi:

– Qızım, baş üstə. Dediyini yazıf atana çatdırram.

İndi, görüm oğlan nə deyir?

Molla baxdı oğlan çox utancaxdı. Amma qız cilov gəmirir. Aldı görək İrvaham molluya nə cavaf verdi:

İrvaham

Başına mən dönüm, ay molla bava,
Bizim dinnər hamı dinən hayıfdı.
Kəmərin qurşasın Məkkeyi-Kəbə,
Bizim dinnər hamı dinnən hayıfdı.

Molla baxdı kı, gədə qızı istəmir. Gədə deyəsən səydi; din nədi, zad nədi? Molla yazmağa başdıyanda qız mollanın əlinnən tutdu.

– Ay molla bava, o deyəni yazma. Mən dediyimi yaz. O yol gəlif yornuxdu. Onçu elə deyir.

Aldı Şəhrəbanı:

Oğlan gəlif bu sevdaya dayanmaz,
Gülgəz birçəkləri əlvan boyanmaz.
Necə mən bəyənəm, oğlan bəyənməz,
Molla, bəy bavama yazginan, versin.

Molla dedi:

– Qızım, atanın tapşırığıdı, mən düzünü yazajam. Sonra bir zad olar, boynumu vurdurar.

Aldı İrvaham:

Başıma qoymuşam ədalət tacı,
İtifdi qardaşım, ağzımdı acı.
O dünya, bu dünya, o mana bacı,
Bizim dinnər hamı dinnən hayıfdı.

Molla baxdı oğlan ayrı cür başdadı. Dedi:

– Qızım, daha başqa söz ola bilməz. Özün görürsən ki, bu sana bajı deyir. Daha bu iş baş tuta bilməz.

Qız dedi:

– A kişi,bir qoy sözümüzün axırını deyək. O da özünü düzəltsin, sən tələsmə. Bu gün sən biznnən məşğul olmalısan, yoldan çıxanı yola gətiməlisən.

Molla dedi:

– Qızım, görmürsən tır deyif, gendə durur. Utanma bala, çəkinmə. Bu qızı sana verillər, de görüm, nə deyirsən?

İrvaham dillənmədi. Qız dedi:

– Qoy, mən sözümü deyim, o da özünü tərəziləsin.

Adı Şəhrəbanı:

Şəhrəbanıyam, köysüm bəndin açaram,
Yaxşıyı, yamanı mən də seçərəm.
Bavam da verməsə, qoşuluf qaçaram,
Molla, bəy bavama yazginan, versin.

Molla dedi:

– Ay qız, mən neynim oğlan razı döyül.

Şəhrəbanı dedi:

– Onun dediyini yazma, denən oğlan "hə" dedi.

Bunu eşidif aldı görən İrvaham nə dedi:

İrvahamam, əslim ay qaradağlı,
İtifdi qardaşım ciyarım dağlı.
Yəhudi olanın kim olar oğlu,
Bizim dinnər hamı dinnən hayıfdı!

Molla hər şeyi olduğu kimi yazdı. Qız nə qədər xahiş elədisə, molla baxmadı. Yazıf eşiyə çıxmaq istiyəndə gördü kü, Şəmil cühüd qapının ağzında durur. Şəmil cühüd mollanın qavağını kəsif dedi:

– Molla, səni dünya malınan qəni eliyəjəm. Gəl, sən o kağızı dəyiş.

Şamil cühüd sehirbazın, cadigünün biriydi. İstiyəndə daşı, torpağı yığıf bir ismi-əzəm oxuyuf qızıl-gümüş eliyirdi. Baxan elə bilirdi ki, qızıldı, lə'l cəvahiratdı. Tez- tələsik bunnardan bir kisə molluya verdi. Molla dedi:

– Qızım, bax sənin xətrinə bu kağızı dəyişirəm.

Şəhrəbanı xanım sevindiyinnən dedi:

– Molla, imanın kamil olsun. Mən də anamnan sənin nəmərini alıf verəjəm. Dünya malı dünyada qalajax, molla əmi, yaxşılıx elə.

Molla Süleyman xanın yanına gəlif dedi:

– Hər şeyi yoluna qoyuf gəldim.

Sonra kağızdarı Süleyman xanın qavağına qoydu. Xan baxdı kı, qızı razıdı. Deyir verməsə də qaçaram. Amma, oğlan heş bir söz

yazmayıf. Eləjə hə deyif. Dedi:

– Şəmili çağırın gəlsin.

Şəmil gəldi.

– Xan sağ olsun, eşidirəm, nə desən boynum qıldan nazikdi.

Süleyman xan dedi:

– Mənim şəhərimdə bir imarət tikdirif, hazır olanda gəlif deyərsən. O zaman mən qızımı sənin oğluna verərəm. Ona görə ki, bir qızdı, gözümnən uzağa qoya bilmərəm.

Şəmil cühüd köksünə əl qoyuf dedi:

– İcazə ver, qulluğunnan mürəxxəs olax.

Dedi:

– Get, işin avand olsun.

Şəmil cühüd tez özünü bazara salıf bir bənna tafdı. Bənna dedi:

– Buyur, ağa görüm, nə deyirsən?

Şəmil cühüd dedi:

– Mana ev lazımdı. İki mərtəbəli bir evi neçə günə tikə bilərsiniz?

Bənna dedi:

– Hər şeyi hazır olsa, üç-dörd aya bəlkə başa gətirə bilərik.

Şəmil dedi:

– A kişi haqqınan çəkinmə, sən elə bil üş bina tikirsən. Onun haqqını verəjəm, mən oğluma toy eliyirəm, bir elə gözdüyə bilmərəm. Tezdəşdir. Özünə çoxlu yoldaş götür. Bu iş ləngiyəsi iş döyül.

Söylədi ki, mən filankəsnən qohum oluram. O da belə istiyif. Qadan alım bənna, durma, işə başda.

Bənna dedi:

– Yerini göstər, görək neyliyirik.

Şəmil cühüdə xan yer göstərif demişdi: "Cüyür talası var, mənim yaylax yerimdi. İmarəti ordan tikərsən." Şəmil cühüd həmin yeri ustuya göstərdi. Usta pulunu alannan sonra dedi:

– Bir aya kimi ev çağ-çillə hazır olajax. Qorxma, get, sən toyuna hazırraş. Bunnan arxayın ol.

Şəmil cühüd geri qayıdıf başdadı toya hazırraşmağa.

Bir aya bənna evi hazırradı. Şəmil cühüd gəlif gördü kü, ev hazırdı. Daşı-torpağı yığıf bir ismi-əzəm oxuyuf, qızıla çevirdi. Ustalara verif yola saldı. Gəlif Süleyman xana dedi:

– Xan sağ olsun, mənim evim hazırdı, icazə ver, toyu başdıyım.

Süleyman xan dedi:

– Gələn adna axşamı gəlif gəlini apararsan.

Şəmil cühüd gəlif toya hazırraşmağa başdadı. Ətdik heyvannar alıf, aşbaz çağırıf, hər nəki hazırrıx var, hamısını tamamladı. Adna axşamı gün çırpmazdan qavax bir gəcavə bəziyif gətirdi Süleyman xanın qapısına. Xan baxdı oğul toyu eliyir deyə çox sevinir, amma kişi təkdi, Nökər-nayivə tafşırdı kı, Şəmil kişinin toyuna kömək eliyin. Toy başdandı. Gəlini gətirif imarətə düşürtdülər. Camaat yeyif-içif, oxuyuf-oynuyuf, hərə öz evinə dağılışdı. Cühüd İrvahamı çağırıf dedi:

– Al bu xançalı gejə qızınan yatanda aranıza qoy, əgər əlin-əlinə dəysə əlini, ətin-ətinə dəysə ətini kəsəjəm. Dilin-dilinə dəysə dilini divinnən qopardajam.

Axşam qızın yanında yatmax məqamı gəldi. İrvaham xançalı çıxardıf ikisinin arasına qoydu. Qız baxdı kı, iş baş tutmadı. Qaldı kı, neynim, nejə eliyim. Beləjə yaşadılar. Bir-neçə həftə beləcə ötüşdü. Bir gün qızın anası dedi:

– Qızımın qaynənəsi yoxdu, gedim görüm nə təhər dolanır. Öyüd-nəsihət verim, yol göstərim.

Xanım duruf qızının yanına gəldi. Qızının yeznəsinnən öpüşdü. Gördü bular beykefdilər. Xanım işi annamax üçün qızı yannadı:

– Qadan mana gəlsin, nədən korruğun var? Bikef dəyirsən gözümə.

Qızı ağladı. Anası yenə dedi:

– Anan ölsün, niyə ağlıyırsan?

Şəhrəbanı xanım dedi:

– Ana, mən bu oğlana getmirəm.

Xanım dedi:

– A qancığın doğduğu, özün sevif-seşmədinmi?

– Yox, indi getmirəm.

Arvad əlini atıf üzünü cırdı İki əli oldu, bir başı. Qız aldı görək nə dedi:

Başına döndüyüm, gülüzdü ana,
Ana, vallah, bu oğlana getmirəm.
Əmmişəm südünü mən qana-qana,
Ana, vallah, bu oğlana getmirəm.

Anası dedi:

– Ay çəpəl, bə niyə yazırdın kı, bavam da verməsə, qoşuluf qaçaram. İndi nə oluf, de?

Şəhrəbanı dedi:

Səhər tezdən duruf gedir oynuna,
Beyvəfadı ortax olmam deyninə.
Öpmək-cummax gəlmir onun eyninə,
Ana, vallah, bu oğlana getmirəm.

Anası işi başa düşüf qızına dedi:

– Qızım eybi yoxdu, axırı yaxşı olar, sən ağıllı ol, oğlan yaxşı oğlandı.

Şəhrəbanı aldı sözün o biri xanəsini:

Qoyun döyül, qoyunnara qatmıyım,
Öküz döyül, çodarrara satmıyım.
Qadın döyül, sarmaşmıyım, yatmıyım,
Ana, vallah, bu oğlana getmirəm.

Anası dedi:

– Bəs kimə getmək fikrindəydin?

Qız dedi:

– Əmim oğlu Məmmədbağıra gedəjəm:

Arı desən, qızıl güldən arıyam,
Duru desən, çeşmələrdən duruyam.
Şaravanıyam, Məmmədbağır yarıyam,
Ana, vallah bu oğlana getmirəm.

Anası başa düşdü kü, qız atası evinnən gələn kimidi. Oydu ku dedi:

– Qızım, gedim atana deyim, sən bir az döz. Yaqın kı, atan bu işə bir əncam qılar.

Arvad eşiyə çıxıf getməkdə olsun, sizə xəvər verim Şəmil cühütdən. Şəmil Cühüd vəziyyəti bildi. Hazırraşdı kı, bu saat xan məni çağırajax. Arvadın xanın yanına çatmasınnan bir az keçmişdi ki, xan

Şəmil cühüdü çağırtdırdı. Şəmil əl-köksündə baş əydi. Xan qəzəfnən soruşdu:

– Ayə, şoqəriv oğlu, şoqəriv, bu nə işdi, mana de görüm.

Şəmil cühüd elə ağladı kı, Süleyman xan məhəttəl qaldı. Dedi:

– Ə, niyə ağlıyırsan?

Dedi:

– Xan, sağ olsun. Sən elə bilirsən ki, mənim kimim-kimsəm yoxdu. O toy döyüldü mən elədim. Oğluma mən özüm tafşırmışam kı, bala, bajı-qardaş kimi yatın. Mən xannan icazə alajam, gedif öz elimdə başımı açıf toy eliyəjəm. Bə bu toydu ku, mənim qohumum, qardaşım, bajım qol qaldırıf, bir nuvarımın xeyir işində oynamasın. Onda ölüm mana fərzdi.

Süleyman xan Şəmil cühüdün sözünə inandı. Onun ağlıyıf sıtqamasınnan tə'sirrənif dedi:

– İndi ki, belə oldu gəlinini de götür, get öz elinə, orada toy elə.

İrvaham bu sözü eşidif razılaşdı. Gəcavə bəzəndi. Şəmil cühüd gedif karvansarada saxladığı qatırı gətirdi. hər şey hazır olannan sonra xan dedi:

– Aparın, bizim torpaxdan ötürün.

Bir xeyli gedənnən sonra Şəmil cühüd dedi:

– Siz qayıdın, biz özümüz buradan o yana yavaş-yavaş gedəjiyik. Siz əziyyət çəkmiyin.

Bunnar qayıtdı. Şəmil cühüd yol başdadı. Gəlif Firəng torpağına çatdı. Bir basəfa çəmənnikdə rahatdanmax üçün əyləşdilər. Çörək yedilər, qalxıf yola düşmək məqamında Şəmil cühüd İrvahamı sandığa qoyuf ağzını bağladı. Sonra sandığı qatırın üstünə qoyuf möhkəm-möhkəm sarıdı. Qız bu işi görüb mat-məhəttəl qaldı. Şəmil cühüt qıza dedi:

– Min tərkimə.

Qız Şəmil cühüdün tərkinə mindi. Bir xeyli gedənnən sonra bir qayalığa rast gəldilər. Şəmil Cühüd qatıra bir biz vuruf buraxdı. Qatır özünü qayadan atdı. Qatır da, sandıx da parça-parça oldu. Amma İrvahamı Allah saxladı. Salamat qaldı. Xudavəndi aləm adamı öldürmüyəndə öldürmür. Şəmil cühüd baxdı kı, Firəngistana çatıf. Bir karvansara tapıf orda dincəlmək istiyəndə bir də, gördü ki, budu İrvaham böyürdən çıxdı. Şəmil cühüd İrvahamı görən kimi başdadı yaxasını yırtıf vay-şivən qopartmağa.

Camaat tez onun başına yığıldı. Nə baş verdiyini soruşanda Şəmil cühüd dedi:

– Bu gədə mənnən əl çəkmir. Camaldan gözəldi deyə, mənim arvadımı əlimnən almaq istiyir.

Tez bunu xanın yanına apardılar. Xan əmr elədi meydana dar ağacı düzəltdilər. Firəngistanda belə əməllərin üstündə adamları sorğusuz-sualsız dar ağacınnan asırdılar.

Xan qızdan soruşdu:

– Bala, söylə görüm kimsən, kimin qızısan, bu nə işdi siz törədirsiniz?

Qız aldı görək nə dedi:

Bu yahudi sana yalan deyirdi,
Əlac sana qaldı, firəngin xanı.
Babam məni İrvahama verifdi,
Əlac sana qaldı, Firəngin xanı.

Bu sözdəri eşidən kimi xan əmr elədi ki, Şəmil cühüdü tutsunnar. Fərraşlar bir göz qırpımında onun qollarını bağlıyıf, cəlladın qavağına çəkdilər.

Qız aldı sözün o biri xanəsini:

Canım qurban İrvahamın canına,
Öldürüb batmaynan nahax qanına.
Çapar göndər Dağısdanın xanına,
Əlac sana qaldı, Firəngin xanı.

Xan dedi:

– Yəhudinin əyağına qandalax vurun, boynuna gündə asın. Əmr o dəqiqə yerinə yetirildi.

Şəhrəbanı aldı görək özünü nejə isnad verdi:

Adım Şəhrəbanı dan ulduzuyam,
Atamın-anamın bircə qızıyam.
Dağıstanda Süleyman xan qızıyam,
Əlac sana qaldı, Firəngin xanı.

Süleyman xanın adını eşidəndə xan irəli yeriyif Şəhrəbanın başını sığalladı. Ona toxtaxlıx verif dedi:

– Mənim balam, qorxma, əminin yanına gəlifsən.

Xan üzünü İrvahama tutuf dedi:

– Ayə, yoxsa, sən də yəhudisən?

İrvaham dedi:

– Allah eləməsin, xan! İcazə ver, bir kəlmə də mən deyim.

Aldı İrvaham görək nə dedi, biz də nə eşitdik:

Ay ağalar, ay qazılar,
Mən Əliyi Vəli billəm.
Gecə-gündüz əzbərimdi,
Mən Əliyi Vəli billəm.

Qızıl gülləri dərsəniz,
Sinəm üsdünə sərsəniz.
Əmr eliyif öldürsəniz,
Mən Əliyi Vəli billəm.

Onun bu sözdəri xanın çox xoşuna gəldi. Onun yəhudi olmadığını bilənnən sonra sevindiyinnən bilmədi ki, neyləsin. İrvaham aldı sözün o biri xanəsini:

İrvahamam, baxdı qara,
Kim eylər dərdimə çara.
Dilimnən çəksələr dara,
Mən Əliyi Vəli billəm.

Xan dedi:

– Vəzir, tədbir.

Vəzir dedi:

– Xan sağ olsun, bu yəhudinin boynu vurulsa, onun qanınnan bircə damcı bizim torpağa düşsə, düz yeddi il burada ruzi olmuyajax. Bunu şəhərin kənarında bir susuz, kor quyu var, ora salax, qoy orda zulumnan gəvərsin.

Hamı razı oldu. Şəmil cühüdu aparıf həmin quyuya atdılar. İki cəlladı da bunun başının üstdə qoydular. İrvahamnan Şəhrəbanı bir

müddət Firəng şahının evində yeyib-içif dincəldilər. Günnərin birində İrvaham dedi:

– Xan sağ olsun, icazə ver, biz gedək.

Xan hazırrıx görüf gəcavə hazırratdı. Buları böyük təm-təraxnan yola salıf adamlarına tafşırdı:

– Aparın, bunnarı gəmiyə mindirin.

Bunnar dəryanın kənarında getməkdə olsunnar, sizə kimnən xəvər verim, Şəmil cühütdən. Şəmil cühüd quyuya atılannan sonra işi fırıx görüf, genə hiyləyə əl atdı.

Yağlı dilini işə salıf quyudan cəlladdara dedi:

– Ay cəlladlar, mən ölürəm, amma həmişə hamıya yaxşılıx eləmişəm. Yanınızda torvanız varsa burya sallıyın.

Cəlladlar dedilər:

– Gəl bu torvuyu sallıyax, görək neyləmək istiyir?

Xülasə bir torva tapıf salladılar quyuya. Bu nəhlətə gəlmiş daşıtorpağı yığıf torvuya dolduruf, bir ismi-əzəm oxudu. Torvanın içindəkilər dönüf oldu qızıl-gümüş. Cəlladlar çəkdilər. Baxanda məhəttəl qaldılar. Cühüd quyudan genə səsdəndi:

– Bu birinizin payıdı, torvuyu bir də sallıyın.

Cəlladlar torvuyu bir də salladılar. Bir torva qızıl da o birisinin payına düşdü. Cəlladlardan biri dedi:

– Ayə, bu bizim hərəmizə bir torva qızıl verdi, Gəl biz də yaxşılıx eliyif, bunu quyudan çıxardax. Çıxıf getsin. Özümüz də yenə burada bir-neçə gün durannan sonra gedif xana deyərik ki, cühüd öldü.

Hər ikisi razılaşdı. Şəmil cühüdü quyudan çıxarıf, azad elədilər. Şəmil cühüd dəryanın yanına gəldi ki, gəmiyə minsin. Baxdı kı, İrvahamnan qız da burdadı. Tez gəminin böyüyünə yaxınnaşıf dedi:

– Sana nə qədər qızıl istəsən verəjəm, amma bir sözüm var, gərək onu yerinə yetirəsən.

Gəminin böyüyü dedi:

– O nədi elə, birdən çətin iş olar?

Şəmil Cühüd dedi:

– Sana elə çətin iş demiyəjəm. Bax, o qızı görürsən? Onu mən olan gəmiyə mindir. O oğlanı da daldakı gəmiyə mindir. Sana bir torva qızıl verəjəm.

Dünya malı şirindi, insanın evini tamahdan başqa heş nə yıxa bilməz. Şəmil cühüd özünü dərganın qırağına verif, bir torvuyu qum-

nan doldurdu. Oxuyuf-üfürdü, qızıla çöyürüf, gətirif gəminin böyüyünə verif, geri durdu. Gəminin böyüyü dedi:

– Gəlin, gəmi yola düşür.

Şəmil cühüdnən Şəhrəbanı xanımı bir gəmiyə mindirdi, İrvahamı da zornan o biri gəmiyə atdırdı. İrvaham işi başa düşüf dedi:

– Mən o bir Allahın ətəyinnən tutmuşam. Allaha pənah.

Dərya tələtümə gəldi. gəmilər bir-birinnən ayrıldı. İrvaham Şəhrəbanıdan ayrı düşdü. İrvahamın dərdi tüğyan elədi. Gözünün yaşını axıda-axıda aldı görən nə dedi:

Ağrın alım, mələkzada,
Gəmim də qaldı dərgada.
Haqq özü yetişsin dada,
Gəmim də qaldı dərgada.

Şəhrəbanı İrvahamın dəryanın üzündə qaldığını görüf ağlıyaağlıya aldı görək nə dedi:

Qaldım cəlladlar əlində,
Qoymullar düşəm dərgaya,
Haqq özü yetişsin dada,
Qoymullar düşəm dərgaya.

Aldı İrvaham:

Çıxıf qıraxda otursan,
Ağ üzdən busə götürsən,
Asdan addı bir şah görsən,
De qardaş qaldı dərgada.

Aldı Şəhrəbanı:

İstərəm fənadan köçəm,
Dostu düşmanımı seçəm.
İsdiyirəm zəhər içəm,
Qoymullar düşəm dərgaya.

Aldı İrvaham:

İrvaham dəryada qalsa,
Saralıf gül rəngi solsa.
Asdan şah gər xəvər alsa,
De, qardaş qaldı dərgada.

İrvaham öz-özünə fikirrəşdi:

– Yaqındı kı, Şəhrəbanı Misir şəhərinə gedəjək.

O, eşitmişdi ki, qardaşı Misirin padşahıdı. Ona görə belə deyirdi ki, sevgilisi ona rast gəlsə özünü isnat versin.

Şəhrabanı aldı sözünün tafşırmasında görək nə dedi:

Şəhrəbanı oldu dəli,
İmdadıma yetsin Əli.
Yəhudiya denən bəli,
Qoymullar düşəm dərgaya.

Bəli, əzizdərim, gəmi qırağa çıxdı. Şəmil Cühüd Şəhrəbanıyı götürüf Misir şəhərinə gəldi. Şəhrəbanı Şəmil cühüdə dedi:

– Get bir imarət yapdır. Elə imarət olsun ku, mənnən, sənnən başqa orya heş kim çıxa bilməsin.

Şəmil cühüd dedi:

– Xanım, bu nətəri imarətdi? Bunu nətəri tikəsiyik?

Xanım dedi:

– Ustaları çağır, bir mərtəbə hörüləndə mən onun üstündə olum, sonra o birini başdasınnar, pilləkən qoymasınnar. Sən mənim yanıma gələndə mən səni kəməndnən çəkərəm.

Elə də elədilər. Bina başa gələnnən sonra Şəmil cühüd dedi:

– Hə, indi kəməndi salla, mən də çıxım.

Şəhrəbanı xanım dedi:

– Get, İrvahamın qannı köynəyini gəti gəl, onnan sonra səni burya çıxardaram.

Şəmil cühüd başı aloylu düşdü düzdər gəzməyə ki, görüm başıma nə çarə eliyirəm.

Şəmil cühüd gəzməkdə olsun, sizə hardan xəvər verim İrvahamnan. İrvahamın gəmisi dalğaların zərbinə tav gətirmiyif batmışdı. İrvaham tək-tənha bir qırıx taxta parçasının üstündə qalmışdı. Əli

yerdən-göydən üzülmüşdü. Umud bir Allaha qalmışdı.

İrvaham sazını sinəsinə basıf görən böyük yaradannan nejə kömək istədi.

Ərşi-gürşü, yeri-göyü yaradan,
Ağa, qaldım bu dərganın üzündə,
Sana üz tutannar qalmaz intizar,
Ağa, qaldım bu dərganın üzündə.

Biz dözmədik bu dünyada beş günə,
Fələk kəmənd atdı ömrüm köşkünə.
Adı bəlli Məhəmmədin eşqinə,
Ağa, qaldım bu dərganın üzündə.

Yer üzündə de azdımı təpələr,
Yağış orada yağar, burda səpələr,
İrvahamı məhv eliyər ləpələr,
Ağa, qaldım bu dərganın üzündə.

Söz tamam yetdi. Xudavəndi aləmin hökmünnən qıvla səmtinnən əsən külək həmin taxta parçasını vuruf, çıxartdı qırağa. İrvaham otdan-ormannan tutuf, taxta parçasının üstünnən düşdü. Gəlif dərganın qırağında oturuf, Misir tərəfə boylana-boylana, aldı görək nə dedi, biz də nə eşitdik:

Ağlaram, sızdaram dərya qırağı,
Bəlalı başıma qardaş bulunmaz.
Ağlaram-sızdaram həsrətim çoxdu,
Bəlalı başıma qardaş bulunmaz.

Ağladım-sızdadım burada oturdum,
Özüm öz dərdimi təkcə götürdüm.
Urum ölkəsində qardaş itirdim,
Bəlalı başıma qardaş bulunmaz.

İrvaham deyilən ağır eldəndi,
İgid əysikliyi ajı dildəndi,

Arvad yad qızıdı, oğul beldəndi,
Oğul ələ düşər, qardaş bulunmaz.

Bir də baxıf gördü kü, bu tərəfdən bir sürü qoyun çıxdı. Qoyun dərgaya sarı töküldü. Çovanın itdəri İrvahamın üstünə yeridi. Vəli çovan onu görüf, dedi:

– Ayə, Alı burya gəl. Qoynu yiyəni itdər tafdı.

Alı gəlif gördü kü, bu, adamdı. Dedi:

– Ayə, ay Vəli, bu qoyun yeyən deyil. Bu adamdı. Yazıxdı, itdər onu dağıdajax.

İrvaham baxdı kı, bunun biri elə bir himə bənddi ki, adamın ciyarını çıxartsın. Amma o biri yaxşı adama oxşuyur. Dəli çovannan canını qurtarmax üçün sazını sinəsinə sıxıf, aldı görək nə dedi:

Çovan qardaş, çovan qardaş,
Mən sizi deyə gəlmişəm.
Mənzili biyavan qardaş,
Mən sizi deyə gəlmişəm.

İrvahamın əlində bir balaca cürə sazı varıydı. Vəli çovan dedi:

– Bu yaman çınqır-cunqur eliyir. Bunu onun əlinnən alajam. Özünü də yanımda saxlıyıf, çovan eliyəjəm.

İrvaham çovanın bu sözünnən yaman tutuldu. Dərdi tüğyan elədi, aldı görək nə dedi:

Əlimnən alma sazımı,
Sana deyərəm sözümü.
Süleyman xanın qızını,
Dərgada qoya gəlmişəm.

İrvahamam budu sözüm,
Dərdimi dəftərə yazım.
Şəhrəbanı iki gözüm.
Mən sizi deyə gölmişəm.

Söz tamama yetdi. Alı çovan, Vəli çovan İrvahımı taftıxlarına çox sevindilər. Onu da götürüf öz olajaxlarına gəldilər. Bir heyvan kəsif,

bişirdilər. Ətin yaxşı yerinnən İrvahımın qavağına böyük bir nimçə qoydular. İrvaham dərgada çox aj qalmışdı. Bir-iki kısmat alıf, əlini çəkdi.

Vəli çovan dedi:

– Yeginən, yeməsən, sən öl quşqonmazına bircə çommax endirrəm.

Alı dedi:

– Ay Vəli, onun xətrinə dəymə.

İrvaham altı ay da burda qoyuna getdi. Altı aydan sonra Vəli çovan dedi:

– Mən şəhərə sallaxanıya heyvan aparajam.

İrvaham dedi:

– Ay Alı, Vəliyə de, həmi ona kömək eliyim,həm də gedim özümə paltar alım.

Vəli dedi:

– Yox. Bu gedif şəhəri görsə qayıdıf burda durmuyajax.

Alı dedi:

– Durar, qoy getsin.

Gəldilər şəhərə. Heyvannarı sallaxanıya aparıf, qırdırmağa başdadılar. Vəli çovan dedi:

– İrvaham, mən şəhəri gəzəjəm. Sən burda heyvannar qırılanda yanında dur, iç yağını dağarcıya yığ. Ay gədə, bir söznən heyvannardan muğayat ol.

Bəli, bu getməkdə olsun, sizə hardan xəvər verim, Allah nəhlət eləmiş Şəmil cühüddən. Elə bu arada o gəzə-gəzə gəlif sallaxanıya çıxdı. İrvahamı burda görüf, tez özünü verdi sallahın yanına. Bij-bij dişini ağardıf, ona dedi:

– Ayə, istiyirsənmi sana bir kisə qızıl verim?

Sallahbaşı dedi:

– Bunun səvəbi nədi, belə?

Nəhlət olmuş dedi:

– Mən istiyirəm ki, o yanındakı oğlanı öldürüf, qanını köynəyini mana verəsən.

Sallah bir az fikirrəşənnən sonra İrvahamı yanına çağırıf, dedi:

– Gəl bir qoyun tut, gəti.

İrvaham bir qoyun tutuf gətirdi. İrvaham ikinci qoyunu gətirəndə sallah İrvahama bir təpik vurdu. İrvaham dığırranıf qoyunun yerinə

yıxıldı. Sallah bıçağı dirədi İrvahamın boynuna. İrvaham dedi:

– Sallah əmi, nağayrırsan?

Sallah dedi:

– Başını kəsirəm.

İrvaham dedi:

– İcazə ver, ürəyimdə bir-iki xanə sözüm var, onu deyim, sonra kəsərsən.

Aldı İrvaham:

Başına mən dönüm, ay sallah qardaş
Öldürmə, Allaha bağışda məni.
Ağlaram, eynimnən axar qanni yaş,
Öldürmə, Allaha bağışda məni.

Başım qoydum sallahxana daşına,
İrəhm elə gözdən axan yaşıma.
Məni çöyür balaların başına,
Öldürmə, Allaha bağışda məni.

Dərd əlinnən düyünnüyəm-dağlıyam,
Qürbət eldə dərdim kimə ağlıyam.
İrvahamam Zülal şahın oğluyam,
Öldürmə, Allaha bağışda məni.

Zülal şahın adı gələndə sallah elə bil yuxudan ayıldı. Üzünü İrvahama tutuf dedi:

– A bala, köynəyini soyun mana ver.

İrvaham köynəyini soyunuf sallaha verdi. Sallah İrvahamı buraxıf dedi:

– Qaç, gözə görünmə.

İrvaham qaçmaxda olsun. Nəhlətdik Şəmil cühüd bir kisə daşı-torpağı yığıf bir ismi-əzəm oxuyuf, qızıla çöyürdü. Gətirif sallaha verif, dedi:

– Ayə, sallah qardaş, öldürdünmü?

Sallah dedi:

– Bəli, öldürdüm. Meyidini də elə yerə saldım kı, yüz il də axtarsalar tapılan döyül.

İrvaham sallaxanadan çıxıf qaçırdı. Bir də Şəhrəbanı baxdı kı, budu, İrvaham qaça-qaça onun imarətinin qavağınnan keçir. Onu görən kimi sevincək qışqırdı.

– Ayə, bir ayağını saxla.

İrvaham başını qaldırıf yuxarı baxdı. Gördü Şəhrəbanıdı, bunu çağıran. Şəhrəbanı tez kəmənd atıf, İrvahama dedi:

– İrvaham, kəməndi sal belinə.

İrvaham kəməndi belinə saldı, Şəhrəbanı onu çəkif yanına çıxartdı. İki nakam aşiq sarmaşıx kimi bir-birinə sarıldı. Üz-üzdə, dodax-dodaxda bir-birinnən hal-əhval tutdular. Elə bu vaxt Şəmil cühüd İrvahamın qannı köynəyi əlində özünü yetirdi imarətin qavağına. Şəhrəbanıyı səsdiyif, sevinə-sevinə dedi:

– Xanım, kəməndi salla.

Xanım dedi:

– Nəyə, görə?

Şəmil cühüd köynəyi yuxarı qaldırıf dedi:

– İrvahamı öldürdüm.

Xanım dedi:

– Sən İrvahamı hardan tafdın kı, öldürəsən? Biz İrvahamı dərgada qoyuf gəlmədikmi?

Şəmil cühüd dedi:

– Tafdım, dəryadan çıxıf burya gəlmişdi. Öldürdüm, bu da onun qannı köynəyidi.

Xanım İrvahamı göstərif, dedi:

– Bə bu kimdi, Şəmil?

Şəmil tez başına bir xorum ot götürüf özünü oddadı. Tez onu tutuf apardılar Asdan şahın yanına. Şah soruşdu:

– Özünü niyə odduyursan?

Şəmil cühüd dedi:

– Əlimə ədalət keşmir, şah. Ona görə özümü yandırıram.

Şah dedi:

– Niyə, noluf?

Şəmil cühüd dedi:

– Bir göyçək arvadım var. Onu bir göyçək oğlan əlimnən alır. Firəngə də getdim, orda da məni axtarıf tafdı. İndi burya gəlmişəm, dalımnnan bura gəlif çıxıf. Burda hələ mənim ayağım tiktirdiyim imarətə dəymiyif, o ordadı. Ona görə də birdəfəlik özümü odduyu-

ram kı, canım qurtarsın.

Asdan şah dedi:

– Bu saat sən baxarsan onun külünü göyə sovurajam.

Əmr elədi ki, topların birini imarətə sarı tuşduyun. Sirri-Sübhan vəzir irəli yeriyif dedi:

– Şah sağ olsun, sənin adına, şaynına sığışmaz kı, oğlana top atasan. Hirsini bas, mən gedim onnarı burya gətirim, danışdırax. Mətləfdən hali olax, görək nə işdi?

Onun sözdəri Asdan şahın ağlına batdı.

Sirri-Sübhan getməzdən əvvəl dedi:

– Mən gələnə kimi bu kişiyi gözdən qoymuyun.

Şəmil cühüd şaha dedi:

– Danışsa, sən də arvadı ona verəjəksən.

Asdan şah gördü kü, Şəmil cühüd nala-mıxa döyür. Oydu ku, dedi:

– Ağlını o biri xana, şaha vermə, çatan kimi boynunu vurdurajam.

Nəhlət olmuş dedi:

– Hə, onda oldu.

Sirri-Sübhan imarətin qavağına gəlif səsdəndi:

– Qızım, o oğlanı düşürt. Şah şikayətə baxajax. Bu Asdan şahdı, çox ədalətdidi.

Şəhrəbanı Sirri-Sübhan vəzirə dedi:

– İrvahamı indicə endirəjəm sənin yanına. Amma izin ver, ürəyimdə bir neçə xanə sözüm var, onu sana çatdırım. Aldı Şəhrəbanı:

İltimasım budu sənnən, Sirri-Sübhan, ey vəzir.
Dadi-fələk əlinnən, gəldim cana, ey vəzir.
Razı olsan baş qoyum, həşmətli rikabına.
İçmişəm camı-cəfadan, yana-yana, ey vəzir.

Mənim yarım sağ-salamat, apar şahın yanına.
İlahidən bir od düşsün, o yəhudin canına.
And verirəm, ol qəsəmə, rəsul Əhməd şaynına.
Eylə bu dərdimə çarə Misir loğmana, ey vəzir.

O mənnən razısa, mən onnan razıyam.
İrvahamın eşqində, ol ataşın suzuyam.

Adım Şəhrəbanıdı, Süleyman xan qızıyam,
Eylə bu dərdimə çarə, düşmə qana, ey vəzir.

Söz tamama yetdi. Şəhrəbanı xanım İrvahamı kəməndnən yerə saldı. Ağlıyıf, vəzirə yalvardı:

–O Şəmil cühüd mənim yarım döyül, xahiş edirəm, onun boynunu vurun.

Sirri-Sübhan vəzir İrvahamı Asdan şahın hüzuruna gətirdi. İmarətə daxil oldular. Asdan şah İrvahama baxdı, ona qanı yaman qaynadı. Amma tanıya bilmədi. Doğru deyiflər, ağ gün adamı ağardar, qara gündə qaraldar. Asdan şah dedi:

– Bunu belə öldürmək olmaz. Bütün şəhərə e'lan verin ki, belə bir ədalətsiz iş oluf, onu araşdırajıyıx.

Carçıların sözdərini eşidənnərin hamısı Misirin mərkəzinə yığıldılar. Ziyad haramı o vaxtdan qarıyı yedəyinə alıf gəzirdi. Gəzə-gəzə gəlif burya çıxdı. Halvaçı Musa da gəldi. Gəminin böyüyü də gəldi. Sallah da burdaydı. Vəli çovan da gəldi. Cəlladdar hamısı hazır oluf, İrvahamı günahkar stoluna çıxartdılar. Camahat dedi:

– Bu işi ədalətnən görmək lazımdı.

Asdan şah Vəli çovana dedi:

– Çöl darvazıyı kəs, çöldən gələni içəri burax, içəridən çıxannarı çölə buraxma.

Vəli çovan padşah-zad qanmırdı. Adına "şıllar" deyirdi. İrvahamı Asdan şahın yanında görüf dedi:

– Ayə, sən nə gəzirsən bu şılların yanında. Bəs mən səni sallahın yanında qoymamışammı? Heyvan qırdırmırsanmı?

Asdan şah dedi:

– Hər şey düzələr, qoy soruşax.

Asdan şah İrvahama dedi:

– De, görüm bu kişinin arvadını niyə əlinnən alırsan?

İrvaham Asdan şahın bu sualınnan yaman tə'sirrəndi. Aldı görək nə dedi, biz də nə eşitdik:

Rey şəhərinnən çıxdıx biz iki qardaş,
Dilbilməz əlinə düşdüm, neyliyim,
Hərəmiz götürdük bir qiymətdi daş,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Rey şəhərinin adı gələndən sonra da "biz iki qardaş hərəmiz bir qiymətdi daş götürdük" kəlmələrini eşidəndə Asdan şahın ağlı başınnan çıxdı. Taxtınnan dığırranıf təpəsi üstə yerə gəldi. Vəzir, vəkil yetirif onu qaldırdılar. Şəmil cühüd dedi:

– Ayə, bu ağılnan o mana arvad alıf vermiyəjəx. Qoy mən çıxım gedim.

Vəzir dedi:

– Darıxma.

Asdan şah ayıldı. Fərraşdara əmr elədi ki, heş kimi çölə buraxmıyın.

İrvaham aldı sözün o biri xanəsini:

Dərin-dərin dəryalara mən daldım,
Şirincə canımı oddara saldım.
Yoruldum-yoruldum kümbəzdə qaldım,
Dilbilməz əlinə düşdüm, neyliyim?

O zaman ki, Rey şəhərinnən gəldim,
Yoruldum-yoruldum kümbəzdə qaldım,
Ziyad haramıya mən oğul oldum,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Ziyad haramının adı gələndə Ziyad haramı işi başa düşdü kü, bu İrvaham olajax. Qarıyı möhkəm tutdu ku, qaşmasın.

Zalım fələk yada salıf andırdı,
İtkin qardaş ciyərimi yandırdı.
Beyman qarı gəlif yaman qandırdı,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Canım qurvan sənin kimi Asdana,
Əyri qılınc öz qınında pasdana.
Üç ay yollar keşdim ol Dağıstana,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Çarxı-fələk məni salıfdı ləngə,
Qoyğalı başımnan gəlmişəm təngə.

Neçə gün də mən yol getdim Firəngə,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Qurvan olum, Musa kimi ataya,
Çarxı-fələk məni saldı xataya.
Gəmiçilər qərq eylədi dərgaya,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Asdan şah tav gətirə bilmiyif, dedi:

– Camaat, o biri otağa keçif bir az rahatdansın, sonra genə bu işimizə baxarıx.

Camaat çıxannan sonra Asdan şah qardaşının üstünə atılıf, onu bağrına basdı. Onu təpədən-dırnağa duz kimi yalıyıf dedi:

– Qardaş, qadan alım, məni bağışda. Sən çox əziyyət çəkifsən.

Camaat yenidən otağa dolannan sonra Asdan şah taxta çıxıf dedi:

– Gəlin, günahkarın işinə baxax.

Asdan şah üzünü İrvahama tutuf dedi:

– De görək, bu kişinin arvadını niyə əlinnən alıfsan?

İrvaham aldı görək sözün o biri xanəsində nə dedi:

On yeddi gün dərya üzündə qaldım,
O dərgadan dür götürdüm, dür aldım.
Ayı bir çəpişə mən çovan oldum,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Bir daşıydım bu diyardan atıldım,
Ayax yalın, at köysünə qatıldım.
Yüz tümənə mən qəssava satıldım,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Asdan şah dedi:

– Cəllad, kimin adı çəkilirsə onnarı bir tərəfə yığ. Qollarını da bağla!

İrvaham dedi:

Əzəl günnən atam-anam xan idi,
Mana kömək duran ol Sübhan idi.

Öldürmədi qəssab müsəlman idi,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Qadir Allah mətləbləri bitirdi,
Gözü yaşdı xan qardaşa yetirdi.
Sirri Sübhan İrvahamı gətirdi,
Dilbilməz əlinə düşdüm, neyliyim?

Asdan şah dedi:

– Qarıyı, Şəmil cühüdü, gəminin başçısını keçirin o biri tərəfə.

Çoban qardaş dedi:

– Şah sağ olsun, onnarı mana ver, çomağımın güjünü yoxluyum.

Asdan şah dedi:

– Verdim onnarı sənin ixtiyarına.

Çoban onnarın hərəsinə tək bircə çomax vuruf cəhənnəmə vasil elədi.

Asdan şah halvaçı Musuya dedi:

– O tükan sənindi.

Üzünü Ziyad haramıya tutuf dedi:

– Bu gündən yaşadığın küçənin ixtiyarı sənindi.

Sonra çovana üz tutdu:

– Nə qədər heyvan otarırsansa onnarın hamısını sana bağışdıyıram.

Ciqqasını başınnan götürüf, Sirri-Sübhanın başına qoyuf dedi.

– Əgər sən olmasaydın, mən öz qardaşımı topnan öldürərdim.

Sirri-Sübhan dedi:

– Şah sağ olsun, mana taxt-tac lazım döyül. Sən öz yerində qal. Sənin vəzirin olmaq mənim üçün böyük şərəfdi.

Asdan şah dedi:

– İrvahamın nişannısını gətirin.

Gəcavə bəziyif, Şəhrəbanı xanımı gətirdilər. Toyu başdamax istiyəndə İrvaham dedi:

– Mənim nişannım Herat şəhərindədi, bu Şəmilin dolaşıx saldığı toydu. İzin ver, gedim onu da gətirim. İkisini də bir eliyək.

Asdan şah dedi:

– Yox, səni gözümnən qoymaram. Onu mən özüm gedif-gətirəjəm.

Asdan şah gəcavə bəziyif, Sirri-Sübhan vəziri də yanına alıf Herat şəhərinə yola düşdü. Bir xeyli gedənnən sonra gəlif Herat şəhərinə çatdılar. Hürnisə xanımın imarətinin qavağında gəcavə dayandı. Xanım da gejə vəyğasında İrvahamın bu gün buraya gələcəyini görmüşdü. Ona görə də səvirsizdiknən sevgilisinin yolunu gözdüyürdü. Asdan şahı görəndə anşırdammıyıf elə bildi ki, gələn İrvahamdı. Tez sevinə-sevinə qızdarı çağırıf İrvahamın gəldiyini görək onnara necə xəvər verdi:

Dünənnən gördüm vəyğamı,
Qızdar, budu yarım gəldi.
Qurtardım yar hicranınnan,
Qızdar,budu yarım gəldi.

Asdan şah baxdı kı, gəlin onu İrvahama oxşadıf. Hiss elədi ki, özünü isnad verməyin vaxtı çatıf. Asdan şah aldı görək özünü Hürnisə xanıma necə tanıtdı.

Qız, məni bədnam eləmə,
Gözəl, yarın mən döyüləm.
Bağrımın başın teyləmə,
Gözəl, yarın mən döyüləm.

Aldı Hürnisə:

Gələndə belə deyirsən,
Qəndi-şəkəri yeyirsən.
Bağrımın başın oyursan,
Qızdar, budu yarım gəldi.

Asdan baxdı Hürnisə xanım bunu genə də İrvahama oxşadır. Özözünə dedi:

– Gəl, nişan ver ki, mən sənin qaynınam.

Aldı Asdan şah:

Cəmi iyitlər başıyam,
Dərd bilənin sirdaşıyam.

İrvahamın qardaşıyam,
Gözəl, yarın mən döyüləm.

Aldı Hürnisə:

Hürnisəyəm, çaşıf huşum,
Zəhərnən bişifdi aşım.
Həm, qayınım, həm qardaşım,
Elə bildim yarım gəldi.

Aldı Asdan şah:

Asdan şaham, çoxdu gücüm,
Misirdən gəlir xəracım.
Həmi yengəm, həmi bacım,
Gözəl, yarın mən döyüləm.

Söz tamama yetdi. Fətəli xan Asdan xanın gəldiyini eşidif, onun pişvazına çıxdı. Qoyunnar qırıldı, qazannar asıldı, bir vur-çatdasın başdadı kı, gəl görəsən. Böyuk şaddıxdan-şadyanalıxdan sonra Asdan şah Fətəli xana dedi:

– Gəcavələri bəzə, yengəmi aparmağa gəlmişəm.

Yenə də böyük bir şadyanalıxdan sonra Hürnisə xanımı gəcavəyə qoyuf yola saldılar. Axır kı, onnar gəlif Misir şəhərinə çatdılar. Asdan şah əmr elədi ki, yeddi gün, yeddi gejə şəhər əhli kef eləsin, şadyanalıx olsun.

Hər iki gözəlin toyunu eliyif, həsrətdiləri bir-birinə qovuşdurdular. Bütün toylarda olduğu kimi, bu toy da duvaxqapmaynan başa çatdı.

Mən səni görənnən bəri,
Halım pərişandı, Maral.
Açılıf qoynun içi,
Bağı-gülüstandı, Maral.
Ləblərin şəhdi-şəkər,
Xəstiyə dərmandı, Maral.
Dərd bilməz naqis dedi,
Dərd bilən inandı, Maral.

Bu gözəllik sana qalmaz,
Bu çarxı-dövrandı, Maral.

Nəhlət gəlsin keşişə,
Aləmdə bir səs elədi.
Qızı getdi, o vermədi,
Balasınnan bəhs elədi.
İki yarı bir-birinnən,
Ayırdı, həvəs elədi.
Çəkdi din təsivini,
Kərəmə qisas elədi.
Haqq özü qisas alar,
Bu haxdı,divandı, Maral.

Sən bir tərsa qızısan,
Əydin qəddim, dal elədin.
Yıxdın könlüm evini,
Nə yaman xəyal elədin.
Göyçəli aşıx Musanı,
Dərdinnən abdal elədin.
Uçurtdun tifağını,
Dağıtdın,viran elədin,
Mal demirəm, at demirəm,
Can sənə qurvandı, Maral.

"AĞ AŞIQ VƏ SÜSƏNBƏR" DASTANI

Ustadnamə ustadlarından ad alar, o da əhli məclisə dad olar. Götürdü görək ustad nə dedi, biz deyək bir olsun, əhli dinləyicilər pir olsun:

Həqiqət bəhrinə qəvvasam deyən,
Qəvvas isən, gir dəryaya üzhaüz.
Aşıq deyər, üzhaüz,
Sonam, göldə üzhaüz.
Qarı düşmən dost olmaz
Yalvararsan üzhaüz.
Bir mərd ilə ilqarını vur başa,
Namərd ilə kəs ülfəti üzhaüz.

Parçalandı kəmim, qaldı dərində,
Mən qərq oldum dənizində, dərində.
Aşıq deyər, dərində,
Dayazında, dərində.
Sidqi haqqa düz olan,
Hərgiz qalmaz dərində.
Qismət olsa o mövlanın dərində,
Üz döşək, səcdə qılaq üzhaüz.

Xəstə Qasım deyər: canan can deyə,
Can eşidə, can danışa, can deyə.
Aşıq deyər, can deyə,
Vəfalıya can deyə.
Görmədim hərcayilər
Cananına can deyə.
Yox vəfalım, can qıyana can qıya,
Bivəfadan çək əlini üzhaüz.

Ustadlar ustadnaməni bir deməzlər iki deyərlər, biz də deyək iki olsun, dostlar başı dik olsun.

Qulluğunda üçcə kəlmə sözüm var:
Birin eşit, birin öyrən, birin qan.
İyidin başına üç dövlət qonar:
Biri ağıl, biri gənci, biri şan.

Heç kəsin eyliyi, heç kəsdə qalmaz,
Arayıb-axtaran itiyin bulmaz.
Yəqin bil, dünyada üç şey zay olmaz:
Biri eylik, biri elim, biri nan.

Dərdli Kərəm, diləyini dilə sən,
Ağlayasan, sızlayasan, güləsən.
Ey yaradan, mənə üç dərd verəsən:
Biri alış, biri tutuş, biri yan.

Ustadlar ustadı ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun:

Yüz yalvar,
Yüz bələn var, yüz yal var.
Namərddə səxa olmaz
Yüz ətəklə, yüz yalvar.

Dərdə mərdim,
Düşməsin dərdə mərdim.
Mənə dərman neyləsin,
Tifilkən dərd əmərdim.

Dərd arxalı,
Sərilmiş dər dərxalı.
Ya rəbb, varmı mənim tək
Qəm övlü, dərd arxalı.

Bəli, sizə haradan və kimdən danışım, Kosacan kəndində Qara Osmanoğlundan. Qara Osmanoğlu sazı-sözü ilə Araz döyənin hər iki tayında toy məclisləri aparar, güzaran keçirərdi. Dünya malında nəfsi olmayan, gözü-könlü tox adam idi. Özü şıx oğlu olsa da, əlsiz-

ayaqsızlara əl tutar, nəzir-niyaz verərdi. Qara Osmanoğlu el-obanın xeyir-şərində hər şeyə yarayan adam idi. Hamı onunla məsləhətləşər, məclislərinin başında əyləşdirərdi. Şıx oğlunun qoca dünyadan heç bir təmənnası yox idi. Yeganə dərdi züryət dərdi idi. Çillənin son günləri idi. Şıx oğlu bir gün vayğada gördü ki, atası cənnətiməkan ağ əbada qənşərinə gəldi, dedi:

– Oğul! Bil və agah ol. Arazın xəndəyinin qaşında cavan bir dağdağan ağacı var. Sən onun yerini dəyişməsən, baharın ilk sellərisuları onu yuyub aparacaq. Onun ilk nübarı ilə sənin də ilk barın olacaq. Onu sənə, səni də bir olan allaha tapşırıram.

Qara Osmanoğlu yuxudan hövlnak durdu. Səhərin gözü açılmamış özünü yetirdi atasının yuxuda vəsiyyət etdiyi yerə. Baxdı ki, ey dili-qafil, dağd-dağan son əmci telindən asılı qalıb. Əl atıb ağacı çəkdi. Götürüb evə qayıtdı. El-oba sabahı salamlamamış Şıx oğlu ağacı qapısının doqqazında əkdi. Dibinə bir sərnic su tökdü. Əlqərəz, aylar, illər dolandı. Amma Şıx oğlu yuxusunu heç kəsə danışmadı. Qara Osmanoğlunun hesabında bu il dağdağan bar verməli idi. Axşam əl-ayaq yığşırılanda Şıx oğlu baxdı ki, baş yoldaşı nə isə on--dan həyalanır. Nağılçılar dili mübarək olar demişlər. Günlər keçdi, həftələr dolandı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə tamam oldu. Şıx oğlunun həyat yoldaşı yükünü yerə qoydu. Elə o ili də dağdağan ağacı ilk nübar verdi. Qara Osmanoğlunun həyətində qurbanlar kəsildi, yeddi qapıya nəzir-niyaz paylandı. Kosacanın qarı-quruları gözaydınlığına yığışdılar. Hərə uşağa bir ad qoydu. Biri Yarməhəmməd, biri Əlinəzir, Biri Xıdır, biri Məhəmmədəli deyə ad qoydu. Axırda mamaça irəli gəlib dedi:

– Uşağın adı Allahverdidi. Adını mən verdim, ruziqasını allahtaala versin. Hamı mübarək deyib, şirin-şərbətdən nuş eylədi. Uşaq məhləyib, oturanda baxdılar ki, hey ayağını dartır. Hərə bir cür yozdu. Bunu görən anası Yasəmən dedi:

–Oğul! Uşaq ki, oturana ayaqlarını ağzına tərəf çəkdi, bil ki, özünə tay axtarır. Sənin qızın olacaq. Ölüm-itim dünyasıdır. Ömrüm vəfa eləməsə, qızın adını Ümmilbanu qoyarsan.

Günlər keçdi, ay dolandı. Qara Osmanoğlunun bir qızı oldu. Adını Ümmilbanu qoydular. Bəli, günlər günlərə qarışdı, uşaqlar boyabaşa çatdılar. Şıx oğlu Allahverdini mollaxanaya qoydu. Allahverdini mollaxanada yoldaşları rənginin ağlığına və məlahətli səsinə

görə "Ağ Aşıq" deyə çağırırdılar. Uşağın adının üstünə ad qoydular. Allahverdi gündüzlər mollaxanada oxudu, gecələr isə atasından sazsöz öyrənirdi. Allahverdi mollaxananı başa vurdu. Təhsilini mədrəsədə davam etdirdi. Mədrəsəni başa vurduqdan sonra qur'andan yox, bir başı çömçə, bir başı nimçədən yapışdı. El-obalarda "Ağ Aşıq" adı ilə şöhrət tapdı. Aşığın səsi gah Bağdaddan, gah Təbrizdən, gah da İstanbuldan, gah Bəsrədən, gah da Rumdan gəldi.

Bir gün Telli Cəfər Ağ Aşığı oğul toyuna də'vət etdi. Ağ Aşıq 40 gün, 40 gecə Telli Cəfərin oğul toyunu necə keçirdiyini özü də bilmədi. Telli Cəfərin qızı Süsənbər Ağ Aşığın səbri-qərarını kəsdi.

Bəli, Süsənbər də bir Süsənbər idi. Ay onun gözəlliyindən üz bürüyür, gün xəcalət təri tökürdü. Ağ Aşıq baxdı ki, ey dili-qafil, toyun son günüdür, belə getsə Süsənbərin dərdi onun ürəyində qövr eyləyəcək. Saralıb sapa, incəlib ipə dönəcəkdir. Ürək sözünü ona deyə bilməyəcəkdir. O idi ki, sazının bəmini - bəm, zilini - zil eyləyib basdı sineyi-sandığa. Götürdü görək nə dedi, tərəfindən biz ərz eyləyək siz şad olun:

Gözəllərə bağlayıram dastanı,
Bir mələyin eşqi canı yandırır.
Sərraf olan lə'lə qoyar qiyməti,
Göz görəndə din-imanı yandırır.

Sonam cilvələnib qarşımda durur,
Xədəngini bağrım başına vurur,
Bürümür üzünü, mərdanə durur,
Bir baxışla yüz min canı yandırır.

Gözəllər açıbdır Yusif bazarı,
Bəsləyib sinədə Hindistan narı,
Gözüm görür, artır canım azarı,
Ağ Aşıq tək binəvanı yandırır.

Ağ Aşıq baxdı ki, söz qızları yaman tərpətdi. O idi ki, sazın Beçə pərdəsində bir bayatını zilə çəkdi:

Eləmi, sona gözəl,
Gəlməz oysana gözəl.
Baxdın ağlım apardın
Vuruldum sana, gözəl.

Məclisdə əyləşən kəmərqurşaq bəynişan qızlar bir-birini himlədilər ki, görəsən aşıq daşı kimin bağına atdı. Ağ Aşıq usta idi. Sözün yerinə düşdüyünü görüb götürdü dübarə:

Mən aşıq, gəldi keçdi,
Günlərim gəldi keçdi.
Yarın odlu baxışı
Sinəmi dəldi keçdi.

Qızlar gözlərini zillədilər ki, görsünlər aşıq oxuyanda kimi gözaltılayıb. Aşıq götürdü görək öz ovunun səmtini necə isnad verdi.

Çevirib yönümü haqq dərgahına,
Çağırıram bəlkə gələydi baxtım.
Keçə günahımdan kərəm sahibi,
Mənim də üzümə güləydi baxtım.

Ürəyim istəyir halalı, pakı -
Şeytanı qəlbimdən qovaydım hakı.
Rəbbimə duadır dodağımdakı,
Qanlı göz yaşımı siləydi baxtım.

Könlünə nə dəyib, inciyib belə,
Bəlkə uyubdur o, fitnəyə-fe'lə?
Ağ Aşığın göz yaşı dönübdü selə,
Nola, əhvalımı biləydi baxtım.

Ağ Aşıq gördü ki, qızlar bir-birini yamanca himləyib. Ovu ov bərəsində görmək istəyirlər. Fürsəti əldən verməyib, saza tərsəavand təzyanə çəkdi:

Əzizim, bərəsinə,
Ov gəldi bərəsinə.
Teylənib şux şikarım
Ovçu, sin bərəsinə.

Söz tamama yetdi. Qızlar baxdılar ki, Süsənbərin halı özündə deyil. Rəngi əhməri alma kimi yalaf-yalaf yanır. Kirpikləri ox kimi nişan alıb aşığın bağrının başını. Ağ Aşıq sazın kökünü dəyişdi. Bəmini bəm, zilini zil eylədi. Götürdü görək nə dedi. Tərəfindən qulluğunuza ərz eyləyək, siz şad olun.

Bir maral baxışlı, tərlan cilvəli,
Gəlib məni gördü, güldü, qayıtdı.
Pünhanı göstərdi gül camalını,
Buxağına şəbnəm doldu, qayıtdı.

Mən görmüşəm gözəllərin çoxunu,
Belə olmaz ancaq boyu-buxunu,
Müjganından çəkib xədəng oxunu,
Yaralı sinəmə çaldı, qayıtdı.

Gözləyərkən gözlərimə sataşdı,
Xəstə canım eşq oduna alışdı.
Şəhrayıdan qıya baxıb ötüşdü,
Ağ Aşığa nəzər saldı, qayıtdı.

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Baxdı ki, Süsənbər mətləbi aldı. Fürsəti fövtə vermədi, sazın kökünü dəyişdi:

Yanaqların çox gözəldi,
Ay qız, bil sənin, bil sənin.
Hüsnün huridən əzəldi,
Ay qız, bil sənin, bil sənin.

Geşd eylədim eldən-elə,
Yıxdın evim bilə-bilə,

Müştağınam, salma dilə,
Ay qız, bil sənin, bil sənin.

Gərdən mina, sürah boyun,
Al Osmanda yoxdur tayın,
Tutacağam özüm toyun,
Ay qız, bil sənin, bil sənin.

Camalındı şəmsi-qəmər,
Bahar səndən şəbnəm əmər,
Peşkəşin qızıl kəmər,
Ay qız, bil sənin, bil sənin.

Ağ Aşığın günü qara,
Ciyar oldu hazar para,
Bir busəndi mənə çara,
Ay qız, bil sənin, bil sənin.

Söz tamama yetişdi. Ağ Aşıq Telli Cəfərin oğul toyunun mübarək duvaqqapmasını oxudu. Döndü Kosacan kəndinə. Evə çatan kimi bayaqdı düşdü üzü üstə. Bu ilmi ölübsən, bildirmi. O yatan yeddi gün, yeddi gecə heç kim ondan bil kəlmə söz eşitmədi. Qara Osman şıx övladı idi. Bildi ki, oğluna hər nə olubsa, Telli Cəfərin oğul toyunda olub.Özü də deyəsən eşq sövdasıdır. Yerlər qulaqlı olar demişlər. Söz-söhbətin uc-qulağından Şıx oğluna çatdı ki, bə bilməzsənmi, oğlun Telli Cəfərin qızına vurulub.

Qara Osmanoğlu dilli-dilavər sazı divardan endirib dilə gətiridi, təzənəni simlərə tərsə-avand çəkdi. Aldı görək nə dedi:

Nədir dərdin söylə mənə?
Ağlar gözlərim-gözlərim.
Qurban sənə şirin canım,
Ağlar gözlərim-gözlərim.

Sən mənim dini-imanım,
Qurban sənə xanımanım,

Boynuburuq Ümmilbanım-
Ağlar gözlərim-gözlərim.

Şıx oğlunun sanı vardı,
Elçilər ata suvardı,
İstədiyin sənə yardı,
Qurban gözləri-gözlərin.

Söz tamama yetişdi. Şıx oğlu sazla dediyini sözlə də dedi:

-Oğul! Mən ölməmişəm ki, sən xiffət çəkəsən. Telli Cəfər mənim dostumdur. Biz özümüz ağırda onunla düz çörək, duz-çörək kəsmişik. İnşallah bu gün-sabah Telli Cəfərin şah qapısına elçi gedərəm. Bir qızdan ötrü ürəyini niyə sıxırsan?

Atasının ürək-dirəyindən Ağ Aşığın söz sinəsində tüğyan etdi. Sazı atasından alıb mindirdi sineyi-sandığa. Götürdü görək öz halını sazla dədəsinə necə dedi. Biz deyək, əhli-məclis şad olsun:

Yarım çıxıb yaylaqlara,
Qaldım, yalvara-yalvara,
Bərə qurdum oylaqlara,
Durdum, yalvara-yalvara.

Qurban dedim yar adına,
Səs vermədi fəryadıma,
Şahi-mərdan yet dadıma,
Öldüm, yalvara-yalvara.

Qamət çəkib naz eylədi,
Bir dərdimi yüz eylədi,
Bağrım başın köz eylədi,
Yandım, yalvara-yalvara.

Gülərüzlü, boyu bəstə,
Dağ çəkibdi sinəm üstə.
Ağ Aşığı etdi xəstə,
Qaldım, yalvara-yalvara.

Söz Qara Osmanoğlunun bağrının başını köz kimi yandırdı. Dedi:

-Oğul, o nə qızdı ki, səni xəstə edə. Bəyəm Şıx oğlu ölmüşdür ki, gözünün ağı-qarası xiffət çəksin. Sən qızın adını de, dalısı ilə işin yoxdur.

Bəli, götürdü görək Ağ Aşıq sevgilisi Süsənbəri atasına təsnif üstə necə nişan verdi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

Qulac saçdı,
Qələm qaşdı,
Ağzın açdı,
Gövhər saçdı,
Süsənbərim.

Şəhla gözü,
Gözəl üzü,
Şirin sözü,
İlqar düzü,
Süsənbərim.

Yaşıl başlı,
Çatma qaşlı,
Şux baxışlı,
Yaraşıqlı,
Süsənbərim.

Şirin avaz,
Kirpik almaz,
Aşıq sınmaz,
Yardan dönməz,
Süsənbərim.

Kəklik səkər,
Boynun bükər,
Ovçun çökər,
Qanın tökər,
Süsənbərim.

Sən əzəlsən,
Dil məzəsən,
Çox gözəlsən,
Bir dənəsən,
Süsənbərim.

Bulaq başı,
Gözüm yaşı,
Var təlaşı,
Qəlb sirdaşı,
Süsənbərim.

Telli sazım,
Xoş avazım,
Bahar yazım,
Sən murazım,
Süsənbərim.

Budur sözüm,
Qurban özüm,
Telli sazım,
Şən avazım,
Süsənbərim.

Sən halalsan,
Bir calalsan,
Mənə yarsan,
Bizə varsan,
Süsənbərim.

Aşıq Ağdı,
Toy təlağdı,
Xoş sorağdı,
Gözəl çağdı,
Süsənbərim.

Söz tamam oldu, şıx oğlu anladı ki, qızın adı Süsənbərdir. Qohum-əqraba məşvərətə yığıldı. Qərara gəldilər ki, elçiliyə getsinlər.

El dili mübarək olur, -demişlər. Kosacanın müdrik qocaları üz qoydular Telli Cəfərin bargahına. Günə bir mənzil, tey mənzil, qırdılar yolun damarını. Ertəsi gün atdan endilər. Telli Cəfərin bargahında. Telli Cəfər şıx oğlunun elçilərinə xoş gəldin deyib, onları ağzı qıfıllı bir qapının ağzına apardı. Şıx oğlu arif adam idi. Mətləbi qandı. Cibindən bir açar çıxarıb qıfılı açdı. Dedi:

–Telli Cəfər! Bil və agah ol, qıfıl sizdə, açarı bizdədir.

Telli Cəfər elçilər oturanda ortalığa süfrə əvəzi bir baş şalı sərdi. Şıx oğlu tez şalın üstünə bir papaq, bir kəmər, bir xəncər qoydu. Dedi:

–Telli Cəfər! Biz kişi üçün qapına elçi gəlmişik. Şal sahibinin namusunu qorumağa qeyrətimiz çatar.

Telli Cəfər dizinin üstünə bir parça çörək qoydu. Şıx oğlu çörəyi Telli Cəfərin dizi üstdən götürüb öpdü. Sonra üstünə duz qoydu. Dedi:

–Telli Cəfər! Bil və agah ol. Şıx oğlunun əsil-nəcabəti var. Bizim çörəyimiz heç vaxt dizimizin üstə olmayıb. Qohumluğumuz düz çörək, duz-çörək üstə qurulur.

Telli Cəfər ortalığa bir qab bibər qoydu. Şıx oğlu bibəri götürüb bayıra atdı. Süfrəyə qənd-noğul səpdi. Dedi:

–Telli Cəfər, şirinlik olan yerdə acılıqdan söhbət açmaq yersizdir.

Telli Cəfər süfrəyə iynə, sap, üsküк, qayçı qodu. Şıx oğlu bir boğça açdı. Əvəzində süfrəyə üzük, sırğa, boyunbağı, gümüş kəmər, başlıq qoydu. Sonra hamısını boğçaya yığıb ağzını bağladı verdi Telli Cəfərə. Telli Cəfər ayağa qalxdı. Boğçanı öpüb – mübarəkdir! – dedi. Süfrəyə şirin çay gəldi.

Bəli, əzizlərim! Allah-taala sizin də bəynişanlarınızı mübarək etsin. Ağ Aşıqla Süsənbərin tale ulduzlarının sevda məşvərəti qurtardı. Hər iki ailədə toya hazırlıq başlandı. Nağılçılar dili mübarək, köhlən at yüyrək olar demişlər. Şıx oğlu Ağ Aşığa bir toy etdi ki, səs-sorağı Al Osmana yayıldı. Aylar-illər dolandı. Qara Osmanoğlu nəvə buyurub çağırdı. Gün o gün oldu ki, qocalar ömür-günlərini cavanlara bağışladılar.

Arazdeyən tərəflərdə şah qoşunlarının talanı başladı. Camaat el-obasından pərən-pərən oldu. Əl-ayağı tutan vəzndə yüngül, çəkidə

ağır hər nəyi vardı farmaşa qabğardı. At-ulağa yükləyib Dərələzə, Göyçəyə tərəf pənah apardılar. Ağ Aşıq da külfəti ilə günə bir mənzil, tey mənzil üz qoydu. Göyçəyə, Gülüdərənin gədiyindən aşanda dönüb Araz tərəfə boylandı. Ürəyi qubar eylədi. Dilli-dilavər sazı köynəkdən çıxarıb bəmini - bəm, zilini - zil köklədi. Aldı görək nə dedi. Biz deyək şad olun:

Bahar gəldi bu dağlara,
Gülüm gələ, gülüm gələ.
Yay olanda yaylaqlara,
Elim gələ, elim gələ.

Gözəlləri söhbət-sözüm,
Şövqə gələ telli sazım,
Cövlan edə xoş avazım,
Gül hüsnünə dilim gələ.

Ağ Aşığın xoş çağıdı,
Gül yanaqlar oylağıdı,
Göyçə bir gülşən bağıdı,
Tə'rifinə dilim gələ.

Söz tamama yetdi. Ağ Aşıq baxdı ki, Süsənbər bulud kimi şara çüyütdü. Bir himə bənddi yumub tökə. Götürdü dübarə:

Dağlar, səndən duman qalxar,
Çərxə dolana-dolana.
Göy guruldar, şimşək çaxar,
Çərxə dolana-dolana.

Tər çiçəklər ilməyindi,
Nərgiz-çəmən köynəyindi,
Duman çalman-diləyindi,
Çərxə dolana-dolana.

Ağ Aşıq tək havalısan,
El-obanın calalısan,

Bahar fəsli davalısan
Çərxə dolana-dolana.

Söz tamam oldu. Üz qoydular karvansaraya. Ağ Aşıq karvansaraya çatanda gördü ki, ey dili-qafil, Göyçə elə bil cənnətmisal behiştdi. Gül bülbülü, bülbül gülü çağırır. Sıra dağlar ağ buludlardan başına tac qoyub, Göyçə gölündə güzgülənir. Ürəyi cuşa gəldi. Götürdü görək Göyçənin vəsfinə nə dedi, tərəfindən ərz eyləyək, siz şad olun:

İgid olsa elə arxa,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə,
Çörək verib ala səxa,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Dağlar başı qarlı gərək,
Bağça-bağlar barlı gərək,
İlqar özü varlı gərək,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Göyçə gözəllik oylağı,
Güldür-çiçəkdir yaylağı,
Murğuz, Murov, Kəpəz dağı,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Güzgüsüdü Göyçə gölü,
Tamaşadı bütün eli,
Şəhdi-şəkər şirin dili,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Ağ Aşığın odu sönməz,
El-obadan üzü dönməz.

İgidlərin başı enməz,
Can sadağa beləsinə,
Gözlərinin giləsinə.

Ağ Aşıq gülfəti ilə gecəni karvansarada gecələdi. Karvansara əhli aşığın başına toplaşdılar. Xahiş etdilər ki, biz də yolçu, sən də yolçu, Araz döyəndən bir neçə yarpaq söz oxu, səhərin açılmasına körpü sal. Ağ Aşıq baxdı ki, heç insafdan deyil ki, karvansara əhlinin xatiri sına. O idi ki, imran dilli sazını köynəkdən çıxardı, zil-bəm eyləyib dilə gətirdi. Aldı görək nə dedi. Biz deyək, siz şad olun:

Vətənimdən cida düşdüm,
Bəy əlindən, xan əlindən.
Heç birində insaf yoxdur,
Onların aman əlindən.

Rəiyyət qərq olur qəmə,
Dərdimizi deyək kimə?
Zəhrimardı, alıb yemə,
Kəndxudanın nan əlindən.

Ağ Aşığı dostu yoxlar,
Dərdi-qəmi canda saxlar,
Köksünə tuşlandı oxlar,
Dilbilməz nadan əlindən.

Məclis əhli bir ağızdan dedi:
-Sağ ol, aşıq! Sən yaxşı deyirsən, ustadına bərəkallah!
Məclis əhli bir ağsaqqal dedi:
-Aşıq! İndi gəda-güda dünyasıdır. Hanı sən gördüyün səxa-saya?
Ağ Aşıq arif idi. Bildi ki, dünyagörmüş bu pirani hansı simə çalır. Götürdü dübarə:

Qəm çəkmə, ey könül, fani dünyada,
Qılınc çəksən dərdə, aha yaxşıdır.
İbadət et, leyli-nahar sal yada,
Şükür etsən bir allaha yaxşıdır.

Əl çirkidi qızıl, mal ilə dövlət,
Kim tapıb onunula dünyada şöhrət?-
Namussuz, qeyrətsiz olsa bir övlad,
Onu atsan fızıllığa yaxşıdır.

Düşün ədaləti, unutma daha,
Ağada iman yox, sultanda saxa,
Nəsihətli sözləri deyim bir daha,
Haram yüzdən, halal şahı yaxşıdı.

Ağ Aşıq, elini etdilər talan,
Namərdlər mərd olub, mərdlərsə yalan,
Atalar ölərkən yurdunda qalan,
Qeyrətli övladı daha yaxşıdı,.

Söz tamama yetişdi. Məclis əhlinin sözü ucaldı.

Səhər açıldı. Üzünüzə mübarək səhərlər açılsın.

Ağ Aşıq da üz qoydu Göyçənin Kərkibaş kəndinə. Şər qarışar-qarışmaz Kərkibaş kəndinə varid oldu. Aşığı tanıyanlar, bilənlər evinə də'vət etdilər, ona elə gecəykən bir kümə düzəltdilər. Allah hamınızı evli-eşikli eləsin. Səhər Ağ Aşıq külfətini yığdı küməsinə. Amma baxdı ki, Süsənbərin halı heç özündə deyil. Bıçaq vursan qanı çıxmaz. Ağ günü elə bil göy əsgiyə düyülüb. Ağ Aşıq sazı divardan endirdi. Zil-bəm eylədi. Dedi:

-Mehribanım! Sənin bu baxışın könlümü qan elədi. Sinəmə bir neçə xana söz gəlib. Deyim quluq as.

Aldı Ağ Aşıq:

Mah camalın şö'lə saçır ay kimi,
Gözüm, könlüm ay Süsənbər səndədir.
Qaşların sinəmi oxlar yay kimi,
Bir ahusan müşki-ənbər səndədir.

Yandı qürbət eldə dilim-dodağım,
Çatıb Al Osmana sözüm-sorağım,
Bir busə ver, dada gəlsin damağım,
Yandı ciyər, abı-kövsər səndədir.

Üzündə xallara salmışam nəzər,
Daldalan görməsin xoyrat, bədnəzər,
Nadan nə bilir, nədir gövhəri-zər,
Ağ Aşığam, ol dürr-gövhər səndədir.

Söz tamama yetişəndə aşıq baxdı ki, Süsənbər üzünü dağlara çevirib için-için inləyir. Dərdi təzələndi. Saz sinədə yön çevirdi dağlara. Aldı görək Ağ Aşıq nə dedi. Qulluğunuza biz ərz eyləyək, siz şad olun:

Məcnun deyə Leyli ünü,
Düşdü dağlara-dağlara.
Kərəmi də keşiş dini,
Saldı dağlara-dağlara.

Dağlar başı tamam qardı,
O ki elə bir vüqardı,
Niyə günahkar dağlardı-
Derlər: dağlara-dağlara...

Murğuz, Murov, Kəpəz xandı,
Alvız, Ağrı bir sultandı,
Ağ Aşıq hələ cavandı,
Alqış dağlara-dağlara.

Söz tamam olanda Ağ Aşıq baxdı ki, Süsənbər mileymləndi. Sözün yerinə düşdüyünü görüb öz-özünə dedi:

-Zənən xeylağıdır. Bir az qubarlanıb. Gəl könlünü bir də al. Bir-iki yarpaq könülaçan söz oxu. O idi ki, Ağ Aşıq sazı Beçə pərdədə zilə çəkdi:

Aşığam şana qaldı,
Saçında şana qaldı.
Busə aldım üzündən
O da nişana qaldı.

Mən aşıq sənə sarı,
Üz çevir mənə sarı.
Könülüm məlhəm istər
Təbibsən-onu sarı.

Mən aşıq, sinəsinə,
Dağların sinəsinə.
Gül olub taxılaydım
Yarımın sinəsinə.

Söz tamam oldu. Aşıq sazla dediyini, sözlə də dedi. Baxdı ki, ey dili-qafil Süsənbər yüz nazü-qəmzə ilə özünə sığal verib. Götürdü dübarə:

Budur gəldi fəsli-bahar,
Mahcamallı, Süsənbərim,
Mənim gül ənbərim!
Sənə qurban şirin canım,
Məhcamallı, Süsənbərim,
Mənim gül ənbərim!

Qurban olum boy-busata,
Seyrə çıxaq asta-asta,
Baxçayın barından dosta,
Nubar yolla, Süsənbərim,
Mənim gül ənbərim!

Mah camala qara tellar,
Vurğundu şeyda bülbüllər,
Ağ Aşığı da lal eylər,
Qoşaxallı, Süsənbərim,
Mənim gül ənbərim!

Bəli, söz tamam oldu. Süsənbərin kefi duruldu.

Bu minval ilə aylar-illər keçdi. Gün o gün oldu ki, Ağ Aşığın ağ günü qara əsgiyə düyüldü. Urum elindən Sərdar Hüseynin fərraşları Kərkibaşda aşığın doqqazında atlarının başını çəkdilər. Fərmanı

verdilər aşığa. Buyurdular ki, Sərdar Hüseynin mərəzi qalxıb, yuxusu ərşə çəkilib. İranın, Turanın loğmanları onun mərəzinə ağ adamın qanını dərman buyurub. Hazırlaş, yarın bizimlə Uruma varmalısan- deyib atlarının başını çevirdilər kəndxudanın evinə. Ağ Aşığın ürəyində yara yenidən qövr eylədi. Ürəyi qubarlandı. Sazı divardan endirdi. Köynəkdən çıxarıb əl gəzdirdi kökünə. Mindirdi sineyi-sandığa:

Bir yandan pristav, bir yandan koxa,
Biçarə rəyyəti dara çəkirlər.
Qazı, darğa xalqı soyur soğan tək,
Dirikən üstündən qara çəkirlər.

Dağ çəkildi Naxçıvana, Sulduza,
Duz nədir ki, həsrət qala el duza.
Axund, molla, seyid dönüb quduza,
Elin sərvətini hara çəkirlər?

Sığındım Göyçəyə, bu mahala mən,
Şükür deməmiş, düşdüm zavala mən.
Necə dönüm, üzüqara dala mən,
Ürəyimi atəşə, nara çəkirlər.

Ağ Aşıq da, dərd əlindən dəlidir,
Kənddə koxa qanı soran zəlidir,
Gözüm yaşı dağ çayının selidir,
Sinəmə dağ-düyün, yara çəkirlər.

Söz tamama yetər-yetməz Ağ Aşıq baxdı ki, oğlanlara Məhərrəm ilə İsmayıl, anaları Süsənbərin boynuna yaz sarmaşığı tək elə sarılıblar ki, illər-aylar həsrəti kimi. Göz istəyir on yerindən yumub tökə. Bir tərəfdən də biçarə bacısı Ümmilbanu əl eyləyib gözünə. Bahar buludu kimi yumub tökür. Ürəyi qövr eylədi,kötürdü görək Ağ Aşıq vəziyyətinə bahəm nə dedi. Quluğunuza biz ərz eyləyək, cəmi dinləyənlər şad olsun:

Dərdin karvanıyam, qəmin suvarı,
Üzü gülməyəcəm haçana kimi?!
Gecəli-gündüzlü işığa həsrət,
Yanıb-sönəcəyəm haçana kimi?!

Fərraş hüzurunda qolbağlıyam,
Müxənnət kəndxuda- sinədağlıyam,
Haqq-ədalət hanı dərdim ağlıyam,
Dərd bağlayacam haçana kimi?!

Sərdar Hüseyn tək sitəmkar olmaz,
Zülmündən dünyada kimsənə qalmaz,
Ağ Aşıq, dərdini təbib də bilməz,
Məlhəm arayacam haçana kimi?!

Söz tamam oldu. Süsənbər baxdı ki, ay dili-qafil, kişi heç özündə deyil. Qəhər onu boğub. İstədi ki, ürək-dirək versin. Ağ Aşıq götürdü dübarə:

Taleyim belədir, yaranan gündən,
Nahaqdan odlara qalanmalıyam.
Nə qədər əlləşsəm, var-dövlət yığam,
Bir yandan çapılıb, talanmalıyam.

Ürəyimdən od düşübdür üstümə,
Heyran-heyran baxanlar var tüstümə.
Təndir bilib sığınırlar istimə,
Belə dolanmışam, dolanmalıyam.

Söz tamama yetişdi. Ümmilbanu ürəyi qəmli, gözləri nəmli, bayaqdı ipək saçlarından üç tel ayırdı. Basdı sineyi-sandığa. Aldı görək ürəyi yaralı, dili nalәli nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun.

Aldı Ümmilbanu:

Can- ciyərim, getmə aman günüdür,
Çalış düşmə güzarına sərdarın.

Baş götürək, gedək qürbət diyara,
Yox e'tibar ilqarına sərdarın.

Aldı Ağ Aşıq:

Gəl görüşək, halallaşaq, ay bacım,
Gedər oldum hüzuruna sərdarın.
Yazıq qardaşını qara qul kimi,
Aparırlar bazarına sərdarın.

Aldı Ümmilbanu:

Sənsiz necə dözüm qəm möhnətinə?
Özümü öldürrəm düşsən qürbətə,
Şeytan da vurmaz əl, haram dövlətə,
Od ələnsin yollarına sərdarın.

Aldı Ağ Aşıq:

Sultanların taxtı olaydı taraş,
Xan zülmkar, ağa cəllad, bəy fərraş,
Cumdum dərin ümmanlara, vurdum baş,
Dolaşmışam mən toruna sərdarın.

Aldı Ümmilbanu:

Yaralıyam tay-tuşumun içində,
Qəhr cövlan edir göz yaşım içində,
Ümmilbanu el-obanın içində,
Lə'nət edər məzarına sərdarın.

Aldı Ağ Aşıq:

Ağ Aşıq taleyi qara, baxtı kəm,
İqbalımdı mənim, fələk baxdı kəm,
Doğrananda qıyma-qıyma baxdı kəm,
Ollam məlhəm azarına sərdarın.

Söz tamam oldu. Aşıq baxdı ki, Süsənbər heç özündə deyil, bir himə bənddi. Ağ Aşıq bir oğullarına, bir bacısına, bir də ömür -gün yoldaşına baxdı. Ürəyi od tutub yandı. Sazı basdı sinəsinə. Götürdü görək " Kərəmi " üstə vəziyyətini necə ərz eylədi, tərəfindən biz de-

yək, siz şad olun:

Zəhmət ilən bağça saldım becərdim,
Müştaq oldu qəmxarına ha dərdim.
Bülbül tək gül üçün candan keçərdim,
Müştaq oldu qəmxarına ha dərdim.

Qızılgül becərdim ərşə boy atdı,
Ah– fəğanım el–obanı oyatdı,
Fələk məni bəxtiqara yaratdı,
Müştaq oldu qəmxarına ha dərdim.

Ağ Aşıq tutuldu gündə min dərdə,
Huş getdi qalmadı ağıl da sərdə.
Ayrılıq üz verdi bu bəd səfərdə,
Müştaq oldu qəmxarına ha dərdim.

Söz tamam oldu. Fərraş içəri daxil oldu. Ağ Aşıq əhli-əyalə ilə halallaşanda baxdı ki, ey dili-qafil, Süsənbərin bayaqdan bəri qurumuş gözlərindən sel kimi yaş şoralanır. Ağ Aşıq dedi:

– Fərraş! İnsaf eylə. Sinəmə bir neçə xanə söz gəlib. Onu da deyim. Sonra ixtiyar sahibisiniz.

Fərraşlardan biri dedi:

– Ayə, gavur oğlu! Biz nə hayda, sən nə hayda. Pəzəvəng yanşaq, haydı hüzuruna sərdarın.

O biri fərraş dedi:

– Əfəndim! Bir qaç söz üçün şimdi darılma.

Ağ Aşıq sazı zilə çəkdi. Aldı görək Süsənbərə nə dedi. Qulluğunuza biz ərz eyləyək, siz şad olun:

Sərdar Söyün fərman verdi,
Ağla məni Süsənbərim,
Gözüyaşlı sitəmkərim!
Yolum oldu gedər-gəlməz,
Ağla məni, Süsənbərim.
Gözüyaşlı sitəmkərim!

Fərman gəldi yaman oldu,
Könlüm şəhri talan oldu,
Demə, dərdim pünhan oldu,
Ağla məni, Süsənbərim.
Gözüyaşlı sitəmkərim!

Əlif qəddim döndü yaya,
Ömür-günüm getdi zaya,
Dərdim gəlməz haqqa-saya,
Ağla məni, Süsənbərim.
Gözüyaşlı sitəmkərim!

Bəli, söz tamam oldu. Ağ Aşıq Sərdarın fərraşları ilə üz qoydular Uruma. Günə bir mənzil, tey mənzil qırdılar yolun damarını. Çatdılar Uruma. Bu o vaxt idi ki, Sərdarın fərraşlara verdiyi vaxt artıq tamam olhaol idi. Aşığı Sərdar Hüseynin hüzuruna apardılar. Ağ Aşıq baxdı ki, ayə burada nə inni-cinni desən var. İlan vuran, iman quran, ipəyi köpəyi qarılardan tutmuş, tas quran cindara kimi hamı buradadır. Cəllad da əlində ovxarlı balta qətl üçün əmrə müntəzirdir. Saz əlində aşığı görəndə hərə bir tərəfə çəkildi. Sərdar Hüseyn baxdı ki, ayə bu bir oğlandır ki, allah xoş saatında, xoş dəqiqəsində qələmini çəkib onun xətti-xalına. Yemə-içmə bax boybusatına. Vallahi bir baxan deyir, qoy bir də baxım.

Ürəyində dedi:

– Bəxtiqara! Allah da səni mənim dərdimə dərman yazıb. Nə etmək olar, yazıya pozu yoxdur, -deyiblər. Görünür sənin də və'dən bura kimi imiş.

Ağ Aşıq ədəb-ərkanla Sərdar Hüseynlə və məclis əhlinə salam verib, baş əydi.

Sərdar dedi:

– Aşıq, hələlik amandasan. Sazını köynəkdən çıxar. Bir kefimizi oyla.

– Bə çeşim - deyib Ağ Aşıq sazı köynəkdən çıxardı, bəmini - bəm, zilini-zil eylədi. Götürdü görək ölümqabağı nə dedi. Tərəfindən biz deyək, siz eşidin:

Ağ Aşığa xətm-kəlam oldu bu gün,
Cənnətülmə vaya[1] götürün məni.
Eldə sirr sözümü etmədim bəyan,
Cəlali-üqbaya[2] yetirin məni.

Əlacım eyləsin on iki imam,
Bu fani dünyadan gedirəm nakam,
Gözləyir yolumu biçarə anam,
Qəbir əzabından ötürün məni.

Cəlilüşşə'n[3] mələk həmdəmim ola,
Xəlili-xəlit[4] namazım qıla,
Tez verin duamı, salın da yola,
Siz Bağı-cinana[5] götürün məni.

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Aşığın yanıqlı oxuması Sərdar Hüseynin canına məlhəm kimi yayıldı. Xahiş etdi ki, aşıq bir mahnı da oxusun. Ağ Aşıq götürdü dübarə. Aldı görək nə dedi:

Ömür oldu tamam, gün oldu tamam,
Götürün, çevirin qibləyə məni.
Dursun namazıma on iki imam,
Yetirin cənnəti-ələyə məni.

Xəzan əsdi, vaxtsız soldu güllərim,
Yetişsin imdada Xudayi-Kərim,
Eldə qalan nəsihətli sözlərim,
Qaldıracaq ərşi-əlayə məni.

---

1. Cənnət mənzili.
2. Şöhrətli - ali qəbr.
3. Baş mələk.
4. Yar-yoldaş.
5. Behişt bağı.

Ellər gələr Ağ Aşığın yasına,
Süsənbər qərq olar qəm dəryasına.
Yarəbb, qıyma onun cüt balasına,
Aparın fənadan üqbaya məni.

Söz tamama yetişdi. Saray ə'yanları, əşrəfləri baxdılar ki, Sərdar Hüseyn keçinib. Loğman da əvvəl-əvvəl elə bildi ki, Sərdar o söz... Hamı bir-birinə dəydi. Loğman Sərdarın nəbzini yoxladı. Gördü ki, o, şirin yuxudadı. Dedi:

– Həzarat! Sərdarı rahat buraxın. Özü ayılmayınca onu narahat etməyin.

Hamı çəkilib getdi. Ağ Aşığı da Sərdar Hüseynin gülşən bağında qonaq otağına apardılar. Sərdar o yatan 40 gün, 40 gecə yuxudan ayılmadı. Bu 40 gün Ağ Aşıq üçün 40 ilə bərabər oldu. Canına vəsvəsə düşdü. Dağı arana, aranı dağa daşıdı. Baxdı ki, budur bir dəstə durna qatarı səf çəkib vətənə sarı. Ürəyi qubar eylədi. Sazı köynəkdən çıxardı. Zilini - zil, bəmini - bəm eylədi. Götürdü görək Urumdakı halını əhli-əyalına necə ismarladı. Tərəfindən bir ərz nyləyək, siz də şad olun:

Qərib-qərib ötən durna,
Durna, yara salam söylə.
Bir-birinə yetən durna,
Durna, yara salam söylə.

Göydən enər qatar-qatar,
Dırnaqları quma batar,
Gecə gedər, gündüz yatar,
Durna, yara salam söylə.

Səf çəkərsiz düzüm–düzüm,
Şahpəri boynundan uzun,
Sizsiz mənim iki gözüm,
Durna, yara salam söylə.

Sağ gedin səfər başına,
Yol gözləyir dost– aşına,

Mənnən yara bir nişana,
Durna, yara salam söylə.

Və'də verdim, və'dəm bitdi,
Ayım – günüm ilə yetdi,
Telli sazım qəmgin ötdü,
Durna, yara salam söylə.

Gülü əkdim, güldən oldum,
Yar deməkdən dildən oldum,
Cida düşdüm, eldən oldum,
Durna, yara salam söylə.

Ağ Aşığın məlul çağı,
Zindanımdı gülşən bağı,
Qəsdimdən cəllad-yağı,
Durna, yara salam söylə.

Söz tamam oldu. Aşıq baxdı ki, Sərdarın fərraşı ona tərəf gəlir. Fərraş dedi:

–Yanşaq! Haydı Sərdarın hüzuruna.

Ağ Aşıq Sərdarın hüzuruna gəlib, ədəb-ərkanla salam verdi. Sərdarın əmrinə müntəzir dayandı. Sərdar Hüseyn dedi:

–Yanşaq! Loğmanlar mənim mərəzimin sağalması üçün dava-dərman tapmadılar. Elə mənim dava-dərmanım sənin sazın-sözündür. Mən harda, sən də orda olmalısan.

Nağılçılar dili yüyrək olar. Bu minvalla Ağ Aşıq sərasər 3 il Sərdar Hüseynin qulluğunda çalıb oxudu. Amma Sərdar Hüseyn insafa gəlmədi ki, gəlmədi. Bir bahar günü Sərdar dost-aşnası ilə gülşən bağına seyrangaha çıxmışdı. Qulağına səs gəldi. Baxdı ki, aşıq yanıqlı-yanıqlı oxuyur:

Başına döndüyüm gülüzlü yarım,
Qoymaram həddini aşa dərdimi.
Rumun loğmanından çarə bulmadım,
Varın, deyin Qızılbaşa dərdimi.

Bülbül güldən ötrü yalvarır xara,
Xun-ciyərim oldu səd həzar para,
Səni loğman bildim, olmadı çara,
Varın, deyin yar-yoldaşa dərdimi.

Ağ Aşığam, vəsfə gəlməyir sözüm,
Heyf gen dünyanı görməyir gözüm,
Bircə allah bilir, bir də mən özüm,
Nə Sərdar bilir, nə paşa dərdimi.

Söz tamama yetişəndə Sərdar Hüseynin ürəyi kövrəldi. Öz-özünə dedi:

–Ey dili-qafil, heç insafdan deyil ki, belə bir aşığı dustaq edəsən.

Sərdar başının adamları ilə içəri daxil oldu. Dedi:

–Yanşaq! Məndən istək-arzunu dilə. Nə istəsən yerinə yetirərəm.

Ağ Aşıq baxdı ki, ölümün ağuşundan süyüşüb. O idi ki, sazını ustad kəlamına köklədi. Aldı görək nə dedi, biz deyək siz şad olun:

Dedim: könül, bacar yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Çox da bel bağlama dünya malına,
Nə mala, nə mülkə e'tibar olmaz.

Dəli könlüm, səndə bu nə haldır?
Yenə başındakı hansı xəyaldır?
Birisi büdrəsə qolundan qaldır,
Hər zaman dost-dosta səbəbkar olmaz.

Yaxşı olar mərd igidin təməli,
Namərd tutmaz heç kəsə dad əli.
Hər at Düldül olmaz, hər yetən Əli,
Hər qılınc kəsməklə zülfüqar olmaz.

Aşıq oldun hər ağrıya dözəsən,
Sinən üstə odlu gözlər əzəsən,

Gündoğanla, günbatanı gəzəsən,
Ağ Aşıq kimi heç xiridar olmaz.

Söz tamam oldu. Ağ Aşıq sazla dediyini sözlə də dedi. Hər yerdən alqış səsləri ucaldı. Sərdar Hüseyn xəzinədarı çağırıb aşığa çoxlu ə'nam verməyi əmr etdi. Sərdarın ə'yan əşrəfləri də Ağ Aşığa çoxlu xələt verdilər. Ertəsi gün Sərdar Hüseynin fərraşları Ağ Aşığın kəhər köhləninin gümüşü üzəngini basdılar, aşığa Urum elindən uğur dilədilər.

Bəli, əzizlərim! Sizin də görüm üzünüzə gün doğsun. Heç dardamanda qalmayasınız. Ağ Aşıq da dar-damandan qurtardı. Urum elindən kəhər köhləninin Göyçə deyə cilovunu boşladı. Günə bir mənzil, tez mənzil qırdı yolun damarını, Ağrı dağının ətəyində atdan endi. Baxdı ki, Boz qayada xınalı kəklik səzikir. Ürəyinə bir neçə xanə söz gəldi. Götürdü görək aşıq xınalı kəkliyə nə dedi, biz deyək siz şad olun:

Baharın gülşən çağında,
Uçar daşdan-daşa kəklik.
Ovçu görsə səkər asta,
Sinər daşdan-daşa kəklik.

Məskən salar qayalarda,
Özü göyçək boyalarda,
Gözdən iraq sayalarda
Çökər daşdan-daşa kəklik.

Süsənbərim göylər mahı,
Ağ Aşığın qibləgahı.
Əyir belim yarın ahı,
Bükər başdan-başa kəklik.

– Söz tamama yetişdi.

– Yolçu yolunda gərək, – deyiblər. Ağ Aşıq da üz qoydu yolun tənginə. Nağılçılar dili mübarək, köhlən kəhər yüyrək olar, – demişlər. Qırdı yolun damarını. Qoşabulağa çatanda atdan endi. Əl-üzünü yuyub sərinlədi. Baxdı ki, ey dili-qafil bənövşələrin ətri adamı bihuş

edir. Sazı köynəkdən çıxardı. Aldı görək aşıq nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

Sən baharın qonağısan,
Boynuburuq bənövşələr.
Eşq əhlilər qınağısan,
Boynuburuq bənövşələr.

Məcnun Leyli xəyalında,
Kərəm Əsli sorağında,
Qurbaninin qəm bağında,
Boynuburuq bənövşələr.

Ağ Aşığın bəxti kəmdi,
Fələkdən bu bir sitəmdi,
Dərdim bil səndən betəmdi,
Boynuburuq bənövşələr.

Söz tamama yetdi. Aşıq köhlənin belinə qalxdı. Ağanı allah saxlasın deyib, şər qarışanda özünü yetirdi Kərkibaşa. Ağ Aşığın sağ-salamat qayıtması el-obada toy-bayrama çevrildi. Aşıq Urumda gördüklərindən dəm verdi çənə söhbətinə. Bir də baxdı ki Süsənbər özünə bir ziynət verib ki, gəl məni gör, dərdimdən öl. Söz sinəsində Qoşabulaq kimi çağladı. Götürdü görək süsənbərə nə dedi, tərəfindən ərz eyləyək siz şad olun:

Leyli-nahar hüsnünə mən,
Həsrətəm ay ilə-ilə.
Şəhdi-şəkər ləbinə mən,
Həsrətəm ay ilə-ilə.

Bu yerlərdə bahar-yazdı,
Yaylaqları söhbət-sazdı,
Demə ki, bu nə avazdı,
Həsrətəm ay ilə-ilə.

Qürbət oldu mənə yağı,
Ürəyimə çəkdi dağı,
Ağ Aşığın cavan çağı,
Həsrətəm ay ilə-ilə.

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini sözlə də dedi. Kərkibaş camaatı Ağ Aşığın külfətinə gözaydınlığı verdi. Məclisdə iştirak edən pirani bir aşıq sazını götürüb zilini zil, bəmini bəm köklədi. Basdı sineyi-sandığa. Kərkibaşda tamamlanan bu məclisə belə bir duvaqqapma oxudu. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

Soruşursan ərzi-halım,
Deyim hardan gəlirəm,
Satmışam əqil-kamalı,
Dərin simadan gəlirəm.
Fikir gəzir asimanı,
Ərşi-ə'ladan gəlirəm.
Tilsimlərin açarıyam,
Sirri-binadan gəlirəm.
Neyləyirsən xəbər alıb,
Sehri-səfadan gəlirəm.

Getmiş idim bir aləmə,
Tunc əridən havası var.
Hazırlaşıb ləşkərləri,
Kimin ilə davası var.
Məqamını tam dolandım,
Yeddi böyük qalası var.
Hər qalanın qapısında,
On min dənə halqası var,
Tutmuşam mən yüklərimi,
Muzdu-babaldan gəlirəm.

Yetmiş mindən, yetmiş minə,
Zərb eylədim bir hesabı.
Doxsanminlik sərlövhədə,
Yazılıbdı var kitabı.

Çahar altı yan-yana yaz,
Hesab eylə, ver cavabı.
Lə'ldir Valehin mətahı,
Gəl ziyarət eylə məni,
Turi-Sinadan gəlirəm.

AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ

Bəli, hörmətdi məclisimiz, hörmətdi camahatımız. Ustaddarın bir neçə qiymatdı sözünü qulluğunuzda ərz eliyəjəm. Ustaddarın ölənino allah rəhmət eləsin, qalanına can sağlığı versin, Siznən baravar. Ustaddar deyir ki:

Dilim, sana bu nəsiyəti deyirəm,
Bu dünya malına sarışma, dilim!
Yə'qin bil ki, ölüm haxdı qavaxda,
Qıyamat oduna alışma, dilim!

Bir məclisə vardın dilin olsun lal,
Görənnər qoy sənnən sərf etsin kamal,
Sağına, soluna yağdırma sual,
Hərcayı danışıf, gülüşmə, dilim.

Saxla bu sözdərim, eylə amanat.
Haqqınan düz olan tez tapar nicat
İstiyirsən başın ola salamat,
Ağzına gələni danışma, dilim!

Musa oda alışmıyıf, nə lazım?
Beybafaynan qonuşmuyuf, nə lazım?
Haqqın özü sirr aşmıyıf, nə lazım?
Gördüyün sirrəri sən aşma, dilim!

Musuya rəhmət, sizə can sağlığı. Bu şe'r köhnə aşıx Musanın oluf. Ağkilsəli. Onun sözüdü. İndi də Ələsgərdən birini deyim.

Qafıl könlüm bu nə yoldu tutufsan,
Sərf edirsən nə kamaldı dünyada,
Dövlətə güvənif, gül tək açılma,
Çox sən təki güllər soldu dünyada.

Fələh bərbad etdi hər nizamları,
Zülümnan söndürdü yanan şamları.
Hayıf cavannarın gül əndamları,
Mara-mura qismət oldu dünyada.

Küfrdən bərkitmə könlündə barı.
Tof dəysə dağıdar, bürcü, hasarı,
Sənin kimi gəzən qara şahmarı,
Fələk kəməndinə saldı dünyada.

Guşimdə sırğadı, sinəmdə dağdı,
Ağlı olan unutmaz, neçə ki, sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Yığılar məxluqat, qurular məhşər,
Boyunnarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıx Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

Allah rəhmət eləsin qul Allahquluya. Bir ustadnamə də onnan deyək:

Könül qullux elə kamil ustada,
Ustad görmüyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerini bir neçə ağlı kəm aldı.

Bivəfaya dedim: "Dur mənnən üzül"
Nameəhrəmə baxma, gözdərim, süzül,
Nuh əmr eylədi min doqquz yüz il,
Sandı kı, bir axşam, bir səhər qaldı.

Qul Allahquluyam, ay nasib elə,
Səcərdən baş verdi ay nasib elə,
İsgəndər atdandı, ay nasib elə,
Nə Cəmşid padşah, nə də cəm qaldı.

Bəli, mənim əzizdərim, sizə haradan xəvər verim, Göyçə mahalının Qızılvəng kəndinnən. Kimnən, Aşıx Alıdan. Aşıx Alı deyir: cavan vaxtımda orda-burda söhbət eliyirdilər ki, Aşıx Alı gələcəkdə gözəl sənətkar olajax. Allah heş kimi kasıv eləməsin. O zamannan elə kasıvıydıx kı, oğru içəri girsəydi, bircə süpürgədən başqa əlinə bir şey keçməzdi. O vaxtın pulu bir abbasım varıydı. Kəndin içinə çıxdım kı, mal öldürüf alışma eliyiflər. İki girvəngə ət aldım. Gətirdim evə, dədəm doğradı, anam tökdü qazana, qoydu ojağın üstünə. Kasıvın evində yemək olanda ev gülür, eşik gülür. Öydə bir ala pişiyimiz varıydı. O da sevindiyinnən tufara hoppanıf, yerə düşürdü. Dədəmnən-anamın söhbəti də bir-birinə yaman xoş gəlirdi. Söhbətin şirin yerində anam dədəmə dedi:

– A kişi, gəlsən oğlumuzu evləndirək?

– Arvad, düz deyirsən, gədiyi evləndirmək lazımdı. Qızdarın xasiyyətini sən bilirsən.

Anam oturduğu yerdə başdadı kəndin başınnan.

– A kişi, filankəsin qızı nətəridi?

Atam dedi:

– Ay arvad, onun dədəsi axmaq adamdı. Bildir yazda mənnən dalaşdı.

Anam yenə dilləndi:

– Bə, filankəsin qızı nətəridi?

– Onun da anası dillidi, balası onnan betər olajax.

Gördüm kü, anam öz tayımız, öz baravarımız bir zülümlü kasıf tafdı. Atam dedi:

– Bax, bunun qızını alax.

Aşıx Alı deyir:

Dədəmnən utandım, anamı bir qırağa çəkif dedim:

– Mən onu almıyajam.

Anam dedi:

– Anan ölsün, bəs kimin qızını alajaxsan?

– Mən Çamırrılı Niftalının qızını alajam.

O vaxtdar dövlətdi kasıva qız vermirdi. Ona görə bilirdim ki, o bizə qız vermiyəjək.

Anam gedif dədəmə dedi:

Dədəm bilmirəm nəyə umud eliyif dedi:

– Bu saat gedif alajam.

Dədəmin bir köhnə kürkü varıydı. Çiyninə atıf evdən çıxdı.

Çamırrıynan Qızılvəngin arası yaxınıydı. Dədəm Niftalıgilə çatıf qapıyı döyür. İçəridən səs gəlir:

– Kimdi ayə, qapıyı döyən?

Atam deyir:

– Niftalı, mənəm.

Niftalı qapıyı aşdı kı, İmirzə kişidi.

Dedi:

– Buna yaqın xərc-zad qoyuflar, düzəldə bilmiyif, ona görə gəlif.

Dedi:

– Gəl, ay İmirzə, gəl içəri.

Niftalı İmirziyi çox mə'rifətnən qarşıladı.

Dedi:

– Ay arvad, çaydan-çörəkdən qoyun.

İmirzə, gejənin bu vaxtı bizə nə yaxşı gəlirsən?

İmirzə dedi:

– Yaxşı günün olsun, a Niftalı, bilirsənmi niyə gəlmişəm?

Niftalı dedi:

– Gəlifsən, belə xoş gəlifsən, belə gözüm üstə gəlifsən. Nə mətləvə gəlifsən düzələr.

İmirzə dedi:

– Yaxşı günün olsun, a Niftalı. Xudavəndi-aləm hamıya oğul-qız toyu qismət eləsin. Mən də istiyirəm oğlum Alıya toy eliyəm.

Arvad da deyir, Niftalı da deyir:

– Allah mübarək eləsin!

İmirzə kişi axır kı gəlir mətləf üstünə.

– A Niftalı, gəlmişəm ki, qızın Bəsdi xanımı bizim Alıya verəsən.

Ayə, Niftalı, dəli olmadımı! Əlini belə hərrədi ki, İmirzənin noxtalığına birini qoya. Arvad qulağına pıçıldadı:

– A, Niftalı, onun xətrinə dəymə, başdığını çox istə, qoy getsin öyündə ölsün.

Odu ku, Niftalı dedi:

– Ay Mirzə, arvad razıdı. Qızı sənin oğluna verəjəm, amma istədiyimi gərək gətirəsən.

– İsdə, qadan alım, görüm nə istiyirsən?

– Sənnən üç yüz manat qızıl pul alajam. On yeddi erkək gətirərsən. Çaxırrıdan dəli Ağayarın atının balasını da gətirərsən. O at Qa-

zaxdan gəlif, Dilboz atdarın cinsinnəndi. El xərci o tərəf, bu tərəf də sənin boynuna.

İmirzə əl verir, "Allah mübarək eləsin, a Niftalı" - deyif çıxıf üz tutur Qızılvəngə.

Anam bir də xəvər gətirdi ki, dədən yaman fit çala-çala gəlir. Yağın qızın "hə"sini alıf.

Öz-özümə dedim, axşamnan kişi toxdu, ətin fışqırığıdı, ajıxsın havax çalsa.

Dədəm gəldi. Kürkü atdı evin ortasına. Arxası üstə uzandı. Əllərini başının altına çatdı. Anam gəlif dədəmin yanında oturdu. Dedi:

– A kişi, nə xəvər gətirdin?

– Öyü xaravın qızı, sən bilmirsənmi mən getdiyim yerdən boş gəlmərəm.

– Nə dedi, ay İmirzə, başdıx-işdik, bizdən nə istədi?

– Ə, nə var, nə istiyə. On yeddi erkək isdiyir, o tərəf bu tərəf el xərci mənim boynuma. "Hə" deməsinə bir at balası, üçcə yüz manat qızıl pul isdiyir.

Anam o yannan qayıtdı kı, onun yüz manatı bu anasının boynuna. Sonra dedi:

– A kişi, yüz manat da sənin boynuna. On harava ot bişmə, iyirmi harava biç.

Dədəm öysürdü:

– Arvadü mənimkini əlli elə, mən düzəldə bilmiyəjəm.

– Düzəldəjən, canın çıxsın.

– Alı, a bala, yüz manat da sənin boynuna.

Aşıx Alı deyir: baxdım gördüm, bunnar elə danışıllar, elə bil gəlin gəlif, lap qapının ağzındadı. Amma ortada nə bir manat var, nə də bir keçiləri. Yerimnən qalxıf dedim:

– Ana, mənim coravımı, ayağımın məsini gəti. Sazımı götürüm gedim. Mən də öz payımı düzəldim gətirim.

Aşıx Alı sazını götürüf evdən çıxır. Yay vaxtıydı. Qalxır Selim yaylağına, At damına, Dəmir təpiyə. Avdiləsərə, Qızıl Xərəvəyə. Bu yaylaxların hamısını gəzif gəlif Əyricədə böyük bir tuxuraya rast gəlir. Görür kü, böyük yığıncaxdı. Bəylər, bəyzadələr əyləşif kef eliyillər. Bir nökər Aşıx Alıyı görüf qavağa gəlir. Aşıx Alı onnan soruşur:

– A bala, bu tuxuru kimindi?

– Dayı, bu Naxçıvannı Kalvalı xanın şaddıx məclisidi. Buyur, gedək.

Aşıx Alı gəldi. Məclisdəkilərə ədəfnən salam verif, əleyk alannan sonra Kalvalı xan soruşdu:

– A quzum, kimin rahatısan?

– Səmənd ağanın rahatıyam.

– Oğlum, sazını çıxart söhbət elə.

Aşıx Alı sazını çıxardıf söhbətə başdadı. Onun çalıf-oxumağı Kalvalı xanın çox xoşuna gəldi. Nökəri səsdədi:

– Get bir at yəhərrə, gəti bura.

Nökər gedif yaxşı bir at yəhərrəyif gətirif Aşıx Alıya verif dedi:

– Bu atı xan sənə bağışdıyır.

Kalvalı xan nökərrərə dedi:

– Xurcunu da gətirif qoyun aşığın tərkinə. Yol adamıdı.

Aşıx Alı atı minif Kalvalı xana çox minnətdarrıx elədi. Hamıynan təmənnəşif yol başdadı Şərur mahalına tərəf. Bir kəndə yaxınnaşanda beş-altı uşağa rast gəldi.

Onnar soruşdular:

– Aşıxsanmı?

– Bəli, aşığam. Qadanız alım. Yaxşı məclis olanda çalıf-oxuyuram.

– Aşıx, görürük cavansan. Buralara da nabələdsən. Biz məsləhət görərdik ki, bu cığırnan getmiyəsən.

– Niyə, a bala.

Qavaqda Arakolanı adında bir kənd var. Aşıx Duraxan orda olur. Səni görsə sazını alajax. Düzü, qorxuf çəkinsəm də yolumnan dönmədim. Bir azdan at məni endirdi həmin kəndə. Başımı qaldırıf gördüm kü, bir kişi həyəti süpürür. Salam-əleykdən sonra soruşdum:

– Əmi, bura aşıx Duraxanın kəndidi?

Dedi:

– Bəli.

Aşıx Alı deyir bir fikirrəşdim ki, gəl Duraxanın evini xəvər al. Düz get Duraxanın evinə. Bir də fikirrəşdim ki:

– Allah çuğula nəhlət eləsin. Çuğul nə ölmüyüf, nə də ölmüyəjək. Gedər Duraxana xəvər verər. Duraxan gəlif atımı da alar, sazımı da. Amma o vaxtın pulu otuz manatım varıydı. O otuz manatı arxalığımın elə yerinə gizdətdim ki, qanıma bulamıyınca ələ keçəsi döyüldü. Çox

çək-çevirdən sonra "allah sənnən mədəd" - deyif atın boynunu vurdum. Gəldim düz Duraxanın qapısına. Atı eyvanın sütununa bağlıyıf girdim içəri. Gördüm kü, bir kişi bığlarını eşif qulağına doluyuf. Hər dizinin üstündə bir ipək dəsmal var, düyünün xırdasını duru-hal qaynatdırıf yeyir. Qaşıx mənzilinə çatannan sonra dəsmalın birini götürüf bığının bir tərəfini silir. Sonra o biri dəsmalı götürüf o biri bığını silməyə başdıyır. Çəkinə-çəkinə ona salam verdim, amma heş mana tərəf baxıf eləmədi. Çörəyini yeyif qurtarannan sonra dedi:

– Bala, nə istəyirsən, nəyə gəlifsən? Eşidirəm səni.

– Ay usta,gəlmişəm ki, boynumda bir təklif var, onu götürməkdə mana kömək eliyəsən. Həm də sənnən bir kəlmə mə'rifətdi söz öyrənəm.

Duraxan dedi:

– O boynundakı təklif burda götürülməz. Oğul, get bir həftə buralarda hərrən gəl, mən də bir beş-altı adam düzəldim, addıyax Türkiyəyə. O mətləvin düzəlsə, orda düzələjək.

Aşıx Alı deyir, getdim bir həftə hərrəndim. Gəlif gördüm kü, on səkkiz adam topluyuf. Bir dəst xanəndə, bir dəst kəndirbaz, bir də Sarvannan kəndinnən Əsəd adlı bir qalyan-qorçu götürüf. Ayda otuz manata behləşmişdilər. Aşıx Alı deyir: fikirrəşdim ki, nə qədər pul qazanajıyıx kı, otuz manat da qalyan-qorquya verəjiyik.

Duraxan dedi:

– Yaxşı olajax. Addıyajıyıx Türkiyəyə. Gələndə də gəlif toyunu eliyərsən.

Aşıx Alı deyir eşiyə çıxdım kı, atın hörüyünü dəyişəm. Gördüm kü, kəndçimiz Ramazan kişi Şərurdan Göyçüyə düyü gətirir.

– Salam-əleyküm, Aşıx Alı. Oğul, gedirsənsə, baravar gedək.

– Yox, ay Ramazan əmi. Mən Türkiyəyə gedirəm. Bəlkə getdim ölüv, itdim, heş qayıda bilmədim.

– Ayə, niyə durduğun yerdə ölürsən? Çətinnik varsa, qayıdax kəndimizə. Daha niyə ölümnən-itimnən danışırsan?

– Ay Ramazan əmi, toy xərcini toplamasam, ölsəm də qayıdan döyüləm. Bir namə yazım, apar Bəsdi xanıma ver. Aldı görək Alı nə dedi. Biz də deyək, siz də həmişə şad olun.

Aman qasid, sən allahı sevirsən,
Mənim ərzim o canana deginən.

Qohum, qardaş, dost müsahib olanlar,
Göz dikməsin daha yola deginən.

Yeriyif vətənə virannan sonra,
Sən bizim elləri görənnən sonra
Aparıf naməni verənnən sonra,
Dilcavavı yana-yana deginən.

Vəsmim dastan oldu, düşdü dillərə,
Heyif oldu, yetişən yox hallara,
Aşıx Alı düşdü tozdu yollara,
Yolum düşdü el Osmana deginən.

Ramazan kişi irəli yeriyif Aşıx Alının boynunu qucaxlıyıf üzünnən öpüf ağladı:

– Ayə, mən atanın çörəyini kəsmişəm. Məni yaman köyrəltdin. Haraya gedirsən, yoxsa səni məcburu aparıllar?

– Yox, ay Ramazan əmi. Özüm gedirəm pul düzəldəm gətirəm. Özümə toy eliyəm.

– Allah üstünnən getsin, a bala. Cənabi Əmir ağam səni öz pənahında saxlasın.

Aşıx Alı kağızı Ramazan kişiyə verif dedi:

– Bu atı da apar dədəmə ver.

Halal-hümmət eliyif ayrıldılar. Duraxan yoldaşdarını da çağırdı. İyirmi bir nəfər dəstə bağlıyıf Türküyəyə addadılar. Bir göylükdə əyləndilər. Aşıx Duraxan dedi:

– O şəhəri görürsünüzmü? O şəhər Mum şəhəridi. Hər kəs də öz dəstəsini götürüf şəhərin bir küçəsinnən gedəjək. Kim boş gəldi, kim dolu fərqi yoxdu. Pulu bu göylükdə mən özüm böləjəm.

Aşıx Duraxan, Aşıx Alı, qalyan-qoru Əsəd bir küçəynən gedirdilər. Gəlif gördülər ki, bir çardağın altında üç paşa əyləşif.

– Mərhaba, paşam.

– Mərhaba, quzum. Quzum, yanşaxsınız?

– Bəli, paşa sağ olsun, yanşağıx.

Yanşıyın dinniyək. Xoşumuza gəlsə, sizə eylik eliyəjeyik. Xoşa gəlməsə, şəhər böyükdü, genə gedərsiniz öz yolunuznan.

Sazdarı çıxartdıq. Köklüyüf bir-birinin üstə düzəltdik. Yayın isti

günündə elə bir şövqnən oxumağa başdadıx ki, gəl görəsən. Aşıx Durxannan çıxan səs göydə, ala buludda əyləşirdi. Camahat səsimizə axışıf gəldi. Pul başdadı yağış kimi yağmağa.

Aşıx Alı deyir, gözümün qırağınnan pula baxdım. Ürəyimdə Allaha yalvardım kı, nolaydı, payıma iki yüz yetmiş manat düşəydi.

Bir də gördüm kü, uca boylu bir adam gəldi. Boyda-buxunda Koroğluya on təpik vurmuşdu. Əynində bir şalvarı varıydı, hər civinə üç yaşında bir uşax salsaydın bilməzdin hayana getdi. Başındakı fəsinin ortasında da yarım girvəngədən artıx qotazı varıydı. Ədəfnən salam verif dizini yerə qoydu. Civinnən bir ipək dəsmal çıxartdı. Pulu dəstələyif sanadı, sonra dəsmalın arasında qoydu. Ayağa qalxıf pulları şalvarının civinə salıf dedi:

– Yanşaxlar üç yüz iyirmi manat quruşunuz oldu.

Bunu deyif heş nə olmamış kimi kir-kirimiş çıxıf getdi. Mən dözə bilmiyif Aşıx Duraxana dedim:

– Ay usta, qoyma pulu apardı.

Aşıx Duraxan dedi:

– A bala, bunu sən tanımırsan, uzun pazdı, başımıza oyun açar, qoy aparsın. Gedif o biri küçədən yığarıx.

Dedim:

– Əmi, o pulu yığana kimi yayın istisində gözümə qan damıf. Sazın köynəyinin harada qalmasına baxmıyıf, düşdüm bunun dalıncax. Gördüm bu yoxdu, amma ağac çarpayının üstündə bir paşa əyləşif. Bunnarın salamını öyrənmişdim. Əl köksümə qoyuf baş əydim. Dedim:

– Mərhaba, paşa!

– Mərhaba, quzum. Buyurun mətləbinizi deyin. Sizi dinniyirəm.

– Paşam sağ olsun, bu nişan bir oğlan bizim quruşdarımızı qaçırıf, bu doqqaza girdi.

– Oğul, o qaçırtmaz. O mənim aşığım Yığvaldı. O yaqın sizə bir qafiyə deyif. Siz də cavab verə bilmiyifsiniz.

Dedim:

– Paşam sağ olsun, gəlsin o qafiyiyi burda desin. Əgər cavaf verə bilməsək, onda bizim döyranımız ona halaldı.

Paşa Yığvalı çağırtdırdı. Yığval gəldi. Diz üstə çökdü, əl köksünə qoyuf paşıya baş əydi. Paşa soruşdu:

– Oğul, bunnar müsafirdilər. Niyə bunnarın quruşunu qaçırdıfsan?

Yığval dedi:

– Paşa, sağ olsun. Mən para qaçırtmamışam. Bunnara bir qafiyə demişəm, cavab verə bilmiyiflər.

Bu arada Duraxan da gəlif burya çıxmışdı.

Aşıx Alı dedi:

– Paşam, budu ustadımda gəlif çıxdı. Sənin aşığın bizə heş bir bağlama zad-demiyif.

Usta deyəndə qayıtdım Duraxanın üzünə baxdı. Onun qulağına dolanan bığları qorxusunnan aşağı tüşüf, xırman çalğısı kimi boğazının altınnan düyünnənəsi olmuşdu.

Paşa dedi:

– Oğul, fərqi yox, indi ya sən, ya da sənin ustadın düşün qavağa. mənim aşığıma bir qafiyə deyin.

Aşıx Alı dedi:

– Paşa sağ olsun, ustadımın mana çox əziyyəti oluf. Mən razı olmaram kı, ona genə zəhmət verim. Mən sənin aşığınnan bajarmasam, onda ustadım meydana girəjək.

Aldı Aşıx Alı görək nə dedi:

Gəndinə aşığam deyən, aşıxsan meydana gəl,
Namərd girməz bu meydana, mərd isən meydana gəl.
Gəndi olan gəndisini öyməyi layıx döyül,
Şimdi sazın aləminə, bu cəngi-dövrana gəl.

Yığval:

Sən ki, varsan bir adasan axırsan ümmana gəl,
Mən danışım, sən qulax as, mərfətə, ərkana gəl.
Sən satansan, mən də alan, açkının mətahını,
Malın satma hər nadana, xırdarın alana gəl.

Duraxan baxıf gördü, bu cavan aşıx özünə görə döyül. Yığvalı lap təntidif. Bir də ürəyinə gəldi ki, birdən ustadı meydana çağırallar. Biavırçılıx olar. Ona görə qalyan-qorçuya dedi:

– Əgər desələr, usta da oxusun, sən tez dillənif denən ki, usta yornuxdu. Aldı Alı görək nə dedi:

Ey, arifə bir salam ver, soruşum halın görüm,
Həqiqət haqq aşığısan, söylə, kamalın görüm.
"İncil", "Zənbur", "Tövrat", "Qur'an" göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən, bu narı-neyrana gəl.

Paşa dilləndi:

– Sağ ol, Aşıx Alı. İndiyə qədər mən bilmirdim ki, bu nə məssəvə qullux eliyir, Elə yaxşı eliyif soruşursan.

Yığval dedi:

– Paşa sağ olsun, indi söznən kim olduğunu bəyan eliyəjəm.

Yığval:

İsayiyəm, Musayiyam, hər nəyəm öz yolumda.
Haqqınan söz söylərəm, mə'rifət kamalımda.
Şimdi paşam qulluğunda, sədirəzəm yanında.
Haqqında divan kəssələr, ədalət divana gəl.

Paşa dedi:

– Kəs, nadürüst oğlu, nadürüst. Bu cavan aşıx sənnən dörd kitavı xəvər aldı. Bu nə cavabdı verirsən. Dörd kitabın birinə də yiyə durmadın.

Aşıx Alı dedi:

– Paşa sağ olsun, görünür, o öz millətini, hələ tapa bilmiyif. Yazıxdı, deyim, qoy örkənsin.

Aldı Alı:

Aşıx Alıyam, tamam leyli-nahar söylərəm mədhi,
Mə'rifəti, şəriəti, innəqan haxdı, təriqəti,
İsayisan "İncil"i sev, musayisan "Tövrat"ı.
Gər Məhəmməd hümbətisən, boyun əy, "Quran"a gəl.

Yığval dedi:

– Padşah sağ olsun, mən də Məhəmməd hümbətiyəm. İndiyə qədər soruşmuyufsan, mən də deməmişəm. İndi icazə versən söznən deyərdim:

Aşıx Yığvalam, bilin, fərzi-sünnət qanıram.
Əlif Allahın adıdı, bey peyğəmbər tanıram.
Tay Tabərrah, qəni Allah, ona səjdə qılıram.
Xilqətimdi Adəm ata, sey xaki yeksanə, gəl.

Paşa dedi:

– Oğlum, indi də mənim aşığım qavağa düşəjək. Siz cavaf verəjəksiniz.

Aldı görək Yığval Aşıq Alıyı nejə imtahana çəkdi.

O nədi ki, otuzuna cavandı?
On beşində qojalanar, uludu.
O nədi ki, dili ayrı, sözü bir,
Hansı dərya, hər dəryadan doludu?

Duraxan baxıf gördü kü, Yığval yaman qəliz məsələlərdən yapışıf. Öz-özünə fikirrəşdi ki, bu çox çətin açılajax. Qalyan qorçu Duraxanın üzünə baxanda gördü ku, ustad yaman qorxuya düşüf. Ona ürək-dirək vermək üçün dedi:

– Qorxuf eləmə, aşıx Alı cavavını verəjək.

Aldı görək Aşıx Alı nə cavaf verdi:

O aydı kı, otuzunda cavandı,
On beşində qojalanar, uludu.
O qələmdi dili ayrı, sözü bir,
Elm dəryası hər dəryadan doludu.

Duraxan qalyan-qorçu Əsədə dedi:

– Əsəd, mən elə bilirdim ki, bu kişinin başı dəryadı. İndi gördüm kü, kişinin oğlunun başı dərya döyülmüş ümmanıymış.

Aldı Yığval görək sözün o biri xanəsində nə dedi:

O nədi ki, zimistanda dağlar bürüyər,
O nədi ki, əl dəyməmiş hörülər,
O nədi ki, insana amanət verilər?
O nədi ki, o da onun gülüdü?

Aşıx Alı görək nejə cavab verdi:

O qardı Zimistanda dağlar bürüyər,
O könüldü məhəbbətnən hörülər.
O urufdu bil amanat verilər,
İlqar, iman o da onun gülüdü.

Aldı Yığval:

O nədi ki, hax yanında nahaxdı?
O nədi ki, yerə-göyə dayaxdı?
O kimdi ki, yatmıyıfdı, oyaxdı?
Aşıx Yığval hər elmdən halıdı.

Aldı Aşıx Alı:

Böhtan sözdü hax yanında nahaxdı,
Hax nəzəri yerə-göyə dayaxdı.
Haqqın özü yatmıyıfdı, oyaxdı,
Bu sözdəri açan Aşıx Alıdı.

Söz tamama yetişənnən sonra Paşa dedi:

– Alı, oğul, indi növat gəlif sana yetişdi. Yoxla bu Yığvalın qavını, görək bir şeyi varmı?

Aldı görək Aşıx Alı nə dedi:

Mə'rifətdən kamal alan, ay aşıx,
Şəriəti neynən elərsən aşkar.
Bey altınnan o noğdanı bəyan et,
O noğdadan elə məni xəvərdar.

Paşanın aşığının gözü buz üstə çıxmış dana gözünə döndü. Dili tutula-tutula dedi:

– Paşa sağ olsun, havanın istisi, sazın səsi beynimə düşüf. Mən hamısını birədi açajam.

Duraxan söyündüyünnən qalyan qorçusuna elə bir dürtmə ilişdirdi ki, yazıx az qaldı gedif düşə Əzrayılın siyahısına. Qalyan qorçu baxdı kı, Aşıx Duraxanın bığları söyündüyünnən yaman qalxıf, zalım oğlu elə şöyqə gəlif ki, bir də bayaxkı kimi ona bir dürtmə də ilişdirsə, onda qəvrinə arvad-uşax ömürrük həsrət qalajax. Ona görə

qaçıf özünü soxdu camaatın arasına. Aşıx Alı Yığvalın ilişdiyini duyuf dedi:

– Paşa sağ olsun, neyniyək, qoy mən deyim o hamısını birdən açar.

Səkkiz cənnət, yeddi dami yaqın var,
Yerdədi, göydədi, hardadı ənnar?
Ərşdə iki quş var, göydə dən dənnər,
Gah pünhan olullar, gah olur aşkar.

Yığval tez əlini qaldırıf dedi:

– Paşa sağ olsun, tafdım.

Paşa dedi:

– Nədi?

Dedi:

– Aynan, gündü. Əgər desə ki, aynan, gün döyül, demək bunun dediklərinin öyü yoxdu, yalan danışır.

Aşıx Alı dedi:

– Paşa sağ olsun, indi ki, Yığval deyir yalandı, onda bu bağlamanı özüm açajam, gör yalandı, yoxsa doğru.

Aldı görək Aşıx Alı öz bağlamasın nejə aşdı:

Deməginən bu sözdərim yalandı,
Ay, gün, Zümrüd zhu quşa büləndi
Zatı Zülcəlaldı, özü kəlamdı,
Peyğəmbərdən qaldı hədsi mö'təbər.

Aşıx Alı dedi:

– Paşa sağ olsun, mən sənin aşığınnan o sözü xəvər aldım ki, Məhəmməd peyğəmbər salavatüllahi mehraca gedəndə yeddinci göydə qavaxlarına iki qatar dəvə çıxdı. Dedi:

– Ay Cəbrayıl, əylənək bu dəvə qatarının dalı üzülsün.

Dedi:

– Ya peyğəmbər, bu dəvə karvanının dalı üzülmüyəjək.

Dedi:

– Bə, bu dəvələrin yükü nədi?

Dedi:

– Ya Rəsul Allah, bir qatarın yükü sənin mö'cüzatındı. O biri qatarın yükü də Əlinin səxavətidi.

– Paşa sağ olsun, mən sənin aşığından iki qatar dəvəni iki quş mislində soruşdum. O dedi: aydı, gündü. Ay, gün olmasa, yalandı.

Aldı Aşıx Alı görək o biri xanədə nə dedi:

Mə'rifətdən şəriətə gəlmişəm,
Təriqətdə yol ərkanı bilmişəm.
Aşıx Alı deyər mətəl qalmışam,
Çarxı-dəvvarədə neçə elm var?

Paşa öz aşığına dedi:

– Açа bilmədin, nataraz oğlu, nataraz. Get mehmannarın paralarını gəti. Sən soruya cavaf verə bilmədin, bağlandın. Onnardan aldığın paranın üstünə də bir o qədər qoyuf bunnara qaytarmasan, dərinə saman təpərəm.

Yığval gəlif paraları gətirif artıxlamasınnan aşığa verdi. Paşa öz aşığına təpindi ki, get bir də gözümə görünmə.

Paşa üzünü Alıya tutuf dedi:

– Oğul, qal mənim yanımda, aşığım ol. Sizə çox eyliy eliyərəm.

Alı dedi:

– Sağ ol paşam, bizim ayrı mətləbimiz var.

Aşıx Alı paşaynan halal-hümbət eliyif ayrıldı.

Aşıx Duraxan yoldaşdarına tafşırmışdı kı, kim nə qazanır qazansın, yığılan pulları bu çəmənnikdə mən özüm böləjəm. Gəldilər şəhərin kənarına çıxanda gördülər ki, yoldaşdarının hamısı oraya yığılıf. Aşıx Duraxan bığlarını eşif qulağına dolayannan sonra pulları tökdü ortalığa. Aşıx Duraxan pulları qardaş malı kimi böldü, hər kəsin payını verənnən sonra dedi:

– Aşıx Alı, Allah sana min bərəkət versin. Həmişə gəlif hamımız burdan iki yüz manat yığardıx, qalmışını o nətərəst oğlu əlimizdən alıf qaçırardı. Bu xeyri sənnən gördük. Əgər iki ay bizdən sonra qayıdıf gəlsən toy xərcini çıxararsan.

Aşıx Alı baxıf gördü ki, onlar geri qayıtmax, vətənə getmək istiyillər.

Qalyan-qorçu Əsəd dedi:

– Aşıx Alı, aylığımı artırsan, mən sənin yanında qalajam.

Qalyan-qorçuyu ayı otuz manata tutuf gətimişdilər.

Aşıx Alı dedi:

– Mən sana ayda əlli manat verəjəm.

Bunnar bir-birrərinnən görüşüf halal-hümmət eliyif ayrıldılar. Duraxanın dəstəsi Şərur mahalına qayıtdı. Aşıx Alı qalyan-qorçu Əsədi yanına alıf üz tutdu Qars dağlarına tərəf. Sarıqamış dağlarını, yaylaxlarını görənnən sonra dedi:

– Əsəd, bura bizim yaylaxlara nə qədər bənziyir.

Bu yerdə Aşıx Alı köyrəlif, sazını köynəyinnən çıxartdı. Aldı görək nə dedi:

Süsənni-sünbüllü tər bənövşəli,
Yaylax, bizim yaylaxlara bənzərsən.
İçən ölməz abı-kövsər suyunnan
Bulax, bizim bulaxlara bənzərsən.

Qalyan-qorçu Əsədin bu sözdərdən ruhu tələtümə gəldi. Vətən onun da yadına düşdü. Özü də yaman düşdü. Doluxsunuf dedi:

– Aşıx Alı, doğrudan, buralar Qızıl xərəvəyə, At daşına, Əyriciyə, Verst dağına, Səlim yaylağına, Gəzəldəriyə nejə də oxşuyur.

Aşıx Alı baxdı kı, qalyan-qorçu Əsəd də yaman kövrəlif. Aldı sözün o biri xanəsini:

Zərzivil, xan Keyti, Daşkət baxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.
Gözəllər seyr edər o yaylaxları,
Yaylax, bizim yaylaxlara bənzərsən.

Deyər: Aşıx Alı daş Gözəldərə,
Şəqayiq-çiçəkli xoş Gözəldərə.
Əyricə, Vers dağı, baş Gözəldərə,
Oylax, bizim oylaxlara bənzərsən.

Söz tamama yetir. Bunnar yol başdıyıf getməkdə olsunnar. Birdən göyün üzünü dumannan, çisəkdən elə tutuldu ku, göz-gözü görmədi. Aşıx Alıynan qalyan qorçu Əsəd bir-birinnən aralı düşdü. Bir xeyli ora-bura döyükənnən sonra gördülər ki, xoruz səsi gəlir.

Elə bu arada Əsədin qavağına üç-dörd uşax çıxdı.

– Salam.

– Əleykümə salam.

– Əmi, aşıxsınızmı?

Qəlyan-qorçu Əsəd dedi:

– Hə, aşığıx.

– Əyər aşıxsınızsa, yazıxsız, bu kəndə getmiyin. Bura Qullarbaydar kəndidi. Əsmər xanım gəlif orda söhbət eliyir. Sizi görən kimi sazınızı əlinizdən alajax.

Əsəd dedi:

– Ayə, mən aşıx ha döyüləm. Özüm zarafat eliyirəm. Aşıx o daldan gələndi.

Aşıx Alı gəlif onnara çatdı. Soruşdu:

– Əsəd, bunnar nə deyillər?

Dedi:

– Aşıx Alı, deyillər kənddə sünnət toyu var. Dəllək gəlif, aşığın dalınca adam göndəriflər. Özünüzü tez çatdırsanız, elə məclisi sizə tafşırardılar.

– Ayə, Əsəd, soruşdunmu bu hansı kənddi?

Dedi:

– Soruşmuşam. Bura Qullarbaydar kəndidi.

Gəlhagəl, gəlhagəl axır kı, gəlif kəndə çatdılar. Baxdılar camaat dəstə-dəstə bir tərəfə axışır.

Soruşdular:

– Bu nə yığıncaxdı?

Dedilər ki, Əsmər xanım Dağıstannan gəlif. Camaat onun gözəlliyinə tamaşa eləməyə, məlahətdi səsinə qulağ asmağa gedir. Aşıx Alı dedi:

– Əsəd, biz də gedək.

Gəlif gördülər ki, o qədər camaat yığılıf kı, bir çuval darı töksən biri də yerə düşməz. Balaja, gödək adamlar uzunnara beş manat verif çıxıf onnarın çiyninnən baxır.

Yığışannar Aşıx Alıyı görüf dedilər:

– Ayə, bir aşıx da gəldi, yol verin görək.

Camaat aşıx Alıya yol verdi. Aşıx Alınan qalyan-qorçu Əsəd məclisin ortasına girdilər.

Aşıx Alı dedi:

– Əsəd, aşıx aşığın məclisinə sazdı girməməlidi. Səhvə yol vermişik. Allah axırını xeyir eləsin.

Aşıx Alı əlini köksünə qoyuf baş əydi.

– Xanım, bizi bağışda. Saznan məclisinizə gəldiyimizə görə günahkarıx.

Xanım dedi:

– Anama qurvan olasan, elə zarafatdar geşməz.

Aşıx Alı baxıf gördü kü, özü də xanımın başındakı qırx qızın içində bir qarı da var. Kankannıx elminin dədəsini yandırıf, yerin yeddi qatınnan xəvər verir.

Xanım dedi:

– Adam isdiyirəm ki, bu aşığı mənnən zamına götürsün. Axşamın qara sərinində bunnan danışajam.

Mehdixan addı bir adam irəli çıxdı.

– Xanım, mən götürrəm zamına.

Dedi:

– Ünvanını de.

Mehdixan ünvanını yazıf ona verdi.

Xanım dedi:

– Əgər aşıx qaçarsa, öyün dağılajax.

Mehdixan aşıx Alınan Əsədi götürüf öyünə getmək istiyəndə xanım dedi:

– İki qız əlinizdə simli qamçı bunnarı aparın Mehdixanın öyünə qoyun. Axşamüstü gedif gətirərsiniz.

Əsəd qızdarın cavannığını, gözəlliyini görüf papağın dalını günortaladı. Aşıx Alıya dedi:

– Aşıx, xudavəndi aləm elə eləsin ki, bağlanmıyasan. Bir il beləjə gedək-gələk.

Qızdar bunnarı gətirif Mehdixanın öyünə qoydular.

Mehdixan dedi:

– Aşıx Alı, sən məni tanımırsan. Mən Qazax mahalınnanam. Adım Mehdixandı. Düşmannı olduğumnan buraya addamışam. Bu çəpəl çox qabil sənətkardı, on səkkiz şəyirdi var. Çox aşıxları bağlıyıf, sazını alıf. Sizin də sazınızı alajax.

Qalyan-qorçu Əsəd dedi:

– Qardaş, qurddan qorxan, qoyun saxlamaz. Bə bu bədbəxt oğlu kişinin əlinnən qaşsın, arvadın əlinnən qaşsın, bə bu harda aşıxlığ

eliyəjək.

Mehdixan dedi:

– Siz qaçın, qoy mənim öyümü dorq eləsin. Mən təzə öy alaram. Amma sizin kimi eloğlularım bu qəriflikdə pisikməsin.

Elə təzəcə yeyif-içif kəmərin altını bərkitmişdilər ki, qızdar qapının ağzını kəsdilər:

– Xanım sizi çağırır.

Mehdixan, Aşıx Alı, qalyan-qorçu Əsəd qızdarın yanına tüşüf məclisə gəldilər.

Gəlif gördülər ki, xanım şəhərin küçələrinə yazıf yapışdırıf kı, ay camahat, sizi Göyçə mahalının Qızılvəng kəndinnən gələn bir aşığın vay gününə baxmağa çağırıram. Hamı gəlif baxsın.

Xanım Aşıx Alıyı yanına çağırıf dedi ki, gəl belə bir şərt kəsək. Əyər mən səni bağlasam, boynunu vurdurajam, zindana saldırajam, dar ağacınnan asdırajam, o mənim işimdi. Və sən məni bağlasan, şərtin nə olajax?

– Xanım, birinci, mənim sənin şərtinnən qorxum yoxdu. İkinci, camahatdan da, sənnən də xahiş eliyirəm ki, bizi bağışdıyasınız. Biz günahkarıx. Çünki aşıx aşığın üstünə sazdı getməz.

Əsmər xanım dedi:

– Anama qurvan olasan, aşıx. Heş bir bağışdamax olmuyajax. Qavağa mən düşəjəm. Cavaf verə bilməsən, Göyçüyə nə ismarışın varsa, indidən bu yanındakına söylə.

Aldı görək Əsmər xanım nə dedi:

Bir qəriv aşıxsan düşüf güzarın,
Nahax yerə bu sınağa gəlifsən.
Neçə aşıxları salmışam bəndə,
Hamısına sən sadağa, gəlifsən.

Aşıx Alı dedi:

– Xanım gəlmişəm bir, qayıdım gedim iki. Mənim sənnən bir qəsdi-qərəzdiyim yoxdu. Boynumu vurduruf, nə qazanajaxsan? Kasıv oğlanam, qoy gedim bir təhəri başımı saxlıyım.

Xanım dedi:

– Sözə cavaf verirsən, ver. Verə bilmirsən, əmr eliyim boynunu vuruf canını, bu dünyanın əzavınnan birdəfəlik qurtarsınnar.

Aşıx Alı dedi:

– Xanım, deyəsən sənin qavağınnan qaşdıxca ayağın yaman yer alır. Sən mənim yox, heç Göyçəli bir çovanın da əlinnən saz ala bilməzsən. Arvadsan deyə səni biyavır eləmək istəmədim. İndi özünnən küs,

Aldı Aşıx Alı:

Bəyənmirsən mənim kimi aşığı,
Sənin başın dağlamağa gəlmişəm.
Sazını, sözünü, bir də özünü,
Dustax edif saxlamağa gəlmişəm.

Xanım baxdı kı, yox, deyəsən bu özünə görə döyül:

– Aşıx, indiyə qədər bəlkə də sana rəhm eliyərdim. Belə yekə-yekə danışdığına görə başınnan qavax dilini kəsdirəjəm, dilini.

Qalyan-qorçu Əsəd baxdı gördü kü, xanımın başındakı qızdar təpədən-dırnağa sarı kətan geyif. Aşıx Alı qalyan-qorçunun üzünə baxanda gördü kü, Əsəd qızdara baxıf qısır inək danası kimi yalam-yalam yalanır. Aşıx Alının ölüv-öldürməyinin ona heş bir istisi, soyuğu yoxdu.

Alı gülə-gülə Əsmər xanıma dedi:

– Xanım, vejinə alma, işində ol.

Aldı Əsmər xanım:

Sinəmdə qövr edir eşqin sovdası,
Silinsin könlünün qalmasın pası.
Yoxdu səndə aşıxlığın siması,
Nahax yerə bu meydana gəlifsən.

Alı dedi:

– Düz deyirsən, arvaddar kişilərə nə desə haxlıdı. Amma bu meydan arvad meydanı döyül. Qulağın aç, məni yaxşı-yaxşı dinnə:

Dağılıfdı huşun, həmi idrakın,
Əlac etsin sana loğmani-həkim.
Laf eyləyənən aç mətahın, tök yükün,
Sərraf mənəm, yoxlamağa gəlmişəm.

Qəlyan-qorçu Əsəd gördü ki, xanım livasını dəyişif elə geyinif ki, baxanda adamın huşu başınnan çıxır. Amma hiss elədi ki, xanımın qavirqotu, hindiqotu Alıya tə'sir eləmir. Zalım oğlu xanımın lap əhədini kəsif.

Əsmər xanım dedi:

– Əyə aşıx, hərzə-hərzə danışma, qulağını aç, sözümün o biri xanəsini eşit:

Əsmərəm, qəddini döndərrəm yaya,
Əlimnən gedərsən ölkənə haya.
Aşıx deyif özün çəkmə ucaya,
Nahax yerə bu meydana gəlifsən!

Aldı Alı:

Çağırram Allahı, ol Mustafanı,
Gərdişi dövranı, qadir sübhanı.
Bu Alıyı yaxşı öyrən, bil tanı,
Qollarını bağlamağa gəlmişəm.

Söz tamama yetdi. Xanım bu dəfə laf ajıxlanıf özünnən çıxdı. Gedif livasını dəyişdi, özünə yeddi rəng ziynət vuruf, başdan ayağa qənöyüz geyif geri qayıtdı.

Qalyan-qorçu Əsəd ona baxanda huşu başınnan çıxdı.

Öz-özünə dedi:

– Zalımın balası insan ha döyül, elə bil göydən enmiş huri-qılmandı. Allah Alıya insaf versin. Heş belə xanımın xətrinə dəyəllər.

Əsmər xanım Alıya bir tərs nəzər salıf aldı görək nə dedi:

Gəndi laf eliyif, aşığam deyən,
Çox sənin kimisin qal eylərəm mən.
Min zülümnən səni çəkdirrəm dara,
O əlif qəddini dal eylərəm mən.

Aşıx Alı dedi:

– Xanım, vallah sana yazığım gəlir. Gəl daşı ətəyinnən tök. Nə özünə, nə bizə gəl nahax yerə əziyyət vermə. Qoy çıxax öz yolumuznan gedək.

Xanım sevindi. Fikirrəşdi ki, yaqın sözü qurtarıf, ona görə aradan

çıxmaq istiyir. Yerini bir az da bərkidif dedi:

– Hələ Əsmər xanımın əlinnən sağ-salamat qurtaran olmuyuf. İnşallah sənin də canını alajam.

Alı dedi:

– Vallaha aaz, murazını gözündə qoyajam.

Bəyənmirsən mənim kim aşığı,
Aparıf özümə mal eylərəm mən.
Vallah sallam bir tükənməz yanara,
Yandırıf-yandırıf kül eylərəm mən.

Xanım baxıf gördü ki, yox, deyəsən bu ipə-sapa yatana oxşamır. Gəlsənə, bir az da qorxudam. Bəlkə təntiyif, ağlını başınnan çıxarda bildim:

– Anasının oğlu, mənim on səkkiz şəyirdim var. Neçə-neçə aşıxları saldırmışam zindana. Səni də indi onnara qatıf boynunuzu vurdurajam:

Çağır dədən, nənən yetişsin dada,
O cavan ömrünü verəjən bada.
On səkkin şəyirdim var bəylərzada,
Səni də onnara qul eylərəm mən.

Qalyan-qorçu Əsəd baxdı kı, Əsmər xanım Aşıx Alıyı şəyirddərinə qul eləmək istiyir. Ürəyində dedi:

– Aya, bu zalımın qızı noleydi məni elə özünəjə qul eliyeydi.

Qalyan-qorçu Əsmər xanım hayana gedirdisə, onun dalınnan baxırdı. Xanım o qədər xoşuna gəlmişdi ki, o yeridikcə köksünü ötürüf deyirdi:

– Allah, nur yağır, Allah!

Aldı görək Alı nə dedi:

Yaxşı-yaman hər nə desən qanıram,
Eşqin ataşına mən də yanıram.
Mən bir məhək daşam qəlbi tanıram,
Səni üç qəpiklik pul eylərəm mən.

Əsmər ürəyində dedi: mən nə desəm, deyəsən bu cavavını tapajax. Gəl buna elə bir biavırçı söz de ki, camahatın qavağında utansın. Deməyə söz tafmasın.

Aldı Əsmər xanım:

Mən Əsmərəm, nahax gəlməz dilimə,
Çara olmaz haxdan gələn ölümə.
Səni minnəm üz tutaram elimə,
Arpa, samanını bol eylərəm mən.

Qalyan-qorçu Əsəd qayıtdı o tərəfdən ki...

– Xanım, minə bilsən məni də tərkinə al.

Camahat gülüşdü:

Əsmər xanım qarının üzünə baxıf dedi:

– Ay nənə, bu nətəri aşıxdı. Ağlın nə kəsir?

Qarı dedi:

– Ay qızım, imanım kirpi dərisində olsun, əyər belə aşıx görmüşəmsə?! Bu aşıx deyil. Ənzəli qamışıdı.

Aşıx Alı baxdı kı, yox, deyəsən Əsmər xanımın cilovunu çəkməyin vaxtı çatıf. Aldı Aşıx Alı:

Aşıx Alı təvəkküldü pirinə,
Sığınmışam o kərrari kərimə,
Küçükləmiş qancıx kimi hürümə,
Axşam-savah yalın bol eylərəm mən.

Mehdixan irəli yeriyif dedi:

– Xanım, camaat səndən narazıdı. Novat indi Aşıx Alınındı. İndi o qavağa düşəcək, sən cavaf verəjəksən.

Alı sazın zilini zil, bəmini bəm eliyif başdadı, nə başdadı. Aldı görək nə dedi:

Əcəf yerdə keşdin mənim cəngimə,
Cəngimnən çıxmağa pür hünər gərək.
Maya dura bilməz nər qavağında,
Meydana girməyə nərə-nər gərək.

Saxla dilini özün üçün qadağa,
Əlimnən gedərsən arana-dağa.
Səməndər tək göydə qanad çalmağa,
Havada süzməyə balü-pər gərək.

Camalın şövqünnən dilim oldu təng,
Çayda balığ olar, dəryada ləhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıx Alı birdi, birə-bir gərək.

Aşıx Alı sözdəri deyənnən sonra camahat dedi:

– Aşıx Alı, sən də qıfılbənd de, qoy görək özünnən deyən xanım nə cavaf verir.

Alı gülə-gülə dedi:

– Arvada bağlama deyif, cavaf istəmək ölüdən kəlmeyi-şəhadət soruşmax kimi bir şeydi. İndi deyirəm. Mən deyəjəm, amma o gözünü döyəjək.

Aldı Alı görək Əsmər xanımnan nə soruşdu:

İnsi-cinni o yer, o göy yox ikən,
Hax nə əmr eylədi, yer, nədən oldu?
Pərdeyi hicavətdən bir nəzər qıldı,
O dürrün içində nur nədən oldu?

Mehdixan dedi:

– Xanım, dillən, niyə dilin kəlmə tutmur.

Əsmər xanım dili dolaşa-dolaşa dedi:

– Mehdixan sağ olsun, havanın istisi, sazın səsi mənim başıma düşüf. Qoy desin, hamısını birdən açajam.

Aşıx Alı qalyan-qorçu Əsədin üzünə baxıf gördü ki, dostu papağın dalını yaman günortalayıf. Əsədin kefi Alvızın başında cöylan vurur.

Aldı sözün o biri xanələrini:

Bir nəzər qıldı gövhər tərlədi,
Bir qətrəsi düşdü, ümman eylədi.

Xışma gəlif Cəbrayıla söylədi,
Yandırdı şahpərin, nar nədən oldu?

Aşıx Alı duva istər pirinnən,
İltifat nəzərinnən, öz qüdrətinnən.
Bir dürr xəlq eylədi qüdrət sərinnən,
O dürrün içində nur nədən oldu?

Söz tamama yetdi.

Əsmər xanım cavaf verə bilmədi. Mehdixan Əsmər xanımın boyunbağısından tutuf sürüdü meydanın ortasına. Dedi:

– Aşıx Alı, bunun canı da, pulu da sana halaldı. Nə desən, o da olajax.

Aşıx Alı dedi:

– Mehdixan, qardaşım, çox sağ ol. Mən bu xanımı bağladığıma görə aparsam, Göyçə mahalında mana nə deyəllər. Deməzdərmi, bu öz deyiklisinə qovuşmax üçün pul qazanmağa getmişdi, yoxsa deyişif arvad almağa. Yaxşısı budu, toy xərcimi versin, gedim öz istədiyimi alım, toyumu eliyim.

Əsməri buraxdılar kı, gedif pul gətisin. Bir azdan Əsmər xanım əlində iki kisə qızıl pulnan qayıdıf gəldi. Pulları Alıya verif dedi:

– Aşıx Alı, sənin kim oğula tək pulum yox, canım da qurvandı. Ürəyimi istəsən, onu da sana əsirgəmərəm. Qalyan-qorçu da qoy getsin mənim qızdarımnan pulunu alsın. Onnara tafşırmışam.

Əsəd ayağınnan yeri qurdalıya-qurdalıya dedi:

– Onun özü mənim olmuyannan sonra, pulunu zəhrimara döndərrəm.

Camaat dağıldı. Mehdixan aşıxları evinə apardı. Eloğlannarının şərəfinə gözəl bir məclis düzəltdi. Yaxşıca yeyif-içif, dinclədilər. Savah tezdən xanımın qaravaşdarınnan biri gəlif dedi:

– Aşıx Alı, xanım sizi çağırır.

Aşıx Alı duruf sazını da götürüf Mehdixannan halal- hümmət eliyənnən sonra Əsmər xanımın yanına gəldi. Bunnar baxıf gördülər ki, sufra, yemək-işmək öz yerində. Amma xanım bu dəfə başqa livasdaydı. Hürü də, pəri də, mələk də onu görsə utandığınnan qaçıf gizdənər, üzə çıxmazdı. Təpədən tökülən saç alaçıx çuvuğu kimi yernən gedirdi. Xanımın zülfünün yarısı sinəsinin üstünə tökülüf

səhərin mehinnən dərddəşirdi. Bir az söhbətdən sonra Əsmər xanım üzünü qızdara tutuf dedi:

– Qızdar, belə qara söhbətdərdən bir şey çıxmaz, sazımı mana gətirin.

Onun sazını gətidilər. Əsmər xanım sazını sinəsinə basıf şümşad barmaxları pərdələr üstündə gəzdirməyə başdıyanda qalyan-qorçu Əsəd Aşıx Alının qulağına pıçıldadı:

– Aşıx Alı, burda alver məsələsi olsa, sənin nişannın var, bunu öz adına al, mana ver. Aylığımnan tutarsan.

Gözdəri bahar buludu kimi dolmuş Əsmər xanım mə'lul-mə'lul Alının üzünə baxıf görək nə dedi:

Arifi xoş kəlam, tutiyi-imran,
Gəl al məni, mən də sənnən varalım.
Kimdi bu dünyanın axırın görən?
Gəl al məni, mən də sənnən varalım.

Aşıx Alı baxıf gördü kü, Əsmər xanımın fikri ayrıdı. Öz-özünə fikirrəşdi ki, bu nə qədər gözəl olsa da, mənim öz istəklim, öz elim, öz ovam var. Camahat mana nə deyər. Hamı dədəmin goruna söymməzmi?!

Alı öz-özünə fikirrəşdi, amma gərək elə eliyim ki, Əsmər xanımın da qəlbi mənnən qalmasın. Bu xəyalnan Aşıx Alı aldı görək nə dedi:

Sənəmlər sənəmi, gözəllər xası,
Nejə deyim sən də, mənnən var alı.
Ayıfdı aləmə düşməsin səsi,
Nejə deyim sən də, mənnən var alı.

Aldı görək Əsmər xanım öz dərdi-dilini nejə izhar elədi:

Aşiq oldum sənin şirin dilinə,
Dərya kamalına, gövhər, lə'linə,
Qəbul eylə məni, apar elinə,
Gəl al məni mən də sənnən varalım.

Göhər gəlif dürr mədanın tutufdu,
Yaxşıyı qaldırıf, yamanı atıfdı,
Baxtı yazan məni sana yazıfdı,
Gəl al məni, mən də sənnən varalım.

Qalyan-qorçu Əsəd dedi:

– Aşıx Alı, daha burda nə Mehdixan var, nə də camahat. Onun sözünü yerə salma. Denən alajam. Sonra mən deyən kimi eliyərik.

Aşıx Alı dedi:

– Aya, elə danışırsan. Elə bil dünya görmüyüfsən. Özünü niyə biyavır eliyirsən? Onnan sana arvad olar. Xanzadələr, bəyzadələr ona söz deməyə cəsarət eləmir. Yuyulmamış qaşıx kimi ortuya nə düşüfsən?

Aldı görək Alı Əsmər xanıma nə dedi:

Bir xalım bəzirgan, bir xalın hajı,
Bir xalın qiymatı Urum xəracı.
O dünya, bu dünya sən mana bajı,
Necə deyim sən də mənnən var alı?

Əsmər xanım baxıf gördü kü, aşıx buna bajı deyir. Əli yerdən, göydən üzüldü. Dərinnən bir ah çəkif aldı sözün o biri xanəsini:

Əsmərəm, səninlə olaydım sirdaş,
Ağlaram, eynimnən gedər qannı yaş.
Sən ki, bajı dedin, sən mana qardaş,
Qardaşımsan, bu ilqarda duralım.

Aşıx Alı işin belə qurtarmasına çox sevinif, aldı görək sözünün sonuncu xanəsində nə dedi:

Aşıx Alı, nə xəyala dalıfsan?
Hayva kimi, saralıfsan-solufsan.
İlqar verif bajı-qardaş olufsan,
Sona qədər bu ilqarda duralım.

Söz tamama yetdi. Əsmər xanım aşıx Alıya bir dəst bəy paltarı, dəvə yununnan başdıx, məngülə arxalıx, gümüş vəznəli çuxa, bir də bir buxara papax bağışdadı, Aşıx Alı, bu da mənnən sana bajı payı- dedi. Sonra Alıya toy nəməri bir kisə də qızıl verdi.

Görüşüf-öpüşüf, halal-hümmət eliyənnən sonra bunnar vətənə yola düşdülər. Qalyan-qorçu yaman tələsiyirdi. Tez-tez Alıya de- yirdi:

– Bə sən deyirdin adna axşamı gedəjiyik, cümə günü yola düş- məliyik. Yolumuzu gözdəməkdən evdəkilərin gözünün kökü saraldı.

Ərzurum dağlarının ətəyində qalyan qorçu bir də onu tələs- dirəndə Alı sazı sinəsinə basıf qəmli-qəmli oxumağa başdadı.

Budu gəldi aylar sultanı Novruz,
Dolandı ruzigar, havalar keşdi.
Dəli könül gündə yüz xəyal eylər,
Balalı sərimnən sevdalar keşdi.

Başına mən dönüm, ey şahı doxtər,
Apardı ağlımı gözdəri xumar.
Tapmadım ömrümə bir münasib yar,
Neçə məleykələr, sonalar keşdi.

Alı deyər: bir qəm məni bürüdü,
Eynim yaşı sel-sel oldu, yeridi.
Cavan canım qürvət eldə çürüdü,
Neçə çərşənbələr, cumalar keşdi.

Bu sözü qurtarannan sonra onnar başdadılar getməyə. Bir az ge- dənnən sonra gəlif İydir şəhərinə çatdılar. Bir az da gedif çatdılar Axuranın yanına. Artıq Ağrı dağı görünürdü.

Aşıx Alıya demişdilər ki, Ağrı dağının yanınnan getmiyin. Orda yeddi zilan qaçağı var, sizi saxlayıf soyajaxlar.

Aşıx Alının sazının simi qırılmışdı. Sazını düzəltdirmək istiyirdi. Bir də baxdı kı, əli silahlı, yeddi nəfər Ağrı dağınnan enif onnara tərəf gəlir.

Aşıx Alı böyük bir daşın dalına girif sazı daşın üstünə qoyuf dedi:

– Ayə, tərpənməyin silahları qoyun yerə. Yoxsa hamınızı dən-

niyəjəm.

Zilan qaçaxları baxıf gördülər ki, qavaxda qəribə bir silah görünür. Doqquz nişanə götürən qaraulu var. Bunnar yalvarmağa başdadılar.

– A qardaş, vallah, biz düzgün adamlarıx, düşmannıyıx, ona görə dağlara çəkilmişik. Bizim siznən nə işimiz var?

– Ayə, sizə demirəm tökülün atdan, silahları yəhərin qaşına keçirdin!

Onnar atdan düşüf, silahları, qatarrarı yəhərin qaşına keçirtdilər.

Aşıx Alı dedi:

– Əllərinizi yuxarı qaldırın, and için!

Dedilər:

– Nəyə and içək?

– And için Ağrı dağına, peyğəmbərin bulağına, Nuhun gəmisinə. And için ki, bizim siznən heş bir işimiz olmuyajax.

Birinin civində bıçağı varıydı. Əlini salıf onu da civinnən çıxardıf yerə atdı.

Öz-özünə dedi:

– Qansız adama oxşuyur. Birdən üstümü yoxluyuf tapar. Məni vuruf öldürər.

Aşıx Alı dedi:

– Di gəlin addayın.

Bunnar əlləri yuxarıda gəlif addıyırdılar. Biri gözünün qulağınnan baxanda gördü kü, aya, silah-zad nədi. Bunun əlindəki sazıymış. Bir göz qırpımında aldılar aşıx Alının başının üstünü.

– Aşıx, and içmişik ki, səni öldürməyəjəyik. Ağrı dağında nə nişangah varsa, hamısını deyəjəksən. Yoxsa, sənin qaşoyluğunu bu qamçıya verəjəm.

Aşıx Alı dedi:

– İcazə verin deyim.

Aldı görək aşıx Alı nə dedi:

Alçaxdan ucuya çəkilif başın,
Dağların sərdarı nər, Ağrı dağı.
Payızın, baharın olar zimistan,
Sənnən əysik olmaz qar, Ağrı dağı.

Dedi:

– Aşıx, Ağrı dağının nə nişanəsi var biz bilirik. Düz deməsən, sənınkini sana verəjəyik.

Xan atdanar, xan yerinə xan düşər,
Leşgər vurar, mahallara qan düşər.
Hər dağdan irəli sana gün düşər,
Hər zaman açılsa dan, Ağrı dağı.

Qaçaxlar bir ağızdan dilləndilər:

– Aşıx Alı, sağ ol. O biri nişannarı da düz desən, nəmərin bizdə.

Alı alıf sözün o biri xanələrində görək nə dedi:

Səkkiz rizvandı, cənnəti bağı,
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Çox nişana səndə var, Ağrı dağı.

Aşıx Alı insanata sirridi,
Tozun qalxıf İrəvanı bürüdü,
Axşam üstü bir tərəfin yeridi,
Batırdın Axuranı pir Ağrı dağı.

Söz qaçaxların çox xoşuna gəldi. Yeddi nəfəriydilər. hərəsi bir onnux qızıl da bunnar verdi.

Aşıx Alıynan qalyan-qorçu Əsəd xeyli gedənnən sonra sağ-salamat gəlif Şərur torpaxlarına çatdılar. Alıynan qalyan-qorçu Əsədin ayrılmax məqamı yetişdi. Görüşüf, öpüşüf, halallaşannan sonra Aşıx Alı çıxardıf Əsədin pullarını verdi. Hələ otuz manat da üstünə qoydu. Baxdı Əsəd ayağınnan yer qurdalıyır. Alı dedi:

– Əsəd, noluf, niyə yer eşəliyirsən?

– Aşıx Alı, mana az verdin.

– Niyə danışdığımız yadınnan çıxıfmı?

– Yox, yadımdadı. Amma, mən çox çətinniklər çəkdim sənin yolunda. Sən də ki, yüz aşığın pulunu qazandın.

Aşıx Alı çıxarıf ona otuz manat gənə verdi. Sonra halal-hümət eliyif ayrıldılar. Aşıx Alı gejəni gündüzə qatıf özünü kənddərinə çat-

dırdı. Gejə yarısı qapılarını döydü. Tez dədəsi qapının dalına gəlif soruşdu:

– Səsinə qurvan olum, Alı, sənsənmi?

– Ay dədə, mənəm.

Allah heç kəsi kasıf eləməsin. Bir ağac qırığı yoxuyudu ku, qapının dalına söyküyüf yatalar. Mirzə kişi qapının dalına daş yığmışdı. Daşdarı bir-bir götürüf qırağa qoyur. Qoyduxca danışırdı:

– Alı, mən bir şey düzəldəmmədim. Ölmüş anan da bir şey düzəldəmmədi.

Aşıx Alı dedi:

– Ay dədə, qorxma, yaxşı gəlmişəm.

Mirzə kişi qapıyı açdı. Aşıx Alıyı bağrına basdı. Mirzə kişi dedi:

– Öyü xaravın qızı, Alı gəldi.

Anası yetirif oğlunu ayaxdan başa duz kimi yaladı.

– Anan ölsün. Anan öləydi, səni görmüyəydi. Bəsdi xanımı ayrı adama veriflər. Bu saat toy çalınır.

Mirzə kişi hirsdi adamıydı, amma adam döyməknən işi yoxuydu. Arvadın üstünə qıjğırılıf dedi:

– A gijvəsər qızı, gijvəsər. Cahaldı, ona niyə elə xəvər verdin?!

Savah açılhaaçılıydı. Anası tez çay qaynadıf onun qavağına qoyuf, dedi:

– Anan ölsün, bir istəkan çay iç.

Aşıx Alı bir istəkan çay içənnən sonra baxıf gördü kü, dədəsi böyründə hərrənir. Alı dədəsinin üzünə baxanda İmirzə kişi soruşdu:

– Alı, a bala, nətəri gəldin?

– Ay dədə, yaxşı gəlmişəm. Üç kisə qızıl gətirişəm.

Dan yeri ağardı.

Cammat mal qoyunu naxıra qatan vaxtı İmirzə kişiyə dedi:

– Ay dədə, mən Çamırrıya Bəsti xanımın toyuna getmək istiyirəm, nə deyirsən?

– A bala, o toyda on yeddi cahal əli tüfəngli dayanıf, deyillər toya kim duz qatsa, onu vurajaxlar.

– Yox, dədə, ölsəm də gedəjəm.

Aşıx Alı sazını götürüf Çamırrıya, toy evinə yollandı. Camaata şüd düşdü kü, aşıx Alı gəldi. Hamı elə bilirdi ki, aşıx Alı ölüf. Ona görə də Bəsti xanımı başqasına verillər. Aşıx Alı məclisə girəndə

hamı məəttəl qaldı.

– Aşıx Alı, sazını çıxart, bir oxu.

Aşıx Alı sazı çıxartmaxda olsun, sizə kimnən xəvər verim, İmirzə kişidən.

İmirzə kişi arvadına dedi:

– Arvad, o farmaşın qoynundakı xəncəli çıxart mana gəti.

– A kişi, neynirsən onu?

– Gədənin dalıncax gedirəm, tez ol!

– Ayə, sən bu xəncəlnən nağayrajaxsan?

– Əşşi, sənin işin döyül. Yüz gün yarax, bir gün gərək.

İmirzə kişi harda ətmi doğramışdı, köşəmi çəkmişdi, ya gönmü sıyırmışdı, bilmirəm elə qannı-qannı xəncəli qınına qoymuşdu. Xəncəlin yarıya qədər qındaydı, yarıya qədəri də çöldə. Nə qınına otururdu, nə də çıxırdı. Mirzə kişi bunu kürkün altınnan belinə bağlayıb getdi həmin toy məclisinə. Gördü kü, on yeddi cahal əlində tüfəng dayanıf. Mirzə də bir tərəfdə dayandı. Əli də kürkün altındakı xançalın dəstində. Camahat dedi:

– Aşıx Alı, oxu.

Aldı görək aşıx Alı nə dedi:

Günahkaram, yar yanında,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bəsti xanım aşıx Alının səsini eşitdi. Üzünnən ürbəndini azajıx araladı. Gördü kü, aşıx Alı qəmli-qəmli oxuyur. Aşıx Alı da baxdı kı, Bəsti xanım ağlıyır. Öz-özünə dedi:

– Ayə, bu bizim kənddi filankəs kimi gözündən mayıf olajax:

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə.
Keçən sözü çəkmə üzə,
Keçən keşdi, olan oldu.

Bəsti xanım baxıf gördü kü, söznən onu başa salır kı, gedifsən get, günahkar mənəm.

Bəsti bu töhmətə dözmədi, oğlanın bajısını yanına çağırıf dedi:
– Ala, qardaşının üzüyünü.
– Aaz, toya qan salarsan, aaz nə danışırsan?
– Cəhənnəmə qan düşsün. Mən elə bilirdim ki, aşıx Alı ölüf. İndi ki, aşıx Alı sağdı, getmiyəjəm.

Bir azdan xəvər yayıldı kı, deməzsənmi Bəsti xanım aşıx Alı gəlif deyən üzüyü geri qaytarıf, toyu pozmax istiyir.

Aşıx Alı isə oxuyurdu:

Aşıx Alı, sana qurvan,
Gəl eyləmə bağrımı qan.
İtkin düşdü tülək-tərlan,
Sar da, kəklik alan oldu.

İmirzə kişi baxıf gördü kü, oğlanın atası adamlarına deyir ki, aşıx Alıyı da vurun, dədəsini də. Yazıx Mirzə kişi aşıx Alının arxasınnan hərrənirdi ki, qoy atılan güllə qavaxca mana dəysin. Kürk qalındı bəlkə saxlıya. Bala dediyin bağır ətidi. Allah heş kimi tək eləməsin. Bir azdan ara qarışdı, məssəf itdi. Camahat iki tiriyə bölündü: kimi aşıx Alıya hax qazandırdı, kimi də toy yiyəsinə.

Aşıx Alı baxıf gördü kü, bunnarın sözünü az adam deyir. Amma camahatın bə'zisi annadı ki, İmirzə kişidə silah var. Nədisə kürkün altındadı. Əlini atıf çıxartmax istiyir. Dodaxaltı da, deyir ki, çoxdan çox ölərək, azdan az. Bu yerdə görək aldı Aşıx Alı nə dedi:

Beyvəfa dost məni cannan elədi,
Tutufdu dəstində ayaq almasın.
Girdim dostun baxçasını seyr etdim,
Görmədim bağında ayaq almasın.

Camahatın hamısı aşıx Alıya baxıf hayfısdandı. Ayə, Allah eliyəydi toya qan düşmüyəydi.

Katıvısan oxu dərsin hər aya,
Bayram ayı demək olmaz hər aya.
Şahlar şahı özün yetiş haraya,
Düşman bu günümdə ayaq almasın.

İmirzə kişi elə fikirrəşdi ki, aşıx Alı təkdi deyən özünə kömək istiyir. Əli xancalın dəstəsində köyrəldi. Dedi:
– Ayə, a bala, sənin üstünə əyax alan kimdi?
Aldı görək aşıx Alı nə dedi:

Deyər aşıx Alı yara bağlıya,
Kamil təbib gərək yara bağlıya.
Yar ixlasın özgə yara bağlıya,
Həftə tamam oluf, aya qalmasın.

Niftalı irəli yeriyif dedi:
– A camahat, mənnən küsmüyün. Mən qızımı Xudaverdinin oğluna vermirəm.
Camahat dedi:
– Niyə, a Niftalı?
– Ona görə ki, Aşıx Alı haqq aşığıdı. Mənim qızıma qarğadı. Gözümün ağı-qarası bir uşağım var. Niyə getsin bədbaxt olsun.
Camahatın yarısı ayağa qalxdı.
– A Niftalı, onda qızı Aşıx Alıya verək.
Bir neçə ağsaqqal yerinnən qalxıf dedi:
– Düz deyir, qavaxdan Niftalı qızın "hə"sini Aşıx Alıya verif, qız ona deyiklidi.
Aldı görək aşıx Alı indi nə oxudu:

Uçufdu könlümün qəlbi hasarı,
Bir sütun vurdunuz damı dayansın.
Hər kim dostdan dosta yaman qandırsa,
Qıyamat oduna damı da yansın.

Camahat baxıf gördü, kim ki, aşıx Alının sözünü demir, haqq aşığı onu qarğıyır. Dedilər:
– Xudaverdidən ötrü damımızı niyə başımıza uçurdurux? Niyə qarğış yiyəsi olurux?
Alı isə oxuyurdu:

Dedim: əğyar özü nədi, sözü nə?
Baxgınan qaşına, ala gözünə,

Axirətdə bir öy tiksə özünə,
Uçmasın başına, damı dayansın.

Camaat baxıf gördü kü, Aşıx Alı açıx-aşkar deyir:
– Kim ki, mərdimazardı, qoy onun evi başına uşsun.

Deyər aşıx Alı acar ovluya,
Zambur şirə çəkə acar ovluya.
Hər kim dostun qoyuf acar ovluya,
Od vur qapısına damı da yansın.

Söz tamama yetən kimi Çamırrının ağsaqqalı ayağa qalxıf dedi:
– Ay camahat, heş kim səs-küy salmasın. Ay İmirzə, irəli gəl Xudaverdi nə verifsə, o başdığı sən ver Niftalıya.

Aşıx Alı sazını götürüf evlərinə qayıtdı.

İmirzə irəli yeriyif dedi:
– A Xudaverdi, nə verifsən?

Dedi:
– Yüz manat qızıl pul. Bir həftə də bu camahatın yeyif-içdiyinin hamısını.

İmirzə onun nə təmənnası vardı, hamısını ödədi. İrəli yeriyif Niftalının əlinnən tutdu.
– A Niftalı, "hə" alanda pulum olmadı. Bu iki onnux sənin "hə" demən. Üç yüz manat qızıl pul başdıx istəmişdin. Ala bu da sənin başdığın.

Xudaverdiyə dedi:
– Di zurnaçılarını götür get.

Camahat dedi:
– Ayə, zurnaçı neyliyir sana. Qoy çalsınnar.

İmirzə dedi:
– Yox, mana ürəkdən çalan zurnaçı lazımdı. Çaxırrıdan Balay Söyünü gətirəjəm.

Camaat razılaşıf Bəsti xanımı Alıya verdi.

O vaxtdar gəlin atnan gəlirdi. İmirzə kişinin bir atı varıydı. Bir-neçə atı da Mustafa göndərdi ki, gəlinin qavağında at oynatsınnar. Gəlini ata mindirdilər. İmirzə kişi bir əlinnən atın yüyəninnən, o biri əlinnən də üzəngisinnən tutuf, başınnan arvadı yanına çağırdı:

– A ölü qızı, ölü, gəlif gəlinin qavağında oynasana!

Gəlin qapıya çatdı. Camahat axışıf gəldi. Elə gözəl bir toy keçirdilər ki, daa nə deyim? Xudavəndi aləm hamıya oğul toyu, qız toyu qismət eləsin.

Aşıxlar toyun sonunda bəy tə'rifi söylüyər, sonra da bir duvaq-qapmaynan məclisi başa çatdırallar. Biz də bu söhbətimizi beləcə başa çatdırax:

Təzə bir gözəl çıxıfdı,
Dağlar maralı, Gülpəri.
Hər kəsə qarşı gəlsə,
Yandırar narı, Gülpəri.
Camalınnan haya edir,
Dağların qarı, Gülpəri,
And verirəm öz baxtına,
Pozma ilqarı Gülpəri.

Gülpəri, nə Gülpəri,
Bənzər cənnət almasına.
Ay, gün görsə haya edir,
Keçər bulud daldasına.
Eşidənnər heyran qalır,
Bu gözəlin sədasına.
Nə ola qədəm basasan,
Bir bizə sarı, Gülpəri.

Hər kim belə gözəl alsa,
Baxtafar onun başına.
Yüz yaşında qoja olsa,
Enər on səkkiz yaşına.
Görənnər heyran qalıfdı,
Onun süzgün baxışına.
Cəllad kimi aman vermir,
Qurudur darı, Gülpəri.

Aşıx Hajı, qurvan eylə.
Canını belə ceyrana.

Çoxlarını dəli edif,
Salıf çöllü-biyavana.
Hər kim belə gözəl alsa,
Zəhmət versin şirin cana,
Səyyat tor qursa tərlana,
Ovlar şikarı, Gülpəri.

HAJI HÜSEYNİN AŞIX ALIYA AT BAĞIŞDAMASI

Ağbulaxlı Hajı Hüseyn Aşıx Alının yaxın dostdarınnan biri oluf. Deyilənnərə görə, Hajı Hüseyn Göyçənin addı-sannı, tanınmış, yoxsul dərdi çəkən səxavətdi adamlarınnan biriymiş. Aşıx Alı həmişə qonşu kənddərə, Qaraqoyunnu dərəsinə, eləcə də Qazağa, Tovuza, Borçalıya gedəndə Hajı Hüseynin evində düşər, dostuna qonax olardı. Eşidif bilən kimi qonum-qonşu aşığın başına toflaşar, Hajının evi toy evinə dönərmiş.

Günnərin bir günü Aşıx Alı dostu Qiyas ağadan bir məktuf alır. Oxuyanda görür kü, dostu onu Qazağa oğlunun toyunu keçirməyə çağırır. Daha durmağın yeri döyüldü. Aşıx Alı hazırraşıf şəyirdi Mehtiynən birrikdə yola düşür. Basarkeçərdə Mehdiyə deyir ki, bala, atımın ayağı nalsızdı, gətir nalladax, Sonra gedək. Atı nalvəndə çəkif nalladıllar. Nalladannan sonra atdarın ağzını çevirillər Qazağa tərəf. Məzrə kəndini keçəndə görüllər ki, at axsıyır. Şişqayada daha at çox çətinniknən ayağının birini yerə basır.

–Ayə, ay Mehti, bu çərrəmiş yoxsa bizi yolda qoyar, atın mayasına mıx dəyif, – deyə Alı dillənir.

Uzun sözün qısası onnar bir təhər gün varkən Ağbulağa çatıllar. Hajı Hüseynnən Aşıx Alı çox mehribannıxnan görüşüllər. Hajı qonaxları otağa də'vət etdikdən sonra eşiyə çıxıf uşaxlara deyir ki, Alıgilin atdarını tövlüyə çəkin. Uşaxlar atı içəri çəkəndə görüllər ki, aşığın atı axsıyır.

Axşam yaxşı qonaxlıx düzəldillər. Kəndin ağsaqqalları, saz-söz həvəskarrarı Alının başına toflaşır. O da gejəyə əməlli-başlı bir körpü atır. Düz gejə yarıya kimi çalıf-oxuyur, şirin söhbətdər eliyir. Savah açılanda Aşıx Alı Qazağa yola düşməli olur. Bu vaxt onun qavağına özgə at çəkillər. Alı bir qədər tərəddüd eliyir.

–Alı, min sür, sənin atının mayasına mıx dəyif, nalını sökdürmək lazımdı, – deyif Hajı Hüseyn irəli yeriyif atın cilovunnan tutur. Aşıxlar yola düşüllər. İki gün sonra Hajı Hüseyn Aşıx Alının atını Qızılvəngə qaytarır. Deyilənnərə görə, Aşıx Alı, Qazaxda çox ləngərri bir toy keçirir. Aşığı on dörd gün Qazaxdan buraxmıllar. Yarım aydan sonra Alı yenə Ağbulağa qayıdır. Dostunun evinə düşür. Dincini

alannan sonra Qızılvəngə gedəcəyini bildirir.

Hajı Hüseyn deyir ki, Alı, sənin atını ilxıya buraxmışam, at atdı nə fərqi var, elə bu atı min get. Alı dostunun bir sözünü iki eləməzdi. Bilirdi ki, Hajı belə şeylərdən inciyən adamdı. Odu ku, Aşıx Alı görüşüf yola düşməli olur.

Aşıx gəlif Qızılvəngə çatanda görür kü, öz atı həyətdə hörüklənif. Aşıx Alı elə belə adam deyildi. Hər şeyi o saat başa düşür. Bilir ki, Hajı Hüseyn atı ona bağışdıyıf.

Axşam qohum-qonşu toflaşıf Alıdan Qazaxda görüf-bildiyinnən danışmağı xahiş eliyillər. Alı Qiyas bəyin dostduğunnan, Qazax camaatınnan, keçirdiyi toyun böyüklüyünnən ürəkdolusu danışır. Sonra da qayıdır kı, Ağbulaxlı Hajı Hüseyn bir görün başıma nə oyun açıf... –Onu da bilmişik, – deyə kimsə yerdən dillənir. Canın sağ olsun, bir gün olar sən də onun yaxşılığınnan çıxarsan.

Aşıx Alı qayıdır kı, siz mənim dostumu hələ yaxşı tanımırsınız. O, heş nədən yaxşılıx güdən adam döyül. Bir dəfə Hajı evində xəstə yatırmış. Arvad-uşax xəvər gətirir ki, kovxa camaatı kəndin ortasındakı meydana tofluyuf, vergi üstündə incidir. Hajı uşağa deyir ki, tez Hajı Kazımı tapıf yanıma gətir. Hajı Kazım onun böyük oğluydu. Hajı Kazımı çağırıllar. Hajı tərs-tərs onun üzünə baxır.

–Ay dədə, nə oluf? – deyə – Hajı Kazım soruşur.

–Nə olajax, a bala, sən eşidmiyifsən ki, koxa camaatının başına nə oyun açır?! Bu saat gedif o koxaya deyərsən ki, mənim camaatımı pula görə çox nahax incidir. Gəlsin pulunu verim.

Hajı Kazım tez evdən çıxıf özünü verir koxanın yanına. Çatan kimi görür kü, koxa qızmış nərə dönüf camaata daha nə qalır deməmiş. Koxuyu çağırır bir kənara, Hajı Hüseynin dediyini ona çatdırır. Koxa bilir ki, Hajı onu hörmətdən salajax. Başdıyır dil-ağız eləməyə ki, vallah elə ajığım tutmuşdu. Vergiyi yaman yuvadıflar. Hajı Kazım Hajı Hüseynin verdiyi pulla camaatın vergisini bağlıyır. Hajı belə saxəvətdəri çox eliyif. Bir at Hajı üçün o qədər də böyük şey döyül.

Sazımı gətirin görüm mən də Hajıya öz ürək sözümü necə çatdıra bilirəm...

Bu dari dünyada, Göyçə elində,
Hörmətdə, izzətdə birsən, ay Hajı.

Sənə qismət verif xaliqi sübhan,
Həqiqət yolunda şirsən, ay Hajı.

Başı yığıncaxlı, cövrü-cəfalı,
Qohuma-qonşuya, dosta vəfalı.
Qonaxlı-qaralı, hatəm səxalı,
Süfrələr açmaxda birsən, ay Hajı.

Tanıyır el-ova düz insan səni,
Tutammaz şöhrətdə nə bəy, xan səni,
Azmı eyləmişəm imtahan səni?
Ərrər meydanında ərsən, ay Hajı.

Süfrəsi, dövləti, halal əməyi,
Yüzdüklər xərşdiyər əsməz ürəyi.
Yetimlər köynəyi, yoxsul çörəyi
Əvvəldən bir açıx dərsən, ay Hajı.

Yanında xəcalət bu Aşıx Alı,
Bağışda sən allah bu qeylü-qalı.
Seyiddən, molladan elə daldalı,
Vallah ziyarətsən, pirsən, ay Hajı.

AŞIX MUSAYNAN MƏLƏKNİSƏ XANIM

USTADNAMƏ

Bədəsildən, pis nəsildən törəyən,
Qürur edər, heç məkana sığışmaz.
Zatı xəbis özün verər biruzə,
Həddən çıxar, yol – ərkanə sığışmaz.

Saxta sikkə satan şeylər bazarı,
Öz əliylə özü qazar məzarı,
Tülkü tək xəlvətə düşsə güzarı,
Bəyəm deyif, biyabana sığışmaz.

Kamaldan boş, kasadan da boş olar,
Pis əməli özü üçün xoş olar.
Himarın sülfüilən draz guş olar,
Qışqıranda bil pünhana sığışmaz.

Olmaz nə ədəbi, nə annağı,
Məclisə yaraşmaz burun, qulağı,
Mey içməyə qabul deyil dodağı,
Eşşək başı zər fincana sığışmaz.

Dostun arasında yaman qandırır,
Yalanan and içir, həm inandırır.
İvnənin hiyləsi mahal yandırır,
Üfunəti bu cahana sığışmaz.

Beyvəfada doğru, düz ilqar olmaz,
Müxənnətdə namus, qeyrət, ar olmaz,
Namərddə, nakəsdə e'tibar olmaz
Mərdin adı hər nadana sığışmaz.

Bir Aqil ölməklə şair azalmaz,
Bir gül açılmaqla bahar yaz olmaz.

Qurbağa quş olmaz, toyux qaz olmaz,
Ala qarğa gülüstana sığışmaz.

Ustaddar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun.

Yaxşı oğul yaxşı adın ucaldar,
Mərfətsiz, bihünər pür kamal olmaz.
Sərf edən ömrünü doğru yollara,
Doğru yol gedənə gec zaval olmaz.

Dərs alıf oxusan elmin taparsan,
Şirin dillə sınıx könül yaparsan,
Əgər işin kökdən düzgün aparsan,
Düzlük olan yerdə qeylü-qal olmaz.

Pis dəmirdən yaxşı silah yaranmaz,
Nakəs, nadan pis əməldən utanmaz.
İşarət etməklə mətləbi qanmaz,
Nəsihət eşitməz, əhli-hal olmaz.

Yaxşı ad qazanan dünyada ölməz,
Şad olmaz, zalimin sonrası gülməz.
Halal maya halal əldən üzülməz,
Özgələr malınnan sənə mal olmaz.

Aqil nəsihətin söylə müxtəsər,
Qanana şərbətdi, qanmaza zəhər.
Hər ağacda meyvə, bitkidə şəkər,
Hər çiçəkdə zəmbur üçün bal olmaz.

Ustaddar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun.

Könül, hər yetənə eşqin yetirmə,
Bivəfadan sənə yar ola bilməz.

Əyrilər düz ilən zidd olur müdam,
Bir kasada odnan qar ola bilməz.

Ariflər axtarar tapar tayını,
Özünə dost tutma qəlbi xayını.
İtirər duz-çörək haqqı-sayını,
Bədəsildə namus, ar ola bilməz.

Ustaddan dərs alan heç olmaz naşı,
Dosta gəj baxanın ucalmaz başı.
Sərraf yüz bəzəsə qiymətsiz daşı,
Tanınar cövhəri zər ola bilməz.

Ərəb at artsa da əslin itirməz,
Hər çiçəyin ətri gülə yetirməz.
Ulğun kökü hərgiz meyvə gətirməz,
Söyüdün şaxında bar ola bilməz.

Aqil keşt eylədi, gəzdi hər yanı,
Təcrübədə seşdi yaxşı, yamanı.
Namərdin süfrəsi, nakəsin nanı,
Hər zaman səxadə var ola bilməz.

Mənim əzizdərim, sizə kimnən danışım, kimnən xəvər verim: naxçıvannı Miriş Sövdəgərdən. Miriş Naxçıvanda öz hörmət-izzətinnən tanınmış beş kişidən biriydi. Günnərin bir günü iki nəfər yaxın adamını çağırıf dedi:

–Eşitmişəm Göyçənin Ağkilsə kəndində Aşıx Musa adında yaxşı bir aşıx var. Toyumuz lap bir ay da gejiksə, gərək onu tapıf gətirəsiniz. Özünüz bilirsiniz ki, mənim dünyada Reyhannan başqa heç bir övladım yoxdu. Əhd eləmişəm ki, onun toyunu göyçəli Aşıx Musa keçirsin.

Miriş kişinin tafşırığınnan həmin adamlar Göyçüyə yola düşüllər. Onnar getməkdə olsunnar, indi görək Miriş kişi gözünün ağı-qarası bircə balasını kimə verir.

Miriş kişi var-dövləti başınnan aşıf-daşan bir sövdəgəriydi. Bir gün o Arazqırağı kənddərdə mal satıf, mətah alırdı. Gördü cır-cındır

geyinmiş bir uşax divarın divində yatıf. Miriş sövdəgərin uşağa yazığı gəldi. Yaxınnaşıf onu oyatdı. Gördü bu on üç-on dörd yaşdarında bir oğlan uşağıdı. Soruşdu:

– Oğlan, kimsən, nəkarəsən, niyə burada yatıfsan?

Oğlan cavaf verdi ki, əmi, heç kimim yoxdu, yetiməm. Sövdəgər xəvər aldı kı, oğlum, atan, anan ölüf? Uşax dedi:

– Əmi, mən atalı-analı yetimlərdənəm. Özüm də buralı deyiləm. Türkiyədənəm. Atamı tutuf sürgünə göndərdilər. Atam gedənnən sonra qardaşdarım, bajılarım, bir də mən analıx yanında qaldıq. Ögey ana bizə gün vermədi. Mən də bu zülüm-zillətdən təngə gəlif bir gün Araz çayını üzüf bu tərəfə keşdim. İki ilə yaxındı kı, bu kənddərdə dilənif birtəhərnən başımı saxlıyıram. Bir tikə çörək tafsam yeyirəm, tafmasam da allah umuduna dolanıram.

Miriş sövdəgərin uşağa yazığı gəldi. Onu bilirik ki, Miriş sövdəgərin bir qızdan başqa heş bir övladı yoxuydu. Miriş sövdəgər fikir-rəşif belə qərara gəldi ki, elə yaxşı oldu, bu uşağın burada heş kimi yoxdu ku, sonra ona sahib çıxa. Apararam, mal-qarama, ev-eşiyimə göz-qulax olar. Bir də axı mən aynan-ilnən evdə olmuram. Böyüyər ailəmə qulax hayanı olar. Nə qədər olmasa, kişi tayfasıdı. O, bu minvalla uşağı evinə gətirdi. Ona bir dəst yaxşı paltar tikdirdi. Arvadına da tafşırdı kı, uşağa yaxşı baxsın. Bu günnən uşax sövdəgərin evində şad-xürrəm ömür sürməyə başdadı. Onun qanacağı, mə'rifəti, boy-buxunu, qəddi-qaməti dillərdə dastan oldu. Tezdiknən o, tay-tuşdarı arasında sayılıf-seçilən igiddərdən birinə çevrildi.

Aradan beş il keşdi. Mürşüd addı bu oğlanı hər yerdə barmaxnan göstərməyə başdadılar. Sövdəgər də arvadı da ona öz doğma balası kimi baxırdılar.

Günnərin birində Miriş kişi arvadını yanına çağırıf dedi:

– Arvad, özün bilirsən ki, bizim bircə qızımız var. Gəl onu verək Mürşüdə. Qoy ev qızı, ev gəlini olsun. Bizdən sonra da var-yoxumuza sahib olsunnar. Ər-arvad Reyhannan Mürşüdün də razılığını öyrənif toya hazırraşmağa başdadılar. Bu arada Mürşüd sövdəgərdən xahiş elədi ki, əmi, bəlkə atam sürgünnən qayıdıf. Həm də mənim orada qardaşdarım, bajılarım, əmim, dayım, qohumlarım var. İcazə versən, adam göndərərik onnarı da toya çağırar.

Miriş kişi bu fikrə can-başnan razı oldu. O, Türkiyəyə adam göndərdi. Bütün qohumları muştuluxluyuf toya də'vət elədilər.

Mürşüdün atası da qayıtmışdı. Bu xəvərdən o da çox sevindi. Onnar da o tərəfdən toya gəlməyə hazırraşdılar. Bu tərəfdən də Miriş sövdəgər Aşıx Musanın dalınca adam göndərmişdi. Həmin adamlar gəlif gördülər ki, Aşıx Musa evdə yoxdu. O, Kəlbəcərə toya getmişdi. Üç günnən sonra Aşıx Musa öyə qayıtdı. Qonaxlarnan hal-əhval tutuf onnarın gəlişinin səvəvini öyrəndi. Bir-iki gün dincələnnən sonra onnar Naxçıvana yola düşdülər. Toy başdandı. Həm Mürşüdün qohum-əqrəbasının tapılması, həm də onun toyu camahatı yaman sevindirmişdi. Odu ku, Miriş kişi elə bir şadyanalıx elədi ki, hələ Naxçıvan camaatı belə toy görməmişdi. Yeddi gün, yeddi gejə yeyif-içif şənnəndilər. Axır ki, toy qurtardı. Aşıx Musa Göyçəyə yola düşmək istədi. Ancaq Türkiyədən gələnnər razı olmadılar. Mürşüdün atası Musaya çox xahiş, minnət elədi ki, gərək Mürşüdün əmisi oğlu Mərdanın da toyunu sən eliyəsən. Amma aşıx Musa getmək istəmədi. Bildirdi ki, xeyli vaxtdı toylarda olmuşam, öydən-eşikdən nigaranam. Eldən-ovadan xəvər-ətərim yoxdu, gedim evdə bir az dincəlim.

Aşıx Musa nə qədər çək-çevir elədisə, Türkiyədən gələnnər əl çəkmədilər. Onnar çox yalvar-yaxardan sonra axır ki, aşığı Türkiyəyə getməyə razı saldılar. Beləliknən, Aşıx Musa da onnarnan birrikdə Türkiyəyə yola düşdü. Mürşüdün atası Aşıx Musanı saraya bənzər gözəl bir öyə də'vət elədi. Həmin evin qavax tərəfində də eynilə buna bənzər gözəl bir öy tikilmişdi. Bu da Mərdanın nişannısıgilin eviydi. Elə ki, qız eşidif bildi ki, onnarın toyuna aşıx gəlif, onnara baxmax üçün küləfirəngiyə çıxdı. Bu zaman balabançı Novruz Musaya işarə elədi ki, dön bir belə bax. Musa dönüf qıza baxanda elə bildi, doğrudan da, günəş bu tərəfdən çıxıf. Gözəl, nə gözəl! Elə bil ərşdəki qılmandı. Qaşdar kaman, kipriklər ox oluf adamın ürəyinə sancılır. Yaxası cənnət bağının qapısı kimi açıx, qolları durna qanadı, sifəti bədirrənmiş ay... Aşıx gərək buna tə'rif desin, rəssam gərək bu gözəlliyi kətana köçürsün. Tanrı gör nələr yaradırmış, ilahi! Aşığın o tərəfə çox baxdığın görən oğlannardan biri onu başa saldı kı, o qız indi toyu olan Mərdanın nişannısıdı. Musa bir yanında oturan Mərdana, bir də küləfirəngidən mə'lum-mə'lum baxan qızın pərişan halına baxıf aldı görək nə dedi:

Səhər-səhər zəhmət vermə özünə,
Ala gözdü, qələm qaşdı köynəkcək.
Əsər badi səba dəyər üzünə,
Yarın qalar gözü yaşdı köynəkcək.

Yanaxlar al, əllər şümşad, boy uca,
Ağ çit tuman gəbəsində alaca,
Sinən bəyaz, məmələrin xırdaca,
Sənə baxdım, ağlım çaşdı köynəkcək.

Musa deyər, yoxsa cannan bezarsan?
Qıya baxıf şirin canım üzərsən.
Vaxtı gələr bağ içində gəzərsən.
Bahar deyil, hələ qışdı köynəkcək.

Musa oxuyuf qurtarannan sonra qız öz razılığını bildirif onnarı öyə də'vət elədi. Qızın işarəynən onnarı öyə də'vət elədiyini görən aşıx iki barmağını yuxarı qaldırdı. Bunnan sonra qız əlinin birini yuxarı qaldırdı. Bunnarı görən cavannar bərk şübhələndilər. Onnar soruşdular kı, aşıx, sən o qıznan niyə him-cimnən danışırsan? Aşıx Musa cavaf verdi ki, o bizi öz öylərinə də'vət eliyif. Mən də iki barmağımı tutdum ki, balabançıynan mən gəlim, yoxsa hamımız? O da beş barmağını göstərdi ki, beşiniz də gəlin. Daha niyə şübhələnirsiniz? Durun hamımız birlikdə gedək. Onnar hamısı qızın də'vət etdiyi otağa getdilər. Qız aşıxların halını xəvər alıf yornux maral kimi kənardan onnara tamaşa eləməyə başdadı. Musa gördü kü, qız çox bikefdi. Düşündü: yə'qin ki, qızın oğlana meyli yoxdu. Onsuz da Musa çox yerdə fələyin belə gəj işdərini görmüşdü. Ona görə ürəyi tav gətirməyif görək qıza nə dedi:

Xudam səni nə xoş gündə yaradıf,
Salıfdı cahana ay gülə-gülə.
Gözəllikdə heş kim sana tay olmaz
Alıfsan qüdrətdən pay, gülə-gülə.

Çətindi ki, müşkül işdər düzələ,
Təviv sənsən gəl yaramı təzələ.

Mən nə deyim qədir bilməz gözələ,
Elədi ömrümü zay, gülə-gülə.

Uca boylu, tuti dilli bəxtəvər,
Sana qurvan malım, mülküm, hər nə var.
Aşıx Musa deyər, gülüzdü dilbər,
Sən gətir biz içək, çay gülə-gülə.

Qız aşığa razılıx eliyif, onnar üçün gözəl pürrəngi çay dəmlədi. Sonra da aşıxnan baravar gələn qonaxlara çay süzüf onnarı da çaya də'vət etdi. Bu zaman həmin qızın nişannısı Mərdan Aşıx Musaya: aşıx, sən gələn yollara qurvan olum, – deyə öz minnətdarrığını bildirdi. O, aşıx Musuyu qujaxlıyıf dedi:

– Beş ildi ki, bir-birimizə nişannıyıx. Bu günə qədər hələ kəlmə alıf, kəlmə verməmişik. Ancax mən bu gün öz nişannımın dəmlədiyi çayı içif, bişirdiyi xörəyi yedim. Bunnan sonra Aşıx Musa düz yeddi gün, yeddi gejə Mərdanın toyunda çalıf-oxudu. Yeddinci gün gördülər ki, axund Qulamnan Molla Vəli buraya gəlir. Toy sahibləri onnarı yuxarı başa keçirif, yaxşı bir yerdə əyləşdirdilər. Ortalığa çay-çörək gəldi. Bu vaxt toybəyi Mərdan xahiş elədi ki, bir yaxşı hava çal, oxu, qoy Axund Qulamnan, Molla Vəlinin kefləri açılsın. Axund Qulam gördü ki, bir cavan aşıx sazı döşünə basıf çalmağa başdadı. Tez qışqırdı:

–Məl'un oğlu, məl'un, bizi günaha batırma. Şeytan sənətinə uyan camaata tuği lə'nət.

Musa onun sözdərinə fikir vermiyif, oxumağını davam elətdirdi. Axund sıçrıyıf sazı Musanın əlinnən almax istədi ki, yerə vuruf qırsın. Musa cəld tərpənif sazı əlinnən buraxmadı. Axundnan molla bir oldu. Musa tək. Onnar xeyli ortalıxda sazı o tərəfə bu tərəfə çəkişdirdilər. Camaat gördü kü, bir az da belə getsə, böyük dava olajax. Tez aralığa girif axundu başa saldılar kı, axund, bura yas yeri deyil, toydu. Toyda da çalıf oxuyallar. Axund Qulam daha da qəzəfləndi. Genə də Musanın üstünə qışqırdı ki, fizun oğlu fizun, aşıxsan nəsən, tez mağaradan çıx. Musa gördü yox, axundnan molla əl çəkmir, dedi:

–Axund, eşit bir-iki kəlmə söz deyəjəm. Kim payını götürsə, mağaradan o çıxajax.

Aldı Musa:

Məclisləri abad eylər,
Nə günahı telli sazın?
Mə'lul könüllər şad eylər,
Nə günahı telli sazın?

Töycüsün qatmır qələmə,
Zülüm eləmir ələmə,
Pulunu vermir sələmə,
Nə günahı telli sazın?

Yeki şöcər, yeki dəmir.
Ara vurmur, yalan demir,
Qazı kimi rüşvət yemir
Nə günahı telli sazın?

Yalan demir, yoldan azmır,
İblis kimi ara pozmur,
Molla kimi cadu yazmır,
Nə günahı telli sazın?

Musa vəsfin söylər saza,
Eşidən gələr avaza,
Axund deyil əhdin poza,
Nə günahı telli sazın?

Axund Qulam çıxmax istiyəndə Molla Vəli dedi ki, axund, hara çıxırsan? Bu dünənki uşaxdı, ağzınnan süd iyi gəlir, qoy bunun qavağına elə bir daş dığırrayım ki, heş yerinnən tərpədə bilməsin. Axund sevinif molluya işarə elədi ki, amandı bunu birtəhər camaatın içində biavır et, yoxsa el içində hörmətdən düşəjəyik. Hər ağzının sözünü danışa bilmiyən deyəjək ki, Arazın o tərəfinnən gəlmiş bir aşıx Axund Qulamnan Molla Vəliyi bihörmət eliyifdi. Axund Qulamın sözlərinnən qeyzə gələn Molla Vəli bir bağlamaynanə Musanı bağlayajağına əmin oluf alır görək nə deyir:

Aldı Molla Vəli:

Aşıxsansa gir meydana, gəl elə dövran görək,
Qanmırsansa oxu, öyrən, urufatdan qan görək.
Bulunmadı bu dünyada nə bir dərman, nə çara,
Tapılmadı dərdinə bir nəfər loğman gərək.

Aldı Aşıx Musa:

Fələk, sənnən əlləşməyə bir belə meydan gərək,
Tut əlimi fürsət ola xakilə yeksan gərək.
Əyyuba saldın yara atdılar səhralara
Tapılmadı dərddərinə bir sənə dərman gərək.

Aldı Molla Vəli:

O kimiydi həmdəm oldu, daldı qəm dəryasına?
O kimiydi tövhəsini verdilər anasına?
O kimiydi, hardan gəldi, de bir kəsin yasına
Açıla hər mə'nası, qalmıya pünhan gərək.

Aldı Aşıx Musa:

Nuşirəvan gör nə halda girdi qəm dəryasına,
İsgəndərdi vəsiyyətin göndərən anasına.
Yomənhudan Yaquf gəldi təxti Nadir yasına,
Özü durdu namazına ol sirri sübhan gərək.

Aldı Molla Vəli:

Kal ilə əlləşənin gərək özü kal ola,
Bajarmasa danışmıya əlif qəddi dal ola.
Buraxmaram yaxına dərdi qəmin bol ola,
Hamı bizə baş endirif gətirsin iman gərək.

Aldı Aşıx Musa:

Qəzəvimnən qorxmursanmı birdən qovğa-qal ola,
Məhşər günü qıl körpüdə dilin tamam lal ola.
Dözə bilməz qavağımda yüz Urustam Zal ola,
Dərdi-dilim yazmax üçün bir əsr, zaman gərək.

Aldı Molla Vəli:

Molla Vəli, bilirsənmi aşıx səni edər xar,
Onun neçə fırıldağı, min cürə hiyləsi var.
Gəl şeytana qullux etmə, bu sənətdən ol kənar,
Aşıxlara qismət olmaz, öləndə Qur'an gərək.

Aldı Aşıx Musa:

Həm Kərimdi, həm Rəhimdi, həm də min bir adı var,
Şahi-mərdan, şiri Yəzdan qoy özü versin qərar.
Musa deyər cəhənnəmdə yeriniz var mollalar.
Sizdən sorğu-sual alan Sahibi Zaman gərək.

Məclisdəki camaat aşığın biliyinə, bajarığına heyran qaldı. Amma Axund Qulamnan Molla Vəli camaatın içində biavır olduxlarınnan yaman pərtiydilər. Ona görə də məclisi tərk edif aradan çıxdılar. Bir yannan axundnan molluyu bağlaması, bir yannan da camaatın "bərəkəllah oğul, aşıx belə olar" – deməsi Musuyu daha da coşdurdu. O çalıf-oxuduxca hamı valeh olurdu. Musa məclisdə dövranı davam etdirməkdə olsun, sizə kimnən xəvər verim Axund Qulamnan. Axund Qulamın bir qardaşı oğlu varıydı. Adına qoçax Qılman deyərdilər. Qoçax Qılmanın adı bütün Osmannını, Türküstanı, İranı götürmüşdü. Onun adı gələndə bəylərin, xannarın kürkünə birə düşərdi. Qardaşı oğlunun qoçaxlığına güvənən Axund Qulam oradan birbaşa qoçax Qılmanın yanına gəldi. O, əhvalatın birinin üstünə də beşini qoyuf Qılmana danışdı. Toyda bir cavan aşığın onnarı bağlamasını, el içində xar eləməsini Qılmana nağıl elədi. Özü də dönədönə tafşırdı ki, oğul gərək sən onu qanına qəltan eliyəsən. Onun meyidini ata-anasına peşkəş göndərməsəm, bu papax mənə haram olsun. Əmisinin bu sözdəri qoçax Qılmanı lap dəli elədi. Hələ indiyəcən əmisinin qavağınnan dillənən olmamışdı. Bir az asıf-kəsənnən sonra dedi:

–Əmi, lap arxayın ol, savah mən özüm onunnan haqq-hesavı çürüdərəm.

Savah açıldı, üzünüzə xeyirri savahlar açılsın. Qoçax Qılman Xudaverdilərə adam göndərdi ki, halı olun görək həmin aşıx ordadımı? Xəvər gəldi ki, onnar xoruz banınnan qavax Qaraxan mahalına yola düşüflər. Qoçax Qılman əhvalatı dürüst bilənnən sonra on nəfər də

başına yığıf Aşıx Musagilin dalınca yollandı. Qılman öz dəstəsiynən kəsə yolla gəlif Musagilin gəldiyi yolun bəndərgahını kəsdi. Aşıx Musa bir azdan yoldaşlarınnan gəlif çatdı bəndərgaha. Bəndərgahdan keşmək istiyirdilər ki, qoçax Qılmanın dəstəsi onnarın qavağını kəsdi. Hələ onnar gəlməmişdən qoçaq Qılman yoldaşdarına demişdi ki, əgər o aşıx qorxax adam olsa, onun canını buradaja alajam. Yox, əgər mərd adam olsa, bilirsiniz mənim mərd adamnan xoşum gəlir, ona heç nə eliyəsi deyiləm. Elə ki, Qılman aşıx Musanın qavağını kəsdi. Baxıf gördü kü, Aşıx Musa boylu-buxunnu bir oğlandı. Zalım oğlu elə bil xudavəndi aləmin qüdrət qələminnən çıxıf. Atın üstündə qoç Koroğlu kimi oturuf cəsarətnən Qılmana baxır. Bu zaman Qılman Aşıx Musaya hədə-qorxu gəlməyə başdadı ki, qılıncı sal, özün də atdan yerə düş.

–Qardaş, igid adam el aşığına toxunmaz, – deyə Musa cavaf verdi.

Musanın belə mülayim cavaf verdiyini görən Qılman bir az da ucadan qışqırdı:

–Aşıx, atdan düş, özün də qılıncını sal. Əgər dediyimizi eləməsən, onda sana aşıxlığını göstərərik.

Musa gördü ki, bunnar qışqırdıxca balamançı Novruz da, onnarı toya aparan adam da atdan düşüf atdarı qaçaqlara vermək istiyillər. Onsuz da Musanın səvri tükənmişdi. Novruzgili də belə görəndə qanı bərk qaraldı. Odu ki, atın başını hərriyif qoçax Qılmanın qavağında dayandı. Dedi:

–Qardaş, görürəm ki, on nəfərsiniz. Onu bilin ki, yüz nəfər də olsanız mən nə at verən döyüləm, nə də qılınc. Kişisən, gir meydana. Yanımdakı iki nəfər də indidən siz tərəfə keçir. On iki siz olun, bir də mən Allahı çağırıf çəkərəm qılıncı. Ya Allah sizə verər, ya da mana.

Qılman baxıf gördü kü, bu doğrudan da, qanınnan qorxan adama oxşamır. Odu ku, bu dəfə Musanın mərdliyini belə yoxlamax üçün keşdi hərbə-zorbaya:

Qılman:

Çox da havalanıf aşığam demə,
İgidsənsə gör meydanda döş indi.

Yaxşı yerdə gəlif düşdün cəngimə.
İtər ağlın, huşun olar çaş indi.

Aşıx Musa:

Yalqız görüf nə durufsan yoluma,
Görünərəm gözlərinə beş indi.
Qeyzə gəlif, qılınc alsam əlimə,
Cəmdək düşər, dığırranar baş indi.

Qılman:

Qılınc çəkər dərd elərəm gözünü,
Anan, bacın bir də görməz üzünü.
Canın allam, sındıraram sazını,
Ələnməsə gözlərinnən yaş indi.

Aşıx Musa:

İsgəndər tək süvar ollam yəhərə,
Baxarsan igiddə olan hünərə.
Koroğlu tək coşuf çəksəm bir nə'rə,
Lərzə gəlir bu dağ, dərə, daş indi.

Qılman:

Tutaram yolları, bağlaram bəndi,
Ataram boynuna indi kəməndi
Gətir ver əlinlə özün səməndi,
İstəmirsən, di yəhərdən aş indi.

Aşıx Musa:

Aldanma dünyanın şövkət-şanına,
Şir gərək bulansın şirin qanına.
Ər igid lazımdı nər meydanına
İstiyirsən vurax başa-baş indi.

Qoçax Qılman baxdı ki, yox, bu aşığın heç tükü də tərpənmir. Hədə-qorxuya hədə-qorxuynan cavaf verir. Öz-özünə dedi:

– Gəl özünü isnad ver, bəlkə ad-sanınnan çəkinə. Yox, əgər, bu sınaxdan da çıxsa, daha bunnan heş bir işim yoxdu.

Qılman:

Tanımırsan sən adımı, sanımı,
Mərd meydanda əsirgəməm canımı.
Aləmlər alışar tutsam yönümü,
Başın gedər, qalar cəsəd, leş indi.

Aşıx Musa:

Nə'rə çəkif üz çevirsəm meydana
Baxmaram sultana, baxmaram xana,
Dağ-dərə, çöl-çəmən boyanar qana,
Qoymam qala daş üstündə daş indi.

Qılman:

Adım qoçax Qılman qoy deyim tanı,
Gəzmişəm Ərəvi, Farsı, Osmanı.
Mərd igid yolunda qoyaram canı,
Əl tutax, gəl olaq biz qardaş indi.

Aşıx Musa:

Adım Aşıx Musa, Göyçə mahalım,
Dar ayaxda dəyişərmi heç halım.
Baj almışam, baj verməyə, ay zalım,
Danışırsan, gəl danışax xoş indi.

Qılman irəli yeriyif Musa ilə əl tutdu. Onnar əhd-peyman bağlayıf elə buradaca qardaş oldular. O, aşıx Musuyu yoldaşdlarınnan evə gətirif böyük bir ziyafət düzəltdi. Dost-tanış hamısı yeyif-içif savahın gözü açılanacan əyləndilər. Bil-diyimiz kimi Musanı Qaraxan mahalında gözdüyürdülər. Bunu yada salan Musa qoçax Qılmannan yola düşməyə icazə istədi. Yola düşəndə Qılman onnan xahiş elədi ki, qayıdanda bizə dəyməmiş getmiyin, bir də Novruzun xətrinə dəymə. Nə isə bunnar buradan birbaşa toy evinə gəldilər. Toy beş günüydü kü, davam eliyirdi. Aşıx Musa da öz məlahətli səsiynən camaatı heyran qoymuşdu. Bu beş gündə onun adı bütün mahala yayılmış, sorağı gedif Mələknisə xanıma da çatmışdı.

İndi gəlin görək kimiydi bu Mələknisə xanım.

Mələknisə xanım bu torpağın addı-sannı, öz izzət-hörmətinən ta-

nınmış aşıxlarınnan biriydi. Harada aşıx görsə, deyişif onu bağlıyardı. O hər yerdə car çəkdirmişdi ki, onuncu aşığı bağlayannan sonra başını kəsdirif arasınnan keçəjək. Elə ki Mələknisə xanım eşitdi təzə bir aşıx gəlif, Qaraxan mahalında toy yola salır, çox məmnun qaldı. Tez faytonçuya əmr elədi ki, faytonu Qaraxan mahalına sürsün. Axır ki, onlar gəlif toy olan məclisə yetişdilər. Mələknisə xanım gördü kü, bu bir cavan oğlandı. Amma boy-buxununnan, yerişinnən, duruşunnan elə bil Koroğlunun xan Eyvazıdı. Bunu görəndə elə bil ürəyinə neştər soxdular. Amma özünü toxtatdı, "Aşıx, nə cür'ətnən bu torpaxda aşıxlıx eliyirsən?" – dedi. Məyər öz canınnan qorxmursanmı gəlif buralara çıxıfsan? De görüm kimsən, nəçisən? Nə cür'ətnən mənim meydanımda at oynadırsan? Musa cavaf verdi ki, Arazın o tayınnanam. Mələknisə xanım qəzəvlənif dedi:

–Ya bu saat məclisdən çıxmalı, ya da mənnən deyişməlisən. Əyər sən məni bağlasan, mən səninəm. Yox, əyər mən səni bağlasam, onda özünnən küs. Səni özümə qurban kəsif, doqquz aşığın da alnına damğa vuruf özümə qul eliyijəm.

Bu sözdəri deyif sazı şux sinəsinin üstünə aldı. Görək Aşıx Musaya nə dedi və Aşıx Musa Mələknisə xanıma nə cavaf verdi:

Mələknisə xanım:

Əjəm oğlu, çatıf ömrünün sonu,
Saldın öz cismini nara yetişdin.
Aşıx axtarırdım alam canını,
Öz əlinlə özün dara yetişdin.

Aşıx Musa:

Türk balası sənə deyim halımı,
Gəzirdim dərdimə çara, yetişdim.
Tale salıf bu diyardan yolumu,
Mələk misal bir nigara yetişdim.

Mələknisa xanım:

Doqquz aşıx saldırmışam zindana,
Gələn yoxdu –car çəkdirdim, hər yana.
Əjəl çəkif səni mərdi-meydana
Qurvan gəlif sən onlara yetişdin.

Aşıx Musa:

Qəlbimə toxunma yaman kövrəkdi,
Qamətin hürüdü, cismin mələkdi.
Qaşların kamandı, gözün qəşəngdi,
Camalındı mahi para yetişdim.

Mələknisa xanım:

Mələknisə xanım coşmayıf hələ,
Coşanda canına düşər vəlvələ.
Soldurram sifətin bənzəyir külə
Vaxt tamamdı, gəlif tora yetişdin.

Aşıx Musa:

Mən Musayam isnad verim sanımı,
Qovğa salma, gəl qaraltma qanımı
"Hə" de qurtar, qurvan verim canımı,
Hamı desin düz ilqara yetişdim.

Musanın belə deməsi Mələknisə xanımın xoşuna gəlsə də, özünü o yerdə qoymadı: Üz-gözünü turşuduf: - Aşıx başınnan yekə qələt eləmə... Əvvəlcə, bir gör başını qoruya bilərsənmi? Sonra nə qədər istəsən oxuyarsan, - dedi.

Mələknisə xanımın qəzəvlənməsini, asıf-kəsməsini Musada eşidəsi halmı qalmışdı? Onun gözdəri Mələknisə xanımın xətti-xalınnan, fikri ala buluddaydı. Aşığın ixtiyarı əldən verdiyini hiss eliyən Mələknisə xanım aldı görək nə dedi:

Ölümünmü yetif, aşıx,
Göz tikif hara baxırsan?
İndi alaram canını,
Çəkdirrəm dara, baxırsan.

Aşıx Musa:

Qurvanınam Nisə xanım,
Qaşındı qara, baxıram.
Ala gözdər alır canım,
Qoynunda nara baxıram.

Mələknisə xanım:

Yaman çaşıfsan yolunnan,
Niyə qorxmursan ölümnən?
Tənəb saldırram dilinnən,
Vurram yara, baxırsan.

Aşıx Musa:

Bülbül gəzər budax-budax,
Gəl, sinəmə çəkmə sən dağ
Lalə yanax, o gül buxax,
Bənzəyir qara, baxıram.

Elə bil bu sözdər Mələknisə xanımı dəli-divanə elədi. Hələ indiyə kimi heş kəs ona belə sözdər deməyə cür'ət eləməmişdi. Dedi: Yaxşı, indi gör sənin başına nə gətirərəm!

Mələknisə xanım:

Mələknisə aj aslandı,
El-ovası Qaraxandı.
Ay yazıx, əslin hardandı?
Yanarsan nara, baxırsan.

Aşıx Musa:

Aşıx Musayam Göyçəli,
Eşqinnən olmuşam dəli
Sənsən bəxtimin əzəli,
Yetmişəm yara, baxıram.

Elə bu yerdə aşıxları çörəyə də'vət etdilər. Aşıxlar da, qonaxlar da çörək yeməkdə olsun, sizə kimnən deyim qoçax Qılmannan. Qılman eşitdi ki, Mələknisə xanım Qaraxan mahalında cavan bir aşıxnan deyişir. Dedi:

–Uşaxlar, ürəyimə damıf, o deyişən aşıx Musa olajax. Qəriv adamdı. Birdən Mələknisə xanım onu bağlıyar, öldürtdürüf-eliyər. Gedək bir tərəfdə oturax. Qoy, heç Musa da bizi tanımasın. Əyər başına bir iş gəlsə, onda köməklik eliyərik.

Beləliknən, onnar on-on beş nəfər olardılar, gəlif toy paltarında

bir tərəfdə oturdular. Amma Musanın bunnardan xəvəri olmadı. Elə ki, çörəyi yeyif-qurtardılar Mələknisə xanım dedi:

–Aşıx, cavansan, qəriv oğlansan. Yaxşısı budu qalx, bu camaatın içində mənnən üzr istə, mən də səni bu camaata bağışdıyım. Amma səni bir də bu türk torpağında aşıx livasında görmüyüm.

Aşıx Musa dedi:

–Xanım, niyə qəzəvlənirsən, mən buraya savaşmağa gəlməmişəm. Məni bura Allahın yazısı, qədəri gətirif. Qulax as, nəyə gəldiyimi sənə saznan deyim:

Aşıx Musa:

Pərvanə tək düşüf eşqin oduna,
Bir şam kimi yana-yana gəlmişəm.
İzn versən, dolanaram başına,
Doğru əhdə, düz peymana gəlmişəm.

Mələknisə xanımın ciyəri od tutuf alışdı. Dedi:

–Əyə, qırışmal, Osmannıda mənim meydanıma çıxan bir iyid tapılmadı. İndi sən kimsən, haranın ajı-gijisən ki, mana əhddən-peymannan danışırsan?! Sənin arzunu ürəyində, murazını gözündə qoymax mana borc olsun. Aldı görək Mələknisə xanım nə dedi:

Bir de usanıfsan yoxsa canınnan?
Bilirsənmi nə məkana gəlmisən?
Ağlı olan qorxar hax divanınnan,
Ya dəlisən, ya divanə, gəlmisən.

Aşıx Musa:

Rüstəm Zal da ötə bilməz yanımnan,
Çox igiddər gəlif keçif sanımnan.
Öldürsələr qorxum yoxdu qanımnan,
Tərlan şikarıdı, ona gəlmişəm

Mələknisə xanım:

Çəkdirrəm çarmıxa, çəkdirrəm dara,
Vurdurram boynunu açıx-aşkara.

Saldırram zindana, bağlarsan yara,
Boyadaram səni qana, gəlmisən.

Aşıx Musa:

Quraram ərəsət-mənşər divanı,
Onda tanıyarsan Aşıx Musanı.
Lap olsan da Osmannının Sultanı,
Aparmağa bir nişana gəlmişəm.

Mələknisə xanım:

Adım Mələknisə qoy deyim, tanı,
Mənəm bu torpağın ağası, xanı.
Əjəlin yetişif verərsən canı,
Nə cür'ətnən bu meydana gəlmisən.

Mələknisə xanım gördü kü, yox, bu aşıx köklü bir qaya kimi yerinnən qopmur. Əlacı kəsilən Mələknisə xanım öz-özünə dedi: Yaxşısı budu, gəl buna bir qıfılbənd de qoy aça bilməsin. Bəlkə bunun dilini qıfılbənd kəsə.

O, sazı hərriyif yenə Musanın qavağında dayandı. Dedi:

–Aşıx, sənə demədimmi qürvət eldən gəlmisən. Üzr istəmədən də, səni azad eliyirəm. Görürəm camaatın sana yazığı gəlir. Sazını da götür, sakitcə buradan uzaxlaş.

Musa dedi:

–Xanım, əvvəla camaata da qurvan olum, sana da. Onnan keçən yerdə mən kişiyəm. Bilirsənmi, kişilər ölümə də mərdi-mərdanə gedir!

Mələknisə xanım dedi:

–Aşıx, qəriv qanı tökmək istəmirdi. İndi ki, əl çəkmirsən, neyliyək, sana bir qarış torpağı birtəhər taparıx:

Ver görüm cavabım, ay əcəm oğlu,
Neçə ismə, neçə guşə bağlıdı?
Neçəsi zeynəndi, neçəsi teynən,
Yalqızdımı, yoxsa qoşa bağlıdı?

Aşıx Musa:

Eşit bu ərzimi ay Nisə xanım,
Murği-ruhum hilal qaşa bağlıdı.
İyirmi səkkiz hərif, otuz cüz ayə,
Zey zəbərnən, otuz beşə bağlıdı.

Mələknisə xanım:

Anla, sözlərimin var qeyri-qəsdi,
Yetirmi haraya, yetirmi dəsdi?
O hansı kimsədi, o hansı kəsdi
Ömürrük var, bax üç peşə bağlıdı?

Aşıx Musa:

İstiyirsən deyim o min bir addan,
Dəsdinnən tutanı çıxardım oddan,
Oruc tut, namaz qıl, çıxarma yaddan,
Səxavət hamsınnan başa bağlıdı.

Mələknisə xanım:

Mələknisə deyər şiri-nər kimi,
Xırıd et sözdərim dür-gövhər kimi.
Kim çəkif binanı, kim qoyuf himi,
De kimlərdi göstərişə bağlıdı?

Aşıx Musa:

Aşıx Musa eylər dilində əzbər,
Haqq evinin himin qoyuf ərənnər.
Məhəmməd hümməti mənəm deyənnər
Salam dini var, həmişə bağlıdı.

Mələknisə xanım gördü haradan deyir, aşıx Musa oradan kəsir. Bir neçə cavana gizlijə işarə elədi ki, birtəhər meydanı qatıf, bunu aradan çıxarın. Qoçaq Qılman öz dəstəsinən birrikdə bir tərəfdə oturmuşdu. Elə ki, mətləbdən hali oldu, tez yerinnən sıçrıyıf ayağa qalxdı, əlini atıf qılıncını yapıncısının altınnan çıxartdı. Yanındakı bütün yoldaşdarı da əllərində siyirmə qılınc camaatı dövrəyə aldı. Qoçax Qılman: sözümüz sözdü, - dedi. Bir nəfər yerinnən tərpən-

məsin.

Sonra o, Mələknisə xanıma üzünü çevirif dedi:

–Xanım, biz xeyli vaxtdı burdayıx. Sən zənən xeylağı olduğna görə Musa səni irəli buraxıf. Sən də nejə istiyirsən onnan rəftar eliyirsən. İndi bu camaatın gözünün qavağında Musa deyəjək, sənə də cavaf verəjəksən. Kim kimi bağladığı onda mə'lum olar.

Qılman bu sözdəri deyif üzünü Musaya tutdu:

–Aşıx qardaş, indi də sən de, görək nə deyirsən.

Biz də görək Aşıx Musa necə deyir və Mələknisəxanım ona nə cür cavaf verir:

Aşıx Musa:

Sənnən xəbər alım ay Nisə xanım,
Ərş-asiman nəyin üstə dayandı?
De harda quruldu haqqın divanı,
Məkkənin kərpici nəynən boyandı?

Allahın evinə kim getdi qavax,
Nədən qərar tapdı bu axşam, savah.
Dünya nə dondaydı Adəmnən qavax
O kimdi yatmışdı birdən oyandı?

Kim bişdi o Şəhimərdana donu,
Nədən başa gəldi, de görüm onu.
De görüm, nə vaxtdı dünyanın sonu
Musa deyər bu kimlərə bəyandı?

Aşığın bu bağlamasına bir kəlmə də cavaf verə bilməyən Mələknisə xanım sazı gətirif camaatın yanında Musanın qavağına qoydu. – Aşıx, söz demişəm, əməl də eliyirəm, - dedi. Əhd etmişdim, kim məni bağlasa, mən onunam. İndi bu səadət sana qismət oldu. İzn ver atam-anamnan halal-hümmət eliyim gəlim.

Musa da, Qılman da bu fikirnən razılaşdılar. Onnar əllərinə keçənnən bir xurcun pay alıf Mələknisə xanımnan baravar onnara getdilər. Mələknisə xanım hal-qəziyyəni ata-anasına söylədi. Onnar da hər ikisinə xeyir-dua verif yola saldılar. Musa istədi ki, elə buradan Vətənə yola düşsün. Amma Qılman buna razı olmadı. Dedi ki, öz

evimdə toy eləməmiş, sizi buraxan deyiləm. Onnar çar-naçar razılaşıf Qılmangilə getdilər. Qılman toy tədarükündə olsun, görək Musa nə elədi. Musanın balabançısı Novruz öydən ötrü yaman darıxmışdı. Xeyli müddət qürvətdə qalması Novruzu lap dəli eləmişdi. Elə duruf-oturuf Göyçə deyirdi. İşin belə qurtarması, Musagilin Vətənə yola düşmək istəməsi Novruzu sevindirirdi. Musa görəndə ki, Qılman onnarı hələ buraxmax fikrində döyül. Novruza dedi:

–Gəl, sən qavaxnan get, ata-anama əhvalatı xəvər ver, qoy toya tədarük görsünnər. Biz də, Allah qoysa bir həftəyə orada olajıyıx.

Novruz can-başnan buna razı oldu. Novruzu Vətənə yola salan Musanın ürəyi cuşa gəldi, aldı görək öz balabançısına nə dedi:

Dərd tüğyan eliyif çəkə bilmirəm,
Dolanır zəmanə çaş, balabançı!
Bir tərlan ovunnan keçə bilmirəm,
Töksə də gözümnən yaş, balabançı.

Gözünü yollardan üzə bilmirsən,
Yad eldə, qürvətdə gəzə bilmirsən.
Göyçə həsrətinə dözə bilmirsən
Mən olmuşam bağrı daş, balabançı!

Musa yanır bir dildarın ujunnan,
Cannar alan işvəkarın ujunnan,
Eldən ayrı düşdüm yarın ujunnan,
Sən bizim ellərə qaş, balabançı!

Novruz halal-hümmət eləyif yola rəvan oldu. Qılman öz öyündə Musaynan Mələknisə xanıma yaxşı bir toy eləyif bir neçə gün də qonax saxlıyannan sonra onnarı təm-təraxnan yola saldı.

İndi görək Novruz neylədi? Onu Göyçəyə yola salanda Qılman balabançıya gözəl bir madyan bağışdadı. Novruz atı minif gecəni gündüzə qatıf Göyçüyə tərəf yola başdadı. Axır ki, gəlif Vətənə yetişdi. Musanın ata-anası Novruzun tək gəldiyini görüf çox təşvişə düşdü. Onnarın dözmədiyini görən Novruz güj-bəla, and-aman inandırdı kü, Musa bir-neçə günə Vətənə qayıdajax. O, başdarına gələnnəri yerli-yataxlı Səfər kişigilə danışdı. Sonra Musanın ismarıcını da

onnara çatdırdı kı, toy üçün tədarük görsünnər. Onu da deyək ki, Musa Novruznan atasına xeyli pul göndərmişdi. Novruz bu pulları da Səfər kişiyə verdi. Novruzun gətirdiyi xəvərdən Səfər kişi çox sevindi, toy üçün tədarük görməyə başdadı. Onlar tədarük görməydə olsunnar, eşidin Musadan. Musaynan Qılmanın razılaşıf qoyduxları vaxt tamam oldu. Qılman onnarı yola saldı. O, Mələknisə xanıma da gözəl bir at bağışdadı.

Musaynan Mələknisə xanım bir müddət yol gəlif Qılmanın nişan verdiyi yerə çatdılar. Bunnar buradan Arazı o üzə keşməliydilər. Musa istədi ki, çayı əvvəlcə özü keşsin. Keşmək mümkün olsa, qayıdıf Nisə xanımı da keçirsin. Onu da sizə deyim ki, həmin vaxt yazın oğlan çağıydı. Hava tez-tez qaralırdı, göydə ildırım çaxırdı. Hiss olunurdu ku, yuxarı tərəflərə möhkəm leysan yağır. Buna görə də çalışırdılar ki, yağış yağmamış Arazı keçif özdərini bir şenniyə çatdırsınnar. Musa atı suya salıf asta-asta irəliliyirdi. Nisə xanım da onun yolunu gözdüıyürdü. Birdən baxıf gördü kü, Arazın şırıltısı çoxaldı. Su özüynən kol-kos, köklü ağajdar gətirirdi. Çayın belə daşdığını görən Nisə xanım Musuya çatmax üçün atı suya verdi. Bir qədər getməmiş sel güjdənif Nisə xanımı atınnan birrikdə apardı. Musanın bunnan heş xəvəri də olmadı. Çayı o üzə keçif geri dönəndə gördü kü, o tayda nə Mələknisə xanım var, nə də at. Baxdı çay daşıf dünyanı başına götürüf. Araz elə bil qan-qan deyir. Mələknisə xanımı sel apardığını yaqın eliyən Musa elə oradaja özünnən getdi. O, bir müddət beləjə huşunu itirmiş vəziyyətdə qaldı. Özünə gələnnən sonra bir müddət Araz aşağı gəzməyə başdadı. On beş ağaşdıx yol gəldi. Nejə oldusa gözü çaydan bir qədər aralı ata sataşdı. Bu Mələknisə xanımın atıydı. Elə bil Musanın başına bir qazan qaynar su tökdülər. Üzünü çaya tutuf aldı görək nə dedi:

Əsib, coşuf nə dönmüsən ümmana!
Axma Araz, axma, yarım aparma!
Döndərmə qəlvimi, döndərmə qana,
Əldən alıf ixtiyarım aparma!
Axma Araz, axma, yarım aparma!

Qoy sənə çor dəysin ay qara köhlən,
Üfürüf şamımı söndürmüsən sən.

Ağlamazmı məni bu gündə görən,
Əldən alıf qeyrət-arım aparma!
Axma Araz, axma, yarım aparma!

Mən nejə qarğıyım qalasan viran,
İtirmişəm yarı, tapmıram, dayan.
Mənim əllərimi qoynumda qoyan,
Əldən alıf ixtiyarım, aparma!
Axma Araz, axma, yarım aparma!

Tellərində şana, əllərdə həna,
Toyumu yas edif döndərmə qana.
And verirəm ərşə, gürşə, əsmana
Əldən alıf şux nigarım aparma!
Axma Araz, axma, yarım aparma!

Qoyma qala Aşıx Musa darda hey
İşi tənəzzüldə, ahu-zarda hey.
Hanı canan, de can verdi harda, hey
Yoxdu qeyri vəfadarım, aparma!
Axma Araz, axma, yarım aparma!

Araz boyunca Musa Nisə xanımı gözdəməkdə olsun, eşidin Səfər kişidən. Toy üçün hər şey hazırrandı. Ağkilsə kəndində Musanı istiyən qoja-cavan hamı gözünü yola dikmişdi. Bu minvalnan 15-20 gün keşdi, amma Musagil gəlif çıxmadı. Hərə bir yerə yozurdu. Biri deyirdi qıza görə öldürüflər, biri deyirdi pulu çox oluf, ona görə öldürüflər. Kimi də deyirdi ki, Qılman quldurun biridi, yaqın o öldürüf. Səfər kişi də yuxusunda görmüşdü kü, Musa bir qan gölünə düşüf üzür, amma çıxa bilmir. Sübh tezdən yenə Novruzu çağırtdırıf görək Musanın gəlmədiyini onnan nejə xəvər aldı:

A Novruz, deyirdin oğlun gələcək,
Ay həzarat, nejə deyim gəlmədi.
Qohumsuz, qardaşsız qürvət eldə tək,
Kimim, kimsəm, əmim, dayım gəlmədi.

Böyütmüşəm nə zillətnən, zulumnan,
Bəylər, xannar gön çıxarıf belimnən.
Gejə gördüm Araz aldı əlimnən,
Bir fərzəndim, şirim payım gəlmədi.

Vaxt ötdü, Musa yenə gəlif çıxmadı. Səfər kişinin ahu-zarı dağları-daşdarı göyüm-göyüm göynədirdi. Toy paltarı geyif bəzənmiş oğlannar, qızdar gəlinnər livasdarını soyundular. Qara geyif yas saxlamağa başdadılar.

Bunnar gözləməkdə olsunnar, eşidin Musadan. Musa Araz aşağı gəzdiyi vaxt Mələnisə xanımın atını otlayan görmüşdü. İndi öz atı ilə həmin atı da gəzdirirdi. O, dan ağarannan ulduzlar doğana qədər Araz boyunca Mələnisə xanımı gəzirdi. Yenə bir axşam Musa Mələnisə xanımı gəzəndə bir çovana rast gəldi. Çoban gördü kü, qoltuğunda saz gəzdirməyinnən, oturuf-duruşunnan aşağı oxşuyur. Amma üzünnən-gözünnən, üst-başınnan bir zəlillik yağır. Dərddi adama oxşuyur. Dedi:

–Qardaş, aşığa oxşuyursan, amma bir az bu görün-görkəmin adamı çaşbaş salır. Gərək aşığın kefi kök, damağı çax olsun. Amma sən çox fikirri görünürsən.

Aşıx istədi ki, çovannan aralanıf getsin, ancaq çovan əl çəkmədi, yalvarıf-yaxardı, onun dərdini bilmək istədi.

Aşıx Musa naəlac qalıf öz dərdini çovana danışmağa məjbur oldu:

Başına döndüyüm, ay çovan qardaş,
Yaman bəd yazılıf bu yazım mənim.
Çöldə ahulara olmuşam yoldaş,
İtifdi əlimnən şahbazım mənim.

Üzülüf qatardan qalmışam dala,
Gejə ah çəkirəm, gündüzdər nala.
Sidq ilə sığınnam Misgin Abdala,
Qəbul olsun nəzir-niyazım mənini.

Bax Musanın fəryadına, ahına,
Gör nələr yazılıf kəm talahına

Üz tutuf yalvarram xublar şahına,
Qoymasın gözümdə murazım mənim.

Musanın dərdinnən hali olan çovanın ona çox yazığı gəldi. Nə qədər elədisə, çovan onu qoymadı getməyə. Dedi:

–Daha gejdi, gejə düşür, bu gejə mənim yanımda qal. Savah gedərsən. Xülasə, Musa o gejəni də çovanın yanında qaldı. Amma nə çörək yedi, nə də su işdi. Səhər açılan kimi çovannan xudahafizləşif yoluna davam elədi. Musa and içmişdi ki, Nisə xanımın meydini tapmasam, mən də özümü atajam Araza. Bu fikirnən dolanan Musa dincəlmək üçün bir qıraxda oturuf Araza baxırdı. Bir də gördü durna səsi gəlir. Başını qaldıranda gördü ki, durnalar Göyçə tərəfə uçurlar. Elə bil Musanın dərdi təzələndi, ürəyi qövr elədi. O, üzünü durnalara tutuf görək nə dedi:

Durnam, gedər olsan Göyçəyə sarı,
Dərdimi sən bizim ellərə danış
Sel alıf əlimnən apardı yarı,
Sərgəndər düşmüşəm çöllərə, danış.

Gəlifdi başıma bir görün nələr,
Hicranın oxları qəlvimi dələr,
Atamı, anamı görsəniz əgər,
Daha göz tikməsin yollara, danış.

Bəli, durnalar gözdən itdikdən sonra Aşıx Musa yoluna davam elədi. Bir neçə gün də dəli-divanə kimi gəzif dolandı. Artıx cana doymuşdu, əlini hər şeydən üzmüşdü. Öz-özünə deyirdi ki, əgər bu gün də tapa bilməsəm özümü həlak eliyəjəm. Fikirri-fikirri yenə Araz aşağı getməyə başladı. Dərd-qəmnən, ajınnan-suzunnan taqətdən düşmüş üzü üstə yıxıldı. Bir qədərdən sonra yuxuda gördü kü, Mələknisə xanım gəlif onu oyadır. Sevincək sıçrıyıf yerinnən durdu. Baxıf gördü kü, Nisəxanım nə gəzir, bura kimsəsiz bir yerdi. O, yenə çay aşağı getməyə başdadı. Bir xeyli yol gedənnən sonra baxıf gördü kü, bir qədər aralı Arazın qırağına saysız-hesafsız camaat yığılıf. Bunu görəndə Musanın ürəyi köyrəldi. O, üzünü camaata sarı tutuf öz dərdi-dilini onnara belə bəyan elədi:

Qərq olufdu canan qannı dəryada
Leysan yığdı, sel yarımı apardı.
Çatan yoxdu nə imdada, fəryada,
Haray oba, el yarımı apardı.
Araz daşdı, sel yarımı apardı.

Gör nə günə qoydu yazıx Musanı,
Üzülüf cəsədi, qalmayıf canı.
Gedifdi əlimnən qızdarın xanı
Haray oba, el yarımı apardı,
Araz daşdı, sel yarımı apardı.

Musa bu sözləri deyif taqətsiz halda yerə yıxıldı.

İndi görək Mələknisə xanımın başına nə gəldi. Elə ki, sel Mələknisə xanımı apardı o gördü ki, sel özüynən kol-kos, köklü ağaşdar gətirir. Qollu-budaxlı bir ağac ona yaxınnaşanda tez əlini atıf ağacın iri bir budağınnan yapışdı. Sel gah onnarı o tərəfə, gah da bu tərəfə çırpırdı. Amma qız ağaşdan bərk yapışmışdı. Mələknisə xanım ağaşdan möhkəm yapışıf axmağa başladı. Axır ki, sıx bir meşəlikdə həmin bu ağac ilişif qaldı. Mələknisə xanım da ağacın üstündəydi. O, tam taqətdən düşmüşdü. Gah huşunu itirir, gah da özünə gəlirdi. Bir səhər gün hər tərəfə yayılmışdı. Mələknisə xanım o tərəf, bu tərəfə baxırdı ki, bəlkə bir adam görəm, gələ mənə kömək eliyə. Baxıf gördü kü, bir qarı çayın o tərəfində dərman otu yığır. Nisə xanım qışqırdı ki, amanın bir günüdü, qarı nənə, mana kömək elə. Qarı onu görmürdü. Odu ku, bu səsin cin səsi olduğunu güman eliyif qaşmağa başdadı. Bunu görən Mələknisə xanım ağacın üstündə görək qarıya nə deyir:

Şanı-şöhrətinə qurvan olduğum,
Bax ahı-naləmə, fəryada yetiş.
Qolsuz qeyrətinə qurvan olduğum,
Cənabı Zeynabı sal yada, yetiş.

...Mələknisə olsun sənə sadağa,
Göy atı, göy donu qoma uzağa.

Nuhun gəmisini qaldıran dağa,
Yunusu qoymayan dəryada yetiş.

Mələknisə xanım bu sözdəri deyəndə qarı inandı kı, bu adamdı. Amma nə qədər özünə ürək-dirək verdisə, səs gələn tərəfə gəlməyə cür'əti çatmadı. Yenə buradan uzaxlaşmağa başdadı. Bunu görən Mələknisə xanım indi alır, görək qarını nejə çağırır:

Aman nənə əlin yetir əlimə,
Görürsənmi, mən ümmana axıram.
Çərxi-fələk məni saldı züluma,
Heş bilmirəm hansı yana axıram?

Quşdar yata bilmir ahu-zarımnan,
Yarı mənnən etdi, məni yarımnan.
Can çıxır cəsəddən, ixtiyarımnan,
Mən qovruluf yana-yana axıram.

Kim axtarır Mələknisəni, hanı?
Kəsilif hər yannan əlac-gümanı.
İtirdim, tapmıram Aşıx Musanı,
Yetişifdi ömrüm sona, axıram.

Nisə xanım bunu deyif yenə də huşsuz halda ağacın üstünə yıxıldı. O yıxılmaxda olsun, eşidin qarıdan. Qarı özünü kəndə yetirif elə bil haray saldı ki, hamı onun başına toplandı. Qarı yaman qorxmuşdu. Neçə il idi ki, buralardan dərman otu çiçəyi yığırdı. Amma belə şeyə rast gəlməmişdi. O gah cin deyirdi, gah şeytan deyirdi, gah da insanıydı, – deyirdi. Axırda camaat qarıyı qavaxlarına salıf bu sıx meşəliyə səs gələn tərəfə gəldilər. Bir-neçə adam yuxarı çıxıf baxdı kı, görən bu nə səsidi? Gördülər çayın üstündə böyük bir ağac var. Ağac da bir sıxlıxda ilişif qalıf. Onun da üstündə bir qadın xaylağı görünür. Adam göndərdilər kənddən kəndir gətirdilər. Bir sözlə ağaşnan birrikdə Nisə xanımı çəkif qırağa çıxartdılar. Kimi dedi, bu gün ölüf, kimi dedi, çoxdan ölüf, kimi də dedi, bir saatdı ölüf. Nə isə, hərə bir söz deyirdi.

Bir müddətdən sonra Aşıx Musa ayılıf yenə camaatı orada gördü.

O da duruf birtəhər bunların yanına gəldi. Soruşdu ki, bir zənən ölüf. Onu çıxarıf aparırıx dəfn eləməyə. Musa elə bil səksənən kimi oldu. O irəli yeriyif gördü bu zənən xeylağı onun axtardığı Mələknisə xanımdı. Bir qarı da Mələknisə xanımın ağzına güzgü tutur. O deyir:

-Ay camaat, məni qınamayın vallah bunun nəfəsi var. Deyəsən hələ ölmüyüf.

Bütün bu hadisənin şahidi olan Aşıx Musa özünü Mələknisə xanıma yetirif sazı döşünə basdı, görək nə dedi:

Zalım fələk, yenə girdi qəsdimə,
Ağrın alım, Nisə xanım, oyansan.
Alışıram, baxan yoxdu tüstümə,
Qürvət eldə çıxdı canım, oyansan.

Yazığam sındırma, qırma qəlbimi,
Dolandım çölləri bir cünun kimi,
Sənsiz başa vurmam nakam ömrümü,
Şirindilli, xoş zəbanım oyansın.

Salmısan Musanı fikrə, xəyala
Bükülüf qaməti, əyilif dala.
Həsrətdi əqrabam, göz dikif yola,
Sana qurvan din-imanım, oyansan.

Aşıx Musa gördü Mələknisə xanım oyanmax bilmir. Elə bil kökünnən üzülmüş bahar bənövşəsi kimi asta-asta solur. Göz qapaxları örtülmüş, rəngi sapsarı saralmışdı. Camaat da onun oyanmasına inanmırdı. Hamı peşman-peşman ona baxır, köks ötürür, ah çəkirdi. Musanın ürəyi bu ağrıya, sitəmə dözmədi. Köksünnən dağları-daşdarı lərzəyə gətirən bir fəryad qopdu:

Döndü novbaharım oldu zimistan,
Yağdı dağ başına qar, oyanmadı.
Yıxdı könlüm evin eylədi viran,
Tərlan bəxtim oldu sar, oyanmadı.

Qurvan desən yazıq Musa qurvandı,
Firqətdən cəsədim alışdı, yandı.
Gözdərim verərəm, desən dərmandı,
Qoydu sinəm üstə nar, oyanmadı.

Doğrudan da, elə bil Mələknisə xanım bir il bunnan qavax ölmüşdü. Bu zaman Nərgiz adlı bir gəlin əlində güzgü Mələknisə xanıma yaxınnaşdı. Bu da bayaqkı qarı kimi güzgüyü onun ağzına tutdu. Bir qədərdən sonra dedi ki, camaat, bu qız ölmüyüf. Nəfəsi asta-asta gedif-gəlir. Sonra Nərgiz ayağa qalxıf Musaya təsəlli verdi:

–Aşıx qardaş, qorxma, bu qürvət eldə sənə kömək eliyəcəyəm. Bu saat nə qədər təviv, loğman varsa, hamısını yığıf sənin sevgilini qurtarajam.

Nərgiz xanım ata süvar oluf üz qoydu kəndə tərəf.

Bir neçə saatdan sonra bir də gördülər ki, Nərgiz xanım başında bir neçə atdı özünü yetirdi.

Bəli, mənim əzizlərim. Nərgiz xanımın gətirdiyi təbib-loğmanlar başdadılar Mələknisa xanımı ayıtmaq üçün çalışmağa. Bir xeyli əlləşənnən sonra təviv Vəfədar civinnən bir dərman çıxarıf Nisə xanımın burnuna tutdu. Nisə xanım gözlərini aşdı. Mələknisə xanımı oyanmış görən Musanın ürəyi qüvar elədi. O, üzünü Nisə xanıma tutuf görək nə dedi:

Şükür olsun cəlalına,
Ay hazarat, yarı gördüm.
Baxmaram dünya malına,
Küllü aləm, varı gördüm.

Gəldi təviv, gəldi loğman,
Nazdı yara o verdi can.
Yazıx Musa sizə qurvan,
Təviv Vəfadarı gördüm.

Bəli, mənim əzizdərim təviv, loğman, dava-dərman öz işini gördü Mələknisə yaılannan sonra Nərgiz onnarı öz evinə gətirdi. Onnar bir neçə gün burada qaldılar. Vəziyyətləri yaxşılaşannan sonra halahümmət eliyif Göyçüyə yola düşdülər. Gecəli-gündüzdü at sürüf axıı

ki, Göyçə mahalına yetişdilər. İlin yaz fəsliydi. Elə bir Allah-taala dünyanın bütün gözəlliklərini Göyçə mahalına bəxş eləmişdi.

Bəli, mənim əzizdərim, Aşıx Musaynan Mələknisə xanım bir müddət yol gəlif Çamırrı kəndinə çatdılar. Gördülər bir neçə adam söhbət eliyir. Musa üzünü onnardan birinə tutuf dedi:

– Qardaş, axşam düşür, bizi burada qonax eliyən olarmı? – Bir cavan oğlan irəli duruf, - aşıx mənim qonağımsınız, – dedi. Onlar birlikdə həmin oğlangilə gəldilər. Oğlan dedi ki, mənim adım Məhərrəmdi. Aşıx Musa da özünü oğlana isnad verdi. Bir az söhbətdən sonra oğlan soruşdu:

– Aşıx Musa, haradan gəlif haraya gedirsiniz?

Musa başına gələn bütün əhvalatı Məhərrəmə danışdı. Musa Məhərrəmə onu da dedi ki, atamgilə xəvər göndərdiyim otuz doqquz gündü. Musa dedi ki, gejiyi burada yatıf xoruz banında yola düşməliyik. Səhər tezdən Musagil yola düşəndə Məhrrəm də onnara qoşuldu. Onlar Basarkeçəri keçəndə Məhərrəm dedi:

– Aşıx Musa, siz bir qədər yavaş gəlin, mən qavaxda gedif onnarı muştuluxluyum.

Məhərrəm yola düşməkdə olsun, eşidin Ağkilsədə Səfər kişidən. Səfər kişi Novruzun xəvərinnən sonra toy üçün hər tədarük görmüşdü. İndi sabah o toy üçün aldığı malı, qoyunu qırxı tamam olan Musaya ehsan verəsiydi.

Səhər tezdən Səfər kişi qalxıf qapıdakı duz daşının üstündə oturuf dərin fikrə getmişdi. Birdən gördü kü, cavan bir oğlan qonşudan onnarın evini soruşur. Həmin adam da ona isnad verir ki, odu orda oturan Səfər kişidi. Amma Səfər kişinin halı özündə deyildi. Məhərrəm gördü ki, yox, kişinin əhvalı çox pərişandı. O, Aşıx Musanın sazını da özünnən götürmüşdü. Həmin sazı köynəkdən çıxarıf zilini zil, bəmini bəm elədi, görək öz məqsədini dərdli ataya nejə nağıl elədi. Biz deyək, siz də qulaq asın:

Aldı Məhərrəm:

Səfər əmi, qəm görünür üzündə,
Qonağın könlünü al, səhər-səhər.
Hicran kədəri var görrəm üzündə,
Gözün niyə çəkir yol, səhər-səhər.

Səfər kişi dedi:

– Qonax mənim nə günümə saz çalıf-oxuyursan? Mənim halıma dağlar-daşdar qan ağlıyır, başsağlığı verir. Mən Musa kimi oğul itirmişəm. Bunnan sonra bu dünyada mənim üzüm bir də gülmüyəjək. İndi dərdimi sana sazla deyim, sən də gör nələr çəkirəm.

Aldı Səfər:

Qurvan olum qonaq, dərdi dilimi,
Niyə eyləyirsən bol, səhər-səhər.
Dindirmə yazıqdı, sınıq qəlbimi,
Ələnər gözümnən sel səhər-səhər.

Məhərrəm:

Söyləsən dərdini bölərəm yarı,
Solğun sifətində iz salıf sarı
Qəlbində kiminsə var intizarı,
Danma sirrin mənnən gəl səhər-səhər.

Səfər:

Oğlu itən ata gözlər yolları
Ələmi, dərddəri bölünməz yarı.
Qəlbimdə Musanın var intizarı,
Görünməz gözümə yol səhər-səhər.

Məhərrəm:

Gedif gəlməyifdi nə vaxtdan bəri,
Bəlkə də orada alıf bir pəri.
Qorxma Məhərrəmdən al şad xəvəri,
Əlini kisənə sal, səhər-səhər.

Bir annığa elə bil Səfər kişi huşunu itirdi. O, tez özünü bir toxtadıf Məhərrəmə belə cavaf verdi:

Aldı Səfər:

Özüm dərddi Səfər, pərişan halım,
Huş çıxıf başımnan, çaşıf kamalım.

Peşkaşındır nə var cahi-cəlalım,
Sənin olsun dövlət, mal səhər-səhər.

Sözünü qurtaran kimi Səfər kişi huşunu itirif yerə yıxıldı. Bu zaman Səfərin qardaşı Cəfər bir neçə adamnan Musanın qırxına gəlirdi. Səfəri belə görəndə qışqırdı ki, bu namərd oğlu, namərdi tutun.

Məhərrəm gördü yox, bunnan bərk şübhələnillər. O xoş xəvəri sonnara gərək nejə çatdırdı, biz də, nə eşitdik:

Aldı Məhərrəm:

Xəvər verin Ağkilsəyə,
Elə bir şad xəvər gəlir.
Siyah geyif qızdar niyə?
Cəfər, vallah Musa gəlir.

...Adım Məhərrəmdi, bəli,
Çamırlıdanam-Göyçəli.
Yanında bir türk gözəli,
Cəfər, vallah Musa gəlir.

Bunnan sonra el-oba Musagilin qavağına çıxıf onları böyük təmtəraqnan öyə gətirdi. Cəfər kişi Musuyu dannadı kı, ay oğul, adam da belə iş görərmi?

Musa bildi ki, heş kimin onun başına gələn müsibətlərdən xəvəri yoxdu. Odu ku, sazı götürüf görək öz başına gələnləri onlara nejə çatdırdı:

Aldı Musa:

Canım əmi, gözüm əmi,
İş əyildi belə düşdü.
Yoxdu qeyri sözüm, əmi
Sonam göldən-gölə düşdü.

...Denən Musa söylə nağlın,
Danışsam kəsərmi ağlın?

Şükür elə gəlnin, oğlun,
Sağ-salamat ələ düşdü.

Bəli, mənim əzizdərim, Musa başına gələn bütün əhvalatdarı onnara söylədi. Qurvannar yan-yana düzüldü. Yeddi gün, yeddi gecə toy vurduruf murada çatdılar. Sizi də mətləf, muradınıza yetəsiniz. Bu toy gecəsinin sonuncu günü aşıx telli sazı sinəsinə basıf götürdü görək nə dedi:

Ey cavan, təzə cavan,
Getmə, dayan, bir bəri dön.
Ayna qabax, a gül yanax,
Qönçə dahan bir bəri dön.
Lə'l dodax, büllur buxaq,
Dərdə dərman bir bəri dön,
İnsafı yox, kirpiyi ox,
Qaşdar kaman bir bəri dön.
Nazik bədən, süzüf gedən,
Sərvi-rəvan, bir bəri dön.

Ey möhtərəm, götür qələm,
Sübhədək yaz, ağrın alım,
Fəhm elə sən, rəhm elə sən,
Az elə naz, ağrın alım.
Öz işini, özün düşün,
Belə olmaz, ağrın alım.
Ey şux məmə, baxma mənə,
Can dayanmaz, ağrın alım.
Xalı qoşa, qıl tamaşa,
Çıxdı bu can, bir bəri dön.

Qoyma sənin gül bədənin,
Heyf düşə mar əlinə,
Ey təzə gül, insaf deyil,
Vermə gülü xar əlinə.
Əgər düşsə sınar şüşə,
Cismi girifdar əlinə,

Gəz cahanı, seç insanı,
Ver əlini yar əlinə.
Eşit sözü, budu düzü,
Mətləvi qan, bir bəri dön.

Könlüm dönmür, eşqim sönmür,
Xan ciyərim etmə kavaf,
Əgər yazam nəzm-nizam,
Dərdim olar bir min kitaf.
Həddin aşar, əqil çaşar,
Saylarına çatmaz hesav,
Eylə mürvət, qıl bir ülfət,
Firqətinə yoxdumu tav.
Ey əhli-dil, dərdimi bil,
Halıma yan, bir bəri dön.

Teldə şanı, xoş nişanı,
Zülfünü əfşan eyləmə.
Boyu mina, girif dona,
Dünyanı viran eyləmə.
Sən ey gözəl, yola düzəl,
Nahaq yerdən qan eyləmə,
Aşığı an, olsun qurvan
Qəlvini giryan eyləmə.
Gözün süzən, canım üzən,
Öldüm aman, bir bəri bax.

ƏLƏSGƏRNƏN SƏHNƏBANI

Mənim əzizdərim, sizə hardan xəbər verim, Göyçə mahalının Ağkilsə kəndinnən. Ağkilsə kəndində kimnən, Almənməd kişidən.

Almənməd kişi yoxsul bir adamıydı. Heç kəsnən alı-qalı olmazdı. Adam kasıb olanda nə olar; Almənməd kişi hər şeyin yerini bilən, yaxşıya-pisə qiymat qoyan, qanacaxlı, mə'rifətdi bir adamıydı. Özünnən yaxşı söz də deyirdi. Kənddə hamı onun hörmətini saxlıyırdı. Çoxları bir iş görəndə onnan məsləhətdəşərdi.

Almənməd kişinin uşağı çoxuydu. O, külfətini dolandırmaxdan ötrü hər zəhmətə qatdaşırdı. Çox zaman əin-biçinnən sonra Cavanşir mahalının meşələrinnən ağac, taxta daşıyar; kürək, şana qayırıb satar, uşaqlarını bir təhər dolandırardı. Almənməd kişi çətinliklərə düşsə də, ürəyini sıxmazdı, yeri düşəndə: "Danalı darıxmaz, allah kərimdi", – deyərdi.

Ay dolandı, il keşdi, Almənməd kişinin böyük oğlu Ələsgər 14-15 yaşına çatdı. Ələsgər boy-buxunnu, yaraşıqlı, üzüyola, qoçaq bir oğlan oldu. Kəndin varrı adamlarınnan bir neçəsi Almənmədən xayış eləmişdilər ki, Ələsgəri nökər versin, əmə Almənməd oğluna qıymamışdı.

Bir gün kəndin varrılarınnan olan Kalvayı Qurban Almənmədin yanına gəldi. Bir az o yannan-bu yannan söhbət eliyənnən sonra dedi:

– Almənməd, özün bilirsən ki, mənim köməyim yoxdu. Əyər irazı olsan, Ələsgəri apararam, 3-4 il mana kömək eliyər.

Kasıblığın üzü qara olsun, bu dəfə Almənməd kişi yumşaldı. Arvadı Pərizadın yanına getdi, məsələni ona dedi. Götür-qoy eliyib, bu fikrə gəldilər ki, Ələsgəri Kalvayı Qurbana nökər versinnər.

Kalvayı Qurban qonum-qonşuynan çox mehriban dolanan bir yaxşı adamıydı. Bu vaxta kimi heç kəs onnan bir zərrə qədər inciməmişdi.

Almənməd kişi Kalvayı Qurbannan danışdı-barışdı, Ələsgəri Kalvayı Qurbanın öyünə göndərdi.

Kalvayı Qurban Ələsgərə bir dəs paltar tikdirdi, görəcəyi işdəri ona tafşırdı.

Kalvayı Qurbanın Səhnəbanı addı gözəl-göyçək bir qızı varıydı.

Ələsgər işini tanıyannan sonra Ələsgərnən Səhnəbanı arasında bir mehribançılıq əmələ gəldi. Çox zaman Ələsgərin görəcəyi işdərə Səhnəbanı da kömək eliyirdi.

Ələsgər mollaların hədisdərinə, dərvişlərin nağıllarına, aşıqların söz-söhbətinə qulaq asmaxdan doymazdı. Kalvayı Qurban Ələsgərin xətrinə dəyməzdi. Ələsgər aşıq məclisdərinin hamısına gedərdi. Ələsgər on beş-on altı yaşdarınnan söz deməyə başdamışdı. Tay-tuşdarı onun sözdərini əzbərriyərdilər.

Ələsgərin Kalvayı Qurbana nökər olması üç ilini atıb, dördüncü ilinə əyaq qoymuşdu. Bu vaxta qədər Kalvayı Qurban Ələsgərə güldən ağır bir söz deməmişdi. Kalvayı Qurbannan arvadı deyirdilər ki, nə olaydı, nə olaydı, Almənməd kişi Ələsgəri aparmıyaydı.

Ələsgərnən Səhnəbanı arasındakı mehribançılıq yavaş-yavaş məhəbbətə çöyrülmüşdü. Bir saat bir-birinnən ayrı dura bilmirdilər. Elə bil ikisi də deyirdi: "Getmə gözümnən, gedərəm özümnən!"

Novruz bayramı günüydü. Kalvayı Qurban bir dəs Ələsgərə, bir dəs də Səhnəbanıya paltar tikdirmişdi. Səhnəbanı sənəyi götürüb bulağa getmişdi. Ələsgər mal-qaranı irahatdıyannan sonra təzə paltarını geyindi. Bu zaman Səhnəbanı bulaqdan qayıtdı. Ələsgəri görən kimi dedi:

– Ələsgər, paltarın mübarək olsun! Nə yaxşı yaraşır. Gərək şirinliyi verəsən.

Ələsgər Səhnəbanının gül camalına, xətti-xalına diqqətnən tamaşa elədi. Gördü ki, Səhnəbanının təzə geydiyi qoftanın bir düyməsi açılıb, altınnan köynəyinin naxışdı yaxası görünür. Elə bil ki, bu bayram günündə Səhnəbanının gözəlliyi birə-beş artmışdı. Ələsgərin könlü cuşə gəldi. Əyər qızın anası burda olmasaydı, sinəsinə gələn sözdəri ucadan oxuyardı. Səhnəbanıya bircə bu cavabı verdi:

– Paltarın şirinniyi mənim gözüm üstə!

O gün keçdi, sabah hamımızın üzünə xeyirriknən açılsın, sabah açıldı. Kalvayı Qurban pəyiyə gedəndə gördü kü, Ələsgər camışın axurunda oturub, astadan zümzümə eliyir. Ələsgər bu zümzüməsində Səhnəbanının köynəyinnən danışır, öz təzə paltarının şirinliyini hazır eliyirdi.Ələsgər Kalvayı Qurbanı görəndə səsini kəsdi.

Kalvayı Qurban sazdan-sözdən o qədər baş tapan adam döyüldü. Elə başa düşdü ki, Ələsgər özgə aşıqların sözlərinnən oxuyur, dedi:

– A bala, yaxşı çağırırsan, çağır, utanma!

O günün səbahısı Kalvayı Qurban atını mindi. Kalvayıdan qayıdan adamlarnan görüşmək üçün Zərzibil kəndinə getdi. Həmən gün Ağkilsədə toy tədarükü varıydı. Aradan bir az keçməmişdi ki, Səhnəbanının anasını da yuxa üstünə apardılar. Ələsgər öyə gələndə gördü ki, Səhnəbanı təkdi, dedi:

– Əmi qızı, mən təzə paltar geyəndə sən mənnən şirinlik istədin. Mənim də gümanım, sən bilirsən ki, sözdən başqa heç bir şeyə gəlmir. İndi qulaq as.

Ələsgər aldı görək nə dedi, Səhnəbanı nə eşitdi:

Gülavatın qıyı tər sinən üstə,
Nə gözəl yaraşır, qız, köynəyinə.
Sinən Kə'bə, köynək Kə'bə örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Gözəl yaranıbsan qali-bəladan,
Yanağın göyçəkdi güldən, laladan.
Zərgər gül doğrasın zərin tiladan,
Əlindən gəldikcə düz köynəyinə.

Ələsgər də dost yolunda sürünür,
Sinən üstə dərdə dərman görünür.
O köynəyə nar məmələr bürünür,
Onçun qurban olluq biz köynəyinə.

Söz tamama yetişəndə Səhnəbanı dedi:

– Ələsgər, aman günüdü, dədəm eşitməsin. Əyər eşitsə, səni burda qoymaz.

Ələsgər bu dəfə bir az da ucadan aldı görək nə dedi:

İstər dara çəkdir, istər qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm.
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.

Ələsgəri tər basmışdı. Öydə Səhnəbanıdan başqa heç nəyi görmürdü. Səhnəbanı maddım-maddım Ələsgərə baxırdı, dillənməyə

təhəri yoxuydu.

Ələsgər sözün o biri bəndini aldı:

Ələsgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında.
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstünnən yol, incimərəm.

Ələsgər sözü qurtaran kimi Səhnəbanı dedi,

– Ələsgər, sana gələn ölüm mana gəlsin, sən mənim qəbrimin üstünnən yol sal! Sən ki mana yar dedin, mən də sana yar deyirəm. Öldüm – qara torpağınam, qaldım – sənin yarınam.

Aradan bir müddət keçdi. Bir gün Kalvayı Qurban öz arvadına dedi:

– Arvad, allah döyləti verdi, əmə bir oğulu əsirgədi. Bir gün yıxılıb ölərəm, qız da çıxıb birinə gedər, sən də qurdnan qiyamata qalmıyajaxsan ki! Onda yurdumuzda bayquş uluyar.

– A kişi, mən də irazıyam, əmə bilmirəm bu işə camahat nə deyər?

– Nə deyər desin. Ələsgərdən yaxşı oğlan harda var!

Bu məsələ qonşudan-qonşuya yayıldı, gəlib Pərizadın qulağına çatdı. Pərizad məsələni Almənməd kişiyə dedi. Almənməd Kalvayı Qurbannan qohum olmağa cannan-başnnan irazıydı, əmə elə hesab elədi ki, uydurma sözdü. Düzünü örgənmək üçün Kalvayı Qurbanın yanına getdi, salamnan-safadan sonra dedi:

– Kalvayı, əmrim aşmır, icazə versən, Ələsgəri apararam.

– Kalvayı Qurban bir az fikirləşənnən sonra dedi:

– Almənməd, allaha şükür, Ələsgərdən savayı üç oğlun da var. Onnar sənin qolunnan tutar, əmə Ələsgərsiz mənim əmrim heç aşmaz. Əyər irazı olsan, Ələsgər həməşəlik bizim öydə qalar.

Almənməd kişi arif adamıydı. Bildi ki, Kalvayı Qurban nə deyir, əmə özünü o yerə qoymadı, dedi:

– Kalvayı, necə yə'ni Ələsgər həməşəlik sizin öydə qalsın? Biz ki, belə danışmamışdıq.

– Almənməd, Ələsgəri aparsan da, burda qoysan da ixtiyar sahabısan. Ancaq mənim məqsədim budu ki, irazılaşsan iki ildən sonra Ələsgərnən Səhnəbanının toyunu eliyərəm, qalar həməşəlik

bizim öydə.

Alməmməd kişi bir az fikirrəşəndən sonra gülümsünüb dedi:

– Kalvayı, mən sənin fikrini dörd il bundan qabaq başa düşmüşdüm ki, Ələsgəri mənim əlimnən alajaxsan.

Hər ikisi güldü, məsələ bunnan qurtardı. Kalvayı Qurbanın arvadı çay-çörək hazır elədi, yedilər, bir az da o yannan-bu yannan danışdılar. Alməmməd kişi durub öylərinə gəldi.

Atalar deyibdi: "Sən saydığını say, gör fələk nə sayır".

Kalvayı Qurbanın Məhəmməd addı bir qardaşı varyıdı. Çox varrı olduğuna görə "pullu Məhərrəm" deyirdilər. Özü də çox zalım adamıydı. Kalvayı Qurban onnan elə qorxurdu ki, əyər deyəydi ki, üç gün çörək yemə, yeməzdi.

Pullu Məhərrəm bu məsələni eşitdi. Tez adam göndərdi, Kalvayı Qurbanı yanına çağırtdırdı, qeyizdi-qeyizdi soruşdu:

– Qardaş, bu nə zurnadı, camahat çalır!?

Kalvayı Qurban gördü ki, Məhərrəm məsələni olduğu kimi eşidib, danmaq olmaz, dedi:

– Məhərrəm, Ələsgər üzüyola, tərbiyəli, qoçaq bir olandı. Əyər o olmasa, bizim mal-heyvan dolanmaz. Alməmməd kişi gəlmişdi ki, onu apara, mən Ələsgəri bir-iki il də işdətməkdən ötrü yalan bir sözüydü dedim. Onun da ağlı kəsdi, aparmadı.

– Yox, Ələsgəri bu saat qov getsin, özgə adam tap, işdət. Qaldı ki Səhnəbanı; qızımız varsa, oğlumuz da var. Öz daşımız, öz tufarımız; Səhnəbanıyı oğlum Mustafıya alajam. Di durma, get Ələsgərin şələsini ver qoltuğuna!

Kalvayı Qurban öylərinə qayıtdı. Əmə elə bil ki, başına bir qazan qaynar su tökmüşdülər. Bilmirdi ki, arvadına nə desin. Ələsgəri necə qovsun. Odu ki, Ələsgəri göndərib, Alməmməd kişiyi çağırtdırdı, dedi:

– Alməmməd, gərək o günü mən sənin sözünə baxaydım. Qohum-qardaş deyir ki, Ələsgəri nahaq saxlıyıbsan, qoy getsin atasına kömək eləsin. İndi istiyirsən Ələsgəri apar.

Alməmməd kişi işin nə yerdə olduğunu başa düşdü. Əvvəlki söhbəti heç təzələmədi. Ələsgəri də götürdü, kor-peşman öylərinə qayıtdı.

Alməmmədgil də, camahatın hamısı da bildi ki, bu işi pozan Pullu Məhərrəmdi; arğac onnan keçibdi.

Ələsgər baş qaldırıb camahat içində gəzə bilmədi. Fikirdən, qüssədən saralıb solmağa başladı. Axırda xəstələndi, yorğan-döşəyə düşdü.

Alməmməd kişi eşqin, məhəbbətin nə olduğunu bilmirdi. Fikir elədi ki. Ələsgərə bir saz tapsın, bəlkə, çalıb-oxuya, dərd-qəmi dağıla. Getdi Qannıkənd kəndinnən bir saz gətirdi. Ələsgər meylini saza saldı, az bir müddətdə əli saza yatdı, çalıb-oxumağı örgəndi. Yanına kim gəlib dərdini soruşdusa, ona söznən cavab verirdi.

Bir gün Alməmməd kişinin qohumları, istiyənləri yığılıb, Ələsgərin yanına gəldilər. hərə bir yannan ürək-dirək verdi ki, sənin nəyin var, niyə yatırsan?! Məşədi Nədir sazı Ələsgərə verib dedi:

– Oğul, çal görüm örgənə bilibsənmi?

Ələsgər sazı götürdü, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, "Yanıq Kərəmi" havasıynan görək dərdini necə dedi:

Dərdim çoxdu, dindirməyin, həzarat!
Məni bir ala göz ceyran öldürür.
Qılıncsız, tüfəngsiz alır canımı,
Kimsə bilmir, pünhan-pünhan öldürür.

Heç bilmirəm neyləmişəm, neyləyəm,
Xəncər alıb, qara bağrım teylərəm,
Bir canım var, yara qurban eylərəm,
El desin: "Aşiq də qurban öldürür".

Ələsgərəm bir gözələ mehmanam,
Ölməyincə çətin dönəm, usanam.
Əzrayılı qannı tutmasın anam,
Məni bir kirpiyi peykan öldürür.

Məşədi Nədir dedi:

– Oğul, nə çoxdu el qızı eldə. Kalvayı Qurbanın qızı olmasın, ayrı adamın qızı olsun. Onnan ötrü bu qədər ah-zar eləmə. Elə gözəl qızdar var, Kalvayı Qurbanın qızı onnarın yanında nədi ki! Günü sabah, hansı kənddən deyirsən, kimin qızını deyirsən, sana alarıq.

Ələsgər bu sözdəri eşidəndə elə bil, dərdinin üstünə dərd gəldi. Onun gözündə Səhnəbanıdan gözəl heç kim ola bilməzdi. Bu dəfə

aldı görək nə dedi:

Eşidin, məclisdə arif olannar,
Sərrafam, gövhərim, kanım gedibdi.
Ah çəkibən yar yoluna baxmaqdan,
Yəqin bilin, yarı canım gedibdi.

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi,
Şəkər söhbətlidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi.

Müddətdi gözümnən olubdu iraq,
Əridib cismimi dərdü qəm, fəraq.
Büllür buxaq, lala yanaq, ay qabaq,
Ala gözdü Səhnəbanım gedibdi.

İş sana agahdı, qədir ilahi,
Eşq əlinnən itirmişəm irahi.
Ələsgərəm, budu sözün kütahı,
Yar gedəli din-imanım gedibdi.

Söz tamama yetişdi, əmə Ələsgər sazı əlinnən yerə qoymadı. Hərə bir yannan onu dannamağa, öyüd-nəsihət verməyə başladı ki, Səhnəbanının fikrini başınnan çıxart. Dünya dağıla, Pullu Məhərrəm qoymaz ki, bu iş düzələ.

Aldı görək, "Kərəm gözəlləməsi"ynən bu dəfə Ələsgər ordakılara nə dedi:

Ay ariflər, gəlin sizə söyləyim,
Kəsilib üstümnən yar nişanası.
Dost uzax olmaxnan könül yad olmaz,
Ölüncə qəlbimdə var nişanası.

Nütfədən pak olan özü pak olar,
Mö'minnən törəyən xoş idrak olar.
Əndəlib qan ağlar, zəhri çak olar,
Görsə gül üstündə xar nişanası.

Almməmməd kişi davam gətirə bilmədi, ağladı, dedi:

– Məşədi Nədir, dünyanın işdəri belədi. Əyər mənim də varım, halım olsaydı, başıma bu iş gəlməzdi. Günahın hamısı Allahdadı.

Aldı görək Ələsgər sözünü necə tamamladı:

Ələsgərəm, qərq olmuşam bu qəmə,
Hədyan sözdər dağ çəkifdi sinəmə.
Nakəs müxənnətdən mətləb diləmə,
Yoxdu namus, qeyrət, ar nişanası.

Gördülər ki, öyüd-nəsihət heç bir əsər eləmədi; Ələsgər də dediyini deyir.

O günnən camahatın içində yayıldı ki, Ələsgərə vergi verilib; sazı götürüb sinədən deyir.

Ələsgər Səhnəbanıdan sarı nə sirr sözü olsaydı, oğlannardan dostu Paşıya deyərdi, qızdardan da əmisi qızı Zöhrüyə. Onnar Ələsgərin yanına tez-tez gedib-gəlirdilər.

Paşaynan Zöhrə Ələsgərin yanına gəlmişdilər. Bunnar gələndə Ələsgər elə hesab eləmişdi ki, Səhnəbanıdan bir xəbər gətiriblər. Əmə nə Zöhrə, nə də Paşa bu dəfə bir xəbər gətirməmişdi. Ələsgər qəm dəryasına qərq oldu. Gördü ki, nə Səhnəbanıdan ona bir xəbər gətirən var, nə də onun ah-naləsini Səhnəbanıya yetirən. Sazı sinəsinə basdı. "Hicran Kərəmisi"ynən görək nə dedi, Paşaynan Zöhrə nə eşitdi:

Ömrüm ah-vayınan keçdi dünyada,
Həsrət qaldım, əlim yara yetmədi.
Neçə namə yazdım canan elinə,
Heç birisi o diyara yetmədi.

Ələsgər bu sözü deyəndə Zöhrə köyrəldi, dedi:

– Əmin qızı ölmüyüb ki, sənin dediyini ona yetirməsin. Allah qoysa, sabah onnan sana bir xəbər gətirərəm.

Ələsgər sözün ikinci bəndini aldı:

Nə doyunca nazdı yarı görmədim,
Nə dilimnən əhvalını sormadım.

Bağ bəsdədim, qönçə gülün dərmədim,
Xəzan oldu, bağçam bara yetmədi.

Bağların köysündə qar nişanası,
Gül üstə görünür xar nişanası.
Ölürəm, qəlbimdə yar nişanası,
Gözü yolda, intizara yetmədi.

Gözü yaşdı, ey füqərə Ələsgər,
İşi əysik, baxtı qara Ələsgər.
Olmadı dərdinə çara, Ələsgər,
Həsrət əlin o dildara yetmədi.

Mənim əzizdərim, o günü keçdi, sabah hamınızın üzünə xeyirriknən açılsın, sabah açılanda Zöhrə sənəyi götürüb bulağa getdi. Gecdən-gec Səhnəbanı da bulağa gəldi. Öpüşdülər, görüşdülər, Səhnəbanı soruşdu:

– Sən allah, de görüm, Ələsgər necədi?

– Necə olajax, Allah onu elə oda qalıyıb ki, dilnən deyiləsi döyül. Sazı götürüb deyəndə də başınnan duman qalxır.

– Neylim, əlimnən nə gəlir! Allah əmimin oğlannarını qırsın, yurdu düzdənsin!

Bulağa gedib-gələn çoxuydu. Odu ku, artıq danışa bilmədilər. Zöhrə sənəyini gətirib öylərinə qoydu, birbaş Ələsgərin yanına gəldi. Ələsgər Zöhrənin hərəkətinnən bildi ki, Səhnəbanının yanınnan gəlir. Sazı başının üstünnən götürdü, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi. "Dilqəmi" havasıynan görək Zöhrədən nə soruşdu, Zöhrə ona nə cavab verdi:

Söylə, qasid, müxtəsəri-vəssalam,
Ərzimi canana dedin, nə dedi?
Bülbül tək asmana yetişib nalam,
Səhni-gülüstana dedin, nə dedi?

Ələsgərin bu yanıxlı havaynan belə oxumağı Zöhrənin də qəlbini cuşə gətirdi. Hörüklərinnən birini ayırıb sinəsinə basdı, Ələsgərə belə cavab verdi.

Gedib ərzi-halın yara söylədim,
İnciməsin mənnən, – canana dedi.
Zülm əliynən məni yada verillər,
Viran qalsın belə zamana, – dedi.

Aldı Ələsgər:

Yadıma salanda toy-büsatını,
Xəstə könlüm minir eşqin atını,
Gah axtarır yerin yeddi qatını,
Gah çıxır asmana, dedin, nə dedi?

Aldı Zöhrə:

Nakəs müxənnətin boynu vurulsun,
Vay düşsün öyünə, şivən qurulsun,
Məhərrəmin oğlannarı qırılsın,
Qalmasın yurdunda nişana! – dedi.

Aldı Ələsgər:

Aşıq oldum bir nainsaf millətə,
Qolu bağlı məni verdi cəllətə.
İncilə, Zəbura, Zöhvə, Tövrətə,
And verərəm Qur'ana, dedin, nə dedi?

Aldı Zöhrə:

Seyraqublar aralığı qatdılar,
Zülmünən boynuma kəmənd atdılar,
Atam, anam məni pula satdılar,
Onnar yetişməsin imana, – dedi.

Aldı Ələsgər:

Könül gərək istədiyin istiyə,
Dostun sözün dostu gərək dost deyə.
Rəhm elədin mən günahkar xəstiyə,
Dərdimi loğmana dedin, nə dedi?

Aldı Zöhrə:

Zöhrəyəm, sinəmdə dərdi qəm çoxdu,
Üstümə tökülən peykandı, oxdu.
Dünyada ədalət, haqq divan yoxdu,
Yetirə dərdimi loğmana, – dedi.

Aldı Ələsgər:

Kəc dolandırmasın xam xəyalını,
Can qoyan istəməz dünya malını.
Yazıq Ələsgərin ərzi-halını,
Sərvi-xuramana dedin, nə dedi?

Zöhrə söznən dediyi kimi, dilcavabı da bulağa necə getməyinnən, necə görüşməyinnən danışdı. Ələsgərin ürəyi bir az sakit oldu. Danışığın sonunda Zöhrə dedi:

– Ələsgər, Səhnəbanı deyir ki, nə olaydı, bu günnərdə Ələsgəri görəydim. Əyər durub bir az gəzsən, eşiyə-bacıya çıxsan, bəlkə, Səhnəbanıynan görüşə biləsən.

Deyəllər ümid çox yaxşı şeydi; əyər xəstənin sağalmağına özünün ümidi olmasa, həkimin dərmanı kömək eləməz.

Aradan bir neçə gün keçdi. Ələsgər əyağa durdu, yavaş-yavaş qapıya-bajıya çıxdı, yoldaşdarı, tay-tuşdarı onu yazın ətirri havasında çöllərə, çəmənnərə apardılar, gözü-könlü açıldı, sapasağ oldu.

Günnər keçdi, həftələr dolandı, bir gün kəndin qızdarı bulaq başında sözü bir yerə qoydular ki, sabah bağa pencər yığmağa getsinnər. Səhnəbanı bunu bilən ki, Zöhrüyə xəbər verdi. Zöhrə Ələsgərə dedi, Ələsgər Paşaynan barabar heç kim yerinnən durmamış Çalmalı dağına tərəf üz qoydular. Gəlhagəl gəlib gün çıxan vaxtı bağa çatdılar. Paşa göy otun üstündə uzandı, gün kürəyinin arasını qızdıranda şirin yuxuya getdi. Ələsgər gözdərini tikdi kənddən gələn yola. Bir saat gözdədi, iki saat gözdədi, bir də gördü ki, qızdar karvanının ucu göründü. Ələsgər diqqət eliyəndə Səhnəbanıyı tanıdı. O saat könlü cuşə gəldi, sazı köynəyinnən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi. Bu zaman sazın səsinə Paşa ayıldı, soruşdu ku:

– Ələsgər, nə oldu ku, qoymursan yatam?

Ələsgər dedi:

– Qulaq as, gör nə olub:

Dürdanəni səngi-siyah içində
Həsrət gözüm görən kimi tanıdı.
Könül beybajadı, heç salmır yada,
Göz doymur, gözünün mehribanıdı.

Paşa yerinnən dikələndə gördü kü, qızdar gəlir. Ələsgər aldı sözün o biri bəndini:

Yanaqları güldü, heç olmaz xəndan,
Cismidə mələkdi, nəsildə insan,
Simi-zənaxdandı, mirvari-dəndan,
İnnadı ləbləri can dərmanıdı.

Adım Ələsgərdi: əslim Göyçəli,
Ələst aləmində demişəm "bəli!".
Həm aşığam, həm dərvişəm, həm dəli,
Canım gözəllərin yol qurbanıdı.

Söz tamama yetişdi. Qızdar Qıvla bulağının başına - Ələsgərgilin yanına gəldilər. Ələsgər çoxdan bəri Səhnəbanını görüb kəlmə verib, kəlmə almamışdı. Qızdar çatar-çatmaz Ələsgər əyağa durdu, sazı sinəsinə basdı, görək Səhnəbanını necə qarşıladı:

Tərlan tamaşalı, taral baxışdı,
Qələm qoyub, asta-asta xoş gəldin!
Yolun sadağası canınan başdı,
Qurban sənin kimi dosta, xoş gəldin!

Qızdar Ələsgəri ortalığa aldılar. Hamı başa düşdü ki, o, bu sözü Səhnəbanıya deyir. Səhnəbanı utandığınnan yerə baxırdı, qızdarın da çoxu Səhnəbanıya baxıb gülümsünürdülər. Ələsgərin yadına Səhnəbanının ona "yar" deməsi düşdü. Aldı görək nə dedi:

Biz ki ilqar keçirmişik aradan,
"Amin", desən, tez düzəldər yaradan.
Konlum yasdan çıxdı, gəldim qaradan,
Gülə-gülə bu həvəsdə xoş gəldin!

Gözəllər sultanı, ay mələkzada!
Özün kimi gözəl yoxdu dünyada.
Sən ki Ələsgəri salıbsan yada,
O səbəbdən gözüm üstə xoş gəldin!

Doğrudu, bu söz tamama yetişdi, əmə Ələsgər hələ Səhnəbanıya bircə "xoş gəldin!" eləmişdi, ürəyində deməli sözü çox idi. Zöhrə qızlara dedi ki, oturun dincələk. Ələsgər də bir az oxusun, könlümüz açılsın. Pullu Məhərrəmin qızı Cavahar dilləndi:

– Burya saza qulaq asmağa gəlmişik!? Durun pencərimizi yığaq. Hər kəsin könlü istəsə, kənddə saz çaldırıb, qulaq asar.

Cavahar belə deyəndə Səhnəbanı bildi ki, nə təhər olsa, kəndə gedən kimi əhvalatı xəbər verəcək; bir də ya qismət, Ələsgəri bir də görə, ya görmüyə. Odu ku, qızdarın məclisi dağılacağınnan qorxdu, ölümünü gözünün qabağına gətirdi, Cavahara belə cavab verdi:

– Əşi, pencər qaçmır ha!... Kənddə bu qızdar hardan bir yerə toplanıb məclis quracaq!? Kəndə aşıq gələndə də çox vaxt kişilər gedib qulaq asır, heç qızdarı yada salan da olmur.

Səhnəbanının belə deməyinə qızdarın çoxu tərəfdar çıxdı, yerrərinnən tərpənmədilər. Ələsgər bu dəfə "Təcnis" havasıynan aldı, görək nə dedi, Səhnəbanı nə eşitdi:

Sənnən ötrü ömrün barın becərdim,
Mübarək dəstinlə de bir üz, bir üz!
Ölüb bu dünyadan həsrət gedirəm,
Qoysan üzüm üstə de bir üz, bir üz!

İpək nazbalışa Mina dayandı,
Həcər nalə çəkdi, Minada yandı.
Həsrətinnən dərdim minə dayandı,
Sən əlsən, əysilər de bir üz, bir üz.

Düzdü, Ələsgər Səhnəbanının qarşısında çox həvəsnən oxuyurdu, əmə ona yetişməyə umudu yoxuydu. Bilirdi ki, Pullu Məhərrəm necə ki, sağdı, iki sevgilini bir-birinə qovuşmağa qoymaz. Ələsgər aldı, görək sözün axırıncı bəndində nə dedi:

Bayqu həsrət çəkdi, yara yetmədi,
Təbib neştər vurdu, yara yetmədi.
Yazıq Ələsgər, əlin yara yetmədi,
Çalxan qəm bəhrində, du bir üz, bir üz.

Elə ki, söz tamama yetişdi, qızdar gördülər ki, Səhnəbanının gözdərinnən yaş süzülməyə başdıyıfdı. Zöhrənin də ürəyi davam gətirmədi, ağladı. Qızdarın məclisi qəm-qüssə içində dağıldı. Ələsgərnən Paşa bulağın başında qaldı, qızdar ordan yavaş-yavaş uzaxlaşdılar. Ələsgərin əlacı olsaydı, Səhnəbanını gözünnən uzaxlaşmağa qoymazdı. Səhnəbanı tez-tez dönüb Ələsgərə baxırdı. Ələsgər sazı sinəsinə götürdü, görək bu dəfə Səhnəbanıya nə dedi:

Bəzənib, qurşanıb seyrə çıxan yar,
Alagözlü Səhnəbanım, yavaş get!
Bir qıya baxanda öylər yıxan var,
Cəllad olub tökmə qanım, yavaş get!

Mən sana aşiqəm, sən mana xata,
Dahanın bənzəyir qəndə, nabata,
Ləbin tə'nə vurur abi-həyata,
Qoynu cənnət irizvanım, yavaş get!

Ələsgərəm, oldum dəli, divana
At müjganın, sinəm durub nişana.
Sallanışın bənzər hüri-qılmana,
Kə'bəm, qiblәm, din-imanım, yavaş get!

Axşam qızdar öylərinə qayıdanda bağda olan əhvalatı danışdılar. Cavahar da nə olmuşdusa hamısını anasına xəbər verdi. O günnən sonra Pullu Məhərrəm Səhnəbanıya öydən çölə çıxmağı, bulaqdan su gətirməyi də qadağan elədi.

Yaz keçdi, yay addadı, payız girdi. Kimin xeyir işi varıydı yavaş-yavaş görməyə başdadı. Nişan qoyan kim, toy eliyən kim...

Molla oğlu Əli oğluna toy eliyirdi. Toya Qızılvəngli Aşıq Alıyı təklif eləmişdi. Hələ Aşıq Alı söhbəti başdamamış biri dedi ki, Almməməd kişinin oğlu özünnən yaman söz deyir. Paşanı göndərdilər, gəldi Ələsgəri çağırdı, Aşıq Alının yanına gətirdi. Aşıq Alı Ələsgəri danışdırıb gördü ki, çox mə'rifətdi, qanacaxlı oğlandı. Aşıq Alı saz çaldı, Ələsgərdən xayiş elədi ki, oxusun. Ələsgər Aşıq Alının çaldığı havaynan söz oxumağa başdadı. Sonra bir-iki qatar da öz sözünnən oxutdu. Gördü ki, doğrudan da, dediklərinə görə varıymış.

Aşıq Alı çalmaxda olsun, Ələsgər oxumaxda, kəndin qız-gəlini dəstə-dəstə toya gəlirdi. Səhnəbanı da qohum-qonşuların qızdarıynan barabar toya gəldi. Səhnəbanı qapıdan girəndə Ələsgər onu gördü, bilmədi ki, oxuduğu sözü necə qurtardı. Səhnəbanı keçib üzü örtülü oturdu. Elə bu dəmdə Aşıq Alı Ələsgərə dedi:

– Oğul, saz çala da bilirsənmi?

– Bekara dınqıldadıram.

– Buyur görüm, necə dınqıldadırsan.

Aşıq Alı sazı Ələsgərə verdi. Ələsgər sazı alıb, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, çalmağa başdadı. Ələsgərin gözü Səhnəbanıdaydı. Gördü ki, dirəyin dibində oturub, əmə üzü ürbənddidi. Ələsgər çoxdan bəri Səhnəbanının üzünü görməyin həsrətini çəkirdi. Aldı görək Səhnəbanıya nə dedi, camahatnan Aşıq Alı nə eşitdi:

A bimürvət, həsrətini çəkməkdən
Yetişmişəm cana üzün bürümə!
İllər ayrısıyıq, fürsət düşəndə
Çəkilib pünhana, üzün bürümə!

Yusif kimi məni saldın azara,
Təbibimsən, eylə dərdimə çara.
Ya buyur cəllada, ya çəkdir dara,
Ya yetir dərmana, üzün bürümə!

Yazıq Ələsgərəm, mən sana qurban,
Xəstəyəm dərdimə gəl eylə dərman,

Sən mələkzadasan, ay huri, qılman,
Gəlmişəm qurbana, üzün bürümə!

Söz tamama yetişəndə Səhnəbanı üzünün bir tərəfini açdı. Ələsgər gördü ki, Səhnəbanı onun sözünü başa düşdü. Bu dəfə aldı görək nə dedi:

Can qurban eyləsən, layıqdı, layıq,
Bir yar ki mətləbi tez qanan ola.
İşarətnən, qaş-gözünən annıya,
Nəinki deməknən söz qanan ola.

Canım qurban olsun o əhli-dilə,
Qaşdarın oynada, gözünnən gülə.
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola.

Belə yar yetirə baxtın gövkədi,
Dəsti qana ürəkdəki mətləbi.
Nə lazım dil deyil, tərpətmək ləbi,
Nə keçsə konlunnan düz qanan ola.

Ələsgər söylüyər söz müxtəsərin;
Ağlı kamil ola, kamalı dərin.
Eşidənnər deyə: "əhsən", "afərin",
Əgər məclisində yüz qanan ola.

Aşıq Alı o vaxt Göyçənin ən ustad aşığıydı. Onun bilmədiyi söz yoxuydu. Ələsgərin oxuduğu sözdərə fikir verdi, gördü kü, çox qiymətdi sözdərdi, özü də bu sözdəri elə burda dedi. Aşıq Alı belə hazırcavablığı hələ heç kəsdə görməmişdi.

Çaldılar, oxudular, oynadılar, toy məclisi qurtarannan sonra Aşıq Alı Ələsgərnən barabar onnara getdi. Almməməd kişiynən dünyanın gəlmişinnən-getmişinnən söhbət elədilər. Sabah hamınızın üzünə xeyirriknən açılsın, sabah açılanda çay-çörəkdən sonra Aşıq Alı Almməməd kişiyə dedi:

– Almməməd, Ələsgərdən çox yaxşı aşıq olar. Əyər irazılaşsanız, onu yanımcax aparıf örgədərəm.

Almməməd kişi cannan-başnan irazı oldu. Aşıq Alı öz sazını, Ələsgər də öz sazını götürdü, bir neçə hava çaldılar, oxudular. Sonra Aşıq Alı üzünü Ələsgərə tutub dedi:

– Oğul, sözdərin də xoşuma gəldi, oxumağın da, saz çalmağın da. Az kəm-kəsirin var. Onu da tezdiknən düzəldərsən. Əmə aşıxlığın özgə şərtdəri də çoxdu. De görüm onnardan da halısanmı?

– Alı dayı, icazə versən, bildiyim o şərtdəri söznən deyərəm.

– Oğul, mən buna çox şad olaram; söznən de.

Ələsgər sazı sinəsinə basdı, görək nə dedi:

Aşıq olub, diyar-diyar gəzənin,
Əvvəl, başqa pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mə'rifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymatın bilə,
Kəlməsinnən lələ gövhər süzülə.
Məcazi danışa, məcazi gülə,
Tamam sözü mümmalı gərəkdi.

Arif ola, eyhamınan söz qana,
Naməhrəmnən şərm eyliyə, utana.
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

Söz tamama yetişəndə Aşıq Alı Ələsgərin boynunu qucaqlıyıb üzündən öpdü, dedi:

– Oğlum, aşıq olana çalıb-oxumaqdan əvvəl bu dediklərin lazımdı.

Aşıq Alı Ələsgəri götürüb, özüynən barabar apardı. Onnar gedənnən bir neçə gün sonra Pullu Məhərrəm toy elədi; Səhnəbanıyı ağlada-ağlada oğlu Mustafıya aldı. Leyliyi Məcnunnan, Məcnunun Leylidən, Əsliyi Kərəmnən, Kərəmi Əslidən eliyən zalım fələk Ələsgəri Səhnəbanıdan Səhnəbanıyı da Ələsgərdən elədi...

Ələsgər kəndə qayıdanda gördü ki, lələ köçüb, yurdu ağlıyır. Səhnəbanı gedibdi. Kərəm Əslisiz, Əsli Kərəmsiz, Məcnun Leylisiz, Leyli Məcnunsuz yaşıya bilmədi, əmə Ələsgər Səhnəbanısız, Səhnəbanı da Ələsgərsiz yaşadı. Ələsgər 40 yaşına qədər öylənmədi, məclislərdə, qanan adamların yanında öz dərdinnən danışdı, nalə çəkdi. Axırda Cavanşir mahalının Yanşaq kəndinnən Nəbinin qızı Anaxanımnan öylənndi, ömrünün axırına qədər onnan yaşadı, gün keçirib uzun ömür sürdülər. Sizin də ömrünüz uzun, günnəriniz xoş keçsin!..

AŞIQ ƏLƏSGƏRİN TÜRKİYƏ SƏFƏRİ

Mənim istəkli dinləyicilərim, qulluğunuza haradan ərz eliyim, Göyçə mahalının Zad kəndinnən. Bu kəndin sakini Göyçə mahalında hörmət sahibi Səməd Ağadan. Bu mahalda heş kəs onun bir sözünü iki eləməzdi. Səməd ağanın Türkiyədə Almurad bəy adında bir dostu varıydı. Günnərin bir günü Almurad bəy Səməd ağaya belə bir namə göndərir:

"Hörmətdi qardaşım Səməd ağa, mənə işləmək üçün on, bajarsan on beş nəfər adam göndərməyini xahiş edirəm. Göycəlilər qoçax və bacarıxlıdı. Qazanşdarı da pis olmuyajax. Səni böyük məhəbbətlə bağrıma basıram, öpürəm".

Səməd ağa həmin naməni alandan sonra 12 nəfər adam hazırrıyır. Həmin adamların içində Aşıx Ələsgərin qardaşı Çovan Məhəmməd də varıymış.

Səməd ağa Türkiyəyə gedən həmin adamlara Almurad bəyin İydir mahalında yaşadığını, böyük fabrik sahibi olduğunu bildirir və bir dostluq naməsi də yazıb həmin adamları yola salır.

Aşıx Ələsgərin qardaşı Çovan Məhəmməd həm də aşığıydı. Dərin təbə malik olan Çovan Məhəmməd də saz, söz sənətinin incəliklərini qardaşı Aşıx Ələsgərdən öyrənmişdi.

Üç-dörd aydan sonra Çovan Məhəmməddən xəvər gətirdilər ki, bəs deməssənmi, Çovan Məhəmməd Almurad bəyin fabrikində bircə ay işdədi, onnan sonra fəhləliyi buraxıf, aşıxlığa başdadı. Xəvər gətirən adam söylüyür kü, günnərin bir günündə eşitdik ki, bir bəy oğluna toy eliyir. Toyu Səlmi Xuraman deyilən bir addı-sannı qadın aşıx aparırdı. Çovan Məhəmməd sazını da götürüf bizi çəkə-çəkə həmin toya apardı. Bizi yaxşı qarşıladılar, yer göstərdilər, oturdux.

Çovan Məhəmmədin aşıx olduğunu biləndə ona söz verdilər. Yaxşı, xoş avaznan oxudu. Elə ki, Səlmi Xuraman soruşuf öyrəndi ki, Çovan Məhəmməd Aşıx Ələsgərin kiçik qardaşıdı. Qavağa çıxıf dedi ki, aşıx, mənnən deyişməlisən. Aşıx Ələsgəri çox tə'rifliyillər. İndi görək ona zərrə qədər oxşarrığın varmı?

Əyər sən məni bağlıya bildin saz da, mən də səninəm. Yox, mən səni bağladım sazını da əlinnən alıf, səni dustax elijəyəm. Güjü çatsa Aşıx Ələsgər gəlif səni xilas eliyər.

Çovan Məhəmməd dedi ki, xanım, əgər mən Ələsgərdən dərs almışamsa, sana baj verəsi döyüləm. Özü də mana sənin sazın yox, özün lazımsan, sənnən əl çəkəsi döyüləm. Bu sözdəri Çovan Məhəmmədin ağzınnan eşidəndə-məclis əhli uğunuf getdi. Uzun sözün kəsəsi hərbə-zorbadan sonra möhkəm dəyişdilər, axırda Çovan Məhəmməd Səlmi Xuramanı bağladı. Bəy ayağa qalxıf Səlmi Xuramanın əlini Çovan Məhəmmədin əlinə verdi, Qazı çağırtdırıf kəvinini də kəsdirdi. Elə o günnən sonra Səlmi Xuraman Çovan Məhəmmədi götürüf yoxa çıxdı. Hara getdiyini, harada yaşadığını bilən olmadı.

Çovan Məhəmməd Türkiyədə qalmaxda olsun. Sizə xəvər verim Ağkilsə kəndinin camaatınnan. Aşıx Ələsgərin qohum-qardaşdarı Ələsgərin başına toflaşdı kı, Aşıx Ələsgər, hamıya nəsihət verən, yol göstərən sənsən, öz qardaşını niyə itirif-axtarmırsan? Bəlkə, allah eləməmiş onun başında bir iş var. Bütün kənd, qohum-əqraba nigarançılıx içindəydi. Bu dərin məzəmətdən, bu söz-söhbətdən sonra, günnərin bir günü Aşıx Ələsgər sazını da götürüf qardaşı Çovan Məhəmmədin sorağınnan Türkiyəyə yola düşdü. Elə kənddən bir balaca aralanmışdı kı, bir atdıynan qarşılaşdı. Atdı qoltuğunda saz olan bu adamın aşıx olduğunu bilif atı onun qavağında saxladı. Atdı salamlaşdıxdan sonra türk ləhçəsində soruşdu ku, əfəndim, siz bu kənddəmi yaşıyorsunuz?

Ələsgər cavaf verdi ki, bəy əfəndi, bu görünən Ağkilsə kəndində yaşıyıram. Atdı üzünü Ələsgərə tutarax yenə soruşdu ku, əfəndim, yanşax Ələsgər də bu göydəmi yaşıyor. Siz onu tanuyorsunuzmu?

Ələsgər cavaf verir ki, bəli, bəy əfəndi, o, mənin qonşumdu. Yaxşı tanıyıram, gedək evini göstərim.

Hər ikisi qapıya çatanda Aşıx Ələsgərin arvadı Anaxanım yamşanarax Ələsgərə tərəf gəlif soruşdu:

– A kişi, nə tez qayıtdın? Bə sən qardaşının dalınnan getmirdinmi?

Ələsgər cavaf verdi ki, o sonrakı işdi, görürsən qonağımız var, sən əl-ayax elə, xörək, hazırra!

Aşıx Ələsgərin oğlannarı bayıra çıxdı, Atın başını tutuf qonağı endirdilər, xoşgəldin eliyif, töylüyə çəkdilər, qonağı evə də'vət elədilər. Qonax üzünü Ələsgərə tutarax soruşdu:

– Əfəndim, bəni yanşax Ələsgərnən qonşudurmax istəmiyorsunuzmu? Mənim o yanşağa bir qaç kəlmə sözüm var.

Aşıx Ələsgər gülə-gülə qonağa dedi ki, tələsmə, buyur içəri. Elə indicə Ələsgər də gəlir. Hər ikisi qonax otağına keçif əyləşdilər. Qavağa çay gəldi. Ələsgər gördü kü, qonax çox narahatdı, Ələsgəri görməyə tələsir. Onda üzünü qonağa tutuf dedi:

– Bəy əfəndim, indi buyurun, qarşınızda oturan Ələsgər mənəm. Qonax təpədən-dırnağa qədər Aşıx Ələsgəri süzərək, heyrətnən ona baxdı. Onun hündür, cannı boy-buxununu, qarayanız sifətini, iri papağını süzənnən sonra onu aşığa oxşatmadı. Ürəyində onu Ələsgərin dalınnan göndərən Rizvan paşıya söydü də.

Qonax bir az qımışarax əlavə elədi:

– Əfəndim, sizdən başqa bu kənddə Göyçəli yanşax Ələsgər genə var, yoxsa təkcə sizsiniz?

Ələsgər arif adamıydı. Gördü kü, qonax onu aşığa oxşatmadı, oydu ku, dedi:

– Bəy əfəndim, neyniyim, olanım bu pəzəfəng boy-buxundu. Günah məndə döyül. Məni yaradandadı. Yaxşı boy-buxun verif, amma rəndəliyif, yanşağa oxşatmıyıf, Eybi yoxdu, nə sözünüz varsa buyurun. Siz axtaran yanşax Ələsgər mənəm. Göycə mahalında yanşaxlar çoxdu, amma mənnən başqa ikinci Aşıx Ələsgər bulmuyajaxsınız.

Qonağı möhkəm gülmək tutsa da, ürəyində düşündü kü, bu adam nə arif, hər ehyamı, işarəni başa düşən adamdı.

Qonax sözə başdadı kı, yanşax qardaş, bən Türkiyənin İydir elinnənəm. Bəni İydir paşası Rizvan paşa sizin dalınızca göndərif. Rizvan paşanın yaxşı addı-sannı yanşaxları çoxdu. Amma əhd eliyif ki, onun bircə madar balasının toyunu siz eliyəsiniz. İndi gələn həftə onun oğlunun toyudu. Rizvan paşa sizi toya çağırıyor.

Ələsgər dedi:

– Çox yaxşı, allah Rizvan paşanın toyunu mübarək eləsin, elə mən özüm də Türkiyəyə gedirdim. Allah qoysa, savah tezdən yola düşərik.

Nolajax, yox olsun yoxsulluğu. Qonağın adına erkək kəsildi, gözəl məclis düzəldi, çay, çörək, yemək qurtarannan sonra, meydan saza, sözə verildi, qonax gördü kü, allahtala səsi də, saz çalmağı da, Ələsgərə bəxş eliyif. Amma ürəyində dedi ki, ey bunu yaradan, bax bu yanşağa belə söz, söhbət, gözəl saz çalmaq verifsən, bəs niyə boy-buxununu, sir-sifətini yaxşı düzəltmiyifsən? Amma öz-özünə

təsginlik verdi ki, belə də yaxşıdı, çünki hər iyidin bir nöqsanı olmalıdı, yoxsa allah bizdən azmı bilir? Qonax öz razılığını bildirif, çox məmnun olduğunu söylədi.

Səhər üzünüzə xeyirriknən açılsın. Elə ki, savah açıldı Ələsgər də bir gəhər at minif, qonaxnan Türkiyənin İydir elinə tərəf yola düşdü.

İydir elində aşıx Şenniyin yetirmələrinnən olan, iki aşıx da varıydı. Bunnar Türkiyədə ad-san qazanmışdılar. Onnar ustad aşıxlar sayılırdılar. Görək bu aşıxlar kimləriydi?

Birinci ustat aşıx Şenniyiydi, o birləri də onun yetirmələrinnən olan aşıx Səkinəynən, aşıx Abdullaydı. Bəli, əzizdərim, hər üç aşıx Rizvan paşanın məclisinə də'vət olunmuşdu. Aşıx Şennik məclisdə yad aşıx görəndə təəccüfləndi. Onnan, bunnan eşitdi ki, Rizvan paşanın də'vətinən bu məclisə gələn göyçəli Aşıx Ələsgərdi. Aşıx Şennik çox pərt oldu. Öz narazılığını paşaya bildirif dedi:

– Paşam sağ olsun, bəs biz yanşaxların nəyi pisdi ki, bizi bəyənmiyif Qafqazdan göycəli Ələsgəri bizim üstümüzə gətirifsən?

Rizvan paşa dedi:

– Aşıx Şennik, mən sizi yaxşı tanıyıram. Aşıx Ələsgərin adını sən mənnən də yaxşı eşitmiş olarsan. Sizin dördünüz də bu məclisdə iştirak edəcəksiniz. İndi hünəriniz varsa, bu məclisdə bir-birinizə sənətinizin ustalığınızın güjünü sübut eliyin. Kim güjdüdüsə qoy hamı ona afərin desin.

Aşıx Ələsgər də hiss elədi ki, bu aşıxların üçü də onun bu məclisə gəlməyinnən narazıdı. Ona görə yaman pərt olmuşdu. Ələsgərin bu vəziyyətini duyan Rizvan paşa irəli yeriyif dedi:

– Aşıx Ələsgər, sən burada qərif deyilsən. Sizin adınızı-sanınızı eşitmişik. Heç bir şeydən çəkinmə, bu məclisdə hər kəs öz yanşaxlıx qabiliyyətini sübut etməlidi.

Ələsgər baş əyif razılığını bildirdi. Aşıx Şenniyin işarəsinnən aşıx Səkinə məclisin ortasına yeridi. Sazının zilini zil, bəmini bəm eliyif üzünü Rizvan paşıya tutuf dedi:

– Paşam sağ olsun, aslanın örkəyi, dişisi olmaz. Qoy adı Göycə mahalına səs salan Aşıx Ələsgər mən qadın yanşaxdan canını qurtara bilsin.

Sonra o, üzünü Ələsgərə tutuf dedi:

– Yanşax, şərtimiz budu ku, məğlub olan sazını təfil verməlidi.

Qoyulan şərtə razısanmı?

Ələsgər cavaf verdi ki, xeyr, razı döyüləm.

Səkinə xanım soruşdu ku, nə üçün, razı döyülsən?

Ələsgər cavaf verdi ki, ona görə razı döyüləm ki, mənim sazımı əlimnən alsanız, savah gedif başqa bir saz da ala bilərəm.

Səkinə xanım dedi ki, onda qoy məğlub olan yanşağın boynu vurulsun.

Ələsgər gülə-gülə dedi:

– Səkinə xanım, mənim boyum iki metirdi. Mənim boynumu vursalar, yenə iki sən boyda qalajam, bəs sənin boynunu vursalar, sənin nəyin qalajax?

Məclisdə möhkəm gülüşmə qopdu. Ələsgər dedi ki, paşam sağ olsun, mənim belə bir şərtim var: kim məğlub olajaxsa, sazını təfil verməknən baravar həm də aşıx adı əlinnən alınsın. O, bir də məclisə girif aşıxlıx eləməsin.

Səkinə xanım dedi ki, yanşax, bəlkə burada məğlub oldun, gözdən uzax, könüldən irax bir yerə, elə tutax Göycə mahalına gedif xəlvətcə aşıxlığa başdadın, onda nejə?

Ələsgər dedi ki, xanım, bəs mən bu boyda bədəni ona görə saxlamışam ki, hər yetənə məğlub oluf, Göycə mahalına üzü qara qayıdım. Şərtim də budu ku, həmişə qavağa Siz düşəjəksiniz. İndi buyur, nəyin var, döşə gəlsin.

Məclisdə hamıyı gülmək tutdu. Ələsgərin cəsarətinə inanan də oldu, inanmıyan da. Ələsgər sazını düzəldəndə yenə bərkdən məclisdən gülüşmə qopdu. Gördülər ki, qonax aşıx solaxaydı.

Alır görək Səkinə xanım Ələsgərə nejə hədə-qorxu gəlir.

Səkinə xanım:

Başına döndüyüm, aşıx Ələsgər,
Əbəs yerə bu meydana gəlifsən,
Başını salıfsan böyük qadaya,
Nə cür'ətnən bu meydana gəlifsən?

Ələsgərin sazının səsi çox güjdüydü. O, solaxay saza bir təzyanə çəkdi ki, Səkinə xanımın sazının sədası eşidilməz oldu. Aldı görək Aşıx Ələsgər Səkinə xanıma necə cavaf verdi:

Aşıx Ələsgər:

Al cavavın deyim, ay Səhnə xanım,
Mən bir nərəm mərd meydana gəlmişəm,
Qorxum yoxdu nə sultannan, nə xannan,
Ona görə bu meydana gəlmişəm.

Aldı Səkinə xanım:

Mən bir aj asdanam yaxşı bil, tanı,
Şöhrətim dolaşır cümlə-cahanı,
Səndə yoxdu aşıxlığın nişanı,
Nə hünərnən bu meydana gəlifsən?

Aşıx Ələsgər:

Ay qız, gəl dindirmə mən dərdimməndi,
Salma gəl boynuma sözdən kəməndi.
Yüküm duzdan deyil, yaqut, yəməndi,
Sığınmışam ol sübhana, gəlmişəm.

Səkinə xanım:

Səhnə dəyər bağlanacaq yığvalın,
Əzəldən gördüm ki, bəd vurur xalın.
Ay aşıx, mən sənnən bir xəvər alım,
Hansı vaxtdan din islama gəlifsən?

Aşıx Ələsgər:

Xəvər gətirdilər ərşi-ə'ladan,
Aləmi qüdrətdən, gəşdi binadan,
Ələsgər xəvərdi qövlü-bəladan,
Ələstundan din islama gəlmişəm.

Hər tərəfdən afərin, afərin, aşıx, sədaları göyə bülənd oldu. Səkinə xanım gördü kü, Aşıx Ələsgər tərpənməz qayadı, hərbə-zorbadan bir şey çıxmıyajax. Ona görə keşdi qıfılbəndə.

Səkinə xanım:

Soruşum cavaf ver, Aşıx Ələsgər,
O, kimdi ki, de nə fikrə duruldu?

Nələr çulğalandı, nə ad qoyuldu,
O, nədi ki, o da, onnan bulundu?

Hamı heyrətnən cavaf gözdüyürdü.

Ələsgər:

Al cavavın deyim, a Səhnə xanım,
Haqqın özü düz fikrə duruldu.
Küllü kayınata bir ad qoyuldu,
Abı-atəş, xaki-baddan bulundu.

Aldı Səkinə xanım:

O, nədi ki, neçə gündə yarandı?
O, nədi ki, yerə, göyə dayandı?
O, kimdi alışdı, şəhpəri yandı?
O, kimdi ki, onnan xəbərdar oldu?

Hamı intizar içindəydi ki, görək Qafqaz yanşağı bu suallara düzgün cavaf verə biləjəkmi. Hamıdan çox Aşıx Ələsgərin dalınca gedif, onu məclisə gətirən qonaxnan ev sahibi Rizvan paşa həyəcan keçirirdi. Onnar aşıx Ələsgərin məğlub olmasına tərəfdar döyüldülər.

Aldı Ələsgər görək Səkinə xanıma necə cavaf verdi. Tərəfimizdən ərz eliyək, siz də şad olun.

Ələsgər:

O, aləmdi altı gündə yarandı,
Haqq nəzəri yerə, göyə dayandı,
Cəbrail şahpəri alışıf yandı,
Sahibi-zamana xəbərdar oldu.

Hər tərəfdən əl çaldılar, afərin səsləri mağarı başına götürdü:

Aldı Səkinə xanım:

O, kimdi ki, kimnən suallar etdi?
O, kimdi ki, kimin ziddinə getdi?

O, kimdi ki, gedif kimdən vəhy etdi?
Səhnə deyər sirri aşikar oldu.

Məclisdə alimlər əyləşmişdi, söz içinnən söz seçirdilər. Hamı diqqətnən cavaf gözdüyürdü.

Ələsgər:

Xudam Cəbrayıldan suallar etdi,
Bir şeytan, Adəmin ziddinə getdi.
Cəbrayıldı Məhəmmədə vəhy gətdi,
Ələsgərə bu sirr aşikar oldu.

Məclisdə əyləşənnərin Ələsgərə inamı bir az da artdı, ona afərin dedilər.

Rizvan paşa dedi:

– Səkinə xanım, indi icazə ver, bu dəfə də qonax qavağa düşsün.

Hamı Rizvan paşanın təklifinə razı oldu.

İndi görək Ələsgər Səkinə xanımı necə imtahana çəkir, Səkinə xanım necə cavaf verir.

Aşıx Ələsgər:

Mənnən salam olsun, ay Səhnə xanım,
Həqq nə gündə xalq elədi sübhanı?
Yer ilə göy nə saatda bəhs etdi?
Yer nə üstə bəndə saldı asmanı?

Səkinə xanım çiyinlərini çəkif maddım-maddım aşıx Şenniyin üzünə baxdı. Səkinə xanım dedi ki, yanşax, keç ikinci bəndə, mən bir az fikirrəşim. Hamı gülüşdü.

Aldı Aşıx Ələsgər:

Asman nə istədi barı xudadan?
Xuda nə istədi ərşi-əladan?
Kim gəldi, kim apardı, haradan?
Nə surətdə gördü məsçit əxsanı?

İkinci dəfə də Səkinə xanım çiyinlərini çəkəndə Rizvan paşa dedi ki, Ələsgər, söylədiyin müəmmaları o biri yanşaxlar da fikirrəşsinnər. Ələsgər bığaltı qımışıf keşdi sözün o biri xanəsinə.

Aldı Aşıx Ələsgər:

Nə ab ilə orda aldı dəstamaz?
Neçə ürkət əda eylədi namaz?
Neçə kimsə, nəyə oldu pişnamaz?
Onlar baqidirmi, yoxsakı fani?

Hamı dərin maraxnan Ələsgərə qulaq asırdı. Amma Səkinə xanıma çırtıx vursaydın qanı damardı. Hamı gah Səkinə xanıma, gah da aralı əyləşif, onnara qulaq asan aşıx Abdullaynan aşıx Şenniyə baxırdı. Onnar da çox pərt olmuşdular.

Aldı Aşıx Ələsgər:

Tez versəniz bu sözdərin isbatın,
Nədəndi binası abi həyatın?
Hardadı məskanı mələki möftun,
Bəs o, necə alır insannan canı?

Səkinə lal-dinməz dayanmışdı. Hamı gördü kü, o artıx məğlub oluf. Odu ku, Aşıx Ələsgər keşdi qıfılbəndin tafşırma bəndinə:

Aldı Aşıx Ələsgər:

Bu təzə kəlamdı olsun yə'qini,
Kəbəm, qibləm, dinim Məhəmməd dini.
Atam Alməmməddi, Göycə sakini,
Adım Ələsgərdi yaxşı bil tanı.

Hamı əl çaldı, afərin sədası göyə ucaldı. Səkinə xanım sazını Ələsgərin qavağında yerə qoyuf, ona baş əydi. Aşıx Ələsgər sazı onun özünə qaytarıf dedi:

– Xanım, tələsmiyin, hələ sizin addı-sannı yanşaxlarınız durur. Bəlkə onnar məni məğlub elədilər. Siz keçin, rahat əyləşin.

Bu sözdəri eşidən aşıx Abdulla bərk qəzəflənif məclisə daxil oldu. Üzünü Ələsgərə tutuf dedi:

– Aşıx, bir qadını məğlub eləməyinnən öyünmə. Aşıxsansa gəl mana cavaf ver.

Aldı görən aşıx Abdulla Dədə Ələsgərə nə hərbə-zorba gəlir. Biz deyək, siz də şad olun.

Məndən salam olsun, Aşıx Ələsgər,
Buyur bu meydana, ər meydanıdı,
O, nədi ki, həm şirindi, həm ajı?
Bajara bilməzsən nər meydanıdı!

Hamı maraxnan gözdüyürdü kü, görək Qafqaz yanşağı ona nejə cavaf verəjək.

Aldı Aşıx Ələsgər:

Al cavavın deyim, Aşıx Abdulla
Mənim axtardığım nər meydanıdı,
O, dildi ki, həm şirindi, həm ajı,
Bajara bilməzsən zor meydanıdı.

Məclis möhkəm qızışmışdı. Hamı ağızdan çıxan hər sözü qapıf yemək istiyirdi. Mağarda böyük cannanma varıydı.

Aldı Aşıx Abdulla:

Sənət nədi, söhbət nədi, görərsən,
Gül yerinə ala-ula dərərsən.
İndi gəlif mənnən cəngə girərsən,
Onda bilərsən ki, tər meydanıdı.

Ələsgər bir az da qeyizdəndi. Götürdü görək Aşıx Abdulluya nejə cavaf verdi. Tərəfimizdən ərz eliyək, siz də xoşbaxt olun.

Aldı Aşıx Ələsgər:

Düşübsən əlimə, indi bilərsən,
Tülküsən, aslana sən neyliyərsən?
Nə lazımdı artıx, əskik söylərsən,
Gərkadan hünərim var, meydanıdı.

Məclisdən möhkəm gülüşmə qopdu. Rizvan paşa əlini Ələsgərin kürəyinə vuruf dedi:

– Əhsən, kamalına, yanşax.

Aldı Aşıx Abdulla:

Abdullayam Çovankərə elinnən,
Bəd kəlmələr çıxmaz mənim dilimnən,
Pələng olsan qurtarmazsan əlimnən,
Aslan olsan, bura şir meydanıdı.

O boyda-buxunda olan Ələsgər məclisdə elə tərpənirdi, elə bil quş səkirdi. Sazın səsası bütün mağarı doldurmuşdu. Elə bil on saz birdən çalınırdı.

Aldı Dədə Ələsgər:

Bir dağ çəkib mən gedərəm elinnən,
Qayalar sökülür, dağlar selinnən,
Qurtarmazsan Ələsgərin əlinnən,
Hər beşə, şeş duran zər meydanıdı.

Hər tərəfdən onu alqışladılar. Aşıx Abdulla gördü kü, bu tərpənən çinar deyil. Tez fikrini dəyişdi, qıfılbəndə keşdi.

Görək aşıx Abdulla Dədə Ələsgərdən nə soruşur. Tərəfimizdən ərz eliyək, sizin də damağınız çağ olsun.

Aldı Abdulla:

Mənnən salam olsun, Aşıx Ələsgər,
O, nədi ki, yazılıbdı dörd-iki?
Kim deyib ki, haqq Əlinin işidi,
Günü-gündən haxdı sözü, dörd-iki.

Ələsgər qıfılbəndə diqqətnən fikir verir ürəyində cavaf hazırrıyırdı. Hamı da maraxnan cavaf gözdüyürdü.

Aldı Dədə Ələsgər:

Al cavavın deyim, aşıx Abdulla,
Abi-atəş, xaki-baddı, dörd-iki,

Atalar deyib, haqq Əlinin işidi,
Günü-gündən sözü haxdı gördün ki...

Aşıx Abdulla:

Dünya səfasına kimi satdılar?
Şö'ləsindən onu hardan tapdılar?
Kimlər idi əzəl on bir idilər,
Sonra biri gəldi, oldu on iki?

Hər tərəfdən əl çalıf aşıx Abdullanı alqışladılar. Bu alqış səsası Aşıx Ələsgəri daha da coşa gətirdi.

Aldı Aşıx Ələsgər:

Qardaşları bil Yusifi satdılar,
Şö'ləsindən ol Kən'anda tapdılar,
İmamlardı əzəl on bir idilər,
Sahib-zaman gəldi, oldu on iki.

Aldı aşıx Abdulla:

O, kimiydi danışardı hey yalan?
Abdulla, dərsini başatan vuran.
De, neçə cüzv idi ayəti-qur'an?
Nə vacibdi insanlarda dörd iki?

Aldı Aşıx Ələsgər:

O, şeytandı daim danışdı yalan.
Ələsgər mətləbi başatan vuran?
Bil otuz cüzvdü ayəti-qur'an,
Oruc, namaz borcdu, haxdı dörd, iki.

Hamı Ələsgəri alqışladı. Bütün ülamalar da təsdiq etdilər ki, cavaf düz verilir. Onda Rizvan paşa əl qaldırdı ki, yanşax Abdulla, qoy indi də qonax qavağa düşsün. Hamı bu təklifnən razılaşdı. Ələsgər sazın kökünü dəyişdi. İndi görək Aşıx Ələsgər Abdulladan nələri xəvər aldı. Tərəfinnən ərz eliyək, siz də sağ olun, həmişə kefdə, damaxda olun.

Aldı Aşıx Ələsgər:

Məğrurluq eyləyib ustadam deyən,
O, hansı ağacdı tağı yeddidi?
O, ağacda bir quş yuva salıbdı,
Çarpaz sinəsinin dağı yeddidi?

Aşıx Abdulla daş kimi yerində dondu. Bir gözucu aşıx Şenniyə baxdı, Aşıx Şennik də çiyinnərini çəkdi.

Dedi:

– Aşıx Ələsgər, keç o biri bəndə. Düzdü, gülüşmə oldu, amma öz aşıxlarının belə dalbadal məğlub olmalarını istəmiyənnər də varıydı.

Aldı Aşıx Ələsgər:

Bir hikmət görmüşəm xəyalım çaşıf,
Huş başımnan gedif, dilim dolaşıf.
Şahın qulluğunda bir qul əyləşif,
Bədən birdi, əl-ayağı yeddidi?

Abdulla sonrakı bəndə keçməyə işarə elədi.

Aldı Aşıx Ələsgər:

Bir ali məclisdə var yeddi sağı,
Dolanır, dövr edir, yox əl-ayağı
Nə bir piltəsi var, nədə ki, yağı,
Şöylə çəkən şux çırağı yeddidi?

Məclisdə hamıyı heyrət bürümüşdü. Aşıxlar bir-birinnən keçirdi. Görək dədə Ələsgər Aşıx Abdulladan dördüncü bənddə nə soruşur? Tərəfimizdən ərz eyliyək, siz də xoşbaxt olun.

Aldı Aşıx Ələsgər:

Onun gərdişində bir azca ləng var,
Aləmə aydındı, görünür aşkar.
Bir kasa içində on dörd irəng var,
Qarası yeddidi, ağı yeddidi?

Aldı Aşıx Ələsgər:

Ələgər, sözlərin de, müttəsil de.
Nə oldu dəhnədən suyun kəsildi?
İl uzunu o nə cahar fəsildi,
O hansı bağmandı, bağı yeddidi?

Aşıx Abdulla əlini qaldırıf dedi ki, qardaş, mən məğlub oldum, mən təslim. Bu sözü eşidən aşıx Şennik hirsdənif meydana girdi. Dodaxlarını çiyniyə-çiyniyə Ələsgərə üz tutuf dedi:

– Hə Aşıx, meydanı basırıx görüf yaman fironnux eliyirsən ha...

İndi görərsən analar nejə oğul doğuf. Hər tərəfdən onu alqışdadılar. Rizvan paşa Ələsgərə işarə elədi ki, çəkinif eləmə, möhkəm dur. Aşıx Şennik alır Dədə Ələsgərə görən nejə hədə-qorxu gəlir.

Aldı Aşıx Şennik:

Yaşı ortalanmış belə vaxtında,
Arayıb, bulubdu təzə meydanı.
Bir aşıx istərəm pür kamal ola,
Dura mənimilə gəzə meydanı.

Aldı Aşıx Ələsgər:

Pünhan yerdə özün aşıx sayannar,
Nahaxdan verillər sizə meydanı.
Ustad görüf, aşıxlığı danallar,
Onda bax götürər, məzə meydanı.

Aldı Aşıx Şennik:

Könlümdə var namus, qeyrət, bir də ar,
Qaynaxsız mə'dənə olmaz e'tibar,
İnci, dürrü, yaqut, yəmən məndə var,
Könlüm hökm eyləyir, bəzə meydanı.

Aldı Aşıx Ələsgər:

Mən səni görməyə çəkdim intizar,
Dərsini bəyan et, aqil sənətkar.
Aç, tök mətəhını, sinəndə nə var,
Ayeyi qur'annan bəzə meydanı.

Aldı Aşıx Şennik:

Aşıx Şennik ustad cəfasındadı,
Dəli könlüm eşqin havasındadı,
Ürəyim dəyişmək davasındadı,
Nə üçün vermillər bizə meydanı?

Aldı Aşıx Ələsgər:

Özünü çox öyüf, salma dolaşıx,
Bil ki, məclisdərə mənəm yaraşıx.
Ələsgərnən bajararmı hər aşıx,
Hünərnən keşt edif gəzə meydanı.

Məclis hər ikisinin möhkəm alqışdadı, amma aşıx Şennik möhkəm qorxuya düşmüşdü. Gördü kü, Ələsgəri nejə eşitmişdisə, eləjə də var. Doğrudan da, alınmaz bir qaladı. Odu ku, umudu qıfılbəndə qaldı. O, sazını möhkəm zilə çəkif, sağa-sola möhkəm vargəl elədi. Aldı Aşıx Şennik Dədə Ələsgərdən görək nə soruşdu. Dədə Ələsgər ona nə cavaf verdi. Biz də deyək, sizdəri xoşbaxt olun.

Aldı Aşıx Şennik:

Mənnən salam olsun, Aşıx Ələsgər,
O, kimdi ki, gəzdi tərsi-tərsinə?
Çox oxudu, öz dərsini bilmədi,
Çaşdı yollarını tərsi-tərsinə.

Ələsgər sazını zilə çəkdi. Rizvan paşaya elə gəldi ki, aşıx deyəsən dirəndi. Bərkdən qışqırdı:

– Başına dönüm, a Qafqaz yanşağı, möhkəm dayan, sən burada tək deyilsən.

Aldı Aşıx Ələsgər:

Al cavavın verim, ay aşıx Şennik,
O, şeytandı gəzdi-tərsi, tərsinə.
Çox oxudu, öz dərsini bilmədi,
Azdı yollarını tərsi-tərsinə.

Rizvan paşa əl çaldı. Ələsgəri gətirən adam onun səsinə səs verdi.

Aldı Aşıx Şennik:

O, kimiydi, dinin, kitabın atdı?
O, kimiydi, dini dindara satdı?
Kim anasın alıf, qoynunda yatdı?
Qalannarı getdi tərsi-tərsinə.

Hamının heyrəti birə-beş qat artdı, öz-özdərinə fikirrəşdilər ki, bu bəndi Ələsgər açа bilmiyəjək. Məğlub olan aşıxların əli göydəydi ki, Allah, Ələsgər bu bəndi açа bilməyəydi. Heç olmasa, Aşıx Şennik qalib gələydi.

Aldı Aşıx Ələsgər:

Salman idi dinin, kitabın atdı,
Şeytanıydı dini dindara satdı,
Torpaq ana, Adəm qoynunda yatdı,
Qalannarı getdi tərsi-tərsinə.

Bütün məclis əl çalıf Ələsgəri alqışdadı. Artıx aşıxların umuddarı boşa çıxmışdı.

Aldı Aşıx Şennik:

O, nədi ki, ilqar, imanı bilməz?
O, kimdi ki, əjəl amanı bilməz?
O, kimdi ki, daim həyatda qalmaz?
Şennik, nələr gedir tərsi-tərsinə?

Aldı Aşıx Ələsgər:

O, ömürdü, ilqar, imanı bilməz,
Əzraildı əcəl amanı bilməz.
Ömür bir bağçadı pozular, qalmaz,
Ələsgər, zamandı tərsi-tərsinə.

Rizvan paşa hər iki aşığa minnətdarrıx elədi, Aşıx Şenniyə dedi ki, yanşax, daha bu qədər qəribbasannıx eləməzdər. İndiyə qədər

Siz qavağa düşüfsünüz. İndi də sıra qonağındı. Xahiş edirəm, ona icazə verin.

Aşıx Şennik naələç razılıx verdisə, dizdəri əsirdi. Dədə Ələsgər Aşıx Şennikdən görək nə xəvər alır, Aşıx Şennik ona nə cavaf verir. Biz deyək, sizin də damağınız çağ olsun.

Aldı Aşıx Ələsgər:

İki bədən gördüm, altmış başı var,
Müttəsildi onda qeyri sirr olur.
İki uruh gərdiş vuruf dolaşır,
Gahdan iki olur, gahdan bir olur.

Hamının diqqəti aşıx Şenniyə dikilmişdi. Gördülər ki, Aşıx Şennik çiyinnərini çəkif kənara çəkildi. Dili tutar-tutmaz dedi ki, Aşıx Ələsgər, ikinci bəndə keç. Hamısına birdən cavaf verəjəm. Hamı gülüşdü. Rizvan paşa dedi.

– Eşq olsun Qafqaz yanşağına.

Birisi sultandı, gəzir taxt üstə,
Biri gah sağ olur, gahi də xəstə.
Qojaldıxca olur təzə, növrəstə,
Cavannıxda qoja olur, pir olur.

Ələsgər gördü ki, Şenniyin cınqırı kəsilif, cavaf gözdüyüf utandırmadı. Bunu məclis əhli də başa düşdü. Ələsgər dübarə keşdi o biri bəndə.

Yüz səksən qolu var, oynar abınan,
Üç yüz qulamı var san-hesabınan,
Beş kəlmə danışır afitabınan,
Kəlməsində gövhər olur, dürr olur.

Rizvan paşa dedi ki, gözünə dönüm aşıx o birilərini də de, bəlkə hamısını birdən açajax.

Oxudum yetişdim mən bu hesaba,
Niyyətim ayrıdı, mənzilim Kə'ba,

On min qırx yol sərin qoyar türaba,
"Mu" kəlməsi rəbbi ilə bir olur.

Ələsgər də bu hesaba yetişdi,
Onu cəm eyləyən bir dənə quşdu,
Gahdan bəzirgandı, gahdan dərvişdi,
Gah padişah olur, gah vəzir olur.

Hər tərəfdən alqış, afərin sadələri ətrafa yayıldı. Aşıxların üçü də sazdarını Ələsgərin qavağına qoydular. Rizvan paşa dedi:

– Yanşax Şennik, indi gördünmü, əsl sənətkar necə olur? Bax sənəti, hünəri belə sübut eliyəllər.

Aşıx Ələsgər hər üç aşığın sazdarını özdərinə qaytardı. Dedi ki, mən bura saz almağa gəlməmişəm. Rizvan paşa dedi ki, məni istiyənnər Ələsgərə namər versin. Hər tərəfdən pul yağış kimi yağdı.

Ələsgər yığılan dövranı qardaş kimi dörd yerə böldü. Rizvan paşa Ələsgərə öz tərəfinnən 50 qızıl onnux verdi. Aşıx Şennik Rizvan paşadan icazə istədi ki, Aşıx Ələsgərə həsr etdiyi bir şe'ri var. Onu məclisə bir də Ələsgərə çatdırmağa icazə versin. Görək Aşıx Şennik Dədə Ələsgəri neçə vəsv eliyir, tərəfimizdən ərz eliyək, siz xoşbaxt olun.

Xidmətində ağır ellər saxlarsan,
Müşgül gündə vüqarını deyəllər.
Dustax azad edif, qollar bağlarsan,
Yaradansan yüz divanı deyəllər.

Gəzdin Qəndaheri, sən Ərdahanı,
Qarsı, Qağızmanı, Bayazat, Vanı,
Göyçə, Şəmkiristan, Şəki, Şirvanı,
Yetirərsən şövkət, şana deyəllər.

Aşıx Şennik vəsf eləyir məthini,
Sərraf olan bilir zər qiymətini,
Hər ayamın olar bir Əflatunu,
Zamana sərdarı səni deyəllər.

Hamı alqışdadı. Aşıx Ələsgər öz razılığını bildirdi. Rizvan paşanın köməkliyinnən Çovan Məhəmməd də tapıldı, Ələsgər onu Səlbi Xuramannan birrikdə Ağkilsəyə gətirdi. Qohum, qardaş, kəndin, ətraf ellərin saza qiymət verən camaatı yığıldı. Gözəl məclis quruldu, hamı yeyif-içif feyziyab oldu. Onnar yedilər, işdilər, bu qoja dünyadan köşdülər. Sizi sağ oluf salamat qalasınız!

AŞIQ ƏLƏSGƏR QARABAĞLILARIN YAYLAĞINDA

Mənim əzizlərim, indi sizə haradan xəbər verim. Qarabağın Xanqərvənd kəndindən. Buranın camaatı da göyçəlilər kimi sazı-sözü çox xoşlayır. Məclislərinə aşıq gələndə elə bil, dinə-imana gəlirlər.

Qarabağın camaatı yayda Qonur, Söyüdlü, Göllər yaylağına çıxırdılar. Payız girənə qədər bu dağların cah-cəlalı dillə deyiləsi olmurdu. Hansı dərəyə baxsan, elə bil, bir kənd vardı; alaçıq alaçığa söykənirdi. Gecələr səhərə qədər toy səsi, saz səsi, aşıq səsi dağları başına götürürdü. Çoxları xeyir işlərini yaylaqda keçirdirdi.

Bir ili də Xanqərəvəndin adlı – sanlı adamlarından Əhməd bəy, Hacı Baba, Mədinə oğlu Kürd, Baxşalı kişi, Murad kişi, Zamanxan oğlu Məşədi Qara, bir neçəsi də bunlardan başqa toy tədarükü ilə yaylağa çıxdılar.

Camaatın köçü gəlib yaylağa toxtayan kimi, toy eləyəsi adamlar bir yerə yığışdılar, toylara vaxt qoydular. Əvvəlcə Mədinə oğlu Kürd oğlunun toyunu başlamalı oldu. Yaxındakı kəndlərə qonşu yaylaqlara xəbər verildi, nəmər paylandı...

Buranın camaatı Aşıq Ələsgəri çox yaxşı tanıyırdı. İstər aranda, istərsə də yaylaqda toy eləyəndə çox zaman Aşıq Ələsgəri aparırdılar. Əgər Aşıq Ələsgəri tapa bilməsələr, özgə aşıq çağırırdılar.

Aşıq Ələsgərin dalınca atlı göndərmək lazım oldu. Kağız yazdılar, bir cavan oğlana verdilər ki, Göyçəyə yola düşsün. Mədinə oğlu Kürd razılaşmadı, Məşədi Qaranın yanına gəlib dedi:

– A Məşədi, Aşıq Ələsgərin dalınca özün get! Əgər evdə olmasa, yerini öyrən, harada olsa, tap gətir!

Zamanxan oğlu Məşədi Qara Aşıq Ələsgərlə siğə qardaş idi. Bu qış Aşıq Ələsgər Qarabağa getməmişdi. Odur ki, Qara qardaşını görməyə çox darıxırdı.

Kürd belə deyən kimi Məşədi Qara "baş üstə" deyib, atını mindi, birbaş düz Ağkilsəyə gəldi.

Aşıq Ələsgər qapıda cüt nizamlıyırdı.Qara qapıya yetişdi:

– Salaməleyküm!

– Əleykümsalam!

Aşıq Ələsgər başını qaldırdı ki, Məşədi Qaradır. Bilmədi ki, əlindəki kərkini haraya qoydu. Öpüşdülər, görüşdülər. Dost, qohumların hamısı Qaranın başına yağıldı. Heyvan kəsdilər, yaxşı yemək-içmək düzəltdilər. Gəlmişdən-getmişdən danışdılar. O günü Qara macal tapıb Aşıq Ələsgərə deyə bilmədi ki, nə məqsədlə gəlib. Gecədən xeyli keçənə qədər söhbət elədilər, yatdılar.

Gecə bir yağış başladı, bir yağış başladı ki, gəl görəsən. Səhər açılanda gördülər ki, yağış hələ kəsməyib; yerlə göyün arası tamam qovuşubdur. Qara gördü ki, gediləsi deyil, heç fikrini demədi. O gecə də qaldı, sabah tezdən çox gözəl bir hava oldu. Qara üzünü Aşıq Ələsgərə tutub dedi:

– Qardaş, xeyir işimiz var, sazını götür gedək!

– A Qara, bəs bilmirsən, mən məhərrəmlikdə bir yana getmirəm.

– Məhərrəmlik çoxdan çıxıb ki.

– Yox, hələ məhərrəmliyin qırxı çıxmağına üç gün var. Üç gündən sonra gedərik.

– Əşi, qırxına bənd olma. Mədinə oğlu Kürd də , Əhməd bəy də nəməri paylayıb. Mən gələndə qonaqları da bir ucdan gəlirdi. Toy sənə məəttəldi. Gərək biz dünəndən orada olaydıq.

– A Qara, onda sən get, bu toyu başqa aşıqla yola salın; mən üç gündən sonra gələrəm, o biri toyları mən eləyərəm.

Qara çox pərt oldu. Çırtıq vursan, qanı damardı. Bilmədi ki, Aşıq Ələsgərə nə desin. İncimiş halda Aşıq Ələsgərin oğlu Bəşirə dedi:

– A bala, mənim atımı gətirin!

Bəşir Qaranın atını gətirdi. Qara atın irəşməsinin bir ucunu Aşıq Ələsgərə uzatdı, dedi:

– Tut!

Aşıq Ələsgər ipin ucunu tutanda Qara cibindən bir bıçaq çıxartdı, dedi:

– Əgər mənlə getməsən, bu mənə ölümdən betərdi. Qarabağ camaatı bilir ki, biz siğə qardaşıq. Odur ki, nə cür olsa, səni aparmaq üçün məni göndəriblər. Ya gərək gedək, ya da qardaşlıq ipini kəsirəm.

Aşıq Ələsgər gördü ki, yamanca yerdə axşamlayıb; qardaşlıqdan keçmək olmaz, dedi:

– Gedək!

Aşıq Ələsgərin də atını tövlədən çəkdilər. Aşıq Ələsgər sazını da

götürdü, yol başladılar Göllər yaylağına. Bir mənzil gedəndən sonra Zod kəndi ilə Zərzəbil kəndinin arasında Qarabulaq deyilən bir otlu yerdə atdın düşdülər ki, atlar bir az otlasın. Aşıq Ələsgər yenə də fikirliydi. Düzdü, gedirdi, amma əlacı olsa, getməzdi. Fikir Aşıq Ələsgərin ürəyini darıxdıranda dayana bilmədi. Sazı köynəyindən çıxartdı, çalmaq istəyəndə Qara dedi:

– Qardaş, bəs bayaqdan məhərrəmliyin qırxını gözləyirdin; indi saz çalmağa tələsiyirsən!

– Evin tikilsin, vurhavuru görmürsən?!

– Nə vurhavur?

– Bu saat mənim qəlbimdə iki padişahın davasıdır.

– Hansı padişahların?

– Qulaq as, gör hansı padişahların.

Aşıq Ələsgər belə deyəndən sonra sazı sinəsinə basdı, görək Məşədi Qara nə eşitdi:

Nəfs ilə mə'rifət durub cahanda,
Mərfət deyir:-Belə kar eyləməynəm!
Nəfs deyir: – Baxta naqqal sözünə,
Xeyrin gələn yerdə ar eyləməynəm.

Qara indi başa düşdü ki, Aşıq Ələsgərin qəlbində hansı padişahlar dava eləyirmiş. Aşıq Ələsgər o biri bəndi, görək Mə'rifət nə deyir:

Günahkardı nə ki yoldan azan var,
İki mələk-xeyir-şəri yazan var,
Nəkreyin var, Qıl körpü var, qazan var,
Rövşən yollarını tar eyləməynəm.

Aşıq Ələsgər qışın son ayında bir yana getməmişdi. Ondan sonra məhərrəmlik araya düşmüşdü. Bu il birinci dəfəydi ki, xeyir işə gedirdi.

Aldı Nəfs:

Zimistan çəkmişəm, yeni yaz olub,
Üzüm gözəllərə payəndaz olub,

Sözüm bəyənilib, işim saz olub,
Sən Allah, siftəmi kor eyləməynəm!

Aldı Mə'rifət:

Haqq bizə göndərib dəlili-ayət:
Oruc tut, namaz qıl, eylə ibadət,
Mehdi divanında olma xəcalət,
Məhşərdə yerini nar eyləməynəm!

Aldı Nəfs:

Sən müstərsən, lovğa-lovğa danışma,
Belə sualları məndən soruşma,
Nə xeyrimə, nə şərimə qarışma,
Qarışsan, çıx, yeri dar eyləməynəm.

Qardaşlıq məsələsi də Nəfsin tərəfini saxladı, Mə'rifəti kiritdilər. Aşıq Ələsgərlə Məşədi Qara atlarını minib, yollarına davam elədilər. Gəlib Urumbasar gədiyini aşdılar, Söyüdlü yaylağına baxanda gördülər ki, Söyüdlü qəbirstanlığında böyük yığıncaq var.

Mənim əzizlərim, o gecə Qonur yaylağına çox gücdü yağış yağmışdı. Təzə toyu olmuş bir oğlanla bir qızı da sel aparmışdı. Camaat meyitləri basdırmağa gətirmişdi. Qəbirstanlıqdakı yığıncaq həmin yığıncaq idi.

Aşıq Ələsgərin yolu qəbirstanlığın yanından keçirdi. Bir də camaat gördü ki, Aşıq gəlir. Ölən oğlanın atası, anası, qohumları başladılar təzədən özlərini döyüb ağlamağa. Oğlanın anası camaatdan ayrıldı, Aşıq Ələsgərin qabağına yeridi, saçını yola-yola dillə ağladı:

– Ay Aşıq Ələsgər, oğlumun toyunamı gəlibsən? Ay Allahı istəyən, mana daha sağlıq lazım deyil, öldürün məni!.. Allah, bu zülmü kimin başına gətiribsən!?

Arvad özündən getdi. Üzünə su səpib ayıltılar. Oğlanın o biri qohumları, atası özlərini döyməkdən haldan-düşdən düşmüşdülər.

Aşıq Ələsgərgil atdan düşdülər, cənazələrə sarı getdilər. bir kişi meyitlərin üzündən örtüyü götürdü. Aşıq Ələsgər gördü ki, oğlan pəhləvan kimi iri gövdəli, enli kürəkli, çatmaqaşlı bir gözəl oğlandır ki, gəl görəsən. Qızın gözəlliyi də ki, dillə deyiləsi deyil. Bunları belə görəndə Məşədi Qara da özünü saxlaya bilmədi; hönkür-hönkür

ağladı. Doğrudu, Aşıq Ələsgər ağlamadı, amma dünya gözündə qaranlıq oldu.

Mənim əzizlərim, insan belədir ki, ölü görməyəndə, qəbirstanlıq görməyəndə çox zaman ölmək yadına düşməz. Elə bilər ki, dünya durduqca yaşayacaqdır. Bu pərişanlığı görəndə Aşıq Ələsgəri də fikir götürdü. Gördü ki, dünya çox vəfasızdı. Nə qədər çalışsan, nə qədər əlləşsən, nə qədər var toplasan, axırı yenə ölümdür; dünyanın malı dünyada qalacaqdır. Aşıq Ələsgərin sinəsi doldu, dərdi tüğyan elədi. Ona kimi ölən oğlanın atası dilləndi:

– Aşıq Ələsgər, oğlumun ələ keçmədin, çalmadın, oxumadın, tə'rif demədin; səsini eşitmədik. Vay günündə öz ayağınla gəlib çıxıbsan. Allahın bu işinə sən nə deyirsən?!

Aşıq Ələsgər gördü ki, bu kişi söz istəyir. Fıkirləşdi ki, gəl elə söz de, həm qəmli olsun, həm də ölən cavanların ata-anasına təskinlik versin. Sazı köynəyindən çıxartmadı ki, saz çalmaq buradakı adamlara pis gələr. Elə dilcavabı öz könlünə üzünü tutdu, dedi:

Qafil könül, bu nə yoldu tutubsan,
Sərf edirsən nə kamaldı dünyada!?
Dövlətə güvənib, gül tək açılma,
Çox sənin tək güllər soldu dünyada.

Aşıq Ələsgər belə deyəndə kişi dilləndi:

– Aşıq Ələsgər, axı sən Aşıq Ələsgərsən; sazını çıxart, saz ilə de! Oğlumun toyunu eləyə bilmədin, vayını elə!

Kişi belə deyəndə camaat yenə təzədən ağlaşdı. Aşıq Ələsgər sazı köynəyindən çıxartdı, "Hicran Kərəmi" havası ilə görək nə dedi:

Kibridən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı,
Yüz sənin tək ahu gəzən şahmarı
Fələk kəməndinə saldı dünyada.

Guşumda sığradı, sinəmdə dağdı:
Ağıllı unutmaz, neçə ki, sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Atalar deyibdi: " Ölüm var ölüm kimi, ölüm var zülüm kimi". Bu cavanların ölümü çox zülümlü idi.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Fələk bəhrəm edib çox nizamları,
Söndürüb zülm ilə yanan şamları;
Hayıf cavanların gül əndamları,
Mara-mura qismət oldu dünyada.

Camaat bu bəndi eşidəndə yenə hönkür-hönkür ağlaşdı. Aşıq Ələsgər yenə fikirləşdi, gəl bunlara de ki, heç kəs dünyada qalası deyil; hamı bu yolun yolçusudur. Mən özüm də bu gün varam, sabah yoxam. Aldı, görək özünün axır günü necə yad elədi:

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada!

Söz tamama yetişəndən sonra ölüləri dəfn elədilər. Aşıq Ələsgərgil atlarını mindilər, Göllər yaylağına yola düşdülər. Qəbirstanlıqdakı adamlar da ağlaşa-ağlaşa öz yaylaqlarına qayıtdılar. Aşıq Ələsgərgil Göllər yaylağına çatanda gördülər ki, toy adamları gediblər.

– Məşədi Qara arvadından soruşdu:

– Camaat nə zaman gedib?

Arvadı dedi:

– Dünən axşama qədər sizi gözlədilər, gəlib çıxmadınız. Bu gün Aladağlı yaylağına gəlini gətirməyə getdilər. Dedilər ki, Aşıq Ələsgərgil gələndə bizim dalımızca Aladağlı yaylağına gəlsinlər.

Aşıq Ələsgərgil tələsik çay-çörək yedilər, atlarını minib, Aladağlı yaylağına yola düşdülər. Çay Alxaslısı kəndinə yetişəndə gördülər ki, qabaqda bir dəstə qız-gəlin, az qalıblar ki, Hacı Ələmşahın körpüsünə çatsınlar. Bunlar da həmin toya gedirlər.

Sel aparan cavanların qəm-qüssəsi Aşıq Ələsgərin əhvalını çox pərişan eləmişdi. Düzdü, toya gedirdi, amma könlü heç açılmırdı.

Qız-gəlinlər Aşıq Ələsgəri görüb tanıdılar. Bir-biri ilə nə

danışdılarsa, körpünün üstünə çatanda əl-ələ tutub dayandılar. Aşıq Ələsgər dedi:

– A bala, bu tərəfə durun, keçək!

Qızların biri dilləndi:

– Aşıq Ələsgər, bizim üçün bir qatar oxumasan, qoymarıq keçəsiniz.

Aşıq Ələsgər dedi:

Qızlar, tələsiyirik. Gedək, toyda sizin üçün nə qədər desəniz oxuyaram. Heç elə şey olmaz. Burada bizə tə'rif deməsən, yoldan çəkilmərik. Bizi atla ayaqlayıb keçəcəksinizsə, keçin.

Aşıq Ələsgər gözünü qızlara gəzdirdi, gördü ki, doğurdan da bunlara tə'rif yaraşır. Yerindən gözəl olan qızlar toy paltarını da kı geyiblər, olublar, hərəsi bir mələkə. Yavaşca atdan düşdü sazı köynəyindən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi. Aldı, görək bu körpünün üstündə gözəllərə nə dedi:

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə, gözəllər!
Camalın şö'ləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!

Qəmgin idim, sizi görüb gülürəm,
Qaşınız qiblədi, səcdə qılıram,
İkram ilə sizə sarı gəlirəm,
Siz də gəlin asta-asta, gözəllər!

Dilavər qızlardan biri dilləndi:

– Aşıq Ələsgər, nə çoxdu bizdə dövlət, Şuşa qalasının alverçilərində də çit. Hərə bir dəst paltar geyməklə hamı gözəl olmadı ha! Sən gərək buraya yığılanlardan kim gözəldirsə, adını deyəsən.

Aşıq Ələsgər qızların danışığına da fikir vermişdi. Çoxusunun adını eşitmişdi. Eləsi də var idi ki, dost-tanışının qızı idi, adını bilirdi. Aldı, görək bu bənddə gözəllərin hansının adını çəkdi:

Minəş günə bənzər, Əsli bir aya,
Şəms olub, aləmə salıbdı saya.

İncimərəm, qəsəm olsun Xudaya,
Qədəm bassa gözüm üstə gözəllər.

Sizi gördüm, çaşdı ağlım, kamalım,
Güllüyə qurbandır dövlətim, malım.
Olmayaydı bir qocalıq, bir ölüm,
Yaşayaydı bu həvəsdə gözəllər!

Aşıq Ələsgər sazı çıxardıb oxumağa başlayanda qızlar yavaş-yavaş körpüdən çəkilib, yolun qırağındakı göy çəmənliyə toplaşdılar. O tərəfdən gələn adamlar da, bu tərəfdən gələn adamlar da ayağını burada saxlayıb, Aşıq Ələsgərə qulaq asırdı. Nə başınızı ağrıdım, böyük bir məclis düzəlmişdi.

Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Pərzad mələkədi, Gövhər bir xanım,
Görən kimi getdi dinim, imanım.
Yazıq Ələsgərəm, sərgərdan canım,
Qurban sizi kimi dosta, gözəllər!

Elə ki, söz tamama yetişdi. Aşıq Ələsgər gördü ki, sarı geyimli bir gəlin var, boy buxunda, qəddi-qamətdə çox düzgündür. Hörükləri də düz topuğuna dəyir. Amma üzü rübəndilər, sifəti görünmür ki, bilə camalı necədir. Aşıq Ələsgər istədi ki, sazı köynəyinə qoya, ona qədər meh əsdi, həmin gəlinin üzündən örtüyü atdı. Aşıq Ələsgər gördü ki, hələ bu gözəllikdə adama rast gəlməyib. Elə bil ki, belindəki qızıl kəmər öz parıltısını gəlinin üzündən alıb. Aşıq Ələsgər sazı sinəsinə basdı, görək bu sarı geyimli gəlini necə tə'rif elədi:

Cilvələnib, nə qarşımda durubsan,
Canım sana qurban, ay sarı köynək!
Mələksən, çıxıbsan cənnət bağından,
Heç kim olmaz sana tay, sarı köynək!

Doymaq olmaz sənin işvə-nazından,
Fərə kəklik kimi xoş avazından.

Yel vurdu, rübəndi atdı üzündən,
Elə bildim, doğdu Ay, sarı köynək!

Gözəlsən, tə'rifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala,
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, sarı köynək!

Gərdənə yaraşır qızıl hamayıl,
Görənin ağlını eyləyib zayıl,
Həsrətin çəkənlər olubdu sayıl,
Yığır qapılardan pay, sarı köynək!

Ona kimi qızlar bir-birinə dedi ki, Aşıq Ələsgər bu tə'rifi təkcə Salatına deyir. Aşıq Ələsgər bu sarı geyimli qızın adını eşitdi, görək tapşırmada nə dedi:

Tuti dilli, sərv boylu Salatın,
Yoxmu mərhəməti bu səltənətin.
Göndər gəlsin Ələsgərin xələtin,
Eyləmə əməyin zay, sarı köynək!

Mənim əzizlərim, elə ki söz tamama yetişdi, Aşıq Ələsgər istədi ki, sazı köynəyinə qoysun. Bu zaman qızlardan biri hirsli-hirsli dilləndi:

– Düz deyiblər ki, yekə gözdən yiyəsinə xeyir yoxdur. Aşıq üzü örtülü qızları tə'riflədi, üzünə tamaşa eləyən əsil gözəlləri görə bilmədi.

Aşıq Ələsgər başa düşdü ki, bu qız nə deyir. Toya gedək, qalanını da orada deyərəm.

– Axı özün deyibsən: "Aşığın nisyəsi..." Elə bu nisyə də o nisyə kimidir. Toyda bizdən gözəl qız görəndə, onu tə'rifləyəcəksən; heç biz yada düşməyəcəyik. Mənə tə'rif yaraşmırsa, bu tə'rifli qızlarla getmirəm.

Qız belə deyəndən sonra yoldaşlarından ayrılıb, geri qayıtmaq istədi. Qızlar onun qolundan tutub yalvardılar:

– Ay Şəkər, sən getməsən, biz də getməyəcəyik. Hamımızdan

sən gözəlsən. Aşıq Ələsgər gördü ki, bu qızın, doğurdan da, küsməyə haqqı var, elə bil ki, qaşı, gözü qələmlə çəkilib. Sazı sinəsinə basdı, görək Şəkərin könlünü necə aldı:

Getmə göz önündən, ay Şəkər xanım,
Könül mayıl olub o qələm qaşa.
Gəl əyləş məclisdə, sən mənim canım!
Mən saz çalım, sən də eylə tamaşa.

Mən aşığam, yasaq yoxdu dilimə,
Şükr eylərəm haqdan gələn zülümə.
Sənin kimi gözəl keçməz əlimə,
Yüz il gəzsən bu dünyanı baş-başa.

Gözəllər sultanı, mələklər xanı,
Qaytarmazlar pirə gələn qurbanı;
Öldür Ələsgəri, qurtarsın canı,
Vay xəbərin göndər qohum-qardaşa.

Söz tamama yetişəndən sonra Şəkər də bu qızlara qoşuldu, gülüşə-gülüşə, danışa-danışa şad-xürrəm yol başladılar Alağalı yaylağına. Aşıq Ələsgərgil də atları minib, birbaş toya tərəf gəldilər. Yaylağa çatanda gördülər ki, qonşu kəndlərdən, yaxındakı yaylaqlardan buraya o qədər adam gəlibdir ki, sayı-hesabı yoxdur. Camaat Aşıq Ələsgəri görəndə çox şad oldu. Məşədi Qaradan o qədər razı qaldılar ki, az qaldılar götürüb başlarında gəzdirsinlər.

Böyük bir mağar tikmişdilər. Axşam oldu, camaat mağara toplaşdı. Bir tərəfdə kişilər, bir tərəfdə arvadlar əyləşdilər. Aşıq Ələsgər sazı götürüb söhbətə başladı. Gözünü gəzdirəndə gördü ki, arvadların içində bir gözəl gəlin əyləşib, Ay kimi dörd tərəfə işıq salır. Nə qədər gözəl görübsə, bundan gözəlinə rast olmayıb. Aldı, görək "Köhnə gözəlləmə" havası ilə nə dedi:

Xəstə könül dərdü qəmdən ayıldı,
Bu gün məclisimə bir can gəlibdi.
Şö'ləsi aləmi edib münəvvər,
Zahir deyil, özü pünhan gəlibdi.

Onun bu gəlməyi, gör, nəyə bənzər,
Nə xana, sultana, nə bəyə bənzər,
Misirdən gəlmiş bir köynəyə bənzər,
Kən'anda Yaquba dərman gəlibdi.

Ələsgər görcəyin candan usanıb,
Camalından şəmsü qəmər utanıb,
Nə behiştdə belə qılman yaranıb,
Nə dünyaya belə insan gəlibdi.

Aşıq Ələsgər sözə başlayanda gözəl qızların çoxusu elə hesab elədi ki, tə'rifi ona deyir. Amma cammat başa düşdü ki, Aşıq Ələsgər kimi tə'rifləyir.

Aşıq Ələsgər o gecə Qurbaninin nağılını başladı, xoruz banına kimi danışdı, eşidənlərə ləzzət verdi. Camaat aşığa yaxşı dövran pulu yığdı. Pul yığılanda gördülər ki, bir qadın gətirib Aşıq qabağına bir bağlama qoydu. Aşıq Ələsgər soruşdu:

– A bacı, bu nədir?

– Aşıq Ələsgər, adını çəkməsən də, hamı bildi ki, axşamkı tə'rifi mənim qızıma dedin. Bağlamada elə artıq bir şey yoxdu; bir çuxalıq mahuddur. Sağlıq olsun, arana yönün düşəndə xələtini orada verərik.

O gecə qaldılar, səhər hamınızın üzərinə xeyirliklə açılsın, səhər açıldı. Yemək-içməkdən sonra gəlini atlandırdılar, Göllər yaylağına gəldilər.

Hava çox xoş idi. Gəlin mənzilə çatanda qurban kəsdilər. Aşıq Ələsgər bir neçə oyun havası çaldı, cavanlar oynadı. Camaat halqa vurub əyləşmişdi. Aşıq Ələsgər də dizinin altına bir mütəkkə qoyub, dizi üstə söhbət eləyirdi. Ağsaqqalların çoxusu Aşıq Ələsgərin yanındaydı. Dəmirçidamlı Kərbəlayı Ocaqqulu onun sağ tərəfində qəlyan çəkirdi.

Aşıq Ələsgərgilə çay gətirdilər. Aşıq Ələsgər sazını o tərəfə qoydu ki, çayını içsin. Bir də gördü ki, budur bir dəstə qız-gəlin Ələm ağacından bəri töküldü. Amma bunların içində bir gözəl var, iki ağaclıqdan adamın gözünü qamaşdırır. Aşıq Ələsgərin təbi cuşə gəldi, sazını götürəndə Kərbəlayı Ocaqqulu dedi:

– Aşıq Ələsgər, çayın soyuyur, sonra çalarsan.

Elə bil ki, Aşıq Ələsgər onun sözünü eşitmədi. Sazını sinəsinə

basdı, görək nə dedi:

Kalvayı, fəhm elə, gör,
Bu gələn insandı, nədi!?
Ay qabaq şö'lə verir,
Mehri-dirəxşandı, nədi!?
Titrəşir var əndamı,
Dərdlərə dərmandı, nədi!?
Gözləri canım alır,
Afəti-dövrandı, nədi!?
Huridirmi, pəridirmi,
Mələkdi, qılmandı, nədi!?

Camaat gördü ki, Aşıq Ələsgəri qınamalı deyil; doğurdan da, zalımın balası elə gözəldir ki, tayı-bərabəri yoxdur. İsti gündə yoxuşu çıxıb, enişi enib tərləyən qızın al yanaqları bir az da qızarıb. Elə bil ki, təzə açılmış dağ lalasıdır. Boğazının iki düyməsini açıbdır, sinəsi qüzey qarı kimi ağarır. Ala gözləri az qalır ki, cəllad kimi adamın canını ala.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Göz gördü, könül sevdi
Gözlərinin alasını;
Gül görsə xəcil olar
Yanağının lalasını;
Getmə gözüm önündən,
Alım gözüm bəlasını;
Xəstə içsə dirili
Ləbinin piyalasını;
Şirəsi abi-həyat,
Şərbəti-Loğmandı, nədi!?

Dünya təbdil olubdu,
Gözəl biilqar görünür;
Açılıb mərmər sinə,
Aləmə aşkar görünür;
Örtməynən sən üstünü,

Dünya mana dar görünür;
Qoynundu gülşən bağı,
Bir cüt qoşa nar görünür;
Ey Xudaya, sirr qaldım,
Cənnəti-rizvandı, nədi!?

O oradan dedi bu kimdir, bu buradan dedi bu kimdir?.. Tanıyanlar dedilər ki, Güneypəyəli Dilbərdi, filankəsin də gəlinidir.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Bu simi-zənəxdanın
Mirvari xallarına bax;
Bərq verir büllur buxaq,
Savalanın qarına bax;
Çarxı dönmüş fələyin
Sən kəc irəftarına bax;
Fəhm elə, diqqət ilə
Özünə bax, yarına bax;
Çəkilib dal-qaməti,
Sərvi-xuramandı, nədi!?

Dilbər Aşıq Ələsgərin gözünün qabağından sallana-sallana keçdi, qız-gəlinlərin yığıncağına qarışdı. Buradakı qızlar ona dedilər ki, sən oradan çıxandan Aşıq Ələsgər səni tə'rifləyir. Dilbər də öz tə'rifinin son bəndinə diqqətlə qulaq asmağa başladı. Aldı Aşıq Ələsgər sözün son bəndini:

Hazarat, haqqa baxın,
Qəlbdən ehsan eləyin;
Mənim bu dərdi-dilimi
Dostlara əyan eləyin;
Ölürəm, mən xəstənin
Dərdinə dərman eləyin;
Aparın Ələsgəri,
Payında qurban eləyin;
Bimürvət. bəlkə, baxa.
Deyə: "Bu,qurbandı, nədi?"

Aşıq Ələsgər o gecə də orada qaldı, Qurbanının nağılının qalanını danışdı.

Camaat 15 gün Aşıq Ələsgəri buraxmadı. O bir-birinin dalınca altı toy elədi. Sizi də həmişə sazda, kefdə, damaqda olasınız!

AŞIQ ƏLƏSGƏRİN QARAQOYUNLU SƏFƏRİ

Qaraqoyunnu Mikayıl Alı oğlu yayın oğlan çağında tezdən Göyçə gölünün qırağında olan Toxluca kəndinnən atnan Qaraqoyunnuya qayıdırmış. Toxlucanın yalındakı Meydan düzünə çatanda görür kü, yoldan xeyli aralı çəmənnikdə daşın üstündə bir nəfər əyləşif dincəlir. Yaxınnaşıf atdan düşür, salam verif, əleyk alır. Görür kü, bu, qəddi-qamətdi, göydəli, amma yaşı ötmüş kişinin yanında saz da var. Aşıx ixtiyarraşsa da, Mikayıla tanış gəlir. Hərənin könnündən bir tarix keçir. Keçən günnəri varaxlıyıf bu günə qayıdıllar.

Aşıx Mikayıldan soruşur:

– Oğul, Göyçədənsənmi? Hara belə, uğur ola?

– Əmi, Qaraqoyunnudanam. Toxlucadan gəlirəm.

Aşıx ürəyində: "Yaxşı oldu, təklik də bir şey döy, hayan oluf gedərik..."

– Oğul, mən də elə Toxlucadan gəlirəm, yoruldum, qojalıx da bir zad döy. Əyləş, dincəl. Mənim də səfərim Qaraqoyunnuyadı. Ama çoxdan yolum bu Meydan düzünə düşmür. Bu yeri könlüm çox istiyir. Murazım vardı. Bura manşır yerdi. Yaxşı oldu, gəldin. Sən də bilsən yaxşıdı... Bax o geniş düzəngahı görürsən. Gör, nejə çəmənzardı. Odu, Şah dağınnan gələn bulax suyu iki yerə bölünür. Yarısı Göyçüyə doğru axıf gedir, yarısı da sola buruluf Qaraqoyunnu dərəsinə tərəf axır. Elə Şah dağı da bax burda qurtarır. Odu, Çəmbərəyin qavağınnan qısır Murğuz başdıyır. Bə burya niyə Şah dağı deyillər, bilirsənmi?... Oğul, Şeyx oğlu Şah İsmayıl buraları tutanda bax burda ordugah qurub, məskən salıv. O zaman Göyçə mahalında Sarıyaquf kəndində çox sayılmış Miskin Abdal addı bir aşıx oluf. Miskin Abdalın nəsli ojax oluv. Qapısına ziyarətə gəlirmişlər, ora mənim də yolum düşüv. Ojağa, Miskin Abdalın ağlına, kamalına hamı hörmət edif. Şah İsmayıl Abdalı yanına çağırıf sözünü dinniyif, ona hörmət eliyif. Miskin Abdalın aşıxlığına fərman verif. Həm də Göyçə camaatına üz tutuf deyif ki, ey Göyçə camaatı, Miskin ojağına hörmət edin, Miskin Abdala inanın.

Fərman Miskin Abdalın adını-sanını daha da artırır. Göyçədə ona çox hörmət eliyillər. Miskin ojağına gedif- gələnlərin sayı daha da

artır. İndi də bu ojağı ziyarətgah kimi qoruyuf saxlıyıllar... Bax, burda Miskin Abdal Şahın adına Şah Xətayı havası bağlıyır, bir də üzünü dağlara tutur.

Qoja aşıx əhvalatı danışa-danışa sazı köynəkdən çıxarır, sahmannıyıf çalmağa başdıyır.

– Bax, bu "Dağlar"ı Miskin Abdal Şaha qonağ olanda üzünü Şah dağına tutuf deyir:

Məğribdən Məşriqə səf çəkib duruf,
Qüdrətdən çəkifdi baş-başa dağlar.
Qoynunda mehmandı şahi-mərdanım,
Yanaşı qarıyın siz qoşa, dağlar.

O zaman Şah İsmayılın Zülfüqarı Məğribdən Məşriqə işdiyirdi:

Ağ çeşmən sərindən car eylər seli,
Yaşıl tirmə geyər, qurşanar beli.
Dağıstan kölgəsi, zabitə yeli,
Sərin səfalıdı həmişə dağlar.

O zaman Şah Miskin Abdalı Dağıstana buyruğa göndərmişdi. Orda Miskin Abdalın başına çox işlər gəlif. Bu ayrı bir söhbətdi. Ona görə Dağıstanı yada salır:

Nəs illərdən satın aldın nəs günü,
Çağırdın dumanı, tökdün çiskini,
Gözü yaşdı qoydun cüda Miskini
Elə gülə-gülə tamaşa, dağlar.

Aşıx Miskin Abdalın sözünü qurtarıf çox kədərrənir. Baharın bu gözəl çağında Aşığın üzünə duman çökür. Aşığın əhvalının çox pozulduğunu görən Mikayıl ürəklənif deyir:

– Ay usta, nooldu sana, niyə belə hala düşdün?

Bulud kimi dolan aşıx haçandan-haçana dillənir:

– Oğul, kaş Şah İsmayıl indi sağ oleydi. Yəəsizdik, başsızdıx belədi. Gavır İrannan, Turannan gəldi doldu torpağımıza, Ərəseydən də duxavor, malağan gəldi. Odu, bax bir yanı Gədəbəy, bir yanı

Çəmbərək-gavır doluf. Qaraqoyunnu dərəsinnən Göyçənin arasına. O tərəfdən də Dilican dərəsinə. Bu yannan Şəmşəddin mahalı gavır tafdağına çevrilif. Erməni arannan bizim aramıza girdi. İngilisdən silah aldı. Göyçüyü də, Qaraqoyunnuyu da topa tutdu, qırdı, qanı axıf bax bu Göyçə dənizinə töküldü. Əl-ayağı tutan, başaran Osmannıya addadı, başarmayan da Kəlbəcərə, Gədəbəyə pənah apardı. Başsızdıx belədi, ay oğul. Hökumətimiz olsaydı ordu düzəldər, silah alar, milləti qoruyardı. Mən onunçun bax burda ordugah quran o cavan şahı arzuladım. Tarixdə az-az adam elə qoçax oluv.

Aşıq sazı kökləyə-kökləyə üzünü "Şah dağı"na tutdu:

Aləmdə dastan oluf
Səddin, sorağın, Şah dağı!
Açılıf nərgiz, bənövşən,
Əcəbdi çağın, Şah dağı!
Abi-kövsər kimi axır
Çeşmən, bulağın, Şah dağı!
Hayıf olan, bu çeşmədə
Yoxdu sorağın, Şah dağı!
Müxənnət yaylar köysündə,
Pozar damağın, Şah dağı!

Haqq səni cənnət yaradıf,
Qanan yoxdu, qədrin bilə;
Sədrin badi-səfasından
Xəstə könlüm gəldi dilə;
Mürğtək balü-pər açdım,
Oxudum döndüm bülbülə;
Bir gözəl keçdi qarşıdan
Gözlərindən gülə-gülə;
Dağıtdı ömrüm qəfləsin,
Nə çoxdu yağın, Şah dağı.

Bir tərəfin Çənbərəkdi.
Görənin həvəsi gəlir;
Topaşanda qəflə işlər,
Gəncənin meyvəsi gəlir;

İstanbulun al qumaşı,
Bağdadın xurması gəlir;
Oxuyur türfə gözəllər,
Kəkliktək səsası gəlir;
Aşıq üçün cənnət qoxur,
Daşın, torpağın, Şah dağı!

Xudam səni xoş yaradıf,
Hər kim görsə, xoşlayacaq;
Yay gözəl sehrangahısan,
Qışda maral qışlayacaq;
Yazıq Ələsgər yolunda
Başu can bağışlayacaq;
Aşıx sənnən incik gedir,
Ərzi-giley başlayacaq;
Özünə də mə'lum olsun,
Küsüf qonağın, Şah dağı!

Aşıq Şah dağına dediyi sözü qurtardı. Sazı kənara qoydu. Tənbəki kisəsini çıxartdı. Qəlyanı kisənin içərisində gəzdirdi, baş barmağınnan tənbəkini bastaladı. Çuvuğu damağına sıxdı. Sonra kisədən qovu daşdarını çıxarıf üst-üstə tutdu, çaxmağı çaldı, qov tüstüləndi, götürüb qəlyanını ağzına qoydu, çuvuğu sordu. Gözünnən bir də dağları dönə-dönə süzdü, köksünü ötürdü. Meydan düzünnən Çənbərək yaylaxları da, Murğuz dağı da, ətrafda neçə dağ, neçə gədik cərgə-cərgə dururdu. Aşıx qaşını çatıf qəlyanı yana qoydu, təzədən sazı sinəsinə basdı:

Bir ay yarım nobahardan keçəndə,
Car olur köysündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu büsatlar?!
Dərdi-məndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Nejə oldu köysündə yaylayan ellər,
Görəndə gözümdə car oldu illər,
Yığılmır üstünə türfə gözəllər,
Sancılmır buxağa güllərin, dağlar.

Hanı mərd iyidlər, boş qalıf yurdu?!
Səxavətdə Eldar nurə'lanurdu;
Erkək kəsif, ağır məclis qururdu,
Şülən çəkilirdi malların, dağlar!

Gözəllər çeşməndən götürmür abı,
Dad vermir dəhanda kövsər şərabı.
Düşdü xaçpərəstlə pund inqilabı,
Onunçün bağlandı yolların, dağlar.

Sarınərdən top-tüfəngin atıldı,
Muroy, Murğuz Şah dağına çatıldı.
Bir əmliyin bir tümənə satıldı,
Xəzəl oldu yenə pulların, dağlar!

Kəpəz, Murov, Qonur bir neçə dağ var,
Üstünə nur yağsın ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkmir üstündə sərdarın, dağlar!

Elə ki, şər gəldi, qaraltdı qaşı,
Dumana qərq oldu dağların başı.
Düşəndə qurd ilə ilə kəlbin savaşı,
Uzun çəkir qilu qalların, dağlar!

Halıyam ellərin mən naləsindən,
Yatmırdılar bir-birinin bəhsindən,
İyid nə'rəsindən, güllə səsindən
Dəyməmiş tökülür kalların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı.

Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgər tək qulların, dağlar!

Aşıx sözünü qurtardı. Elə bil dolan bulud boşaldı. Mikayıl bir səmtə çəkilif aşığın haldan-hala düşdüyünə altdan-altdan tamaşa eliyirdi. Cıqqırını da çıxartmırdı. Təzədən qəlyanı damağına aparan aşıx dedi:

– Oğul, bavat sözü aşıq xəlvətə çəkilif deyir. Mərəkə arasında fikir dolaşır. Mən də elə oxuduxlarımı ovadan-ovaya gedəndə, dincələndə fikrimi cəmləşdirif demişəm...

Oğul, Miskin Abdalın əhvalatı uzundu. Dağıstanda da, Göyçədə də, İranda da çox bəlalar çəkif, çox dəyanətti, ağıllı, kamallı adam oluf. Hə... bir az yüngülləşdim. İndi gedə bilərik.

Aşıq "Ya Allah"- deyif ayağa qalxdı. Balaca həyvəsini çiyninə atdı. Sazı ələ aldı. Burdan enif dağın ətəyinə düşdülər... Bura Dəmirri damı deyəllər.

Mikayıl dedi:

– Ay ustad, indi atı min, bəəxki söhbətinin dalını yavaş-yavaş danış. Gedək.

Aşıx "sağ ol, oğul" – deyif atı mindi, yola düşdülər. Aşıx ürəyində də oğlana minnətdarrıx elədi. Nə fikirrəşdisə, dönüf oğlannan soruşdu:

– Oğul, heş soruşmadım, Qaraqoyunnu gərək ki, on-on iki kənddi.

– Usta, düz deyirsən, elə irili-xırdalı on iki kənddi.

– Sən hansı kənddənsən, oğul?

– Bizim kənd Əmirxeyirdi. Burdan birinci ovadı. Bir az da aralı Bəryavaddı. İkisi bir kənd sayılır. Hamısı bir-birinə yaxındı. Bax, o görünən dağ Cantəpədi. Onun ətəyində Əmirxeyirdi.

– Ay oğul, orda Mələk adında bir gəlin var. Hajı Alı qızı deyəllər. O nejədi?

Mikayıl söhbəti zarafata döndərif dedi:

– Aşıx, kənddə bir kişi tapmadınmı soruşasan?

Söz aşığı bərk tutdu. Atı saxlıyıf düşdü.

– Bala, mərdimazarı axtarmaxnan ha döy. Özü ayağınnan gəlif səni tapır. Mən daha gedəsi olmadım. Ama, ürəyimə bir qatar söz gəldi, onu deyim, sonra ayrılax.

Aşıx sazı çıxardıf köksünə sıxdı:

Könlümün şişəsi saqın ki, sınar,
Toxunarsa ayna daşa, dayanmaz.
Əl dəyməmiş yaralarım sızıldar,
Vursan sinə üstə maşa, dayanmaz.

Xəstə könül istər narı görəndə,
Ya dost dostu, ya yar yarı görəndə.
Bülbül gül üstündə xarı görəndə,
Qan ağlar, ruxsarı yaşa, dayanmaz.

Ələsgər də nazlı yara qul ola,
Yanıf cismi ataşına gül ola,
Canı çıxar dərd ürəkdə bol ola
Qəm qalxıf başından aşa, dayanmaz.

Mikayıl yenə zarafatınnan qalmır. Aşığa deyir:

– Ay bava, indiyə kimi sən danışdın, mən də qulağ asdım. Bu azca vaxt sənnən çox şey öyrəndim. Çox sağ ol, Ələsgər bava, nəmərini kənddə verəjəm. Qaldı Mələyə, Mələk mənim doğma mamamdı (Qaraqoyunnuda atanın bajısına mama deyillər). Mən, soruşduğun Hajı Alının oğluyam, adım da Mikayıldı. Mamam Mələk həmişə toylarda sənin oxumağınnan danışır. Mamam qojalıf, dərd qəddini əyif. Səni Mələyin yanına aparajam.

Mikayıl "atı min" deyif üzəngiyi basdı.

– Ay qırışmal, bə bəəxdən niyə demirsən? Böyük oğlan olufsan. Mən sizdə olanda sən uşağıydın.

– Ələsgər bava, sən soruşmadın, mən də demədim.

Ələsgər dinməz-söyləməz atın belinə qalxdı. Yola düşdülər.

Ələsgər niyə Mələyi soruşurdu?

Mələk Qaraqoyunnudan Göyçüyə gəlin getmişdi. Ələsgərin dostunun oğluna. Toylarını da Ələsgər eləmişdi. Addı-sanı bir ailənin gəliniydi. Mələk, doğrudan da, göydən enmiş mələyə bənziyirdi. Göyçədə ərə getdiyi ovada qəddi-qaməti, şux geyimi, ağlı-kamalınnan seçilirdi... Qızıl üstə ilan qıvrılıf yatan kimi Mələyin də xoşbəxt yuvasının damında elə bil, zəhərri ilan qəsdə durufmuş... Mələyin

bir övladı olmadı. Bunu ərə getdiyi ev özünə dərd eləmədi. Pund davası düşdü. Göyçədə dağılan tifaqın biri də Mələyin isti yuvası oldu. Kafirrər Mələyin ərini öldürdülər, qaynatası Hajı Məhəmməd birtəhər Mələyi aradan çıxartdı. Qaraqoyunnuya, atası evinə göndərdi. Özü də bu dərdə dözmədi, ürəyi partdadı.

Ələsgər Hajı Məhəmmədnən yaxın dostuydu. Öyündə neçə yol çörək kəsmişdi. Mələyə də öz gəlini kimi çox hörmətnən yanaşırdı. Qoşduğu tə'rifnamədə də onun bir el gözəli kimi mə'rifətini vəsf eləmişdi. Ələsgər bu dağılan xanimanın uçuf gedən Mələyini beş-altı ildi görmürdü... İstiyirdi dönüf kefini-halını soruşsun...

Mikayıl dedi:

– Ay bava, daa sən mənim qonağımsan. İstiyirəm əvvəlcə yolüstü Pirqulunun yaylağına dönək, burda yaxındadı.

– Yaxşı olar, a bala, maa Pirqulunun qardaşı Ocaxqulu ismarış yolluyuf. Onun xeyir işi var. Dönək deyirsən, dönək.

Mikayıl Aşıx Ələsgəri Cantəpənin ətəyinə, Pirqulunun yatağına gətirdi. Pirqulu Ələsgəri görəndə əvvəl gözünə inanmadı, dinməz-söyləməz yaxınnaşıf qucaxladı. "Xoş gəldin" – dedi. Sonra dönüb Mikayıla:

– Ə... Mikayıl, sən nə yaxşı iş gördün... Bax, nəmərin məndə, gedəndə atın tərkinə bir erkək bağlıyarsan. İndi durma, əl-əyax elə, vaxtında gəlifsiniz. Sürü elə təzə gəlif günorta sağınına. Pirqulu Ələsgərin ayağının altında erkək kəsdi. Çovannar əl-ayağa düşdülər. Ocax çatıldı. Qazan asıldı. Çovan bozartması, kavaf... Ələsgər dedi:

– Ay Pirqulu, kavaf yeyən vaxtım getdi. Doxsanı ötmüşəm. Bozartmayı həll bişir, dişdərim laxlayıf.

– Ay Pirqulu, bax, o zirvənin adı nədir?

– Ələsgər əmi, ora Sarıbulax dağının tacıdı. Adına Çalmalı deyillər.

– Əyə, ona bax, yaratdığına şükür, İlahi! Elə bil, başı duvaxlı gəlindi. Ətəyində qatır-qatır qayalar belinin kəməri, meşələr də ətəyinin qırçınnarıdı. Ay bala, sizin dağların bəzəyi ayrı cürdü.

– Ələsgər əmi, qaçaxları bax o meşələr saxlıyır. Bax o Sarıbulağın ətəyindəki sal qayalığa Kərəm qayası deyillər. Rus qazaxları imkan vermədi. Yığışıf İrana getdi. Qara Tanrıverdi, Qandal Nağı, qardaşı Nəvi hələ də bu dağlardadı. Arada dəli Alı da görünür... Ay Mikayıl, oğul, sazın gəti, uşaxlara bir ağız oxuyax, ertəykən yola

düşək.

Ələsgər dönüf uşaxlara dedi:

– Ay balalar, büyün mənimki dağlarnandı. Heç fikrimnən ayrılmır.

Ələsgər sazı köksünə basdı:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənni, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birinnən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsinnən abi-həyat car olur,
Dağıdır möhnəti, mələli dağlar.

Ələsgər dağların tə'rifini deyif qurtardı. Ama, Cantəpənin ətəyi, Pirqulunun yaylağı Ələsgəri ovsunnamışdı. Yaylağın hansı tərəfinə baxırdı: dağ, meşə, bulaxlar, çəmənnik. Dönüf Pirquluya dedi:

– Oğul, buralar məni laf heyran eliyif, öz yaylaxlarımız yadıma düşdü. İndi qulaq as (Paşa köşdü havasında).

Gözəllər seyrangahısan,
Görüm səni var ol, yaylaq.
Açılsın gülün, nərgizin,
Təzə, murğuzar ol, yaylaq.

Gözüm qaldı siyah teldə
Bülbül öldü, meyli güldə,
Kimsəm yoxdu qürbət eldə
Sən mənə qəmxar ol, yaylaq.

Mən səni görənnən bəri,
Sinəm oldu qəm dəftəri,
Yazıx Aşıq Ələsgəri
Öldür, günahkar ol, yaylax.

Çovanlar Ələsgərə dönə-dönə "sağ ol" – dedilər. Ələsgər sazı köynəkliyif Pirquluynan, uşaxlarnan görüşüf, sağollaşdı. Pirqulu Ələsgəri yola salıf dedi:

– Ələsgər əmi, siz gedin kəndə. Mən də ettik gətirim gəlim. Mikayıl Ələsgəri gətirdi kəndə, Mələyin yanına. Mələk Ələsgəri görəndə əvvəl-əvvəl özünü itirdi. Belə bir görüş gözdəmirdi. Özünü ələ alıf kövrələ-kövrələ dedi:

– Xoş gəlifsən, ay mənim Ələsgər əmim, bə əmi də gəlinini beləmi axtarar? – deyif, Ələsgərə sığındı. Ələsgər Mələyi balası kimi bağrına basdı, saşdarını sığallıyıf öfdü. Beləcə kirpiklərini birneçə dəfə sıxdılar, dəsmal çıxardıf sildilər. Mələk dedi:

– Di, keş, rahatdan. Mən də çay-çörək hazırrıyım.

– Qızım, Pirqulunun yatağında doyunca çörək yemişik. Eləjə çay içəjəm.

Mikayıl zarafata saldı:

– Ələsgər əmi, bu da Mələk mamam.

– Ay Mələk, sənin bu qardaşın oğlu yolda mana yaman sataşdı. Ama mərd oğlandı, günahınnan keşdim.

Mikayıl:

– Ələsgər bava, Meydan dağında mən sənə nəmər söz vermişdim. Bax, indi də sən mana nəmər borşdusan. Mamamnan səni görüşdürdüm.

– Oğul, deyəsən borc-borcu ödədi...

Ələsgər çay içif dincəldi. Axşam Asdanalıoğlu Ocaxqulu gəldi, Ələsgərnən görüşdü. "Xoş gəldin" elədi, dedi:

– Ələsgər əmi, ismarışım sana çatdımı?

– Çatdı, oğul, yol uzaxdı. Mən də ki, görürsən, zamana bir yannan, yaş bir yannan qəddimi əyif. Punt davasınnan bəri Qaraqoyunnuya gələ bilmirdim. Ama, büyün hamısının əvəzini çıxdım. Gedək, xeyir işimizə başddıyax.

– Gedək, Ələsgər əmi, qonşu kənddərə adam göndərmişdim. Demişdim ki, xeyir işə Ələsgər də gələjək. Sənin adını eşidən kimi tökülüşüf gəliflər. Gözdüyüllər.

Ocaxqulu Ələsgəri böyük oğlu Alının kiçik toyuna ismarramışdı. Ələsgər elə bil həsrətində olduğu Qaraqoyunnu camahatınnan görüşə gəlmişdi. Axşamnan başdıyan, Ələsgər gejə yarıdan keçənə qədər oxudu. Söhbət elədi. El-ovaynan dərddəşdi. Mikayıl Ələsgərə

dedi:

– Ələsgər bava, indi də gərək Mələk mamama dediyin tə'rifnaməyi oxuyasan, özü də burada. Elə bil hamı bunu gözdüyürdü:

– Oğul, bunnan mənnən əl çəkəjəksənsə oxuyum. Nə deyirəm.

Ələsgər Şah meydanında olan əhvalatı Şah İsmayılnan Miskin Abdalın görüşünü, axırda da Mikayılnan olan zarafatını söylədi. Sonra keşdi Mələyin tə'rifinə. Biz deyək, siz var olun:

Mən səni bənzətmişəm
Huriyə, qılmana, Mələk!
Gözdərin cannar alır,
Qəmzən səkir qana, Mələk!
Qaşın qüdrətdən çəkilif,
Oxşuyur kamana, Mələk!
Xalının bir dənəsin
Vermərəm cahana, Mələk!
Üzün görüf ayrı düşən
Qalar yana-yana, Mələk!

Əslin düz, nəsilin yaxşı,
Olmuşam elinə mayıl.
Oxuyan şeyda bülbüllər
Bağında güllər a mayıl.
Tutiyi-şirin zəban
Olubdu dilinə mayıl.
Həftərəng-mürği-tovuz
Pərişan telinə mayıl.
Zülfünən tor qurufsan
Alıcı tərlana, Mələk!

Gözəllər dəstə-dəstə
Qulluğuna sana gəlir.
Ağa, rəiyyət, bəy, gəda
Əmrinə fərmana gəlir.
Aşıx, alim, molla, seyid
Dad çəkir, amana gəlir.
Dəlilər dəxil düşür,

Mərizlər loğmana gəlir.
Xəstədi, Ələsgəri
Sən yetir dərmana, Mələk!

Ələsgər oxuduxca Mələk kirpiklərini sıxır, yaş yanaxlarına süzülürdü.

Qaraqoyunnuda pul az işdiyərdi. Xeyir-şərə iri mal, qoyun xərşdiyərdilər. Astanalı uşaxları kimsi cöngə, kimi dana, 7-8 iri heyvan cəmliyif Aşıx Ələsgəri elə Mikayılın özünnən Göyçüyə yola saldılar. Mikayıl Ələsgəri düz Ağkilsiyə qədər ötürüf geri qayıtdı.

AŞIQ ƏLƏSGƏRİN DƏLİ ALININ TOYUNA GƏLMƏSİ

Əvvədcə bir ustad kəlamı deyək:

Huş verin, eşidin arif olannar,
Bu əziz kalamdı bir hekayətdi,
Rəbiyəl əvvəlin düşənbəsində
Məhəmməd peyğəmbər Mehraca getdi.

Cəbrayıl buyurdu mindi büraqa,
Bir damin içində getdi İraqa,
Tez çatdı Qüdəsə düşdü bir ağa,
Ənbiyə ərbahi pişvazın etdi.

Məhəmməd Mehracda qıldı namazı,
Haqqa duva həm eylədi niyazı,
Həsrəti əsmana düşdü avazı,
Üç kimsə danışdı bu Məhəmmədid.

Məhəmməd onlara vermədi cavab,
Versəydi hünbəti çəkərdi əzab,
Cəbrayıl buyurdu eylədi xitab,
İkisi kişidi biri övrətdi.

Oradan səhraya oldu iravan,
Gördü gəldi qarşısına bir cavan,
Salam verdi, dedi: xoş gəldin mehman,
Hünbəti nəbiyə, bu bir mədətdi.

Göydə üç dəniz durur müallaq,
Bir məlagə vardı talımı mərzaq,
Yetmiş min başı var yaradıb Gəllaq,
Həmdi ilahiyə sirri qüdrətdi.

Adəmi Nuhnəbi İsanı gördü,
Davudu, İbrahim, Musanı gördü,
Xəlili Süleyman Yahyanı gördü,
Mustafa buyurdu hax mübibətdi.

Məhşər günü bizə edən şəfayət,
Mələgül mövtilə eylədi söhbət.
Yanındadı hərbi əzimi diraxt,
Loha nigahbandı bərcə heyrətdi.

Mindi Rəf-rəfə eylədi hesab,
Bir ləhzədə keçdi yetmiş min hicab.
Pərdəyi hicabdan olundu xitab,
Xaliq nəbisini orda öyrətdi.

Bir nida eşitdi Məhəmməd çaşdı,
Lütor dəryasınnan bir damla işdi.
Doxsan min kəlamı orda danışdı,
Ərz etdi tavaqqam səndən hünbətdi.

Alimi adildi o Kərəm kanı,
Qadiri həyyasdı yoxdu məkanı,
Müriddü, müdrügdü saxlar Bəhmanı,
Mütəggəlm sadiq, həm şafayətdi.

Bəli, gələk mətləv üstünə. Aşıx Ələsgər oğlu Bəşirin böyük toyunu eləmək niyətindəydi. Qardaşı Məşədi Salahı çağırıf məsdəhat elədi. Ələsgər bir az ordan-burdan danışıf mətləv üstünə gəldi. Üzünü Məşədi Salaha tutuf dedi:

– Qardaş, Bəşirin toyun eləmək istiyirəm. Sən də əmisi kimi öz fikrini de, görək neylirik, nejə eliyirik, toyu havaxt başdıyax!

Məşədi Salah dedi:

– Allah mübarək eləsin. Ancaq mənim deməyim bircə odu ku, bizim mal-qaramız yaylaxdan taxıl yerinə gəlmiyif. Heyvannar hələ ətini tutmuyuf. Bir az gözdüyək. Həmi də səni yaylaxlarda toydüyünə də'vət eliyillər.

Özü də qoy əlində bir qədər pulun-paran olsun. Sən Ələsgərsən.

Sənin toyuna gələnin sayı-hesavı olmuyajax. Bəşir də bizim nəsildə hamının istəklisidi.

– Düz deyirsən, onda günü savah atdanım bir Xaşbulax yaylağına qalxım. Görüm, allah nə qismət eliyir. Səhər Aşıx Ələsgər atdanıf Xaşbulaq yaylağına tərəf qalxır. Qonur dağına yaxınnaşanda görür kü, qavaxda qayanın başında bir adam əlində beşaçılan oturuf. Ələsgər öz-özünə dedi:

– Ay allah, sən özün saxla. Bu nə yol adamıdı, nə də atı-zadı var, nə də çovandı. Çovan olsaydı qoyunu-quzusu olardı. Bu deyəsən xatalı adama oxşuyur. Buna bir yüz metir qalmış həmən adam qışqırdı:

– Ayə, o çiynindəki nədi?

Ələsgər dedi:

– A qardaş, çiynimdəki sazdı. Özüm də ziyansız adamam, aşığam.

Həmin adam dedi:

– Atının başına bir az çək, özü də mana yaxşı qulaq as, gör nə deyirəm:

Atdan düş. Bax o tüstü gələn yeri görüsənmi düz get oraya. Orda adamlar sana bir neçə gəlmə söz deyəjəklər sonra çıxıf gedərsən.

Ay qardaş, mənim orda nə işim var, qoy çıxım yolumnan gedim.

Dedi:

– Ayə, başımı ağrıtma, vallah güllüyə hayfım gəlir, yoxsa başına bir güllə sıxaram.

Aşıx Ələsgər gördü bu qan– qan deyir. Ələci kəsildi. Atdan düşdü, atını yedəglədi düz o tüstü gələn yerə gəldi. Gördü kü, bunnar bir neçə adamdı hamısı yaraxlı-yasaxlı. Qavax dəsi bunnara salam verdi.

Ələsgər dedi:

– Bağışdıyım, məni yuxardan göndərdilər.

Bunnar hamısı gülüşdülər. Ələsgər pərt oluf dedi:

– Vallah mana dedilər ki, get orda sənnən bir neçə söz soruşuf buraxajaxlar.

Ələsgərdən soruşdular:

– Ay aşıx, adın nədi, hansı tərəfdənsən?

Ələsgər dedi:

– Qardaş, adım Ələsgərdi özüm də Göyçədənəm.

Ona dedilər:

– Hə lap yaxşı, gəl otur biznən bir tikə çörək yeginən.

Ələsgər gördü kü, bir dananı kəsif ağaşdan asıflar burda kavava qoyma deyif yeyillər.

Ələsgər deyir, baxıf gördüm bura xatalı yerdi. Ona görə dedim:

– Başınıza dönüm, iştaham yoxdu. Qoyun mən çıxım yolumnan gedim.

Bu adamların içində bir nəfər varıydı. Gördüm bunnarın hamısı bu nə deyirsə ona baxıllar.

Həmən adam mana dedi ki, keç otu. Qismət üstə gəlifsən.

Onsuz da boğazım tikilmişdi. Çörək yeməyə halımmı varıydı?! Nə isə əlaşsız qalıf oturdum. Deməli, adın Ələsgərdi. Özün də Göyçədənsən. Sənnən başqa Göyçədə Ələsgər addı aşıx varmı? Yoxsa adı dillərdə əzbər olan Ələsgər sənsənmi?

Ələsgər gülümsüyüf dedi:

– Hələlik, mənəm.

Elə isə sazını çıxart, bizim bu yoldaşlara bir ağız söz oxu. Görürsən biz çöl adamlarıyıx. Hər zaman toy-nişan görə bilmirik.

Baş üstə deyif, sazımı çıxartdım. Amma sazı köklüyə-köklüyə fikirrəşirdim ki, ayə mən nə oxuyum ku, bunnarın xoşuna gəlsin. Gözəlləmə oxusam, deyəjəklər burda gəlin, qızmı var, bir əməlli şey oxu. Kərəmi oxusam, deyəjəklər bu nədi burda ağlaşma qurursan. Koroğludan oxusam beyinnəri qızıf dava salajaxlar, arada ya mənim də sazım qırılajax, ya da özümə də bir şuğutma gülləsi dəyəjək. Bir də fikirrəşif gördüm kü, bunnarın içində bir nəfər var, sarıyan yağız adamdı. Dəli Alının bunun nişannarı bunda görünür. Öz-özümə dedim ki, yaxşısı budu Dəli Alının adına bir söz deginən. Allaha pənah, nə olar-olar. Əyər Dəli Alının dostu olar, daha yaxşı. Mana nəmər verər. Yox, düşməni olar, məni öldürərsə yer qulaxlıdı. Dəli Alı eşidif qanımı alar. Yox, Dəli Alının özü olarsa, onda da laf yaxşı olar, baxtım gətirər. Sazın zilini zil elədim, bəmini-bəm. Belə başdadım.

Gün kim aləmi tutufdu adın,
Dağların sultanı, xanı Dəli Alı.
Xaliqi ləmyəzəl verif muradın,
Artırıf şöhrəti-şanı Dəli Alı.

Elə bunu demişdim biri qalxıf dedi:

– Ələsgər, bir de görüm Dəli Alıyı tanıyırsanmı?

Ələsgər deyir:

– Yox, a başına dönüm. Bəlkə elə Dəli Alı sənsən?

Başqa biri qalxıf dedi ki, kişinin sözünü niyə kəsirsən? Qoy sözünün dalını desin!

Ələsgər aldı sözün o biri xanəsini:

Qəzetdə söylənir şöhrəti, bəsi,
Gün kimi aləmi tutufdu səsi,
Atdan uryadnikdən geçən gülləsi,
Çöldə vurdu bir çovanı Dəli Alı.

A kişi, bax bu yalan oldu. Noldu atılan bir güllə atnan-uryadnikə, sonra da gedif çovana dəydi. Bu yalanı niyə danışırsan?

Axı, a başına dönüm. Eşitmişəm ki, Dəli Alının dəsdəsinnən pristafın atışması başdıyanda bir çovanın əlində tüfəng oluf, özünü bir qayanın oyruğuna verif. Hərdən-bir-bir güllə pristavın dəstəsinə, birini də Dəli Alının dəstəsinə atır. Dəli Alı görür kü, bu şərxatayı güllədi. Dəli Alı elə gözdüyür kü, piristav gəlif o baravara çatanda aynalıynan elə nişan alıf kı, atdığı güllə atın qaşqasınan çıxıf uryadnikin ürəyinnin çovanı qayanın hoyruğunda o dünyalıx eliyif.

Amma gördüm, Dəli Alının nişanası olan adam gülümsüyür. Hərdən də deyir kişiyi incitmiyin.

Həmən adam bir də soruşdu:

– Bə onun özgə nəyini eşidifsən?

Aldı Ələsgər sözün o biri xanələrində görək nə dedi:

Dərsini alıfdı ərşi ə'ladan,
Xof eyləməz Xeybər kimi qaladan,
Olan zəlzələdən, gəzən bəladan,
Hifz eyləsin Kərəm kanı Dəli Alı.

Süzəni götürüf minəndə ata,
Fələk əhsan deyir boya, busata,
Nə'rə çəkif təpinəndə saldata,
Tək qaytarır yüz düşmanı Dəli Alı.

Ələsgərin toy işi var əlində,
İşi təhər tapmadı Göyçə elində,
Onun kimi mərd iyidin yolunda,
Qurvandı aşığın canı Dəli Alı.

Həmin o adam ayağa qalxıf məni bağrına basıf, öpüf dedi:

– Aşıx Ələsgər, adını eşidif üzünü görmədiyin Dəli Alı mənəm. Mən də sənin adını eşidif üzünü görməmişdim. Səni çox arzulayırdım. O dediyin tə'riflərə mana layıx olduğunu bilmirəm. Yaxşı yerdə əlimə düşmüsən. Sənnən tanış olmağıma çox şad oldum.

Dəli Alı civinnən bir yaylıx çıxartdı. Üzünü yoldaşdarına tutuf dedi:

– Belə tə'rifin, belə də nəməri olmalıdı. Əlinizi bir civinizə salın.

Nə olajax, hərəsi civinnən bir iri kisə çıxardıf yaylığın üstünə bir neçə çervan tulladı. Dəli Alı yaylığı qavağına çəkif dedi:

– Aşıx Ələsgərə özü bəsti deyənə kimi bu qızıl onnuxdan tulluyun.

Aşıx Ələsgər, mənim səxavətimi sonra görərsən. Bax bu bajım oğlu Zeynalabdının on-on beş günə toyudu. Allah qoysa, onda şəyirtdərini də gətirərsən Qoşqarın bu ətəyi indi mənim oylağımdı. Get dincəl, on beşinci günü səni gözdüyürəm.

Aşıx Ələsgər axşam olmamış evə qayıtdı. Qardaşı dedi:

– A qardaş, həmişə yoldan sağlığnan gələsən, bə niyə qayıtdın Ələsgər dedi:

– Allah elə iras saldı kı, atalar düz deyif, toya, ev tikməyə allah özü şərikdi gedif. Dəli Alının həm özünnən, həm də başının dəstəsinnən tanış oldum. On beş günən sonra Dəli Alının bajısı oğlu Zeynalabdının böyük toyu olajax. Qardaşı dedi:

– Ayə, a qardaş, sənin qaçax-quldurnan nə işin var.

Ələsgər dedi:

– Qaçaxlarda olan səxavəti kimnən görmüşəm. Allah onnarın başınnan bir tük də əksik eləməsin.

Xülasə, 15 günnən sonra Aşıx Ələsgər Aşıx Əsədnən Aşıx Nəcəfi də götürüf Xaşbulağa gəldi. Gördülər alaçıxlar hazırranıf. Cavannar üçün bir qonaxlar üçün başqa bir alaçıx quruluf. Dəli Alı əmir verif bir sürü toğlu qırdırıf. Qoşqarın qoluna dağıtdırıf kı, qurdunquşun da qoy qarnı doysun. Hər tərəfdən qonaxlar çağırılıf, çoxlu

hökumət adamları da də'vət olunuf. Dəli Alı dedi:

– Mənim toyumda gərək qeyri-hərəkət olmasın. Ona görə ki, toyumuzun aşığı adını eşidif üzünü görmədiyimiz Aşıx Ələsgərdi. Ona hörmət hamımızın borcudu. Bu toyda köhnə haqq-hesaflar unudulmalı, hamı bu toyu bir qardaş kimi başa vurmalıdı. Kimin kimnən nə haqq-hasavı varsa, sonra hesaflaşar!

On beş gün şülən çəkildi, hər yannan qonaxlar tökülüf gəldi. Dəli Alıynan Qandal Nağının arası bir atın üstündə dəysə də, yenə də dost kimi toya də'vət olunmuşdu. On beş gün çalmaxda, oxumaxda oldux. Çox təm-taraxlı bir toy oldu. Toyun axırıncı günü bəy tə'rifini deyif, gözaydınnığı verənnən sonra dedim:

– Ay qardaş, indi icazə ver, biz də gedək.

Dəli Alı dedi:

Aşıq Ələsgər, incimə bir işi bilmək istiyirəm ki, görüm bu toydan nə qədər nəmər yığılıf. Bilmək istiyirəm, görüm bu nəmər sənnən mənim adıma layıx olufmu, yoxsa yox.

Mən üzümü Əsədə tutuf dedim:

– Əsəd, a bala, o pulunuzu bir sanıyın.

Alı əmin onun miqdarın bilmək istiyir.

Tökdülər sanadılar. 950 çervon oldu.

Dəli Alı dedi:

– Aşıx Ələsgər, halal xoşunuz olsun. Amma sizin zəhmətinizi heş bir pulnan ölçmək olmaz.

Ələsgər deyir:

Allah mübarək eləsin, on toyun pulunun almışıx.

Dəli Alı dedi:

– İndi getsəniz yaxşı yol, qalsanız gözümüz üstə yeriniz var. Görüşüf, halallaşıf yola düşdük. Sizə kimnən deyim, Qaçax Məşədi Yolçudan. Onnar toya Ələsgərgildən bir neçə saat sonra gəlillər.

Görüşüf-öpüşənnən sonra Məşədi Yolçu deyir:

– Ay Dəli Alı, aşıxnan zurnaçı hanı?! Gəlsin, nəmərrərini alsınnar.

Dəli Alı deyir:

– Ayə, mənim aşığıma, zurnaçıma nəmər verən olsaydın belə gejikməzdin. On beş gündü burda aşığın sazın səsi, sözü dağları lərzəyə salmışdı.

Sənin toyuna gəlif çata bilməyimin səvəvi atışmada, vuruşmada

olmağımızdı. Ayə, aşıkların kimiydi?

– Aşıklarım Göyçəli Aşıx Ələsgər, bir də şəyirddəri Əsədnən Nəcəfiydi.

Dövran-zad nə oldu?

– Nolajax, allah qonaxları və eli şən eləsin. 950 çervon apardılar.

O pulun hamısını aşığa verdiniz?

Ay dəli oğlu, dəli aşığın pulunu da alallarmı?

İndi gör mən nejə alıram! Ay Dəli Alı, ağlın yoxdu. Atalar deyiflər yarğan uçdu, toz qopdu. Qaçağın ölümü bir quş ölümü kimi bir şeydi. Aşıx Ələsgər əlinə düşmüşdü. Elə bir dastan bağladardım kı, gəl-görəsən. Sənin də adın tarixdə qalardı.

Ay dəli, aşıxlar neçə saat olar kı, çıxıflar.

950 çervon bu saat onnarın əllərinnən alınar. Onda biləllər ki, bu qədər pulu elə-belə aparmax olmaz. Bu saat zincirri yolunnan gedif onnarın qavağını kəsərəm. Mən bilirəm necə tə'rif yazdırmax lazımdı.

Dəli Alı qardaşı Asdana dedi:

– Aya, atını min, o dəlidi. Gedif kişiyi incidər. Tez tərpən, özünü çatdır onnara.

Aşıx Əsəd dedi:

– Ay ustad, ürəyim yaman döyünür. İnanmıram kı, bu pulu aparıb xarşdıyax.

Aşıx Ələsgər dedi:

– Ay bala, niyə elə deyirsən? Vallah bu toyun səddası hər yanı tutuf. Bu Səvət keşməzdən sağ-salamat addasax, bu pul bizim olajax.

Əsəd dedi:

– Nəysə mən inana bilmirəm. Əgər kimsə bizim qavağımızı kəssə demiyəy ki, Dəli Alının toyunnan gəlirik. Bizi qırdırarsan. Sana nə var gününü görüf, devranını sürüfsən.

Elə bunu demişdilər ki, tərpənmə-tərpənmə sözdərinnən atdar ürküf ayax saxladı. Üz-gözünnən zəhrimar yağan bir atdı onnara qışqırdı:

– Tökülün, əllərinizi yuxarı qaldırın. Deyin görüm, hardan gəlif, harya gedirsiniz?!

Aşıx Əsəd qorxa-qorxa dedi:

– A qardaş, bilmirsənmi aşıx ya toydan, ya da nişannan gələr!

Həmin atdı dedi:

– Yaxşı, deyin görüm kimin toyunnan gəlirsiniz?

Əsəd dedi:

– Yaylaxda bir cavanın toyuydu.

Atdı bir də soruşdu:

– Bə adı, sanı nəydi.

O birsi dedi:

– Bir belə dur görüm, bunnlar düz danışmax istəmir. Hərəsinə bir güllə vurajam.

O birisi dedi:

– Aya, güllə çöləmi tökülüf. Üçünə yanaşı qoyuf bir güllə vurajam. Yaxşı, deyin görüm kimin toyuydu?

Ələsgər deyir:

– Fikirrəşdim, ölmək ölməkdi xırıllamax nədi? – Deməli, belə! Onda sizin yaxşı pulunuz olar! Biz də çöl adamıyıx, bizim də payımızı verin.

Ələsgər dedi:

– Kimin civində şavaş pullar vardı, çıxardıf dedi:

– A qardaş, puldan ötrü bizi niyə qırırsınız? Alın da.

– Yox zəhmət çəkmə, onu qoyun civinə, uşağınızın yanına əli boş getməyin. O, 950 qızıl çervon hansınızdadı? Onu bəri çıxarın.

Ələsgər dedi:

– Ahan, görünür bunnarı Dəli Alının özü göndərif, gedin bir belə pulu əllərinnən alın, gətirin. Yoxsa, bunnlar nə bililər bizdə nə qədər pul oluf.

Çıxartdı pulun hamısını verif, dedi:

– İndi qoyun, çıxax gedək.

Yolçu dedi:

– Hələ harasıdı. Sizdən sorğu-suallar alajıyıx. Düzünü desəniz, sizə dəymiyəjiyik. Yox, düz deməsəniz özünüz bilirsiniz, üçünüzün bir güllə payınız var.

– A qardaş, nə sorğu-sual, qoyun gedək, allah xətrinə.

Deyin görüm, o Dəli Alı kimiydi ki, on beş gün toy elədi. Onun toyuna kimlər gəldi, kimlər iştirak elədilər.

Aşıq Əsəd dedi:

– A kişi, hökümət tərəfinnən də adamlar varıydı. Onnarın adını deməynən qurtaran döyül. A başına dönüm, nə təhər deyim, saznan-

mı, söznənmi, yoxsa dil cavavımı deyim.

– A kişi, həm saznan, həm də söznən.

Ona kimi Asdan da gəlif çıxdı. Gördü kü, aşıxların pullarını əllərinən alıf, özdərini də möhkəm qorxuduflar. Asdan qəzəflənif dedi:

– A kişi, adam belə işmi eliyər? Ayıfdı.

Yolçu dedi:

– Sənin işin yoxdu? Sən də qardaşın Dəli Alı kimi qanırsan. Yavaş görüm, qoy mən işimi qurtarım, sonra baxarıx. Ələsgər üzünü Əsədnən Nəcəfə tutuf dedi:

– Əminizin sazı çıxdı, qorxmuyun. Görək nə deyir, biz də tərəfinnən ərz eliyək kefiniz kök, damağınız çağ olsun.

Alır müxəmməsnən!

Dəli Alı bir səd açıf,
Şah Abbas devranı kimi;
Dünyanı dövr eliyif,
Dağların tərlana kimi;
Yanında yoldaşdarı var,
Azərbaycan xanı kimi;
Zeynalabdı bəy bəzəndi,
Misirin sultanı kimi.
72 millət gəldi,
Ərəsət divanı kimi.

* * *

Neçə çinovniglər gəldi,
Çox ağır keçdi yığnağı;
Şəmkirdən düyüsü gəldi
Sarı yaldan gəldi yağı,
Aləm çırovğan göründü,
Xoddandı çıl-çırağı;
Bir yanı Qanıx qavrı,
Bir yanı Qoşqarın dağı;
Hər yana qəflə işlədi,
Xodgar bəzirganı kimi.

Günün günorta vaxtında,
Gəldi Alının dəstəsi;
Hər birisi bir iyiddi,
Bir qoşunun sərgərdəsi;
Gördüm asmana dayanıf,
"Öldürrəm", "öldürrəm" səsi;
Yaponyadan tüfəng gəlif,
Yeddi ağaş vurur gülləsi;
Zərbinnən dağlar titrədi,
Bərgin diraxşanı kimi,

Cəfər ağa bir iyiddi,
Girəndə meydan içinə;
Səyrəşir patronnarı,
Batıfdı al qan içinə;
İsgəndər tək səd salıfdı,
Yeddi Dağıstan içinə;
Zərrəcən qorxu bilməz,
Girsə yüz düşmən içinə.
Tüp dağıdır, ordu pozur,
Qüdrətin asdanı kimi.

Yolçu soruşdu:

– Bə Alının özü nə iş görürdü, bostan qaroğuluydumu? Ələsgər sazı sinəsinə sıxıf dedi:

– Tələsmə, indi deyəjəm, nə iş gördüyünü:

Alı məclisə gələndə,
Mətəl qaldım işdərinə;
Atanın sərdar oğludu,
Sərim qurvandı sərinə.
Səxavətdə ə'la gördüm,
Yazdım Hatəm dəftərinə,
Şavaşa beşdik qızıl,
İşdədi qəpik yerinə,
Neçə mücrülər açıldı,
Sərrafın tükanı gimi.

İçlərində bir Seyid var,
Onnara rəhbər gimidi;
Sofulu qara Musa,
Hünərdə Sərdar kimidi;
Qızıl Hajılı Allahverdi,
Maliki Əjdər kimidi,
Sağ olsun İsmayılı,
Nə'rəsi Heydər kimidi;
Xanbulaxda meydan açdı,
Koroğlu meydanı kimi.

Alı məclisə gələndə,
Nəsrin ziyanın görmədim;
Beş yüz erkək qırıldı,
Toğlunun sanın bilmədim.
Nisyə qalan xələtdərin,
Doğru, yalanın bilmədim,
Erkək yanyana döşəndi,
Minanın qurvanı kimi.

Beçara, fağır Ələsgər,
Gəldin, getdin hər nə isə,
Hax səni sərraf yaradıf,
Qanan yoxdu qədrin bilə.
Tat oğlu Bala Məşədi,
Onnar gələndə məclisə,
Hamıdan çox pul verdilər,
Qızıllarnan doldu kisə,
Aşıxlar güzaran tapdı,
Bəylər güzaranı kimi.

Söz tamama yetdi. Məşədi Yolçuynan Asdanın şirin-şirin söhbət elədiyini görən Ələsgər dedi:

– Ay Aslan, verdiyiniz pulu orda deyərdiniz verərdik, daha bizi niyə qanbağır eliyirsiniz.

Asdan dedi:

– Ələsgər əmi, vallah elə döyül. Bu Məşədi Yolçu bir az şərxata

adamdı. Bizi bağışda. Məqsədimiz bir tə'rif dedirtmək idi, alın pulunuzu.

Xülasə, Ələsgərnən şəyirddəri qaçaxlarnan öpüşüf görüşüf halallaşdılar. Söhbət də bu yerdə tamam oldu.

AŞIQ ƏLƏSGƏR YANŞAQDA

Mənim əzizlərim, sizə hardan xəbər verim, kimdən deyim? Göyçə mahalının Ağkilsə kəndində, Aşıq Ələsgərdən.

Aşıq Ələsgər el arasında yaxşı bir aşıq kimi tanınandan sonra çoxları toy eləyəndə Aşıq Ələsgəri aparırdı. Ələsgərin aşıqlığı ilə bərabər, onun xasiyyəti, mə'rifət-qanacağı hamıya xoş gəlirdi. Onda bir xüsusiyyət də var idi ki, deməzdi bu ağadı, bu bəydi, bu rəncbərdi, bu varlıdı, bu kasıbdı... Kim onu toya, ayrı xeyir işə çağırdısa, "yox" deməzdi. Odur ki, hamı onun xətrin çox istəyirdi.

Onu da deyim ki, Aşıq Ələsgər qırx yaşına çatmışdı, amma hələ evlənməmişdi. Səhnəbanıdan əli üzüləndən sonra, elə bil, baxtından küsmüşdü. Atası, anası, o biri qohumları nə qədər öyüd-nəsihət eləyirdilərsə də, beyninə batmırdı.

Bir gün Aşıq Ələsgər səfərdən qayıdanda, yenə qohum-qardaş başına yığıldı. O, səfərdə gördüklərini danışdı. Sonra sazını götürdü qızlara, gəlinlərə dediyi tə'rifləmələrdən oxudu, hamıya ləzzət verdi.

Gecənin bir vaxtına qədər çaldılar, oxudular. Qonu-qonşu dağılıb evlərinə gedəndən sonra Almənmməd üzünü Ələsgərə tutub dedi:

–Oğul, sənin evlənmək vaxtın keçir. Aranı, dağı gəzirsən, nə qədər gözəl qız görürsən, çoxuna da tə'rifləmə deyirsən; gəl daşı ətəyindən tök, bu bəyəndiyin qızlardan birini al!

Ələsgərin anası Pərizad da Almənmmədin sözünə qüvvət verdi:

–Oğul, o biri qardaşların da böyüyüb. Sən evlənməsən, səndən keçib onlar da evlənməyəcək.

Almənmməd bir də dilləndi:

–Oğul, Allaha şükür, indi səni hamı tanıyır. Kimə ağız açsaq, kimin qızını istəsək, bizə "yox" deməz. Nə qədər adlı-sanlı adam varsa, o da bizə qohum olmağı canına şay bilər.

Ələsgər yenə ata-anasını cavabsız qoydu. Bircə bunu dedi ki, hələ evlənməyin vaxtı deyil.

Bir müddət də keçdi. Bir gün Kəlbəcərin Yanşaq kəndindən Söyün bəy adam göndərdi ki, Aşıq Ələsgər, xeyir işimiz var; xahiş eləyirik, sazını da götürüb gələsən!

Aşıq Ələsgər elə o günün səhəri tezdən həmin adamla bərabər

Yanşağa yola düşdü.

Söyün bəy Göyçənin Zod kəndindən olan Səməd ağanın bacısı Xırda xanımın əri idi. O, Göyçəyə gələndə həmişə Səməd ağanın qonağı olardı. Səməd ağa da Aşıq Ələsgəri çağırtdırar, yaxşı bir məclis düzəldərdi. Söyün bəy Aşıq Ələsgəri çox xoşlayırdı.

Aşıq Ələsgərgil Yanşağa çatanda gördülər ki, Söyün bəy onların yolunu gözləyir. Xoş, beş, on beş... Görüşdülər, öpüşdülər...

Toy Söyün bəygilin qohumlarının idi. Toya hələ iki gün var idi. Söyün bəy heyvan kəsdirdi, yaxşı çay-çörək hazır elədilər, dost-qohumları, qonu-qonşuları Aşıq Ələsgərin gəldiyini eşidib onlara yığıldı. Yedilər, işdilər. Sonra Aşıq Ələsgər sazını götürdü, onlara yaxşı söhbət elədi, hamı razı qaldı.

Axşamnan bir az keçmiş qonu-qonşu hərə öz evinə getdi. Aşıq Ələsgərlə Söyün bəy söhbət eləyirdilər. Bir də gördülər ki, siçanlar evin künclərində o tərəf-bu tərəfə qaçışır. Söhbət dəyişildi siçanın üstünə. Xırda xanım da söhbətə qarışdı. Siçanların palazı, xalı-gəbəni, yorğan-döşəyi doğramasından; yağ dərilərini, motalı murdarlamasından, sandığın içində olan puxça paltarlarını külə döndərməsindən, kəndiləri deşib, taxılı daşımasından yanıqlı-yanıqlı şikayətlənirdi.

Doğrudan da, o ili bar Yanşaqda yox, elə hər yerdə siçan o qədər artmışdı ki, öhdəsindən gəlmək mümkün deyildi. Göyçədə də vəziyyət belə idi. Quyunun ağzını açırdılar ki, siçan taxılı yarıdan keçirdib.

Birdən Aşıq Ələsgər gözünü gəzdirəndə gördü ki, pişik bir qədər aralıda oturub bunlara tamaşa eləyir. Dedi:

–Sizin bu pişiyiniz, bəs, nə iş görür ki, siçan bu qədər artıb?!

Söyün bəy dedi:

–Pişik gündə bir-ikisini öldürməklə başamı gələr!? Çöllərdə də qarışqa kimidi. Bu il taxılın yarısı da ələ gəlmədi.

Gecədən xeyli keçmiş o biri evdə yer düzəltdilər ki, Aşıq Ələsgər yatsın. O, bir çimir almışdı-almamışdı baxdı ki, şıqqıltı gəlir. Fikir verəndə gördü ki, pişikdi. Burdan vurur, ordan çıxır, ordan vurur, burdan çıxır, o evə gedir, bu evə qayıdır... Xülasə, pişiyin şıqqıltısı-tıqqıltısı Aşıq Ələsgəri yatmağa qoymadı.

Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açılanda Aşıq Ələsgər gördü ki, pişik gecə 18 siçan öldürüb, gətirib onun yatağının

ayaq tərəfində cərgə ilə düzüb.

Aşıq Ələsgər bunu Söyün bəyə dedi. Söyün bəylə Xırda xanım gəlib baxdılar, məəttəl qaldılar. Xəbər qonşulara çatdı. Hamı gəlib baxdı, pişiyin bu hərəkətinə təəccüb elədilər. Onlar pişiyin bu qədər siçan öldürdüyünə təəccüb eləmirdilər; ona təəccüb eləyirdilər ki, niyə cərgə ilə düzüb? Bir də, niyə Aşıq Ələsgərin yerinin ayaq tərəfinə düzüb?

Söyün bəy dedi:

–Aşıq Ələsgər, indiyə qədər pişik niyə belə hünər göstərmirdi!? Öldürdüyü siçanları sənin yerinin ayaq tərəfinə düzməkdə onun məqsədi var.

Hamı gülüşdü.

Aşıq Ələsgər gördü ki, doğrudan da, pişiyə tə'rif yaraşır. Sazı götürdü, simləri düzəltdi, tə'rifə başladı, görək necə başladı; bu gecəki əhvalatı görək, neçə nəzmə çəkdi. Biz də saz ilə deyək, şad olun.

Dad! Siçanın əlindən
Yetişmişik cana, pişik!
Dünyanı bizdən ötəri
Döndərib zindana, pişik!
Dağıdıb kəndləri,
Dadanıb yaxtana, pişik!
Doğrayıb zər libası,
Eyləyib əfsana, pişik!
Alagöz gəlinləri
Qoyub yana-yana, pişik!

Birisi boz dikqulaq,
Birisi qonur, balaca;
Dərmə-qayıq farmaşın
Hər yanından açıb baca;
Bezinən irəftardı,
Qumaşınan düşüb ləcə;
Harda görsə zər, ziba,
İstifa, tirmə, alaca,
Biləsən nə hal kəsir
Döşəyə, yorğana, pişik!

Nə qədər əlləşirəm,
Bu mə'luna yoxdu çara;
Gündüzdər pünhan olur,
Gecələr çıxır aşkara;
Çırağı yandıranda,
Qaçır, soxulur divara.
Dağıdıb quyuları,
İndi daraşıb anbara;
Müxtəsər, ruzumuzu
Döndəribdi qana, pişik!

O gödək, zalimü fasiq
Belə bir azar elədi;
Aləmə gen dünyanı
Bizdən ötrü dar elədi;
Hamı dərddən ziyada
Bu dərd mana kar elədi;
Dərdli yağ dərilərin,
Xumları murdar elədi;
Axşamadək evlərdə
Qurulur zasdana, pişik!

Bu sözləri eşidəndə,
Pişik bir tufan elədi;
Şeşəltdi bığlarını,
Gözləri rövşan elədi;
Ay qaranlıq gecədə
Yüz dəfə çövlan elədi;
Qisasa qisas aldı,
Bir qana yüz qan elədi;
Gördüm, on səkkizini
Düzübdü yan-yana pişik!

Aşıq Ələsgər gördü kü, adamlardan bir az aralıda, divarın üstündə pişik rahatca əyləşib, saza qulaq asır. Aldı, görək bu dəfə nə dedi:

Yatmadım sübhə kimi,
Mən baxdım gilü-qalına;
Öyrənib xəsyətini,
Bələd olmuşam halına;
Ədəbinən əyləşibsən,
Səd afərin kamalına!
Aləmin padişahı
Dəstini çəkib dalına;
Qaynağın poladlanıb,
Dönübsən aslana, pişik!

Mən səni iyid bildim,
Verdim aran-dağı sana;
Çadırı, alaçığı,
Eyvanı, otağı sana.
Müxtəsəri, vəssalam,
Budu sözün sağı sana:
Gözəllər əsirgəməsin
Pendiri, qaymağı sana;
Yeyəsən nəmilərdə,
Dönəsən sultana, pişik!

Söhbətə qulaq asanlardan biri dilləndi:

–Xırda xanım, Aşıq Ələsgər pişiyinizi belə ki, tə'riflədi, xələti nə olacaq?

–Evdə bir çuxalıq göy mahud var. Onu xələt verirəm.

Aşıq Ələsgər dedi:

–O çuxalıq mənim dediyim tə'rifin xələtidi. Ən böyük mükafat hünər göstərənindi.

Söyün bəy dedi:

–Hünər göstərəni nə ilə mükafatlandırmaq olar?

–Onda qulaq as!

Aldı, görək Aşıq Ələsgər nə dedi, ordakılar nə eşitdi:

Xanım xələt bağışladı,
Ələsgər yazdı dəftərə;

Göndərərəm tüllablara,
Mə'lum olsun hər şəhərə;
İyiddi, ölməyincə
Arxasını qoymaz yerə.
Pristav qubernata,
Qubernat yazsın sərdərə;
İnşallah, nişan verər
Sana divanxana, pişik!

Mənim əzizlərim, elə ki söz tamam yetişdi, hamı Aşıq Ələsgərə dönə-dönə "sağ ol!" dedi. Aşıq Ələsgər sazı köynəyinə qoyanda, qonu-qonşu da öz evlərinə getdi.

O günü axşam elədilər. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabahısı günü toy başladı.

Camaat bu iki gündə pişikdən, Aşıq Ələsgərin onu tə'rifləməsindən danışırdı. Axşam məclis qurtaranda Aşıqdan xahiş elədilər ki, pişiyə dediyi tə'rifi oxusun. O, camaatın xahişini yerə salmadı.

Yanşaqda nə qədər adam varıydısa bu məclisə cəm olmuşdu. Kişilər bir tərəfdə, arvadlar da bir tərəfdə əyləşmişdilər.

Ağsaqqalların məsləhəti ilə Aşıq Ələsgər Abbas Tufarqanlının dastanını başladı. Camaat elə diqqətlə qulaq asırdı ki, gecənin necə keçdiyindən xəbərləri olmadı. Bir də baxdılar ki, xoruz banladı. Aşıq Ələsgər söhbəti burda saxladı, qalanını sabah gecə danışacağını bildirdi.

Onu da deyim ki, Aşıq Ələsgər məclisə göz gəzdirəndə gördü ki, arvadların arasında, dirəyin yanında bir gözəl əyləşibdi, gəl görəsən. Elə gözəl var ki, baxırsan camaldan yaxşıdı, amma duruşu, tərpənişi, baxışı, bildirir ki, diyişdi. Aşıq Ələsgər görür ki, bu gözəl o gözəllərə bənzəmir. Görkəmindən bilinir ki, qanacağı, mə'rifəti yerindədi.

Aşıq Ələsgərin fikrindən keçdi ki, bu gözələ bir tə'rif desin. Amma dastanın arasına belə söz salmaq istəmədi. Həm də Söyün bəydən onun kim olduğunu öyrənmək üçün tə'rifi o biri axşama saxladı.

Məclis dağılandan sonra Söyün bəy yenə Aşıq Ələsgəri evlərinə apardı. Aşıq Ələsgər gecə rahat oldu. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah çay-çörəkdən sonra Aşıq Ələsgər Söyün bəyə

dedi:

–Söyün bəy, maşallah, Yanşağın da qız-gəlinləri çox gözəldilər.

–Aşıq Ələsgər, bunlar ki, gözəldilər, bəs niyə birini tə'rifləmədin? Yoxsa, tə'rifə layıq olanı yoxdu?

–Niyə yoxdu, var. Çoxusu tə'rifə layıqdı. Axşamkı məclisdə dirəyin yanında əyləşən gözələ də ki heç söz ola bilməz. Duruşu, tərpənişi də xoşuma gəldi. Saza-söhbətə qulaq asmağından da gördüm ki, həm də əhli-haldı.

Aşıq Ələsgər Söyün bəyin danışığına qulaq verən Xırda xanım söhbətə qarışdı; üzünü Söyün bəyə tutub dedi:

–Anaxanımı deyir.

Söyün bəy də Xırda xanımın sözünü təsdiqlədi, sonra dedi:

–Anaxanım bu tərəflərdə bir gözəldi. Hayıf ki, yazığın baxtı gətirmədi.

–Nə olub?

–Bədbaxtı bir gözəl, qoçaq oğlana vermişdilər. Bir il çəkmədi, oğlan allah rəhmətinə getdi. Ondan bəri də 3-4 ildi ki, neçə yerdən istəyirlər, baxtından küsüb, ərə getmək istəmir. Qardaşları, ata-anası nə qədər öyüd-nəsihət eliyirlərsə də qız elə dediyini deyir.

Söyün bəy belə deyəndə, Aşıq Ələsgərin öz baxtından küsdüyü yadına düşdü. Ata-anasının öyüd nəsihətləri, yalvarışları gəldi durdu gözünün qabağında. Bircə bunu dedi:

–Söyün bəy, Anaxanımı qınama.

Bu söhbətdən sonra Anaxanım Aşıq Ələsgərin gözündə ucaldı, daha da gözəlləşdi...

Dastanın sonrasını eşitmək üçün camaat axşam olmağı gözlədi. Elə ki, şər qarışdı, camaat mal-heyvanını rahat elədi, yenə toy evinə toplaşdılar.

Aşıq Ələsgər gördü ki, Anaxanım yenə dünənki yerində əyləşib, Ay kimi işıq salır. Aşıq Ələsgər dastandan qabaq bir-iki qatar oxudu, sonra gözucu Anaxanıma bir də baxdı, aldı, görək nə dedi, camaat nə eşitdi:

Bir gözüm var sana pünhan deməli,
Qail olsan, deyim, gül sana qurban!

Nə müddətdi həsrətini çəkirəm,
Söyləyim dərdimi bil, sana qurban!

Cünun olduğunu hər mahal bildi,
Dərd məni söylətdi, dünmanlar güldü.
Bivəfa qızlardan əlim üzüldü,
Eylərəm canımı, dul, sana qurban!

Bu bəndi deyəndə Söyün bəy də, Xırda xanım da başa düşdülər ki, Aşıq Ələsgər bu sözü Anaxanıma deyir. Anaxanım özü də bir şey hiss eləyən kimi oldu.

Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Ələsgəri gözdən qoyma irağa.
Konul tab gətirməz dərdi-fərağa.
Leyli kimi və'də versən bulağa.
Məcnun tək gözlərəm il, sana qurban!

Anaxanım yəqin elədi ki, Aşıq sözü buna deyir, həm də vəfalı olacağını bildirir.

Harda qalmışdısa, Ələsgər dastanı ordan başladı danışmağa. Camaat bir də gördü ki, yenə nağılın şirin yerində xoruz banladı. Aşıq Ələsgər söhbəti dayandırdı, sabah gecə nağılı qurtarmağına söz verdi.

Məclis dağıldı, hərə öz evinə getdi.

Aşıq Ələsgərlə Söyün bəy evə gələndə Söyün bəy məsələni açdı:

–Aşıq Ələsgər sən o sözü Anaxanıma dedin. O özü də bunu başa düşdü. Sən nə vaxta kimi subay qalacaqsan!? Fikrindən keçirsə, Anaxanım sana "yox" deməz. Qardaşları da canla-başla bu qohumluğa razı olacaq.

Aşıq Ələsgər dedi:

–Görək.

Aşıq Ələsgərlə Söyün bəyin bu gecəki söhbəti bu "görək"lə qurtardı.

Belə xəbər tez yayılan olur. Xırda xanım bu məsələni Anaxanıma

çatdırdı. O, nə "hə", nə "yox" bir söz demədi. Bircə onu dedi ki, qardaşlarım bilər. Bu söz onun elə "hə" deməyi idi.

Axşam camaat yenə toy evinə yığışdı. Aşıq Ələsgər dastanı səhərə qədər söyləyib qurtardı, camaat çox razı qaldı.

Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah tezdən Söyün bəy Aşıq Ələsgəri çox hörmətlə yola saldı; camaat nə qədər dövran pulu yığmışdısa, onu bilmirəm, Söyün bəy nökərinin qabağına beş erkək qatdı ki, bunu Göyçəyə – Aşıq Ələsgərgilə apar.

Aşıq Ələsgər Söyün bəyə əl verib xudafizləşəndə Söyün bəy dedi:

–Aşıq Ələsgər, Anaxanım kimi adam tapmaq çətindi. Yolunu gözləyəcəm.

Aşıq Ələsgər Yanşaqdan şad-xürrəm Göyçəyə qayıtdı. Yenə qohum-qardaş axşam onun başına toplaşdı. Yedilər, içdilər...

Aşıq Ələsgər həmişə səfərdən gələndə soruşurdular ki, təzə söz deyibsənmi? Əgər beşik olsaydı, həmin sözləri onlara oxuyardı. Bu dəfə başına toplaşanlara pişiyin əhvalatını danışdı, onun tə'rifini oxudu, xeyli gülüşdülər. Məşədi Salah soruşdu:

–Ay qağa, ayrı söz demiyibsən?

Aşıq Ələsgər bir az duruxdu, dilini sürüyə-sürüyə "yox" dedi. Başa düşdülər ki, ayrı söz də deyibdi. Əl çəkmədilər. Anaxanıma dediyi sözü də dedirtdilər.

Almənməd gördü ki, işlər düzəlib. Axşam qonu-qonşu öz evinə gedəndən sonra Almənməd dedi:

–Oğul, Allaha şükür, görürəm ki, tə'rif dediyin qızı bəyənibsən. Günü sabahdan bu işin dalına düşmək lazımdı.

Pərizad da ərinin sözünə qüvvət verdi. Aşıq Ələsgər daha dillənib bir söz demədi. Evin külfətinin hamısı şad oldu.

Bir müddət keçəndən sonra Almənməd bir neçə adamla Yanşağa getdi. Söyün bəyi də götürdü, özünü Anaxanımın atası Nəbi kişinin qapısına yetirdi.

Qonaqları çox yaxşı qarşıladılar, Anaxanımın "hə"sini verdilər.

Almənməd kişi hazırlıq gördü, toy çaldırmasa da, "peyğəmbəri" qaydada yaxşı toy elədi, Anaxanımı Aşıq Ələsgərə gətirdi. Allah hamını öz arzusuna yetirsin!

Mənim əzizlərim, deyərlər ki, gəlinin günü qayınata evində nə qədər xoş keçsə də, yenə gözü bir müddət atası evində olar. Bir də deyirlər ki, "doğma yurd şirin olar". Anaxanım Yanşağı, qohum-qardaşını, bir yerdə gün keçirdiyi qız-gəlinlərlə görüşmək arzusunu bilən Aşıq Ələsgər onu bir neçə dəfə atası evinə aparmışdı, həftələrlə orada qalmışdılar.

Anaxanımın Yanşaqdakı qohumları, qardaşları – Rüstəm, Aslan, Kalvayı Zeynal onun xətrini çox istəyirdilər. Onlar da tez-tez Göyçəyə gəlib, bacılarına baş çəkirdilər.

Ağkilsə ilə Yanşağın arası bir günlük piyada yoludu. Hər saatlığına gedib-gəlmək də olmurdu. Qışda qar yolları bağlayanda bağlardan aşmaq hər oğulun işi deyildi...

Anaxanım Yanşağı yaddan çıxartmadığı kimi, onun qardaşları da Anaxanımı yaddan çıxara bilmirdilər.

Bir gün Anaxanımın qardaşlarının fikrinə gəldi ki, Aşıq Ələsgər qış aylarının çoxunu aranda aşıqlıqda keçirir. Bizim də Göyçəyə gedib-gəlməyimiz çətinə düşdü, bacımız darıxır. Yaxşısı budur ki, Ələsgərlə Anaxanımı köçürüb Yanşağa gətirək. Almənməd kişinin evi Ələsgərsiz də dolanar.

Qardaşları fikirlərin Anaxanıma bildirdilər, Anaxanım da Aşıq Ələsgərə dedi. Ələsgər razılaşmaq istəmədi. Amma Anaxanım ona tez-tez ağız açırdı, dilə tuturdu, razı salmağa çalışırdı. Bir gün belə, beş gün belə, axırda Ələsgər razılaşmalı oldu.

Anaxanımın Niyar adlı bir qızı da var idi. Bir gün Kalvayı Zeynal Ağkilsəyə gələndə, Ələsgərin razılığını bildi. Onlara kömək elədi, köçürdüb Yanşağa apardı.

Kalvayı Zeynal evlərinin bir gözünü Aşıq Ələsgərgilə verdi. Buranı səliqə-sahmana salıb, yaşamağa başladılar.

Aşıq Ələsgər əkin-biçin vaxtı əlini işdən üzmədi. O, qara işdə işləməsə, rahat ola bilmirdi. Yanşağa gələndən sonra da yer əkib-becərmək fikrinə düşdü. Anaxanımın qardaşları bunu biləndə, Ələsgəri qınadılar. Rüstəm dedi:

–Allaha şükür, gül kimi sənətin var; əkin sənin nəyinə lazımdır!? Taxıl əkməsən, dolana bilməyəcəksən!?

–Əkinsiz də yaxşı dolanaram; amma bir məsələ var ki, işləmə-

səm dura bilmirəm.

–Axı, taxıl əkininin vaxtı keçibdi, onda gərək darı əkəsən; darı əkininin vaxtına hələ var.

–Darı əkərəm.

–İndi boş yer hardadı ki, əkəsən!? Hamısını şumlayıb səpiblər.

–Özüm əkiləsi bir yer tapıb, orada qurdalanaram.

Rüstəm gördü ki, hardan deyir, Ələsgər ordan kəsir; daha söz güləşdirmək istəmədi. Bircə onu dedi ki, özün bilərsən.

Aşıq Ələsgər kəndin ətrafını dolandı, örüşü axtardı, axırda Yuxarı Yanşağın dəyirmanının qabağında əkiləsi bir yer seçdi. Başladı buranı ayaqla belləməyə. Axşamın, sabahın sərinində bir ay burada əlləşdi, yeri yaxşı şumladı. Sonra darını səpdi. Sığalladı. Ora sututası yer deyildi. Gördü ki, il quraq keçsə, darı yanacaq. Düsəri götürdü, başladı yuxarı tərəfdən, çaydan əkin yerinin üstünə arx çəkməyə. Darı göyərənə qədər on beş gün Fərhad kimi külüng vurdu, daşı, qayanı yardı, arxı da başa çatdırdı. Darı üzünü alandan sonra onu yaxşı suladı, arxayın oldu.

Toy eləmək istəyənlər Aşıq Ələsgəri Göyçədə axtardı. Yanşaqda tapırdılar. Yaylaq vaxtı idi. Qarabağ camaatının çoxu xeyir işlərini yaylaqda keçirirdilər.

Aşıq Ələsgəri toya aparırdılar. Xeyir işlər bir-birinin dalınca olurdu. Aşıq Ələsgər vaxt tapıb, evinə baş çəkə bilmirdi. Yaylağa çıxanda belə bir qayda var: hər kimin ki, xeyir işi olasıdı, növbəyə qoyurlar. Hamı bilir ki, filan ayın filan günü filankəsin xeyir işi olacaq. Daha heç kəs növbəni qabaqlaya bilməz.

Xeyir işlər bir-iki gün ara verəndə Aşıq Ələsgər evlərinə gəlirdi. Hər dəfə gələndə darıya baxmağı yaddan çıxartmırdı. Birində gördü ki, darı su istəyir, suladı. Bir dəfə gələndə görüdü ki, hava yağarlıq keçdiyinə su istəmir, həm də elə gəlişib ki, elə bil, Tanrı bunu qəsdən belə bitirib; heç kəsin zəmisi belə deyil.

Mənim əzizlərim, onu da deyim ki, Aşıq Ələsgər darı yerini şumlayanda yerin ortasında bir qozqara kötüyü var idi. Ağacı adamın dizi bərabəri yuxarıdan kəsmişdilər, o yenə şiv verib budaqlamışdı. Aşıq Ələsgər işlədiyi müddətdə bu kötüyün kölgəsində çörək yeyib, qəlyan çəkib dincələrdi. Kötük həm də ona bir növ həyan olmuş,

yoldaşlıq etmiş.

Aşıq Ələsgər yenə gəlib kötüyün kölgəsində əyləşdi, bir qəlyan çəkdi, xeyli istirahət elədi. O, zəmidən ayrılmaq istəmirdi. Durub evə gələndə üzünü Qozqara kötüyünə tutub dedi:

–A kötük, darını sana tapşırıram, yaxşı gözlə!

Aşıq Ələsgər evə gələndə darının çox yaxşı gətirdiyini Anaxanıma da dedi və ona da tapşırdı ki, arada bir baxsın.

Aşıq Ələsgər yenə yaylaqlara qayıtdı. Toy sahibləri onu gözləyirdilər. Bir qədər keçəndən sonra Ələsgər Yanşağa gələndə Kalvayı Zeynalla birlikdə gedib darıya baxdı. Darı qarğı kimi durmuşdu. Kötüyün gölgəsində əyləşdilər, bir qədər söhbət elədilər. Kalvayı Zeynal dedi ki, darının vaxtına hələ on beş gün var.

Aşıq Ələsgər yenə yaylağa qayıtdı. On-on beş gün toy məclisləri keçirəndən sonra Yanşağa gələndə zəmiyə baxıb gördü ki, darı çardağ kimi qızarır. Yəqin elədi ki, yetişib. O birdən-ikiyə darı əkib becərməmişdi hardan, biləydi ki, yetişib, ya yetişməyib. Sən demə hələ yaxşı yetişməyibmiş.

Gecə qonu-qonşu Aşıq Ələsgərin başına toplaşdı. Aşıq Ələsgər yenə sazını götürdü, çaldı, oxudu, hamının qəlbini şad elədi. Sazı köynəyinə qoyanda cavanlardan xahiş elədi ki, darını biçmək üçün sabah köməyə gəlsinlər. Cavanların hamısı birağızdan dedilər ki, səhər tezdən bizi darı zəmisinin içində görərsən.

Hərə dağılıb öz evinə getdi.

Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah açılanda Aşıq Ələsgər Anaxanıma dedi:

–Xörək qayır, fəhlələrə aparım.

Anaxanım qazanı asdı. Yaxşı bir plov bişirdi. Ələsgər xörəyi götürüb yola düşdü. Zəmiyə yaxınlaşanda gördü ki, cavanların hərəsi bir yumşaq daşın üstündə rahatca əyləşiblər. O elə başa düşdü ki, zəmini biçmək üçün haqqında danışmadıqlarına görə cavanlar əllərini işə vurmaq istəmirlər. Aşıq Ələsgər gəlib çatdı.

–Salaməleyküm.

–Əleyküməsalam.

–Uşaqlar, niyə mətəlsiniz?

Cavanların ağsaqqalı dilləndi:

–Ələsgər əmi, darı hələ göydü.

Aşıq Ələsgər darıdan bir sünbül qoparıb ovcunda ovxaladı, dəninə baxdı. Sonra yaxınlıqdan keçən bir kişiyə göstərdi. O kişi də dedi ki, göydü, beş-altı gün gözləmək lazımdı.

Aşıq Ələsgər süfrə açdı, cavanları məcburi süfrənin qırağında əyləşdirdi. Onlar çəkinə-çəkinə plovu yedilər. Bayaqkı oğlan yenə dilləndi:

–Ələsgər əmi, nə zaman darını biçmək istəsən, biz hazır.

Cavanlar gedəndən sonra Aşıq Ələsgər darını yenə bir-iki adama göstərdi, hamısı dedi ki, göydü.

Aşıq Ələsgər qab-qazanı yığışdırıb, dəstərxanın arasına bağladı, götürüb evə qayıtdı.

–Anaxanım soruşdu,

–Ələsgər, niyə tez qayıtdın?

–Biçəsi olmadıq.

–Niyə?

–Dedilər göydü.

–Kim dedi?

–Hər kimə göstərdimsə, dedi göydü. Beş-altı gündən sonra biçərik.

Aşıq Ələsgər yenə yaylağa qayıtdı.

Mənim əzizlərim, Aşıq Ələsgər yaylağa qayıtmaqda olsun, sizə Yanşaqdan deyim. Aşıq Ələsgər gedən gününün səhəri Yanşağın yaylağından camaat mal-heyvanını da gətirib kəndə gəlməyə başladı. Kənddə hamı arpa, buğda, darı zəmisini biçib, məhsulunu götürmüşdü. Aşıq Ələsgər hamıdan gec əkdiyinə görə, bircə onun darı zəmisi bitili idi. Yaylaqdan gələn mal-heyvanın çoxu buraxma idi. Bir də baxırdın, qoyun-keçi özünü verdi darının içinə. Axşam kimin bir danası qapıya gəlmirdisə, gedib darının içində axtarırdı. İnsafı olanlar darının içində heyvan görəndə qovurdu. Bununla başamı gələrdi!? Gərək bir adam əlində ağac, gecə-gündüz darının yanında dayanaydı. Saxsağan, qarğa, siçan da bir tərəfdən öz işini görürdü. Xülasə, üç-dörd günün içində darıda tutar qalmadı.

Aşıq Ələsgərin bu dəfə yaylaqdan qayıtması düz bir həftə çəkdi: yetti ötüb, səkkiz deyən günü Yanşağa gəldi. Çay-çörəkdən sonra

Anaxanıma dedi:

–Gedim darıya baxım, görüm yetişibmi?

Aşıq Ələsgər uzaqdan zəmiyə baxanda gördü ki, darı heç əvvəlkinə oxşamır. Elə hesab elədi ki, yetişib deyə belə görünür. Gəlib çatandan gördü ki, darı nə gəzir; yel vurub, yengələr oynayır. Kosa saqqalı kimi bir dəstə burda qalıb, bir dəstə orda. Onların da çoxusunun başı yoxdu; quş aparıb...

Aşıq Ələsgər ordan kor-peşman evə qayıtdı. Anaxanım soruşdu:

–Ələsgər, darı biçiləsidimi?–

–Darının əsil biçiləsi vaxtıdı.

–Sabah fəhləmiz olacaqmı?

–Fəhlə lazım deyil. Özüm tək bəsəm.

Anaxanım təəccübləndi:

–Onu tək biçib, haqq eləyə bilərsənmi!?

–Əkəndə niyə tək əkə bilirdim!? Biçəndə tək biçə bilməyəcəm!?

Anaxanım gördü ki, yox, burda bir iş var. Ələsgər düzünü demir. Bu dəfə yalvarıb soruşdu:

–Ələsgər, sən allah, de görüm nə olub?

–Əgər mana kömək eləmək istəyirsənsə, sabah kilimdən-zaddan götür, gedək darının yanına, orda bilərsən nə olub.

Anaxanım əl çəkmədi, Ələsgər darının başına gələn əhvalatı ona danışdı. Anaxanım çox peşmanladı. Bir azdan sonra dilləndi:

–Onda daha orya nəyə gedirik ki?!

–Yox, Anaxanım, gedib ələ gələnini yığmasaq, başımıza qaxınc olar. Bu töhməti götürmək olmaz. Elə neçə ki dünya var, danışıb üstümüzə gülərlər...

Anaxanım da hərdənbir gəlib zəmiyə baxırdı. Ağlına gəlməzdi ki, bu bir həftənin içində darı Ələsgər deyən kökə düşə. Səhər tezdən durdu, çörək-xörək hazır elədi, bir də bir kilim götürüb, zəmiyə getdilər. Anaxanım zəmini görəndə qurudu. Darı nə qədər yeyilmişdi, yeyilmişdi; qalanını da mal-heyvan çığnayıb yerə yapışdırmışdı. Biçiləsi deyildi, gərək yolunaydı.

Xülasə, darının biçiləsi yerlərini biçdilər, yolunası yerlərini də yolub, bir yerə topladılar. Gəlib Qozqara kötüyünün kölgəsində çörək-xörək yedilər. Bir az dincələndən sonra kilimi sərdilər, darıdan

dəstə-dəstə kilimin üstünə tökdülər. Ələsgər əlinə bir paya aldı, döyməyə başladı, döy ki, döyəsən. Anaxanım da döyməyə kömək elədi. Döyüb qurtarandan sonra sovurdular. Baxıb gördülər ki, az miqdarda məhsul oldu.

Aşıq Ələsgər qəlyanını doldurdu, gəlib Qozqara kötüyünün dibində əyləşib çəkməyə başladı. Bir qədər fikrə gedəndən sonra gördü yox, darının əhvalatı uzun haqq-hesab oldu. Ürəyinə bir neçə xanə söz gəldi. Darı döydüyü payanı götürüb sinəsinə basdı, görək nə dedi, Anaxanım nə eşitdi. Biz də saz ilə deyək şad olun:

Arpadan, buğdadan çıxmışdı əlim,
Zəhmət çəkdim, dedim bir az darı olsun.
Yolmasın yolmaqdan qırıldı belim,
Bundan gələn xeyir zəhrimar olsun!

Aşıq Ələsgər bu bəndi deyəndə eşitdi ki, hardansa həzin səs gəlir. O tərəf-bu tərəfə diqqət eləyəndə gördü ki, Qozqara kötüyünün üstündəki şivlərdi. Yel əsdikcə onlar səslənirlər, özü də bunlar elə-belə səslənmir, nə isə deyirlər. Aşıq Ələsgər fikir verəndə gördü ki, onun bu şikayətinə Qozqara kötüyü cavab verir. Görək necə cavab verir:

Aşıq, nə meydanı yalqız alıbsan,
Söz deyim sözünə barabar olsun.
Nahaq qalı, ortalığa salıbsan,
Elə iş tut, ondan xeyir kar olsun!

Belinən bu yeri əkdim bir aydı,
Sulamaqdan su da qalmadı çayda.
Biçdim, döydüm, darım oldu bir bayda,
Qoy söyləyim mahallarda car olsun!

Aldı Kötük:

Əfsana sözləri danışma barı,
Eşidənlər səni görərlər karı.

Sən orya səpmişdin bir istil darı,
Umudluydun, ondan bir tağar olsun!?

Aldı Aşıq Ələsgər:

Hər kimə göstərdim, dedilər göydü,
Eşidib bilənlər çox mana söydü.
Dən tutan yerlərin sağsağan döydü,
Qarğaynan siçanın üzü qara olsun!

Aldı Kötük:

Eşidənlər qınamasın bizləri,
Sən də sal bordağa kal-öküzləri,
Qoş kotanı, çevirginən düzləri,
Günlüyün birindən bir anbar olsun.

Aşıq Ələsgər gördü ki, Kötük yaman haqlı söz deyir. Aldı sözün tapşırmasını:

Ələsgər, başına qəhətdi peşə!?
Darı əkib yeməyibsən həmişə.

Sazı bas sinənə, təcnisdən döşə,
Yığ ruzunu, verən ellər yar olsun!

Görək Qozqara kötüyü sözünü necə tamamladı:

Qara kötük deyər, tükənsin sözün,
Bu ilki işlərdən nə qorxub gözün.
Bir qızındı, bir arvadın, bir özün;
Üç adamnan dünya sana dar olsun!

Aşıq Ələsgər də, Anaxanım da gördülər ki, Qozqara kötüyünün dediyi çox haqlı, həm də çox töhmətli söz oldu.

Aşıq Ələsgər öz ürəyində bir az özünü danladı. Axı bu zəhmətlə niyə darı əkirdin ki, başına da bu iş gəlirdi. Sənin nə dolanmaz başın

vardı!..

Darı zəmisinin yanından evə gələn kimi Aşıq Ələsgər dedi:

– Anaxanım, hazırlaş!

– Şələ-barxananı yığışdır, Göyçəyə qayıdaq!

Anaxanım Aşıq Ələsgərin sözünü daha çevirmədi. Ev-eşiyi yığışdırdılar, elə həmin günün səhəri köçüb, Ağkilsəyə gəldilər.

Bundan sonra Aşıq Ələsgər harada toy eləyirdisə, darının əhvalatını danışdırıb, ləzzət alırdılar.

Allah heç kəsin zəhmətini itirməsin! Allah hamının öz qazancını özünə qismət eləsin! Allah heç kəsi öz doğma yurd-yuvasından eləməsin!

---

1. İstil – bir girvənkə (400 qram)
2. Tağar – yüz batman (600 kiloqram)
3. Günlük – kotanla bir gündə şumlanan əkin sahəsi.

AŞIQ ƏLƏSGƏRLƏ HƏCƏR XANIM

Mənim əzizlərim, sizə haradan xəbər verim, Göyçə mahalının Qızılvəng kəndindən. Qızılvəng kəndindən kimdən, İsgəndər kişidən. İsgəndər kişinin iki yaxşı oğlu var idi; birinin adı Məhəmməd, o birinin adı Məmmədsöyün. Amma Həcər adlı bir qızı var idi, çox təhərsiz gözəl idi.

Həcər 12 yaşına çatanda qızılgül kimi açırdı. 14 yaşına yetəndə dilə-dişə düşdü, kəndin cavanları ona aşiq oldular. 16 yaşında onun gözəlliyinin səs-sorağı bütün Göyçəyə yayıldı. Doğrudan da, Həcər bir gözəl olmuşdu, bir gözəl olmuşdu ki, gəl məni gör, dərdimdən öl; əlini vurma, gəndə durma. Aya deyirdi sən çıxma, mən çıxacam, Günə deyirdi sən çıxma, mən çıxacam. Kəndin cavanları deyirdilər ki, bizə yemək-içmək verməyələr, amma qoyalar Həcərin xəttihalına, gül camalına doyunca tamaşa eləyək.

Həcərgilin kəndində Mirzə adlı bir qoçaq oğlan var idi. Bir gün bunlardan Həcərə elçi gəldi. Amma Məhəmməd Həcəri çox bikef gördü, atasına dedi:

–Ata, görürsən ki, qızı istəyən çoxdur; qız kimi bəyənsə, ona verək.

İsgəndər kişi razılaşdı, Mirzəgilin elçiləri mə'yus qayıtdılar.

Məhəmməd adlı bir oğlan da var idi, bu da Həcərin dərdindən ölürdü. Mirzəgilin elçiləri qayıdan kimi o, elçi göndərdi. Məhəmməd Mirzədən çox şəxsiyyətli idi. Elə hesab elədilər ki, Mirzəyə vermədilər, yə'qin ki, Məhəmmədə verərlər. Qız buna da razılıq vermədi. Bu elçilər də kor-peşman geri qayıtdılar.

Atalar deyibdir: "Qız ağacı – qoz ağacı, hər yetən bir daş atar". Elçilər gedib-gəlməkdən yolları yağır elədilər, Həcər heç kəsi bəyənmədi ki, bəyənmədi.

Bir gün qəza işi əydi, Həcərin qardaşlarının əlindən xata çıxdı, ikisini də tutdular. Məhəmməd qalaya getməmişdən əvvəl İsgəndər kişiyə dedi:

–Yeddi il bir iyidin ömrüdür, deməyin ki, adamımız tutulub, Həcər kimi bəyənsə ona verərsən.

Həcəri də ayrıca çağırıb dedi ki:

–Bizim qayıtmağımızı gözləyib, ömür-gününü çürütmə. Özün öz

vəkilinsən; kim xoşuna gəlsə, ona gedərsən.

Bəli, Həcərin qardaşları getdi, qaldı köməksiz, İsgəndər kişi o qədər vuran-tutan adam deyildi. Cavanların bə'ziləri fikirləşdilər ki, Həcəri götürüb qaçsınlar. Bu məsələ qonşudan-qonşuya gəlib Həcərin qulağına çatdı. Həcər utanmağı yerə qoydu, atasına dedi:

–Kəndin içində özgə söz danışırlar. Birdən axmağın biri gəlib qolumdan tutar, yaxşı olmaz, get mənə silah al.

İsgəndər kişi maldan-puldan verdi, bir onatılan tapança aldı. Kənddə bunu eşidən cavanlar elə kiridilər ki, elə bil qurbağanın gölünə daş atdılar.

İndi sizə kimdən xəbər verim, Göyçənin Alçalı kəndində Dünyamalı bəydən. Dünyamalı bəy atan, vuran, varlı-karlı bir adam idi. Elə ki, Həcərin tə'rifini eşitdi. Arvadı ikiləmək fikrinə düşdü. Atını minib, birbaş İsgəndər kişinin evinə gəldi.

Aradan bir az keçəndə İsgəndər kişi soruşdu:

–Bəy, nə əcəb, siz də bizi yada salıbsınız?

–İsgəndər kişi, sözün doğrusu, sənin qızın Həcərdən ötrü gəlmişəm.

–Bəy, yaxşı eləyib gəlibsən, amma bir söz deyə bilmərəm, amma işin axırını fikirləşməyibsən.

–İşin axırı nə təhərdi ki?

–Sənin boy-buxununa, qoçaqlığına, ad-sanına söz ola bilməz. Amma arvad-uşağın var. Mən sənə "hə desəm, evinə ziddiyyət düşəcək. Ah-nalə də qoymaz ki, biz xoşbəxt olaq. Sən bu fikrindən əl çək".

Dünyamalı bəy nə dedisə, Həcər cavabını verdi, sözünü kəsdi. Dünyamalı bəy atını minib, kor-peşman geri qayıtdı.

İndi sizə kimdən xəbər verim Məşədi İsədən. Məşədi İsə 18 kəndin qılavası idi. Eşitdi ki, Qızılvəngdə genə bir gözəl peyda olub, strajpikinə dedi:

–Bu saat atları minib, gedək; əvvəl xoşla, olmasa zorla o qızı gətirək.

Məşədi İsəgil atlandılar, birbaş Qızılvəngə. Bunlar kəndə yetişməkdə, Həcər də damın üstündə olmaqda. Atları İsgəndər kişinin qapısına tərəf sürdülər. Həcər bunları belə görəndə dedi:

–A qardaş, bura el yolu deyil; el yolu odur ha.

Məşədi İsə dilləndi:

–El yolunu bizə göstərmə, İsgəndər kişinin evini göstər.

–İsgəndər kişinin evi elə budur.

Həcər evə getdi, İsgəndər kişi atlıların qabağına çıxdı. Məşədi İsənin atının cilovundan tutdu.

–A Məşədi İsə, niyə düşmürsünüz, düşün.

–A İsgəndər kişi, düşməyəcəm. Açığı gəlmişəm ki, verdin, Allah əmri ilə, vermədin, yan dəmiri ilə qızın Həcərin aparam.

İsgəndər kişi kövrəlib dedi:

–A Məşədi İsə, kaş mənim oğlanlarım da burada olaydı, atışaydınız, vuruşaydınız, onları öldürəydin, qızı da aparaydın, mənə o qədər kar eləməzdi. İndi oğlanlarım qalada, bu saat özüm də eləyəm ki, bir dul arvad da qızı mənim əlimdən zorla alıb aparar. Elə deyil ki, mən sənlə meydana girəm. İş qalıb öz namusuna; zorla aparırsan, apar.

İsgəndər kişi belə deyəndə Məşədi İsə çox pis oldu, dedi:

–A İsgəndər kişi, yan dəmirini boşladım; allah əmri ilə qızını mənə verərsənmi?

–Qızın ixtiyarı özündədir. Atdan düş, danışdır. Əgər getsə, mən nə deyirəm ki.

Atdan düşdülər, içəri getdilər. İsgəndər kişi Həcərin yanına gəlib dedi:

–Qızım, bu gələn Məşədi İsədir. Özü də 18 kəndin qılavasıdır. Gəl gör sözün nədir.

Həcər içəri gəldi, qonaqlara "xoş gəldin" elədi, soruşdu:

–Nə yaxşı gəlibsiniz?

–Ay qız, buraya gələn sənin dədənin qara qaşına, ala gözünə tamaşa eləməyə ha gəlmir; gələnin hamısı səndən ötrü gəlir. İndi də görüm, mənə sözün nədir?

–A Məşədi İsə, eşitmişəm, çox qoçaq adamsan. Yaşının keçməyini hesaba almazdım, amma deyəsən səndə hərdəmxəyallıq var.

–Ay qız, hərdəmxəyal olduğumu hardan bilirsən?!

–Ondan bilirəm ki, anadan olanda adını qoyublar "İsə". Bir az böyüyəndə sən bu adla razılaşmayıbsan; uşağının boğazından kəsib, ziyarətə gedib olubsan "Məşədi İsə". Bu ad da qalıb bir tərəfdə: Nikolayın nişanını salıbsan boynuna, olubsan qlava. İndi sənin adın üçdür. Sabah da birini qondaracaqsan. Bundan bilirəm ki, sən hərdəmxoyalsan. Mən sənə gedə bilmərəm.

Məşədi İsəyə belə cavab qaytaran olmamışdı. Həcərin sözü ona güllə kimi dəydi. Bunlar da atlarını minib geri qayıtdılar.

Məni əzizlərim, indi isə kimdən xəbər verim, İrəvanlı Ələsrəf bəydən. Ələsrəf bəyin sürü ilə qoyunu, naxırla malı, sandıqla qızılı var idi. Özü də hələ evlənməmişdi. Həcərin tə'rifini eşidən kimi atını mindi, bir heybə qızıl götürdü, tüfəngi də çiyninə salıb, birbaş Qızılvəngə gəldi.

Həcər qapı-bacanı süpürürdü. Gördü ki, qonşuluqdan biri İsgəndər kişinin evini xəbər alır. İrəli yeridi ki, bir yaraşıqlı oğlandır, amma başı yaylıqla sarıqlıdır (Oğlan kürd idi. Kürdlərin bə'ziləri papaq əvəzinə başını sarıyır). Həcər elə hesab elədi ki, oğlan atdan yıxılıb, ona görə başını sarıyıbdır. Tez gəlib atasını çağırdı. İsgəndər kişi çölə çıxdı. Oğlan atdan düşdü, içəri keçdilər, Həcər də bunların yanına gəldi. İsgəndər kişi soruşdu:

–Oğul, nə yaxşı gəlibsən?

–A İsgəndər əmi, buraya gələn nədən ötrü gəlir? Minib gəldiyim at köhləndir. Heybədəkinin hamısı da qızıldır. Bir də bu "aynalı"dır, yüz də patronu var. Bircə "hə" desən, bunların hamısını qoyub gedəcəm. Nişanı, toyu bu gecə eləyərəm, o da mənim işimdir.

İsgəndər kişi meylləndi, Həcərin üzünə baxdı. Amma əlacı olsa "hə" deyərdi. Həcər atasının fikrini başa düşdü dedi:

–Oğlan, çox yaraşıqlı, boy-buxunlu, mallı-pullu oğlansan. Amma bir iş var: əgər biz evlənsək, uşaq sahibi olacağıq. İndi, bəlkə, birdən mal-dövlət əldən getdi. Onda mənim də başımda yaylıq var, sənin də. Bəs, onda axırımız necə olar?!

Ələsrəf bəyin dillənməyə təhəri olmadı. Atını minib geri qayıtdı.

İndi Həcərə "Həcər" demirdilər, hər yerdə "Həcər xanım" deyirdilər.

Bəli, mənim əzizlərim, Göyçənin Kəsəmən kəndindən olan cavanlar sözbir elədilər ki, sıra ilə gedək, hamımız özümüzü Həcər xanıma göstərək, bəlkə, bizim birimizi bəyənə, bizim kəndə düşə. Elə bunun özü də bir addır.

Cavanların içində Məhəmməd adlı şəxsiyyətli bir oğlan var idi, amma kasıb idi, yaxşı paltarı da yox idi. Kimin yaxşı paltarı var idi gətirdi, kimin yaxşı çuxası var idi gətirdi... Məhəmmədi bəzədilər, başına bir çal papaq qoydular, yüz manat pulla Qızılvəngə yola saldılar.

Məhəmməd Qızılvəngə yetişdi. İsgəndər kişinin qapısında atdan düşdü. İsgəndər kişi onun əlindən tutub, halını xəbər aldı, sonra soruşdu:

–A bala, nə yaxşı gəlibsən?

Məhəmmədin dili tutar-tutmaz dedi:

–İsgəndər kişi, Ələsrəf bəyin boş qayıtmağından çox kəmşavağat olmuşdu. Odur ki, təzə gələnlərin üzünə baxmaq da istəmirdi.

Oğlana dedi:

–A bala, birdəfəlik bilin ki, qızın ixtiyarı özündədir. Elə bu dəmdə Həcər xanım evdən çıxdı İsgəndər kişi:

–A bala, gör bu oğlan nə deyir? – elədi, öz işinin dalınca getdi.

Həcər xanım baxdı gördü ki, bu oğlan sir-sifətdən düzgündü, amma əynindəki paltarın heç biri yaraşmır (Andıra qalsın özgənin paltarı; kimisi uzun gəlir, kimisi gödək gəlir, bə'zi yeri gen olur, bə'zi yeri dar olur, xülasə, kənardan baxan kimi mə'lum eləyir ki, özgənindir). Həcər xanım da başa düşdü ki, əynindəki paltar özünün deyil.

Həcər xanım oğlanı içəri təklif elədi. Məhəmməd atı pəyəyə bağladı, otağa gəldilər. Bir az o yandan-bu yandan söhbət elədilər, oğlan mətləbi açdı:

–Həcər xanım, bu atı da, yüz manat da pul "hə" deməyinə gətirmişəm.

–Çox yaxşı eləyibsən. Qal, bu axşam söhbət eləyək.

Məhəmməd elə başa düşdü ki, iş düzəlib. Öz-özünə dedi: "məni də bəyənməyəndə, bəs kimi bəyənəcək!"

Axşam oldu, çay-çörək gətirdilər. Oğlan iştahla çörək yedi, çay içdi; elə bil ki, qaynatasının evidir. Sonra Həcər xanım oğlanı tutdu danışığa. O qədər danışdırdı ki, baxdı gördü oğlanın başı gedib-gəlir, dedi:

–Məhəmməd, deyəsən yuxun gəlir, gəlsən yerini salım yatasan.

–Həcər xanım, salırsan, sal.

Həcər xanım yer düzəltdi. O biri evə getdi. Oğlan papağını çıxartdı, ağac çarpayının başına keçirtdi, paltarını soyundu, yerinə uzanan kimi başladı xoruldamağa. Həcər xanım iynə-sap gətirdi papağı götürdü, ağ sapla papağın içindən bir belə sırıq getdi, bir də belə. Öz-özünə dedi ki, əgər başa düşsə, bu çal-çarpaz bağdır, onun sinəsinə çəkmişəm. Həcər xanım papağı yerinə qoydu, gedib o biri

evdə yatdı.

Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı. Məhəmməd yerindən durdu, tələsik paltarını geyindi, papağı başına qoydu. Həcər xanım otağa gələndə dedi:

–Həcər xanım, bəs mənə sözün nə oldu?

–Get bir xəbər göndərərəm.

Məhəmməd çay-çörəyə də qalmadı. Atını mindi, yol başladı Kəsəmənə.

Məhəmməd Kəsəmənə gəlməkdə olsun, sizə kimdən xəbər verim, kəsəmənlilərin yerdə qalanlarından. Gördülər ki, Məhəmməd axşam qayıtmadı, kimi dedi: yəqin qız söz verdi, Məhəmməd də Kəvərə parça, toy ayınoyunu almağa getdi. Kimi dedi: paltarı, pulu götürdü qaçdı, xərcləyəndən sonra qayıdacaq. Kimi dedi: bəlkə, qızın bəyəndiyini bildilər, qızı istəyənlər yolda-izdə öldürüblər. Xülasə, camaat yüz xəyal elədi.

Kəsəmənde Əbdüləzim adlı yaraşıqlı bir oğlan da var idi. Əbdüləzimi bəzədilər. Bunun da cibinə yüz manat pul qoydular, yola saldılar. Tapşırdılar ki, Məhəmmədi tapsa, qız Məhəmmədi bəyənmiş olsa, bu yüz manatı xərcləsinlər. Yox, əgər qız Məhəmmədi bəyənməyibsə, Məhəmməddəki yüz manatı da alsın, bu getsin, bəlkə Həcər xanım bunu bəyənə.

Əbdüləzim Basarkeçərə çatanda Məhəmmədlə qabaqlaşdı.

–Əyə, Məhəmməd, çox şükür, sağ-salamatsan. De görüm, iş nə təhər oldu?

–Balam, qız məni axşamdan lap yaxşıca bəyənmişdi, bilmirəm arada nə mərdimazarlıq eləyən oldusa, sabah, deyəsən fikrini dəyişdi.

–Əyə, bəs nə dedi?

–Dedi ki, get bir xəbər göndərərəm.

–Sənin işin düzəlməyib. Allahı çağırım, mən gedim. Geyiminin hamısı yaxşıdır, amma papağım köhnədir, Papağını ver, başıma qoyum.

Papaqları dəyişdilər. Əbdüləzim Məhəmmədəki yüz manatı da aldı. Məhəmməd Kəsəmənə qayıtmaqda olsun, Əbdüləzim Qızılvəngə getməkdə.

Həcər xanım bulaqdan su gətirirdi. Bir də gördü ki,bir atlı düz onlara sarı gəlir, nə at o atdır, nə adam o adam, amma papaq həmin

papaqdır. Atlı qapıda İsgəndər kişi ilə salamlaşdı. Aradan nə söhbət keçdisə, ikisi də Həcər xanıma baxmağa başladı. Həcər xanım gəlib çatanda İsgəndər kişi dedi:

–Qızım bu oğlan səndən ötrü gəlib.

–Çox yaxşı eləyib, atdan düşsün.

–Oğlan sevincək atdan düşdü. Həcər xanım sənəyi evə qoyub qayıtdı. Əbdüləzim ürəkli-ürəkli dedi:

–Həcər xanım, "hə" deməyinə iki yüz manat pulla bu atı gətirmişəm.

–Özün çox yaxşı oğlansan, pul gətirməsən də olardı. Geyiminə də söz ola bilməz. Papağın lap xoşuma gəlir. Allah qoysa qardaşlarım gələndə bu papaqdan hərəsinə birini tikdirəcəm. Ver bir onun dərisinə baxım.

Oğlan papağı verməyə bilmədi. Həcər xanım papağın dərisinə baxmaq bəhanəsi ilə içinə baxdı, şübhədən çıxdı. Papağı qaytarıb dedi:

–Oğlan, deyəsən sizin tərəflərdə malınızda, geyiminizdə ayrıseçkilik yoxdur. Mən sənə gedə bilmərəm.

Elə bil ki, Əbdüləzimi götürüb, qaynar qazana basdılar.Ağ bir, qara iki dillənə bilmədi. Suyu süzülənə-süzülənə qayıtdı.

Mənim əzizlərim, indi sizə haradan xəbər verimi. Göyçənin Söyünqulağalı kəndində Hacılıoğlu molla Balıdan.

Molla Balı qardaşı Abbasa toy eləyirdi. Atlı göndərdi ki, Aşıq Ələsgəri toya gətirsin. Bu zaman Kəvərdən Molla Balıya teleqram gəldi ki, pulunuz gəlib, gəlin aparın.

Molla Balı çox varlı adam idi. Elə olur ki, birdən şəhərə min əyəc-erkək göndərirdi. Bu il də Göyçənin Qayabaşı kəndindən olan Hacı Xıdıroğlu İsgəndərlə güclü mal-qoyun aparıb satmışdılar, hərəsinin 9 min manat pulu olmuşdu. Yolda-izdə oğrunun-quldurun qorxusundan pulu Bakıdan poçta salmışdılar, özləri arxayın kəndə gəlmişdilər. İndi Kəvərdən gələn həmin pulun teleqramı idi. Hacı Xıdıroğlu İsgəndər Qayabaşı kəndindən Söyünqulağalı kəndinə gəldi. Molla Balının da atını yəhərləyib çölə çəkirdilər ki, Aşıq Ələsgər gəldi.

Molla Balı Aşıq Ələsgərə dedi:

–Aşıq Ələsgər, bizim pullar gəlib, biz onun dalınca gedirik. Sən rahat ol. Allah qoysa, axşama Kəvərdəyik, sabah bu vaxtı burada.

Gələn kimi toyu başlayarıq.

Molla Balıgil atları minib, Kəvərə yol başladılar. Atları bərk sürdülər, günortadan xeyli keçmiş Kəvərə çatdılar. Yetirən kimi pulu alıb geri qayıtdılar. Günbatanda Yarpızlı kəndinə yetişdilər. Gecə qonaqçı evində Həcər xanımın söhbəti ortalığa düşdü. Yarpızlı ilə Qızılvəngin arası yaxındır. Ona görə İsgəndər kişinin evinə gələn elçilərdən yarpızlılar halı idilər. Molla Balıgil danışılanların hamısına diqqətlə qulaq asdılar. Səhər tezdən atları minib, yola düşdülər. Kənddən azca aralanmışdılar, Molla Balı İsgəndərə dedi:

–A İsgəndər, dünyanın azını da gördük, çoxunu da. Süleymana qalmayan dünya bizə ha qalmayacaq. Bu gün-sabah yıxılıb öləcəyik, dünyadan nə aparacayıq!? Gəl bu on səkkiz min manatı Həcər xanımın yolunda qoyaq, hansımızı bəyənsə alaq.

–A Molla Balı, lap ürəyimdən xəbər verdin. Elə mən istəyirdim ki, ağzımı açım, sən məndən qabaq dilləndin.

Bunlar da atları sürüb, Qızılvəngə gəldilər. İsgəndər kişinin evinə yaxınlaşanda bir qadın rast oldu. Molla Balı dedi:

–A bacı, İsgəndər kişinin evi hansıdır?

–Qardaş, o ev İsgəndər kişinin evidir, damın üstündəki də İsgəndər kişinin qızı Həcər xanımdır.

–A bacı, sən də ol qiyamətin günü bizim bacımız, bir söz desək, gedib Həcər xanıma deyərsinizmi?

–A qardaş, özgənin sözünü özgəyə deməyə nə var; nə deyirsiniz gedim deyim?

–Həcər xanıma de ki, o Söyünqulağalı Hacıalıoğlu Molla Balıdır. Bu saat yanında on səkkiz min manat pul var. Elə bilməsin ki, pulu buncağazdır; Söyünqulağalıdan Qızılvəngə qədər yüzlüyü düzdürərəm, onu üstü ilə aparıram. Gör mənə sözü nədir.

Həcər xanımla bunların arası yaxın idi. Danışdıqlarının hamısını yaxşı eşitməsə də, üzlərini aydın görürdü. Qadın gəlib Molla Balının dediyini Həcər xanıma çatdırdı. Həcər xanım atlılara bir də diqqətlə baxdı, nə isə qadına dedi. Qadın geri qayıtdı:

–A qardaş, Həcər xanım deyir ki, o kişi cavan vaxtında çox yaxşı imiş. Əgər vaxtı keçməsə idi, pulu-zadı da lazım deyildi; canla-başla gedərdim. Bu gündən sonra o, alnını yerə qoyub, əllərini göyə qaldırıb, "Allahü-əkbər deyəcək, mən də deyib-gülmək istəyəcəm. Onunla mənimki tutmaz".

İsgəndər Molla Balıdan bir az cavan idi. İrəli yeridi dedi:

–Bacı, on səkkiz min manat da mən gətirmişəm; gör mənə sözü nədi.

Qadın qayıdıb İsgəndərin də sözünü Həcər xanıma dedi. Həcər xanım bir qədər ucadan dilləndi:

–Get, ona de ki, qabaqkının gözəl qəddi-qaməti var, qadının qayıtmasını gözləmədilər. Atların başını döndərdilər, ölüləri ölmüş kimi kor-peşman kəndə tərəf üz qoydular. Günorta olmamış Söyünqulağalıya çatdılar.

Camaat gördü ki, Molla Balıgil çox mə'yusdur. Soruşdular ki, yoxsa qaçaq-quldura rast gəldiniz?

Molla Balı dedi:

–Kaş, yolda bizi öldürüb, pulumuzu da aparaydılar, amma başımıza bu iş gəlməyə idi.

Molla Balı başlarına gələni danışdı. Biri dedi, Məşədi İsəyə belə deyib... Xülasə, Həcər xanım kimə nə demişdisə, hamısını bu məclisdə danışdılar.

Aşıq Ələsgər iki gün yolda qaldı, ağır məclis keçirdi evlərinə qayıtdı. Yolda fikir elədi ki, Həcər xanım bəyi bəyənmir, qlavanı bəyənmir, mollanı bəyənmir, hacını bəyənmir, məşədini bəyənmir, taciri bəyənmir, bəs kimi bəyənəcək. Yəqin ki, bunun meyli aşıqdadır. Get, bir bunu yoxla.

Aşıq Ələsgər evə çatan kimi dəllək çağırtdırdı, saqqal-başını yaxşı düzəltdirdi, getməyə hazırlaşdı.

Böyük oğlu Bəşir Aşıq Ələsgərdən soruşdu:

–Ay dədə, haraya gedirsən?

–Oğul, Qızılvəngə gedirəm; toya çağırıblar.

Aşıq Ələsgər atını mindi, sazını çiyninə saldı, yol başladı Qızılvəngə. Yolda üst-başına fikir verdi, gördü ki, hər geyimi yaxşıdır, amma məsti bir az köhnə kimidir.

O zaman Şuşa qalasından Həmid adlı bir çəkməçi var idi. Basarkeçərdə işləyirdi. Həmidin gəldiyi bir ilə yaxın olardı, amma Aşıq Ələsgəri görməmişdi. Arzu eləyirdi ki, bir onun məclisinə düşəydi. Bir də gördü ki, bir canlı kişi gəldi, çiynində də saz var.

–Salaməleyküm!

—Əleykümsalam!

–Usta, hazır məstin var?

–Bəli, var.

–Zəhmət çək, bir cüt mənə ver.

Yeddi cür hazır məst var idi. Heç biri Aşıq Ələsgərin ayağına olmadı, xırda gəldi.

Aşıq Ələsgər dedi:

–Usta, bir təzəsini tik.

Həmid Aşıq Ələsgərin ayağının ölçüsünü götürdü.

Aşıq Ələsgər soruşdu:

–Usta, nə zaman hazır olacaq?

–Sabah bu zamana hazır eləyəcəm.

Aşıq Ələsgər gördü ki, iki gün burada gözləyə bilməyəcək. Özözünə dedi ki, əşi kimdi sənin ayağına diqqət eləyən, elə belə gedim. Həmidə dedi:

– Usta, onda məsti tik, sabah bu zaman gəlib apararam. Amma məsti əməlli tikərsən, altına padoş qoyarsan, üstü də ki yaxşı xromdan olacaq.

–Baş üstə!

O zaman məstin birinin şahıya tikirdilər, Aşıq Ələsgər bir manat verdi.

Həmid soruşdu:

–Əşi haralısan?

–Ağkilsədənəm.

–Adın nədir?

–Ələsgərdir.

Həmid axtardığını tapmışdı. Heç işin üstünü vurmadı.

Aşıq Ələsgər atını minib, Qızılvəngə yola düşdü. Həmid o saat nə qədər xromu var idi, nə qədər padoşu var idisə, gətirdi, seçdi, bir cüt sən deyən məst tikdi. Aşıq Ələsgər verən manatı da içinə qoydu, götürüb saxladı. Bir cüt də dağarcıqdan boyanma dəridən çələvi bir məst kimi şey kökərtlədi, bunu da götürüb saxladı.

Həmidin müştəriləri çox idi. Tez-tez onun yanına gəlib-gedirdilər. Gördülər ki, Həmid əlindəki işi yarımçıq qoydu, iki cüt məst tikdi. Birini elə tikdi ki, lap qızqaytaran; o birini başından elədi. Ermənilərdən biri soruşdu:

–Usta, nə təhər şeydir ki, əlinin işinin ikisi bir-birinə oxşamadı?

Həmid məsələni açdı:

–O məstin ikisini də Aşıq Ələsgərə tikdim. Elə mən onu görmək

istəyirdim, Allah öz ayağı ilə yetirdi. Deyirlər, çox hazırcavab aşıqdır. Mən onu sınayacam.

–Həmid, qəza səni dolaşdırıb. Özünü biabır elətdirəcəksən. O, çox belə sınaqlardan çıxıb.

–Biabır elətdirsəm də, sınayacam.

–Yaxşı, nə zaman gələsidir?

–Sabah bu zaman.

Bu məsələ ağızdan-ağıza yayıldı. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı. Basarkeçərin saz-söz həvəskarları çəkməçinin yanına yığışdılar, Aşıq Ələsgərin yolunu gözləməyə başladılar.

Mənim əzizlərim, bunlar Aşıq Ələsgərin yolunu gözləməkdə olsunlar,sizə Aşıq Ələsgərdən deyim.

Aşıq Ələsgər atını sürüb, Qızılvəngə yetişdi. Qızılvəngli Aşıq Usuf Aşıq Ələsgərin şəyirdlərindən idi. Aşıq Ələsgər birbaş Aşıq Usufgilə gəldi. Aşıq Usuf onu çox böyük hörmətlə qarşıladı. O saat bir erkək kəsdi, yemək-içmək hazırlatdı. Aşıq Ələsgərin gəldiyini bilən qonşular oraya toplaşdılar. Aşıqlar bir qədər çaldılar, oxudular, bir xeyli də o yandan-bu yandan söhbət elədilər, axşam oldu. Adamlar dağılandan sonra Aşıq Usuf dedi:

–Ələsgər əmi, nə yaxşı gəlibsən?

–A bala, Həcər xanımı görməyə gəlmişəm. O nə qədər artıq adamdır ki, heç kəsi bəyənmir, hərədə bir eyib tapır.

–Ələsgər əmi, o kişi kimi bir qızdır, dilinin də qoruq-qadağası yoxdur. Gedərsən, sənə ağır cavab qaytarar, el içində yaxşı olmaz.

–Yaxşı ola, yaxşı olmaya, gərək onu görəm, sözümü deyəm.

Aşıq Usuf gördü ki, Aşıq Ələsgər əl çəkəsi deyil, dedi:

–Ələsgər əmi, İsgəndər kişi sınıqçıdır. Sabah mən qolumu boynumdan asım, guya ki, at yıxıbdır. Gedək İsgəndər kişinin yanına. Onda yəqin ki, Həcər xanımı görəcəksən. Nə sözün olsa, deyərsən.

Aşıq Ələsgər bu fikirlə razılaşdı. Gecə yatdılar, sabah tezdən çaydan-çörəkdən sonra Aşıq Ələsgər sazını götürdü, Usuf da qolunu boynundan asdı, İsgəndər kişigilə getdilər.

İsgəndər kişi Aşıq Ələsgəri görəndə həddindən artıq şad oldu. Xoş, beş, on beş... Qonaqları içəri təklif elədi. Həcər xanım sənəyi götürüb, su gətirməyə getdi. Aşıq Ələsgər İsgəndər kişiyə dedi ki, Usuf atdan yıxılıb, onun qoluna bax.

İsgəndər kişi Usufun qolunu yoxladı, dedi:

–Qırığı yoxdur, bir az ağrıyıbdır. Heç bir şey olmaz.

İsgəndər kişi Aşıq Ələsgərin nə fikirlə gəldiyini bilmədi, qızından giley eləməyə başladı; elçilərin gəlib-getməyindən uzun-uzadı danışdı.

Həcər xanım sudan qayıtdı, çay-çörək hazırlamağa başladı. Məhlənin adamları Aşıq Ələsgərin buraya gəldiyini eşitdi, İsgəndər kişinin evinə toplaşdılar. İsgəndər kişi vəziyyəti belə görəndə Aşıq Ələsgərə dedi:

–Aşıq Ələsgər, camaat buraya nədər ötrü yığılıb?

Aşıq Ələsgər cavab vermək əvəzinə, sazı köynəyindən çıxartdı. Çalmağa başlayanda Həcər xanım da gəlib, məclisin bir tərəfində dayandı, diqqətlə tamaşa eləməyə başladı. Aşıq Ələsgər nə qədər gözəl görmüşdüsə, beləsini görməmişdi. Aldı, görək Həcər xanıma nə dedi, ordakılar nə eşitdi:

Həcər xanım, qaşın, gözün təhrində
Xətt yazsam, Qur'anda ayə düşərmi?!
Götürsən niqabı mah camalından,
Hüsnün nuri-təcəllaya düşərmi?!

İsgəndər kişi sazdan-sözdən o qədər başı çıxan adam deyildi. Gördü ki, Aşıq Ələsgər Həcəri tə'rifləyir çox şad oldu. Həcər xanım sözə diqqətlə qulaq asırdı. Bu bəndi eşidəndə qızılgül kimi açıldı. Aşıq Ələsgər qızı belə görəndə belə fikirləşdi ki, gəl sözünü bir az açıq de, görək nə cavab verir. Aldı sözün o biri bəndini:

Saxlasan, qapında mən ollam nökər,
Dişlərin mirvari, dodadığn şəkər.
Səni sevən bu dünyadan əl çəkər,
Daha qeyri təmənnaya düşərmi?!

Gözəl arif olub mətləb qanmasa,
Yayınıb, yaşınıb, daldalanmasa,
Aşıq muştaq olub, gəldi yanmasa,
Bir bu qədər ilticaya düşərmi?!

Həcər xanım bir kəlmə də olsun dillənmirdi. Elə bil ki, sözlərin hamısını sinəsinə yazırdı. Aşıq Ələsgər aldı o biri bəndini:

Qamətin mələkdi, hüsnün pəridi,
Könül gözlərinə çox müştəridi.
Camalın şoxundan cismin əridi,
Zülfündən üstünə saya düşərmi?!

Yazıq Ələsgərin var e'tiqadı,
Möhr olunub gözəlliyin baratı.
Cismin sadağası, hüsnün zəkatı
Sayil olan binəvaya düşərmi?!

Söz tamama yetişən kimi Həcər xanım gülə-gülə o biri evə getdi. Aşıq Ələsgər elə hesab elədi ki, iş düzəldi. Sazı köynəyinə qoydu, Usufa dedi ki, gedək. Məclis dağıldı. Aşıq Ələsgər Usufgilin qapısına çatanda dedi:

–A bala, atı çölə çək.

–Əşi, nə danışırsan, bu gün qal.

–Qalmağa təhərim yoxdu, gedəcəm.

Aşıq Ələsgər atı mindi, yola düşdü. Yol uzunu toy tədarükü fikirləşə-fikirləşə gəlirdi. Basarkeçərə çatanda məst yadına düşdü, atı sürdü çəkməçinin yanına:

–A usta, məst hazırdı?

–Gətir görüm.

Aşıq Ələsgər gördü ki, çəkməçinin yanında bir məclisin adamı var. Erməni dostlarından Səfəroğlu Hovanes, Ağabəy, Aspadur, Yanıq Tatos, Qara Tatos-zad hamısı burdadır. Bilmədi ki, nə işdir. Çəkməçi dağarçıqdan tikdiyi məsti Aşıq Ələsgərə uzatdı.

–Buyur.

Aşıq Ələsgər məsti əlinə aldı, gördü ki, çəkməçi buna kələk gəlib, dedi:

–Usta, axı biz belə danışmamışdıq. Sən söz verdin ki, yaxşı məst tikəsən.

–Yaxşı məst deyil, bəs nədir?! İki gündür bunun üstündə əlləşirəm.

–Əlləşməyinə bir söz demirəm, amma bir şey tikə bilməyibsən.

–Əşi, xoşuna gəlir, pulunu ver, apar; xoşuna gəlmir, başqasına sataram.

Aşıq Ələsgər gördü ki, dillə dava çəkmək olmayacaq. Çəkməçi pulu da danmaq fikrindədir. Yavaşca sazı köynəyindən çıxartdı. Sazın səsini eşidən kimi bazarda nə qədər adam var idisə, hamısı oraya yığıldı. Aşıq Ələsgər görək çəkməçiyə nə dedi, qulaq asanlar nə eşitdi:

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma, hayıfsan!

Həmid dedi:

–Əşi, nə manat?!

–Oğul, dünən verdicəyim manatı deyirəm, da!

–Əşi, sən havaxtı mənə pul verdin? Düzdür, əlində bir manat pul var idi, yenə qaytarıb cibinə qoydun. Elə bilibsən ki, mənə verdin.

Aşıq Ələsgər aldı sözünü o biri bəndini:

Mövlan məni nəzərindən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb,
Fani dünya Süleymana qalmayıb,
Oyan, bu qəflətdən, yatma, hayıfsan!

Siz tələş eylərsiz iynə-biz ilə,
Bizim barat gəlib-gedir yüz ilə.
Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan!

Həmid dedi:

–Allah xatirinə, pulunu da istəmirəm, məsti apar, yaxamdan əl çək!

Aşıq Ələsgər gördü ki, bu, çox ağır söz oldu. Haraya gedəsən, hörmətin başdan artıq ola, bir çəkməçi səni biabır eləyə...

Aldı sözün o biri bəndini:

Düşəndə məclisə, ağır yığnağa,
Bizə hörmət qoyur irəncbər, ağa...
Söz uzansa, həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan!

–Ay camaat, görün bu məstin malından yaxşı mal var ki, aşıq bunu bəyənmir?!

Aşıq Ələsgər aldı, görək tapşırmasında nə dedi:

Qəsəm olsun xudkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə.
Köhnə dağarcığı tumaş yerinə
Aşıq Ələsgərə satma, hayıfsan!

Söz tamama yetişdi. Aşıq Ələsgər gördü ki, buradakı dost-tanışların hamısı gülür. Özgə zaman olsaydı, işə qarışardılar, ona tərəfdar çıxardılar. Başa düşdü ki, burada bir iş var.

Həmid o biri məsti çıxartdı:

–Aşıq Ələsgər, sənə qurban olum, mənim gəzdiyim elə bu idi. Buyur, məstini götür.

Aşıq Ələsgər məsti aldı. Baxdı gördü ki, zalım oğlu məsti elə tikib ki, elə bir heç üstündə əl gəzməyib, iki göz gərək tamaşa eləyə. İçinə baxanda gördü ki, həmin verdiyi manat içindədir. Manatı çıxartdı, neylədisə, Həmid almadı, dedi:

–Sənə peşkəş tikmişəm. Amma qadan alım, bu söz burada qalsın, özgə yerdə oxuma.

–Qorxma, toydan başqa heç yerdə oxumaram.

Aşıq Ələsgərin bu sözünə də hamı gülüşdü. Səfəroğlu Hovanes Aşıq Ələsgəri evlərinə təklif elədi. Aşıq Ələsgər getmədi dedi ki, tələsiyirəm, vacib işim var.

Aşıq Ələsgər atını mindi, birbaş Ağkilsəyə gəldi.

Ağkilsə kəndinin qonşuluğundakı Zod kəndində Bəhlul adlı bir kişi var idi. O həmişə qoyun alveri ilə məşğul olurdu. Aşıq Ələsgər kəndə çatan kimi Bəhlula xəbər göndərdi ki, 5 –10 heyvan satacam, səhər gəl, sövdələşək.

Mənim əzizlərim, zodlu Bəhlula xəbər getməkdə olsun,sizə deyim Həcər xanım gördü ki, Aşıq Ələsgər çox şaddır. Aşıq Ələsgər-

gil gedəndən bir qədər sonra Həcər xanımın ağlına gəldi ki, Aşıq Ələsgərə bir cavab vermədim. O bədbəxt özgə xəyala düşəcək. Hörmətli adamdır ki, el içində sonra biabır olacaq. Yaxşısı budur ki, nə deyəcəksənsə, kağıza yazdır, xəlvətcə özünə göndər, qoy rahat olsun. Qonşuluqdan bir uşaq göndərdi ki, get, buraya bir molla çağır.

Bir evdə yığıncaq var idi. Kəndin oxumuşlarının hamısı burada idi. gəldi, yığıncağın ayağından dedi ki, Həcər xanım bir molla çağırır. Məclisdə bir oxumuş adam var idisə də durdu, beş oxumuş adam var idisə də. Bir-birinin dalınca Həcər xanımgilə yüyürdülər. Həcər xanım bunları belə görəndə dedi:

– Mən birinizi çağırmışam. Bu qədər adam nə gəzir?

Biri irəli yeriyib dedi:

– Həcər xanım, oğlan demədi ki, Həcər xanım hansımızı çağırır, ona görə hamımız gəldik.

Molla Məmməd adlı biri var idi, çox yaxşı da xətti var idi, həm də əhli-hal idi. Həcər xanım bunu saxladı, qalanları getdilər.

Molla Məmməd kağız-qələm hazır elədi. Həcər xanım dedi, Molla Məmməd gözəl xətlə yazdı, bir paketə qoydu. Həcər xanım paketin üstünə yazdırdı ki, "çatacaq Ağkilsə kəndində Aşıq Ələsgərə."

Bivədə idi. O günü Həcər xanım bir adam tapıb kağızı göndərə bilmədi. Sabah tezdən gördü ki, tanımadığı bir oğlan qonşu evdə atının belindəki yükü açdı, ev sahibindən bir qədər pul aldı. Atını minib getmək istəyəndə Həcər xanım irəli gedib soruşdu:

-A qardaş, kiraçisən?

-Bəli, kiraçiyəm.

– Hansı kənddənsən?

– Böyük Qaraqoyunludanam.

– Adın nədir?

– Camaldır.

– Camal, Ağkilsə ilə sizin kəndin arası yaxındırmı?

– Bəli, yaxındır.

– Kiraçilik eləyən günü nə alırsan?

– Nə bilim, olur da, altı abbası,bir manat alıram.

– Camal, həm evinizə gedərsən. həm də bu kağızı aparıb Ağkilsədə Aşıq Ələsgərə verərsən. Al, bu da bir manat sənin zəhmət haqqın.

Camal gördü ki, bu elə bir gözəl qızdır ki, yemə, içmə, bunun

xətti-halına, gül camalına tamaşa elə.

– Əşi. pul-zad lazım deyil, apararam.

Həcər xanım pulu güclə verdi.

Camal kağızı da, pulu da cibinə qoydu, ata dəydi.

Camal Ağkilsəyə gəlməkdə olsun, sizə xəbər verim Aşıq Ələsgərdən.

Aşıq Ələsgər tezdən çobana tapşırmışdı ki, qoyunu kəndin qırağında otar, müştəri gələcək, heyvan satacam.

Zodlu Bəhlula xəbər yetişdi. Gün bir az qalxmışdı, Bəhlul gəldi.

– Salaməleyküm!

– Əleykəssalam!

– Aşıq Ələsgər, heyvan satacaqsan?

– Bəli, satacam. Bir az pul lazımdır. Əgər alacaqsansa, heyvanlar kəndin qırağındadır, gedək, bax.

Aşıq Ələsgərlə Bəhlul getdilər sürünün yanına. Aşığın nə qədər heyvanı olacaq idi ki! Aşıq Ələsgər bir–bir qoyunları göstərdi, Bəhlul hamısına baxdı. Bu zaman Aşıq Ələsgər gördü ki, Hüseynqulağalı yolu ilə bir atlı gəlir. Atlı gəlib arxa çatanda gördü, başladı arxla enişə onlarla tərəf getməyə. O saat Aşıq Ələsgərin ürəyinə damdı ki, bu atlıda bir xəbər var. Bəhlula dedi ki, heyvanlara baxdın, gedək, qiymətini evdə danışaq.

Atlı bunlardan qabaq çatdı, çatan kimi də qayıtdı. Aşıq Ələsgər Bəhlulu otağa apardı, özü evə getdi. Gördü ki, oğlu Bəşir əlində bir kağız oxuyur, amma gah gülür, gah rəngi qaçır.

– Oğul, nə kağızdır?

– Nə kağız olacaq!? Durdun, durdun, saqqalının ağ vaxtında özünü biabır elətdirdin.

– Oğul, kağızı kətirən kim idi, göndərən kimdir?

– Qaraqoyunlu Camal gətirdi, göndərən də Həcər xanımdır.

Belə deyəndə Aşıq Ələsgərin dizi qırıldı. Ona qədər Aşıq Ələsgərin qardaşı Məşədi Salah evə gəldi. Aşıq Ələsgər dedi ki, qonaq var, otağa get. Məşədi Salah gedəndən sonra dili tutar-tutmaz Bəşirə dedi:

–Oğul, oxu görüm, nə yazıb?

Bəşir kağızı oxumağa başladı, görək nə oxudu, biz də sazla oxuyaq, siz qulaq asın:

Loğmandan kəs olan, nütfədən əyri,
Yüz dərs alsa, pür kamala yetişməz.
Bir qul düz dolansa haqqın yolunda,
Qəza tapmaz, ona bəla yetişməz.

–Oğul, burada nə var ki! Bu, çox nəsihətli sözdür. O biri bəndini oxu görüm.

Bəşir o biri bəndini oxudu:

Gər hökmün işləsə qaf ilə Qafa,
Bihuda xərc çəkmə, əfsana cəfa.
Qəvvas tapar tə'ni satar sərrafa,
Nə aşığa, nə abdala yetişməz.

Aşıq Ələsgər gördü ki, Həcər xanım burada yaman toxunub. Həm də işarə eləyib ki, fikrini dəyişdirib, özünü xərcə-borca salma, düzələsi iş deyil. O saat yadına Bəhlul düşdü.

Bəşir sözün o biri bəndini oxudu:

Eşit bu sözləri, saxla yadigar,
Gözəllərdə həya, iyidlərdə ar.
Axmaq köpək qaysavadan pay umar,
Nahaq düşüb o xəyala, yetişməz.

Aşıq Ələsgər gördü ki, zalımın qızı bu bənddə lap belinin nəziyindən vurub. Bəşir də çox pərt olub dedi:

–Bunumu istəyirdin!?

–Hə, a bala, burada bir balaca toxunub.

–Balaca yox, lap yekəcə toxunub; lap biabır eləyib.

Bəşir sözünü o biri bəndini oxudu:

Qəza insanatı tənabdan asar,
Leyli-nahar-muştu cəhd eylər kəsər,
Əjdaha ayaqdan kəsər sərasər,
Əlləşər, barmağı bala yetişməz.

–Ay dədə, mən bundan bir şey başa düşmədim. De görüm, nə deyir?

–Oğul, bu bəndin mə'nası çox dərindir. El arasında deyərlər ki, Əzrayıl bir qızmış dəvə donunda insanı qovar ki, öldürsün. İnsan hayana qaçsa, dəvə dalınca gələr. İnsan axırda gəlib bir quyunun yanına çıxar. Görər ki, quyunun üstündə ağaca bağlı bir kəndir var. Kəndirdən tutub aşağı sallanar ki, dəvədən canını qurtarsın. Bu zaman görər ki, bir ağ siçan gəlib kəndiri kəsməyə başladı. Aşağı baxar ki, quyunun dibində bir əjdaha var, ağzını açıb ki, düşən kimi onu kamına çəksin. İnsan gözünü quyunun qırağına gəzdirəndə görər ki, bir göl arısı burada yuva salıb. Bu zaman insan dəvəni də yadından çıxardır, siçanlar kəndiri kəsməyini də, quyunun dibindəki əjdahanı da; çalışar ki, arının yuvasından bal çıxardıb yesin. Başı o qədər qarışar ki, siçanlar kəndiri kəsər. İnsan gumbultu ilə quyunun dibinə düşər. Oğul, ağ siçanla qara siçan gündüz ilə gecədir ki, insanın ömrünü kəsir. Əjdaha cəhənnəmdir ki, ağzını açır, hazır durub, gözdüyür ki, kəndir üzülsün. Quyunun qırağındakı arı yuvasında olan bal da dünya malının şirinliyi deməkdir. Dünya malı insanı aldadar, ölümü, cəhənnəmi yadından çıxardar. Bir gün yıxılar ölər. Oğul, bir də burada onu deyib ki, qəzadan qaçıb qurtarmaq olmaz. Hayana getsən, nə tədbir görsən, ölüm insanın boynunda haqqdır. Buna əlac olmaz.

–Dədə, afərin bu qızın kəlamına, çox qiymətli sözdür.

–Oğul, o biri bəndini oxu görüm!

Bəşir sözün tapşırmasını oxudu:

Var Həcərin gözəllikdə isbatı,
Zər libasa naxış vurur xəyatı,
Olar gözəllərin xümsü, zəkatı,
Cavana yetişər, çala yetişməz.

Söz tamama yetişdi. Aşıq Ələsgər gördü ki, Həcər xanım onun qocalığına da işarə eləyib, lap ümidi üzüldü, Bəhlulun yanına qayıtdı. Bəhlul dedi:

–Əşi, haraya getdin, gəl qoyunların qiymətini de, tələsiyirəm. Qoyunun biri gedirdi beş manata, Aşıq Ələsgər dedi yeddi manata. Nədir ki, almasın. Bəhlul nə qədər elədisə, Aşıq Ələsgər aşağı

enmədi. Bəhlul çıxdı getdi.

Aşıq Ələsgər Bəşirin yanında özünü vermədi, Həcər xanım onun ciyərinə dağ çəkmişdi.

Gün gəldi axşam oldu. O gecə ilan vuran yatdı, Aşıq Ələsgər yatmadı. Özü-özünə deyinməyə başladı: "Belə də iş olarmı! Sən Aşıq Ələsgər olasan, mollaya, alimə, müctəhidə cavab verəsən, bir qız səni abırdan sala!"

Aşıq Ələsgər tezdən durdu, atını yəhərlətdi ki, yola düşə, Bəşir soruşdu:

–Ay dədə, haraya gedirsən?

Aşıq Ələsgər istədi ki, bu məsələni heç kəsə bildirməyə, Bəşirə dedi:

–Toya çağırıblar.

Bəşir gördü ki, dədəsi toya çağırılana oxşamır, dedi:

–Düzünü de görüm, haraya gedirsən?

Aşıq Ələsgər gördü cidanı çuvalda gizlətmək olmaz. Bu məsələ açılacaq, dedi:

–Həcər xanımla deyişməyə gedirəm. Allah ya ona verər, ya mənə!

Bəşir üzəngisini basdı. Gülümsünüb dedi:

–Yaxşı yol! Amma gözlə ki, dünənki muştuluq olmasın.

Aşıq Ələsgər yol başladı Qızılvəngə.

Mənim əzizlərim, Aşıq Ələsgər Qızılvəngə getməkdə olsun, sizə kimdən xəbər verim, Qızılvəngdə Məşədi Əhməddən.

Məşədi Əhməd oğluna toy eləyirdi. İstədi ki, toyu başlaya, camaat bir səslə dedi ki, əgər Aşıq Ələsgəri gətirməsən, sənin toyuna gəlməyəcəyik. Məşədi Əhmədin əlacı kəsildi, atını mindi, yol başladı Ağkilsəyə. Qoşabulaq suyunda Aşıq Ələsgərlə qabaqlaşdılar.

–Salaməleyküm!

–Əleykəssalam!

Məşədi Əhməd başladı Allaha şükür eləməyə. Aşıq Ələsgər soruşdu:

–Əşi, nə olub, de görüm?

–Aşıq Ələsgər, oğlumun toy yuxası bişib, sənə məəttəlik. Bu gün burada olursan, sabah Qarabağda, biri gün Qazaxda... səni evdə tapmağıma heç ümidim yox idi. Ona görə şükür eləyirəm ki, Allah səni yolun ortasında mənə yetirdi. De görüm, haraya gedirsən?

–Mən də elə düz sizin kəndə gedirəm.

–Xeyir ola, nə işdən ötrü gedirsən?

–Bilmirsənmi, sazlı gedəndə xeyir olar. Sözün doğrusu, Həcər xanımla deyişməyə gedirəm.

–Aşıq Ələsgər, Həcər xanım bilsə ki, sən onunla deyişməyə gəlibsən, sənin meydanına çıxmaz. Yaxşısı budur ki, sən heç işin üstünü vurma, toyu başla. Mən Həcər xanımı da toya gətirdim. Nə sözün var orada de.

Aşıq Ələsgər bu fikirlə razılaşdı. Gedib toyu başladı. Həcər xanımı da toya gətirdilər. Bundan əvvəl toyda kişilərin, arvadların mə'rəkəsi ayrı olardı. Aşıq Ələsgər kişilərin mə'rəkəsində bir neçə qatar oxuyandan sonra dilavər qadınlardan biri xəbər gətirdi ki, Həcər xanım deyir ki, bizi allah yaratmayıb?! Aşıq Ələsgər gəlsin, bir az da bizim üçün oxusun. Həcər xanımın məqsədi Aşıq Ələsgəri görüb, onun hərəkətindən bilmək idi ki, görsün yazdırıb göndərdiyi söz xatirinə dəymiyib ki.

Aşıq Ələsgər arvaddarın məclisinə gələndə gördü ki, Həcər xanım tovuz kimi bəzənib. Başda əyləşib. Amma ağ ipək qoftanının altınnan tapançanın ucu görünür. Aşıq Ələsgər tapançanı görəndə bir az ehtiyat elədi. Amma baxdı ki, Həcər xanım acıqlı adama oxşamır. Fikirləşdi ki, Həcər xanım qorxmur ha. Əgər o günü sözlərim xoşuna gəlməsəydi, gülə-gülə getməzdi. Ola bilər ki, kağızı istəməyənin biri Həcər xanımın dilinnən yazar göndərər. Yaxşısı budur ki, hələ deyişmək fikrindən əl çək. Bundan soruş ki, axı sənin ərə getmək vaxtın keçir, bu qədər istəyənnən niyə birini bəyənmirsən.

Aşıq Ələsgər sazın zilini-zil, bəmini-bəm, sinəsində müstəkəm elədi, görək Həcər xanıma nə dedi, məclisdəkilər nə eşitdi:

Bilmirsənmi, subay gəzmək günahdı,
Şəriətlə, yol-ərkana nə dedin?!
Hər könül özünə bir padişahdı,
Sındırdın, döndərdin, qana, nə dedin?!

Həcər xanım başa düşdü ki, Aşıq Ələsgər bu sözləri buna deyir. Diqqətlə qulas asmağa başladı. Aşıq Ələsgər aldı o biri bəndini:

Yüz iyiddən birin bəyən, boyun əy,
Gələnin, gedənin az qəlbinə dəy.
İmirzə, Məhəmməd, Dünyamalı bəy
Az qalıb eşqindən yana, nə dedin?!

Aşığam, gedirəm hər xeyir-şərə,
Eşitcək vəsfini yazdım dəftərə.
O gümüş vəznəli gələn bəylərə,
Bilirsənmi sən zənana nə dedin?!

Aşıq Ələsgər gördü ki, Həcər xanım gülümsünür. Öz-özünə belə mülahizə elədi ki, o kağızı mənə özgə adam yazıbmış. Başladı ürəyində deyinməyə: "Camalın kağız gətirən evi yıxılsın. Bircə ayaq gec gəlsə, heyvanları satmışdım, işim də düzəlmişdi. Bir də mən Bəhlulun dalınca necə adam göndərəcəm..." Götürdü sözün o biri bəndini:

Kəsəmənli nə cür geyir papağı,
Sənə nə dəxli var, bimürvət yağı?!
Onların köysünə çəkibsən dağı,
Heç sağalmaz o nişana, nə dedin?!

Həcər xanım gördü ki, Aşıq Ələsgər burada haqlı danışmır. Özünü saxlaya bilmədi, qızılquş kimi yerindən durdu, Aşıq Ələsgər elə hesab elədi ki, Həcər xanım onu tapanca ilə vurmaq istəyir. Bir az geri çəkildi. Həcər xanım utanmağı yerə qoydu dilləndi:

–Aşıq, niyə məni suala tutubsan?! Qəbahətini qanmayanlara nə deyəcəksən de, bir hesabdır. İndi qulaq as, gör nə deyirəm.

Həcər xanım hörüklərindən birini ayırdı, sinəsinə basdı, Aşıq Ələsgərin çaldığı hava ilə başladı:

Arif olan bu sözlərə inansın,
İzin verib ata-ana, deyirəm.
Anlamaz anlasın, qanmayan qansın,
At sürməsin bu meydana, deyirəm.

Aldı Aşıq Ələsgər:

Məşəd İsə səni görməyə,
Kimin nə həddi var, qəlbinə dəyə,
Baş əymir sərdara, sultana, bəyə,
Söylə görüm, o tərlana nə dedin?

Aldı Həcər xanım:

İnanma hədyana, lafi-kəzzafa,
Bu sevdaya düşən heç tapmaz şəfa.
Əlac haqqa qalıb, insaf – sərrafa,
Yetirsin gövhəri kana, deyirəm.

Ona qədər kişilərin məclisinə xəbər oldu ki, Həcər xanım Aşıq Ələsgərlə deyişir. Kimi saxlamaq olardı; hamı gəlib qulaq asmağa başladı.

Aldı Aşıq Ələsgər:

Bilmirsən, ərz edim, olgunan halı,
Onlara möhtacdı Göyçə mahalı;
Sana muştaq oldu bəy Molla Balı,
İsgəndər tək ac aslana nə dedin?!

Aldı Həcər xanım:

İşim yoxdu dövlət ilə, var ilə,
Əhdim var xudayi-kirdigar ilə.
Gül xar ilə uymaz, tərlan sar ilə,
Qarğa qonmaz gülüstana, deyirəm.

Aşıq Ələsgər fikirləşdi ki, xalqın dərdi sənəmi qalıb; öz mətləbini de, gör nə cavab verir. Aldı tapşırmasını:

Ələsgər də hər elmdən halıdı,
Mövla baratıdı, öz kamalıdı.
Çəkdiyim özgənin qilü-qalıdı,
Axırında, mən cavana nə dedin?

Həcər xanım Aşıq Ələsgərin fikrini əvvəlcədən başa düşmüşdü. Gördü ki, burada lap ağ elədi. Fikirləşdi ki, qanana bir işarə bəsdir, acılı söz nəyə lazım. Aldı görək Aşıq Ələsgər nə cavab verdi:

Mən Həcərəm, əbrü ətlaz geymərəm,
Öz-özümə sultan mənəm, bəy mənəm.
Şövq əhlisən, xətirinə dəymərəm,
Səhv düşübsən sən pirana, deyirəm.

Söz tamama yetişdi. Aşıq Ələsgər üzünü camaata tutub dedi:

–Mən bu yaşa gəlmişəm. Hələ belə tutarlı cavab eşitməmişəm. Həcər xanım məni bağladı.

Həcər xanım yerindən dilləndi:

–Yox, ay Aşıq Ələsgər, səni heç kim bağlaya bilməz. Mən qıfılbənd deyib səni aciz qoymamışam ha.

–Həcər xanım, mən qıfılbəndlə bağlamağı hesab eləmirəm. Ola bilər ki, biri yerdən, göydən cənnətdən, cəhənnəmdən sual verə, o biri cavabını bilməyə. Bu tapmacadır. Aşıqlıq aləmində əsil bağlamaq odur ki, birinin oxudğu sözün qafiyəsində ondan yaxşı, sanballı söz deyəsən. İnsaf təqamına qalanda, sənin sözlərin mənimkindən qiymətlidir. Ona görə dedim ki, məni bağladın. Bu gündən belə mən sənin atanam, sən də mənim qızım. Kimi ürəyin istəsə, ona gedərsən, toyunu da mən özüm eləyəcəm. Amma gününü keçirtmə.

–Ələsgər əmi, bilirəm nə deyirsən. Bu qədər istəyinin birini bəyəndim, ancaq əhdim var.

Aşıq Ələsgər bildi ki, Həcər xanım qardaşlarının gəlməyini gözləyir, dedi:

–Qızım, Allah əhdinə çatdırsın!

Aşıq Ələsgər o gecə Qızılvəngdə söhbət elədi, səhər evlərinə qayıtdı.

Mənim əzizlərim, gün o gün oldu ki, Həcər xanımın qardaşlarının ikisi də sağ-salamat qayıtdılar.

Qızılvəngin özündən Musa adlı bir oğlan var idi. Atmaqda, vurmaqda, iyidlikdə o qədər adı-sanı yox idi, amma ağılda, mə'rifət-qanacaqda tək bir oğlan idi. Bunların elçiləri gəldi, Həcər xanımı ona verdilər. Toy tədarükü görüləndə Həcər xanım qardaşı Məhəmmədə dedi:

–Toyu Aşıq Ələsgər eləyəcək.

Atlı göndərdilər, Aşıq Ələsgər gəldi, toyu başladı. Üç gün üç gecə Tufarqanlı Abbasın nağılını danışdı. Məclisin axırında Həcər xanımgilə xoş gün dilədi, uzun ömür arzuladı.

Həcər xanımla Musa ömürlərinin axırına qədər şad və xoşbəxt yaşadılar. Sizi də ömrünüzün axırına qədər şad və xoşbəxt yaşayasınız!

AŞIX ƏLƏSGƏRNƏN AŞIX NƏSİVİN QAVAXLAŞMASI

Ustaddar əvvəl ustadnamə deyəllər. Biz də sizə bir ustad kəlamı söyləmək istiyərdik:

Qəm çəkmə dəli könlüm,
Qurğu, güman bizimdi,
Du cahanın, yek sərvəri,
Axirət zaman bizimdi;
Qorxmaynan puli sırat,
Üçbayıniranıdan,
Məhşər günü şəfaqəti,
Dərdə dərman bizimdi.

Ağam çəkdi Zülfüqarı,
Nimşaq elədi dağı;
Çaldı dəstin pənc yerdən,
Car eylədi bulağı.
Qırx məqamda əyləşmişdi,
Bir gecənin qonağı;
Fərda dedi: imşər hamı,
Şahı mərdan bizimdi.

Yüz iyirmi dörd min Nəbi,
On iki imamınan,
Çahardahi məsumu gör,
Quruluf nizamınan;
Məkkə, Mədinə, Kərbala,
Şahı Xorasannan,
Tut məshəbi, doğru yolu,
Dini-iman bizimdi.

Hamı düşdü bu təşvişə,
Həm Məhəmməd, Mustafa,
Cəbrayıl nazil oldu,

Söylədi salam səfa.
Haqq-təaladan vəhy gəldi,
Həbibim, düşmə xofa,
Bu ziyafət düzdü bilin,
Doğru mehman bizimdi.

Ay müştəri, gəl irəli,
Yaxşını, yamanı gör;
Diqqətlə fəhm elə bir,
Göyçəli Bəhmanı gör;
Bir qətrəsən dur yerində,
Qarşıda ümmanı gör;
Həqiqətin dəryasıyam,
Bəhri ümman bizimdi.

Qulluğunuza ərz eliyəjəm Ağbaba mahalında Aşıx Nəsifdən. Aşıx Nəsif anadangəlmə iki gözünnən mərhum oluf. Ancax Allah ona çox şeylər bəxş eliyif: həm gözəl səsi, iti hafizəsi oluf, həm də bədahətən şe'rlər deyif.

Özü də çox hirsdi, həm də haytalı bir aşıx oluf. Aşıx Nəsivin qorxusunnan Ağbaba mahalına yad yerdən aşıx gələ bilməzmiş. Onnan icazəsiz kim gəlsəydi, sazı əlinnən alınardı. Aşıx Nəsivin yaşadığı kəndin adına Güllükənd deyirdilər. Həmin kənddə iki qardaş bəy varıydı. Birinin adı Yusif bəy, o birisinin adı isə Həsən bəyiydi. Yusif bəyin bir oğlu, Həsən bəyin də bir qızı varıydı. Yusif bəy qardaşının qızını öz oğluna nişannamışdı. Vaxt və'də gəlif toy çatanda, qardaşdar məsləhət eliyillər ki, gedək İrəvan şəhərinnən toyumuza lazım olannarı alax. Gəlif toyumuzu Allahın izninnən başdıyax.

Xülasə, bunnar gəlillər İrəvan şəhərinə. Şəhərdə gəzəndə görüllər ki, böyük bir draxtındı, gözəl bir aşıx səsi gəlir.

Yusif bəy deyir:

– Qardaş, yaxşı oldu girək içəri. Bir az bu aşığa qulaq asax. Bunnar içəri girəndə gördülər ki, ucaboylu, iribədənni bir aşıxdı. Baxdılar kı, camaat bunu heyrannıxnan dinniyir. Birinnən soruşdular ki, bu aşığın adı nədi?

Dedilər:

– Bu çox addı-sannı aşıxdı, göyçəli Aşıx Ələsgərdi.

Yusif bəy qardaşına üz tutdu:

– Nə gözəl oldu, indi onu toyumuza də'vət eliyərik.

Həsən Yusifə dedi:

– İşin birini bilirsən, birini bilmirsən.

Yusif soruşdu:

– Bilmədiyim nədi, ay qardaş?

Həsən dedi:

– Bilmədiyin odu ku, kəndimizdəki aşıx Nəsivi görünür sən yaxşı tanımırsan. İndi bunu biz aparanda Aşıx Nəsif eşidif gələjək və onnan deyişəjək. Kim bilir bu işin axırı nəynən qurtara bilər?!

Yusif bir az sərtdəşif dedi:

– Ay qardaş, nə ola bilər, sən qızının toyuna Aşığı Nəsivi gəti, mən də oğlumun toyuna Aşıx Ələsgəri aparajam.

Həsən çiynini çəkif dedi:

– Çox yaxşı, ay qardaş, Allah xeyir versin. Onda toyumuzun vaxtını aşıxnan danış.

Əlqərəz, Aşıx Ələsgər məclisini qurtarannan sonra ona yaxınnaşıf tanış oldular.

Yusif bəy Aşıx Ələsgərə dedi:

– Ustad, biz Ağbaba mahalınnanıx. Allah hamıya toy qismət elə-sin. Oğlumun böyük toyuna səni məsləhət görürük, gedərsənmi?

Ələsgər razılıx verdi. Toyun vaxtını tə'yin elədilər. Yusif bəy dedi ki, on beş günnən sonra onu Ağbaba mahalında qarşılayajax. Danışdılar, barışdılar. Sonra halallaşıf hərəsi öz evinə yola düşdü. Vaxt gəlif tamam oldu. Toy başdandı. Qız evinin məclisini Aşıx Nəsif aparırdı. Orda da adət eləymiş üç gejə qız evində toy olardı, üç gejə də oğlan evində. Ancax adətdəri beləydi ki, üç gün aşıx çalıf oxuyardı, axırıncı günü həm toy yiyəsinin, həm də aşığın nəmərini yığardılar.

Üçüncü gejəydi ki, Aşıx Nəsif çox həvəsnən çalıf-oxuyurdu. Çünkü nəmər günüydü. Aşıx Nəsivi bir oğlan gəzdirərdi. Aşıq Nəsif oğlannan soruşdu:

– Ay bala, hancarı mana sağ ol deyən yoxdu.

Oğlan dedi:

– Ay kişi, kim var kı? Dörd divara çalıf-oxuyursan.

– Ay bala, camahat nejə oldu?

Nejə olajax, a kişi? Oğlan evində toy başdanıf. Deyillər qəribə bir

aşıx gətiriflər. Camahat da iki-bir, üş-bir tökülüf oraya getdi.

– A bala, bə mənim devranımı yığmamış niyə getdilər?

– Nə bilim a kişi, niyə getdilər?

–Zərər yoxdu a bala, sən get o aşığın adını örgən, gör boy-buxunu nejədi, gəl mana de.

Oğlan gəlif gördü kü, bir iri bədənni kişidi. Birinnən adını soruşdu.

Oğlan gedif aşığın kim olduğunu soruşanda dedilər:

– Bu göyçəli Aşıx Ələsgərdi.

Oğlan gördü kü, başında bir yekə bir papaxdı, əynində darxalıx çuxa, belində də qurşax. Oğlan görüf-eşitdiklərini gəlif aşıx Nəsivə danışdı:

-Adı Ələsgərdi, özü də deyillər ki, Göyçə mahalınnandı.

-Hə, indi, a bala, məni oraya apar. Allah ya ona verər, ya da mana. Aşıx Ələsgər məclisdə şirin oxuduğu yerdə bir də gördü kü, əlində saz, süyürmə qılınc bir aşıx içəri girdi. Aşıx Ələsgər gördü kü, bu aşıx gözdərinnən məhrumdu. Dedilər ki, bu bizim ən məhşur aşığımızdı, həm də şairriyi var. Ələsgər özdüyündə fikirrəşdi ki, gərək mən bu kənddə aşıx oluf, olmamağını örgənəydim, bu mənim günahımdı. Ələsgər üzünü aşıx Nəsivə tutuf dedi:

– Aşıx qardaş, xoş gəlifsən.

Nəsif qəzəfli-qəzəfli dedi:

– Xoş gəlif gəlmədiyimi indi bilərsən.

Məclis əhlinin çoxu dedi:

– Nəsif yaman hirsdi gəlif. Aşıx Ələsgərin qəlbinə toxunar. Bu heç yaxşı olmaz.

Amma çoxu da deyirdi:

– Hə, deyəsən, burda deyişmə olajax.

Amma nejə olajağını kim bilirdi?

Ona kimi ev yiyəsinə xəvər verdilər ki, aşıx Nəsif sənin aşığının üstünü yaman kəsdirif. Özü də çox ajıxlı gəlif. Usuf bəy gəlif Nəsivə xoş gəlifsən, – deyif, yer göstərdi.

Nəsif dedi:

– Çox sağ ol. Hələ mənim kəndimə mənnən icazəsiz aşıx gəlməmişdi. Amma, sən gətirdin. İndi aşığının gününə baxarsan.

Usuf bəy dedi:

– Ay aşıx Nəsif, sən mənim toyumu eliyifsən, oğlumun sünnət

toyunu eliyifsən. İndi də camaat bir başqa aşığa qulaq asanda dünya dağılajaxmı? Səni dünya malınnan qəni eliyəjəm. Amma bu aşıxnan işin olmasın. Həm qonağımdı, həm də gözəl aşıxdı.

-İndi onu mən yaz pencəri kimi sıxaram, suyu çıxar. Onda o da bilər ki, mən kiməm!

Aşıx Ələsgər gülümsüyüf dedi:

-Ay aşıx Nəsif, el arxası çimən olar. Allah eli var eləsin. Gəl baravar bu məclisi yola salax. Hər kəsin öz qismәti var. Toyda adam-adamın xətrinə dəyməz. Düzdü mənim də günahım var. Sən də belə süyürmə qılınc gəlməməliydin.

Aşıx Nəsif dedi:

– Yüz yalvarsan da xeyri yoxdu. Allah bu gün ya sana verəjək, ya mana.

Camaatın nəyinə lazımdı. Allahvera, iki aşıx bir-birini didif-parçalasın. Təki onnar ləzzət alsın. Toydakılardan bə'zisi Nəsivi, bə'zisi də Ələsgəri haxlı sayırdı.

Nəsif sazının zilini-zil, bəmini-bəm, sinəsinə müstəkəm eliyif aldı görək Aşıx Ələsgərə nejə-hərbə zorba gəldi:

Bir aşıx gəlibdi Güllü kəndinə
Xoşa gəlmir nə avazı, nə səsi.
Heyif ki, görmürəm boy-busatını,
Deyillər seyiddi, ağır nəfəsi.

Aşıx Ələsgər dedi:

– Ay Nəsif, qoy qazan örtülü qaynasın. Gəl daşı ətəyinnən tök. Sən mana toxunma.

Nəsif daha qızışıf dedi:

– Yox, aşıxsansa sözümün cavavını ver:

Aldı Aşıq Ələsgər:

Fəhmi kora verib, zehni üstəlik,
Xaliqin zəlilə budu müjdəsi,
Mərdi mərd öldürsə intizar qalmaz,
Kişiyə dəyməsin namərd gülləsi!

Aldı Nəsif:

Nə saz çala bilir, nə də oxuya,
Yun tökün qavağna keçə toxuya,
Qonax edin pendir, lavaş, yuxuya,
Bəlkə dola dağarcığı, kisəsi.

Aşıx Ələsgər incisə də özünü o yerə qoymuyuf sazı-sinəsinə sıxdı. Gülə-gülə dedi:

Çox düz deyirsən, doyannan sonra mən təzədən qırx tikə pendir, çörək yeyirəm.

Aldı Aşıq Ələsgər:

Toxunmaram sənin kimi zəlilə,
Yanamaynan onun, bunun əliylə,
Fikir ver söhbətə, sözə, dəlilə,
Eşidənin sənə gəlsin həvəsi.

Aldı Nəsif:

Nəsif hər kim ilə açsa meydanı,
Ona dar eliyər bu gen dünyanı,
Müsafirdi ona verin dövranı,
Bəlkə çoxdu nəticəsi, nəvəsi.

Aldı Ələsgər:

Ələsgər Məcnun tək dağlardan aşır,
Müxənnət görüncə xəyalı çaşır.
Pay yığmaq, ay yazıx sana yaraşır.
Çünkü yoxdu gözlərinin giləsi.

Sazı keşdi başqa bir hərbə-zorbaya. Aldı görək nejə başdadı:

Sədamı eşidən yeddi ağacdan,
Xof edif qayıdar, buraya gəlməz,
Meydanıma gələn, keçər cəngimə,
Nə eyni açılmaz, nə üzü gülməz,
Gözdərin silməz.

Aldı Ələsgər:

Sazımı götürüf girrəm meydana
Gəl eyliyək bəhs.
Əyər sən toxunsan, mən də toxunnam,
Şəriyyətdə halal-qisasa-qisas,
Qoy ucalsın səs.

Aldı Nəsif:

Ayə oxumayan bilməz Qur'anı,
Yadınnan çıxarmaz şə'ri-şeytanı.
Tanımıyan şe'r, sənət, ustanı,
Suala cavabı tez verə bilməz
Utanıf ölməz.

Aldı Aşıq Ələsgər:

Çəkilib qamətin min ayə billəm,
Oxudum dərsimi min aya billəm,
Pirimdən dərs aldım min ayə billəm,
Bir sözünə min söz deyim dəsbə-dəs,
Dur yerində pəs.

Aldı Nəsif:

Mən gəzirəm kamil aşıx cəngini,
Tərəzidə qaldırıram səngimi.
Soyaram livasın, allam dəngini,
Nəsif hər yetənnən çörəyini bölməz,
Bağrını dəlməz.

Aldı Aşıq Ələsgər:

Aşıx gərək bu meydanda bir qala,
Eşq atəşin bir ətəklə, bir qala,
Ələsgərdi Xeybər kimi bir qala,
Aləmə bəllidi bu nitqi həvəs,
Danışma əbəs.

Nəsif baxdı hərbə-zorbadan bir şey çıxmadı. Odu ku, keçdi qıfıl-bəndə.

Aldı görən nə dedi:

Sərini qarşımda nişanə qoyan,
Doqquz nədi sənətinnən xəvər ver.
Neçə doqquz bir-birinə bağlıdı,
O doqquzun qüdrətinnən xəvər ver.

Ələsgər fikirrəşdi ki, ayə 7 yer, 7 göy var! Bə bu doqquzdar nədi? Çox fikirrəşdi genə bu doqquzdardan heç bir şey annamadı. Hirsinnən gözdərinə qan sağıldı. Usuf bəy çox narahat oluf Nəsivə dedi:

– Ay Nəsiv, axı qonax pisikəndə ev yiyəsi onnan qavax pisikir.

Nəsif dedi:

– Sənətini yaxşı bilmir, mən neyniyim.

Aşıx Ələsgər o saat ilmənin uyuğunu tafdı. Ayə, bu başı batmış doqquz deyə bu sazdan danışır.

Ələsgər sazı sinəsinə basıf aldı görək nə dedi:

Al cavavın deyim, ay aşıx Nəsif,
Əlindəki doqquz sazdı qavaxda,
İki doqquz bir-birinə bağlıdı,
Dindirəndə xoş avazdı qavaxda.

Aldı Nəsif sözün o biri xanəsini:

Neçəsi birrəşif tapıf neçə yol,
Neçə qardaş onu eliyif qəbul,
Neçə şah vəziri qavağında qul,
Bu sənətin hikmətinnən xəvər ver.

Aldı Aşıq Ələsgər:

Doqquzu birrəşif tapıf üçcə yol,
On barmaq o kökü eyliyif qəbul.
Yetmiş beş havadı, şah pərdəyə qul,
Doqquz aşıx sim tarazdı qavaxda.

Aldı Nəsif:

Doqquzu danışıf bilsən nə dildə?

Neçəsi birrəşif cəm oluf əldə.
Neçə qavırğadı birrəşif beldə,
Nəsif deyər hikmətinnən xəvər ver.

Aldı Aşıq Ələsgər:

Danışar doqquzu desən nə dildə,
On barmaq cəmləşif bilginən əldə,
Doqquz qavırğadı birrəşif beldə,
Ələsgər, eyliyər nazdı qavaxda.

Camaat yerbəyerdən dedi:

– İndi aman ver, birini də Ələsgər desin.

Aşıx Nəsiv dedi:

– Mən nə deyirəm ki?

Aşıx Ələsgər fikirrəşdi ki, ayə, bunun gözü görmür, ağlı kəsmir. Allahın xoşuna gəlməz ki, bunu çətinə salım. Gəl bunun əlindəki qəlyanı bir müəmma elə. Bunu qəlyanınnan imtahana çək. Qəlyan bütün günü əlindədi ya'qın ki, əlamətdərini bilər.

Aldı Ələsgər görək nə soruşdu. Biz deyək, siz də eşidif şad olasınız.

Bu gün bir sirr gördüm, qıldım aşıkar,
Ən şirin ne'məti zəhərdi onun,
Bircə bulağı var iki cür suyu,
Biri cöhər, biri qəhərdi onun.

Nəsif onu gəzdirən oğlana dedi:

– Ayə, bir qəlyanı doldur mana ver.

Adamlar dedilər:

– Deyəsən işdər şuluxdu, Aşıx Nəsif qəlyanı doldurur. Aşıx Nəsivin duruxduğunu görən Aşıx Ələsgər dedi:

– Nəsif, cavab verə bilirsən, yoxsa əlinin dalını yerə qoyursan?

Nəsif dedi:

– Hamısını de. Fikirrəşif birdən açajam.

Ələsgər aldı sözün o biri xanələrini:

Çoxuna xoş gəlmir onun nəfəsi,
Dağlasan başını heç çıxmır səsi,
Sinədə baş verir onun meyvəsi,
Kim yesə, axşamı səhərdi onun.

Qəribə gözəldi, çoxdu neştəri,
Kim öpsə ləbinnən qalmaz dişdəri,
Kim tapmasa, bu dediyim işdəri,
Əhvalı bir qeyri təhərdi onun.

Yaman sehrikardı sevdirir özün,
Dağlıyasan başın, didəsən gözün,
Arifə əyandı, Ələsgər, sözün,
Hər kim tapsa səri gövhərdi onun.

Ələsgər adını eşidən kimi elə bil yuxudan ayıldı. Usuf bəyi yanına çağırıf dedi:

– Ayə, bu yoxsa adı dillərdə dastan olan göyçəli Aşıx Ələsgərdi?

Usuf bəy dedi:

Guya bilmirsən. Bə savahdan deyişirsən. Görmürsənmi, belə bir sənətkar yalnız Ələsgər ola bilər.

Nəsif üzünü Ələsgərə tutuf dedi:

– Aşıx Ələsgər, mən gözdən məhrum adamam. Niyə elə müəmma deyif məni el içində xar elədin

Ələsgər gülümsünüf dedi:

– Ay Nəsif sən mana sazdan dedin. Mən də əlindəki qəlyannan.

Nəsif dedi:

– Ələsgər indi ki, belə oldu xahiş eliyirəm, bunu heş yanda danışmayasan.

Ələsgər dedi:

– Ay Nəsif, arxayın ol, söz burda qalmıyajax. Bir toyda, bir də nişanda danışajam.

Məni incitməkdə nəydi məqsədin,
Düşmürmü yadına gor başı batmış,
Doqquzdan danışdın xəyalım çaşdı,
Gətirdin gözümə tor başı batmış.

Mənimlə başladın yamanca çəngə,
Əl atdın silaha, topa, tüfəngə.
Dəryanın divində gəzən nəhəngə,
Heç atarmı naşı tor, başı batmış.

Ələsgərə verdin çətin sualı,
İnan kı, bir müddət dəyişdi halı,
Söylərəm eşitsin Göyçə mahalı,
Təntitmişdi məni kor başı batmış.

AŞIQ ƏLƏSGƏRLƏ ŞƏMKİRLİ AŞIQ HÜSEYNİN GÖRÜŞÜ

Mənim əzizlərim, sizə hardan xəbər verim, Azərbaycanın Şəmkir mahalından. Şəmkir mahalında kimdən, şəmkirli Aşıq Hüseyndən.

Şəmkirli Aşıq Hüseyn çox qabil sənətkar idi. Onun bilmədiyi söz, öyrənmədiyi dastan yox idi. Aşıq Hüseyn Tufarqanlı Abbasa, Qurbaniyə, Xəstə Qasıma bərabər şair idi. Toy məclislərində aşıqların oxuduqları sözlərin çoxu şəmkirli Aşıq Hüseyndən olardı.

Aşıq Hüseyn həm də çox mə'rifətli, hər şeyin yerini bilən bir el ağsaqqalı idi. Hamı istəyirdi ki, onun toy şənliyini Aşıq Hüseyn yola salsın. Aşıq Hüseyn dastanları elə şirin danışır, sözləri elə məlahətlə oxuyurdu ki, onun məclisində olan cavanlar aşıq olmaq həvəsinə düşərdi. Aşıqlıq öyrənmək istəyənlər arzu eləyirdilər ki, nə olaydı, nə olaydı, şəmkirli Aşıq Hüseynə şəyird olaydı. Ermənilərdən də bir çox cavanlar Aşıq Hüseynə şəyird olmağa çalışdılar...

Şəmkirli Aşıq Hüseynin vaxtında Göyçə aşıqları məclislərdə ən çox Aşıq Ələsgərin sözlərindən oxuyurdular. Şəmkir, Qazax, Şınıq mahallarına gedən Göyçə aşıqlarından məclisdəkilər xahiş eləyirdilər ki, bir söz başqa aşıqdan oxuyanda, birini də Aşıq Ələsgərdən oxusunlar. Aşıq Ələsgərin sözləri Azərbaycan torpağının hər tərəfinə yayılmışdı.

Şəmkirli Aşıq Hüseyn də Aşıq Ələsgərin sözlərini eşitdi; gördü ki, çox qiymətli sözlərdir. Onun təcnisləri Aşıq Hüseyni elə tutdu ki, onlardakı ustalığa heyran qaldı. Dodaqdəyməzlərini eşidəndə, hələ heç bir aşıqda rast gəlmədiyi belə sözlər Aşıq Hüseyni heyrətə saldı. Özü də bü cür sözlər düzəltdi və gördü ki, bu, çox çətin işdir; hər aşıq bunu bacarası deyil. Odur ki, Aşıq Ələsgərlə görüşmək həvəsinə düşdü. Amma xeyli müddət gözlədi, Aşıq Ələsgərin yönü Şəmkirə düşmürdü ki, görüşələr.

O vaxt Göyçə mahalında Alı, Ələsgər, Məhərrəm, Musa, Alışan, Qəhrəman, Qasım, Mehdi, Qulu, Qurban, Nəcəf, Əsəd, Yunus kimi adlı-sanlı aşıqlar var idi. Bunların hamısı ustada qulluq eləmiş, aşıqlıq elmini tamam kamil öyrənmişdilər. Amma Göyçədə elələri də var idi ki, öz-özünə saz çalmağı öyrənmişdi və bir neçə qatar da söz əzbərləyib, ortalığa düşmüşdü ki, mən də aşığam. Belə aşıqlardan

biri də Hüseynqulağalı Aşıq Mikayıl idi.

Aşıq Mikayıl üç-dörd il idi ki, saz götürüb, aşıqlıq eləyirdi. Ancaq Göyçədə şətəli o qədər də işləmirdi. Tanınmaz yerlərə gedər, səsinə güc verər, qəpik-quruş yığardı.

Bir gün Aşıq Mikayıl sazını götürüb, o kənd mənim, bu kənd sənin, gəzə-gəzə gəlib Gədəbəyə çıxdı. Bir toy məclisində Aşıq Mıqıçla rastlaşdılar.

Aşıq Mıqıç Şəmkirli Aşıq Hüseynin şəyirdi idi. O, Şəmkir mahalının Çardağlı kəndindən idi. Erməni olsa da, türkcə çox düzgün və gözəl oxuyurdu. Amma onda bir xasiyyət var idi ki, tanımadığı aşıq görəndə, onu pisikdirməyə çalışardı.

Aşıq Mıqıç bu məclisdə bir-iki qatar oxuyandan sonra, ustadının bir bağlamasını dedi və Aşıq Mikayıldan tələb elədi ki, cavabını versin. Mikayıl qaldı məəttəl, nə qədər fikrləşdisə də, bir yana yoza bilmədi. Mıqıç Mikayılın sazını aldı, dedi:

– Nə zaman bağlamanı açdın, onda gəlib sazını apararsan!

Mikayıl bağlamanı ordakıların birinə yazdırıb, cibinə qoydu, korpeşman Göyçəyə qayıtdı. Evə gələndən sonra da nə qədər fikirləşdi, bir şey çıxmadı. Dost-tanışına üz tutdu, açа bilmədilər. Elə hesab elədirlər ki, dolaşdırmadı, sözün kökü yoxdu. Mikayılın əlacı kəsildi, Aşıq Ələsgərin yanına gəldi. Aşıq Ələsgər elə hesab elədi ki, Mikayıl ona şəyird olmağa gəlib. Çay-çörəkdən sonra Aşıq Ələsgər soruşdu:

– Mikayıl, nə yaxşı gəlibsən?

Mikayıl başına gələni olduğu kimi danışdı. Aşıq Ələsgər onu bir az danladı ki, niyə aşıqlığı ustaddan öyrənməmiş çöllərə düşüb, özünüzü də, Göyçəni də biyabır edirsiniz!? Mikayıl dilləndi:

– Ələsgər əmi, bağlama deyil, ağlına gələni yalandan quraşdırıb. Sözün kökü yoxdur, dolaşdırmadır.

Mikayıl kağızı cibindən çıxarıb, Aşıq Ələsgərə verdi. Aşıq Ələsgər üzünü oğlu Bəşirə tutdu:

– Oğul, al oxu görüm.

Bəşir kağızı oxumağa başladı. Biz də sazla oxuyaq, şad olun:

Bu gün bir heyvanat gördüm,
Zənbur kimi şan verir;
Xörəyi yük ilə gəlir,

Nəfəsi duman verir;
Dindirirsən danışmağa,
Nalə verir asmana;
Nə yerdədi, nə göydədi,
Sədri üstə yan verir.

Bir başı var, bir ayağı,
Gör neçə barmağı var;
İki qolu, bir boğazı,
Tək bircə dodağı var;
Əyləşibdi bir məqamda,
Hər yanda oylağı var;
Qoy eşitsin, hamı bilsin,
Hər gələnə nan verir.

Gəl biçarə Aşıq Hüseyn,
Qıl sözünü müxtəsər;
Onun adı gur gələndə,
Olur dəli, dəngəsər;
Eşidənlər, fikir verin,
Bu sözümə sərbəsər;
Əgər ki, ağam olmasa,
Sidqinə güman verir.

Mənim əzizlərim, elə ki, söz qurtardı, Aşıq Ələsgər üzünü Mikayıla tərəf tutub, acıqlı-acıqlı dilləndi:

– Sən deyirsən bu sözün evi yoxdur! Ustada belə qiymət verirlər!? Gör sadə bir şeyin üstündə nə gözəl bağlama düzəldib!

– Ələsgər əmi, sən allah, nəyin üstündə düzəldib?

Aşıq Ələsgər Mikayıla cavab vermədi. Sazı dirəkdən endirib, köynəyindən çıxartdı, zilini zil, bəmini bəm elədi, düzəltdi. Bəşirə dedi ki, kağız-qələm gətir. Bəşir kağız-qələm gətirdi. Aşıq Ələsgər sazı sinəsinə basdı "Osmanlı divanisi" havası ilə görək nə dedi, Bəşir nə yazdı. Biz də sazla deyək şad olun:

Gələndə ustad kəlamı,
Köhnə yaram qan verir:

Mövcə gəlir bəhri-çeşmim,
Qətreyi-baram verir.
Dənəni torpaq içində
Göyərdir kani-kərəm;
Bir mələk müqərrər olmuş,
Bizlərə ərzan verir.

Aşıq Ələsgər üzünü Bəşirə tutub dedi:
– A bala, yazdınmı?
– Ay Dədə, yazdım.
Aşıq Ələsgər aldı o biri bəndini:

Anlamaz, nadan eşitsə,
Deyər hədyandı bu söz;
Əhli-irfan məclisində
Lə'lü mərcandı bu söz.
Müxtəsəri, türki-zəban,
Bil, "dəyirmandı" bu söz;
Ab şəcərə, ahən səngə,
Gör, necə cövlan verir.

Mikayıl dilləndi:
– Ələsgər əmi, fikirləşdim, çox fikirləşdim, amma dəyirman heç ağlıma gəlmədi.
– Səndə ağıl var ki, ağlına da gələ!
Aşıq Ələsgər aldı sözün o biri xanəsini:

Şindandan dən gəlməyəndə,
Düşər bir qeyri hala;
Dahanından ataş qalxar,
Ah çəkər, eylər nala.
Qəzəbindən ləngər verər
Həm qabağa, həm dala;
Hay verdikcə alov səpir,
Dud qalxır, duman verir.

Mikayılın əl-ayağı yerə dəymirdi. Bu bəndi eşidəndə dilləndi:
– Şad ol, Ələsgər əmi!
Aşıq Ələsgərin Mikayıla bərk acığı tutmuşdu. Onun tə'lim-tərbiyəsiz saz götürüb aşıq sənətini biabır eləməsini Aşıq Ələsgər heç cür bağışlaya bilmirdi. Mikayılın ona "sağ ol!" deməsindən də acığı gəlirdi. Əyər evi olmasa idi, ona bir-iki çırpardı da...
Aşıq Ələsgər aldı sözün o biri xanəsini:

Haydı kola, xınzır oğlu,
Şindi durma qarşıda!
Paşol, molçi! İdi, durak!
Səni verrəm padsuda!
Oxuram "innəfətəhna",
Mətləb allam yuxuda;
Şahi-Mərdan nökəriyəm,
Dərsimi pünhan verir.

Soruşur Aşıq Ələsgər;
Dərsi kimdən almısız?
Əbəs yerə saz götürüb,
Elə qovğa salmısız;
Üç kəlmə sözdən ötəri
Siz ki, mətəl qalmısız,
Nahaqdı qürbət vilayət,
Sizlərə dövran verir.

Bəli, mənim əzizlərim, elə ki, söz tamama yetişdi, Mikayıl söyüşü, hədə-qorxunu eşitməzliyə vurdu. Sözün üzün köçürtdürüb cibinə qoydu. Elə bil ki, dünyanı buna bağışlayıbdılar.
Aşıq Ələsgər soruşdu:
– Mikayıl, bu sözü götürüb nə edəcəksən?
– Aparıb Mıqıça verib, sazımı alacam.
– Bundan sonra yenə aşıqlıq edəcəksən?
– Bəli, edəcəyəm.
– Yox, sənin aşıq olmağına hələ çox var. Get bir ustada qulluq elə, bilmədiklərini öyrən, kəm-kəsirini düzəlt.
– Kimin yanına getdim, şəyird götürmədi.

Aşıq Ələsgər bir az yumşaldı:

– Səndə ki, aşıqlığa həvəs var, mən öyrədərəm. Get sazını al, qayıdanda mənim yanıma gələrsən.

Mikayıl sevinə-sevinə evlərinə getdi. Səhər tezdən yol başladı Çardaqlıya. Soruşub Mıqıçın evini tapdı. Qonşuluqdan bir oğlan gedib Mıqıçı çölə çağırdı Mıqıç çölə çıxanda gördü ki, Mikayıl gəlib. Əlindən tutub əhvalını soruşdu, evə təklif elədi. Mikayıl evə getmək istəmədi. Qonu-qonşu məsələdən halı oldu ki, Mıqıçın bağladığı aşıq gəlib. Bir göz qırpımında buraya bir məclisin adamı toplaşdı. Qonşuluqdan ağsaqqal bir erməni Mikayılı da, Mıqıçı da evlərinə apardı. Mikayıl kağızı çıxartdı. Oxudular gördülər ki, Mıqıç məclisdə oxuduğu bağlamanın cavabıdır. Özü də çox ustalıqla açılıb. Mıqıç Mikayılın sazını özünə qaytarmaq istəmədi, dedi:

– Bağlamanı sən açmış olsaydın, sazını verərdim. Aşıq Ələsgər açıb, sazı verməyəcəm.

Mıqıç belə deyəndə həmin ağsaqqal erməni işə qarışdı:

– Aşıq Mıqıç, bağlama sənin olsaydı, sən deyən idi. Bağlama özgənindi, o da gedib özgəyə açdırıb. Oğlanın sazını özünə ver.

Aşıq Mıqıç gördü ki, bu, çox tutarlı söz oldu. Dinməzcə Mikayılın sazını özünə qaytardı.

Mikayıl sazını götürüb, birbaş Göyçəyə gəldi. Gələn kimi özünü Aşıq Ələsgərin yanına yetirdi. Aşıq Ələsgər Mikayılı yanında şəyird saxladı.

Mənim əzizlərim, Mikayıl Aşıq Ələsgərin yanında şəyird qalmaqda olsun, sizə deyim şəmkirli Aşıq Hüseyndən. Mıqıç sözü götürdü, ustadının yanına getdi. Məsələni Aşıq Hüseynə danışdı. O, bu işə görə Mıqıçı bir az danladı. Sonra bağlamanın açmasını oxutdurdu. Mıqıç elə hesab edirdi ki, ustadı bağlamanın açılmasına pərt olacaq. Amma belə olmadı; Aşıq Hüseyn bu cavabdan razı qaldı. Mıqıç dedi ki, Aşıq Ələsgər bağlamanı çox gözəl və düzgün açıb. Aşıq Hüseyni razı salan bir də o idi ki, Aşıq Ələsgər özündən yaşca böyük olan ustada ehtiram göstərmiş, onun bağlanmasını lə'l, mərcan kimi qiymətləndirmişdi. Aşıq Ələsgərin bu mə'rifəti Aşıq Hüseynin onunla bölüşmək həvəsini bir qədər də artırdı.

Aşıq Hüseyn çox arzu edirdi ki, Aşıq Ələsgər Şəmkir tərəfə gəlsin, görüşsünlər. Amma Aşıq Ələsgər gəlmirdi ki, gəlmirdi...

Aşıq Hüseynin səbri kəsildi. Bir istədi ki, kağız göndərib, Aşıq

Ələsgəri çağırtdırsın, amma bu fikirdən tez əl çəkdi. Ona görə ki, bağlamanın açılmasından sonra çağırtdırmaq onu meydana çağırmaq kimi başa düşülərdi. Çox götür-qoydan sonra belə qərara gəldi ki, özü Aşıq Ələsgərlə görüşə getsin.

Bəli, mənim əzizlərim, payız getdi, qış gəldi, qış hərləndi yaz oldu. Günlərin bir günü Aşıq Hüseyn atını mindi, sazını da çiyninə saldı, Göyçəyə yola düşdü. Gəlhagəl, gəlhagəl, axşamtərəfi gəlib Ağbulaq kəndinə yetişdi. Ağbulaq kəndində Aşıq Hüseyni tanıdılar. O gecə onu saxladılar, yaxşı söhbət elətdirdilər. Sabah hamımızın üzünə xeyirliknən açılsın, sabah Aşıq Hüseyn yola düşəndə Kalvayı İrvaham soruşdu:

– Aşıq Hüseyn, Allah qoysa, səfərin harayadır?

– Aşıq Ələsgərlə görüşməyə gedirəm.

– Xahiş edirəm, qayıdanda bizi görməmiş olma!

– Baş üstə!

Gün xeyli qalxmışdı. Aşıq Hüseyn Göyçə dənizinin kənarı ilə yol başladı Ağkilsəyə. Yaz ilə yayın arası idi. Küləksiz, sakit hava Göyçə dənizini aydın bir güzgüyə döndərmişdi. Göydəki ağ buludların, Göyçəni hasarlayan sıra dağların şəkli bu güzgüdə əks olunubdu.

Aşıq Hüseyn dağlara, dağın sinəsində otlayan qoyun sürülərindən, göz işlədikcə uzanan taxıl zəmilərinə, yolun sağ-solunda əlvan xalı kimi sərilmiş çiçəklərə baxdı, öz-özünə dedi: "Nə gözəl, nə göyçək yerdir! Bəlkə, bu yerin adı əvvəldən "Göyçə" yox, "Göyçək" imiş"...

Aşıq Hüseyn lap yavaş-yavaş gəlirdi. Atına bir qamçı da vurmurdu. Hansı kəndə çatanda qabaqdakı kəndin adını xəbər alırdı. Qaraiman kəndilə Canəhməd kəndinin arasında atdan düşdü. At doyunca otladı. Sonra atını minib, yoluna davam elədi. Canəhməd kəndinə çatanda bir kişiyə rast oldu.

– Salaməleyküm!

– Əleykəsalam!

– Bu kəndin adı nədir?

– Canəhməd.

– Ağkilsə kəndinə hələ çoxmu var?

– Bu yol ilə düz get. Üç kənd keçərsən, dördüncü kənd Ağkilsədir.

– Sağ ol!

– Yaxşı yol!

Aşıq Hüseyn atını sürdü Ağyoxuşu, İnəkdağını keçdi, günbatanda Zod kəndinə yetişdi. Kilsənin yanına çatanda gördü ki, 5-6 adam söhbət eləyir.

– Salaməleyküm!

– Əleykəsalam!

Molla Mehdi Aşıq Hüseynin atını cilovundan tutdu. Əlini Aşıq Hüseynə uzatdı:

– Aşıq Hüseyn, xoş gəlibsən!

– Xoşbəxt olasan!

– Atdan düş!

– Sağ ol! Ağkilsəyə gedəcəm.

– Əşi, elə də şey olarmı ki, Aşıq Hüseyn öz ayağı ilə gəlib bizim kəndə çıxa, biz də onu gecə vaxtı yola salaq!?

Oradakı adamların hamısı söhbətə qarışdı, Aşıq Hüseyni buraxmadılar. Molla Mehdi Aşıq Hüseyni evlərinə apardı, bir erkək kəsdi. Onun qonu-qonşusu toplaşdı, məclis düzəldi. Aşıq Hüseyn sazını köynəkdən çıxartdı, bir neçə qatar oxudu, yaxşı bir şənlik oldu.

Bəli, mənim əzizlərim, Aşıq Hüseyn Zodda söhbət eləməkdə olsun, sizə deyim Aşıq Ələsgərdən. Aşıq Ələsgər həmin gecə Aşıq Hüseynin gəlməyini yuxuda gördü.

Dağ otu biçilirdi. Aşıq Ələsgər də biçinə gedirdi. Bu gün o, biçinə getmədi. Arvadı Anaxanım onun yanına gəlib dedi:

-A kişi, camaat biçinə getdi, sən niyə yubanırsan?

-Arvad, mən bu gün getməyəcəm.

-Niyə?

-Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

Anaxanım daha bir söz soruşmadı. Başladı ev-eşiyi səliqəyə salmağa.

Aşıq Ələsgər qardaşı Məhəmmədi yanına çağırıb dedi:

-Məhəmməd, durma, get yayalaqdan heyvan gətir.

-Ay qağa xeyirdirmi?

-Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

-Ay qağa, kim dedi?

-Yuxuda görmüşəm. Sən durma, get heyvan gətir. Gerçək olar, qonağımıza kəsərik, qonaq gəlməsə, özümüzə kəsərik.

Məhəmməd at mindi, heyvan gətirməyə getdi.

Aşıq Ələsgər qapı-bacada hərlənib, qonağın yolunu gözləməyə başladı. Bir də gördü ki, Zod yolu ilə bir atlı gəlir. Atlı gəlib kəndə yaxınlaşanda yolun qırağında yer sulayan Məşədi Paşanın yanında dayandı. Nə danışdılarsa, Məşədi Paşa əlini kəndə tərəf uzatdı. Sonra atlı yenə yoluna davam elədi. Aşıq Ələsgərin ürəyinə damdı ki, Aşıq Hüseyn olacaq. Damın üstündən aşağı düşdü, qonağı qarşılamaq üçün yola tərəf getdi. Qarama deyilən suyun yanında bir-birinə çatdılar. Aşıq Ələsgər gördü ki, boz atlı, qara yapıncılı, sarıyağız, qırmızı saqqal, üzündə tək-tək çopuru olan bu nurani kişi həmin yuxuda gördüyü adamdır. Aşıq Hüseyn dilləndi:

-Salaməleyküm, ay Aşıq Ələsgər!

-Əleyküməsalam, ay Aşıq Hüseyn!

-Əyə, xalası göyçək, sən nə bildin ki, mən Aşıq Hüseynəm?

-Bacısı göyçək, bəs, sən mənim Aşıq Ələsgər olduğumu nədən bildin?

-Mən iki gündür, soraqlaşa-soraqlaşa gəlirəm. İndi də o yer sulayan qonşudan soruşdum, dedi ki, o ev Aşıq Ələsgərin evidir, damın üstündəki də Aşıq Ələsgərdir.

-Sənin də gəlcəyini mənə demişdilər.

Aşıq Hüsyen təəccübləndi; Aşıq Ələsgərlə görüşəcəyi barədə Zodda bir söz deməmişdi. Ağbulaqla arası da birgünlük yoldur. Bəs, bu xəbəri Aşıq Ələsgərə kim gətirmiş olar?!

Aşıq Hüseyn atdan düşdü, görüşdülər, öpüşdülər...

Aşıq Ələsgərlə Aşıq Hüseyn danışa-danışa evə tərəf gəlməyə başladılar. Bunlar qapıya çatanda, Məhəmməd də çatdı. Məhəmməd əlini Aşıq Hüseynə uzatdı:

-Hüseyn əmi, xoş gəlibsən!

-Xoşbəxt olasan! A bala, sən mənim "Hüseyn əmi" olduğumu haradan bildin?

-Vallah, Hüseyn əmi, qağam dedi ki, Şəmkirli Aşıq Hüseyni yuxuda görmüşəm; bizə qonaq gələcək. Bu heyvanı da ona görə gətirtdirdi.

Aşıq Hüsyen şübhədən çıxdı, daha heç bir söz demədi. Məhəmməd heyvanı kəsdi, soymağa başladı. Aşıq Ələsgərlə Aşıq Hüseyn evə keçdilər. Çay-çörək hazırlandı. Yedilər, içdilər. Axşam oldu. Camaat Aşıq Hüseynin gəldiyini eşitdi. Aşıq Ələsgərin evində məclis quruldu. Bir qədər keçəndən sonra Aşıq Hüseyn dedi:

-Aşıq Ələsgər, sazını götür, bir-iki qatar oxu.

-Ay Hüseyn əmi, camaat mənim oxumağımı çox görüb. Bu gün sənin səsini eşitmək üçün buraya yığılıblar. Yaxşı olar ki, özün bir-iki kəlmə deyəsən.

-Aşıq Ələsgər, camaat mənim səsimi eşitmək istəyirsə, mən də sənin səsini eşitmək istəyirəm. Gəl ikimiz də oxuyaq.

-Məclisdəkilər bu təklifə çox razı qaldılar. Aşıqlar sazlarını götürdülər, çalıb-oxumağa başladılar. Ustad aşıqların sözlərindən bir qədər oxuduqdan sonra Aşıq Hüseyn dedi:

-Aşıq Ələsgər, sənin yaxşı-yaxşı sözlərin gəlib qulağıma çatıb. Bir az da özündən oxu.

-A Hüseyn əmi, siz kimi ustadın yanında üzə çıxası elə sözüm yoxdu. Sən öz sözlərindən oxusan, bizim üçün də xoş olar.

-Eləsə ikimiz də özümüzdən oxuyaq.

Aşıq Ələsgər başa düşmüşdü ki, Aşıq Hüseyn bunun şələsini yoxlamağa gəlib. Yoxlamamış əl çəkməyəcək. Odur ki, dedi:

-Hüseyn əmi, məsləhət sizindir.

Aşıq Hüseyn aldı, görək nə dedi, məclisdəkilər nə eşitdi:

Analar oğlan doğanda
Qoy doğsun oğlanı mərd;
Atası kamil olan
Tez tapar dövranı mərd;
Axşamadək ac da qalsa,
Bir tikə yalqız yeməz;
Gedəni yoldan qaytarar,
Xub saxlar mehmanı mərd.

Aşıq Hüseyn sözü dilcavabı deyəndən sonra Aşıq Ələsgər dedi:

-Hüseyn əmi, mənim də bu qafiyədə "Mərd" sözüm var. İcazə versən, mən də onu oxuyaram.

Çox şad olaram, buyur.

Aldı Aşıq Ələsgər:

Altı gündə xəlq eylədi
Aləmi sübhanı mərd:
Aya, Günə qərar qoyub,

Dolanıb dünyanı mərd.
Məhəmməd şə'ninə endi
Doxsan min kəlmə tamam;
Osman yazdı, cəm eylədi
Otuz cür Qur'anı mərd.

Aldı Aşıq Hüseyn:

Bir mərd ilə ülfət qılan
Axır bir gün mərd olu,
Namərd ilə ilfət qılan
Çöl-biyaban dərd olu,
Namərd bir mehman görəndə
İki gözü dörd olu,
Mərd çəkər alar əlindən,
Gen açar süfranı mərd.

Aldı Aşıq Ələsgər:

İbrahimi-Xəlilullah
Əhd-peyman eylədi;
Çıxartdı Mina dağına,
Oğlun qurban eylədi;
Həcər yandı, nalə çəkdi,
Ahü fəğan eylədi,
Bar ilahim kərəm qıldı,
Göndərdi qurbanı mərd.

Aldı Aşıq Hüseyn:

Aşıq Hüseyn deyər,
Namərd binişan olu;
Bir məclisdə namərd olsa,
Məclis pərişan olu.
Mərd bir məclisə varanda,
Məclis ürövşan olu;
Hər yerdə bir xanə yapar,
Gəşt eylər cahanı mərd.

Aldı Aşıq Ələsgər:

Ələsgər adın qurbanı,
Ya Məhəmməd Mustafa!
Şə'ninə ayə xətm oldu,
Ət-ətasan, qul kəfa.
Dinini aşkar eylədi,
Münkirə verdi cəfa;
Qılıncı mərd, qüvvəti mərd,
Atı mərd, meydanı mərd.

Sözlər tamam olanda, Aşıq Hüseyn dilləndi:

-Sağ ol, Aşıq Ələsgər! Sözün çox xoşuma gəldi. Qiymətli sözdür.

-Hüseyn əmi, sənin sözünün isə heç əvəzi yoxdur. Mənim sözüm hara, sənin sözün hara!? Mənim sözüm mollalardan eşitdiyim hədisdir, amma səninki ustadnamədir, nəsihətdir.

Aşıq Hüseyn başqa bir söz başladı. Aşıq Ələsgər də həmin qafiyədə ona münasib söz oxudu. Sonra üçüncüsünü, dördüncüsünü .... hər iki aşıq bir -birin sözlərini tə'rifləyə-tə'rifləyə 7-8 qatar özlərindən söz oxudular. Hər dəfə Aşıq Hüseyn sözün birinci bəndini deyəndən sonra Aşıq Ələsgərdən soruşdu ki, bu qafiyədə də sözün varmı? Aşıq Ələsgər deyirdi ki, var. Aşıq Hüseyn yəqin elədi ki, Aşıq Ələsgər sözlərin çoxusunu buradaca bədahətən dedi.

Camaat çox diqqətlə qulaq asırdı. Axşama qədər ot biçən adamların yorğunluğundan əsər-əlamət qalmamışdı. Aşıq Hüseyn üzünü Aşıq Ələsgərə tutub dedi:

-Aşıq Ələsgər, sənin dodaqdəyməz sözlərini də eşitmişəm. İndiyə qədər heç bir aşıqda belə sözlər yoxdur.

Söz deyəndə dodaqların bir-birinə dəyməməsi çox çətin işdir. Mən də belə bir söz düzəltmişəm. Gör xoşuna gəlirmi?

-Hüseyn əmi, bizim üçün çox xoşdur, buyur.

Aşıq Hüseyn indiyə qədər heç kəsin yanında oxumadığı"Ay eylər qıj-qıj" dodaqdəyməz təcnisini oxumağa başladı, görək necə başladı. Deyək şad olun:

Qış çilləsi, Xıdır İlyas gələndə
Hərlənər gərdişi, ay eylər qıj-qıj.

Qış ayından yaz ayına keçəndə
Ərşdən neysan yağar, ay eylər qıj-qıj.

Aşıq Hüseyn sözü dilcavabı deyəndən sonra Aşıq Ələsgərdən soruşdu:

-Aşıq Ələsgər, buna oxşar sözün yoxdur ki?

-Hüseyn əmi, bu sözünü də aşıqlardan eşitmişdim.

Çox xoşuma gəldi. İstəmədim ki, tək oxuna, bunu da cütləmişəm. İcazə versən oxuyaram.

Aşıq Hüseyn az qaldı ki, Aşıq Ələsgərin yalanının üstünü açа. Deyə ki, bu söz hələ heç kəsə mə'lum deyil. Bir təhər özünü saxladı. Ürəyində gülümsünüb dedi:

-Əgər cütləmisənsə, oxumağın çox yaxşı olardı.

Aşıq Ələsgər sazı sinəsinə basıb başladı,görək necə başladı:

Qeyz eyləyər,çən çəkilər dağlara,
Qəhrindən yelləri ay eylər qıj-qıj.
Qarşı gəlsə həsrət çəkən yar yara,
Ağlı çaşar,səri ay eylər qıj-qıj.

Aldı Aşıq Hüseyn:

Açıqlandın əğyara: "nəsən ki!"
Eşqin artdı, hey yanınan, nə səngi
Ayaqda şəçəri ay eylər qıj-qıj.

Aldı Aşıq Ələsgər:

Şin şəhər axtarar, şəcarə dəyər
Şeytan şər eyləyər,şəc ara dəyər.
Daşar çaylar qalxar şəcarə dəyər
Hərlənər daşları, ay eylər qıj-qıj.

Aldı Aşıq Hüseyn:

Ağılkarlar hey çəkərlər xəyatı,
"Hey" "yey"indən al dərsini xəyatı.
Sədairlər qayırarlar xəyatı,
Çarx hərlənər, səsi ay eylər qıj-qıj.

Aldı Aşıq Ələsgər:

Aşıq çaşsa, dildə qara qar qalar,
Dağlar sinəsində qara qar qalar.
Göştə çıxsa ərşə qara qarğalar,
Qalar qanadların, ay eylər qıj-qıj.

Aldı Aşıq Hüseyn:

Yeni sən, canana qarşı gələndə,
Saxla səadəti qarşı gələndə.
Aşıq Hüseynin yarı qarşı gələndə,
Ağılı sərindən ay eylər qıj-qıj.

Aldı Aşıq Ələsgər:

Yazıq Ələsgər, əlin yetsə nə nara,
Nə həsrət çək, nə ah eylə, nə nara.
Nə insandı səngi salır nə nara,
Qaynadar dərya tək ay eylər qıj-qıj?

Gecə yarıdan keçmişdi. Camaat söhbətdən ayrılmaq istəmirdi. Aşıq Hüseyn Aşıq Ələsgərə dedi:

-Aşıq Ələsgər, bir dodaqdəyməzim var. Onu da eşitmək istəyirsənmi?

-Hüseyn əmi, sənin sözlərin bir-birindən gözəldir. Görürsən də! Camaat sabah işə gedəcəyini də yaddan çıxardıb. Hamı səni eşitmək istəyir.

Aldı Aşıq Hüseyn, görək bu dəfə nə dedi, məclisdəyilər nə eşitdi. Deyək şad olun:

-Sən şəyirdsən, hey deyirlər:
Dərs al ərkanda, gədə!
Həqiqətdən dışarısan,
Keçirsən yandan, gədə!

Aşiq isən, saz çalırsan,
Şər ilə işin nədir?!
Dəryalardan xərac alsan,
Həya qıl kandan, gədə!

Aşıq Hüseyn bu bəndi deyəndən sonra üzünü yenə Aşıq Ələsgərə tutdu:

-Aşıq Ələsgər buna oxşar sözün varmı?

-Hüseyn əmi, var.

-Onda de gəlsin!

Aldı Aşıq Ələsgər:

-Gizli sirrin nahaq yerə
Gizlətdin xandan, gədə!
Ah çəkər, nalə eylərsən,
Can gedər candan, gədə!
E'tiqadla, sidq dillə
Çağır şahlar şahını,
Nahaq işdi, dilək dilər
İnsan insandan, gədə!

Aldı Aşıq Hüseyn:

Səyyad isən, seyrə çıxsan,
Gəşt elə dağlara sən;
Eşq əhlisən, axtargınan
Yetişəsən yara sən.
Eşq ataşı canda getsin
Getsən hər diyara sən,
Arı təki hey sızılda,
Şirə çək şandan, gədə!

Aldı Aşıq Ələsgər:

Al çətirin, çıx səhraya,
Sal sərinə sayə, gəz;
Qədər sənlə gəzəcəkdir,
İstər gir dəryaya gəz.
Sakin əyləş sin içində,
Həqiqətdən ayə gəz;
Ağ eylə sinən aynasın
Şəri-şeytandan, gədə!

Aldı Aşıq Hüseyn:

Hüseyndən kənar hərlən,
Səni salar əngələ.
Yenə dağlar nalə çəkir,
Çiskin gələ, çən gələ.
Əzrayıl nər kişidi,
Sinən çəkər çəngələ,
Keçərsən xirdar əlinə,
Addadar sandan, gədə!

Aldı Aşıq Ələsgər:

Ələsgərlə danışanda,
Al əlinə saz, danış;
İnci, səni istəyənlə,
Eylə ərki-naz, danış;
Əyləşəndə ağır əyləş,
Danışanda, az danış;
Eşidənlər "əhsən!" desin
Sana hər yandan, gədə!

Sözlər tamama yetişəndən sonra Aşıq Hüseyn üzünü camaata tutub dedi:

-Camaat, icazə versəniz, söhbətimi qurtarardım. Siz də işdən gəlibsiniz, sabah da işə gedəcəksiniz.

Ağsaqqallardan biri dilləndi:

-Bəs, Aşıq Hüseynlə Aşıq Ələsgərin söhbətindən doymaq olar!?

Aşıq Hüseyn gördü ki, camaat yerindən tərpənmək istəmir, dedi:

-Yaxşı, oxu deyirsiniz, oxuyaq.

Aşıqlar bu dəfə başqa ustadların sözlərindən oxumağa başladılar. Bir neçə qatar oxumuşdular, xoruz banladı.

Aşıq Hüseyn gülümsünüb dedi:

-Yenə oxuyaqmı?

Bayaqkı kişi gülə-gülə cavab verdi:

-Çox sağ olun! Xoruzun əmrindən çıxmaq olmaz.

Camaat istədi ki, aşıqlara dövranpulu yığsın, Aşıq Hüseyn razılaşmayıb dedi:

-Mən buraya qazanca gəlməmişəm; Aşıq Ələsgərlə görüşməyə

gəlmişəm. Məqsədim ancaq bu idi. Çox sağ olun!

Camaat şad-xürrəm dağılıb evlərinə getdi.

Aşıq Ələsgər Aşıq Hüseyni bir neçə gün də qonaq saxladı, yaxşı hörmət elədi. Aşıq Hüseyn yola düşəndə qucaqlaşıb öpüşdülər...

Aşıq Hüseyn gəlib kəndinə çatanda gördü ki, camaat onu gözləyir. Molla Əli soruşdu:

-Aşıq Ələsgəri görə bildinmi, necə aşıqdır?

Aşıq Hüseyn Ağkilsədə olanların hamısını bunlara danışandan sonra dedi:

-Aşıq Ələsgər kimi aşıq hələ dünyaya gəlməyib. İndən belə də gəlməyinə inanmıram; o, haqq aşığıdır...

Aşıq Hüseynin belə deməyi onun hörmətini daha da artırdı. O gecə onu Ağbulaqda saxladılar, məclis qurdular, çox razı yola saldılar.

Bu əhvalatdan sonra harada söz düşdüsə, Aşıq Hüseyn Aşıq Ələsgəri, Aşıq Ələsgər də Aşıq Hüseyni tə'riflədi.

AŞIQ ƏLƏSGƏRNƏN MİR MƏCİD AĞANIN GÖRÜŞÜ

(Rəvayət)

Göyçədə payızın yır-yığış zamanıydı, ot biçilif tayalanıf, taxıl xırmannarda döyülüf başa çatırdı. Göyçədə ilin yarıdan çoxu qışın payına düşürdü. El-ova qışa ehtiyat görürdü kü, təzə urzu çıxana qədər ehtiyatdı olsun. Yoxsa qonum-qonşu yanında başın aşağı, üzün qara olardı...

Ələsgər elə-ovaya arxalansa da, heş vaxt ehtiyatını əlinnən verməzdi. Təsərrüfatda, ev-eşikdə çox səliqəli-səhmanıydı. Toya, xeyir işə getmiyəndə həyət-bajasını səhmana salar, dirrik işdərinnən məşğul olardı.

Aşıx bu gün də axşamüstü həyətdə məşğuluydu. Gördü bir atdı onnara doğru gəlir. Gejə yuxusunu da yaxşı görmüşdü. Atdı düz Ələsgərə yaxın gəlif atdan düşdü. Yaxınlaşıf ədəf-ərkannan salam verdi:

– Salam, Ələsgər əmi! Xoş gördük!

– Əleykümə salam, oğul! Xoş günün olsun!

– Ələsgər əmi, Kəvərdən sizə salam-duva gətirmişəm.

– Çox sağ ol oğul, salam göndərən sağ olsun. Yaqın seyid uşaxlarınnan olar. Oğul, atı uşaxlar rahatdıyar, gedək evə, uzaq yoldan gəlifsən, həm də bir əməlli-başdı danış görüm seyid uşaxları nejədi?

– Ələsgər əmi, seyid uşaxlarının xeyir işi var, tədarük görülüf, səni gözdüyüllər, savah gərək yola düşəsən. Gəldim bu ismarışı sana çatdırım. Burada da qohumlarım var, istiyirəm onnara da bir baş çəkim. Gərək mana icazə verəsən.

Ələsgərin qapısınnan qonax qayıtmazdı. Oğlan üzür diliyif, Ələsgərnən əl tutuf getdi. Ələsgər axşamnan yol tədarükü gördü. Ələsgərin yola hazırrandığını görən oğlu Bəşir dedi:

– Ay dədə, hara hazırraşırsan?

– Oğul, Kəvərdən ismarış gətiriflər. Seyid uşaqlarının xeyir işi var, gərək gedəm.

Bəşir soruşdu:

– Dədə, bə seyid uşaxları İrəvanda yaşamıllar?

– Oğul, dayıları İrəvanda yaşıyıllar, orada da mülkləri var, Kəvərdə də. Amma Mir Hüseyn ağa Kəvərdə olur. Beş oğlu var. Mir Mahmud, Mir Əli, Mir Abbas, Mir Həmid, Mir Məcid. Oxumuş uşaxlardı. Ataları onnara hər elmi örgədif. Qur'anı kamil bilillər. Mənim də çoxdan Kəvərə yolum düşmür. Kəvər camahatı da onların xətrini çox istiyir.

Ələsgər səhər tezdən tavar sazı götürüf ata süvar oluf, Kəvərə yola düşdü.

Ələsgərin xasiyyətiydi, çağırıldığı toyda, xeyir işdə nə oxuyajaxdısa, məclisi nejə yola verəjəkdisə, əvvəlcədən bunnarı sahmannıyardı. Bir də getdiyi ovada, eldə bütün dost-tanışdarına mütləq baş çəkərdi.

Ələsgər yolboyu seyid uşaxları haqqında düşünə-düşünə gedirdi. Bir vaxt ayılanda gördü kü, Kəvərə çatıf. Atını seyid uşaxlarının həyətinə sürdü. Mir Mahmud ağa, Mirəli ağa, Mir Abbas ağa, Mir Həmid ağa, Mir Məcid ağa Ələsgəri hörmətnən, izzətnən qəbul elədilər. Köhnə dost kimi Ələsgərnən qucaxlaşıf köyrəldilər də. Uzax yoldan gələn Ələsgər yaxşıca dincəldi. Samavar dəmləndi, süfrə açıldı, köhnə, şirin söhbətdər başdadı.

Ələsgəri seyid uşaxlarının bajıları oğlu Nəcəfin toyuna çağırmışdılar.

Ələsgərin keçirdiyi toy həmişə toydan çox bayrama çevrilif. El-ova eşidəndə ki, toyu aşıx Ələsgər aparır, çağrılan da, çağırılmıyan da tökülüf gəlirdi. Aşıx Ələsgər bir həftə Kəvərdə qaldı, toyu başa vurdu. Mir Məcid ağa onu buraxmıyıf dedi:

– Yorulufsan, iki-üç gün dincəl. Neçə vaxtdı Kəvər tərəfə gəlmirsən. Bir az söhbət eliyək. Bu dünyanın işi məni aşmır, Ələsgər. Bu ermənilər köşkün adıynan gəlif dədə-bava yerrərimizdə özdərinə yurd-yuva tikillər, bunun axırı hara gedir?..

Ələsgər iki gün də qalıf çoxdan tanıdığı, söz-söhbətinə, biliyinə, mə'rifətinə, kamalına, şairrik qabiliyyətinə hörmət elədiyi, ehtiram bəslədiyi Mir Məcid ağaynan çox söhbətdər elədi. Gah dərddəşdilər, gah da saza dil verdilər. Mir Məcid ağa saz çalmırdı. Amma yaxşı tə'bi varıydı. Saz dinəndə özünü saxlaya bilmiyif bədahətən gözəl şe'rrər söylüyürdü.

– Ay Mir Məcid ağa, yaş səksəni haxlıyır. Yaddaş əvvəlki tək iti döyül. Bu dediklərimizi uşaxlara de, yazsınnar.

Ələsgərin adətiydi, həmişə qarşıdakını qavağa verərdi, sınaxdan keçirərdi.

İndi də adətinə xilaf çıxmıyıf dedi:

– Mir Məcid ağa qavağa düş, başda görək.

Mir Məcid ağa Ələsgərin sözünü yerə salmıyıf başdadı:

Mir Məcid Ağa:

Xidafət mülkünün şahənşahının,
Üç yüz altmış altı qulamı vardı.
On iki köşküydü, qırx səkkiz hücrə,
Üç əzim şəhrində nizamı vardı.

– Ağa, yaxşı başdadın. İcazə ver, sorğunun cavavını deməyə çalışım. Görüm razı qalajaxsanmı?

Aldı Aşıq Ələsgər:

Rişeyi-nöbubət, nəsli ə'laya
Əysik qulun ərzi-salamı vardı.
Üç yüz altmış altı gündü, qırx səkkiz həftə,
On iki ayın üç əziz bayramı vardı.

Mir Məcid Ağa:

Bir gülşəndə gördüm beş qönçə xəndan,
On iki dəstə gül, on dördü reyhan.
Bir çeşməsin gördüm, nurdan da əl'an,
Yüz iyirmi dörd min sucamı vardı.

Aldı Aşıq Ələsgər:

Beş-pənci-ali-əbadı əzimi əziz,
On iki imam, çardəh məhsim düpbədüz,
Yüz iyirmi dörd min peyğəmbərimiz,
Hər birinin ayrı məqamı vardı.

Mir Məcid ağa:

Mir Məcidəm, gördüm əcəb mö'təbər,
Altı min altı yüz altmış altı dər,

Altmış pəncərədi, yüz on dörd minbər,
Otuz sütun üstə davamı vardı.

Aldı Aşıq Ələsgər:

Altı min altı yüz altmış altı gül,
Yüz on dörd surədi qur'an, yə'qin bil,
Altmış nisbi, otuz cüz'i müttəsil,
Doxsan min kəlmədə tamamı vardı.

Mir Məcid ağa:

Bir mehrabda gördüm əcayib qur'an
On yeddi səhifə, on səkkiz xoş han,
İyirmi sətirdi, əlli bir bəyan
Beş cildin içində tamamı gördüm.

Aldı Aşıq Ələsgər:

Elmi ibadətdi əcayib Qur'an
On yeddi rükətdi, on səkkiz xoş han,
Əlli bir sünnətdi, yerbəyer qılan,
Məxrəci, səqqəsi, iqdamı vardı.

Mir Məcid ağa:

Əgər əsli-nəslim bilmək etsə çak,
Gördüm ki, dür etsin dövrünü əflak!
İrəvan, Mir Məcid-seyyidi-qəmnak,
Bisəmər-bisəmər kəlamı vardı.

Aldı Aşıq Ələsgər:

Ələsgərəm, qəmdən olmaram azad,
Haqqı mizan, sirat, puli-qiyamat,
Üsyan, tuğyan, çaşqın, düşkün, bisavad,
Ah çəkmək dilimdə müdamı vardı.

Mir Məcid ağanın "İrəvan-Mir Məcid-Seyyidi qəmnak" sözünə rəğmən-İrəvana yolunuz düşürmü? – deyə Ələsgər xəvər aldı.

– Dayımız Fazil ağanın uşaxları sağ-salamatdılar. Rəhmətdik özü Nəcəfə getdi qayıtmadı. Orda haqqa qovuşdu. Gediş-gəlişimiz var.

İrəvandakı mülkümüzə görə bizi İrəvannı kimi tanıyıllar el-ova arasında.

Ələsgər Kəvərdə iki gün də dincəlif, dost-tanışnan görüşüf Ağkilsiyə döndü. Mir Məcid ağaynan qardaşdarı onu böyük hörmətnən, izzətnən yola saldılar.

AŞIQ ƏLƏSGƏRLƏ ŞAİR NAĞI

Mənim əzizlərim, sizə haradan xəbər verim, Şəmsəddin mahalından. Şəmsəddin mahalında Şərif adlı bir bəy var idi. Onun atası varlı bəylərdən biri idi. Şərif bəyin evlənmək vaxtı çatanda atası öldü. İki ilin içində qonu-qonşu, nökər-naib mal-dövləti elə dağıtdı ki, Şərif bəyin bircə "bəy" adı qaldı; necə deyərlər "quru bəy" oldu. Amma yenə də camaat ona "Şərif bəy" deyirdi. Adam kasıb olanda nə olar, bu zalım oğlunun adamlığı, qanacaq-mə'rifəti də yox idi. Danışanda dəvə-dəvədən dəm vurardı.

Bir gün Şərif bəy evlənmək fikrinə düşdü. Kimin qızını istədisə, vermədi. Şərif bəyin xasiyyətini bilənlər ona qızmı verərdi!? Axırda özü kimi bir kişinin qızı ilə evlənməli oldu.

Aşıq Ələsgərlə şəyirdi Aşıq Usuf Şəmsəddin mahalına getmişdilər. Toyların birində Şərif bunlara rast oldu. Xahiş elədi ki, Aşıq Ələsgər, filan vaxt toy eləyəcəm, bir yana getməyin! Bunu eşidənlərdən, Aşıq Ələsgəri tanıyanlardan çoxusu dedi ki, o hüllükbazın birisidir; sən onun toyuna getmə. Amma Aşıq Ələsgərdə belə bir xasiyyət var idi ki, istər ağa olsun, istər nökər olsun, istər varlı olsun, istər yoxsul olsun, hamının toyuna gedərdi. Şərif bəyə də söz verdi ki, dediyin vaxt sizdə olaram.

Aşıq Ələsgərgil söz verdikləri vaxt Şərif evinə getdilər. Bəyin toy tədarükü hələ düzəlməmişdi. Aşıq Ələsgərə dedi ki, üç gündən sonra toyu başlayacam. Şərif bəy əskik işlərinin dalınca getdi. Evdə də Aşıq Ələsgərgilə hörmət eləmədilər. Bəyin anası aşıqların "tez gəlməsinə" bir az donquldandı da. Kəndin qanan adamları aşıqları evlərinə apardı, yaxşı hörmət elədi.

Üç gündən sonra toy başlandı. Şərif bəy özünə layiq toy da elədi. Heç bilmədi ki, bu altı gündə Aşıq Ələsgərgilin vəziyyəti necə keçdi. Toydan sonra Şərif bəy bu aşıqları evə apardı. Anası qonaqlara çay-çörək qoydu. Çörək, nə çörək, darı fətiri. Sonra da bir dəsmal gətirdi ki, bu da sazın toy xələti. Aşıq Ələsgər gördü ki, yox, Şərif bəy aşıqları sarıdı. Neçə ilin aşığı idi, başına belə bir iş gəlməmişdi. Daha bilmədi ki, Şərif bəyin elə qandığı bu qədərdir.

Aşıq Ələsgər oradan durandan sonra Şərif bəyə bir həcv dedi. Həcv iki günün içində oradakı kəndlərin hamısına yayıldı. Şərif bəy

də bu həcvi eşitdi, qaldı yana-yana. Şərif bəy kimi adam Aşıq Ələsgərə nə edə bilərdi ki?

Aşıq Ələsgərgil daha orada qalmadılar, toyun sabahısı günü kefləri pozğun halda Göyçəyə qayıtdılar.

Şərif boy baş qaldırıb kənd içində gəzə bilmədi. Axırda Yekallar kəndinə gəldi. Şair Nağını tapdı, yalvardı ki, gərək Göyçəyə bir həcv deyəsən! Sən demə, Şair Nağı da ağıldan bir az yuxa imiş. Ağlına gələni yazdı, söyüşlə, latayırla Göyçəni həcv elədi. Nədənsə, həcv yaman tez yayılan olur. Beş-on günün içində yaxın kəndlərin hamısı eşitdi ki, Şair Nağı Göyçəni yaman bəzəyib.

Bəli, mənim əzizlərim, indi sizə hardan xəbər verim, Göyçənin Ağbulaq kəndində Molla Əli, bir də Kalvayı İrvaham adlı iki kişi var idi. Bunların ikisi də dana alveri ilə məşğul idilər. Deməli, payız olanda gedib oradan-buradan ucuz qiymətə dana alırdılar, qışda bir təhər saxlayıb, yaza çıxarırdılar. Payıza dönəndə dananın hərəsi olurdu bir cöngə. Aparırdılar şəhərlərdə birə-beş qiymətinə satırdılar.

Kalvayı İrvaham ilə Molla Əli dana almaq üçün Şəmsəddin mahalının Yekallar kəndinə gəlmişdilər. Bir evdə yığıncaq var idi. Molla Əligil də burada idilər. Ona kimi Şair Nağı da gəldi buraya. Bir az o yandan-bu yandan söhbət eləyəndən sonra bəzədiyini de, qulaq asaq dedilər!

Şair Nağı başladı, görək nə başladı. Biz sazla deyək, siz qulaq asın:

Düşəsiniz Şəmsəddinin əlinə,
Tərlan kimi sizi yola, göyçəli!
Kənd içində olanda diliniz ötür,
Çöldə dönürsünüz mala, göyçəli!

Molla Əli ilə Kalvayı İrvaham bir rəng aldı, bir rəng verdi. Amma dillənib heç biri bir söz demədi.

Şair Nağı sözü başlayanda qoşma ilə başlamışdı, dalını çevirdi müxəmməsə:

Cavanları qulampara,
Qocaları felmanıdı;

Ayaqlarında çöpük corab,
Çarıqları kalmanıdı;
Oxşayırlar persoylara,
Haranın müsəlmanıdı;
Səhər-səhər püş səbətin
Alırlar dala göyçəli.

Ağbirçək qarıları
Baş-başa kərmə çatırlar;
Ağsaqqal qocaları
Təndirə saşqı atırlar;
Yığırlar hamısı
Kürsünün altda yatırlar;
Ala qarğa kimi püşü
Dağıdır çölə göyçəli.

Molla Əligil elə olmuşdular ki, çırtıq vursan, qanları tökülərdi. Şair Nağı aldı o biri bəndini:

Göyçəlinin qalağına;
İrisini arvadlar döşünə yığır,
Xırdasını balağına;
Hər yerin nəcis eyləyər,
Qanmırlar murdar, təmiz,
Vururlar şələ göyçəli.

Ayıflarına kor olmurlar,
Bəyənmirlər bizim şoru;
Südün üzünü alırlar,
Suyu qalır qabda duru;
Qıcqırmış pendir tuturlar,
İtə versən, it quduru;
Vurmaram dilə, göyçəli!

Yalıya oğlu Şair Nağı
Düşmürmü onların yadına;
Ocaqlarına.....

Həsrət qalıblar oduna;
Mən söymüşəm.....
Şəmsəddin əşrəfidi,
Siz qara pul, a göyçəli!

Söz tamama yetişən kimi bə'ziləri güldü; qanan adamlar Şair Nağını məzəmmət elədilər ki, bu, yaxşı iş deyil! Molla Əli ilə Kalvayı İrvaham nə çörək yedi, nə də çay içdi. Oradan durdular, bilmədilər ki, nə eləsinlər. Çox fikirdən sonra belə məsləhətləşdilər ki, sözü yazıb, Aşıq Ələsgərə aparsınlar. Bəlkə, bu işə Aşıq Ələsgər bir əncam çəkə. Kəndin içində bir oğlan uşağına rast gəldilər. Molla Əli onu yanına çağırıb dedi:

-A bala, oxuyubsanmı?

-Oxumuşam, indi də oxuyuram.

-Haraya qədər oxuyubsan?

-Altıncı baba qədər.

Molla Əli əlini cibinə saldı, bir qədər xırda pul çıxartdı, dedi:

-Al bu on şahını, get Şair Nağının yanına, Göyçəyə dediyi sözü yaz gətir. Gələndə on şahı yenə verəcəm.

Oğlan pulu aldı sevinə-sevinə getdi. Bir azdan sonra əlində kağız qayıtdı. Oxutdular, gördülər ki, olduğu kimi yazıbdır. Uşağa on şahı verdilər, özləri də dana-zad almadılar, düz birbaş Ağbulağa qayıtdılar.

Molla Əli Aşıq Ələsgərlə çoxdan dost idi. Götürdü Aşıq Ələsgərə belə bir məktub yazdı: "Ey nuri-çeşmanım Aşıq Ələsgər! Atam öldü, sarsılmadım; qardaşım öldü, korşumadım; oğlum öldü, porşumadım; amma Yekallar kəndində başımıza bir iş gəldi, bu dərdlərin hamısından bətər oldu. Bir məclisdə "Şair Nağı" deyilən, bizi də pisənmədi, Göyçənin adına bir həcv dedi. Ölüm bizə fərz oldu. Vuruş meydanı olsa, ölüncə vuruşardım. Söz meydanında Göyçənin kilidi sənsən. Şair Nağının dediyi həcvi yazıb sənə göndərirəm. buradan beləsini sən özün bilərsən..."

Molla Əli Şair Nağının həcvinin üzünü köçürdü, yazdığı kağızın arasına qoydu, Kalvayı İrvahama dedi:

-Bu kağızı kimdən göndərək?

Kalvayı İrvaham dedi:

-Heç kimə vermək olmaz; mən özüm aparacam.

Kalvayı İrvaham atını mindi, yol başladı Ağkilsə kəndinə.

Payız günü idi. Hava qaraldı, yağış başladı, dalını qara çevirdi. Kalvayı İrvaham yağış-qar vura-vura günortadan xeyli keçmiş Ağkilsə kəndinə çatdı. Aşıq Ələsgərin evini xəbər aldı, atını sürdü qapıya. Aşıq Ələsgərin qardaşı Məhəmməd qapının qarını kürüyürdü.

-Salaməleyküm!

-Əleykəsalam!

-Aşıq Ələsgərin evi buradır?

-Bəli, buradır, düş!

Kalvayı İrvaham atdan düşdü, içəri keçdilər. Məhəmməd çay-çörək hazır elətdi. Çay qabağa gələndə Kalvayı İrvaham soruşdu:

-Aşıq Ələsgər hanı?

Məhəmməd cavab verdi ki, Kəlbəcərə gedib.

Kalvayı İrvaham əlini dizinə vurdu:

-Bay sənin! Zəhmətin necə hədər getdi!

-Əşi, Aşıq Ələsgər evdə yoxdu. Evi, qohum-qardaşı buradadır. Nə mətləbə gəlibsənsə, düzələr. Daha niyə vayısdanırsan!

-Mənə Aşıq Ələsgərin özü lazımdır.

Məhəmməd elə hesab elədi ki, toy işləri var, ona görə Aşıq Ələsgərin dalınca gəlibdir. Qonağı sakit eləmək üçün dedi:

-Əşi, çayını iç, Allah kərimdir!

Ona kimi Aşıq Ələsgərin qardaşı Məşədi Salah, Xəlil, oğlu Bəşir qapıdan girdilər, qonaqla görüşüb əyləşdilər. Çay içdilər, çörək yedilər. Amma gördülər ki, qonağın boğazından çörək getmir, çox fikirlidir.

Məşədi Salah soruşdu:

-Kalvayı, nə fikir eləyirsən?

-Məşədi, fikirdir, bəs fikir deyilmi. Oradan buraya Aşıq Ələsgərin dalınca gəlmişəm, baxtımdan, o da evdə yoxdur.

-Toyunuz havaxt başlayır?

-Əşi, nə toy, nə filan! Mənim başıma gələn iş sənin başına gəlsə, bir saat da durub dincələ bilməzsən.

-Əşi, başına nə iş gəlib?

Kalvayı İrvaham Yekallar kəndində başlarına gələn əhvalatı Məşədi Salahgilə nağılladı. Sonra da Molla Əli yazdığı kağızı çıxartdı. Məşədi Salah kağızı Bəşirə verdi, dedi:

-Oğul, oxu görüm, nə yazılıb!

Bəşir Molla Əlinin məktubunu da, Şair Nağının həcvini də oxudu. Bir az gülüşdülər, bir az da pərt oldular.

Kalvayı İrvaham dilləndi:

-İndi görün mənim yerimə siz olsanız, fikir eləyərsiniz, yoxsa, eləməzsiniz!?

Məhəmməd dedi:

-Əşi, bu barədə heç fikir eləmə. Aşıq Ələsgər burada yoxdursa da, onun qohum-qardaşı buradadır. O içən sudan biz də içmişik. Allahın köməkliyi ilə Şair Nağının cavabını biz də qaytara bilərik.

Kalvayı İrvaham az qaldı ki, Məhəmmədi qucaqlayıb öpə:

-Ay sənin dilinin qadasın alım! Mənim istədiyim də elə bu deyilmi!?

Məhəmməd üzünü Bəşirə tutub dedi:

-Kağız-qələm gətir!

Bəşir kağız-qələm hazır elədi. Məhəmməd götürdü, görək nə dedi, Bəşir nə yazdı:

Eşitmişəm, hədyan yazıb
Bizim mahala Yahyaoğlu;
Altmışında zurna tapıb,
İstəyir çala Yahyaoğlu;
Gözünü tikib harama,
Baxmır halala Yahyaoğlu;
Qızların odun şələsin
Alırlar dala, Yahyaoğlu!

Yahya oğlu Şair Nağı
Bəyənmir kürsü,təndiri;
Odun şələsi çəkməkdən
Çiyninin kəsib kəndiri;
Dədən Yahya çox yeyibdi,
Murdarramaynan pendiri;
Altını qala, Yahyaoğlu!

Səhər-səhər xörəyindir,
Pencər, kəngər, kortun, çaşır,

Qıjı, giriş, cincilim,
Sündürük həddindən aşır;
İçirsən darı hörrəsi,
Saqqalın, bığın bulaşır;
Görən deyir: "Ağzını sil,
Batıbdır yala, Yahyaoğlu!"

Mən deyirəm bu sözləri,
Çünki sən düşəsən başa;
Yeyirsən darı cadını,
Qursağında dönür daşa;

Bu oldu bədələ bədəl;
Göyçəliynən bəsə girdin,
Çox çəkərsən cəngü cədəl;
Gizlənmə tülkü kimi,
Çənbərək meydanına gəl;
Şairliyin isbat olsun,
Düşsün mahala, Yahyaoğlu!

Kalvayı İrvahamın əl-ayağı yerə dəymirdi; elə sevinirdi ki, elə bil, bütün dünyanı buna bağışlayıblar. Bu bəndi eşidəndə özünü saxlaya bilmədi:

-Ay sənin başına dönüm, bax belə ha!

Məhəmməd aldı sözün tapşırmasını:

Sözümdə rəkik tutma,
Həm çobanam, həm naşıyam;
Müxənnətə xan olmaram,
Mərd yolunun peşkaşıyam;
Öz adım Məhəmməddir,
Ələsgərin qardaşıyam;
Nə sözün var, əsirgəmə,
Göndər dal-dala, Yahyaoğlu!

Elə ki, söz tamama yetişdi, Məhəmməd dedi:

-Bəşir, oxu görüm, necə yazıbsan!

Bəşir sözü oxudu, xeyli gülüşdülər. Hərəsinin qabağına yenə bir istəkan çay gətirdilər. Birdən Məhəmməd dilləndi:

-Aha, qağam gəldi.

Məşədi Salah dedi:

-Nə bildin gəldi?

-Eşikdə ayağının qarını çırpdı. Qağamdan başqa, heç kəsin ayağının səsi içəridə eşidilmir.

Bir də gördülər ki, Aşıq Ələsgər qapıdan girdi. Xoş, beş, on beş!

Öpüşdülər, görüşdülər. Aşıq Ələsgər çuxasını çıxartdı, əl-üzünü soyuq su ilə yudu, gəlib əyləşdi. Ona da bir stəkan çay gətirdilər.

Birdən aşıq Ələsgərin gözü Bəşirin əlindəki kağıza sataşdı.

-A bala, o nə kağızdır?

-Məhəmmməd əmim Şair Nağıya deyib, odur.

-Şair Nağı kimdir?

Bu dəfə Kalvayı İrvaham dilləndi. Yekallar kəndinə getməklərindən başladı, başlarına nə gəlmişdisə, hamısını təzədən Aşıq Ələsgərə nağılladı.

Aşıq Ələsgər əvvəl Molla Əli yazdığı kağızı Bəşirə oxutdurdu, sonra Şair Nağının yazdığı həcvi oxutdurdu, gülümsünüb, dedi:

-Zalım oğlu lap aşıqlığına vurub. Sən yazdığını oxu, görüm necədir?

Bəşir Məhəmməd dediyi həcvi də oxudu. Qurtarandan sonra Aşıq Ələsgər başını buladı:

-Yox, bu olmadı. Bu sözü göndərsək, biz də olarıq Şair Nağının tayı. Özgə yerə göndərilən sözdə belə latayır, belə hədyan lazım deyil. Qabaqkını söysən də gərək mə'rifətlə söyəsən.

Ona qədər bir qab xörək gətirib Aşıq Ələsgərin qabağına qoydular. Aşıq Ələsgər qabı Kalvayı İrvahamın qabağına sarı elədi. Kalvayı İrvaham dedi ki, biz bu saat yemişik, sən ye. Aşıq Ələsgər xörəyi qabağına çəkdi, iştahla yedi. Sonra da üstündən bir stəkan qaynar çay içdi, üzünü Bəşirə tutdu:

-Oğul, sazı mənə ver, özün də kağız-qələm götür!

Aşıq Ələsgər belə deyəndə hamı bildi ki, nə deyir. Bəşir sazı Aşıq Ələsgərə verdi, özü də kağız-qələm hazır elədi. Aşıq Ələsgər sazın zilini zil, bəmini bəm, sinəsində müstəkam elədi, aldı görək Şair Nağıya nə dedi, Bəşir nə yazdı:

Qarışdırma Şəmsəddini, Göyçəni,
Kəndindən kəndimə yaz, Şair Nağı!
Hərca dilin salar bəlaya səni,
Çox da bilsən, danış az, Şair Nağı!

Arvadlar ki, əlin vurar qalağa,
Yuyarlar, gün vurar, çıxardar sağa.
Xub yaraşır sənin kimi ulağa,
Noxta, torba, palan, biz, Şair Nağı!

Bu bəndi deyəndən sonra Bəşirdən soruşdu:

-Oğul, yazıb çatdıra bilirsənmi?

-Ay Dədə, lap sənlə bərabər gedirəm. Sən de gəlsin!

Aşıq Ələsgər aldı o biri bəndini:

Bir ocaqlı, hədyan demə təndirə,
Dədən çox yeyibdi, söymə pendirə,
Qəza vurdu, başın keçdi kəndirə,
Sağlıqdan ümidin üz, Şair Nağı!

Göyərib gicitkan, baş verib çaşır,
Doldur dağarcığı, Göyçəyə aşır.
Elə billəm qoca çaqqal ulaşır,
Olsa sənin kimi yüz Şair Nağı!

Şəmsəddin iyiddir aləmdə məşhur,
Aldədədə olur mö'cüzat zühur.
Əl çəkmərəm səndən dəm olunca sur,
Vaxt ikən qəbrini qaz, Şair Nağı!

Söz tamama yetişəndən sonra Aşıq Ələsgər Bəşirə dedi:

-Oğul, oxu görüm, düzmü yazıbsan!

-Ay Dədə, qurtardın?

-Qurtardım.

-Bəs tapşırması hanı? Nə bilsinlər ki, kimin sözüdür?

-Oğul, elə kimin sözü olduğunu bilməsələr yaxşıdır. Bu sözdə də hədyan var. Hələ oxu görüm, nə təhər yazıbsan!

Bəşir yazdığını oxudu. Gördülər ki, çox düzgün yazıb.

Düzdü, Aşıq Ələsgər bu sözü qurtarmışdı, amma Şair Nağıya deyiləsi sözünü hələ qurtarmamışdı. O, yenə üzünü Bəşirə tutdu:

Oğul, kağız-qələmini götür, bu dəfə tapşırmalı söz deyəcəm.

Bəşir kağız-qələmini götürdü. Aşıq Ələsgər sazı sinəsinə basdı, görək bu dəfə nə dedi:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, ay səmi diraz!
Kar çıxmaz qovğadan, daldan danışma!

Göyçənin qonağa çoxdu hörməti,
Qaysava, qayğanaq verir ləzzəti.
Plov, dolma, kabab, əmliyin əti...
İnsaf eylə, tək motaldan danışma!

Kalman çarıq bizə adəti-nasdı,
Müsəlmana persoy deyən xənnasdı.
Ulağın eşşəkdi, yükün kirbasdı,
Əbrü ətlaz, tirmə, şaldan danışma!

Əgər şairsənsə, gəl eyləyək bəhs,
Bir sözünə min söz deyim dəsbədəs.
Himarın dümbündə lağəri-məqəs,
"Zənbur mənəm", deyib, baldan danışma!

Bu bəndi deyəndə Məhəmməd də güldü, Bəşir də. Qalan adamlar da bunlara baxıb gülüşdülər. Aşıq Ələsgər özü də güldü. Məhəmməd dedi:

-Ay Qağa, bəs deyirdin ki, özgə yerə göndərilən sözdə söyüş, latayır, hədyan yaxşı deyil.

-Əvvəla, buradakı söyüş təkcə Şair Nağını tutur; elə, mahala söymürəm. İkincisi, bir az örtülü söyürəm. Çox adam bilməz ki, nə deyirəm. Şair Nağı oxuyanda hesabını qanacaq.

Kalvayı İrvaham dilləndi:

-Səni mənə yetirən Alaha qurban olum! Əsirgəmə, de gəlsin!

Aşıq Ələsgər aldı o biri bəndini:

Neçə aşıq qaçırmışam meydandan,
İstəsən birbəbir keçirim sandan.
Gətirib kəngərdən, içib ayrandan
Coşub kərgədandan, fildən danışma!

Aşıq Ələsgər üzünü Bəşirə tutdu:

-A bala, yazdınmı?

-Ay Dədə, yazdım.

-Deyim, tapşırmasını da yaz!

Aşıq Ələsgər aldı, görək sözün tapşırmasını necə dedi:

Adım Ələsgərdi, mərdi mərdanə
On iki şəyirdim işlər hər yana.
Tülküsən, aslanla girmə meydana,
Danasan, sürtünüb, kaldan danışma!

Bəli, mənim əzizlərim, elə ki söz tamama yetişdi, Aşıq Ələsgər bu sözü də Bəşirə oxutdu. Gördü ki, çox düzgün yazıb.

Bəşir Aşıq Ələsgərin dediyi sözlərin ikisinin də üzünü çox səliqə ilə köçürtdü, Kalvayı İrvahama verdi. Kalvayı İrvaham pul kisəsini çıxartdı, ağzını açdı, kağızı içinə qoydu. Aşıq Ələsgər Kalvayı İrvahamdan soruşdu:

-A Kalvayı, bu sözləri kimdən göndərəcəksən?

-Molla Əli ilə bərabər özüm aparacağam.

-Aparıb kimə verəcəksən?

-Düz Şair Nağının özünə.

-Yox Şair Nağıya verməyin; Özgə adama verin. Əgər siz Şair Nağıya versəniz, sözləri üzə çıxartmaz. Amma özgə adama versəniz, camaat eşidəcək, Şair Nağının da qulağına çatacaq.

-Bəs kimə verək?

-O mahalda sazı-sözü qanan, mə'rifətli, qanacaqlı adamlardan Nəsif bəy, bir də Usuf bəy adlı iki qardaş var: aparıb onlara verərsən.

Aşıq Ələsgər fikirləşdi ki, Molla Əligil kağızı oraya çatdırandan sonra söz yayılacaq. Ola bilər ki, Şair Nağı bu sözlərin üstündə

Molla Əligili incidə.

Yaxşısı budur ki, gəl qonaqları amanatla.

Aşıq Ələsgər yenə sazını götürdü, Bəşirə dedi:

-Oğul, kağız-qələmini götür, birini də yaz!

Bəşir kağız-qələmini götürdü. Görək bu dəfə Aşıq Ələsgər nə dedi, Bəşir Nəsif bəylə Usuf bəyə nə yazdı:

Bir şair çıxıbdı Yekəallardan,
Bəyənməyib göyçəlinin kərməsin.
Simeh tapıb, heç qurtarmaz azardan,
Onun dərdin heç gözəllər görməsin.

-Oğul, yazdın?

-Ay Dədə, yazdım.

Aşıq Ələsgər aldı, görək bu bənddə Molla Əligili bəylərə necə tapşırdı:

Birisi molladı, biri kalvayı,
Haqq özü buyurub mehmana sayı.
Adı şair, özü himarın tayı,
İncidib, qonağa zəhmət verməsin!

Molla Əlinin məktubu Aşıq Ələsgərin yadından heç çıxmırdı. Şair Nağının Molla Əligili o məclisdə pisikdirməsi Aşıq Ələsgərə çox yoxuş gəlirdi.

Aşıq Ələsgər aldı görək sözünü necə tamamladı:

Molla Əli naməni yazandan bəri,
Bu söz çox incidir qul Ələsgəri,
Tavaqqam var, Şəmşəddinin bəyləri,
Acıqlanın çal köpəyə, hürməsin!..

Aşıq Ələsgər sazı köynəyinə qoydu, Bəşirə dedi:

–Oğul, Şair Nağının yazdığı həcvin də üzünü köçürt, bu sözlərin içinə qoy. Nəsif bəygil bilsinlər ki, bu sözlər onun cavabıdır.

Bəşir Şair Nağının yazdığı sözün də üzünü köçürtdü, Kalvayı İrvahama verdi. Kalvayı İrvaham yenə kisəsini çıxartdı, bu kağızları

da kisənin içinə qoydu.

Elə bil ki, dünya varının hamısını Kalvayı İrvahama bağışlamışdılar. İstədi ki, yola düşə, qoymadılar ki, axşamdı. O gecə keçdi, şəhər hamınızın üzünə xeyirliklə açılsın, səhər açılan kimi Kalvayı İrvaham yol başladı Ağbulağa. Ağbulaqdan Molla Əlini də götürdü, Şəmsəddin mahalına getdilər. Nəsif bəylə Usuf bəyi tapdılar, kağızı verdilər, başlarına nə gəlmişdisə, başdan ayağa hamısını bunlara danışdılar.

Nəsif bəygil şair Nağını çağırtdırdı. Fikirləşdilər ki, birdən başqa adam "Şair Nağı" adı ilə o həcvi yazmış olar, nahaq yerə bunu incidərik.

Nəsif bəy dedi:

–Şair Nağı, eşitmişik, Göyçəyə bir yaxşı həcv deyibsən; onu oxu, qulaq asaq!

Şair Nağı elə hesab elədi ki, həcv onların xoşuna gəlib. Ona görə yazdığı həcvi ürəkli-ürəkli oxudu.

Usuf bəy hirsli-hirsli dilləndi:

–İndi qulaq as, gör Aşıq Ələsgər sənə nə yazıb?

Aşıq Ələsgərin göndərdiyi sözləri oxudular. Şair Nağı qıpqırmızı qızardı. Usuf bəy Aşıq Ələsgərin sözünün bir bəndini təkrar bir də oxudu:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, ay səmi diraz!
Kar çıxmaz qovğadan, qaldan, danışma!

–Şair Nağı, get, bu sözləri yadında yaxşı saxla! Bir də belə iş tutsan, qulağından elə dartaram ki, "səmi diraz" olarsan!

ANAXANIMIN KÜSMƏYİ

Aşıq Ələsgər Eldar yaylağından təzəcə Ağkilsə kəndinə qayıtmışdı. Camaat yığılıb, onun yanına gəldi. Aşıq Ələsgər başlarına nə gəlmişdi, hamısını danışdı. Şəyirdi Aşıq Usuf Aşıq Ələsgər bu səfərində nə qədər söz demişdisə, hamısını əzbərləmişdi. O, sazı köynəyindən çıxartdı, ustadının qızlara, gəlinlərə dediyi tə'rifləri oxudu, camaata ləzzət verdi. Aşıq Ələsgərin arvadı Anaxanım da bu tə'rifə çox diqqətlə qulaq asdı.

Aradan iki gün keçdi. Elə ki, axşam oldu, çıraqlar yandı, Aşıq Ələsgər sazın açılan simlərinin yerinə təzəsini qoşdu. Saz nizamlanandan sonra Anaxanım dedi:

– Ələsgər, gəzmədiyin yer qalmadı, tə'rif demədiyin də gözəl. Nə olar, mənə də bir tə'rif deyəsən!

Aşıq Ələsgər zarafatla dedi:

– Anaxanım, tə'rif dediyim gözəllər mənə xələt verir, sənə tə'rif desəm, mənə nə verərsən?

– Evimdə nə var, ondan.

– Onda dur, bir ballı qayğanaq bişir yeyim, huşum cəmləşsin, deyim.

Aşıq Ələsgər belə deyən kimi Anaxanım yerindən durdu, ocağı qaladı, bir tava qayğanaq bişirdi, dəridən beçə balı çıxartdı, qayğanağın üstünə tökdü, külfətçiliklə yedilər. Çay gətirdi, içdilər, sonra sazı Aşıq Ələsgərə verdi. Aşıq Ələsgər sazı aldı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, görək arvadını necə tə'riflədi:

Ala gözlü, nazlı dilbər,
Elindən xəbərin varmı?
Dörd bir yanın bağça, söyüd,
Gülündən xəbərin varmı?

Elə ki, Aşıq Ələsgər sözün bu bəndini oxudu, Anaxanım iki dəfə "sağ ol" dedi. Aşıq Ələsgər gülümsündü:

– Arvad, bu da olsun sənin tə'rifin.

– A kişi, sözü yarımçıq qoymayacaqsan ha! Hələ nə deyibsən ki!? Qalanını de.

Aşıq Ələsgər gördü Anaxanım əl çəkmir, götürdü o biri bəndini:

O zaman ki, gəldim sizə,
Mayıl oldum qaşa, gözə,
Zibilin çıxıbdı dizə,
Külündən xəbərin varmı?

– A kişi, deyəsən axı, burasını yaxşı demədin? Zibil nə idi ortalığa qatdın!?

– Arvad, söz düz gəlmirdi, ona görə elə dedim.

– A kişi, sən Allah, sabah onun orasını düzəlt. El içinə çıxası deyil.

– Baş üstə, sabah bir qayğanaq da bişirərsən, düzəldərəm. Ancaq gəlsənə daha demiyəm. Huşum yaxşı gətirmir, qorxuram yaxşı deyə bilmərəm.

– A kişi, qorxma, de. Amma bu dəfə yaxşı de!

Aşıq Ələsgər aldı o biri bəndini:

O və'də ki gəlin oldun,
Qabırğası qalın oldun,
Qaynanana zalım oldun,
Dilindən xəbərin varmı?

Bu bəndi deyəndə Anaxanımdan başqa hamı gülüşdü.

Aşıq Ələsgər götürdü o biri bəndini:

Daha düşübsən hənəkdən,
Suyun qurtarıb sənəkdən,
Məmən çıxıbdı köynəkdən,
Tulundan xəbərin varmı?

Bu bəndini deyəndə yenə bərk gülüşdülər. Anaxanım lap pərt oldu. Üst-başına baxanda gördü ki, uşağı əmizdirəndən sonra köynəyin yaxası açıq qalıb. Yaxasını düymələyəndən sonra acıqlı-acıqlı dilləndi:

– Daha mən bu evdə dura bilmərəm; kağızımı ver, çıxıb gedəcəm! Otuz ildir, sənə ev düzəldirəm, uşaq saxlayıram; bu da mənim

eylədiyimin əvəzi!.. Evindən bir şey də aparmaram; dədəm evindən gətirdiyimi sabah bir ulağın belinə qoy, məni yola sal, gedəcəm!

Aşıq Ələsgər Anaxanımın xətrinə dəydiyini bilirdi. Amma onun bu sözlərini gerçək hesab eləmədi, aldı o biri bəndi:

Ələsgərlə çəkmə dava,
Ariflər baxsın hesaba;
Cehizindir qırıq tava,
Malından xəbərin varmı!?

Elə ki, söz tamama yetişdi, Aşıq Ələsgər gördü ki, Anaxanımın halı hal deyil, dedi:

– Arvad, mən sənə dedim ki, huşum gətirmir, razılaşmadın.

– Anaxanım dinib cavab da vermədi.

– Anaxanım iki gün küsülü durmüşdü ki, qardaşı Kərbəlayı Zeynal gəlib çıxdı. Amma Anaxanımın Ələsgərdən küsülü olduğunu bilmədi. Sabahısı kovxa Aşıq Ələsgəri çağırtdırdı. Bu zaman Kərbəlayı Zeynal da getməyə hazırlaşdı. Anaxanım qardaşına dedi:

– Mən də gedəcəyəm.

Sual-cavabdan sonra Zeynal məsələni başa düşdü, bacısını çox danladı, öyüd-nəsihət verdi, olmadı. Qəsdən yubandı ki, bəlkə, Aşıq Ələsgər gələ çıxa. Amma Aşıq Ələsgər gəlmədi ki, gəlmədi. Əlacı kəsildi, yola çıxmalı oldular.

Günortadan xeyli keçmiş Aşıq Ələsgər evə gəldi. Gəldi gördü ki, nə Kərbəlayı Zeynal var, nə də Anaxanım...

Anaxanım elə hirslənmişdi ki, kiçik oğlu Talıbı da nənnidə qoyub getmişdi. Aşıq Ələsgərin qardaşı arvadları uşağa baxırdılar. Amma altı aylıq uşağa anasından başqa kim baxa bilər? Uşağın səsi kəsilmirdi. Aşıq Ələsgərin əlacı kəsildi, Kərbəlayı Zeynalgilin dalınca yol başladı Yanşağa. Sazını da götürdü ki, bəlkə, sazın gücünə qaytara. Gethaget, gethaget, Arıqallarda Kərbəlayı Zeynalgilin dalından çatdı. Bir az Kərbəlayı Zeynala məzəmmət elədi. Kərbəlayı Zeynal işarə elədi ki, gör özün yola gətirə bilərsənmi? Aşıq Ələsgər dillə nə qədər dedisə, Anaxanım yola gəlmədi. Aşıq Ələsgər gördü ki, olmayacaq, sazı köynəyindən çıxartdı, görək Anaxanımı qaytarmaqdan ötrü nə dedi:

Gözəllər sultanı, mələklər şahı,
Alagöz cananım, getmə, amandı!
Dərdindən xəstəyəm, çəkirəm ahı,
Ölürəm, loğmanım, getmə, amandı!

Camalın göyçəkdi bayram ayından,
Görən doymaz qamətindən, boyundan.
Layiq deyil qurban kəsəm qoyundan,
Sana qurban canım, getmə, amandı!

Anaxanımın küsməyə haqqı var idi. Gözəllikdə Aşıq Ələsgərin tə'rif dediyi gözəllərdən heç də əskik deyildi. Mə'rifət-qanacaqda da Ağkilsə kəndində bir adam idi. Əlinin işi, qabiliyyəti də çox gözəl, çox səliqəli idi. Bu səbəblərə görə qonu-qonşu onun hörmətini saxlayırdı. Qaynı uşaqları da Aşıq Ələsgərə "dədə" dedikləri kimi, buna da "ana" deyirdilər. Anaxanım Aşıq Ələsgərdən tə'rif istəyəndə elə hesab eləmişdi ki, doğurdan da, onu tə'rifləcəkdir. Tə'rifin əvəzinə onu pisləməsi Anaxanıma xoş gəlməmişdi: "qabırğası qalın oldun, qaynanana zalım oldun" deməsi də ki onu yandırıb-yaxmışdı...

Sözün bu bəndini deyəndə Anaxanım dilləndi:

– Dünəndən bəri "mələklər şahı" olmuşam!? Özünü qurban eləmə ki, qayıdası deyiləm!

Aşıq Ələsgər fikirləşdi ki, gəl günahını boynuna al, de ki, sənə zarafat eləmişəm, bağışla. Aldı görək bu dəfə nə dedi:

Mən sana nə dedim, ay mina gərdən,
Kəsmə məhəbbətin gəl Ələsgərdən,
Günahkar qulunam, salma nəzərdən,
Kərəmli sultanım, getmə, amandı!

Söz tamama yetişdi, Anaxanım yola gəlmədi ki, gəlmədi. Kərbəlayi Zeynal da nə elədi, olmadı. Kərbəlayi Zeynal Aşıq Ələsgərə dedi:

– Ələsgər, indi qayıtmağından keçdi. Qoy kəndə çatsın, qonu-qonşu bir az danlasın, sən də sabah gəl, görək nə edirik.

Kərbəlayı Zeynal ilə Anaxanım Yanşağa getdilər, Aşıq Ələsgər

Qanlıkəndə qayıtdı. Gecə Qara Mərdanın evində qaldı. Sabah açılanda sazını da götürdü, üz qoydu Yanşağa.

Aşıq Ələsgər birinci dəfə idi ki, Anaxanımın xətrinə dəymişdi. O da zarafat eləmişdi; elə bilmişdi ki, o da bu sözə güləcək, çıxıb gedəcək. Nə biləydi ki, bu sözün, bu zarafatın üstündə başına nə həngamə gələcək. Arvadlar var ki, gündə əri döyür, söyür, sabah da yadından çıxardır...

Aşıq Ələsgər gəlib Yanşağa yetişəndə gördü ki, Kərbəlayı Zeynal qapıda onun yolunu gözləyir. Görüşdülər, içəri keçdilər. Aradan bir az keçmədi ki, Aşıq Ələsgərin gəldiyini eşitdi, camaat da yığışdı. Hamı işdən halı oldu. Nə qədər öyüd-nəsihət elədilərsə, Anaxanım yola gəlmədi. O, evin bir küncündə yönü o tərəfə oturmuşdu; heç Ələsgərin üzünə də baxmırdı. Axırda Aşıq Ələsgərin əlacı kəsildi, sazı köynəyindən çıxartdı, görək bu dəfə Anaxanıma nə dedi, oradakılar nə eşitdilər:

A bimürvət, axı səndən ötəri
Ah çəkməkdən bağrım qana dönübdü!
Qədd əyilib, gül irəngin saralıb,
Xəzan dəymiş gülüstana dönübdü!

"Sağ ol"un biri bir qəpiyə çıxdı. Amma Anaxanım dinib danışmırdı. Aşıq Ələsgər aldı o biri bəndini:

Dindirirəm, danışmırsan, gülmürsən,
Xəbər alıb, ev halını bilmirsən,
Endiribən məclisimə gəlmirsən,
Yoxsa taxtın Süleymana dönübdü?!

Dal gərdəndə siyah zülfün hörübsən,
İnkar eyləməynən, ilqar veribsən,
Yazıq Ələsgərdən üz döndəribsən,
Ya baxt yatıb, ya zamana dönübdü.

Elə ki, söz tamama yetişdi, Anaxanım ağladı. Doğurdan da, bu vaxta qədər Aşıq Ələsgərlə Anaxanım çox məhəbbətli dolanmışdılar. Aşıq Ələsgərin "üz döndəribsən", "baxt yatıb" deməyi

Anaxanımı ağladırdı. Ustadın fikri də ki, Anaxanımı heç rahat olmağa qoymurdu. Anaxanım üzünü Aşıq Ələsgərə tutub soruşdu:

– Görəsən uşaq necə oldu!?

– Nə bilim, mən də sənlə bərabər evdən çıxmışam. Mən evə gələndə gördüm ki, ağlayır. Öydən çıxanda da çırçır çığırırdı.

Bu dəfə Anaxanım Aşıq Ələsgərdən bərk tələsməyə başladı. Camaat dağılan kimi, Anaxanımla Aşıq Ələsgər Yanşaqdan Göyçəyə yol başladılar.

Mənim əzizlərim, Qarabağın Qərvənd camaatı Söyüdlü yaylağında idi. Qərvənddə Zamanxan oğlu Məşədi Qara ilə Aşıq Ələsgər sığə qardaş idilər. Qara da həmişə yaylağa çıxardı.

Söyüdlüyə yaxınlaşanda Aşıq Ələsgər dedi:

Arvad, gəl bu tərəfki yol ilə gedək.

– A kişi, niyə?

– Əgər bura ilə getsək, bizi tanıyacaqlar, yubanacayıq.

Aşıq Ələsgərgil bu biri yol ilə getməkdə, Zamanxan oğlu Məşədi Qara da həmin yol ilə Göllər yaylağından Söyüdlü yaylağına gəlməkdə; birdən-birə qabaqlaşdılar. Xoş-beş, on beş...Görüşdülər. İş tərs gələndə gəlir. Əgər düz öz yolları ilə getsə idilər, bəlkə də, heç tanıyana rast olmayaydılar.

Məşədi Qara Aşıq Ələsgərgili məcburən öz alaçıqlarına apardı. O saat bir heyvan kəsdi, yaxşı kabab bişirdilər. Sizdən də xoş, yedilər, içdilər, axşam oldu. Obadakı adamlar Aşıq Ələsgərin gəldiyini eşitdi, Qaranın alaçığının qabağına toplaşdı. Aşıq Ələsgər sazını köynəyindən çıxartdı, bir-iki qatar oxudu. Sonra sazını köynəyinə qoydu, dedi:

-Bağışlayın, bir az yorulmuşam.

Oradakı adamlar bir az da o yandan - bu yandan söhbət elədi, sonra çıxıb hərəsi öz alaçığına getdi.

Aşıq Ələsgər gördü ki, bunlar buraya gələndən bir gəlin qonaqlara qulluq eləyir; həm çox gözəldir, həm də çox mə'rifətlidir.

Məşədi Qara üç alaçıq qurmuşdu. Biri qonaq alaçığı idi, o birilərində özləri olurdu. Yatmaq zamanı gələndə həmin gəlin gətirdi qonaq alaçığına iki yer saldı. Birini Aşıq Ələsgərə, birini də bir özgə qonağa. Anaxanım o biri alaçığda rahat oldu.

Aşıq Ələsgər yatağına uzandı, amma yatmadı, evin fikrini eləyirdi. Bir kişi də gəldi o biri yerin üstünə. Dalınca da həmin gəlin

gəldi, onun qulağına pıçıldadı:

– Aşıq Ələsgərdən ayıbdır; mən o biri alaçıqda yatım.

Kişi yaşlı idi, gəlin cavan. Sən demə, gəlin bu kişinin arvadı imiş. Kişi dedi:

– Mən Aşıq Ələsgər-zad qanmıram. Mən harda yatıram, sən də orda yatacaqsan.

Kişinin bu sözlərini Aşıq Ələsgər də eşitdi. Gəlin çox xəcalətləndi, alaçığın qapısından çıxdı. Kişi elə hesab elədi ki, arvadı onun sözünə baxmadı. Dalınca çıxdı, bir odun parçası götürdü, geridən bunun təpəsinə... Gəlin çığırdı, yıxıldı. Gəlinin çığırtısına o biri alaçıqdan gəldilər. Gördülər ki, gəlin bu ilmi ölüb, bildirmi. Özündən gedib. Gəlinin üzünə su səpib ayıltdılar. Aşıq Ələsgərdən başqa, heç kəs bilmədi ki, kişi gəlini nə üstə bu kökə salıb. Bir qədər kişini danladılar. Dərd Aşıq Ələsgərin ürəyini dağıdırdı. Ara sakit olandan sonra baş tərəfdən sazı götürdü, sinəsinə basıb, görək nə dedi:

Kamil ovçu ölməyincə usanmaz,
Əldən qoymaz belə sərxoş maralı.
Eşq oduna düşən aşkara yanmaz,
Pünhan-pünhan mənim kimi saralı.

Sazın səsi gələndə yenə Aşıq Ələsgərin başına toplaşdılar. Bir kişi dedi:

– Aşıq Ələsgər, bəs bayaqdan deyirdin yorulmuşam; bu nə söhbətdir?

– Bu söhbət özümündür, dərdimi danışıram. İstəyirsiniz, siz də qulaq asın.

Aşıq Ələsgər aldı sözün o biri xanəsini:

Öldürsələr, qorxum yoxdu qanımdan,
Yolunda durmuşam başu canımnan.
Tərk oldum vətəndən, xanimanımdan,
İnsaf deyil, gəzmə məndən aralı!

Aşıq Ələsgərəm, söylənir adım,
Budur ürəyimdə mətləb-muradım:

Sənin ərin ölsün, mənim arvadım,
İkimiz də qalaq yaslı, yaralı!

Aşıq Ələsgər sözü tamam eləyəndən sonra sazı köynəyinə qoydu. Yenə hərə öz alaçığına getdi.

Sabah açılan kimi Aşıq Ələsgər yerindən durdu. Anaxanımı çağırdı ki, getsin. Anaxanım alaçıqdan çıxıb cavab vermədi. Elə hesab elədi ki, Anaxanım hələ yuxudan ayılmayıb. Amma ilan vuran yatmışdı, Anaxanım yatmamışdı; heç paltarını da soyunmamışdı. Aşıq Ələsgər o biri alaçığın qapısına yaxınlaşdı, bir qədər də ucadan səsləndi:

– Arvad, dur gedək!

İçəridən Anaxanımın acıqlı səsi eşidildi:

– Mən gedəsi deyiləm!

– Əşi, dəli olma, dur gedək!

– Əgər dəli olsam, mən də öz ərimlə xalxın arvadına qarğayardım.

Aşıq Ələsgər bildi ki, azar arvadın harasından dəyib. Özünü o yerə qoymadı, dedi:

– Nə qarğamaq, nə filan, dur gedək. İndi çağa öldü.

Anaxanım çox hirslənmişdi. Aşıq Ələsgər nə qədər yalvar-yaxar elədi, olmadı. O daha bir kəlmə də dinib, Aşıq Ələsgərə cavab vermədi. Aşıq Ələsgər gördü ki, yaman pis yerdə axşamlayıb. Fikirləşdi ki, yenə, bəlkə, Anaxanımı saz ilə yola gətirə. Anaxanımın könlünü almaqdan ötrü görək bu dəfə "İran gəraylısı" havası ilə nə dedi, səhər tezədən ayılanlar nə eşitdilər:

Gəl, ey mehri-məhəbbətim,
Üzün məndən niyə döndü?
Ağzı şəkər, ləbi qəndlim,
Üzün məndən niyə döndü?

Anaxanım yenə dillənmədi. Aşıq Ələsgər aldı o biri bəndini:

Ayrılıqdan ölüm yeydi,
Həsrətin qəddimi əydi.

Nə dedim, xətrinə dəydi,
Üzün məndən niyə döndü?

Aşığa yoxdu qadağa,
Müştaqdı dilə, dodağa.
Ələsgər sana sadağa,
Üzün məndən niyə döndü?

Söz Anaxanımın heç halına da tə'sir eləmədi. Aşıq Ələsgər cavab vermək əvəzinə, üzünü Məşədi Qaraya tutub dedi:

– Qara qardaş, səni and verirəm Allaha, gör Yanşaq tərəfə gedən varmı; mən qayıdacam.

Aşıq Ələsgər gördü ki, ayrı nə desə, qayıdası deyil; bircə çarəsi qalıb ki, o da günahını boynuna alıb, üzr istəməkdir. Aldı görə bu dəfə Anaxanıma nə dedi:

Ala gözlüm, səndən ayrı düşəli,
Hicranın qəmiylə kef eyləmişəm.
Ah-vay ilə günüm keçib dünyada,
Qəm satıb, dərd alıb, nəf eyləmişəm.

Səndən ayrı şad olmuram, gülmürəm,
Canımdan bezmişəm, ölə bilmirəm.
Nə müddətdi qulluğuna gəlmirəm,
Bağışla təqsirim, səf eyləmişəm.

Anaxanım dilləndi:

– Məndən ayrı ki, gülmürdün, bəs axşam dediklərin nə idi? Niyə mənə qarğayırdın?!

Aşıq Ələsgər gördü ki, özgə sözü yoxdur, aldı görək Anaxanıma nə cavab verdi:

Həsrət qoyma gözü gözə, amandı!
Yandı bağrım, döndü közə, amandı!
Keçən sözü çəkmə üzə, amandı!
Hədyan danışmışam, laf eyləmişəm.

Anaxanım bu dəfə üzünü Aşıq Ələsgərə tərəf çevirib, dedi:

– Yaxşı, mənə qarğayırdın, qarğayırdın; bəs o kişiyə niyə qarğayırdın?

O ki səni bir ziyana salmamışdı!?

Aşıq Ələsgər aldı, görən Anaxanımın bu sualına nə cavab verdi:

İnsafdımı, gülə həmdəm xar ola!?
Tülək tərlan ovlağında sar ola!?
Ələsgər istər ki, bir bazar ola,
Seçmişəm gövhəri, saf eyləmişəm.

Məni əzizlərim, elə ki, söz zamana yetişdi, Anaxanım gördü ki, Ələsgər günahını boynuna aldı, kişiyə qarğamaqla da könlündən özgə bir şey keçmirmiş, bir az yumşaldı. Evin, uşağın fikri də bir tərəfdən onu Ağkilsəyə meyilləndirdi. Məşədi Qara da xahiş elədi. Anaxanım onun xahişini yerə salmadı.

Aşıq Ələsgər Anaxanım Məşədi Qaragillə xudahafizləşib, Ağkilsəyə yol başladılar.

İndi Aşıq Ələsgərgil Ağkilsəyə gəlməkdə olsun, sizə haradan xəbər verim, Ağkilsədən.

Aşıq Ələsgər Anaxanımın dalınca gedəndən sonra qonu-qonşu hərə bir söz dedi. Kimi dedi: Aşıq Ələsgər Anaxanımı bu gün qaytarıb gətirəcək; kimi dedi: Aşıq Ələsgər Anaxanımı boşayıb gələcək. Bir gün gözlədilər, Aşıq Ələsgər gəlmədi, iki gün gözlədilər, gəlmədi. Üçüncü gün qorxuya düşdülər ki, Aşıq Ələsgərin başına görəsən nə iş gəldi. Salahla Xəlil hazırlaşırdılar ki, dallarınca getsinlər, bir də gördülər ki, Qarabulaq yolu ilə budur gəlirlər. Gəlib evə çatanda Anaxanımın gözü uşağı axtardı. Gördü ki, nənnidə yatıb. Qıyıb qaldırmadı.

Aşıq Ələsgərin zarafatca arvadına söz dediyini, bundan ötrü Anaxanımın küsüb getdiyini camaatın hamısı eşitmişdi. Elə ki, Aşıq Ələsgərgil gəldilər, qonu-qonşu toplaşdı, danışdılar, gülüşdülər... Məşədi Cabbar Anaxanımın qulağı eşidə-eşidə Aşıq Ələsgərə zarafatla dedi:

– Ay Ələsgər, sənə arvadmı qəhəddir!? Bu ki səni bu qədər incidir, boşa, özgəsini al da!..

Bu sözə hamı gülüşdü, Anaxanım dönüb, əyri-əyri ona baxdı.

Aşıq Ələsgər sazı köynəyindən çıxartdı. Sinəsinə basdı, görək buraya yığılanlara nə dedi:

Hərcayının, dilbilməzin ucundan,
Dönə-dönə nə ziyana düşmüşəm!
Doymaq olmaz gözəllərin boyundan,
Pərvanə tək yana-yana düşmüşəm.

Ona qədər uşaq yuxudan ayıldı. Anaxanım onu çox həsrətliklə qucağına götürdü. Elə bil ki, bir ildir ayrılıbdır. Aşıq Ələsgər gördü ki Anaxanımın başı qarışır uşağa, aldı sözün o biri bəndini:

Dövlətim çox oldu, qıymadım pula,
Kor oldu gözlərim, yapışdım dula.
Nə ölür, nə itir, canım qurtula,
Məcnun kimi biyabana düşmüşəm.

Məşədi Cabbar yenə dilləndi:

– Boşa da!.. Bu saat kimi istəsən sənə gələr. Daha niyə biyabana düşürsən ki!?

Anaxanım gördü ki, Aşıq Ələsgər zarafat eləyir, dedi:

– Boşayaydı da!.. Çıxıb dədəm evinə getmişdim ki!

Aşıq Ələsgər aldı sözün axırıncı bəndini:

Ələsgərəm, incimişəm yarımdan,
Aləm yatmaz mənim ahü-zarımdan.
Boşasam, qorxuram oğlanlarımdan,
Boşaya bilmirəm, qana düşmüşəm.

Elə ki, Aşıq Ələsgər sözünü tamam eylədi, məclisdəkilərin hamısı gülüşdü. Bildilər ki, Aşıq Ələsgər bu sözü zarafatla deyir; arvadını boşamaq heç onun fikrinə də gəlməz.

Aşıq Ələsgərlə Anaxanım ömürlərinin axırlarına qədər bir-biri ilə məhəbbətli dolandılar. Siz də həmişə yoldaşınızla məhəbbətli olasınız, Aşıq Ələsgərgil kimi uzun ömür sürəsiniz.

ÇOVAN MƏHƏMMƏDİN QARS SƏFƏRİ

Qulluğunuza hardan ərz eliyim, kimnən danışım, Göyçə mahalının Ağkilsə kəndinnən, Aşıx Ələsgərin qardaşı Çovan Məhəmməddən. Ustaddar dediyinə görə, Qarsnan böyük şəhərrər arasında yol çəkmək üçün hər mahaldan köməyə adamlar yığırdılar. Qars şəhərinin böyüyü olan Almurad bəy Göyçə mahalına, Səmənd ağanın üstünə də qasidnən məhtuf göndərir və onnan 100 nəfər cavan adam göndərməyi xahiş eliyir. Səmənd ağa elin-ovanın qavaxcıl, sözü keçən adamlarını yanına çağırıf məsdahat eliyir. Toflaşannar Qarsa göndərmək üçün hər kənddən bir neçə cavan oğlanı, o cümlədən Məhəmmədi məsləhət görüllər. Məsdahat-məşvərətdən sonra onnar Alməmməd kişiyi çağırtdırıf deyillər ki, biz belə fikirrəşmişik ki, Çovan Məhəmməd o gedən adamların üstündə ağsaqqallıx eləsin. Çünki Məhəmməd həm dilavərdi, həm də qoçax oğlandı.

Alməmməd kişi deyir:

–Bu işi mən Ələsgərə deyərəm, o nejə istəsə, elə də olar.

Ələsgər Məhəmmədi yanına çağırıf deyir ki, Səmənd ağa səni Qarsa gedən adamlara böyük seşmək istiyir. O, Göyçə mahalının ən hörmətdi ağsaqqallarınnan biridi. Onun sözünü yerə salmax olmaz.

Bəli, 100 nəfər cavan oğlan Qarsa yola düşür. Qarsda onnarı çox yaxşı qarşılıyıf, hər biri üçün gözəl şərait yaradıllar. Bir neçə günnən sonra bunnar işə başdıyıllar. Bunnarın bütün bazarrığı, lazım olan alış-verişdəri Məhəmmədə tafşırılmışdı.

Bir gün Çovan Məhəmməd Qars şəhərinə çıxmışdı. O, görür kü, şəhərin adamları bir meydançaya tərəf axışır. Birinnən soruşur:

–Əfəndim, bu camaat, nəyə görə buraya yığılıf?

O deyir:

–Dağıstannan Səlmi Xuraman adında bir aşıx gəlif. Qars vilayətində nə qədər aşıx-şayır varsa hamısını dilitəng eliyif, özdərini də qul kimi aparıf gedəjək. İndi axırıncı gündü kü, meydanına aşıx və şayır istiyir.

–A qardaş, mən də orda iştirak eləmək istiyirəm. Məni orya qoyallarmı?

Onu biz bilmirik. Onu Almurad bəyə deyərsən.

Həmsöhbəti deyir:

–Bax odu, Almurad bəy faytonunda gəlir. Ona deyərsən.

Məhəmməd şəxsiyyətli oğlanıydı. Faytonun qavağına gəlif əl qaldırdı. Almurad bəy gördü kü, bu Qafqazdan gələn adamlardandı.

Almurad bəy dedi:

–Buyur, oğlum, nə deyirsən?

Bəy, sizdən xahiş edirəm, məni də özünüznən aparasınız.

Bəy gülümsüyüf, dedi:

–Mən getdiyim yerə bəlkə sən layıx döyülsən?

–Bəy, mən yaxşı başa düşürəm ki, sən bir maraxlı yerə gedirsən?

Almurad bəy dedi:

Oğlum, orada gərək sazdan-sözdən başı çıxan adam olsun.

–A bəy, mənim də bir balaca şayırrığım var, inşallah sizi utandırmaram.

Almurad bəy dedi:

–Mən onsuz da utanmışam. Mənim indiyə qədər neçə-neçə aşıxlarım bağlanıf. Bir zalım dilavər ləzgi qızı Səlmi Xuraman onnarın sazdarını əlinnən alıf. Oğlum, adın nədi?

–Bəy, adım Çovan Məhəmməddi.

–Hə, yaxşı oldu. İndi də meydana çovan çıxardax.

–Bəy, inşallah səni utandırmaram.

Almurad bəy dedi:

–Onda belə eliyək. Sən çalışarsan ki, mənim gözümün qavağında oturasan. Nə vaxtkı o, meydanına şayır, aşıx istədi mən səni çağıraram. Onda sən meydana gələrsən. Gəl otur faytona.

Allaha pənah deyif, meydançaya daxil oldular. Meydanda Məhəmməd gördü kü, bir dar ağacı quruluf. Bu dar ağacının yanında bir neçə aşıx əllərində sazdarı, boyunnarını büküf duruflar.

Burada iki oturmax stolu varıydı. Biri qızıl zərnən yazılmış stoluydu. Çovan Məhəmməd gördü kü, bunnar bağlanan aşıxlardı. Almurad bəyin başında paşalar, bəylər, ağalar oturmuşdular. Ancax Almurad bəy öz-özünə deyinirdi ki, ağlım məni bitməz işə salıf. İndi də çovanı meydana çıxardası olajayıx. Bir azdan sonra Səlmi Xuraman əlində sədəfli saznan meydana girdi. Camaat onu alqışdadı. Səlmi Xuraman üzünü Almurad bəyə tutuf dedi:

–Almurad bəy, indi sənin aşıxlarını əsir kimi aparıf gedirəm. Yenə aşığın, şayırın varsa meydanıma çıxar.

Almurad bəy dedi:

–Onnar elə-belə aşıxlarıydı. İndi sənin meydanına şayır çıxajax.

– Kimdi, o çıxsın görək?

Almurad bəy dedi:

–Çovan Məhəmməd, bir meydana gəl görək.

Səlmi Xuramanın sümüyü bir balaca sanşdı. Ürəyində dedi: bu məni nə hesav eliyir, bura çovan-çolux meydanıdı?

Bir də gördü kü, meydana bir boylu-buxunnu, ennikürəkli bir oğlan çıxdı. Oğlan, nə oğlan. Elə bil Allah əlinin boş vaxtı – könlünün xoş vaxtı xəlq eliyif onu.

Sizə onu da deyim ki, Səlmi Xuramana şayırrıx hardan gəlmişdi. Səlmi Xuraman əmisi oğluna nişannı olan zaman əmisi oğlu qılınc oynadan vaxtı həlak olmuşdu. O vaxtdan Səlmi Xuramana təb gəlmişdi. İndi isə Çovan Məhəmmədi görəndə elə bildi ki, əmisi oğlu dirilif. Elə bil ki, bir almanın yarısıydılar. Ürəyində dedi:

–Allah eliyə ki, bunda bir balaca qeyrət ola, mənim yığıf-yığışdırdığım qızıl pullar buna qismət ola, üstəlik də mən.

Səlmi Xuraman bunnarı qəlbində deyirdi. Çovan Məhəmməd meydana gələndə bağlanan aşıxlar dedilər:

–Ayə, bu evi yıxılmış haradan gəldi. Sayımızın biri də artdı.

Çovan Məhəmmədnən Səlmi Xuraman əltəmən oluf görüşdülər.

Səlmi Xuraman dedi:

–Oğlan, deyişmənin şərtdərini bilirsənmi?

Çovan Məhəmməd dedi:

–Xanım, deyərsən bilərik, nə şərtdi!

Səlmi Xuraman dedi:

–Şərt budu ku, bağlansan dar ağacınnan asılajaxsan. İkinci şərt də budu ku, mən səni bağlasam, istəsəm boynunu vurduraram, istəsəm bağışdıyaram.

Çovan Məhəmməd dedi:

–Xanım, bunnarın hamısı sənin şərtin oldu.

Səlmi Xuraman dedi:

–Kim məni bağlasa, ixtiyarım onda olajax. İstəsə qul eliyər, istəsə boynumu vurdurar, istəsə özünü yar eliyər. Üstəlik bu mücrüdə nə qədər qızıl pul var, o da onun olar.

Bunnar razılaşdılar. Bunnar sazın zilini zil, bəmini bəm eliyif, sinələri üstə müstəkəm elədilər.

Səlmi Xuraman dedi:

–Oğlan, qavağa sən düşürsən, yoxsa mən.

Çovan Məhəmməd dedi:

–Xanım, bizim yerdə zənənə böyük hörmət var.

Səlmi Xuramanın bir balaca sümüyü sanşdı ki, bu çovan-zad deyil. Özünə güvənməsə bu belə deməzdi. Sizə onu da deyim ki, Almurad bəy bu işin necə bitməsini düşünürdü.

Səlmi Xuraman sazı sinəsinə basıf, aldı görək nə dedi:

Əcəm oğlu, de bismillah,
Ayeyi Qur'annan danış.
Çəkif düsərli qılıncı,
Əntəri vurannan danış.

Aldı Məhəmməd:

Xanım, soruşma Qur'anı,
Mənəm pürkamaldan danış.
Qoynundu lə'lin mə'danı,
Simi zənəxdannan danış.

Aldı Səlmi Xuraman:

Oğlan, irahını tanı,
Danışma belə hədyanı,
Ortalığa salma qanı,
Lal kimi durannan danış.

Aldı Məhəmməd:

Sözümü sayma hədyana,
Bağrımı döndərmə qana.
Şamına ollam pərvana,
Alışıf-yanannan danış.

Səlmi Xuraman üzünü Almurad bəyə tutuf dedi:

–Bu çovanına deginən bir az da ədəfli danışsın.

–Xanım, o nə dedi ki..?

Bunun deməyinnən belə çıxır ki, mən bunun üçün şamam, bu da mənim pərvanəmdi, başıma dolanır.

Dedi:

–Xanım, mən iki aşığın söhbətinə qarışası döyüləm. Nə desəniz, neyləsəniz, o sizin öz işinizdi.

Məhəmməd dedi:

–Xanım, pərvanə şamın başına dolana bilirsə, mən cannı adam bir gözəlin başına niyə dolanmıyım?! Sənin kimi gözəlin oduna da yanaram, belə külünə də qarışaram!

Almurad bəyin bir gülünnən min gül açıldı. Özünü saxlıya bilmiyif ucadan dedi:

–Əhsən, bunnan belə sana çovan yox, alim Məhəmməd deyərəm.

Bu arada aldı Səlmi Xuraman görək nə dedi:

Sən Səlmiyə olma mayıl,
Ağlını eyləmə zayıl.
Yatıfsan, qəflətdən ayıl,
O darı qur'annan danış.

Məhəmməd dedi:

–Xanım, bizdərdə dar ağacını atı, öküzü nallamax üçün qurullar. Sən deyən biz tərəfdə keşmir. Eşit, gör mən nə deyirəm?!

Aldı Məhəmməd:

Məhəmməd deyər aşkara,
Könlüm qoyma intizara.
Dilimnən çəksələr dara,
Səlmi Xuramannan danış.

Səlmi Xuraman dedi:

–Oğlan, çox diri-diri danışırsan. Bax, o aşıxlar da sənin kimi danışırdı. İndi lal oluflar.

–Xanım, ölü olsam yüz qəbirstannıx keçmişəm, birində də məni basdırardılar.

Almurad bəy dedi:

–Xanım, indi icazə ver, birini də o desin.

Belə deyillər ki, adın nədi? Rəşid. Birni de, birni eşit.

Səlmi Xuraman dedi:

–Buyursun, desin.

Aldı Məhəmməd:

Xanım bağışda təqsirim,
Bir xam xəyala düşmüşəm.
Abdal oluf, ağlım çaşıf,
Mən bu mahala düşmüşəm.

Almurad bəy dedi:

–Bu zalım oğlu nə tez yumşaldı.

Aldı Səlmi Xuraman:

Sən dilinə ver qadağa,
Qoy xam xəyala düşməsin.
Yazığın gəlsin canına,
Min dərdə, bəla düşməsin.

Məhəmməd gördü Almurad bəyin rəngi bir balaca soluf. Aldı görək sözün o biri xanəsində nə dedi:

Rəngindi dağlarda lala,
Dəhan kövsər, göz piyala.
Zənbur kimi edər nala,
Ləbində bala düşmüşəm.

Səlmi Xuraman yenə də üzünü Almurad bəyə tutuf dedi:

–Sənin çovanın yenə də zayıllıyır.

–Xanım, nə dedi ki?

Səlmi Xuraman dedi:

–Guya mənim dodağım arı şanıdı, bu da mənim dodağıma qonuf ku, şirə çəksin.

Almurad bəy dedi:

–Mən sizin işinizə qarışmıram. Özünüz bilərsiniz.

Məhəmməd dedi:

–Ay xanım, mən bir çivin qədər də olmadım ki, şirə yerini bilmiyəm?

Aldı Səlmi Xuraman:

Gəlifsən biyara Qarsa,
Eylə vəsiyyətin varsa,
Boynunu vurdurram tərsa,
Səsin mahala düşməsin.

Aldı Məhəmməd:

Məhəmməd ərz eylər fərman,
Bulunmaz dərdinə dərman.
Bu meydannan can qurtarsan,
Bir daha qala düşməzsən.

Məhəmmədin iş yoldaşdarı gördülər ki, ayə, bu günorta nahara da gəlmədi. Fikirrəşdilər ki, görəsən bu zalım oğlu nə qalmağala düşdü, başına nə gəldi? Bunu bir-bir, iki-bir axtarmağa getdilər. Gördülər ki, Qarsın böyük bir meydanına bütün şəhər əhli toplaşıf. Məhəmməd də sinəsində saz, bir xanımnan qavax-qavağa deyişir. İşarə elədilər ki, bu nədi belə? Məhəmməd işarəynən bunnarı başa saldı kı, gedin güldən-zaddan gətirin. Məhəmməd oxuduxca yoldaşdarı "sağ ol, Çovan Məhəmməd deyif" onu ruhlandırırdılar.

Səlmi Xuraman başa düşdü kü, bunnar Qafqazdan gələn adamlardı. Səlmi Xuraman meydanı yenə ələ alıf, qavağa düşdü.

İstiyir ki, səni qoya kamana,
Uzaq bir diyara ata gözdərim.
Günahkar qul kimi tutuf qolunnan,
Aparıf Hələfdə sata gözdərim.

Aldı Məhəmməd:

Deginən o qədər havalanmasın,
İndi tapar böyük xata gözdərin.
Mən ona astadan layla çalaram,
Süst olub, məst olub yata gözdərin.

Aldı Səlmi Xuraman:

Çağır gəlsin indi qohumun-yadın,
Yığılsın yanına əvə-əjdadın.

Alajam canını, mənəm cəlladın,
Qoymaram məqsədə yetə gözdərim.

Aldı Məhəmməd:

–Xanım, sərtdik dəhşət yaradır, bilirsənmi? Çox yekələnmə. Eşit, gör, bə mən neyliyərəm.

Aldı Məhəmməd:

Axır şər danışan tapajaxdı şər,
Əyri quyu qazan özü tez düşər.
Şahmar tək çalaram üfürlüf şişər,
İstəsə yekəlik sata gözdərin.

Aldı Səlmi Xuraman:

Səlmi deyər səni al eylərəm mən,
Qiymətini qara pul eylərəm mən.
Yandırıf axırda kül eylərəm mən,
Tüstünü dumana qata gözdərim.

Aldı Məhəmməd:

Məhəmməd gündüzün eyliyər gejə,
Düşərsən qiymətdən, gəlməzsən vecə,
Bir gəliş gələrəm sana indicə,
Bata əqli-huşun, çaşa gözdərin.

Səlmi Xuraman ürəyində dedi:

–Əhsən, bərəkallah, boy-buxununa görə Allah buna qabiliyyət də verif.

Aldı görək sözün o biri xanəsində nə dedi:

Əcəm oğlu nə mərd durdun,
Sözünü mərdanə dedin,
Xof etmədin ölümünnən,
Qıydın şirin cana, dedin.

Aldı Məhəmməd:

Yaranmışa ölüm haxdı,
Möhtahdı insana dedim,
Can alansan al canımı,
Sən bat nahax qana, dedim.

Səlmi Xuraman yenə də ürəyində düşündü:

–Allah əmim oğlunu mənnən alsa da, qismətimə görünür elə bunu çıxardıf.

Aldı görək sözü o biri xanəsində nə dedi:

Pakım yox sultannan, xannan,
Baratım var asimannan,
Mə'lum ku, bezmisən cannan,
Ya sözü əfsana dedin.

Aldı Məhəmməd:

Desən canımnan əl çəkim,
Ölümnən olarmı pakım.
Çoxdu dərdim, yoxdu həkim,
Yetirər dərmana dedim.

Aldı Səlmi Xuraman:

Səlmi deyər əslim xandı,
Sakinətim Dağıstandı,
Bəs sənin əslin hardandı,
And verdim qur'ana de, din.

Aldı Məhəmməd:

Məhəmməd Göyçə adamı,
Pərvanələr sevər şamı.
Nəslimiz şairdi hamı,
And verdin qur'ana, dedim.

Məhəmməd də öz-özünə fikirrəşirdi ki, görünür məni buraya qismət çəkif gətirif. Elə bu yerdə Almurad bəy Səlmi xanıma dedi:

–Xanım, indi də qoy çovan da birini desin da...

Məhəmməd ürəyində dedi:

–Gəl yerini-yurdunu buna isnad ver. Axı, Səlmi xanım soruşdu ku, haralısan.

Başına mən dönüm, ay Səlmi xanım,
Baxça bizim yerdə, bar bizim yerdə.
Əyif budaxları bar ağaşdarı,
Heyva bizim yerdə, nar bizim yerdə.

Aldı Səlmi Xuraman:

Əfsanə danışma, ay əcəm oğlu,
Olmaz hər yetənə kar bizim yerdə.
Əfsanə danışan keçər sərinnən,
Namus bizim yerdə, ar bizim yerdə.

Aldı Məhəmməd:

Hamı dağdan uca Göyçə dağıdı,
Dörd tərəfi sanki cənnət bağıdı.
Laçın, tülək, tərlan sar yığnağıdı,
Könlün nə istəsə var bizim yerdə.

Aldı Səlmi Xuraman:

Badi-səba yeli mülkü Dağıstan,
O yerdən bac almaz nə sultan, nə xan.
İgiddərmiz cəllad kimi tökür qan,
Cəllad bizim yerdə, dar bizim yerdə.

Məhəmməd bu yerdə bığaltı qımışıf dedi:

–Bəli, xanım, çox düz deyirsən. Mən gələndə kəndimizdə sizin üç nəfər igidinizi qoyuf gəlmişəm.

Səlmi Xuraman dedi:

–Onnar nə iş görürdü orada?

Məhəmməd dedi:

–Biri qav yığırdı, biri sürtürdü, biri də qalaylıyırdı.

Bu sözdər Almurad bəyin yaman xoşuna gəldi. Ucadan əl çalıf dedi:

–Sağ ol, ay çovan qardaş. Məhəmməd aldı sözün o biri xanəsini.

Məhəmməd dərdini yetirdin yüzə,
Az qalır müjganın bağrımı üzə,
Azrayıl donunda göründün gözə,
Olarsan çovana yar bizim yerdə.

Aldı Səlmi Xuraman:

Sən də bu Səlmini yetirdin cana,
Vurdurram boynunu düşərsən qana.
Əsir göndərərəm ol Dağıstana
Çox çəkərsən ahu-zar bizim yerdə.

Məhəmmədin iş yoldaşdarı bir ağızdan dedilər:

–Xanım, Dağıstana yox, Göyçüyə gedəjəksən.

Səlmi Xuramana bəyan oldu ku, bunnar Göyçə adamlarıdı. Xanım özünü o yerə qoymuyuf dedi:

İndi ki, belə oldu, keçək qıfılbəndə:

Sənnən xəvər alım, şair Məhəmməd,
O necə bağbandı min bir bağı var.
Bağında açılan qızıl güllərin,
Neçə butağı var, neçə tağı var.

Aldı Məhəmməd:

Al cavavın deyim, ay Səlmi xanım,
On səkkiz min aləm min bir bağıdı.
Pənci təni əba, on iki imam,
Ata-babaların yadigarıdı.

Səlmi Xuraman dedi:

–Oğlan, elmin qırx qapısı var. Onun otuzdoqquzunu aşsan da səni birində dayandırajam.

Çovan Məhəmməd dedi:

–Xanım, elə açar var kı, qırx qapıya da düşür. Sənin onnan xəvərin varmı?

Aldı Səlmi Xuraman:

O, kimiydi yerdən göylərə getdi,
Ərş üzünnən nə gətirdi, nə götdü.
Sütunsuz qurulan hansı meçitdi,
İçində neçə min şam-çırağı var.

Aldı Məhəmməd:

Məhəmməd səmada çəkdi zəhməti,
Gətirdi dəlili, həm nəsihəti.
Yüz iyirmi dörd min nəbi dünya hikməti,
Rəsulu əmbiya həm çırağı var.

Səlmi Xuraman ürəyində dedi:

–Gəl, Məhəmmədə işarə elə ki, mən eşq əhli yox, dərd əhliyəm.

Dərd sinəmdə qaynıyıfdı, daşıfdı,
Qəzanın qədəri həddən aşıfdı.
Səlmi deyər ağıl başdan çaşıfdı,
Fələyin sinəmdə köhnə dağı var.

Məhəmməd ürəyində dedi ki, mənim indiyə kimi ömrüm mə'nasızıydı. Ömrüm bu günnən sonra mə'nalı keçəjək. Gəl bunu söznən Səlmi Xuramana işarə elə.

Alır Məhəmməd görək nə deyir:

Dünya işrətinnən gözüm doyufdu,
Zalım fələk bağrım başın oyufdu.
Yazıx Məhəmmədi mə'lul qoyufdu,
Vəfasız ömrümün cavan çağıdı.

Almurad bəy dedi:

–Səlmi Xuraman, günü axşam elədik. İndi də qoy Çovan Məhəmməd də bir müəmma desin, sən cavaf ver.

Səlmi Xuraman dedi:

–Buyursun, desin:

Aldı Məhəmməd:

Sənnən xəvər alım, ay Səlmi xanım,
Əvvəl de Qur'anın ayəsi nədi?
Neçə əyləncəsi, neçə dadı var?
Cəsədin içinin mayəsi nədi?

Məhəmməd sazı sinəsinnən qoltuğuna keçirif gülə-gülə dedi:

–Səlmi xanım, dilin topux çalmasın. Cavaf gözdüyürəm.

Səlmi xanım dedi:

–Bir neçə ala qarğıya mən həmişə bircə sapand daşı atıram. Sözünün o biri xanəsini de.

Bütün məclis əhli gördü kü, xanım yaman yerdə ilişif. Bağlanan aşıxlar allaha əl açıf yalvarırdılar kı, ya rəbb çovan Məhəmmədə özün sur ver ki, bizi bu arvadın əlinnən qurtarsın.

Məhəmməd aldı sözünün o biri xanəsini:

O kimiydi, hardan aldı ağvanı?
O kimiydi gəzdi Turun dağını?
O kimiydi gördü cənnət bağını?
Meyvəsi nə rəngdi, payəsi nədi?

Məhəmmədə hax verifdi baratın,
O kimiydi tutuf ölkənin qatın?
De, harda qurdurur öz imarətin?
Torpağı nə rəngdi, qayəsi nədi?

Sözə cavaf tapmadığını görən Səlmi Xuraman yorğun maral kimi pərişan durdu. Məhəmmədin biyar yoldaşdarı Qarsın bağlarında gül qoymadılar. Dəstə-dəstə yoluşduruf, Səlmi Xuramana verdilər. Səlmi Xuramanın müxəddər baxışdarı çovan Məhəmmədin ürəyini para-para elədi. Onun pərişən baxışdarına dözə bilmiyən Məhəmməd sazını köksünə sıxıf aldı görək nə dedi:

Elə qəfil atdın göz müjganını,
Demədinmi mana yara yetirər.
Yar sevənnər canın qoyar yolunda,
Ya ölər, ya əlin yara yetirər.

Bəsdi mənə namus, qeyrət, az arım,
Bəxtim çəkdi çox şan tutdu az arım.
Üzün gördüm qalmaz dərdim-azarım,
Təbib qarşı gələr, yara gətirər.

Hax nəzərin Məhəmməddən kəsmədi,
Yar qəddinə yaraşannar kəsmədi.
Mərdin qaydasıdı, basdı kəsmədi,
Namərd təpə-dırnax yara yetirər.

Bəli, söz tamama yetdi. Almurad bəy əmr elədi ki, faytonnarı bəziyif, Çovan Məhəmmədnən Səlmi Xuramanın şirin şərvəndini Qars şəhərində paylasınnar. Səlmi Xuraman aşkarda, gizdində, nə ki pulu, qızılı varıydı Məhəmmədin qavağına qoyuf dedi:

– Bu günnən mən sənin ixtiyarındayam. İstiyirsən qul elə, istiyirsən yar.

Məhəmməd dedi:

– Elə demə, qul nədi, sən mənim Tanrı payımsan. Ömrümüngünümüz bəzəyisən.

Almurad bəy Məhəmmədnən Səlmi Xuramana gözəl bir toy elədi. İki nöycavanı bir-birinə qovuşdurdu. Toyun aşığı sazını sinəsinə basıf məclisi bu duvaqqapmaynan tamamladı.

Bu gün bir gözəl görmüşəm,
Məni cannan elədi.
Kirpiyi keçdi sinəmnən,
Bağrımı şan-şan elədi.
Şəriətdə yox, qanunda yox,
Nahax yerdən qan elədi.
Məni bu zalım balası,
Lap Şeyxi-Sən'an elədi.

Axı, bu fələk əlinnən,
Gəlmiyim dada, neyniyim.
Həsrət ölən aşiqləri,
Salmıyım yada, neyniyim.
Danışıram dərd əlinnən,

Yanıram oda, neyniyim.
Məcnun kimi səhralarda,
Halım pərişan eylədi.

Aqil, gəl qəm eyləmə,
Hər Leylinin naharı var.
Hər gejələr sübh olajax,
Hər çillənin baharı var.
Dara düşsən dada yetər,
Səni yaradan tanrı var.
Yusif quyudan çıxajax,
Misir kimi bazarı var.
Yusifin köynəyini,
Yaquba dərman eylədi.

NÖVRƏS İMANIN TİFLİS SƏFƏRİ

Əvvəlcə ustaddarı yada salax.

Əqdəm olan bu dünyada,
Təkdi bir allah əzəl,
Öz nurunnan xəlq eylədi,
Ol həbibullah əzəl,
Şiri davər ismi oldu,
Bir vəliyullah əzəl;
Ərşə, Gürşə bais oldu,
Onnarın nuru qələmi,
Əşhədən la lailahə illəllah,
Yazdı illallah əzəl.
Adəm getdi, şulys qaldı,
Nuh gəldi dünyaya həm,
O çalışdı hax yolunda,
Çox çalışdı müstegəm,
Gah yalvardı, gah nəsihət
Söylüyərdi dəma-dəm,
Yolu atdı, haqqı dandı,
Millət üz döndərdi cəm,
Nida etdi, qopdu tufan,
Bir Nəbiyullah əzəl.

Musa düşdü dəryalara,
Fir'onu qərq eylədi,
İsa gəldi çıxdı dardan,
Xalqa dəlil söylədi,
Nəmrud atdı od içinə,
Qeyzinən alovladı,
Xəlilullah həqq evin,
Yapmağa bir boyladı.
Eşitdi bərdan salamın,
Söndü narullah əzəl.

* * *

Bu dünya fani dünyadı,
Qalmıyıb Süleymana;
Xeyli vaxtı ömür sürdü,
Nəzər qıldı hər yana;
Oda getdi, necə oldu,
Döndü çərxi zamana;
Nurdan gəldi Zülfüqarnan,
Düldül şahi mərdana,
Əntər kimi pəhləvanı,
Böldü Seyfullah əzəl.

Xətmi mürsəl əşrəf oldu,
Küllü aləm bildi düz;
Dinimizə rönəg verən,
Doğru kalamdı hənüz;
Qafil olma bu dünyada,
Nə gəlsə cafaya döz,
Növrəs İman, qəm eyləmə,
Ehtiqatın qıl təmiz,
Qorxma o, günnən hərarət,
Verər şəmsullah əzəl.

– İman bu, divanisini doqquz yaşında deyif.

Bir gün əmisi Ələsgər onnan yolda qarşılaşanda soruşur:

– İman, hardan gəlirsən?

İman deyir ki, məktəfdən gəlirəm.

Ələsgər yenə sual eliyir:

– Mollanız sizə bu gün nə keşdi?

İman cavaf verir:

– Molla əmi uşaxlara çərəkəni öyrədir. Mən isə qur'anı əzbər oxudum.

Bunu görüf molla mana dedi:

– Ay bala, qur'anı altı aydan sonra oxumax olar. Onda mən dərsimi kimnən aldığımı mollama bu divaniynən bəyan elədim.

Həmin bu divani bədahətən o məqamda deyilif.

Molla məktəbini qurtarannan sonra o, zaman savaddı adamları bir illik kursa göndərirdilər. Göyçədən İman, Gəlbəcərdən Əhməd addı bir oğlanı, Navə adında bir qızı Gümrü şəhərində oxumağa göndərillər. Hər üçü bir yerin adamları olduğu üçün də bir yerdə qalıllar. İman çox savaddı olduğunnan həmişə onnara köməklik eliyərdi. Navənin ağıllı-kamallı olmağı İmanı heyran eləmişdi. Bir gün İman Əhməd müəllimdən soruşur ki, Navə xanım Gəlbəcərdə kimlərdəndi. Əhməd müəllim deyir ki, Navə xanım gözəl bir nəsilin qızıdı.

– Qardaş, onda ürəyimdə sana deyiləsi bir sözüm var.

– Mənim məhəbbətimi Navə xanıma çatdır. Ona deginən razı olsa biz evlənərik. Əhməd müəllim çox razı olur ku, İman Navə sənə, sən də ona layıqsan. Mən Navə xanıma deyərəm. Özü də mən çox şad olaram kı, sizin ikiniz bir-birinizə qovuşasınız.

Əhməd müəllim Navə xanıma İmanın sözdərini çatdırır.

Navə deyir:

– Mən İmana nə deyə bilərəm. İmanın savadı, mə'rifəti layıqıncadı. Ancax bu işi ata-anamın razılığınnan ola bilər. Beləliknən, hər ikisi əhd elədilər ki, məktəvi qurtarannan sonra bu məsələni açıf-ağardarıx.

Məktəvi qurtarıf hərə öz evinə qayıdır.

İman gələndə görür kü, böyük qardaşı Aşıx Qurvan dünyasını dəyişif. O zamannar ağsaqqal, qarasaqqal belə bir məsləhət görüllər ki, Qurvanın həyat yoldaşı gərək bu evdən getməsin. İmana məsləhət eliyək ki, gəlinin bu evdən getməsinə razı olmasın. Yə'ni onun kəvinini İmana kəssinnər.

İman dinmir. Nə hə deyir, nə də yox.

Bunnar da deyillər ki, yə'qin razıdı.

İmanın bir il keşmir ki, rəngində sarılıx hiss olunur. O, günügünnən soluf-saralır.

Fikirdən başına elə bil hava gəlir. Kənddə bir gün toy məclisi varıymış. İmanın çox pəjmürdə olduğunu görüf onnan soruşullar:

– İman, sana nə oluf? Sən günü-günnən zəifliyirsən. Şükür olsun allaha, özün kəndimizdə müəllimsən. Gözəl də şayırrığın, Ələsgər kimi də əmin var. Sənin nə dərdin var kı?

İmanın gözdəri dolur, əlini atıf sazını götürür, sinəsinə sıxıf dərddi-dərddi alıf görək nə deyir:

Ovsunçuyam bir şahmarın qoynunda,
Yatıram onunla yar əvəzində,
Xəstəyəm ürəyim nar sorağında,
Yeyirəm bivarı nar əvəzində.

İstiyirəm uçam, şahpərim sınar,
Bülbüləm gülşənnən olmuşam kənar,
Cəsədim od tutar, alışar, yanar,
Od allam ağzıma qar əvəzində.

İman, sirrin ürəyində pünhandı,
Ariflər eşitdi, dərdini qandı,
Ala qarğa yuvasında tərlandı,
Tərlan qürbət eldə, sar əvəzində.

Məclisdəkilər başa düşdülər ki, İmanın dərdi nə dərddi. Ağsaqqallar belə məsləhət elədilər ki, bir il, para il sazını götür. Bir qədər qonşu diyarrarda gününü keçir. Gəlin də başa düşüf çıxıf gedər. Sən də qəmnən-qüssədən azad olarsan.

İman düşünür ki, əvvəlcə gedim Kəlbəcərdə bir Əhməd müəllimnən görüşüm, Navədən də bir hal-əhval olum. İman bir balaca hirsdənəndə, əhvalı pozulanda havalanır, özünü, sözünü bilmirdi. İndi də çox tə'sirrəndiyinnən ayaqqavısının birini geyinməyi yaddan çıxarmışdı.

O, elə beləcə gəlir Əhməd müəllimgilə. Əhməd müəllim görür kü, İmanın ayağının biri yalındı. Kövrəlif deyir:

– İman, kaş öləydim, sənin bu gününü görmüyəydim.

İman gülüf, deyir:

– Qardaş, hansı günümü görmək istiyirsən?

Əhməd müəllim deyir:

– Qardaş, ayağın yalındı. Onu deyirəm.

Əhməd müəllim eşitmişdi ki, İmanın başına hava gəlif, ona görə belə kövrəlmişdi.

İman hər şeyi başa düşüf deyir:

– Qardaş, qəm eləmə. Vəziyyət heş də sən eşitdiyin kimi deyil.

İman sazını sinəsinə sıxıf aldı görək nə dedi:

Məzlumlar ağası, mərdin mövlası,
Şə'ninə zikr olan hə atası gəl,
Xəstələr binası, din midarası,
Taha, yaha, yasin qul gəbası gəl.

Əhməd müəllim yaman gövrəlmişdi. Dərdini saznan deməsə ürəyi para-para olardı. Odu ku, sazını köksünə sıxıf aldı görək nə dedi:

Bey bir allah, mim Məhəmməd, ya Əli,
Səndə müşgülümün var şəfası gəl,
Qəribi xəstənin məruzi dili,
Mənim tək həsrətin bir ağası gəl.

Aldı İman:

Göstərən dəryada rəhi Cəbrayıl,
Yusifi zindanda qoymadın zəlil,
Al gətir dəstinnən abı səlsəbil,
Xoşdur qullarının hər bədası gəl.

Aldı Əhməd:

Hüseynin dəstində bir bada yetiş,
Rey rəva eyliyər, nun nida yetiş,
Hey hərayə gəlir, sin səda yetiş,
Düşməmiş cismimə çor cəzası gəl.

Aldı İman:

Ahu tək ağlaram, ya dağ-daş ağlar,
Eynimnən tökülən cannı yaş ağlar,
Nə ana can diyər, nə qardaş ağlar,
Növrəs İmanda var eşq havası gəl.

Aldı Əhməd:

Dərdi qəm əlinnən çəkirəm aman,
Zamana Əhmədə tuş tutuf kaman,
Gəl yetiş dadıma sahib-əl zaman,
Aləmlər imdadı, Mustafası gəl.

Tərsdikdən İman bura gəlif çatan günü Navə xanımın toyuydu. Əhməd müəllimi də toya də'vət eləmişdilər. Ürəyində deyirdi ki, İmanın gəlməsi bax gör hansı günə təsadüf eliyif. Bu xəvəri eşidən kimi toy sahibi bir nəfəri göndərdi ki, İmanı da gətirif gəlsin, gözüm üstə yeri var. Ama qoy sazını da gətirsin. İman nə bilsin ki, kimin toyudu. Əhməd müəllimnən İman məclisə daxil olullar. İmannan təvəqə eliyillər ki, sazını çıxar, bu məclisi şənnəndir. İmana agah olur ku, ayə bu Navənin toy məclisidi.

Sizə bir az da Navə xanımnan deyim. Navənin toyu olsa da, qaşqavağı heç açılmırdı. Qızdardan biri soruşur:

– Ay Navə, Allaha şükür bu gün sənin toyundu. Niyə pərişan dursursan.

İmanın gəlməsi Navə xanıma da agah olmuşdu. Ona görə də köhnə əhd-peyman yadına düşmüşdü. Sevdiyi İmana qovuşa bilməməsi onu göyüm-göyüm göynədirdi. Ələci bircə gözdərinə qalmışdı. Kirpiklərini bir sıxanda gözünnün yeddi yerinnən yaş tökülürdü. İmanın gözü birdən Navə xanıma sataşdı. Dünya gözündə qaraldı.

O da özünü saxlıya bilmiyif bahar buludu kimi doldu. Sazını sinəsinə sıxıf aldı görək nə dedi:

Zəlili natavan, əlaşsız yazıx,
Sən olasan mənim canım, ağlama!
Artırma dərdimi həddən ziyada,
Söylə mətləvini qanım, ağlama.

Ağlıyan gözlərə mənəm sadağa,
Ahu ol səyyadam gəl çıxax dağa,
Leylisən, Məcnunam gedək bulağa,
Sərraf mənəm, gövhər kanım, ağlama.

İlahi dərdimi eyliyif arı,
Yağır baharımın boranı, qarı,
Səməndər qəlbilə qalatma narı,
Qoy mən eşq oduna yanım, ağlama.

Bağbansız bağçadan bar ələ gəlməz,
Pozuldu bostanım nar ələ gəlməz.

Qurub cəlladımız dar ələ gəlməz,
Bülbül olub Navə xanım, ağlama.

Dünyadan əl çəkdi İman əşgara,
Nə çara eyliyim mən bəxti qara.
Səni ağladanı düşsün azara,
Ömürdən beş qalıb sanım, ağlama.

İman sözünü qurtaran kimi məclisi tərk eliyif üz tutdu Tovuza Aşıx Əsədin yanına. Aşıx Əsəd Ələsgərin ən sevimli şəyirddərinnən biriydi. Fikirrəşdi ki, bir az onnan gəzif dolaşaram. Mənim sözə-saza heç bir ehtiyacım yoxdu. Şayırrığım var, savadım var. Məni bircə elnən-mahalnan tanış eləmək lazımdı. Birdə ki, əmisinin harda dostu tanışı varıydı ünvanını yazıf götürmüşdü. Xülasə, İman bu fikirnən gəlif Tovuza çıxır, bir kişidən əmisinin dostu Kərbəlayı Zeninin evini soruşur.

– Gəl, oğlum, sən axtardığın ev budu. O yaxınnıxdakı evdi, o dediyin adam da mənəm. Bəs siz kimsiniz?

– Mən Aşıx Ələsgərin qardaşı oğlu İmanam.

Kalvayı Zeni kişi həm çox sevinir, həm də kövrəlir. Kərbəlayı Zeni onu evinə gətirif bir az əhval pursannıxdan sonra dedi:

– Sən əyləş, mən elə indicə aşıx Hüseyin Bozalqannıynan söhbət eləyirdim. Yaxşı oldu, qoy gedim Hüseyn əmini də gətirim gəlim.

Bir azdan Aşıx Hüseyn gəlir, öpüşüf, görüşürlər.

Hüseyn Bozalqannı deyir:

– Oğul, elə bildim rəhmətlik Aşıx Ələsgərnən görüşdüm.

İman deyir:

– Hüseyin əmi, elə bil mən də əmim Ələsgərnən görüşdüm.

Çay-çörək, xeyli söhbətdən sonra Aşıx Hüseyn Bozalqanlı baxıf görür ki, İmanın üzü qəm-kədərnən doludu. Axırda Hüseyn Bozalqannı dözə bilmiyif deyir:

– Oğul, sənin dərdini üzünnən oxuyuram. Mən sənin başına gələnnərin hamısını bilirəm. Qulaq as deyim:

Qəza qırdı qədərimi tüyürdən,
Qədər mindiribdi yad elə məni,

Artıfdı mərizim, yoxdu təbibim,
Yə kəsə, ya yara, ya dələ məni.

Hüseyin əmi, nejə deyirsən elədi.

Qiyamətdir nəsin düşə əqrəbə,
Səfər etsən nəsin düşər əqrəbə,
Yandırdı cismini nara, əqrəbə,
Yandırsa, yandırmaz yad elə məni.

Hüseynəm, artıfdı şərğətim, cəmim,
Nə var bir munisim, nə də həndəmim,
Dərya olan dərdim Qaf olan qəmim,
Atıfdı qürbətə, yad elə məni.

Hüseyn əmi, məni bağışdıyın. Mən gedim bir Əsədgilə dəyim. Görüm, evdədimi?

Zeni kişi dedi:

– Ay bala, adam göndərərik çağırar.

İman tərsdəndi.

– Yox əmi, mən özüm baş çəkim, indi gələrəm.

Ona deyillər ki, Əsəd Tiflisə gedif.

İman tanışdarnan halallaşıf Aşıx Əsədin dalınnan Tiflisə yollanır. Tiflisdə Aşıx Əsədi axtara-axtara gəlif Şeytanabaza çıxır.

Orda Seyidəli addı kşinin çayxanası varıydı.

İman ora çatıf çayçıya dedi:

– A qardaş, mənim sazımı al bir yerə-qoy. Özü də yaman susuzam.

Çayçı İmanın sazını aparıf Aşıx Sadığın sazının üstünnən asdı. Aşıx Sadıx gündə bir iki saat burda dövran eliyif, çalıf-çağırır. Sadıx kişi gündə yaxşı pul qazanırdı.

Bu məqamda Aşıx Sadıx içəri girif gördü kü, sazının üstünnən bir saz asılıf Aşıx Sadıx çayçının üstünə hirsdənif soruşdu ku, o kimin sazıdı. Nə hünərnən mənim sazımın üstünnən saz asıf. Çayçı İmanı göstərdi.

Aşıx Sadıx soruşdu:

– Aya, kimsən, haralısan, adın nədi?

İman dedi:

– Adım İmandı, özüm də Göyçədənəm. Aşıx Ələsgərin qardaşı oğluyam. İmanın ağzınnan söz qurtarmamış Aşıx Sadıx əlinin dalınan qabağındakı stola elə vurdu ku, körəyin noxuddarı yernən-yeksan oldu.

Ağzı köpüklənə-köpüklənə dedi:

– A kişi, o yannan bəri gələnin biri deyir. Ələsgərin bajısı oğluyam, biri deyir qardaşı oğluyam. Aşıxlıx elə bil ki gün boyağıdı, hərə ipini sala boyuya.

Çayxanada olan adamlar dedilər:

– Sadıx kişi, yaxşı iş eləmədi. İman belə baxdı ki, mən qərib adamam. Mənim hax sözümü qəbul eləsələr mən özümü Aşıx Sadıxa göstərərəm.

İman gördü kü, burda Sulduz tərəfdən adamlar var.

Ürəyində dedi:

– Gəl özünü Sulduzdu kimi qələmə ver.

İman dedi:

– Sadıx əmi, mənim əslim Sulduz mahalınnandı, Aşıx Ələsgərin adını verdim ki, məni bağışdıyasan. Adım da Hafisdi. Sadıx əmi sözün yeyini də birdi, yavaşı da. Sözün dəyəri lazımdı. Sən mənim üstümə qışqırırsan indi burda bir qeyrətli oğul olsa haqqın tərəfini saxlasa, mənim o qismətimə kin tökdün, onu sana yığdırar qavın içinə qoyduraram. Axı, mən neyliyim mən burda qəribəm.

Məclisdən İsmayıl adında bir cüssəli bığıburma oğlan ayağı duruf dedi:

– Aya, a bala, sən elə daşındın mənim ürəyimin başına elə bil bir od parçası qoydun. Mən bu Tiflis şəhərində öz millətim uğrunda neçə dəfə Sibirə sürgün olmuşam, indi də elə billəm bu da biri olar. Mana burda qoçu İsmayıl deyillər Sadıx əmim mənnən inciməsin. Mənim hörmət elədiyim ustad sənətkarrardan biridi. Ama Sadıx kişi düzgün iş görmədi. Nə olar, o da bizim din qardaşımızdı. Bilmədiyini də, öyrətmək lazımdı.

Sadıx kişi dedi:

– Ay İsmayıl, axı qanun-qayda var. Sazın üstünnən saz asanda onun mə'nası budu ku, saz sahibləri deyişməlidi.

İsmayıl dedi:

– Sənin sazının yağırı ha yoxdu, yağırını basa. Bir az da onun sa-

zının üstünnən sənin sazını asax, əvəz-əvəz olsun. Burda nə böyük iş var kı.

İman dedi:

– Ay İsmayıl, birini birisi yıxıf qarnına döyüllərmiş. Döyülənin qarnına vurduxca elə hey vay arxam deyirmiş. Bunnan soruşullar kı, bu ku sənin qarnına döyüllər. Niyə vay arxam, deyirsən?

Qarnına döyülən deyir ki, arxam olsaydı, o mənim qarnıma döyə bilməzdi. İndi mən gəlməyəm. Mənim burda heç kimsəm yoxdu, qəriv adamam.

Ona kimi Sulduzdan burda olan adamlardan bir neçəsi ayağa qalxıf dedilər:

– A bala, biz ölməmişik ki, nə üzünə desən bir varıx.

İsmayıl da o tərəfdən qalxıf dedi:

– Ay bala, biri var boş-boş danışarsan. Əgər sən doğrudan da özünə güvənirsənsə mən sənin arxan. Mən həmişə haqqın tərəfdarı olmuşam.

Aşıx Sadıx dedi:

– Görürsünüz bunun yekə-yekə danışmağını. Belələrinin mən sazını əlinnən alıf təpəsinə vuranda deyillər aşıx Sadıx gələn aşıxlardan bizi xan tamah qoyur. Mən də indi bunu bir iki söznən dilitəng eləyif, sazını alanda deyəjəksiniz aşıx Sadıx yaxşı iş eləmədi.

İman dedi:

– Adam arxı hoppanar, sonra bərəkallah deyər. İndi ki, belə oldu, sazını köklə. Görək qavında nə ar kı, belə loppaz-loppaz danışırsan. Özü də Ağam fırsandı düşmənə verif. Əvvəlcə sən buyur.

Sadığın bir balaca qavırğası sanşdı kı, ayə bu uşağa bax, gör nə dilli-dilli danışır. Elə yaxşısı budu ki, gəl Xəstə Qasımın açılmamış qıfılbənddərinnən birini bunun qavağına dığırra, qoy eşələnə-eşələnə qalsın. Desinlər aşıx Sadıx bu gün də bir aşıx bağlayıf.

İman dedi:

– Sadıx əmi, əvvəlcə gəl şərtlərimizi də bildirək.

Sadıx İman dedi:

– Aya, a bala, nə şərt? Mən deyim sənə sən də cavaf ver. Aşıx Sadıx gəl döyül özgənin bağına gəl uzatmıyax. Öz bağımızdan dərək. Əgər tamah eləyif, əl uzatsax onda atı yəyəsinin qapısına sürək. Adamların çoxu bu sözü başa düşmədi. İman demək isdiyirdi ki, yə'ni özümüzdən deməliyik. Mən özümnən və ya ustadımnan

deyəjəm. Sənin borcundu.

Cavaf ver, yaxşı onda de gəlsin.

Aşıx Sadıx Xəstə Qasımın sözdərinnən başdadı bircə-bircə deməyo.

Aşıx Sadıq fikirrəşir ki, hansı sözü desin ki, buna cavaf tapa bilməsin. Yaxşısı budur ku, gəl alimlərə dediyi o sözdəri ki, alimlər mollalar hökümətə şikayətə getdilər ki, Tikmədaşda bir uşax peyda oluf camaatın başını yozur ku, bu kəndin alimi də, mollası da mənəm. Onda bir neçə il oxumax, dərs almax nəyə lazımdır? Bir gətirin dindirin, görək hansı məktəbi qurtarıf. Xəstə Qasımı çağırdıf soruşdular kı, adın nədir?

Deyir:

– Adım Xəstə Qasımdı, lal Qasımdı, kor Qasımdı, topal Qasımdı.

Onnan soruşullar:

– Oğlum, bunnarı izah elə görək bir belə adı öz üstünüzə götürməkdə məqsədən nədi?

– Xəstəyəm, ona görə ki, pis işlərdən xəstə düşmüşəm. Koram, ona görə naməhrəmə baxmıram. Topalam, ona görə ki, oğru yola getmirəm.

– Çox yaxşı.

– De görək, sən hansı məktəvi qurtarmısan?

– Allahın mana verdiyinnən başqa heş bir məktəv.

İndi mən sizin qarşınızda duran alimlərdən həqiqətdən, təriqətdən bə'zi şeyləri xəvər alajam. Cavaf versələr başım yolunuza sadağadı. Yoxsa elə alim də, molla da elə mən özüməm.

Həmin sözdəri Aşıx Sadıx İmana demək istəyir ona görə ki hələ bu sözdərin cavavını heş kim aşmıyıf.

Aldı Aşıx Sadıx:

Hökumət məclisində əyləşən alim,
Əvvəl mənə yamənhudan xəbər ver
Əri şin situnundan, mehrac evindən,
Söz nə keçdi girdi güdan xəbər ver.

İman dedi:

– Bu 300 il bundan əvvəl dünyasını dəyişmiş Xəstə Qasımın sözüdü. Biz dedik ki, öz bağımızdan dərək.

–Sənə nə dəxli var. Bağlama deyirəm. Cavavını ver.

İman gülümsüyüf dedi:

– Aşıx Sadıx özünə baxma. Mənim üçün açılmıyan qapı yoxdu. Aldı İman görək nə dedi. Biz də deyək. Sizi şad olasınız.

İman:

Barilahim Cəbrayıla buyurdu,
Yamənhu mən kiməm, tanı deməkdi,
Üç min kəlmə Peyğəmbərlə danışdı,
Gizlin, aşkar o Sübhanə deməkdi.

Aldı Sadıx:

O kim idi suya çaldı mayanı,
Su ikən bərkitdi səngi, qayanı,
Bey altından o nöğdənin bəyanı,
Pərri bəhri, səngi sudan xəvər ver.

Aldı İman:

Qüdrəti ilahidən maya vuruldu,
Gün deyəndə hax nizamı quruldu,
Bey bərkidi, xaki sudan duruldu,
Dağı-daşı cismi canı deməkdi.

Aldı Sadıx:

Kim idi oxudu lohu məhvuzu,
Kim idi kəfənin toxudu özü,
O, kim idi dedi vəhyi qıl bizi,
Vəcəm vəhdi ongahdan xəbər ver.

Aldı İman:

Əzrail oxudu lovhü məhvuzu,
Peyğəmbər kəfənini toxudu özü,
Cəbrailə dedi: vəhyi qıl bizi,
Adəmnən ol Həvvanı deməkdi.

Aldı Sadıx:

O, kim idi haqqa oldu əsaba,
O, kim idi apardılar qəssaba,
Xəstə Qasım yetik deyil hesaba,
Həfti həşdi simi dudan xəbər ver.

Aldı İman:

Peyğəmbər haqqa oldu əsaba,
İsmayılı apardılar qəssaba,
Hafiz deyər, yetik oldum hesaba,
Otu, suyu, cismi, canı deməkdi.

–Ayə, a bala, bu sənin sözün döy, axı? Düzünü de kimin sözüdü?
– Bu mənim ustam İmanın sözüdü.

O, arif sözlərinə güş verir sərim.
Hər yanı axdarır, mə'na gözlərim.
Çaşanda sinəmdə qəmli dəftərim.
Çox incidir bu İmanı deməkdi.

Sulduzdan olan adamlar hamısı əhsən – bərəkəllah dedilər:
– Qorxma, biz də buradayıx, – deyə birağızdan dilləndilər.
Aşıx Sadıx dedi:
– Elmin qırx qapısı var. Otuz doqquzunu aşsan da, səni birində dayandırajam.
İman dedi:
– Xətircəm olma, elə açar var kı, qırx qapıya da düşür.
Aşıx Sadıx dübarə alır.

Adəmdən bil Xatəmə,
Natiqi qur'an mənim
Din mənim məzhəb mənim
Yol mənim, ərkan mənim
Yerdə insan, ərşdə qılman,
Göydəki əsman mənim;
Gül mənim, sünbül mənim,
Sünbülü reyhan mənim.

İman:

İftidadan intiqaya,
Gərdişi devran mənim;
Nuri Əhməd xəlq olandan,
Əxrati zaman mənim;
Yerdə insan, ərşdə qılman,
Ərşdəki əsman mənim,
Din mənim, məzhəb mənim,
Raki iman mənim.

Aldı Sadıx:

Yeddi eyvan, səkkiz seyvan,
Qırx sütunun ləngəri,
Yeddi ulduz, yeddi toppuz,
Yeddi keşiş, yeddi dəri,
Səkkiz yüz qırxdan qabaq;
Doqquz yüz qırxdan bəri
Pir mənim, ustad mənim,
Ol ilahi Heydər mənim.

İman dedi:
– O qədir mənim-mənim deyirsən. Mana heş bir şey qalmır, axı?

Aldı İman:

Yeddi eyvan cəhənnəmdi,
Səkkiz yüz rizvan səda,
Evliyalar, ənbiyalər,
Qırx sütun ləngər xuda.
Yeddi səlvi, yeddi səhvidi,
Yeddinci tər nida;
Bu elmi də Xudam verib,
Dərsimi pünhan mənim.

Aldı Sadıx:

Adı atam, xani batdan,
Yaratdı Sübhan bizi;
Altı min arxa bağladı,

Dəryada qırx dörd dənizi;
Yetmiş ikinin mən biriyəm,
Qırx situnun lənqəri;
Beş içində altı Məkkə,
Səkkiz yüz fərman mənim.

Aldı İman:

Abı ataş, oddu, suda,
Xaki, torpax badi yel.
Altı min dənizdi
Onun odu var bir il,
Əmir Nəhridi
Səkkiz yüz qırxdı onu bil,
Həmişə yetiş dadıma,
Ol Şahi Mərdan mənim.

Aldı Sadıx:

Xəstə Qasım Tikmədaşlı
Sahibi cümlə xəta,
Ümüdvaram mirağına
Bil, sənə eylər əta,
Bir ismi qul Kəbadı
Bir ismi Əli ata,
Əzmi tək günahım olsa,
Əff edər Rəhman mənim.

Aldı İman:

Növrəs İman Göyçə elli,
Sığındı şahi Heydərə,
Ərşi Əladan xəvər gəldi,
Biz də yazdıx dəftərə.
Haqq özü şəfaətçidi
Yazdı ruzəl mənşərə,
Qorxum yoxdu qurulanda,
Ədalət divan mənim.

–Deməli, bu da İmanın oldu.

–Bəli, sən 300 il bunnan qavaq Xəstə Qasımı özünə ustad çəkirsən. Hal-hazırda İman durur özü də mənim ustadımdı.

Aşıx Sadıxın bayaxları bu gözünə uşaq kimi görünürdü. İndi isə gördü kü, yekə görünür. Qoçu İsmayıl ayağa qalxdı dedi:

– Sadıx əmi, atalar deyir, adın nədi. Rəşid, birini de, birini eşit. İndi qoy birini də bu cavan oğlan desin. Sən cavaf ver.

İman dedi:

– İstiyirsən mən heç deməyim.

Qoçu İsmayıl Aşıx Sadığa dedi:

– Bayax çox sinənə döyürdün, indi de də.

–Yaxşı indi ki, belə oldu bir divani də mən deyim.

İman:

Bir şəhərdə altı dərviş,
Onun pak əsası var;
Daş gətirib, kərpic verən,
On nəfər bənnası var;
Bir şəhərdə səkkiz min
Səkkiz yüz səksən səkkiz sərvəri
İki yüz min quldur
Haqdan nişanası var.

Sadıx dedi. O birisini də de, bala. Mən bir az fikirrəşim. Amma bu iş Sadıxlıq deyildi.

İman aldı sözün o biri xanələrini:

Yüz iyirmi dörd min şamı çırax,
Hökm eylər yüz səksənə.
İki mələk rəzmi içində
Ona baxar, gah sənə,
Min mələk müqərrərdi,
Dilini açar əhsənə;
Beş-beş ötər yirimbeşə,
Beşin çox mə'nası var.

İstəyirəm bu gün açam,
Ər aşıxlar meydanını
Pirim mənə rüsxət versə,
Tək alaram dünyanı;
İncitməyin, toxunmayın,
Siz bu Növrəs İmana,
Tifil ikən dərd əhlidi,
Sinədə qəm dəryası var.

Sadıx bu sözdərə nə cavaf verəsiydi ki?! Sadıx fikirrəşdi ki, ayə, sonra bu İman olar. Çünki İmanın adını aşıx Sadıx çoxlarınnan eşitmişdi.

İman dedi:

– Sadıx əmi, adam qatırçının qatırını ürkütməz. Bir şəhərə girirsən, bazara gedirsən. Baxırsan biri yağ satır, o biri bal, o biri də soğan-sarımsaq. Hərənin bir şeyə ehtiyacı var. Hamı bazardan yağ-bal alsa, yağın-balın kiloyu min manata qalxar. Kimi yağ-bal alır, kimi soğan-sarımsax. Sən bu şəhərdə yağını-balını satırsan, sat. Amma başqaları da qoy öz mətahını xırıd eləsin. Aşıxsan, aşıxlıx elə.

Səninki, ağam mana kor deyif, gəlif-gedənə vur deyif, – oldu ku,... İndi sana bir təcnis deyəjəm. Bir il də vaxt qoyajam. Açа bilsən, bir də əlimə saz almıyajam.

Sadığın gümbəzinə qarannıx çökdü. Çünki o görürdü kü, bu oğlan ərşdən-kürşdən danışır. Sadığın da oralarınnan heş vaxt iş olmamışdı.

Aldı İman:

Bu gün səfər səndin bir xanə gördüm,
Beş qapısı bağlı, bu dərindi, bu,
Beş qapısı bağlı, beşi açıxdı,
Beşi cavaf verir bu dərindi, bu.

Beş lə'ldən bazarı, beşdi xirdarı,
Beş tərəfdən axır beş çeşməçarı,
Beş tərəfdən çəkilif bürcü, hasarı,
Beşini aradım: bu dərindi, bu.

Beş mənbədi hər birində beş ayə,
Beş yerində mən oxudum beş ayə,
Beş yerində zikr olunur beş ayə,
Beşini qism etdim: bu dərindi bu.

Beşi ağayana meşi məstanə,
Beşi divanədi, beşi əfsanə,
Beşi imanədi, beşi hər yanə,
Beşini cəm etdim: bu dərindi, bu.

Aşıx Sadıx təşvişə düşür. Aya, deyəsən zənnim məni alladıf. Gəl and ver bunun kim olduğunu soruş.

–Səni and verirəm Allaha. Sən Hafiz deyilsən. Kimsən, adın nədi, gizlətmə, düzünü de.

İman dedi:

– İndi ki, allaha and verdin, deməliyəm:

Aldı İman:

Tərk olan vətənnən, yad olan eldən,
Qürbət eldə bir avarə mənəm mən.
Kür gələn mətahı, ruzi əzəldən,
Sinəsi səd həzar, parə mənəm-mən.

Tifil ikən bir ustada qul olan,
Fikir çəkib dərdi-qəmi bol olan.
Ovçu kimi dağ başınnan yol alan,
Axır həsrət bu diyara mənəm-mən.

Dilimin əzbəri şahı heydərim,
Zəmini sütunum, ərşi-dirəyim,
Dil açıb söyləsin vəsfi dəfdərim,
Növrəs İman bil əşkara, mənəm-mən.

İman adını deyənnən sonra aşıx Sadıx üzünü camaata tutuf dedi:

– Adını eşidif, üzünü görmədiyimiz Aşıx Ələsgərin qardaş oğlu İmandı bu, a camaat. Allah rəhmət eləsin. Biz yediyimiz çörək şairrərin, ustaddarın çörəyidi.

Allah şeytana lə'nət eləsin. Bu gün mən İmana toxundum. Allah günahımnan keşsin. İman da bağışdasın. Çünki sənətə dağlar baş əyif.

İman dedi:

– Sadıx əmi, sən də məni bağışda. Gərək sən mənə toxunmayaydın. Atalar sözüdü: çəkişməsən, bərkişməzsən.

Aşıx Sadıx dedi:

– Tamamilə, düz deyirsən, bala. Bu günnən sənnən ata-oğul oluram. İsmayıl sən də başının dəsinnən axşam mənim qonağımsınız. İmanın gəlişinə bir ziyafət verəjəm.

İman bir balaca təşvişə düşdü. İsmayıl gördü kü, İman deyəsən qorxur.

Ona görə üzünü İmana tutuf dedi:

– Get, İman qardaş, bir azdan mən də başımın dəsdəsinnən gələjəm.

İmannan Sadıx gəlillər Sadığın evinə. Sadıx arvadını yanına çağırıf qulağına pıçıllıyır:

– Bir plov hazırra, o verdiyim amanatdan da onun plovuna qarışdır.

İman gördü şər qarışır. Qoçu İsmayıl də gəlif çıxmayıf. İmanın gözü yolda qaldı kı, İsmayıl niyə gəlif çıxmadı!

Yemək süfrəyə gəldi.

Sadıx dedi:

– Buyur, çörək yeyək. İndi İsmayılgil də gəlif səni narahat eliyəjəklər.

İman dedi:

– Aşıx Sadıx əmim, Ələsgərdən bizə vəsiyyət qalıf. Həmkar evində, yə'ni sənətkar evində bir ustad kəlamı deməmiş çörək kəsmiyin. İndi də ki, biz ata oğul olurux. Biz bir qavda çörək yeməliyik.

Sadıx dedi:

– Ay oğul, qismətini ye.

Yaxşı onda ürəyimə bir-neçə xanə söz gəlif. Onu deyim. Sonra çörəyini kəsərəm.

Aldı İman görək nə dedi:

Hamı xəlq olubdu bir qətrə nurdan,
Hər keçən ömürə san demək olmaz,

Yatanda da qalxmır qəflət yuxudan
Nəlayiq insana can demək olmaz.

Əyrilər nə bilər yolu, ərkanı
Çıxartmaz qəlbinnən şəri, şeytanı,
Bedasıl tanımaz yaxşı, yamanı,
Namərd süfrəsinə nan demək olmaz.

Gün xoş keçsə ömür başın tacıdı,
Tale bəd gətirif bəxt qıyqacıdı,
Tə'nəli söz zəhrimardan ajıdı,
Qanmayan nadana qan demək olmaz.

İman qürbət eldə candan ovsanır,
Ləhzədə cəsədi od tutub yanır,
Hərcayi sözlərdən hər vaxt utanır,
Hər gün də alışıb yan demək olmaz.

Elə bu məqamda İsmayıl başının dəsdəsiynən gəlir. Görür kü, İman oxuyur.

Aşıx Sadıxdan soruşur:

– Ayə, ay Sadıx kişi, bu qardaşımı indi də burdamı oxudursan?

Sadıx deyir:

– Ayə, vallah, mən oxutmuram o, özü oxuyur. İsmayıl arif adamıydı. Hər işi tez duyanıydı. Başa düşür ki, burda nəsə bir əmma var.

Odu kü, İsmayıl İmanın qovağındakı plovdan bir qaşıx atır pişiyə. Pişik plovu yeyən kimi canını tafşırır Aşıx Sadığa.

İşi belə görən İsmayıl Aşıx Sadığa deyir:

–Mən səni gəvərtməliydim. Amma əlindəki saz müqəddəsdi. Səni ona bağışdıyıram. Amma sənin cəzanı Allah taala özü verəjək. İsmayıl İmanı da götürüf evinə gedir.

İman gejə İsmayılın evində qalır. Səhər üzünüzə xeyirriknən açılsın. İsmayıl tezdən İmanı Qazağa yola salır. 1 may günü İman gəlif Qazağa çatır. Görür kü, aşıxlar çalıf-çağırıllar. İmannan da xahiş eliyillər ki, bir hava da o çalıf-oxusun. İman götürüf Qazağa belə bir tə'rif deyir.

Dolandım dünyanı, hərrəndim gəldim,
Neçə gündə gəldim pünhan Qazağa,
Axtardım mən bilәm yaxşı, yamanı,
Görmüyənnər qalıf heyran Qazağa.

Tələbələr dəstəsi, müəllimlər dəsi,
Müəllimlər onnarnan eyliyir bəsi,
Bu qurğuya baxan gəlir həvəsi,
Gör neçə yaraşır dastan Qazağa.

Biri May günündə oldu bu parat,
Bu tövqüyə baxan tamam qaldı mat,
Alınsın nəzərə qalmasın həsrət,
Gəlifdi bu Novrəs İman Qazağa.

Bunnan sonra İmanı heş yerdə gördüm deyən olmadı. Bir-iki ay keçənnən sonra əmisi oğlu aşıx Talıf, qardaşı aşıx Musa, əmisi oğlu aşıx Nəcəf oturuf İman haqqında götür-qoy eliyillər. Qardaşı Musa deyir:

– Ay əmi oğlannarı, çovanın bir toğlusu itəndə onu bir ay gəzir ki, görsün harda itif. Artıx iki aydı İmannan heş bir xəvər yoxdu.

Xülasə, çox məsləhət, məşvərətdən sonra bunnarın biri yollanır Qarabağ tərəfə, o biri İravan aranına, biri də Şəmşəddinnən Gəncə arasına kı, İmanı axtarsınnar.

Hara gedillərsə də İmanı gördüm deyən olmur. Nəcəf bir neçə gün bunnardan sonra gəlir. Deyillər ki, yə'qin Nəcəfə rast oluf. Bir də görüllər ki, o da tək gəlir. Nəcəfin qavağına gəlif, onnan xəvər alıllar.

Sən də tək gəlirsən. Heş bir xəvər tuta bilmədin?

– Yox, elə bil İman adda adam heş yaranmıyıfmış. Gözü yaşdı Nəcəf götürüf bu dərdini qohum-əqrabasına necə çatdırır:

Bir kamil səyyaham gəlmir şikarım,
Uçuf əldən bir tərlanım gedifdi.
İşləmir mətahım, yoxdur xirdarım,
Sərrafam, gövhərim, kanım gedifdi.

Arif olan huş ver mənim sözümə,
Səryandar qalmışam özüm-özümə,
Dərd əlinnən yuxu gəlmir gözümə,
Quruyuf bödənnən qanım gedifdi.

Tə'nə sözdü bu sinəmi yandıran,
Cəsədimi qar, boransız donduran,
Xalqa mə'rifətdən mətləf qandıran,
Şirin ləhcə, xoş zəbanım gedifdi.

Haqqın zikri zəbanında car olan,
Sübhü şəm vürdündə kirdigar olan,
Mə'rifət elmində dolu bar olan,
İman kimi növcavanım gedifdi.

Məcnuntək səhraya, düzə yetirən,
Mətləbə çatmayan, gözə yetirən,
Nəcəfin dərdini yüzə yetirən
Sərdarım, sultanım, xanım gedifdir.

ŞAİR KAZIMNAN NAZDI XANIM

Ustaddar söhbətə başdıyanda ustadnaməynən başdıyar. Biz də deyək bir olsun, istəmiyən kor olsun.

Qoç iyidi üç şey çəkər qabağa,
Biri sirdaş, biri yoldaş, biri ad.
Bir doğru söz min yalandan yaxşıdı,
İnsaf deyil, mərdi sən namərdə sat.

Bədoy mənzilinə hər at yetirməz,
Nanəcibə öyüd versən, götürməz.
Ölənə tək nişanını itirməz,
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat.

Hüseyn sözün nə gizləyə, nə dana,
Oğul doğar, nər böyüdər mərd ana.
Gohər mətahını açma nadana,
Çək bazara sərrafına yaxşı sat.

Ustaddar ustadnaməni bir deməzdər, iki deyəllər, biz də deyək iki olsun, düşmənnər partdıyıf ölsünnər.

Dinləyin ağalar tə'rif eyləyim,
Heç yaza çıxmasın qışı namərdin.
Kor olsun gözləri, batsın qulağı,
Ala qarğa olsun quşu namərdin.

Ovcunun içində yeyər çörəyi,
Qapıdan çağırsan titrər ürəyi.
Qurusun meyvəsi, bağı, tənəyi,
Heç aşa deyməsin dişi namərdin.

İstəməz yanında yarı yoldaşı,
Heç gəlməz evinə qohum-qardaşı.

Nagah gələn olsa, salar tələşı,
Açılmaz qabağı, qaşı namərdin.

Canım qurban olsun mərd oğlu mərdə,
Mə'rifət dilində kəmalı sərdə.
Nagah bir qulluğun düşsə namərdə,
Çal qabana dönər başı namərdin.

Axşam olur molla verir azanı,
Heç qaynamaz ocağında qazanı.
Qınamayın bu sözləri yazanı,
Bundan beşbetərdi işi namərdin.

Mən adımı bildirmərəm ellərə,
Namərd düşsün caleyvətən çöllərə,
Qazandığı bada getsin ellərə,
Qalmasın daş üstə, daşı namərdin.

Ustaddar ustadnaməni iki demiyif üç deyif, biz də deyək üç olsun. Düşmənin axırı puç olsun.

Bir yaxşı məclisə yaxşı varanda,
Yaxşı söhbət edər yaxşı danışar.
Yamanlar yığılıb yaman yazmasa,
Yaxşılar huş versə, yaxşı danışar.

Hər zaman olmasın yaxşı yanında,
Yaxşı məclisində, yaxşı yanında.
Yaxşı qullux etsə, yaxşı yanında,
Yaxşıdan öyrənər yaxşı danışar.

Növrəs İman deyər: bil halal olsa,
Halaldan törəyib bir halal olsa.
Lütfədən, loxmadan düz halal olsa,
İsa peyğəmbər tək yaxşı danışar.

Bəli, mənim əzizdərim ərz eyliyim qulluğunuza Göyçə mahalının Ağbulaq kəndinnən.

Ağbulaq kəndində, kimnən, – şair Kazımnan. Şair Kazım bir gün Kalvayı Məhəmməd addı bir kişiynən söhbət eliyirdi. Sözbət arasında şair Kazım Kalvayı Məhəmmədə dedi:

-A Kalvayı, sən mollasan. Mən də həm aşığam, həm də şairəm. Gəl enək Azərbaycana – gəzək, gələk.

Həmin günü yatıllar. Savah açılanda, savahlar – hamının üzünə xeyirriyyə açılsın – hər ikisi ata minif yola düşüllər. Günə bir mənzil, teyyi mənazil gəlif çıxıllar Xınna dərəsinə. Xınna dərəsinin aşağı tərəfinə Bəylik deyirdilər. Ona görə oraya "Bəylik" deyirdilər ki, orda addı-sannı bəylər çoxuydu. Onnarın adına görə o yerə Bəylik adı vermişdilər. Allahyar bəyin oğlu Həmid bəy, Ədil bəy, xülasə, çox bəylər orda yaşıyırdı. Şair Kazımnan Kalvayı Məhəmməd bu Bəyliyə çatanda qəlyan çəkmək istədilər. Bir yerdə əylənif qəlyan doldururdular. Əllərini civlərinə atdılar kı, kibrit çıxartsınnar. Gördülər kibrit yoxdu yannarında. Çaxmax-qoy varıydi. Çaxmax çəkdilər, qoy od almadı. Ancax ətrafa baxanda gördülər ki, bir çəpərin içində iki mərtəbəli bir gözəl imarət var. Kalvayı Məhəmməd şair Kazıma dedi:

-Get o, imarətdən kibrit olmasa od, od olmasa qoy gətir. Çaxmax çalax, qalyanımıza, yandırax.

Şair Kazım razı oldu. Öz atını Kalvayı Məhəmmədə verdi. Getdi həmin imarətdən od-qoy istəməyə. Bu imarətin ətrafına çəkilən çəpər çox böyüküydü. Şair Kazım bu çəpərin başına çox hərrəndi. İçəri girməyə yol tapa bilmədi. Naəlac qalıf baxıf gördü kü, qaratikən çəpərinin bir yerində bir kilif var. Bir təhər aşağı əyilif keçdi çəpərin o üzünə. Amma saz da əlindəydi. Kalvayı Məhəmməd gördü kü, Şair Kazım çəpərin o üzünə keçən kimi bir vurhavur, bir səs-küy düşdü kü, ta nə deyim! Kalvayı Məhəmməd bu səs-küyə qulax verif gördü kü, Şair Kazıma nalayıx sözdər deyillər. Biçara Kazım naəlac qaldı. İstədi ki, girdiyi kilifdən geri çıxsın. Mümkün olmadı. Bacarmadı çıxa. Şair Kazım dedi:

-A bajı, məni niyə bihörmət eliyirsiniz? Deyin görüm nə iş tutmuşam, günahım nədi?

Xanımlar dedi:

-Bu saat deyərik, günahın nədi.

İndi görək, Şair Kazım nə iş görüf. Sən demə, çəpərin içəri tərəfində bostan əkiflərmiş. Bostanı təzəcə suvarıflarmış. Şair Kazım ayağının altına baxmadan kalmanı çarığa qoyma deyif ayaxlıyıf, zığa-palçığa batırıf bostanı, bir-birinə qatıf zay eliyifmiş. Xanımlar dedilər:

–A, qara zola heç ayağının altına baxırsanmı?

Şair Kazım aşağı baxıf, görür kü, yerdə yarpax-yurpax var. Deyir:

–Ay xanım, baxıram burda nə oluf ku?

Xanımlar bərk gülüşüllər. Deyillər:

–A, görməmiş, sən bu qarpız-yemiş, xiyar tağlarını görmürsən?

Şair Kazım aşağı əyilif bir dənə qarpız tağı əlinə götürüf deyir:

–Buna bizdərdə eşşək kövələyi deyillər.

Şair yerdə qalan yemiş-xiyar tağlarını ayağınnan qurdalıyıf dedi:

–Bax, bunnara da bizim yerdə qargülü deyillər. Burda bostan hardadı?! Siz məni görməmiş hesav eliyirsiniz. Bizim dağlarda qar əriyif gedənnən sonra altınnan belə güllər çıxır. Buna biz qargülü deyirik.

Xanımnan qızdara bərk gülüşmə düşdü.

Dedilər:

–Bu kişi heş dünya görmüyüf.

Biri də dedi:

–Bu kişi, ya meşə adamıdı, ya da kı, ayrımın lap zırısınnandı.

Halbuku, şair Kazım elədiklərini dansıtmax üçün özünü bilməməzdiyə vurmuşdu.

İndi sizə deyim bu imarətdən. İmarət bu yerrərdə çox böyük vardövlət sahibi olan Molla Gülpəri xanımınıydı. Burdakı qızdar da onun qaravaşdarı, buyruxçularıydı.

Molla Gülpəri xanım qızdara dedi:

–Bu kişini içəri aparın. Bunu bir yaxşı başa salax.

Qızdar Şair Kazımı içəriyə dartışdıranda o elə fikir elədi ki, deyəsən, bunnar məni döyməyə aparıllar. Nə var kı, qəriv adamam. Döyə də biləllər, öldürə də. Torpax qüvvəli olar. Geri baxanda gördü kü, Molla Gülpəri xanım dalınca gəlir. Öz-özünə dedi ki, gəl buna bir tə'rif de, bəlkə xoşuna gəlif taxsırımı bağışdıya:

Alıf Şair Kazım Molla Gülpəriyi görək nejə tə'rif eliyir:

Dəli könül, qayıt bir sən geri bax,
Bir görüynən dalısınca kim gəlir.
Əlif-bey oxuyan heç olmaz naşı,
Cim üstünnən cim addıyır, mim gəlir.

İsmin xəvər aldım Molla Gülpəri,
Yel vuruf dağıdıf, açılıf səri.
Dürdanəyə bənzər üzünün təri,
Ağlı, huşu ol sərində cəm gəlir.

Şair olan dərdin söylər xanıma,
Xanım, qadan gəlsin mənim canıma.
Anam ol, bajım ol, dur gəl yanıma,
Mən dəliyəm ağlım dəmhadəm gəlir.

Yoldaşım yol kənarında qalıfdı,
Gör başıma nə qəzalar gəlifdi.
Şair Kazım burda dəli olufdu,
Hə nə desəm, xanımlara dan gəlir.

Söz tamama yetdi. Gülpəri qızdara dedi:

-Döymüyün, deyəsən, bunda aşıxlıx, şairrik də var.

Elə bu halətdə əli sazdı bir gözəl xanım qapıdan içəri girdi. Xoş-beş eliyif məclisə salam verdi. Amma gördü kü, əlində saz bir kişi ayax üstə sazını köklüyür. Bu gələn əli sazdı xanım kim olsun, kim olmasın, Kürdəmirri Nazdı xanım olsun. Nazdı xanım irəli yeriyif dedi:

–Ay kişi, aşıxsan?

Şair Kazım dedi:

–Bəli, aşığam, bir az da şairriyim var. Sözünü de görüm, nə istiyirsən?

Nazdı xanım dedi:

-Mən səni kimisini göydə gəzirdim, yerdə əlimə düşüfsən. Bu imarət ki var, mənim yaxın dostum, bajılığım Molla Gülpəri xanımın evidi. İndi sənnən deyişəjəm. Səni bağlasam sazını alajam. Özünü də Molla Gülpəri xanıma nökər verəjəm.

Şair Kazım dedi:

–Ay Nazdı xanım, el arasında belə bir misal var. Deyillər: qonax umduğunu yeməz. Sən hələ yeməmişdən gəyirirsən. İndi sən elə sayırsan, gör mən nə sayıram. Mənim də fikrim səni dağa aparmaxdı. Yaylaxda bizim arvada kömək eliyərsən. Arvad inəyi, qoyunu sağar, sən də bişirif qaymax sərərsən.

Bu arada Molla Gülpərinin evinə aşıx gəldiyini eşidif xeyli adam toflaşmışdı.

Onnar vəziyyəti belə görüf dedilər:

– Bir birinizə belə hərbə-zorba gəlməkdən bir şey çıxmaz. Hər ikiniz əhd-peyman eliyin, deyişin. Banyatdar otusun, kim üstün gəlsə söz onundu.

Müqavilə bağladılar. Bəylərdən bir neçəsi qol çəkdi. Şair Kazımnan Nazdı xanım da qol çəkdilər. Deyişmə başdandı. Nazdı xanım dedi:

–Əvvəlcə sözü sana verirəm. Çünkü bilirəm ki, mən səni bağlıyajam. Ancax burya toflaşannarın xətrinə istəmirəm ki, elə yek kəlmə səni bağlıyım. İstiyirəm ki, söhbətimiz bir az uzansın.

Əvəlcə sözü Şair Kazıma verdilər. Amma məclisdə çoxlu gülüşmə, çaxnaşma varıydı. Hamı düşünürdü kü, Şair Kazım bağlasa, Nazdı xanım ona nə təhər gedəjək. Axı, o nə yaşda, nə də sur-sufatda onun tayı döyüldü.

Deyişmə başdandı. Alıf görək, şair Kazım nə deyir, Nazdı xanım ona nə cavaf verir:

Nazdı xanım nə nazınan gəlirsən,
Asta yeri ayaxların inciyər.
Sağrı başmaq dar gəlifdi ayağa,
Uzax getmə, barmaxların inciyər.

Aldı Nazdı xanım:

Kalman çarıx ged axtar, tap tayını,
Mana demə ayaxların inciyər,
Xanımlara çaldıraram toyunu,
Yeriyəndə topuxların inciyər.

Aldı Şair Kazım:

Nazdı xanım, sənnən mətləf dilərəm,
İşarətnən hər nə desən bilərəm.
Öpərəm telinnən, məmən yalaram,
Dişdəmərəm, yanaxların inciyər.

Aldı Nazdı xanım:

Ağıl, mərfət yığ başına, az danış,
Allaha bax, tanrıya bax, düz danış.
Özünə bax, sözünə bax, söz danış,
Dil kəsilər, dodaxların inciyər.

Aldı Şair Kazım:1.5

Mən Kazımam, düz söylərəm sözümü,
Görüf səni itirmişəm özümü,
Döyüf məni incitməynən özünü,
Ağ əllərin, biləklərin inciyər.

Aldı Nazdı Xanım:

Sən deməynən Nazdı xanım moydadı,
Saz çalmax bizdərdə adət, qaydadı.
Hər nə desən bu canıma faydadı,
Başın gedər, qulaxların inciyər.

Söz tamama yetdi. Nazdı xanım gördü kü, bu yaman qarayaxadı, bunnan can qurtara bilməyəjək. Qaya kimi dilləşir adamnan. Deyəsən, bu gedişnən məni bağlıyajax.

Nazdı xanım ürəyində dedi:

–Gəl buna deynən deyişmiyək. Öz razılığınnan qal burda, bağa bağban ol.

Bu fikrini o axır kı, çar-naçar dilinə gətirdi.

Şair Kazım bu işə razı olmuyuf dedi:

–Sözümüz sözdü, mən fırsatı fota vermərəm. Nə deyirsən de, gəlsin. Qavağında nər kimi dayanmışam. Atalarda bir məsəldi "Maydanın təpiyi erkək atı ağrıtmaz".

Məclisə bərk gülüşmə düşdü. Dedilər:

–Nazdı xanım, özünü bərkit, deyəsən bu qara-ola səni dağa apara-

jax. Deyəsən, bunun söz dağarcığı doludu. O nejə demişlər, dolu birini qorxudar, boş ikisini. Bu kişi öz qavınnan yeyənə oxşamır.

Məclis əhli dedi:

–İndi Nazdı xanım qavağa düşsün.

Söz verildi Nazdı xanıma. Xanım aldı görək nə dedi:

Əlinə aldığın nə sazdı oğlan,
Oğlan getmə dağa, bağman ol bağa.
Səbrin, qərəlin nə azdı oğlan,
Oğlan getmə dağa, bağman ol bağa.

Aldı Şair Kazım:

Əlimə aldığım bu sazdı xanım,
Əylənə bilmərəm, gedirəm dağa.
Səbrim, qərəlim, çox azdı xanım,
Əylənə bilmərəm, gedirəm dağa.

Aldı Nazdı xanım:

Ağlı zayıl olur dağ adamının,
Qəlbi paxıl olur dağ adamının.
Hüsnü mayıl olur bağ adamının,
Oğlan, getmə dağa, bağman ol bağa.

Aldı Şair Kazım:

Kazımın dilində yalan əylənməz,
Hər nə var söylüyər, olan əylənməz.
Sizin yer istidi, gələn əylənməz,
Gəl səni aparım, ala yaylağa.

Aldı Nazdı xanım:

Nazdı deyər, alma nardan yaxşıdı,
Aranın istisi qardan yaxşıdı.
Bizim yerrər sizin yerdən yaxşıdı,
Oğlan, getmə dağa, bağman ol bağa.

Söz tamama yetdi. Şair Kazım dedi:

-Mən bağa bağman olmağa gəlməmişəm. Sözümüz sözdü; ya sən

deyən olajax. Mən Molla Gülpəri xanıma nökər, bağına bağban olajam, yada kı, mən deyən olajax. Səni aparajam bizim arvadın qulluğuna.

Məclis əhli hamı bir ağızdan dedi:

–Şair Kazım düz deyir. Biz bu işin axırını gözdüyürük.

Deyişmə təzədən başdandı. Məclisə o qədər adam yığıldı ki, yer olmadı otumağa. Gödək adam uzun adamın çiyninə çıxırdı kı, görək bunun axırı nə təhər olajax. Deyişmə getdikcə qızışırdı. Sözü genə Nazdı xanıma verdilər. Camahat çox diqqətnən, maraxnan qulaq asırdı.

Bu dəfə Nazdı xanım keşdi qıfılbəndə. Aldı görək nə dedi:

Bizdən salam olsun, a şair Kazım,
İnsanın bənası de nədən oldu?
Xaliq onu neçə şeydən yaratdı,
Onun bədənində can nədən oldu?

Aldı Şair Kazım:

Al cavavın verim, a Nazdı xanım,
İnsanın bənası bu yerdən oldu.
Xaliq onu üçcə şeydən yaratdı,
Onun bədənində qan cürdən oldu.

Nazdı xanım dedi:

–Sazı yerə qoy, təslim ol. Elə bu yerdə bağlandın. Düz açа bilmədin.

Şair Kazım dedi:

–Çox düz açmışam. De görüm, nəyi düz aşmadım?

Nazdı xanım dedi:

–Sən deyirsən insanın bədənində can cürdən oldu. Bu nə sözdü, sən deyirsən?

Şair Kazım dedi:

-Cür ermənicə su deməkdi. Sözün qafiyəsi düz gəlmirdi deyin su yerinə cür dedim.

Məclis əhli dedi:

–Elə şey ola bilməz, Yalan deyirsən, sazı qoy yerə, Nazdı xanıma təslim ol.

Ona kimi Həmid bəy dedi:

-O sözü yalana çıxarmax olmaz. Gedin burda bir pinəçi var. Adı Hamparsumdu, onu burya çağıran görək cür doğrudanmı su deməkdi.

Bir adam göndərdilər pinəçi Hamparsumu çağırıf getdilər. Hamparsum içəri girən kimi Həmid bəy irəli yeriyif dedi:

–Ayə, Hamparsum, sizin dildə cür nə deməkdi?

Hamparsum dedi:

–Biz suya cür deyirik.

Şair Kazımın sözü doğruya çıxdı.

Deyişməni davam elədilər.

Aldı Nazdı xanım:

Xaliq nə yaratdı gətdi cahana,
Bulud nədən oldu, çıxdı asmana.
De ruhlar hansı gün verildi cana,
Cəsəd nədən oldu, can nədən oldu?

Aldı Şair Kazım:

Xaliq bir mərməri gətdi cahana,
Bulud onnan oldu çıxdı əsmana.
Ruhlar cümə günü verildi cana,
Cəsəd torpaxdandı, can nurdan oldu.

Aldı Nazdı xanım:

Nazdı deyər: nədi ərşin payası,
Nədən qarışıfdı onun mayası?
Kimə gəldi haqqın əziz ayası,
Ay nədən yarandı, gün nədən oldu?

Aldı Şair Kazım:

Beş pənci ayadı ərşin payası,
Salavatnan, nurdu onun mayası.
Məhəmmədə gəldi haqqın ayası,
Ay nurdan yarandı, gün nardan oldu.

Söz tamama yetdi. Yenə Nazdı xanım qavağa düşdü. Başdadı başqa bir bağlama deməyə.

Aldı Nazdı xanım:

Bizdən salam olsun, a şair Kazım,
Mə'rifət elminnən düz söylə görüm.
Suli iman kimdi, suli islam kimdi?
Onnarı bir-birinnən arala görüm.

Aldı Şair Kazım:

Al cavavın verim, a Nazdı xanım,
Alimlər mollalar xub bilər onu.
Suli iman sünnüdü, suli islam şiyə,
Əliyyən vəliyullah aralar onu.

Aldı Nazdı xanım:

O kimiydi dərsin aldı pirinnən,
Atəş kənar oldu balı pərinnən?
O kimiydi nur yarandı tərinnən,
Onnarı görənnər kim ola, görüm?

Aldı Şair Kazım:

Cəbrayıldı, dərsin aldı pirinnən,
Atəş kənar oldu balü pərinnən,
Peyğəmbərdi nur yarandı tərinnən,
Göydə məleykələr gördülər onu.

Aldı Nazdı xanım:

Nazdı deyər, nələr gəldi o cana?
O kimiydi baş əymədi Qur'ana?
Bir qardaş, bir bajı, bir ata-ana,
Qardaş bajısını nejə ala görüm?

Aldı Şair Kazım:

Kazım deyər, nəhlət gəlsin o cana,
O şeytandı, baş əymədi Qur'ana.

Göydən bir məleykə gəldi cahana,
Şəsti peyğəmbərə verdilər onu.

Söz tamama yetdi. Nazdı xanım dedi:

–Kürdəmirdən buraya gələnə kimi çox aşıxlara rast olmuşdum. Mənim meydanımda at sürən olmuyuf. Sən gəl vaqtikan sazı yerə qoy, bağa bağman ol. Sən məni bağlıya bilməzsən.

Məclis əhlinin kimisi Nazdı xanımın tərəfini saxlıyırdı, kimisi də deyirdi:

–Aya, A göyçəli balası, özünü tofla, Nazdı xanımı dağa aparmasan, o şairrik adı sana haram olsun.

Məclis əhli dedi:

–Yenə Nazdı xanım qavağa düşsün.

Deyişmə davam etməyə başdadı. Nə Şair Kazım özünü sındırıf təslim olurdu, nə də ki, Nazdı xanım.

Nazdı xanım deyirdi:

–Əl çəkən döyüləm, səni Molla Gülpəri xanıma nökər verəjəm.

Şair Kazım da deyirdi:

–Səni atın tərkinə çəkif Göyçüyə aparajam.

Deyişmə çox maraxlı keçirdi. Bu dəyişmənin səs-sorağını bütün bəylik dərəsi eşidif məmə deyənnən, pəpə yeyənə kimi Molla Gülpəri xanımın bağını yığışmışdı.

Nazdı xanım genə keşdi hərbə-zorbaya:

Aldı Nazdı xanım:

Mənim meydanıma güzar edənin,
Bənizində bir qətrə qan olarmı?
Qoyaram kamana, ataram çölə,
Çağır harayına çatan olarmı?

Aldı Şair Kazım:

Badı səba yuxusunnan ayılan,
Səni görən saralarmı, solarmı?
Alma yanağınnan, ay qavaqınnan,
Qaymax dodağınnan əmən ölərmi?

Aldı Nazdı xanım:

Özüm çox gözələm, məməmdə bal var,
Canın qurtarmazsan, yüz mana yalvar.
Dəryam çox dərindi, divində lil var,
Naşı qavvas ora dala bilərmi?

Şair Kazım gördü kü, Nazdı xanım özünü buraxıf, avır-haya eləmir. Yaxşı deyiflər: hərcayı sözün də mərcayı cavavı olar. Axı, bunun nə dəryası olajax kı, mən orda üzə bilmiyəm.

Aldı şair Kazım:

Arxalığın narış, nar məmən turuş,
Ağlın varsa, hədikləmə, gəl barış.
Arxın bir çermikdi, dəryan üç qarış,
Qavvas olan üzüf orda qalarmı?

Aldı Nazdı xanım:

Nazdıyam, salaram səni zindana,
Yanımca aparram Şəki, Şirvana.
Ya hində qul verrəm, ya da türkmana,
De Qafqazda bir də səsin gələrmi?

Aldı şair Kazım:

Kazımam, sığınnam qadir sübhana,
Qadir sübhan məni salmaz zindana.
Gəl qurvan eliyək bu canı-cana,
İndi görən mən deyənnər olarmı?

Söz tamama yetdi. Nazdı xanım gördü kü, Şair Kazımın gözdəri yaşnan doluf, dedi:

– Gəl bunnan soruş, gör fikrinnən nə keçir. Gözdəri niyə yaşarıf.

Nazdı xanım dedi:

– A Kazım qardaş, bu ağıl kəsən şey döyül. Sən məni bağlıyıf Göyçüyə aparasan. Gəl, vaxtikan təslim ol, sazı qoy yerə.

Şair Kazım dedi:

– Yox, Nazdı xanım, sözümüz sözdü. Sözünün üstündə dur. Öldü var, döndü yoxdu. Səni bu aranın istisinnən çıxardıf aparajam yay-

lağa.

Nazdı xanım dedi:

– İndi sana bir neçə bağlama deyəjəm. Fikrin var kı bunu da açasan?

Şair Kazım dedi:

– Nə deyirsən de, sənin dediklərini mən bağlama hesav eləmirəm. Sən dediklərin mənim canıma sarı yağ kimi yayılır. İndi de görüm, nə deyəjəksən? Mən meydannan qaçan döyüləm. Məni anam mərd doğuf.

Aldı Nazdı xanım görək nə dedi:

Ovçular ova çıxanda,
Nələr gəldi daşa doldu.
De könülnnən nələr keşdi,
Gözdərin qan-yaşa doldu.

Aldı Şair Kazım:

Ovçular ova çıxanda,
Kəklik gəldi daşa doldu.
Nazdı yar yadıma düşdü,
Gözdərim qan-yaşa doldu.

Nazdı xanım dedi:

–Sən nazdı yar deyirsən, o kimdi?

Şair Kazım dedi:

–Nejə yanı kimdi? Bu qədər vurhavurdan sonra hələ soruşursan da...

–Nejə yanı kimdi? Mən üröyimnən keçirirdim ki, allaha yalvarım kı, əgər səni mana yazmayıfsa, qərərini dəyişsin. Sana quşum qonuf, əl çəkəsi döyüləm. Göz qənimini tanıyar. Mən bilirəm ki, səni bağlıyajam.

Elə bu məqamda Kalvayı Məhəmməd qapıdan içəri girdi. Baxıf gördü kü, şair Kazım məclisin ortasında bir gözəl xanımnan deyişir. Xanım nə xanım, sinə yumru, döş yumru, saz yumru. Baxdıxca adam heyran olur. El arasında belə bir məsəl var. "Nə yetgindi, nə ötgündü, nə kaldı". Gəl məni gör, dərdimnən öl. Əlini vurma, geridə dur. Bu qız ha döyül, qara qızdırmanın dərmanıdı.

Şair Kazım gözünü hərriyəndə Kalvayı Məhəmmədi görüf, dedi:

–Kalvayı, san atdardan muğayat ol. Yaxşı-yaxşı otar. Mənim atıma laf yaxşı bax. Çünki bax bu gördüyün mənnən deyişən xanımı allahın köməkliyinnən tərkimə çəkəjəm.

Camaata gülüşmə düşdü.

Hamı dedi:

–Əşi, bu aşığın kəndinə gümana gəlir ki, belə danışır. Nazdı xanımın bu belə dedikcə elə bil dədəsinə od vururdular.

Dilini, dodağını gəmirə-gəmirə aldı sözün o biri xanəsini:

Niyə girdin bu bostana,
Səni saldırram zindana.
Rast gəldin bir aj asdana,
Bu işin çətin iş oldu.

Aldı Şair Kazım:

Bülbülü görmüşəm güldə,
Gümüş kəmər incə beldə.
Çox öyünmə qürbət eldə,
Ağlım gəlif başa doldu.

Aldı Nazdı xanım:

Nazdıyam, nazım var mənim,
Nə xoş avazım var mənim.
Ağlım var, gözüm var mənim,
Ömür gəlif yaşa doldu.

Bu sözdərnən Nazdı xanım demək istiyirdi ki, ağlım da var, gözüm də. Görmürəmmi sən mənim tayım deyilsən, qojasan.

Aldı Şair Kazım:

Kazım deyər, evim yoxdu,
Çaxmağım var, qovum yoxdu.
Sənnən başqa ovum yoxdu,
Tülək, tərlan daşa doldu.

Söz tamama yetdi. Nazdı xanım dedi:

–A Kazım qardaş, yoruldux, bir az gedək, dincələk.

Molla Gülpəri xanım çay-çörək hazırratdı kı, yesinnər-işsinlər, dincəlsinnər. Yedilər-işdilər. Şair Kazım getdi Kalvayı Məhəmmədin yanına. Ata baş çəkif gəldi. Bir yerdə dirsəkləndi, dincəldi.

Nazdı xanım da çıxdı ikinci mərtəbəyə dincəlməyə. Arada bir-iki saat fasilə oldu. Şair Kazım yatdı, dincəldi, qalxdı. Deyişmə yerində Nazdı xanımı gözdədi-gözdədi, gördü bu gəlif çıxmadı. Şair Kazım fikirrəşdi ki, Nazdı xanım çox yoruluf, ya'qın kı, yatıf, qaldı. Şair Kazım bir az da gözdədi. Baxıf gördü kü, gəlmir. Çıxdı ikinci mərtəbiyə. Gördü kü, Nazlı xanım bir çarpayıya uzanıf, özünün ipək tumanıynan üstünü örtüf, yatır. Şair Kazım sazı basdı sinəsinə. Aldı görək Nazdı xanıma nə dedi:

Nə yatıfsan, ağ otaxda,
Demirsənmi, gələn olu.
Üstünə dejurnu qoydur,
Bu qalanı alan olu.

Nazdı xanım oyanmadı. Şair Kazım aldı sözün o biri xanəsini.

Üstünə örtüf tumanı,
Aç gözünü, məni tanı.
Şahlar görər bu bostanı,
Demirsənmi talan olu.

Nazlı xanım yenə oyanmadı. Sazın səsi elə bil ki, Nazlı xanıma layla çalır, o daha da xumarranırdı.

Kazım çox çıxıb fətdərdə,
Hər şey tapılar ötdərdə.
Yoxsa sizin adətlərdə,
İpək tuman yorğan olu.

Nazlı xanım gərnəşif durdu. Gördü kü, şair Kazım ayax üstə, saz da əlində duruf Nazdı xanımın yanında.

Nazdı xanım dedi:

-Ay Kazım qardaş, çoxdanmı burdasan? Bağışda, biavır oldum.
Şair Kazım dedi:
-Onda qulaq as, gör nə deyirəm.

Aldı şair Kazım:

Qaşın cadı, gözün hillə,
Çox danışma qəllə-qəllə.
Mürvət olsa sən gözəldə,
Mənnən bir kənara çıxar.

Nazdı xanım dedi:
-Ay qara zola, o nə deməkdi? Nejə yeni mənnən bir kənara çıxar. Mən sənnən nə kənara çıxmalıyam.

Aldı Şair Kazım:

Nazdı yar bizdən pozuldu,
Bağrımın başı əzildi.
Allahdan belə yazıldı,
Ağın üstə qara çıxar.

Nazdı xanım dedi:
–A Kazım qardaş, gəl sən sözünə sərhəd qoy. Sən deyəsən, ağlına gələni danışırsan. Sən məni bağlasan da, mən sana gedən döyüləm.
Onda görək Şair Kazım aldı nə dedi:

Kazımam, dəryaya dallam,
Canımı oddara salam,
Bağlaram, bil səni allam,
Ahı-nalən hara çıxar?

Nazdı xanım dedi:
–A Kazım qardaş, indi qulaq as, gör nə deyirəm? Mən deyən sözdərə əməl etsən həm sənin üçün yaxşı olar, həm də mənim üçün. Sən məni bağlasan, aparsan, mənim nazımnan oynuya bilmiyəjəksən. Sən heş mənim ənnik kirşanımı ala bilməzsən. Mən ərkəsöyün böyümüş bir adamam. Bu deyişmədə nə mən səni, nə sən məni

bağlıya bilmədik. Gəl qardaş-bajı yazılax. Sən mana qardaş ol, mən də sənə bajı.
Aldı görək Nazdı xanım bunu şe'rnən nejə dedi:

Kürdəmirdən gəldim burya,
Alınmadı sazım mənim.
Sən bir rəiyyət oğlusan,
Kim çəkəjək nazım mənim.

Şair Kazım əlini sinəsinə döyüf dedi:
–Bax, bu qara kal çəkəjək sənin nazını.
Aldı Şair Kazım görək nə dedi:

Dərdin alım Nazdı xanım,
Mən çəkərəm nazını sənin.
İkimiz kəlmə kəsmişik,
Aparajam özüm sənin.

Aldı Nazdı xanım:

Məni bağışda allaha,
Kərbəlada Nəcəf şaha.
Söz atıf, batma günaha,
Gəl aparma sazım mənim.

Aldı Şair Kazım:

Mən allahı bir bilirəm,
Nəcəf şahı nur bilirəm.
Cəmi günahlar bilirəm,
Qol qoyufsan özün sənin.

Aldı Nazdı xanım:

Nazdıyam, balalı başım,
Sel kimi axır göz yaşım.
Əmim var, yoxdu qardaşım,
Qardaşım ol, Kazım mənim.

Şair Kazım gördü kü, Nazdı xanım özünü bağlanmış hesav eliyir. Məclis əhli də gördü kü, Nazdı xanım haravıyı düzə endirif, daha gedə bilmir.

Şair Kazım öz-özünə götür-qoy elədi, dedi: "İyid basdığını kəsməz". Bu ku, mana qardaş dedi, bu sözdən sonra deyişməyin mə'nası yoxdu. Gəl, elə sən də ona bajı de.

Aldı görək şair Kazım bunu söznən nejə dedi:

Kazımam yoxdu əlacım,
Misirdən gəlmir xaracım.
Nazdı xanım sən ol bacım,
Aparmıram sazın sənin.
Bağışdadım özün sənin.

Məclisdə oturan ağalar, bəylər və bütün məclis əhli Kazıma "afərin" deyif alqışdadı. Bunnan sonra Nazdı xanım dedi:

–A Kazım qardaş, indi gəl əyri oturax, düz danışax. Əgər biz bajı-qardaş olmasaydıx, sizin yerdə mən yaşıya bilərdimmi? Bir de görüm sizin yer nə təhər yerdi?

Aldı Şair Kazım görək bu sualın cavavında nə dedi:

Bizim yerin vəsmi-halın söylüyüm,
Hər gələn aşığı veran eyliyir.
Ağılı kəsəndə hava xoş keçir,
Gah qar yağır, gah da boran eyliyir.

Nazdı xanım dedi:

–A Kazım qardaş, bəs o qar-boran olan yerdə mal-dövləti nə təhər saxlayırsanız?

Şair Kazım dedi:

–Qulaq as, deyim nə təhər saxlayırıx.

Aldı Şair Kazım:

Zimistan gələndə qarı çox olur,
Yığır daldalara tarı çox olur.
Göyçənin dövləti-varı çox olur,
Yüz də boran əssə, vara neyliyər?

Kazım dedi:

–Yay olanda malın ələfini yığırıx, doldururux, samannıxlara, qış olanda da töküf yediririk.

Aldı Şair Kazım görək bunu şe'rnən nejə dedi:

Adım şair Kazım, elim Ağbulax,
Varmı onu kimi suyu sağ bulax.
Göyçənin kefidi, üçcə ay yaylax,
Doqquz ay dövranı aran eliyər.

Nazdı xanım dedi:

–A Kazım qardaş, yaxşı oldu ku, məni aparmadın. Elə yerdə mən dözə bilməzdim.

Məclisdə Ədil bəy öz nişannısı Navat xanımnan oturmuşdu. Birdən Navat xanım Şair Kazımın gözünə sataşdı. Şair Kazım ürəyində dedi:

–Gəlsən bu Navat xanıma bir tə'rif söylüyəm.

Aldı Şair Kazım görək nə dedi:

Gəldim mayıl oldum mən bu Gülşana,
Gül üzünnən niqavını at, Navat.
O qələm qaşına, inci dişinə,
Müştəriyəm, mətahını sat, Navat.

Navat xanım dedi:

–Ay Kazım qardaş, əgər sən Nazdı xanımı aparsaydın, nəynən aparardın?

Şair Kazım gülə-gülə davam elədi:

Əyninə geyifsən darayı büzmə,
Hərdən bir silkinif canımı üzmə.
Qaşını oynadıf gözünü süzmə,
Gedər olsa, tapajaydım at, Navat.

İndi sizin yerrər bəylik elidi,
Siyah zülfün ay qavağın telidi.

Yanaxların Muroy, Muşoy balıdı,
Dilin şəkər, dodaxların qət, Navat.

Qızıl araşqındı başda gülahı,
Səni sevən sevər o bir allahı.
Kazımın mətləbin versin ilahı,
Sən də yeri muradına çat, Navat,
Sevgilinə, Ədil bəyə get, Navat.

Söz tamama yetdi. Qapıdan bir oğlan içəri girif dedi:

–A Kazım qardaş, səni o çəpərin dalında bir kişi çağırır. Şair Kazım gördü kü, bunu çağıran oğlan axşam aşığa nəmər yığılanda məclisdən qaçan oğlandı. Şair Kazım oğlana dedi:

–Bir ayağını saxla, sana deyiləsi sözüm var.

Aldı Şair Kazım görək nə dedi:

Bəy deyəndə pərvazlanıb uçurdun,
Çay gələndə hamıdan tez içirdin.
Niyə durub məclisimdən qaçırdın,
Sənin o boz, gödək yarına...

Qohumsuz qardaşsız dağa köçənin,
Halalım üstündən haram içənin.
Aşıx məclisindən durub qaçanın,
Belə namıs, qeyrət arına...

Kalvayı Məhəmməd gördü kü, bir gözəl qadın məclisə gedir. Ona dedi:

–A bajı, a bajı, Kazım kişiyə de ki, yoldaşın səni çağırır. Şair Kazım dedi:

–A bajı, ayağını saxla sana deməyə sözüm var.

Aldı Şair Kazım görək na dedi:

Arvad var kı, hər divanda oxuyur,
Arvad var kı, yaxşı gəvə toxuyur.
Arvad var kı, qoynu cənnət qoxuyur,
Ona mehman olum, yanında qalım.

Kalvayı Məhəmməd gördü kü, məclisə bir qoja qarı gedir, dedi:

–Ay qarı nənə, imanına qurvan olum, Kazım kişiyə deynən səni çəpərin dalında yoldaşın çağırır.

Qarı gəlif Kazıma yoldaşının ismarışını çatdırdı:

Şair Kazım qarıya dedi:

–Qarı nənə, ayağını saxla, sana da bir tə'rif deyim.

Şair Kazım aldı görək sözün o biri xanəsində nə dedi:

Qarı var kı, donqar tutar belini,
Özü oturar işə vurmaz əlini,
Axşam-sabah dannıyajax gəlini,
Onu cəhənnəmin qoruna salım.

Adam var kı, sultan gələr, xan gedər,
Adam var ki, dostu görüf yan gedər.
Hər kim bu dünyadan mal-heyvan gedər,
Onun kəlləsinə, goruna...

Söz tamama yetdi. Məclis əhli hər tərəfdən Şair Kazıma çoxlu nəmər verdilər.

Şair Kazım məclisdə olannarnan, Nazdı xanımnan, Molla Gülpəri xanımnan halal-hümmət eliyif, yoldaşı Kalvayı Məhəmmədi də götürüf Göyçüyə qayıtdı. Yola düşəndə Nazdı xanım gətirif Şair Kazımın xurcununa bir bağlama qoydu.

Şair Kazım soruşdu:

–O nədi, qoyursan?

Nazdı xanım dedi:

–Gedəndə görərsən, nədi.

Şair Kazım bağlamıyı gətirif açanda gördü kü, bir dəst aşıx paltarıdı.

Bunnan da Şair Kazımnan Nazdı xanım əhvalatı başa çatır. Hamınız həmişə kefdə, damaxda olasınız.

ŞAİR HƏSƏN XƏYALLIYNAN AĞDABANLI AŞIX ŞƏMŞİRİN GÖRÜŞÜ

Qulluğunuza hardan ərz eliyək Göyçə mahalının Daşkənd kəndində Şair Xəyallıdan.

Şair Həsən Xəyallı öz dövrünün savaddı adamı kimi hər tərəfə səs-sorax salmışdı. O cümlədən neçə aşıxların dilini kəsif, neçə din xadimlərini lal eyləmişdi. Deyirdilər evi yıxılmış Xəstə Qasımdı, dünyaya yenidən gəlif. Bu səs-sorax Kəlbəcər mahalının Ağdaban kəndində şair Qurbanın oğlu aşıx Şəmşirə də çatmışdı.

1953-cü ilin payız ayıydı. Aşıx Şəmşir Kəlbəcərdən aşıf Göyçə mahalının Daşkənd kəndində Şair Həsən Xəyallının qonağı oldu. Hər iki ustad qucaxlaşıf görüşdülər. Aşıx Şəmşirə Həsən Xəyallı bayatıynan belə xoş gəldin elədi:

Mən aşiqəm haqq gəlif,
Eliyif sorax gəlif,
Könlümə işıx düşüf,
Evimə qonax gəlif.

Cavavında Aşıq Şəmşir alıf görək nə deyir:

Nə göylərdən gəlmişəm
Nə yerrərdən gəlmişəm.
İsdisu diyarınnan,
Kəlbəcərdən gəlmişəm.

Həsən Xəyallı:

Hamıdan baş gəlmisən,
Zərri qumaş gəlmisən,
Yoluna qurvan olum,
Yenə də xoş gəlmisən.

Aşıq Şəmşir:

Sinəm dolu sir mənim,
Ocax mənim, pir mənim,

Atamın oylağıdı,
Bu müqəddəs yer mənim.

Həsən Xəyallı:

Kəkliyim daşda qaldı,
Qanadım quşda qaldı,
Dünyada ağıllı söz,
Ağıllı başda qaldı.

Aşıq Şəmşir:

Balasın nər itirməz,
Tapsa gövhər, itirməz,
Aqillər qiymətdi söz,
Sərraflar zər itirməz.

Həsən Xəyallı:

Zirvələr qar saxlıyar,
Budaxlar bar saxlıyar,
Qadını-təmiz adı,
Kişini var saxlıyar.

Aşıq Şəmşir:

Əlidi ağam mənim,
Dərsim əlif-lam mənim.
Atam aşıx Qurvandı,
Misgindi babam mənim.

Həsən Xəyallı:

Xəyallıyam-barranıf,
Qapın haxdan varranıf.
Zirvələrin qap-qara,
Arannarın qarranıf.

O saat Şəmşir başa düşür kü, Həsən Xəyallı deyir ki, saqqalına dən düşüf, amma ağarıf, saçın qap-qaradı.

Varaxlandı Şəmşirin,
Yenə könül dəftəri.

O sualı vermişdi,
Bakının gözəlləri.

Həsən Xəyallı üzünü aşıx Şəmşirə tutuf dedi:
– Qardaş, istirahət eləmək lazımdı, yol gəlmisən.
Aşıx Şəmşir gülə-gülə dedi:
– Şair, mən çalıf-oxuyanda öz sənətimnən güc alıram, sümüklərim cavannaşır, yorulmuram. Amma könlümün dağına qarannıx duman çöküf. Niyə, Göyçəm bu gündədi?

Aşıx Şəmşir göyçəlilərin yavaş-yavaş öz yurdunnan-yuvasınnan didərgin düşməsini, ustaddarın dünyasını dəyişməsini nəzərdə tuturdu. Aşıx Şəmşir sazını "Osmannı divani"si üstündə köklüyüf aldı görək nə dedi:

Ay Xəyallı, bilirsənmi,
Var bu ziyanım mənim.
Aylar, illər xəsdəsiyəm,
Yoxdu dərmanım mənim.
Gecə-gündüz yalvarıram,
Heydəri kərrara mən,
O hakimlər hakiminə
Gəlir gümanım mənim.

* * *

Əqli huşu öz yerində,
Saxlıyıfdı sər hanı?
Olan fəhmi, fərasəti,
Sahibi dəftər hanı?
Bizə doğru yol göstərən,
Aşıq Ələsgər hanı?
Ətrafımnan dağlar köçüf,
Ölüb Qurbanım mənim.

* * *

Bir çoxları yedi, getdi,
Dünyanın qəm aşını.
Kəsb eylədi əbrişini,

Geydi al qumaşını.
Fikrim, qəlbim unutmamış,
Vəfalı sirdaşını.
Şəmşirəm bil sözümdə.
Yoxdu yalanım mənim.

Şair Həsən Xəyallı dilləndi:
-Əzizim, şərti-şum, sazımız da sözümüz də qoşa getməlidi. Kim cavab verə bilməsə, o təslim olmalıdı. Nə olsun ku, qardaşıx?! Pəhlivannar da güləş zamanı heş nəyi bağışdamıyıflar. Deyiflər ki, gərək nər nərin güjünü bilsin. Şairrik də, aşıxlıx da belədi. Aşıq Şəmşir onun bu sözünə bığaltı qımışarax belə cavab verdi:
- Nolar, şair onda mənim bayax dediyim divanimin cavabını ver, görüm dağarcığında bir şey varmı?
Aldı Həsən Xəyallı:

Dar günümdə dayağımdı,
Qeyrətli Əlim mənim.
Kərbalaya, Xorasana
Bağlıdı belim mənim.
On iki zikri zəbanım,
Otuz iki şərifim
Axirətim, aqibətim,
Müqəddəs elim mənim.

* * *

Saxlamadıx cavannığı,
Gözəl vaxda itirdik,
Şan-şöhrəti, səltənəti,
Tacı-taxdı itirdik.
Aramızdan İman addı
O bədbəxti itirdik
Köçüb Aşıq Ələsgərim,
Lal oluf dilim mənim.

* * *

Xəyallıyam, xəyalımnan,
Nələr keçir haqq bilir.
Oxuduğum neçə kitab,
Yazdığım varaq bilir.
Başıma nələr gələcək
Tale bilir, baxt bilir.
Qara gəlif rüzigarım,
Həm ayım, ilim mənim.

Həmin günü kənddə demək olar ki,bir nəfər də qalmamışdı. Daşkəndin ağsaqqalları, şairrəri, din xadimləri hamısı Aşıx Şəmşirin gəlişini eşidif Həsən Xəyallının evinə toplaşmışdılar. Gündüzdən başdıyan görüş gecənin bir vaxtına çəkdi. Məclis dağılannan sonra Aşıx Şəmşir öz başının dəstəsinnən baravar Həsən Xəyallının evində gejələdi. Sübh tezdən aşıx Şəmşir baxıf gördü kü, kəndin camaatı dəstə-dəstə toflaşıf harasa gedir. Aşıx Şəmşir Həsən Xəyallıdan soruşdu:

- Şair, bu camahat haraya gedir?

Həsən Xəyallı belə buyurdu ku, ayda bir dəfə Sarıyaqub kəndində Misgin Abdalın Ojağını göyçəlilər ziyarət edillər, o cümlədən bizim kəndin camahatı. Ziyarət sözü eşidən Aşıq Şəmşir dedi:

-Şair, o ziyarətə biz də gedək.

Elə də eliyillər. Misgin Abdalın ojağını ziyarətə gedillər. Ziyarət zamanı Həsən Xəyallı belə bir divani söylüyür.

Dar günümdə mədətkardı,
Qeyrətli Əlim dürüst.
Məkkəm, xakı Xorasanım,
Qibləmdi yolum dürüst.
Haqq yolunda yanan şamam,
Sönməz məş'əlim dürüst.
Həfdi cəmim, mələklərim,
Səkkiz peykərim dürüst.

* * *

Kim buyurdu, qərar tutdu,
Yerin, göyün ustadı
Və ya gün cəddaşa gələr,
Artar ərzin fəryadı,
Löh yarandı nuru qələm,
Yazıldı haqqın adı.
Mələklərdən ayrı düşən,
İlk ərənnərim dürüst.

* * *

Ay Xəyallı, şair Həsən,
Uyma yalan dünyadı.
Yüz iyirmi dörd min Nəbi,
Yola salan dünyadı.
Verdiyini bircə-bircə,
Geri alan dünyadı.
Doxsan min ayə cəm etdi,
Haqq peyğəmbərim dürüst.

Misgin Abdalın ojağını ziyarət eliyən zaman Aşıx Şəmşir şair Həsən Xəyallıya cavaf verəsi olur. Axı ilk görüşdən Həsən Xəyallı demişdi ki, sazımız da, sözümüz də qoşa olmalıdı. Aşıx Şəmşir Həsən Xəyallının şe'rinə qavaq olaraq aldı, görək nə dedi:

Yey Əlifim, ya bir allah,
Sirri sübhanım dürüst.
Əşhəd ən Lailahə,
Zikri-zəbanım dürüst.
Bir Məhəmməd rəsulumdu,
Yolum, ərkanım dürüst,
Nuri haxdan oldu cida,
Şahi mərdanım dürüst.

* * *

Altı günüm, üç irəngim,
Donum, boyağım əzəl.

Ələstü də bəli dedi,
Ruhi rəvanım əzəl.
Ab içində şö'lələndi,
Şamım, çırağım əzəl.
Can yatdı qırx il dəhanda,
Duruldu qanım dürüst.

* * *

Şir olub Me'rac yolunda,
Yatanı isdər könül.
Özünü sail donunda,
Sananı istər könül,
La fəta inna oxunan,
Atanı isdər könül.
Şəmşirəm, qoy başına,
Dönüm, dolanım dürüst.

Göyçə mahalının Sarıyaqub kəndinnən, Misgin Abdalın ziyarətinnən qayıdanda Aşıx Şəmşir gördü kü, Həsən Xəyallının evində bir toyun adamı var. Mə'lum oldu ku, qonşu kənddən də Aşıx Şəmşirin görüşünə gələnnər var. Yenə də ziyafət məclisi quruldu. İkinci günün axşamı məclis aşıx Şəmşirin çalıf-oxumasını dinniyirdi. Aşıx Şəmşir Misgin Abdaldan söhbət aşdı, sonra üzünü Həsən Xəyallıya tutuf dedi:

- Şair, indi də Misgin Abdal ocağında dediyin divani rədifində bir təcnis deyək.

Hamı yerbəyerdən əhsən söylədi. Götürüf görək Aşıx Şəmşir nə dedi: Biz də deyək, eşidənnər şad olsun.

Əsri min əllahi ələmində var,
Bir adı lam əlif ayə sin dürüst.
Yeri, göyü xəlq eliyən sənətkar,
Nə gözəl yaradıb ayə sin dürüst.

Bir xəlifə kəm yetişdi az baya,
Vəhy gəldi sənin deyil əzbaya

Şahi Mərdan süvar oldu əzbaya,
Yetişdi Məkkəyə ayə sin dürüst.

Gül həqiqət, bağban kamil hey dərə,
Bir mərd üçün dərviş oldun Heydərə
Nökərsən a canım, Şahi Heydərə,
Yıxıl ayağına ayə sin dürüst.

Açıq et varını gəlincə Əli,
Əzrail cəsətdən gəlin, can alı,
O gündə haraya gəlincə Əli,
Sıxacaq nə'şini ayə sin dürüst.

Yaz Şəmşir qulunam dür ustadımı,
Səndən isdəyirəm dür ustadımı,
Haqq verib dərsimi dür ustadımı,
Oxudum Qur'anda ayə sin dürüst.

Həsən Xəyallı aşıx Şəmşirin din islamı, ərəbi-farsı belə gözəl bilməsinə afərin söylədi. Əyləşənnər Şəmşiri alqışladı. Hamı üzünü Həsən Xəyallıya tutdu. Görək Şair aldı nə dedi:

Bismillahdı ismi pakın kalamı,
Cəm olub ayələr sini-sin dürüst.
Hikmət bir nöqtədi elmin Nizami
Şını-şın göstərir, sini-sin dürüst.

Aqil əhsən dedi ustada gözəl,
Kamal qismət oldu ustada gözəl,
Dünyada gözəldi ustada gözəl,
Xəlq edib yaradıb sini-sin dürüst.

Yar düzdürüb zər-zibanı min bağa,
Aciz olan düyün olar min bağa,
Bacarırsan səp toxumu min bağa,
İli il bəzəsin sini-sin dürüst.

Çiçək tək açıldın a yazda canım,
Bəsimdi çoxum da ay az da canım,
Donarsan şaxdada, ayazda canım,
Haqqın dərgahına sin isin, dürüst.

Xəyallı şah yensə ayağa çətin,
Çağırsa eşidə ay ağa çətin,
Elə ki büründük ay ağa çətin,
Artırar sayını sini-sin dürüst.

Bəli, mənim əzizdərim aşıx Şəmşiri Göyçə mahalının Daşkənd camahatının belə qarşılaması Həsən Xəyallının ürəyinnən oldu . Fikirrəşdi ki, gəl Şəmşirə denən ki, Göyçə mahalı sizi sevir və böyük bir ustad kimi qəbul edir. Aldı Həsən Xəyallı aşıx Şəmşirə Göyçə camahatının məhəbbətini, ehtiramını necə çatdırdı. Biz də deyək, siz də şad olasınız.

Aşıx Şəmşir, qədəmlərin mübarək,
Sizinlə görüşə gör kimlər gəlib.
Qonağına əl eyləyir çiçəklər,
Fəsillər ətirli təzə tər gəlib.

Qışdan keçib, fəsilimiz yay olub,
Sızqalar birləşib daşqın çay olub,
Gəlişiniz bizə haxdan pay olub,
Elə bil baş ayaq Kəlbəcər gəlib.

Bu böyük görüşdə Allah payı var,
Təcnis qatar-qatar, söz qatar qatar.
Səni övlad sanır bu gözəl diyar ,
Yenib ərş üzünnən mələklər gəlib.

Nə varsa taledə, baxtda görünür,
Qismətlər və'dədə, vaxtda görünür.
Şair tacidarı taxta görünür,
Oyanıb qəbirdən Ələsgər gəlib.

Xəyallıyam Məclisimdə cəm alim,
Neçə qələm dostum, öz obam, elim,
Haqverdi, İsmixan, Şahmalım, Əlim
Dillərində şirin kəlmələr gəlib.

Bəli, mənim əzizdərim adəti üzrə məclis yenə əzəlki gün kimi gejənin bir əyyamına çəkdi. Amma nə ustad Aşıx Şəmşirdən doyulasıydı, nə də qaynar təbli şair Həsən Xəyallıdan.

Məclis dağıldı. Aşıx Şəmşir istirahət elədi. Mənim əzizdərim, Dədə Şəmşir sübh tezdən qalxıb özünü Göyçə mahalının təmiz havasına verirdi. Gördü kəndin yarısının işığı yanmır, bajasınnan tüstü çıxmır. Aşıx Şəmşir Həsən Xəyallıdan soruşdu ku, sizin qonşularınızın niyə işığı yanmır? Həsən Xəyallı buyurdu ku, onnar Stalinin, Mircəfər Bağırovun göstərişinnən Azərbaycana köçüflər. Evlər, məhəllələr, itlər sahibsiz qalıb. Aşıq Şəmşirin xəyalınnan nələr keşmədi. Dərinnən köks ötürüf sazı sinəsinə sıxdı. Aldı görək nə dedi:

Eşidəndə od töküldü başıma,
Aman Allah Göyçəm köçür dedilər.
Ağlamağım yaraşmayır yaşıma,
Aman Allah, Göyçəm köçür dedilər.

Cismi canım asimana çəkildi,
Meyvələrim yetişməmiş töküldü.
Öz evimin bünövrəsi söküldü,
Aman Allah, Göyçəm köçür dedilər.

Zod babamın dostluq evi ocağı,
Zərzibilim nazı-ne'mət bucağı,
Ağkilsəmdi Ələsgərin söz bağı,
Aman Allah, Göyçəm köçür dedilər.

Daşkəndimdə ocaq da var, pir də var,
İgid də var, şair də var, sir də var.
Dostluq üçün aramızda pir də var,
Aman Allah, Göyçəm köçür dedilər.

İnəkdağım, Ağbulağım, Kəsəmən,
Hər tərəfi ətir, çiçək, yasəmən,
Ona görə bürünmüşəm yasa mən
Aman Allah, Göyçəm köçür dedilər.

Şəmşir deyər, xoşum gəlir Daşkəndə,
Hicran mehi əsməyəydi kaş kəndə,
Vaxt yetişdi borclu qaldım beş kəndə,
Aman Allah, Göyçəm köçür dedilər.

Səhər-səhər aşıx Şəmşirin bu ovqatı Həsən Xəyallını da qəm üstündə köklədi. Onun yadına Daşkəndin igiddəri, el şairrəri, ərrəri, ərənnəri düşdü. Şair Məmmədsöyün, Aşıq Nəcəf, erməni generalı Sulikovun başını kəsən Hacı Rəhim, seyid Bayram, Məşədi Qasım, Qaçaq İdris xəyalını çox uzaxlara apardı. Dərinnən bir ah çəkif öz dərdi-dilini belə izhar elədi.

Bu ana torpaqda, ay aşıq Şəmşir,
Zəhərə dönübdü aşıma bir bax,
Bu elin dərdini fil çəkə bilməz,
Baharda qar yağıb başıma bir bax.

Baş-ayaq naləsi tutub cahanı,
Od salıb samavar əriyib canı,
Biçarə Nəcəfin axanda qanı,
Hopub torpağıma, daşıma bir bax.

Əl çəkdi saçıma öydü bu fələk,
Bə'zən daşa tutdu söydü bu fələk.
Yetmişdə qapımı döydü bu fələk,
Gör harda haxladı yaşıma bir bax.

Ay Həsən Xəyallı, bu nə xəvərdi,
Hər zülmə zillətə dözən bəşərdi,
Qartal şığıyardı bülbül ötərdi,
Perikib yuvadan quşuma bir bax.

Şair Həsən Xəyallıynan Aşıx Şəmşirin görüşü üç gün çəkdi. Bu görüş eşidif-bilənnərin dilində, dodağında dolaşıf hər səmtə yayıldı. Əhvalat elin-ovanın dilində-dodağında dolanıf çöyrüldü. Elin-ovanın dilində, dodağında dolaşdı.

Vidalaşma məqamında gözdəri yaşnan dolmuş Dədə Şəmşir sazını köksünə sıxıf ürəkdağlıyan bir avaznan bayatıya üz tutudu:

Ay Göyçəm, salamat qal,
Gedirəm, salamat qal
Yaralı ürəyimdə
Artdı qəm, salamat qal.

Həsən Xəyallı da doluxsunuf öz dostunu bayatıynan Kəlbəcərə yola saldı.

Getmə, el ağlar səni,
Zirvəli dağlar səni,
Qayadakı kəkliklər,
Yadında saxlar səni.

Hər iki ustad görüşüf-öpüşdükdən sonra Aşıq Şəmşiri Kəlbəcərə yola saldılar.

AŞIX ƏLƏSGƏRİN QARABAĞ SƏFƏRİ

Bismillahir rahmani rəhim! Allah, Məhəmməd, ya Əli.

Qulluğunuza ərz eliyəjəm Aşıx Ələsgərin Qarabağ səfərinnən. Qarabağda Xanqərvəndi kəndinnən, Xan Qərvəndində kimnən, Ədilbəydən. Ədilbəy öz kəndinin namusdu, qeyrətdi bir kişisiydi. Günnərin birində gəndin ağsaqqalı, qarasaqqalı yığılıf Ədil bəyin yanına gəlif dedi:

– Bəy, bilirsənmi yanına nə üçün gəlmişik?

Bəy dedi:

– Deyin, mən də bilim. Ağsaqqallardan biri boğazını arıtdıyıf dedi:

– Bizim kəndin axundu yoxdu. Sən hər yerdə tanınmış, addı-sannı hörmətdi bir şəxssən. Yaxşı olar kı, kəndimiz üçün bir savaddı axund gətirəsən. Həm bizim uşaxlarımıza dərs verər, həmi də xeyir-şərimizin ağsaqqalı olar.

Ədil bəy dedi:

– Nə olar çox yaxşı məsləhətdi. Mənim Ərdəbildə yaxşı tanışdarım var. Onnara bir məktub yazaram kı, bir savaddı axund göndərsinnər.

Xülasə, məktub yazılır. Ədil bəyin dostdarı Hajı Alı adında bir nəfəri göndərillər. Axund gəlir Xanqərvəndinə. Yə'ni Ədil bəyin evinə. Ədil bəy Axund üçün bir ev təşkil eliyir və kəndin adamlarını yığır bir yerə ki, sizin dediyinizə mən əməl elədim. İndi Siz də uşaxlarınızı oxumaq üçün axundun yanına göndərin. Özü də mənim xətirəm üçün onun hörmətini saxlıyın. Bir də gi, elə eləmiyin ki, o, adam burda qəriflik çəksin. O, nə desə bizim üçün qanun olmalıdı. Hamı bir səsnən Ədil bəy baş üstə – deyir.

Bəli, axund bu minvalnan qaldı burada. O, yavaş-yavaş varrandı. Hələ gəndin bir para adamlarına sələmnən pul da verdi. Axund kəndə gələnnən sonra toylarda aşıx zurnaçı, xanəndə gələ bilməzdi. Axund deyirdi ki, aşıx gələn kəndə 40 gün məleykə gəlməz. O kənddə bin-bərəkət olmaz. Onu da deyim ki, aşıx adı gələndə axundun cini başına yığılırdı. Az qalırdı kişi dəli olsun.

İndi sizə Ədil bəydən xəvər verim. Ədil bəy oğlunun böyük toyunu eləməg niyətindəydi. Allah hamıya oğul-qız toyu qismət elәsin.

Ədil bəy kəndin hörmətdi adamlarını çağırıf məsləhət elədi ki, toyu burdamı, yoxsa yaylaxda, yə'ni Alagöllər yaylağındamı eliyəg. Çox çək-çevirdən sonra toyun yaylaxda olunması məsdahat bilindi.

İsmayıl addı bir oğlan ayağa qalxıf dedi:

– Ədil bəy, istər kənddə elə, istər yaylaxda. Oğlunun toyuna heş kim gəlmiyəjək. Ona görə ki, toyda tək yemək-içmək şərt deyil. Toyun yaraşığı aşıxdı, zurnadı. Ədil bəy, sən bizim kəndin yaraşığı olmusan. Hamının toyuna kömək əlini uzatmısan. Kənd adamlarının arzusudu ku, Ədil bəyin oğlunun toyunu gərək Göyçəli aşıx Ələsgər elәsin.

Ədil bəy dedi:

– A bala, çox sağ ol. Axı, birini bilirsən, birini bilmirsən. Aşıx Ələsgərin mollalara dediyi həcv gəlif axundun qulağına çatıf. O, Ələsgəri yerdə yox, göydə axtarır. Yaxşı Ələsgəri gətirdik. Axund gəlif Ələsgəri sual-cavava tutdu. Özünüz bilirsiniz gi, Hajı Alı axund elm dəryasıdı. Sual verdi, Ələsgər də ona cavaf verə bilmədi. Onda eşidən-bilən deyəjək ki, Ədil bəy Ələsgəri qəsdnən gətirdif ki, axund onu pisikdirsin. Ataların belə bir sözü var. Bir evin qonağı pisikəndə ev yiyəsi onnan qavax pisikir.

İsmayıl dedi:

– Ədil bəy, sən onnan sarı fikir eləmə. Nə axund Ələsgərin üzünü görəjək, nə də Ələsgər axundun.

-Ay bala, o nejə ola bilər?

-Ədil bəy, el köçünnən on gün qavax biz gedif bir neçə adamnan yaylaxda toy alaçığını qurajıyıx. El dağa çıxanda artıx toyxana hazır olajax. Özünüz bilirsiniz ki, axund eldən 5-10 gün sonra yaylağa çıxır. O gələnə kimi Allahın köməyinnən biz toyumuzu eliyərik.

-Oğlum, bəs Aşıx Ələsgəri kim çağırsın.

-Ədil bəy, bilirsən ki, kəndin hörmətli ağsaqqallarınnan olan Məşədi Qaraynan Ələsgər qardaş kimidilər. Məşədi Qara kişini göndərərik aşıx Ələsgəri də'vət eliyər.

Bəli, Məşədi Qara Ədil bəyin xahişinə görə aşıx Ələsgəri toya də'vət eləmək üçün Göyçə mahalına yola düşür. Gəlif aşıx Ələs-gərnən görüşür. Ələsgər deyir:

-Xoş gəlmisən, qardaşım. Buyur, uzax yoldan gəlifsən bir az naharran.

–Yox, qardaş, mən nə yeyəsiyəm, nə də içəsi.

–Aya, a qardaş, bu nə sözdü.

Qara bilirdi ki, Məhərrəmliyin qırxı çıxmamış. Ələsgər toya getmir. Məhərrəmliyin qırxı çıxmağa isə 3 gün varıydı.

–Əgər mənim sözüm yerə düşsə, mən sənin nə çayını içənəm, nə çörəyini yeyən. Mənim mətləbimə bəli de. Çayını da içərəm, çörəyini də, hələ kavavını da yeyərəm.

Məni Ədil bəy göndərif, oğlunun böyük toyunu eliyir. Hamımızın arzusudu ku, bu toyu sən eliyəsən. Axı, bizim camaat sənin adını eşidif üzünü görmüyüf.

Ələsgər dedi:

–A kişi, təki həmişə toy olsun. Allah qoysa gedərik, ay Məşədi Qara.

Məşədi Qara kişinin bir gülünnən elə bil min gül açıldı. Dedi:

–Çox sağ ol, Ələsgər, Çox sağ ol, qardaş. Onda uşaxlara de atdarımızı yəhərrəsinnər, gedək. Aşıx Ələsgər sazını götürüf, atına süvar olan məqamında atdan düşdü.

Məşədi Qara dedi:

–Qardaş, niyə düşdün.

Ələsgər dedi:

–Qoy görək, bizim qavağımıza çıxannar bir-birini qırıllar.

– Görək bunnar nə deyir.

Məşədi Qara dedi:

– Ayə, burda sənnən mənnən başqa kim var kı?

–Görmürsən nəfsnən mə'rifət qavağımızı kəsif bir-birini qırır.

–Ayə, qardaş, mən görmürəm.

Dedi:

– Onda mən deyim, sən qulaq as.

Ələsgər aldı görək nə dedi:

Nəfsinnən, mə'rifət girdi cahada,
Mə'rfət dedi: belə kar eləməynən,
Nəfis dedi: baxma nəqqal sözünə,
Xeyrin gələn yerdən ar eləməynən.

Üç ay zimistandı indi yaz oluf,
Üzüm gözəllərə payandaz oluf.

Sözüm bəyənilib işim saz oluf,
Sən Allah siftəmi kor eləməynən.

Yola gəlsin nəki yoldan azan var,
Nəkreyin var, qıl körpü var, qazan var.
İki mələk xeyri-şəri yazan var,
Ərəsətdə yerim nar eyləməynən.

Məşədi Qara dedi:

– A kişi, onnarın sözünə baxma. Nə günahları var yüklə mənim boynuma. Yolumuz uzaxdı, yolçu yolda gərək..

Ələsgərlə lovğa-lovğa danışma,
Sən arif deyilsən sual soruşma,
Nə xeyrimə, nə şərimə qarışma,
Qarışsan yerimi dar eyləməynən.

Ələsgər dedi:

– Qardaş, sənin qəlbin sınınca düşmanın boynu sınsın, gedək.

Gəldilər. Gördülər ki, alaçıxlar quruluf, toyxana bəzənif, el-oba intizarnan aşıx Ələsgəri gözdüyür. Ələsgərgil atdan düşən kimi Ədil bəy onnan təmənnəşdi. Ayağının altında qurvannar kəsildi. Ədil bəy Ələsgəri bağrına basıf dedi:

– Şükür Allaha, əhdimə çatdım.

Kənd camaatı bir-bir gəlif Ələsgərnən görüşürdü. Xülasə, toy başdandı. Ədil bəyin hər tərəfdən qonaxları varıydı. Şəmşəddin mahalının, Gəncəbasarın, Qarabağ elatının ən möhtəvər adamları toyda iştirak eliyirdi. Deyillər: çuğul nə ölüf, nə də ölmüyəjək. Bunnar tez-tələsik Hajalı axunda xəvər verdilər ki, Ədil bəy oğlunun toyuna bilirsənmi kimi gətirif? Göyçəli Aşıx Ələsgəri.

Axund dedi:

– O mollalara həcv yazan Ələsgəri?

Bəli, həmin Ələsgəri.

Bunu eşidən Axund atdanıf, yaylağa gəlir. Yolda öz-özünə onu asıf-kəsir. İndi mən səni aftafanın geninnən salıf darınnan çıxardaram, onda bilərsən mollalara sataşmağın axırı nolur.

Məclisin şirin yerində Ədil bəyə dedilər ki, axund gəlir. Bunu

eşidən Ədil bəy Ələsgərə dedi:

– Bir saatdığa sazını yerə qoy.

Camaat da, Ələsgər də bir təhər oldu.

Ələsgər dedi:

– Ədil bəy, yoxsa məclisinə layiq olmadıx?!

Ədil bəy dedi:

– Yox, Ələsgər, bir adam var. O, bir az oturuf gedəjək. Onnan sonra başdıyarsan.

Bu məqamda axund məclisə daxil oldu. Hamı ayağa qalxıf ona yer göstərdi. Camaat başa düşdü kü, Ədil bəy axunda görə deyirmiş. Məclisdə bir qədər məxşuşdux yarandı. İsmayıl üzünü axunda tutuf dedi:

–Axund, bu camaat sənin ayağına qalxdı. Amma sən bir dəfə də onnara minnətdarrıx eləmədin. İndi mən sənnən bir-neçə sualıma cavaf istiyirəm.

–Buyur, oğlum, ya'qın şəriyətdən olar.

–Sən mana de görüm, bu saat özünü harada hiss eliyirsən?

–Allah mübarək eləsin. Ədil bəyin toy məclisində.

–Çox sağ ol. İndi de görüm, bu toyda nə lazımdı?

–Yemək, içmək, danışmax, oğlum.

–Bəs niyə demirsən çalmax-oxumax.

Sən gələndə Ədil bəy Aşıx Ələsgərə dedi ki, sən sazını yerə qoy. Bir adam var, o gedənə qədər sazını dilləndirmə.

–Hansı Ələsgəri deyirsən? Yoxsa, o mollalara həcv yazan Ələsgər buradadı?

– Kimdi o?

Aşıx Ələsgər ayağa duruf dedi:

–Sənin axtardığın göyçəli Aşıq Ələsgər mənəm.

–Səni mən göydə gəzirdim, yerdə əlimə keşmisən. Sənin deməyinnən belə çıxır kı, molla, axund olmamalıdı?

–Yox, axund indi deyərəm, nə demişəm.

İsmayıl dedi:

– Ələsgər əmi, bizim bu axunda bir yaxşı dərs verərsən.

Ələsgər aldı görən nə dedi. Biz deyək, siz də eşidif feyziyab olasınız.

Can deməknən cannan can əskik olmaz,
Məhəbbət artırar, könül xoş eylər.
Çor deməyin nəfi nədi dünyada,
Abad könülləri pərişan eylər.

Məzəmmət eyləmə mən beynəvanı,
Səhibi səltənət gövhərin kanı,
Mənim sözüm, yoldan azan mollanı
İnşallah qaytarıf müsəlman eylər.

Kərəmdən kəm səxavətdən az olar,
Nakəs adam danışıxdan saz olar,
Nütfəsindən qatan şeyitbaz olar,
Mərd də sığışdırmaz nahax qan eylər.

Mən istərəm alim, mö'mün, yüz ola,
Meyli haqqa, doğru yola düz ola,
Dilinən zəbanı üzbə-üz ola,
Ələsgər yolunda can qurban eylər

– Axund qardaş, mən bax belə demişəm.

Axund üzünü Ələsgərə tutuf dedi:

–Sən həyatda nəyəsə aşiq olufsanmı?

–Qulaq as deyim:

İftida əlifdən dərsim olanda,
Ələst aləmində demişəm bəli,
Həqiqətdən iki gözəl seçmişəm,
Birisi Məhəmmədi, birisi Əli.

Əlidən dərs aldım eylədim əzbər,
Yerlərin sütunu göylərə lənqər,
Fatimeyi Zəhradı şəfayi mənşər,
Onu seşdim gözəllərin-gözəli.

Həsən müştəbanın çoxdu hörməti,
Yerin güşvərəsi, ərşin zinəti,

Məhşər günü darda qoymaz hümməti,
Əsgəri qucağında şah Hüseyn gəli.

Xaliqi ləmyəzəl, vahidi yekday,
Xudam qüdrətindən verib kamal pay.
Oxu əlif beyi, eylə haqqı-say,
Arif seçər əbcətinən cəm əli.

Axund dedi:

– Nə ola saz çalmıyasan, səni bir ilə axund kimi tanıdaram. Amma saz çalmaxnan günah eliyirsən.

Ələsgər dedi:

– Yanılırsan, axund qardaş, qulaq as sözümün o biri xanəsinə.

Günahım dəryadı özüm qanmışam.
Tutduğum işlərdən çox usanmışam.
Püşdi pənahına daldalanmışam.
Adım Ələsgərdi, əslim Göyçəli.

Axundun yanında bir cavan oğlan varıydı işi-peşəsi axundun kitaflarını gəzdirməyəydi. Axund işarə elədi ki, bala, kitabları gətir mana,

Axund dedi:

– Aşıx, indi sana bu kitaflardan suallar verəjəm. Onda sənin yükün bəlli olajax.

Ələsgər dedi:

– Axund, qulaq as, gör nə deyirəm.

Ələstüdən bəli dedim,
Əcəb xoşhaldı yüküm.
Bir gözəlin aşiqiyəm,
Vəsfi camaldı yüküm,
Həm dayazdı, həm dərindi,
Həm şirindi, həm ajı.
Zəhmətdə zəhri zəlal,
Ləzzətdə baldı yüküm.

Axund, mən könüllər xoş eliyirəm, əyri yolnan gedəni sözümnən düz yola qaytarıram, ev tikif, qan barışdırıram.

Nütvəsindən əyri olan,
Tez göstərər isbatın
Hər ağac kökdən göyərər,
Hər meyvə gözdər zatın
Hərcayı hədyana sayar,
Naşı bilməz qiymətin.
Əhli-ürfan məclisində,
Gövhər misaldı yüküm.

Gəl beçarə Aşıx Ələsgər,
Sığın şahi Heydərə,
Onun damənindən tutan,
Heç vaxtı yanmaz nara.
Pirim mana nüsrət verdi,
Bu gün çıxdım bazara.
Sərrafısan al xırd eylə,
Gör necə maldı yüküm.

Axund "Tətil-mə'na" kitabını çıxarıf o üz, bu üzünə varaxlıyıf dedi:

– İndi mana de görüm, cisminmi qavax yaranıf, yoxsa ruhunmu?

Ələsgər dedi:

– Sağ ol. Mana elə bir sual verdin ki, laf ürəyimnən oldu. Mən deyim, sən də bilmədiyini öyrən.

Ədil bəyin bir gülünnən min gül açıldı.

Dedi:

– Sağ ol Ələsgər, səni min yaşa!

Aldı Aşıq Ələsgər:

Bəli deyib yol ərkana gəlmişəm,
Nəş olub sinəmdə eşqin kitabı,
Çeşmi nibubətə aşiq olmuşam,
Bir suala verrəm neçə cavavı.

Axundun sümüyü bir balaca sanşdı. Qurumuş dodaxlarını yalıyıf dedi:

– Aşıx, çeşmi-nibubət dedin. Nə olan şeydi?

Ələsgər dedi:

– Peyğənbər sələvətullahın iki gözünün gözəlliyi, bir də mehri çeşli-nübubətdi. Bunu sən gərək biləydin, axund.

Gövhər sözüm məclislərə yayılı,
Arif olan mətləb qana, ayılı,
İbadət əhli də mö'mün sayılı,
Səxavətin onnan çoxdu səvabı.

İsmayıl Aşıx Ələsgərə yaxınnaşıf dedi:

– Ələsgər əmi, bu axundun əməllərinnən bir balaja sana xəvər verim. Onu bil ki, bu kəndin adamlarının çoxunun bu axunda sələm borcu var.

Haxdı sözüm, yetirəsən isbata,
Yemə rivə, meyl eləmə qıyvata,
Şəryətdə haramdı zina ləffəta,
Onnan bəd yazıllar xəmri şərabı.

Axund ürəyində dedi: Mənim sələmə pul verdiyimi görən buna kim xəvər verif?

Gəl xalqınnan utan, mənnən utanma,
Səgərəl motunu heç səhli sanma,
Miyata qayıl ol, qafıl dolanma,
Haxdı sırat, suval qəvir əzabı.

Dəyəndə yarpağa səsdənər guşun,
Fəhm elə cəm olsun idragı huşun,
Sürülür karvanın çökür tay-tuşun,
Fərmanı qüdrətin budur xitabı.

Aldanıfsan nə isə tapıfsan hava,
Elə iş tut olsun dərdinə dava,
Aşıx Ələsgərdi zari biynava,
Aşıxsan, qanmamısan hesabı.

Axun dedi:

– Aşıx, elmin qırx qapısı var. Otuz doqquzunu aşsan da, səni birində dayandırajam.

Ələsgər gülümsüyüf dedi:

– Axund, xatircəm olma, elə açar var kı, qırx qapının qırxına da düşür. Məni dəmirçi kimi tanıma, bir qulaq as gör nə deyirəm:

Ahəngər deyiləm naşı bəzirgan,
Gözüm dürdanədə a yəndədi,
Sinəmdədi eşqin şirin çeşməsi,
Ləzzəti meyl edif ay əməndədi.

Yox sazımın nə pərdəsi, nə simi,
De kim çalır, nə tərpədir o simi,
Füzuli, Firdovsi, Hafiz, Nəsimi,
Onnarın yazdığı aya, məndədi.

Kişi gərək zəhmət çəksin, dər salsın,
Ad qazansın, süfrə salsın, dər salsın.
Dərsi azlar Ələsgərdən dərs alsın,
Altı min, altı yüz, ayə məndədi.

Axundun dalağı yaman sanşdı. Fikirrəşdi ki, deyəsən bu aşıx-zad deyil. Kitafları ayə-ayə bilir. Məclis əhli dedi:

– Axund, deyiflər adın nədi, Rəşid, birni de, birni eşid. İndi Aşıx Ələsgər də bir-neçə kəlməynən sənin torvanı yoxlasın. Axund çarnaçar razılaşdı.

Ələsgər sazının zilini zil, bəmini bəm eliyif aldı görək nə dedi:

Sənnən xəvər alım, ay duran alim,
Gəl ikimiz bu qur'annan danışax.

Ələstü ələda, qövlü bəlada,
İnsan ruhu yaranannan danışax.

Təmisər balığın qədəri nədi?
Nə yeyir, nə içir mədarı nədi?
Haqqın qapısının açarı nədi?
Onu açıf bağlıyanan danışax.

Arifsənsə bu sözdərə gözəl ol,
İstiyirsən sən nöbəni əzəl ol,
Bilirsənsə forsiyatı qəzəl ol,
Ərəbxansan gəl qurannan danışax.

Ələsgər, qəm etmə xuda Kərimdi,
Yetmiş iki dilin hansı qədimdi?
Həzrəti Musanın anası kimdi?
Bir xəbər ver o, dövrannan danışax.

Axund bəyə üz tutuf dedi:

– Mən qalmağallı olan yerdə dura bilmirəm. Mana icazə ver, istiyirəm gedim.

Camaat dedi:

– Axund əmi, axı suallar cavafsız qaldı, indi haraya qaçırsan?

Axund burnunda mızıllıyıf dedi:

– Eşiyə çıxım, bir az havamı dəyişim, başım yaman ağrıyır.

Ələsgər dedi:

– Bilirəm qayıtmayajaxsan. Bu sözümü də eşit, sonra gedərsən.

Alır Ələsgər:

Bəxtim tərəqidə, işim tənəzzül,
İki sifət bir iqbala sığışmaz,
Şəriyəti anna, mə'rifəti qan,
Şəri, böhtan doğru yola sığışmaz.

Nadansan, qanmırsan xeyri, şərini,
Tərsə oxuyaram xoş dəftərini,

Tanı adamını, bil müştərini,
Qarğı mızraq qıl çuvala sığışmaz.

Ələsgərə satma bu işvə, nazı,
Heç kim olmaz belə işdən irazı,
Çağır köməyinə min axund, qazı,
Şişər başın bu mahala sığışmaz.

Axund arxasına baxa-baxa qaşmağa başdadı. Məclisdəkilər axundun arxasınca bir xeyli güldükdən sonra Aşıq Ələsgər məclisi əvvəlki qaydasınnan davam etdirdi.

Həmişə sizdəri də şənniklərdə görmək istiyirəm. Burda söz tamama yetir. Biz də məclisi bu müxəmməsnən tamamlıyax.

Aləmləri xəlq eyliyən,
Sən yetiş imdada bu gün,
Nəqafil qarşımıza,
Çıxdı məlәkzada bu gün,
Göz gördü gül camalın,
Könül içif bada bu gün;
Can cəsətdən ayrılır,
Gedir bu sevdada bu gün.

Ovçuyam, görməmişəm,
Mən belə sərxoş maralı;
Tökülüb şahmar zülfü,
Bürüyübdü qəddi dalı.
Hüsnüdə Züleyxa kimi,
Loğmana bənzər kamalı,
Solmasın gül yanağı,
Pozulmasın bu cəlalı,
Mələklər amin desin,
Ərşi müəllada bu gün.

Ələsgərəm, mən deyirəm,
Pərvana əfsana yanır,

Eşqidən bir od düşüf,
Cismim o mərdana yanır;
Bir xəyalım Kərəmə;
Biri Şeyx Sən'ana yanır.
Qəlbimdə yas tuturam,
Məcnuna, Fərhada bu gün.

AŞIX ƏLƏSGƏRİN İRƏVAN SƏFƏRİ

Aşıxlar həmişə söhbətdən qavax ustadnamə deyəllər. Biz də deyək, Sizi şad-xoşbaxt olasınız.

Ağıldan kəm, huşdan çaşqın, dildən küt,
Naqəbil kəlməsi biysəmər mənəm.
Məcnun kimi viranələr küncündə ,
Səryandar səhrayı qələndər mənəm.

Cavannıx vaxtında müşgül hal oldum,
İblis əməlində pür kamal oldum.
Qəza vurdu sin içində lal oldum,
Hər sözü dillərdə bir dəftər mənəm.

Sənətin məsihəti yoxdu savabı,
Suval üçün dilim tutmur cavabı.
Ədalət hakimin payı türabı,
Kamil ustadlara qul kəmtər mənəm.

Dolandım dünyanı gəzdim əfsana,
Tab oldum nəfisə uydum şeytana.
Xeyr əməlim yoxdu mərdi mərdanə,
Günahkar, günahkar, günahkar mənəm.

Dünyanın çivəsi aldatdı məni,
Unutdum üqbanı, tutdum dünyanı,
Sonradan annadım cahanmış fani,
Bu fanidən köçən Ələsgər mənəm.

Allah ustaddara rəhmət eləsin.

Kələg mətləf üstünə. Aşıx Ələsgərin bir neçə şəyirddəri oluf: Daşkənddən Aşıx Nəcəf, Qaraqoyunnudan Aşıx Əsəd, Zoddan Aşıx Qulu, Aşıx Ağayar, Aşıx Mikayıl və başqaları. Ustadın Qara Nağı addı bir şəyirdi də oluf. Bunun yaxşı səsi-avazı, çalıf-oxuması varıymış. Amma yaxşıynan-yamanı annamaxda bir balaca çətinniyi

oluf. Günnərin bir günündə Göyçə kənddərinin birində böyük bir toy məclisində görüllər ki, bunun gözəl oxuması var. Bir nəfər Aşıx onnan hal-əhval tutduxdan sonra soruşur:

-Ay Aşıx, Nağı neçə ildi ki, Aşıx Ələsgərə qullux eliyirsən?

-Üç il var.

O, Nağıya deyir:

–Hələ neçə il də ona qullux eləməlisən, nə qədər də qalmalısan?

Nağı deyir:

-On il də qullux eləməliyəm.

-Bay evini Allah tiksin, deməli ömrünün yarısını Aşıx Ələsgərə qul olmalısan.

Həmin adam soruşur:

-Bax bu döyran kı, yığıldı onnan sana nə qədər pay ayırır.

Nağı diyir:

-Mana hələ pul düşmür.

-Ayə, niyə düşmür, oxumağın hamısını sən oxudun. Ay yazıx, sənin ağlın-zadın yoxuymuş ku. Sonra o üzünü yanındakı adamlara tutuf dedi:

–Aya, bir buna baxın, bu oxumağın, bu çalmağın qavağında deyir mənə pul zad düşmür. Ay evin yıxılsın, sən bilirsənmi sənin adınsanın hər yana yayılıf. Bir neçə gün mən İravana mal aparmışdım, satmağa. Mənnən soruşdular:

-Qardaş, hansı mahaldansan.

Dedim:

-Ağrın alım, Göyçə mahalınnanam.

-Deyillər Aşıx Ələsgər Nağı adında gözəl bir şəyirdi yetişdirif. Görəsən, onu biz tərəflərə toylara, nişana gətimək olarmı?

Dedim:

-Aya, ay qardaş, niyə olmur. Mən ona deyərəm. Gəlif sizdərnən tanış olar. Aşıx Nağıyı mən yaxşı tanıyıram. Bizim yaxın kənddə olandı. Ayə, ağlın olsun, səhərdən sazını götür get. Bu sənət ki səndə var, hara getsən səni qızıla bəliyəjəklər. Sən ömürrük aşıx Ələsgərə qulmu olmalısan?

-Düz söz nə deyim. Bu toydan sonra icazə alıf gedərəm.

Toyu qurtardılar. Gəldilər ustasıgilə. Nağı üzünü Aşıx Ələsgərə tutuf, utana-utana dedi:

-Ustad, sana bir söz deməg istiyirəm. Ama sən Allah məni bağışda, bu günnən ustad çörəyini mana halal elə.

-Ayə, nə çörək, nə halal, sən dəlimi olufsan, başına atmı təpif, nədi? Sonra bir az da əsəbiləşif dedi:

–Sözünün Məmmədqulusunu deginən.

Nağı çox çətinniknən, dili tutar-tutmaz dedi:

İstiyirəm deyəm daha mən artıx aşığ kimi çalmağı da, oxumağı da bajarıram. Mümkünsə mənə icazə verginən gedim.

Ələsgər mətləvi annıyıf dedi:

-Hə, görürəm səni kimsə tovluyuf. Çünki görüf kü, sənin ağlında nə isə çatışmazdıx var. Ay bala, Aşıx Əsəd, Aşıx Nəcəf kimi adamlar on il qalanda sənin kimi başı boşdar 20-30 il qalmalıdı. İndi ki belə oldu, getginən. Ama, nəbadə bir yerdə və heş kimin yanında demiyəsən ki, mən Aşıx Ələsgərə qullux eləmişəm. Çünki hələ sən bu sənətin sirrərini öyrənmiyifsən.

Könül qulluq elə kamil ustada.

Ustad görmüyənin işi xam qaldı.

Getginən, bir dara düşüf üstümə qayıdanda mən səni qəbul eləmiyəjəm.

–Xülasə, Nağı sazını götürüf üz çevirir İrəvan mahalına. Gəlir İrəvan şəhərinə, bir draxdına girir ki, çay içsin, çörək yesin. Baxıf görür kü, burda şahzadə oğlannar əyləşif. Bu adamlar da görüllər ki, bu cavan aşıx buralar adamı döyül.

Bunnardan biri Nağıdan soruşur:

-Aşıx qardaş bağışdıyın, hansı diyardansınız və adınız nədir?

-Ağrın alım, Göyçə mahalınnanam. Adım da aşıx Nağıdı, özüm də Aşıx Ələsgərin şəyirdiyəm. Burda oturan adamlardan birisi ayağa qalxıf dedi:

-Aşıx qardaş, mənim də adım Məmməd bəydir. Xahiş eliyirəm, sazınızı çıxarıf, bizə bir-iki hava çalıf oxuyasınız. Təki Allah sizi sazdı-sözdü eləsin.

Nağı dinməz-söyləməz sazını çıxardıf Aşıx Ələsgərdən bir neçə söz oxudu. Onun sazı, avazı Məmməd bəyin çox xoşuna gəldi. O, üzünü aşıx Nağıya tutuf dedi:

-Qardaş, laf yerinə düşdü. Sazını köynəyinə qoy gedək, bizim bir balaca şənniyimiz var. Nağı nə deyəjəkdi ki... Elə burya onun üçün gəlməmişdimi?! Xülasə, onnar Aşıx Nağıyı da götürüf Məmməd bəyin evinə gəldilər. O gejə Aşıx Nağı məclisi çox gözəl yola verdi.

Onun çalıf-oxumağı hamının xoşuna gəldi. Məmməd bəy dedi:

Aşıx Nağı, bu gündən belə sən mənim həm dostum, həm də qardaşımsan. Mənim nə qədər qohum-əqrabamın xeyir işi varsa, onun aşığı sən olajaxsan.

Bəli, Məmməd bəyin adına görə Nağıyı gündə bir yerə məclisə də'vət eliyillər. Nağı həm gözəl oxuyurdu, həm də hər nejə olsa o Aşıx Ələsgərin şəyirdiydi.

Bir ay ərzində Nağı hər gün toyda-nişanda oluf. Çoxlu pul qazanır.

İndi sizə kimnən deyim, bu mahalın iki aşıx Əsədullaynan, o aşıx Cəfərqulu addı iki aşığınnan. Bunnar görüllər ki, ayə toy-nişan vaxtıdı, ama bunnarı heş toya-nişana çağıran yoxdu. Aşıx Əsədulla deyir:

– Ay bala, ay Cəfərqulu bu nə işdi bu camaat bizi niyə toya-nişana çağırmır. Cəfərqulu deyir, ay rəhmətdiyin oğlu, bilmirsənmi burada Göyçə mahalınnan Nağı addı bir aşıx gəlif, özü də Məmməd bəyin ən yaxın dostudu. Ona görə də Məmməd bəyin xətrinə hamı toya onu aparır. Aşıx Əsədulla deyir:

–Ay bala, bəs biz neyniyək?

Cəfərqulu deyir:

-Nə bilim, neyniyək? Çox sinənə döyürsən ki, şairəm. Gedək onnan deyişək. Allah ya ona verər, ya da bizə. Əsədulla deyir:

Düz deyirsən, ay bala. İran tərəfdə Dollu Əvzər, Türkiyə tərəfdə Aşıx Şennik, Göyçə mahalında Aşıx Ələsgər. Getməyə bir yer yox. Qalırdı bura. Onu da bu gəlif əlimizdən alır. Deyillər o bu günnəri Uluxannı kəndində toydadır da. Sazdarımızı götürək gedək.

Bəli, Aşıx Əsədullaynan şəyirdi Cəfərqulu əllərində siyirmə qılınc özdərini məclisə salıllar. Məmməd bəy gördü ki, Əsədulla ilə Cəfərqulunun bıçax vursan qanı çıxmaz. Əsədulla üzünü Məmməd bəyə tutuf dedi:

-Məmməd bəy, bu günnəri sənin aşığınnan deyişəjiyik. Məmməd bəy dedi:

–Ay Aşıx Əsədulla, axı bu qonaxdı, həm də mənim dostumdu. Əsədulla dedi:

–Bə, sənin dostun heş bir soruşmadı ki, bu mahalın aşığı var, ya yox?

Camaatın nəyinə lazım iki aşıx bir-birini qırsın. Onnara lazımıydı

kı, ləzzət alsınnar.

Aşıx Nağı dedi:

–Məmməd bəy, Aşıx Əsədulla düz deyir.

Xülasə, bunnar sazdarını bir-birinin üstünə köklədilər. Əsədulla Nağıya bir müəmma dedi. Nağı mat-məəttəl qalıf sazı Əsədullaya təhvil verdi. Məmməd bəyin pisikdiyini görüf aşıx Əsədulla dedi:

-Məmməd bəy, sənin xətrinə onun sazını özünə verirəm. Bir də bu mahala hərrənməsin.

Məmməd bəy Aşıx Nağıya dedi:

-Ayə, zalım oğlu, bəs deyirsən Aşıx Ələsgərə qulluq eləmişəm. Bu günün üçün onnan bir söz öyrənə bilməyifsənmi ki, cavaf verəydin?

Sonra Məmməd bəy aşıx Nağıya belə bir tafşırıx verdi:

-Bu mahalda mən heş zaman pisikməmişdim. İndi sən məni gör nejə pisikdirdin. İndi ki, belə oldu, bilmirəm bu toy qurtaranadək Aşıx Ələsgər harda olur-olsun tapıf gətirərsən. Bu toy hələ bir neçə gün davam eliyəjək. Sazını da ki, qoy bizdə qalsın.

Nağı ələşsiz qalıf baş üstə, dedi.

Nağı İrəvan şəhərinnən Aşıx Ələsgər üçün bir cüt çəkmələk dəri, mahud çuxalıx bir də Aşıx Ələsgərin arvadı Anaxanım üçün güllü xaradan bir dizdik parça alıf üz qoydu Ələsgərin evinə. Gəlif gördü kü, Anaxanım xala cəhrə əyirir. Çəkinə-çəkinə salam verif dedi:

Xoş gördük, Anaxanım xala.

Anaxanım başını qaldırıf gördü kü, Nağıdı.

Nağıya bir çəpəni nəzər salıf dedi:

-Hə, sazını aldırıf gəldinmi, a bala?

Nağı yalannan özünü bir az toxdadıf dedi:

-Anaxanım xala, saz nədi, aldırmax nədi. Ürəyim sizi istədi, gəldim. Sana da bax, güllü xaradan bir dizdik parça almışam, ustadıma da bir çəkmələk. Üstəlik bir az İrəvan xruşu, bir çuxalıx da mahud gətimişəm. Bəs, ustadım hardadır?

-Nə bilim hardadır.

-Sən Allah, düzünü de.

-Bir neçə gündü, Gəncə şəhərinə gedif. Bilirəm ki, işin dara düşüf, onun üçün axtarırsan ustadını, eləmi?

Nağı bunu bilən kimi tüpürür davanına. Üz tutuf Gəncə şəhərinə. Nağı bilirdi ki, Ələsgər həmişə daş mehmanxanasında qalır. İçəri

girif mehmanxananın böyüyünnən soruşdu:

-Deyillər Aşıx Ələsgər burda qalır.

-Bəli, burdadı, özünü də filan yerə, məclisə də'vət elədilər. Nağı birbaşa həmin yerə gəlif, görür kü, ustadı dövran eliyir. Nağı çox fikirrəşdi ki, mən nejə eliyim ki, ustadımnan barışa bilim. Nağı gördü kü, məclisdə bir nəfər hörmətdi şəxs var. Nağı ona yaxınnaşıf dedi:

-Mən Aşıx Ələsgərin şəyirdiyəm. Ama kərkiyi daşa vurmuşam, yanında günahım çoxdu. Mən görürəm ki, burda hamı sizin ehtiramınızı saxlıyır, hörmətdi adamsınız. Sizi and verirəm Allaha. Aşıx Ələsgərə deyəsiniz ki, mənim günahımnan keşsin.

Bu adam Aşıx Ələsgərə dedi ki, bu oğlanın günahınnan keç, onu bu məclisə və mana bağışda.

Aşıx Ələsgər gördü kü, bu Nağıdı. Qaldı iki suyun arasında. Bir az yuxarı, aşağı baxıb dedi:

-Söz eşitmək ədəfdəndir. Onun günahını sizə bağışdıyıram. Aşıx Ələsgər məclisi qurtarıf Nağıynan mehmanxanaya gəldi. Ələsgər yolda soruşdu:

-Aya, ay Nağı, yoxsa sazını aldırıfsan?

-Yox, ay usta, sənin adının hörmətinə İrəvanda Məmməd bəy addı bir bəynən dost olmuşam. Hər gün toyda-nişanda keçif günüm. Yaxşı pul qazanmışam. Sana də bir cüt çəkməlik dəri, bir də mahutdan bir çuxalıx parça almışam. İndi orda böyük toy məclisi var. Məmməd bəy dedi, get Aşıx Ələsgəri də gətir. O toyu Aşıx Ələsgərnən yola salın. Ona görə Ələsgər dedi:

-Mən hələ şəyird adına çıxan toya getməmişəm. Onsuz da Ələsgər yaxşı bilirdi ki, bu toy işi döyül, Nağı sazını aldırıb, onunçün gəlif. Nağı başını yerə tikif, mağmın-mağmın dedi:

-Ay ustad, sən həmişə deyirdin, şəyird dara düşəndə ustadı dadına çatar. Düzünü deyim ki, toyda oxuduğum zaman iki aşıx gəldi. Mana üçcə kəlmə söz dedilər. Dilim qıfıllandı cavaf tapa bilmədim. Sazımı aldılar. Düzdü, sonra Məmməd bəyin xətrinə onu özümə qaytardılar. Ancax Məmməd bəy dedi ki, nə təhər olursa-olsun Aşıx Ələsgəri gətiməlisən, yoxsa mən bu mahalda baş qaldırıf gəzə bilmərəm. Nağı sonra bir az da fağırraşıf dedi:

- Mənim üçün nə var, gedif kotanımı əgərəm, ama sənin adını vermişəm ki, mənim ustadım aşıx Ələsgərdi. Deyəjəklər ustası da qorxdu gəlmədi. Sənin adına yaraşmır, özün bilərsən. Aşıx Ələsgər

gördü kü, bir yana baxanda bu da düz deyir. Ona görə çar-naçar razılaşıf dedi:

- Yaxşı, onda bir şərtnən gedərəm. Sən olursan usta, mən oluram şəyird. Nağı dedi: Mən necə deyə bilərəm ki, sən şəyirdsən. Bəs deməzdərmi bu nə faraş şəyirddi.

Ələsgər dedi:

– Onda özün bil, mən gedəsi olmadım.

Nağı dedi:

Bir az dincəlif özünə gələnnən sora Nağı dedi:

– Usta, sən Allah incimə. Sən nə desən o da olajax.

– Onda gedək sənin çəkməni də tikdirəg sonra gedək. Onnar duruf çəkmə tikənin yanına gəldilər.

– Ələsgər çəkməçiyə dedi:

- Ay bala, bizim bu çəkməni tikərsənmi.

–Usta dedi:

- Baş üstə, niyə tikmirəm.

Əmə, usta baxıf gördü kü, bu çox əvəzsiz bir dəridi. Öz-özünə dedi:

– Hə, yaxşı oldu, bunnan bəylərə layiq bir çəkmə tikif baha qiymətə sataram. Buna da dağarçıxdan bir çəkmə tikif başını alladaram.

- Ay bala bizim sana əl muzdumuz nə olajax. Usta dedi:

– Əl muzdu bir manat alajam. Savah gəlif çəhmənizi götürərsiniz. Bunlar razılaşıf ayrıldılar.

Ələsgər savax gəlif ustadan soruşdu:

– Ay bala bizim çəkmə hazırdımı?

- Bəli, hazırdı, götür.

Aşıx Ələsgər baxıf gördü kü, bu ona fırıldax gəlif, dedi:

- Ay bala biznən zarafat eləmə. Mənim çəkməmi ver, çıxım yolumnan gedim. Axşam düşür.

Çəkməçi dedi:

Ə, nə zəhlətökənnik eliyirsən, çəkmən budu, götürürsən götür, götürərsən götür, götürmürsən çıx get, dükanı toz eləmə.

- Yaxşı, onda sən də mənim sənətimnən tanış ol.

- Əmi, sənin sənətin nədi?

- Oğul, mən aşığam.

- Bəs, sazın hanı? Bir hava çalardın biz də qulax asardıx.

- Aya, a Nağı, get mənim sazımı gətir gəl.

Nağı Ələsgərin sazını gətirəndə ətrafdakılar sazın dilə gələcəyini annıyıf çəkməçi dükanına axışdılar. Aşıx Əlsgər sazın zilin - zil, bəmini bəm elədi, aldı görək nə dedi:

Danışdıx, barışdıx mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan.
Sən tacir olmazsan, bir manatınan,
Namusu, qeyrəti satma, hayıfsan.

Ellər məni nəzərinnən salmıyıf,
Huşum cəmdi, ağlım heç azalmıyıf.
Fani dünya Süleymana qalmıyıf,
Oyan bu qəflətdən yatma, hayıfsan.

Girəndə məclisə, ağır yığnağa,
Bizə hörmət edir irəşvər, ağa,
Söz uzansa həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan.

- Ay kişi, mən özüm zarafat eliyirdim, çəkmən o deyil, bax budu.
- Yox, ay bala, bu yumşaxdı, elə bu yaxşıdı.
Alır sözün o biri xanələrini:

Siz təraş eyləyirsiz iynə, bizinən,
Bizimki də gəlif-gedir sözünən.
Əyri ol əyriynən, düz ol düzünən,
Hər yetəni sən aldatma, hayıfsan.

Canım qurban ustaddarın sərinə,
Yalan söz igidi salar dərinə.
Köhnə dağarcığı tumaş yerinə,
Aşıx Ələsgərə satma, hayıfsan.

Ələsgər adı gələndə başa düşdü ki, kərkiyi daşa vuruf.
Dedi:
- Ələsgər əmi, bu şe'ri başqa yerdə oxuma, elə burda da qalsın.
- Ay bala, söz burda qalası döyül. Bunu bir toyda, bir nişanda, bir

də dəyirmanda deyəjəm. Nağı çəkmiyi də xurcuna qoydu. Bunnar dükannan çıxıf üz tutdular İrəvana tərəf. Ələsgər üzünü şəyirdinə tutuf dedi:

- Ay Nağı, bu səfər çox qovğalı səfərə oxşuyur. Deyən mən gedəsi olmadım.

Nağı dedi:

- Özün bil, sənin adın batajax.

- Yaxşı, gedək, amma şərtimiz şərtdi.

Xülasə, bunnar gəlif İrəvana çatdılar. Məclis hələ də davam eliyirdi. Əsədullaynan Cəfərqulu məclisdə şövqnən çalıf-çağırırdılar. Məmməd bəy tez-tez evə adam göndərirdi ki, görün Nağı gəlifmi? Ələsgərnən Nağı evə yaxınnaşanda Məmməd bəyin bajısına xəvər verillər ki, Aşıx Nağı gəlir, yanında da bir kişi. Müşgünaz baxıf gördü kü, Nağının yanında bir iribədənni adam da var. Xoş gəldinnən sonra Müşgünaz dedi:

- Nağı qardaş, bu yanındakı kimdi?

Nağı dedi:

– Ay Müşgünaz bajı bu mənim dayımdı.

Müşgünaz soruşdu:

- Bə bunu nə gəzdirirsən, yanında?

- Aşıxlığa həvəsi olduğuna görə örgədirəm.

Müşgünaz gülə-gülə dedi:

- Qoyaydın bir az böyüyəydi. Sonrasa ürəyində dedi:

– Özün nə vaxt usta olmuşdun ku, bunu da örgədəsən.

Müşgünaz bir uşax çağırtdı ki, qonax gəlif. Samavara od sal. Ələsgər Nağıya dedi:

-Bunnan o yana sənin işin olmasın.

Ələsgər Müşgünazdan soruşdu ku, sən nə iş görürsən?

Müşgünaz dedi:

-Əmi, sizə çay hazırrıyıram.

Ələsgər özünü lap avam yerinə qoyub soruşdu:

-Ay bala, sən onun kömürünü də, suyunu da bir yerdə tökdün, bə onnar bir-birinə qarışmadımı?

Müşgünaz dedi:

-Əmi, bəs siz çayı nədə qaynadırsınız?

-Ay bala, biz xaki-xorasını basdırırıx külə, içinə də kəkotu tökürük, olur şirə plov. (Xaki-xorasan qara axtafa deməkdir) Müşgünaz

öz-özünə fikirrəşdi ki, bu samavar çayı görmüyüf, içə bilmiyif özünü yandırajax. Xülasə, çayı süzüf, qonaxların qavağına qoydu. Sonra fikir verif gördü kü, bu çayı əməlli başdı bölmüyə bölüf işdi. Müşgünaz dedi:

–Ay Nağı qardaş, mən dedim ki, bu özünü yandırajax, amma bu çayı əməlli başdı işdi ki...

Nağı dedi:

-Ay Müşgünaz, bununku həftərəngidi. Düz bir həftədi ağıllı işdər görür.

-Bə, bu indiyə qədər nə işnən məşğuluydu?

-Qoyuna gedirdi. İndi daha bezif. Yaxşı zehni var, yaşdı olduğuna baxma, nə desən götürür.

Elə bu o məqamda Məmməd bəy adam göndərdi ki, durmuyuf gəlsinnər. Müşgünaz dedi:

-Əmi, sən burda qal, bax bu bizim içməyimiz-yeməyimiz, ye-iç. Nənnidə də bir yaşında uşax var, ağlıyanda giridərsən.

Ələsgər dedi:

Ay bala, mən buraya uşax kiritməyə gəlməmişəm. Mən gəlmişəm ustamnan söz öyrənəm, saz öyrənəm.

Müşgünaz onu başınnan eləmək üçün dedi:

–Toydan sonra Nağı qardaşa deyəjəm sənə bir həftə burda saz-söz öyrətsin. Toydan nə qazansa sənin payını versin. Əmi, ora xannar-xavanlar məclisidi, ora şəyird yeri döyül.

Ələsgər bunnardan qavax sazını götürüf yola düşdü.

Gəldilər məclisə yaxınnaşdılar. Aşıx Ələsgər Nağıya dedi ki, innən belə yannış naxış işdətmək lazımdı.

Onnar gəlif, məclisə daxil oldular. Məmməd bəy gördü ki, ayə, bu Ələsgər döy. Öz-özünə fikirrəşdi ki, görəsən bu ifləmənin yanındakı kimdi? Nağı keçif Məmməd bəyin yanında əyləşdi. Məmməd bəy soruşdu:

-Ayə Nağı, bu kimdi? Xülasə, dedi:

-Dayımdı.

-Ayə, mən sana dayınımı, yoxsa Ələsgərimi taf gəti, demişəm?

-Getdim, evdə yoxdu, getdiyi yeri də tapa bilmədim.

-Bə bunu nə gəzdirirsən?

-Çox hafizəlidi.

Məmməd bəy ürəyində ayə, sənnən qardaş olan günə daş yağaydı, sən mənim başımı aşağı elədin, – dedi.

Nağı Məmməd bəyin qaş-qavax tökdüyünü görüf dedi:

-Yaxşı olar, Məmməd bəy, qəm eləmə. Məclisdə hər tərəfdən qonaxlar varıydı. O cümlədən qazaxlı İsrafil ağa da məclisdəydi. O, istədi Ələsgərnən duruf görüşsün. Ələsgər işarə elədi ki, hələ məqamı döyül.

Aşıx Ələsgərin başında kolusu bir papax varıydı. Əsədullahnan Cəfərqulu qəlyanlarını çəkif, tüstüsünü Ələsgərin papağına verdilər. Ələsgərin başında elə bil bir xotma oddamışdılar. Amma Ələsgər heş fikir vermirdi. Əsədullah kinayəynən soruşdu:

-Ayə, sən aşıxsanmı, şəyirdsənmi, adın nədi?

-Adım Solaxeydi.

-Bə, ustan kimdi?

-Görmürsən, o yekəlikdə ustadımı. Ustadım, bajım oğlu Nağıdı, dana, ağrın alım.

-Özü nə vaxt usta olmuşdu ku, hələ səni də öyrədir? Ustadının sazını bir tafmacaynan əlinnən aldım.

-Oğul odu ku, mən yanında olanda alın. Onu tək görüfsünüz?

Məmməd bəy başını qaldırıf utandığınnan heş kimin üzünə baxa bilmirdi. Çünki ev yiyəsinin qonağı pisikəndə ev yiyəsi onnan qavax pisikir. Əsədullah dedi:

-Hə, onda dur, sən də mənim şəyirdimnən deyiş.

-Ayə, qardaş niyə döyüşürük, nəyimiz ortax düşüf?

-Ayə, döyüşürük yox, a kişi, deyişirik. Yə'ni birini o deyir, birini də sən.

Əsədullah şəyirdi Cəfərquluya dedi:

-Duran kimi Abbas Tufarqanlının "Ay nədən oldu" şe'rini oxu. Qoy cavaf tapa bilməsin. Sən də onun sazını əlinnən alarsan. Cəfərqulu sazını köklüyüf meydana girdi. Nağı dedi:

-A şəyird, dur görüm neyniyirsən?

-Yaxşı, usta, onda mənim sazımı köklə ver.

Hamı onun şəyird olduğuna inanmışdı. Nağı sazı solaxey köklüyüf verdi şəyirdinə. Əsədullah dedi:

-Pəh, adını qoyana rəhmət. Adın Solaxey, sazın soloxey, özün də solaxey.

Cəfərqulu başdadı Tufarqannı Abbasın sözünü deməyə:

Əzəldən can deyib, can eşidən yar,
İndi beyvəfalıq, ay nədən oldu?
Deyirdin ölüncə dönmərəm səndən,
Yadnan aşnalığın, ay nədən oldu?

Sonra üzünü Nağıya tutuf dedi:
-Ay usta, mən nə oxuyum.
-Yolda öyrətdiyimi oxu, elə cavavı odu.

Yerin, göyün, ərşin, gürşün bənası,
Künhü, bünövrəsi, ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seşdi,
Hikmətin dəryası, ay nədən oldu?

Məmməd bəy başını bir az qaldırdı. Oxuyanın eninə, uzununa baxdı.

-Ayə, a Nağı, bu nə tutarrı söz dedi. Ayə, belə sözdən Əsədullaya əvvəlcə niyə demədin?

Aldı Cəfərqulu:

Başına döndüyüm şahın Becanı,
Şahın dövranında yol budu, tanı.
Deyirdin həftəyə alaram kanı,
Həftə ilə döndü, ay nədən oldu?

Aldı Solaxey:

Neçə qəndil, neçə sütun vuruldu?
Sən kimsən, mən kiməm, kimnən soruldu?
Elmi müəmması harda duruldu?
Ustaddar ustası, ay nədən oldu?

Aldı Cəfərqulu:

Gözəl şahım, mənə qılsın bir saya,
Rəhmin gəlsin mən tək bu binəvaya.
Abbas deyər sirr qaldım xudaya,
Pərim bir bəşərdi, ay nədən oldu?

Solaxey dedi:
-Çox sağ ol, sən ki, atı yiyəsinin qapısına sürdün.

Solaxey aşığam, intizarım var,
Alim sənsən, məni eylə xəbərdar.
Elmi hardan tapdı cümlə aşıxlar,
Şe'ri müəmması, ay nədən oldu?

Müşgünaz pəncərədən baxanda, gördü kü, şəyird meydana girif. Əlini üzünə atıf cırdı kı, bunnar mənim qardaşımın adını batırdılar. Məclisdə Məmməd bəyin beş qardaşı da əyləşmişdi. Hamı təşviş içindəydi.

-Ayə, bu necə şəyirddi. Heş Nağı belə sözdər deyə bilmirdi, axı?

Əsədulla Cəfərquluyu çağırıf dedi:

-Ayə, Aşıx Ələsgərin bir qıfılbəndi var ha, buna de, qoy dili lal olsun.

Aldı Cəfərqulu:

Altı gündə dünya neçə don geydi?
Nə üstə əyləşdi, bərqərar oldu?
Əzəl kimlər oldu Turun bənnası?
Ulduzlar nətəri yerbə-yer oldu?

Aldı Solaxey:

Altı gündə dünya iki don geydi,
Gavı mah üstündə bərqərar oldu.
Haqq özü olubdu Turun bənnası,
Ulduzlar bu təhər yerbə-yer oldu.

Məhəmməd bəy dedi:
-Ayə, a Nağı, birdən bu Ələsgər olar, ha?
-Yox, a bəy, dayımdı.
Amma baxdı kı, Nağı yeyif-işməyinnən heş qalmır.

Aldı Cəfərqulu:

De neçədi, Müqərrəyin mələyi?
Onnarın içində hansıdı bəyi?

Cannıdı, cansızdı ərşin dirəyi?
Nə ilə çalındı mö'təbər oldu?

Aldı Solaxey:

On altıdı Müqərrəyin mələyi
Hürünsədi onun içinin bəyi.
Nə cannı, nə cansız ərşin dirəyi,
Salavat çalındı mö'təbər oldu.

Aldı Cəfərqulu:

Ələsgər əl çəkməz e'tiqadınnan,
Yerdə xəbərdardı, göy büsatınnan.
Haqq ilə peyğəmbər əhvalatınnan
İslamam deyənə nə xəvər oldu?

Cəfərqulu dedi:
-Ustad, daha mənnik döy, özün dur.
Əsədullah meydana girif bir firrandı:
-Ayə, Solaxey, elmin qırx qapısı var, otuz doqquzunu aşsan da birində səni dayandırajam. Solaxey dedi:
-Elə açar var qırx qapıya da düşür. Sənin onnan xəvərin varmı? Sən qalxdın, indi də mənim ustam qalxar.
Məhəmməd bəy dedi:
-Yox, özün yaxşısan, ay şəyird.

Aldı Əsədullah:

Solaxey aşıxsan az düşünərsən,
Qalmağallı bir bazara düşərsən.
Altmış yaşda təzə şəyird olubsan,
Qulluğunnan tez kənara düşərsən.

İsrəfil ağanın əli on açılanın dəstəsində dişi bağırsağını kəsirdi. Ələsgər görüf işarə elədi ki, lazım döyül.

Aldı Solaxey:

Məğrurruğ eliyif ustadam demə,
Bir gün olar sən də dara düşərsən.

Başülək deyilsən, çolpa balasan,
Səryəndar qalarsan, tora düşərsən.

Aldı Əsədullah:

Nabələdsən aşıxlığın işinə,
Dözə biləməzsən nər savaşına.
Yolunu salaram dağlar başına,
Çovğuna, borana, qara düşərsən.

Aldı Solaxey:

Alçaxda oturuf dırmanma başa,
Tülküsən aslannan girmə savaşa.
Gəl yapışma güjün çatmıyan daşa,
Götürə bilməzsən, zora düşərsən.

Əsədullah Nağıya gözünü yaman ağartdı:
-Ayə, bu Solaxey, Solaxey işi döy. Bu kimdi, gətimisən bura.

Aldı Solaxey:

Nağıya satmaynan işvə-nazını,
Zimistan eylərəm bahar, yazını.
Soyaram livasına, allam sazını,
Yal quyruğu qırxıx yola düşərsən.

Aldı Əsədullah:

Gəl Əsədullahnan girmə meydana,
İgiddən olanı tək doğar ana.
Şəyirddi, ustalı sallam zindana,
Gözü yolda, intizara düşərsən.

Aldı Solaxey:

Hərca dilin özün üçün yağıdı,
Aşıx Ələsgərin odlu çağıdı.
Alar caynağına səni dağıdı,
Göydən yerə parça-parça düşərsən.

Əsədullah dedi:

-Bu Ələsgərin şe'ri oldu, axı.

-Ayə, sizə Ələsgərin sözünü demək halaldı, mana haram.

İsrəfil ağa onaçılanın dəstəsini basıf ayağa durdu.

-Ayə, burda qəribbasannıxmı eliyirsiniz? El misalıdı:

– "Adın nədi, Rəşid, birini de, birini eşit". Qoyun birini də bu Solaxey desin da.

Camaat yerbəyerdən dedi:

-Desin də, desin, görək nə deyəjək.

Aldı Solaxey:

Sizdən xəvər alım kamil ustaddar,
Hax nə gündə yaradıfdı dünyanı?
De göynən yer nə bəsiylə quruldu?
Nə üstündə bəndə saldı Əsmanı?

Əsman nə istədi barı Xudadan?
Xudam nə hökm etdi ərşi-ə'ladan?
O kimiydi, nə gətirdi haradan?
O kimiydi, gördü Məçidi-ləqsanı?

Orda nə abıyla aldı dəstəmaz?
Neçə rükət ə'ta eylədi niyaz?
Neçə kimsənəyə oldu pişnəmaz?
Onnar baqidimi olufmu fani?

Tez verəsən sözdərimin isbatın,
Hardadı məkanı abı həyatın?
Necədi məqamı mələkəlmovtun,
Nə törü insandan o alır canı?

Əsədullah dedi:

-Solaxey qardaş, səni and verirəm Allaha, adını düz de. Mənim sənin üzünün nurunnan, nəfəsinin ağırrığınnan bədənim titriyir.

Aldı Solaxey:

Bu təzə kəlamdı, olsun yaqini,
Qibləm Kəba, dinim Məhəmməd dini.
Atam Almədəddi Göyçə sakini,
Adım Ələsgərdi yaxşı bil, tanı.

Ələsgər adını deyən kimi İsrəfil ağa ayağa qalxıf, üzünü məclisə tutuf, dedi:

-Ay camahat, adını eşidif, üzünü görmədiyiniz Aşıx Ələsgər bax budu, tanış olun. Aşıx Əsədullah ayağa qalxıf, Aşıx Ələsgərin qarşısında baş əyif dedi:

-Ustad, Allah Nağının üzünü qara eləsin. Gərək bizi belə qavaxlaşdırmayaydı. Mən sizin qarşınızda baş əyirəm. Siznən bu görüşümü ziyarət bilirəm. Burda nə qədər döyran oluf o da sənindi. Bir də Sizdən üzr istiyirəm.

Sizə deyim Müşgünazdan. Ələsgər adı bütün məclisə bəyan olanda Müşgünaz Ələsgərə dediyi sözdərin xəcalətinnən az qaldı yerə girsin. O, qardaşı Məmməd bəyi eşiyə çağırıf dedi:

-Ay qardaş, bu Aşıx Ələsgəriymiş. Mən onu məclisə buraxmırdım kı, ora sənin yerin döyül. Hələ ona dedim ki, beşikdəki uşaxdan muğayat ol, onu ağlamağa qoyma. İndi neyniyim? Aşıx Ələsgərin sazının zilinə düşsəm el içində biyavır olajam. Məmməd bəy dedi:

-Qardaşın ölmüyüf kü, Aşıx Ələsgərə ağır nəmər verif, sənin adına tə'rif dedirdəjəm. Məmməd bəy üzünü Ələsgərə tutuf dedi:

-Ələsgər əmi, bilirəm, Müşgünaz gərkini daşa vuruf. Onun bu məclisdə beş qardaşı əyləşif. Bizdən nəmərini al, bajımız Müşgünaza bir tə'rif deginən.

Ələsgər gülə-gülə dedi:

– Tə'rif başqa cür olajaydı. Sizin sözünüzdən sonra gərək yaxşı üzünə çöyürsən.

Səhər vaxtı Mahcamalın görəndə,
Xəstə könlüm gəlir saza, Müşgünaz.
Sonatək çalxanıf gərdan çəkəndə,
Oxşuyursan quba qaza, Müşgünaz.

Dört tərəfin bənövşəli bağ olsun,
Həmişə yediyin bal, qaymax olsun,
Sağ-solunda qardaşların sağ olsun,
Corafları yaxşı bəzə, Müşgünaz.

Ürək dərtdi, könül qəmli, vərəmli,
Səni gördüm səxavətdi, kərəmli.
Bir mirzə olaydı əli qələmli,
Mən diyəm vəsmini yaza Müşgünaz.

Ötgün sözüm kəsgin bəxtim olaydı,
Ağ otağım ziba rəxtim olaydı.
Ələsgərəm cavan vaxtım olaydı,
Qəddim əyif qəhri qəza Müşgünaz.

Müşgünazın qardaşlarının hamısı Aşığa ağır nəmər verdilər.

Söhbət bunnan da tamam oldu. İrəvan camaatı bir-neçə gün də Aşıx Ələsgəri burda qonax saxlıyıf, onu böyük hörmət-izzətnən Göyçüyə yola saldılar.

AŞIX ƏLƏSGƏR KƏLBƏCƏRİN QILIŞDI KƏNDİNDƏ

Aşıx Ələsgər ömrünün çoxunu Kəlbəcər mahalında keçirmişdi. Axı, onun həyat yoldaşı Anaxanım Kəlbəcərin Yanşax kəndinnəniydi. Ama, bu tərəflərdə Ələsgərin ən yaxın dostu Qılışdı kəndinnən olan Xannar kişiydi. Aşıx Ələsgər nə vaxtı o mahala gələrdisə, mütləq Xannar kişiynən görüşərdi. Xannar Aşıx Ələsgərin hər gəlişinə böyük bir məclis düzəldərdi. Aşığı həmişə böyük hörmət-izzətnən yola salardı. Bu dəfə Aşıx Ələsgərin vacib işi olduğuna görə dedi:

-Heç Qılışdı kəndinə burulmuyum, kəndin yuxarısınnan atımı sürüf gedim. Kəndin cavan uşaxları gördü kü, Aşıx Ələsgər Xannar əmigilə dönmədi.

Hamısınnan böyük olan bir uşax üzünü yoldaşlarına tutuf dedi:

–Biriniz yüyürün Xannar əmiyə xəvər verin ki, odu Ələsgər əmi atını kənddən aralı sürüf gedir. Bu nədi? Yoxsa Aşıx Ələsgər Xannar kişidən inciyif.

Uşaxlardan biri tez özünü Xannar kişiyə çatdırıf dedi:

-Xannar əmi, odu ey Ələsgər əmi kəndin qırağınnan gedir, bə sizə niyə gəlmir? Xannar onu görüf, qışqırdı:

-Ay qardaş, atının başın bir az çək görüm. Ələsgər atdan düşdü, Xannarnan görüşdü.

-Ayə, a qardaş, bu nə işdi görürsən. Bilirsənmi, biz otuz-qırx ildi sənnən təmannasız salamım-kəlamımız var. İndi sən belə kənddən belə aralı ötüf keçəndə hərə bir söz deyir. Fikirrəşillər ki, görəsən Xannarnan Ələsgərin arasında nə inciklik oluf ku, daha Ələsgər bu kənddən yan keçir.

Ələsgər cavaf verdi:

-Ay Xannar, vallah düzünü deyim ki, mən hər gələndə sən böyük zəhmətə tüşüf az qala bir toyun xərcini çəkirsən. Özü də çox vacib işim varıydı. Ağrın alım, ay qardaş, indi gedim başqa vaxdı gələrəm.

-A kişi, ay qardaş gəl belə eləmə, onu bil ki, mən xoşbəxt adamam kı, sənin kimi adamnan dostdux eliyirəm. Bir də ki, görmürsənmi, bu uşaxlar da mə'yus oluflar ku, Ələsgər əmim hər dəfə Xannar əmimgilə gələndə aşığa qulax asırıx, həmi də yaxşı yeyif

içirik. Bax gör hamısının əli allahdadı kı, ay Allah, nola, Xannar əmim onu buraxmıya.

Ələsgər çar-naçar atının başını döndərdi, gəldilər Xannar kişinin evinə. Xannar kişi gördü kü, Aşıx Ələsgərin atı nə isə birtəhərdi, heç xoşuna gəlmədi. Qəlbində tutdu ki, özünə aldığı o yorğa atı səhər qardaşı gedəndə yəhərriyif ona versin. Xannar kişi Hatəm kimi çox səxavətdiydi. Axşama yaxın həməşəki kimi heyvan kəsildi, yemək-işmək hazırrandı. Xannar kişi kəndin bir neçə adamını da də'vət elədi. Onnarı başına topluyuf belə bir məsləhət elədi:

-Aşıx Ələsgər hammızın oğlunun, qızının toyunu eliyif. Bu dəfə də gəlin belə bir iş eliyək. Bir siyahı tutax, ona baxşeyişdər verək. Bax, mən öz atımı ona bağışdıyıram. O, daha sonra Bayramalıya, İsaya, İbrahimə və Mikayıla müraciət edərək dedi:

-Sizin də imkanınız nəyə çatırsa, onu eləyin. Onnar dedilər:

-Biz də iki yaxşı öküz alarıx, əkinini-biçinini onnan eliyər. Sən verdiyin atnan da gedər aşıxlığının dalıncax. Xannar dedi:

-Lap yaxşı oldu, keçin içəri, siz söhbət eliyin. Mən də sizin üçün yemək-işmək hazırradım.

Xülasə, bunnar gejiyi çalıf-oxumaxnan oxumaxnan başa vurdular. Gejiyi yatdılar. Savahlar üzünüzə xeyirriknən açılsın. Xannar kişi sübh tezdən oyandı. Hazırraşdı kı, axşam adamlar dediyini gedif gətirsin. Amma kimin qapısına getdisə də, heş birini tapa bilmədi. Onnar hərəsi bir tərəfə yayınıf, getmişdi. Kor-peşman evə qayıtdı. Bir cüt öküz boyunduruxladı. Özünün ən yorğa atını da aparıf çardağın altına bağladı.

Ələsgər çay-çörək yedikdən sonra Xannara dedi:

-Ay qardaş, mənim atımı uşaxlara deynən yəhərrəsin. İndi icazə ver, gedim.

Xannar dedi:

-Nə vaxt istəsən gedə bilərsən.

Aşıx Ələsgər həyətə çıxanda gördü kü, onun atının yerinə başqa bir at bağlanıf. Yanında da bir cüt öküz. Xannar dedi:

-Ay qardaş, bunnarı axşamkı qonaxlar sona alıflar.

-Ay Xannar, mən uşax-zad döyüləm. Hər işi yaxşı başa düşürəm. O at da, o öküzdər də sənin özünündü. Sən nahax belə zəhmət çəkirsən. Xannar dedi:

-Ələsgər, əyər bunnarı götürməsən, elə bil ki, mənim dünyamı

tarımar eliyərsən. Səni and verirəm o bir Allaha mənim sözümü yerə salma.

Ələsgər atı mindi, öküzdəri də qavağına salıf yola düzəldi. Kənddən bir xeyli aralanannan sonra gördü kü, axşam qonaxlıxda olan adamlar indi burda yol çəkillər. Bayraməli kişi dedi:

-Ayə, Ələsgər sizi tanımaz. Amma mən onun çox qonağı olmuşam. İndi girəjəm xəndəyə Ələsgər gedənnən sonra mana diyərsiniz.

Ələsgər onnara yaxınnaşıf salam verdi. Bir az söhbətdən sonra onnara dedi:

-Yaxşı iş görürsünüz, adam yol çəkdirər, körpü saldırar.

Onnar Aşıx Ələsgərə dedilər:

-Belə hardan gəlirsən, Ələsgər əmi?

-Ay bilmirsinizmi, mənim bir qalajax yerim var, o da Xannar kişinin evidi.

-Eh, a kişi, bilmirik bu Xannar kişidə nə tapıfsan? Gələrdin bizim birimizin evinə. Sənin şərəfinə yaxşı bir məclis düzəldərdik. Səni ürəyin istiyən kimi yola salardıx.

Ələsgər o saat annadı kı, bunnar axşamkı adamlardı. Amma onnar elə bilirdilər ki, Ələsgər onnarı tanımıyıf. Ələsgər vergili adamıydı. Heş nə onun nəzərinnən yayınmazdı. Onnar bu fikirnən dedilər:

-Həmi də neçə vaxtdı kı, sənin səsini eşitmirik.

–Aşıx Ələsgər dedi:

-Nə olar, onsuz da yazın laləzar vaxtıdı. Ürəyim onsuz da yaman coşuf. Sizin də xətriniz istiyir. Bir-iki hava oxuyaram. Bunlar bir-birinə baxıf göz vurdular, ürəklərində düşündülər. Axşam nəmərsiz-filansız oxutdux, indi də rəhmətdiyin oğlu özü könüllü oxumax istiyir. Bir ağızdan dedilər:

– Oxu-oxu qadan alım, ay Ələsgər qağa.

Aşıx Ələsgər baş üstə deyif başdadı oxumağa və ürəyində dedi ki, ay həriflər indi sizin boyunuza görə xələtinizi biçim. Siz də görün. Aldı görən Ələsgər dedi:

Mərd iyidin məclisinnən,
Aşıx gələr at aparar.
Tər tökər, zəhmət çəkər,
Apar hər busad aparar.

Mərddərə canım sadağa,
Zəhməti bəzzat aparar.
Aşığın nəmərin verməz,
Demə biysufat aparar.

Qılıxlı qardaşdarım,
Dedi, bir dana vermədi.
Çərx dolandı, yığval yatdı,
Döndü zamana vermədi.
İsa, İbrahim, Mikayıl,
Mərdi-mərdanə vermədi.
Sarıdaşlı Bayram vermədi,
Aşığa bir dana verməz.
Yüz tümənni tat aparar,
Bilirsənmi ölüm haxdı.
Bu nə tələşdı dünyada,
Kimi gördün qəzadan.
Qurtardı qaşdı dünyada,
Səxavətsiz dövlətlilik.
Barsız ağaşdı dünyada,
Nəfi yox, zəhməti çox,
Sel gələr afət aparar.

Sözdərimin bir parasın,
Saxlamışam xəlvətdədi.
Zamana dəyus oluf,
Sur indi müxənnətdədi,
Bir az namus gözdüyənin,
Axır boynu kəmətdədi.
İyidəm diyən ya ölübdü,
Yada kı qəzamatdadı.
Bu dünyanın ləzətini,
Bilin bey qeyrət aparar.
Vəsf eylər Aşıx Ələsgər,
Budur taraşım Xannara.
Şahı mərdan köməy olsun,
Əziz qardaşım Xannara.

Neçə aşıx gördüm deyir,
Qurvandı başım Xannara.
Kimiyə at bağışdar,
Kimi yüz manat aparar.

Bunnar işi belə görüf başdadılar aşıx Ələsgərə yalvarmağa.

– Ələsgər əmi, sən Allah bizi bağışda. Biz elə bildik sən bizi tanımayajaxsan. Qurvanın olax. Heş erdə bu əhvalatı danışma. Vaxt gələr sənin hörmətinnən çıxarıx.

O cavavında dedi:

– Nə deyirəm, ay bala, sağ olun. Aşıx Ələsgər bunnardan aralanıf bir az getmişdikin, gördü at altında oynaxlamağa başdadı. Öküzdər qulaxlarını cütdədi, quyruxlarını bellərinə qaldırdılar. Aşıx Ələsgər çaşıf qaldı. Öz-özünə dedi:

– Ay Allah, bu at niyə belə eliyir. Baxıf, gördü kü, at bunu yıxıf öldürəjək. Tez yerə düşdü. Bu yerdə öküzün biri ipini qırıf özünü dərəyə verdi. Bir də baxdı kı, atın cilovu əlində qaldı.

– Allah, sənə pənah, bu nə işdi. Gördü kü, bu qara çuxalı bir adamdı, bir ağacın dalına pünhannanıf. Dedi ki, ya'qın atı da, öküzdəri də bu hürkütdü. Sonra da fikirrəşdi ki, əşşi deyəsən elə bu mənim baxtımdı, mənnən üz döndərif. Bəlkə insafa gəldi. Gəl ona yalvarginən. Aldı görək nə dedi:

Nə sevda tapıfsan, nəyə talıfsan,
Harada yatıfsan, gəl, qoja baxtım.
Ya mənnən küsüfsən, ya qojalıfsan,
Bu sınıx könlümü al, qoja baxtım.

Çəkilif pünhana deyir dərdə döz,
Cəhənnəm odunnan pisdi tə'nə söz.
Gümüşüm tunc oldu, zər-zibam da bez,
Qəlp çıxır aldığım mal qoja baxtım.

Mardan şirə çəkif daşdan keçərdin,
Pərvəzdanıf qafdan kufa uçardın.
Dəryalardan lə'li gövhər seçərdin,
Keçən günü yada sal, qoja baxtım.

Özüm aşıx oldum, oğlum gülləçi,
Onda bildim qalmaz dövlətin üçü.
Qırıldı mal-qoyun qalmadı keçi,
İndi də yıxılıb kal, qoja baxtım.

Yaxşı döyül təğdir üçün bu adət,
Kahdan gəlir, gahdan verir xəcalət.
İyiddər at vermir, gözəllər xələt,
Kəsilif təmməkim bil qoja bəxtim.

Ələsgər kəsilif səbri aramnan,
Oxuyufsan qannar axır yaramnan.
Haqqı ilə sevda qur əl çək haramnan,
Halaldan mətləbin al, qoja baxtım.

Xalqımız həmişə aşıx, saz-söz, söhbət sevən olsun.

QEYDLƏR VƏ İZAHLAR

1. **"Miskin Abdalnan Sənubər"** dastanı Göyçə mahalının Daşkənd sakini **Aşıq Hacı Bayramovdan** (67 yaşlı) yazıya alınmışdır.

Özünün dediyinə görə o, bu dastanı Göyçənin məşhur saz-söz ustalarından sayılan **Qannılı Aşıq Mehdidən** öyrənmişdir.

2. **"Asdan şahnan İrvahamın nağılı" Aşıq Hacı Bayramovdan** (67 yaşlı) yazıya alınmışdır.

Dastanı o öz ustadı **Məzrəli Aşıq Hüseyndən** öyrənmişdir.

Göyçənin demək olar ki, bütün tanınmış saz-söz ustaları "Asdan şahnan İrvaham" dastanının Miskin Abdal tərəfindən yaradıldığı birmənalı şəkildə təsdiqləməkdədirlər.

Aşıq sənətinin gözəl bilicilərindən olan **Abbas Mazanov** da özünün **"Göyçə kimi intizarda elim var"** (Bakı, "Gənclik" nəşriyyatı, 1999) kitabında bu barədə maraqlı bilgilər vermişdir.

3. **"Miskin Abdalnan Şah İsmayıl"** dastanı Göyçə mahalının Ağbulaq kənd sakini **Aşıq Abbasəli Abbasovdan** (70 yaşlı) yazıya alınmışdır.

Aşıq Abbasəli Abbasovun etirafına görə, ustadı Aşıq Əsəddən öyrəndiyi bu dastanı o, uzun illər məlum səbəblər üzündən (Miskin Abdalın el arasında övliya kimi tanınması, müqəddəs ocaq sahibi olması) öz repertuarına daxil eliyə bilməmiş, buna görə də dastanın nəsr hissəsi unudulmuş, yaddan çıxmışdır.

Sonralar o vaxtilə yazıya aldığı dastana aid şerlər əsasında bu gözəl sənət əsərini yenidən bərpa etmişdir. Folklorlaşma prosesi getmədiyindən dastanın dili və üslubu klassik dastan dilindən və üslubundan əsaslı şəkildə fərqlənməkdədir.

Hər üç dastan ilk dəfə **"Miskin Abdal"** kitabında (Bakı, "Səda" nəşriyyatı, 2001) çap olunmuşdur.

4. **"Ağ Aşıq və Süsənbər"** dastanını prof. Mürsəl Həkimov Göyçənin Babacan kənd sakini **Aşıq Qədir Vəliyevdən** (71 yaşlı) yazıya almışdır.

Dastan **"Ustad aşıqlar"** (Bakı, "Gənclik" nəşriyyatı, 1983) kitabından götürülmüşdür.

5. **"Aşıq Alının Türkiyə səfəri"** dastanı **Aşıq Hacı Bayramovdan** (67 yaşlı) yazıya alınmışdır.

Dastan ilk dəfə **"Azərbaycan folkloru antologiyası, III kitab, Göyçə folkloru"** kitabında (Bakı, "Səda" nəşriyyatı, 2001) çap

olunmuşdur.

6. **"Hacı Hüseynin Aşıq Alıya at bağışdaması"** rəvayəti Ağbulaq kənd sakini **Aşıq Abbasəli Abbasovdan** (70 yaşlı) yazıya alınmışdır.

Rəvayət ilk dəfə "Vətən qürbətdə qaldı" ("Göyçə mahalının folklor örnəkləri") kitabında (Bakı, "Yazıçı", 1993) çap olunmuşdur.

7. **"Aşıq Musaynan Mələknisə xanım"** dastanını Sarıyaqub kənd sakini **Aşıq Musa Ağayar oğlu** (65 yaşlı) söyləmişdir.

Dastan ilk dəfə **"Vətən qürbətdə qaldı"** (Göyçə mahalının folklor örnəkləri) kitabında Bakı, "Yazıçı", 1993) çap olunmuşdur.

8. **"Aşıq Ələsgərnən Səhnəbanı", "Aşıq Ələsgər Qarabağlıların yaylağında, Aşıq Ələsgər Yanşaxda", "Aşıq Ələsgərlə Həcər xanım", "Aşıq Ələsgərnən Şəmkirli Aşıq Hüseynin görüşü", "Aşıq Ələsgərnən Şair Nağı", "Anaxanımın küsməyi"** dastan-rəvayətləri folklorşünas **İslam Ələsgərovun** toplayıb, tərtib etdiyi **"Aşıq Ələsgər"** (Bakı, "Şərq-Qərb" nəşriyyatı, 1999) kitabından götürülmüşdür.

9. **"Aşıq Ələsgərin Türkiyə səfəri"** dastanı şair-filoloq **Salman** Əliyev Ağbulaqlı **Aşıq Abbasəli Abbasovdan** (70 yaşlı) yazıya almışdır. İlk dəfə çap olunur.

10. **"Aşıq Ələsgərin Qaraqoyunlu səfəri"** dastan-rəvayətini prof. Qara Namazov Əmirxeyir kənd sakini **Mikayıl Alı oğlundan** (80 yaşlı) qələmə almışdır.

Dastan-rəvayət ilk dəfə **"Azərbaycan folkloru antologiyası, III cild, Göyçə folkloru"** kitabında çap olunmuşdur.

11. **"Aşıq Ələsgərin İrəvan səfəri", "Aşıq Ələsgər Kəlbəcərin Qılışdı kəndində", "Aşıx Ələsgərin Qarabağ səfəri", "Aşıq Ələsgərin Dəli Alının toyuna gəlməsi", "Aşıq Ələsgərnən Aşıx Nəsivin qavaxlaşması", "Çoban Məhəmmədin Qars səfəri", "Növrəs İmanın Tiflis səfəri"** dastanları və dastan-rəvayətləri **Aşıq Mahmud Məmmədovdan** (67 yaşlı) yazıya alınmışdır.

12. **"Aşıq Ələsgərnən Mir Məcid Ağanın görüşü"** rəvayəti Ağqala kənd sakini **Mirkəbir Seyidzadədən** (80 yaşlı) qələmə alınmışdır.

13. **Şair Kazımnan Nazdı xanım.** Ardanış kənd sakini **Aşıq Kərim Paşayevdən** (70 yaşlı) yazıya alınmışdır.

14. **"Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıq Şəmşirin görüşməsi".** Daşkənd kənd sakini Aşıq Hacı Bayramovdan (67 yaşlı) yazıya alınmışdır.

MÜNDƏRİCAT

Göyçə dastanları: türk epik sistemində dastan informasiyasının fasiləsizliyi (H.İsmayılov).....3
Miskin Abdal və Sənubər.....83
Miskin Abdalnan Şah İsmayıl.....144
Asdan Şahnan İrvahamın dastanı.....256
"Ağ Aşıq və Süsənbər" dastanı.....310
Aşıq Alının Türkiyə səfəri.....340
Hajı Hüseynin Aşıx Alıya at bağışdaması.....377
Aşıx Musaynan Mələknisə xanım.....380
Ələsgərnən Səhnəbanı.....414
Aşıq Ələsgərin Türkiyə səfəri.....432
Aşıq Ələsgər qarabağlıların yaylağında.....451
Aşıq Ələsgər Qaraqoyunlu səfəri.....465
Aşıq Ələsgərin Dəli Alının toyuna gəlməsi.....477
Aşıq Ələsgər Yanşaqda.....490
Aşıq Ələsgərlə Həcər xanım.....507
Aşıq Ələsgərnən Aşıx Nəsivin qavaxlaşması.....532
Aşıq Ələsgərnən Şəmkirli Aşıq Hüseynin görüşü.....543
Aşıq Ələsgərnən Mir Məcid Ağanın görüşü.....560
Aşıq Ələsgərnən Şair Nağı.....565
Anaxanımın küsməyi.....578
Çovan Məhəmmədin Qars səfəri.....589
Növrəs İmanın Tiflis səfəri.....604
Şair Kazımnan Nazdı xanım.....626
Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü.....648
Aşıq Ələsgərin Qarabağ səfəri.....660
Aşıq Ələsgər İrəvan səfəri.....673
Aşıq Ələsgər Kəlbəcərin Qılışlı kəndində.....691
Qeydlər və izahlar.....697

Göyçə dastanları,
Bakı, "Səda" nəşriyyatı, 2001.

Nəşriyyat direktoru:
Elşən Hətəmzadə

Kompüterdə yığdı:
Ruhəngiz Əfəndiyeva
Samirə Əlihüseynova
Xalidə Şəmmədova

Korrektor:
Elçin Ramazanov

Kompüter tərtibçisi və
texniki redaktoru:
Baxşəli Süleymanov

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 45 ç/v
Tirajı: 600
Sifariş:
Qiyməti müqavilə ilə.

Kitab "Səda" nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.

IUB
G 85

